# AZƏRBAYCANCA-İNGİLİSCƏ LÜĞƏT

## A – Z

Lüğətə təxminən 55000 söz, söz birləşməsi və cümlə daxil edilmişdir.

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab "Azərbaycanca-ingiliscə lüğət"* (*Bakı, Azərbaycan Dövlət Dillər İnstitutu, 1998*) *nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

**A, B, V, Q, D, E, İ, Y** hərfləri ilə başlanan sözlərin lüğətini f.e.d., prof. *O.İ.Türksevər* (*Musayev*), **M, R, Ş** hərfləri ilə başlanan sözlərin lüğətini prof. *A.H.Qarayev*, **P, Ü, Ç, X, H** hərfləri ilə başlanan sözlərin lüğətini prof. *M.A.Pənahi*, **Ə, J, Z, K, F** hərfləri ilə başlanan sözlərin lüğətini dos. *T.Ə.Abasquliyev*, **O, Ö, G, N** hərfləri ilə başlanan sözlərin lüğətini və coğrafi adları dos. *E.İ.Hacıyev*, **L, U, C** hərfiləri ilə başlanan sözlərin lüğətini dos. *İ.X.Rüstəmov*, **S, T** hərfləri ilə başlanan sözlərin lüğətini ingilis dili müəllimi *İ.O.Musayev* tərtib etmişlər.

Redaktor: *E.İ.Hacıyev*

**494.361'321 - dc 21**
**AZE**
**Azərbaycanca-İngiliscə lüğət.** Bakı, "Şərq-Qərb", 2005, 896 səh.

**ISBN 9952-418-20-2**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## LÜĞƏTİN TƏRTİBİ PRİNSİPLƏRİ

Hər bir lüğətin quruluşu onu səciyyələndirən başlıca xüsusiyyətlərdən biri olmaqla, həm də onun sirlərinin açarıdır. Buna görə də hər hansı bir lüğətdən səmərəli istifadə etmək üçün onun quruluşu haqqında minimum məlumata malik olmaq zəruridir. Məsələnin bu cəhətini nəzərə alaraq, bu lüğətdən istifadə edənlərə kömək məqsədi ilə onun quruluşu haqqında aşağıdakıları qeyd etməyi vacib bilirik:

**1.** Morfoloji quruluşundan (sadə, düzəltmə, mürəkkəb) asılı olmadan dilimizdə işlənən hər bir söz lüğətə baş söz kimi daxil edilmiş və hər bir sözün qarşısında hansı nitq hissəsi olduğu göstərilmişdir. Bu o deməkdir ki, bir kökdən ibarət olan **baş, daş, gün** və s. sözlər kimi, müxtəlif sözdüzəldici şəkilçilər vasitəsi ilə həmin sözlərdən düzəldilmiş **başçı, başçılıq, başlıq, başlamaq; daşlı, daşlıq, daşsız; gündə, gündəlik** və s. düzəltmə sözlər, habelə bu sözlərin iştirakı ilə düzəldilmiş **başağrısı, daşarmudu, günəbaxan** və s. kimi mürəkkəb sözlər də həmin lüğətə baş söz kimi daxil edilmişdir.

**2.** Lüğəttə baş söz kimi verilmiş vahidlərlə əlaqədar olaraq dilimizdə işlənən söz birləşmələri və frazeoloji birləşmələr həmin sözlə birlikdə izah edilir. Məsələn, **baş** sözü ilə əlaqədar olaraq **dağın başı, mismarın başı** və s. sərbəst söz birləşmələri, habelə **baş vermək, baş aparmaq, baş çıxarmaq, baş açmaq, baş aldatmaq** və s. frazeoloji birləşmələr; **başçı** sözü ilə əlaqədar **başçı olmaq; başçılıq** sözü ilə əlaqədar olaraq isə **başçılıq etmək** kimi söz birləşmələri verilir və onların ingilis dilində qarşılığı müəyyənləşdirilir. Bu halda söz birləşmələrində baş söz buraxılır, onun əvəzində tilda işarəsi (~) qoyulur. Məsələn:

**baş açmaq = ~ açmaq**
**başçılıq etmək = ~ etmək**

Dilimizin morfoloji quruluşundan asılı olaraq çox vaxt söz birləşmələrində işlənən bu və ya digər baş söz öz morfoloji şəklini, formasını dəyişir. Belə hallarda baş sözün əsas hissəsi əvəzinə də tilda işarəsi işlədilir, ondan sonra baş sözün morfoloji formasını bildirən şəkilçi yazılır. Məsələn:

**başdan çıxarmaq = ~dan çıxarmaq**
**başa gəlmək = ~a gəlmək** və s.

**3.** Azərbaycan dilində işlənən omonim sözlərdən hər biri lüğətə baş söz olaraq daxil edilmiş və onlardan sonra rum rəqəmi qoyulmuşdur. Məsələn:

**çay** *i.* **I** river
**çay** *i.* **II** tea

Belə omonim sözlərlə əlaqədar olaraq dilimizdə işlənən söz birləşmələri onlarla birlikdə verilir və izah edilir. Birinci **çay** sözü ilə əlaqədar olaraq **dərin çay, uzun çay** və s. söz birləşmələri, ikinci **çay** sözü ilə əlaqədar olaraq isə **tünd çay, açıq çay** kimi söz birləşmələri verilir və onların ingilis dilindəki qarşılıqları müəyyənləşdirilir. Məsələn:

**çay** *i.* **I** river; **uzun** ~ long river; **dərin** ~ deep river

**çay** *i.* **II** tea; **tünd** ~ strong tea; **açıq** ~ weak tea

**4.** Müasir Azərbaycan dilində sözlərin bir qismi eyni morfoloji formada müxtəlif nitq hissəsi funksiyasında işlənə bilir (konversiya hadisəsi). Bu halda həmin söz lüğətə nitq hissəsinin distribusiyası baxımından daxil edilir; rum rəqəminin yanında nöqtə qoyulur və qarşısında hansı nitq hissəsi kimi işləndiyi göstərilir. Məsələn, dilimizdə bu tərzdə işlənən sözlərdən biri **gözəl** sözüdür. Bu söz morfoloji formasını saxlayaraq həm isim **(yeddi gözəl),** həm sifət **(gözəl bina),** həm də zərf **(gözəl oxumaq)** kimi işlənir. Bununla əlaqədar olaraq həmin söz, yəni **gözəl** sözü, lüğətə ayrı-ayrılıqda üç baş söz kimi daxil edilmişdir; **gözəl I.** *i.*, **gözəl II.** *s.*, **gözəl III.** *z.* Bu nitq hissələri ilə işlənən söz birləşmələri isə onların hər birinin öz yuvasına daxil edilmişdir.

**gözəl I.** *i.* beauty; **yeddi** ~ seven beauties

**gözəl II.** *s.* beautiful; ~ **qadın** a beautiful woman

**gözəl III.** *z.* beautifully; ~ **oxumaq** to sing* beautifully

**5.** Azərbaycan dilində olan bəzi sözlərin ingilis dilində bir neçə qarşılığı olur, lakin onlar işlənmə yerlərinə görə bir-birindən fərqlənir. Belə hallarda ingilis dili sözlərinə xas olan fərqlər mümkün qədər onların qarşısında və ya sonunda mötərizədə göstərilir. Məsələn, dilimizdə işlənən **balalamaq** felinin müasir ingilis dilində bir neçə qarşılığı var; **to kitten, to breed, to farrow, to hatch.** Bunlar dilimizə xas olan bir sözün (*balalamaq*) qarşılığı olmasına baxmayaraq, işlənmə məqamlarına görə bir-birindən fərqlənir. Buna görə lüğətdə onların hər biri haqqında mötərizədə əlavə məlumat verilir. Məsələn, **balalamaq** (*ümumiyyətlə*) **to breed;** (*pişik*) **to kitten;** (*donuz*) **to farrow;** (*quş*) **to hatch.**

**6.** Konkret dildən asılı olmayaraq təsirli felin başlıca xüsusiyyətlərindən biri də özündən sonra vasitəsiz tamamlıq tələb etməsidir. İngilis dilində feldən sonra vasitəsiz tamamlığın işlənməli olması belə işarə edilir: (*d.*). Məsələn; **to write** (*d.*), **to send** (*d.*).

**7.** İngilis dilində elə fellər var ki, onlardan sonra, bir qayda olaraq, müəyyən sözönü işlədilir. Bu qəbildən olan fellərdən sonra işlədilməli olan sözönləri onlardan sonra mötərizədə verilir. Məsələn:

**to look** (*at*), **to care** (*of*), **to be famous** (*for*), **to deal** (*with*) və s.

**8.** Müasir ingilis dilində bir qisim fellərdən sonra, bir qayda olaraq, cerund adlanan şəxssiz fel forması işlənir. Bu hal lüğətdə belə işarə edilir: (+*ger.*). Məsələn, **to stop** (+*ger.*), **to continue** (+*ger.*), *etc.*

Bəzən cerunddan əvvəl sözönü də işlənir. Belə halda mötərizədə həmin sözönü də verilir. Məsələn: **to prevent** (*from*+*ger.*).

**9.** Müasir dilimizdə olduğu kimi, ingilis dilində də iki fel yan-yana işlənə bilir, məsələn, **to want to go, to wish to see; can speak, may take** və s. Bu halda iki vəziyyət mümkündür; şəxsli feldən sonra gələn məsdər ya **to** hissəciyi ilə, ya da onsuz işlənir. Belə halda şəxsli feldən sonra gələn məsdər **to** hissəciyi ilə işlənirsə (*to*+*inf.*), onsuz işlənirsə (+*inf.*) şəkildə işarə edilir. Məsələn:

**to want** (*to*+*inf.*), **to wish** (*to*+*inf.*), **ought** (*to*+*inf.*), **can** (+*inf.*), **may** (+*inf.*) və s.

**10.** Lüğətə daxil edilmiş söz və ifadələrin fakultativ hissəsi, bir qayda olaraq, mötərizədə verilir. Məsələn, (*tele*)**phone, all** (*the*) **day,** (*news*)**paper** və s. Bu o deməkdir ki, mötərizədə verilmiş hissəni buraxmaq olar: **telephone** əvəzinə **phone; newspaper** əvəzinə **paper; all the day** əvəzinə **all day** işlətmək mümkündür.

**11.** Kontekstdən asılı olaraq dəyişməli olan sözlər lüğətdə kursivlə verilmişdir. Məsələn, **to tell** *smb.* **of** *one's* **decision, to stop** *a* **wound** və s. Bu o deməkdir ki, **to tell** *smb.* **of** *one's* **decision** ifadəsi birinci şəxs tərəfindən işlədilərsə, o, öz qərarı haqqında üçüncü şəxsə danışırsa, o zaman həmin ifadə bu şəkildə işlənməlidir: **I always tell him of my decision,** yəni, *smb.* sözü əvəzinə III şəxs əvəzliyinin obyekt hal formasını **(him),** *one's* sözü yerinə isə I şəxs yiyəlik əvəzliyini **(my)** işlətmək lazımdır. Yaxud, əgər söhbət ümumiyyətlə yaranın qanını kəsməkdən gedirsə, **to stop** *a* **wound,** müəyyən bir yaranın qanını kəsməkdən gedirsə, **to stop** *the* **wound** işlədilməlidir.

**12.** Azərbaycan dilində elə sözlərə təsadüf etmək olur ki, onlar əsasən, söz birləşməsi tərkibində işlənir. Belə sözlər lüğətə baş söz kimi daxil edilir, onlardan sonra iki nöqtə qoyulur və həmin sözlər söz birləşməsi tərkibində verilir. Məsələn:

**aylı** *s.*: ~ **gecə** moonlight night

**anac** *s.*: ~ **qoyun** ewe [ju:]; ~ **donuz** sow [sau]

**13.** Dilimizdə olan sinonim sözlərdən daha işlək olanı lüğətdə izah edilir, qismən az işlək olanın mənası bilavasitə verilmir, oxucuya məsləhət görülür ki, izah edilmiş sinonim sözə baxsın. Məsələn, **adətdənkənar** və **adətdənxaric** sözləri dilimizdə sinonim sözlərdir. Bunlardan birincisi (*adətdənkənar*) daha işləkdir. Buna görə də lüğətdə həmin söz izah edilir, ikincisi (*adətdənxaric*) bilavasitə izah edilmir, onun qarşısında *bax* **adətdənkənar** yazılır.

Dilimizdə elə sözlər də var ki, onlar ayrılıqda, yəni ayrıca leksem kimi götürüldükdə, sinonim sözlər hesab edilə bilər, lakin söz birləşmələrində işlənmə baxımından bir-birindən fərqlənir. Məsələn, dilimizdə olan **dəlil** və **sübut** belə sözlərdəndir. Təcrid edilmiş halda onlar sinonim hesab edilir, lakin söz birləşməsi baxımından onlar arasında fərq var: dilimizdə **sübut etmək** demək mümkün olduğu halda, **dəlil etmək** demək əsla mümkün deyil. Deməli, bu sözlər söz birləşmələrində işlənmə baxımından fərqlənir. Bu qəbildən olan sözlərlə işlənə bilən söz birləşmələrini bir yuvada vermək mümkün olmadığına görə, onlardan hər biri lüğətə ayrıca baş söz kimi daxil edilmiş və izah olunmuşdur.

**14.** Lüğətdə baş sözlər qara hərflərlə çap edilmişdir. Baş sözün ingilis dilindəki qarşılığı ilə onun söz birləşməsində işlənməsi halı (yaxud halları) və eləcə də sonrakı söz birləşmələri arasında nöqtəli vergül (;) işarəsi qoyulur. Məsələn:

**akademiya** *i.* academy; **Elmlər ~sı** Academy of Sciences; **Kənd Təsərrüfatı ~sı** Academy of Agricultural Sciences

**15.** Çoxmənalı sözlərin yaxın mənalarını bildirən sözlər arasında vergül, qismən uzaq mənasını (yaxud mənalarını) bildirən sözlər arasında isə nöqtəli vergül işarəsi qoyulur. Məsələn:

**açıqürəkli** *s.* open-hearted, kind-hearted; candid, frank

**16.** Müasir ingilis dilində orfoqrafiya tarixi-ənənəvi prinsipə əsaslanır. Buna görə də, əksərən sözlərin hərf tərkibi ilə səs tərkibi arasında ciddi uyğunsuzluq olur. Digər tərəfdən də, ingilis dilində olan sait söz tərkibindəki vəziyyətindən, vurğudan və s. asılı olaraq müxtəlif cür oxunur. İngilis dilinə xas olan bu və bu kimi xüsusiyyətlər sözlərin oxunuşunu xeyli çətinləşdirir. Buna görə də ingilis dili lüğətlərində (ingilis dilindən başqa dillərə istiqamətində tərtib edilmiş lüğətlərdə), bir qayda olaraq, hər bir baş sözün qarşısında onun transkripsiyası, yəni oxunuşu verilir. Başqa dillərdən ingilis dili istiqamətində tərtib edilmiş lüğətlərdə isə, hər bir sözün qarşısında onun transkripsiyası verilmir. Lakin ingilis dili sözlərinin oxunuşundakı çətinliyi nəzərə alaraq biz lüğətdə onlardan bəzisinin çətin oxunan hissəsinin transkripsiyasını verməyi məsləhət bildik. Sözlərin transkripsiyası orta mötərizədə [ ] verilir. Sözün transkripsiyası verilməyən hissəsi əvəzinə defis işarəsi (-) qoyulur: sözün əvvəli buraxılırsa, defis işarəsi əvvəldə, sonu buraxılırsa, sonda, sözün hissəsi hər iki tərəfdən buraxılırsa, defis işarəsi hər iki tərəfdən qoyulur. Məsələn:

**throw** [-ou], **bearable** [beə-], **archaic** [-k-]

Söz birləşməsi tərkibində transkripsiyası verilməmiş sözün əvəzinə üç nöqtə qoyulur. Məsələn:

**ballet fan** [ˈbælei...]

**17.** Azərbaycan dilində **etmək** və **eləmək** felləri, demək olar ki, tam sinonim sözlər kimi işlənir. Məsələn:

**yaxşılıq etmək – yaxşılıq eləmək, müəllimlik eləmək** və s.

Lüğətdə bu felin ancaq **etmək** variantı işlədilmişdir.

***O.İ.Türksevər (Musayev)***
*filologiya elmləri doktoru, professor*

## LÜĞƏTDƏ İSTİFADƏ EDİLMİŞ ŞƏRTİ İŞARƏLƏR

**1.** ~ (*tilda*) işarəsi. Bu işarə buraxılmış söz və ya sözün buraxılmış hissəsi əvəzinə işlədilir. Məsələn:

**baş çəkmək = ~ çəkmək**
**başdan etmək = ~ dan etmək**

**2.** * (ulduz) işarəsi. Bu işarə morfoloji dəyişmə baxımından qaydaya tabe olmayan sözlərin üzərində qoyulmuşdur. Məsələn:

**man*, tooth*, take*, spend*, child*, bad*** və s.

**3.** ◊ (*romb*) işarəsi. Bu işarə frazeoloji birləşmələrin qarşısında qoyulur. Məsələn:

◊ **ağı qaradan seçmək** *to separate the sheep from the goat*

**4.** ≅ (*təxminilik*) işarəsi. Bu işarə mənası təxmini verilən atalar sözləri, zərbi-məsəllər və ya digər birləşmələr arasında qoyulur. Məsələn:

**Yaxşı dost yaman gündə tanınar** ≅ *A friend in need is friend indeed*

**5.** / (*çəpəki xətt*) işarəsi. Bu işarə dörd halda işlədilir:

1) Hər iki dildə mənaca bir-birinə yaxın olan, bir-birini əvəz edə biləcək sözlərin arasında. Məsələn:
azərbaycanca: **ötən / keçən (ötən il, keçən il)**
ingiliscə: **to ask / to inquire** (*I asked him where he lived, I inquired (of him) where he lived*)

2) Hər iki dildə eyni bir fellə işlənə bilən təyinlərin arasında. Məsələn:
**roman / şeir / hekayə və s. oxumaq** *to read a novel / a poem / a story, etc.*

3) Hər iki dildə eyni bir ismə aid işlənə bilən təyinlərin arasında. Məsələn:
azərbaycanca: **mütərəqqi / elmi / dini / mürtəce / fəlsəfi baxışlar**
ingiliscə: **progressive / scientific / religious / reactionary / philosophical views**

4) İngilis dilində üçüncü şəxsdə şəxs və yiyəlik əvəzlikləri cinsə görə fərqlənir: kişi cinsində üçüncü şəxs tək əvəzliyi ***he*,** qadın cinsində ***she*,** kişi cinsində

üçüncü şəxs yiyəlik əvəzliyi ***his***, qadın cinsində ***her.*** Məlum olduğu kimi, dilimizdə belə hal yoxdur. Buna görə də, dilimizdəki üçüncü şəxs tək əvəzliyinin yiyəlik hal forması **(onun)** ingilis dilinə cinsdən asılı olmayaraq həm ***his***, həm də ***her*** yiyəlik əvəzliyi ilə tərcümə edilir. Bununla əlaqədar olaraq, lüğətdə ***he***, ***she*** şəxs əvəzlikləri və ***his***, ***her*** yiyəlik əvəzlikləri qoşa işlədilmiş və onların arasında çəpəki xətt ( / ) qoyulmuşdur. Məsələn:
**O kitabı çantasına qoydu** cümləsi ingilis dilinə belə tərcümə edilməlidir:

*He / She put his / her book into his / her bag*

## LÜĞƏTDƏ İSTİFADƏ OLUNMUŞ İXTİSARLAR

### *Azərbaycanca*

*amer.* amerikan variantı – American variant
*anat.* anatomiya termini – anatomical term
*antr.* antropologiya termini – anthropological term
*ara. s.* ara söz – parenthesis
*arx.* arxaik söz – archaism
*arxeol.* arxeologiya termini – archaeological term
*astr.* astronomiya termini – astronomical term
*aşp.* aşpazlıq termini – cooking term
*at. söz.* atalar sözü – proverb
*av.* aviasiya termini – aeronautics term
*bağ.* bağlayıcı – conjunction
*bakt.* bakteriologiya termini – bacteriological term
*bayt.* baytarlıq termini – veterinary term
*bf.* bağlayıcı fel – link verb
*biol.* biologiya termini – biological term
*bot.* botanika termini – botanical term
*coğ.* coğrafiya termini – geographical term
*d.d.* danışıq dili – spoken language
*dəft.* dəftərxana termini – office term
*dən.* dənizçilik termini – nautical term
*dilç.* dilçilik termini – linguistic term
*din.* dini termin – term of religion
*dip.* diplomatiya termini – diplomatic term
*d.y.* dəmiryol termini – railway term
*el.* elektrotexnika termini – electrical engineering term
*elm.* elmi termin – scientific term
*emf. var.* emfatik variant – emphatic variant
*etnoqr.* etnoqrafiya termini – ethnographic term
*evf.* evfimizm – euphemism
*əcz.* əczaçılıq termini – pharmacological term
*əd.* ədat – particle
*ədəb.* ədəbiyyatşünaslıq termini – term of literature
*əs.* əsatir – mythology
*əv.* əvəzlik – pronoun
*f.* fel – verb

*fəls.* fəlsəfə termini – philosophical term
*fi.* feli isim – verbal noun
*fiz.* fizika termini – term of physics
*fiziol.* fiziologiya termini – physiological term
*folk.* folklor termini – folklore
*fot.* fotoqrafiya termini – term of photography
*fr.* fransız mənşəli söz – French
*fs.* feli sifət – participle
*geod.* geodeziya termini – term of geodesy
*geol.* geologiya termini – geological term
*gir s.* giriş sözü – parenthetical word
*hənd.* həndəsə – geometrical term
*hərb.* hərbi termin – military term
*hüq.* hüquqşünaslıq termini – term of law
*xüs.* xüsusən – especially
*i.* isim – noun
*id.* idman termini – sports term
*idiom.* idiomatik ifadə – idiomatic expression
*iqt.* iqtisadiyyat termini – term of economy
*in.* incəsənət termini – art term
*inş.* inşaat termini – building term
*kim.* kimya termini – term of chemistry
*kob.* kobud söz – rude word
*k.t.* kənd təsərrüfatı termini – agricultural term
*qoş.* qoşma – postposition
*qram.* qrammatika termini – grammatical term
*mal.* maliyyə termini – term of finance
*mem.* memarlıq termini – term of architecture
*məc.* məcazi məna – figurative meaning
*mətb.* mətbuat termini – term of press
*mətbəə* mətbəə termini – typographical term
*miner.* mineralogiya termini – term of mineralogy
*mod. s.* modal söz – modal word
*mus.* musiqi termini – term of music
*müh.* mühasibat termini – book-keeping term
*müst.* müstəqim məna – literal meaning
*nid.* nida – interjection
*ön qoş.* ön qoşma – prefix
*poliqr.* poliqrafiya termini – printing term
*pred.* predikativ – predicative
*psix.* psixologiya termini – term of psychology
*rad.* radiotexnika termini – term of radio

*r.d.* rəsmi dil – official language
*riyaz.* riyaziyyat termini – term of mathematics
*s.* sifət – adjective
*s. bil. isimlərlə* sayıla bilən isimlərlə – with countable nouns
*s. bilm. isimlərlə* sayıla bilməyən isimlərlə – with uncountable nouns
*sənətş.* sənətşünaslıq termini – art term
*siya.* siyasi termin – political term
*siya. iq.* siyasi-iqtisad termini – term of political economy
*stat.* statistika termini – term of statistics
*sy.* say – numeral
*şair.* şairanə söz – poetic word
*şahm.* şahmat termini – chess term
*tab. s.* tabu söz (*ictimai yerdə işlənməsi yasaq edilən söz*) – taboo
*tar.* tarixi termin – term of history
*teatr.* teatrşünaslıq termini – theatrical term
*tex.* texnika termini – technical term
*tib.* tibb termini – medical term
*tic.* ticarət termini – term of commerce
*tik.* tikinti termini – term of building
*toxuc.* toxuculuq termini – textile term
*top. i.* toplu isim – collective noun
*uş. d.* uşaq dili – baby language
*vulq.* vulqar söz – vulgar word
*yun.* yunanca – Greek
*z.* zərf – adverb
*zaraf.* zarafatyana – jocular
*zərb. məs.* zərbi -məsəl – saying
*zool.* zoologiya termini – zoological ter

## ***İngiliscə***

*adj.* adjective – sifət
*adv.* adverb – zərf
(*attr.*) attribute – təyin
*compar.* comparative degree – müqayisə dərəcəsi
*conj.* conjunction – bağlayıcı
(*d.*) direct object – vasitəsiz tamamlıq
(*f.*) feminine gender – qadın cinsi
*ger.* gerund – cerund
(*i.*) indirect object – vasitəli tamamlıq
*inf.* infinitive – məsdər
(*m.*) masculine gender – kişi cinsi
(*n.*) neuter (gender) – orta cins
*pl.* plural – cəm forması
*pred.* predicative – predikativ
*prep.* preposition – sözönü
*pr.p.* present participle – indiki zaman feli sifəti
*pron* pronoun – əvəzlik
*p.p.* past participle – keçmiş zaman feli sifəti
*sing.* singular – tək forma
*smb.* somebody – bir kəs, kimsə
*smth.* something – bir şey, nəsə
*s.o.* someone – bir kəs, kimsə

## LÜĞƏTİN TƏRTİBİNDƏ İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR


**1.** Azərbaycan dilinin orfoqrafiya lüğəti (artırılmış və təkmilləşdirilmiş üçüncü nəşri). “Elm” nəşriyyatı, Bakı, 1975.

**2.** Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, Azərbaycan Milli Elmlər Akademiyası nəşriyyatı, Bakı, 1964-1987.

**3.** Azərbaycanca-rusca lüğət, prof. M.T.Tağıyevin redaktəsi ilə I, II, III cildlər. “Elm” nəşriyyatı, 1-ci cild, 1986; 2-ci cild, 1989; 3-cü cild, “Ergün” nəşriyyatı, Bakı, 1997.

**4.** Əzizbəyov X.Ə. Azərbaycanca-rusca lüğət. Azərbaycan Dövlət nəşriyyatı, Bakı, 1965.

**5.** Tofiq Abasquliyev. İngilis atalar sözləri və onların azərbaycanca, rusca qarşılıqları. Bakı, 1981.

**6.** Azərbaycanca-rusca lüğət. Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, redaktoru: Ə.Ə.Orucov, Bakı, 1952.

**7.** Rusca-Azərbaycanca lüğət. Azərb. Milli EA müxbir üzvü Ə.Ə.Orucovun redaktəsi ilə; üç cilddə: 1-ci cild (А-К), “Elm” nəşriyyatı, Bakı, 1971; 2-ci cild (Л-П), “Elm” nəşriyyatı, Bakı, 1975; 3-cü cild (Р-Я), “Elm” nəşriyyatı, Bakı, 1978.

**8.** Англо-русский словарь, составитель В.Л.Мюллер, Гос. из-во иностранных и национальных словарей. Москва, 1963.

**9.** Англо-русский политехнический словарь, издание 3-е. Москва, из-во “Русский словарь”, 1976.

**10.** Англо-русский сельскохозяйственный словарь, составители Б.Н.Усовский и Н.В.Геминова. Гос. из-во технико-теоретической литературы, Москва, 1956.

**11.** Большой англо-русский словарь, под общим руководством док. фил. наук, проф. И.И.Гальперина, изд. “Советская Энциклопедия”, том 1, том 2, Москва, 1972.

**12.** Англо-русский фразеологический словарь, составитель А.В.Кунин, Гос. из-во иностранных и национальных словарей, Москва, 1955.

**13.** Англо-русский словарь глагольных словосочетаний, под общим руководством док. фил. наук, проф. Э.М.Медниковой, изд. “Русский язык”, Москва, 1986.

**14.** Русско-английский словарь, составители А.М.Таубе, А.В.Литвинова, А.Д.Миллер, Р.К.Даглиш, под редакцией Р.К.Даглиша, магистра гуманитарных наук Кембриджского университета. Из-во “Советская Энциклопедия”, Москва, 1965.

**15.** Русско-английский словарь, под общим руководством проф. А.И.Смирницкого. Изд. 14-ое стереотипное, под редакцией проф. О.С.Ахмановой, изд. “Русский язык”, Москва, 1987.

**16.** О.С.Ахманова. Словарь лингвистических терминов, изд. “Советская Энциклопедия”, Москва, 1966.

**17.** Longman Dictionary of Contemporary English, printed in Great Britain at the Pitman Press, 1978.

**18.** The new American Dictionary of Good English, printed in the United States of America, 1987.

**19.** A Turkish-English Dictionary, by H.C.Hony with the advice of Fahir Iz, second edition, Oxford at the Clarendon Press, 1967.

**20.** A.S.Hornby with the assistance of Christina Ruse, Oxford Student’s Dictionary of Current English, Special edition for the USSR, Moscow, Oxford, Prosvesheniye Publishers, Oxford University Press, 1983.

**21.** The New Method English Dictionary by Michael Philip West, M.A., D.Phil&James Gareth Endicott, M.A., The third edition, Longmans, Green&Co., London, New-York, Toronto.

**22.** Oxford Russian Dictionary, Oxford University Press, Oxford, New-York, 1995.

**23.** Collins Cobuild Dictionary of phrasal verbs, The University of Birmingham, Great Britain, 1989.

**24.** Webster’s Dictionary of the English Language, New Revised Edition for School, Home and office, 1991 by Thomas Nelson.

## AZƏRBAYCAN ƏLİFBASI

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **A**<br>*a* | **B**<br>*be* | **C**<br>*ce* | **Ç**<br>*çe* | **D**<br>*de* | **E**<br>*e* | **Ə**<br>*ə* | **F**<br>*fe* |
| **G**<br>*ge* | **Ğ**<br>*ğe* | **H**<br>*he* | **X**<br>*xe* | **I**<br>ı | **İ**<br>*i* | **J**<br>*je* | **K**<br>*ke, ka* |
| **Q**<br>*qe* | **L**<br>*el* | **M**<br>*em* | **N**<br>*en* | **O**<br>*o* | **Ö**<br>*ö* | **P**<br>*pe* | **R**<br>*er* |
| **S**<br>*se* | **Ş**<br>*şe* | **T**<br>*te* | **U**<br>*u* | **Ü**<br>*ü* | **V**<br>*ve* | **Y**<br>*ye* | **Z**<br>*ze* |

# Aa

**A, a** the 1st letter of the Azerbaijani alphabet
**a** *nid.* **(Cümlənin əvvəlində işlənərək müraciət bildirir)** Hey! Hi!; **A yoldaş!** Hey! Comrade!
**aa I.** *nid.* **(Cümlənin əvvəlində işlənərək heyrət, təəccüb bildirir)** now, now then; now, now; **Aa, gəlin!** Come now! **Aa, ağlamayın!** Now, now, stop crying! **Aa, nə olub?** Now, then, what's all this? **II.** *əd.* **(Cümlənin sonunda işlənərək təkid, hədə bildirir)** do; **Gəlin aa!** Do come!
**abad** *s.* prosperous, flourishing; inhabited (by), populated (with), well organized / equipped, having all / proper amenities; **abad yer** a flourishing place; **abad şəhər** a town / a city with good amenities **abad etmək** *bax* **abadlaşdırmaq**; **abad edilmək** *bax* **abadlaşdırılmaq**; **abad olmaq** *bax* **abadlaşmaq**; **Abad olsun!** Let it flourish! **Eviniz abad olsun!** I wish you every happiness!
**abadan** *s. bax* **abad**
**abadanlaşdırmaq** *f. bax* **abadlaşdırmaq**
**abadanlaşmaq** *f. bax* **abadlaşmaq**
**abadanlıq** *i.* a flourishing / populated / well-equipped place
**abadlaşdırılmaq** *f.* to be* well built / organized, to be* made comfortable for living; to be* equipped with all amenities
**abadlaşdırmaq** *f.* to renovate (*d.*); to build* (*d.*), to construct (*d.*), to populate (*d.*), to make* a place comfortable for living, to equip (*d.*) with modern amenities
**abadlaşmaq** *f.* to become* flourishing / populated / inhabited
**abadlıq I.** *i.* renovation, improvement, provision of amenities **II.** *s.* construction, building; **abadlıq işləri** construction work
**abajur** *i.* lampshade, shade
**abajurlu** *s.* (*i.s.*) with a lampshade; (*i.s.*) having a lampshade
**abalı** *s.* (*i.s.*) with an aba on, (*i.s.*) wearing an aba
**abasbəyi** *i.* abasbayi (a kind of juicy pear)
**abasız** *s.* abaless (*i.s.*) without an aba
**abbasi** *i.* twenty-copeck piece (money unit generally used in spoken language)
**abbasılıq** *i.* **1.** Unit of money twenty copecks; **2.** *smth.* Worth twenty copecks; **bir abbasılıq qiyməti yoxdur.** It is not worth copecks / a pence
**abbat** *i.* **1. (katolik monastırının başçısı)** abbot; **2. (Fransada katolik keşiş)** (Roman Catholic) priest
**abbatlıq** *i.* abbey
**abdal** *i.* vagrant, vagabond, silly, fool, wanderer; **abdal olmaq** to be* a vagrant / fool / wanderer
**abdalcasına** *z.* stupidly, foolishly; **~ danışmaq** to speak* stupidly / foolishly
**abdallaşmaq** *f.* to grow * stupid / foolish, to get* / to become* stupid / foolish
**abdallıq** *i.* stupidity, foolishness, folly
**abgərdən** *i.* scoop, ladle, dipper
**ab-hava** *i.* climate; **yumşaq ab-hava** mild climate; **sağlam ab-hava** healthy climate
**ab-havalı** *s.* (*i.s.*) having a favourable / nice climate; **ab-havalı yerlər** places having a nice / favourable climate
**abxaz I.** *i.* Abkhazian **II.** *s.* Abkhazian; **abxaz dili** Abkhazian, the Abkhazian language
**abxazca** *z.* Abkhazian; in Abkhazian; **abxazca danışmaq** to speak Abkhazian; **~ yazmaq** to write in Abkhazian
**abı** *s.* blue; **abı don** blue dress
**abılıq** *i.* blueness
**abır** *i.* **1.** decency, decorum, proprieties; **2.** dignity; **3.** shame; **4.** honour; **abır vermək** / **abırını almaq** to bring* *smb.* to a sense of shame, to reproch *smb.*; **abır qoymaq** to disgrace (*d.*), to dishonour (*d.*).; **abırdan düşmək** to lose honour / dignity; **abırdan salmaq** 1) to bother (*d.*), to pester (*d.*); 2) to disgrace (*d.*), to dishonour (*d.*); **O hamını abırdan salıb** Everyone is sick of him / her; **abıra qısılmaq** to hold* one's tongue, not to lose one's honour / dignity; **abırı getmək** to be* dishonoured, to disgrace oneself; **abrını almaq** to put* to shame (*d.*), **abrını gözləmək** to observe the proprieties

**abır-həya** *i. bax* **abır**; **abır-həya etmək** *bax* **utanmaq**; **abır-həyanı gözləmək** to offend the proprieties

**abırlamaq** *f.* to reproach (*d.* for, with), to put* to shame (*d.*)

**abırlatmaq** *f.* to ask / to cause *smb.* to reproach (*d.*); to force *smb.* to to put to shame (*d.*)

**abırlı** *s.* decent, decorous, moral; **abırlı olmaq** to be* decent / moral / decorous; **abırlı paltar** decent clothing

**abırlılıq** *i.* morality, decorum

**abırsız I.** *s.* shameless, indecent, barefaced, impudent; bold; **abırsız qız** a bold girl; **abırsız qadın** shameless woman* **II.** *z.* shamelessly, barefacedly, impudently, indecently, boldly

**abırsızcasına** *z. bax* **abırsız II**

**abırsız-abırsız** *z. bax* **abırsız I**

**abırsızlıq** *i.* **1.** boldness, impudence, shamelessness, barefacedness, cynicism; **2.** shallowness, small-mindedness; **3.** dishonour, disgrace

**abıtəhər** *s.* pale / light blue, bluish

**abıyaçalan** *s.* bluish

**abı-yaşıl** *s.* bluish green

**abid I.** *i.* worshipper, devotee; pilgrim; **abid olmaq** to be* a worshipper / a devotee; **abidlər** *top. i.* the devout **II.** *s.* pious, devout **abid adam** a devout man*

**abidcəsinə** *z.* piously, like a worshipper / devotee

**abidə** *i.* **1.** monument; memorial; **(qəbiristanlıqda)** tombstone, tomb; **2.** **(qədim mədəniyyət)** monument; **ədəbi abidə** literary monument; **yazılı abidə** written monument

**abidləşmək** *f.* to become* a worshipper / devotee

**abidlik** *i.* devoutness, piousness; **abidə etmək** to be* a worshipper / devotee

**abqora** *i.* abgora (unripe grape juice used as relish)

**abonement** *i.* **1.** subscription (to, for); **2. (teatra**, **futbola və s. mövsüm bileti)** season ticket

**abonent** *i.* subscriber; **(telefona)** telephone subscriber

**aborigen I.** *i.* aboriginal **II.** *s.* aboriginal; native

**abort** *i.* abortion; miscarriage; **abort etmək** to have* an abortion

**abreviatura** *i. dilç.* abbreviation

**absolyut** *i. fəls.* Absolute

**absolyutizm** *i. fəls.* Absolutism

**absolyutluq** *i. bax* **absolyutizm**

**abstraksiya** *i. fəls.* Abstraction

**abstrakt** *s.* abstract; **abstrakt isimlər** abstract nouns

**abstraktlaşdırılmaq** *f.* to be* abstracted

**abstraktlaşdırmaq** *f.* to abstract (d)

**abstraktlaşmaq** *f.* to get* / to become* abstract

**abunə** *i.* subscription (to, for); **abunə olmaq** to subscribe (to, for), to be* a subscriber (to, for)

**abunəçi** *i.* subscriber; **abunəçi olmaq** to be* a subscriber (to, for)

**abzas** *i.* **1.** indention, indentation; **yeni abzas abzasdan başlamaq** to indent a line, to begin* a new line / paragraph; **2. (mətnin bir hissəsi)** paragraph

**ac I.** *i.* hungry man*; **aclar** the hungry, the poor **II.** *s.* hungry; starving; **ac qarın,** hungry stomach; **ac uşaqlar uşaqlar** hungry children **III.** *z.* hungrily; **ac olmaq** to be* hungry; **ac gəzmək** / **dolaşmaq** to go* about hungry; **acından ölmək** 1) to starve to death, to die of starvation; 2) *d.d.* to be* very hungry; **canavar kimi ac olmaq** ≅ to be* as hungry as a hunter / as a wolf

**ac-acına** *z.* **1.** hungrily; half starving; **ac-acına yaşamaq** to starve, to live in want, to live from hand to mouth; **2.** on an empty stomach

**acar I.** *i.* Adzhar [ˊa:dʒa:], Adzharian [ˊa:dʒa:rı:ən] **II.** *s.* Adzharian [a:dʒa:rı:ən]; **acar dili** Adzharian, the Adzharian language

**acarca** *z.* **acarca danışmaq** to speak* Adzhar

**acdırmaq** *f.* to whet the appetite [wet...], to cause / to provoke hunger; **Dəniz havası adamı acdırır.** Sea air whets one's appetite

**acgödən I.** *i.* glutton, gormandizer **II.** *s.* gluttonous, **(həm də** *məc.***)** grasping

**acgödənlik** *i.* gluttony, gormandize

**acgöz I.** *i.* glutton; a greedy man **II.** *s.* gluttonous; *məc.* grasping, insatiable
**acgözcəsinə** *z. bax* **acgözlüklə**
**acgözlü** *s. bax* **acgöz II**
**acgözlük** *i.* gluttony; greediness, avidity
**acgözlüklə** *z.* gluttonously, hungrily, greedily, avidly; **acgözlüklə yemək** to devour (*d.*), to eat* greedily (*d.*), to gobble (*d.*); **acgözlüklə içmək** to gulp (*d.*); **acgözlüklə qulaq asmaq** to be* all ears; **acgözlüklə baxmaq** to devour with one's eyes
**acgözlülük** *i. bax* **acgözlük**
**acı I.** *i.* bitter taste; bitter stuff; *məc.* bitterness; **gözünün acısını almaq (bir azca yatmaq)** *d.d.* to take* a nap, to sleep* a bit **II.** *s.* **(həm** *müst.*, **həm də** *məc.***)** bitter; **acı dad** bitter taste; **acı külək** / **soyuq** bitter wind / cold; **acı xatirələr** bitter memories; **acı tale** bitter fate; **acı göz yaşları** bitter tears; **acı həqiqət** the bitter truth; **acı dil** wicked / spiteful tongue **III.** *z.* bitterly; **acı danışmaq** to speak* bitterly
**acı-acı** *z.* bitterly; **acı ağlamaq** to cry bitterly, to shed* bitter tears
**acıbadam** *i.* bitter almond
**acıca** *s. bax* **acıtəhər**
**acıdil I.** *i.* backbiter, slanderer **II.** *s.* bitter / wicked tongued, slanderous; **acı** adam slanderous person / man*
**acıdilli** *s. bax* **acıdil II**
**acıdillilik** *i.* slander, backbiting, malicious talk / words
**acıxasiyyət** *s.* hot / quick tempered; **acıxasiyyət adam** hot tempered man*
**acıxasiyyətlilik** *i.* the state or quality of being hot tempered
**acıistiot** *i.* bitter pepper
**acıq** *i.* **1.** anger, spite; **bir kəsin acığına** to spite *smb.*; **acıqla** out of / for / from spite; **acıqdan yanmaq** to burn with anger; **bir şeydən acığı tutmaq** to be* angered by *smth.*; **2.** vexation; **Mənim acığımı təsəvvür edin!** Imagine my vexation; **acıq çıxmaq** / **almaq** to take* vengeance (on, for); **acıq vermək** to tease (*d.*), to excite (*d.*), to stir up anger; **acığa düşmək** to persist (in), to be* stubborn / obstinate; **acığı soyumaq** to calm / to quiet / to settle down; **bir kəsə acığı tutmaq** to be* vexed / angry / cross with *smb.*; **Mənə acığın tutmasın** Don't be angry / cross with me; **acığa salmaq** to irritate; **acığı gəlmək** to vex (at), can't stand (*d.*); **Onun hərəkətindən mənim acığım gəlir** His / Her conduct vexes me; **özündən acığı gəlmək** to be* vexed with oneself; **Vaxtında gəlmədiyi üçün onun özünə acığı tutmuşdu** He / She was vexed with himself / herself for not coming in time; **acıqdan zəncir çeynəmək** to blaze with indignation / fury, to fly* / to get* into a rage; **acıqdan gözü heç nə görməmək** to be* blind with rage; **acıqdan partlamaq** to flush with anger; **acıqdan yanmaq** to burn* with anger; **acıqdan özünə yer tapmamaq** to spite and to spurn; **acıqdan dəli olmaq** to get* mad with rage
**acıqca** *z.* spiting to, out of spite; **bir kəsin acığına bir şey etmək** to do* *smth.* to spite *smb.*
**acıqdırmaq** *f. bax* **acdırmaq**
**acıqla** *z.* **1.** angrily, spitefully; bitterly; **acıqla demək** to say* angrily; **2.** to spite (*smb.*). purposely, on purpose; **~ etmək** to do* to spite (*smb.*). to do* *smth.* on purpose
**acıqlandırmaq** *f.* **1.** to anger (*d.*), to make* angry (*d.*); **bir kəsi acıqlandırmaq** to anger *smb.*; **2. (cırnatmaq)** to tease (*d.*), to irritate (*d.*)
**acıqlanmaq** *f.* **1.** to get* angry (with), to be* cross (with); **Ona acıqlanmayın.** Don't be angry / cross with him / her; **2.** to be* in bad temper; **3. (qışqırmaq)** to shout at
**acıqlı I.** *s.* **1.** angry, cross; **bir kəsə acıqlı olmaq** to be* angry / cross with *smb.*; **bir şeyə acıqlı olmaq** to be* angry at / about *smth.*; **2.** spiteful, malicious; **acıqlı adam** malicious person; **acıqlı təbəssüm** malicious smile **II.** *z.* angrily, spitefully, maliciously
**acıqlı-acıqlı** *z. bax* **acıqlı II**
**acıqlılıq** *i.* spitefulness; the state of being angry / cross
**acıqmaq** *f. bax* **acmaq**

**acılamaq** *f.* to sting* (*d.*), to wound (*d.*), to taunt (*d.* with)
**acılandırmaq** *f. bax* **acılatmaq**
**acılaşdırılmaq** *f.* to be* made bitter
**acılaşdırmaq** *f.* to make* bitter (*d.*)
**acılaşmaq** *f.* to become* bitter, to turn bitter, to have* bitter taste
**acılı** *s. bax* **acı II**
**acılıq** *i.* bitter taste; bitter stuff; *məc.* Bitterness
**acımadan** *z.* pitilessly, mercilessly, without pity / mercy
**acımaq I.** *f.* **1.** to turn / to become* bitter; **2. (yağ)** to turn / to become* rancid; **3. (xəmir)** to become* leavened **II.** *f.* to sympathize (with), to feel* (for), to feel* sorry (for); to be* sorry (for); to regret
**acımsov** *s. bax* **acımtıl**
**acımsovluq** *i. bax* **acımtıllıq**
**acımtıl** *s.* bitterish
**acımtıllıq** *i.* the quality or state of being bitterish
**acımtraq** *s. bax* **acımtıl**
**acımtraqlıq** *i. bax* **acımtıllıq**
**acınacaq** *s. bax* **acınacaqlı**
**acınacaqlı** *s.* sorrowful, miserable, mournful; **bir kəsin həyatını ~ etmək** to make* *smb.*'s life miserable; **~ həyat** miserable life; **~ hadisə** sorrowful accident; **~ vəziyyətdə olmaq** to be* in sad situation, to be* under a bad condition; **~ görkəm** mournful air
**acınmaq** *f. bax* **acımaq II**
**acışdırıcı** *s.* irritating, annoying, irksome; **~ qaz** irritating gas
**acışdırmaq** *f.* **1.** to irritate (*d.*), to annoy (*d.*); **2.** to anger (*d.*), to vex (*d.*); **3. (cırnatmaq)** to tease (*d.*), to get *smb.*'s dander up **idiom**
**acışmaq** *f.* to get* irritated / annoyed, to become* nervous
**acıtəhər** *s.* bitterish; **~ dad** bitterish taste
**acıtərə** *i. bot.* watercress, (garden-) cress
**acıtma** *i.* **1.** droshky; **2.** ferment; **3. (xəmir)** leaven
**acıtmaq** *f.* **1.** to ferment (*d.*); **2. (xəmir)** to leaven (*d.*); **3.** to make* (*d.*) bitter
**acıtmalı** *s.* **1.** fermented; **2. (xəmir)** leavened
**acıtmasız** *s.* unleavened; **acıtmasız çörək** unleavened bread
**aciz I.** *s.* **1.** helpless, humble; **aciz uşaq** a helpless child; **aciz olmaq** to be* helpless; **2. (gücsüz, küt)** feeble; impotent, effete; **3. (yazıq)** pitiful **II.** *z.* helplessly; pitifully; impotently
**aciz-aciz** *z. bax* **acizanə**
**acizanə** *z.* humbly; obediently; submissively; **acizanə xahiş etmək** to ask / to beg humbly
**aciz-avara** *i. d.d.* loafer, idler; **(tənbəl)** lazybones; good-for-nothing
**acizcəsinə** *z.* very / quite humbly, quite obediently
**acizlənmək** *f. bax* **acizləşmək**
**acizləşdirmək** *f.* to make* helpless (*d.*) / feeble (*d.*)
**acizləşmək** *f.* to become* / to get* humble
**acizlik** *i.* **1.** helplessness; **2. (zəiflik)** feebleness, weakness; **3. (bacarıqsızlıq)** inability, incapability; **4. (qətiyyətsizlik)** undecidedness; **~ göstərmək** to display / to show helplessness, to act / to behave indecisively
**acqarına** *z.* on an empty stomach, without having breakfast; **~ dərman qəbul etmək / içmək** to take* medicine on an empty stomach; **~ olmaq** not to have breakfast, to be* hungry from the morning
**ac-ləlöyün** *s.* **1.** very hungry; (*i.s.*) dying of hunger / starvation; **2.** very / too poor
**aclıq I.** *i.* hunger; **(uzun müddətli)** starvation; **~ hiss etmək** to feel* / to be* hungry, to want to eat; **~ elan etmək (narazılıq əlaməti olaraq)** to go* on hunger-strike; to go* fasting; **~ elan edən (adam)** hunger-striker; **~dan ölmək** to famish; to die of famine / starvation / hunger; **~ çəkmək** to starve, to go* hungry, to famish **II.** *s.* famine [ˈfəmin]; **~ illəri** the years of famine; **~ qiyamı** revolt of the hungry, starvelings revolt
**acmaq** *f.* to feel* / to grow* hungry; *d.d.* to feel* / to be* peckish
**ac-susuz I.** *s. bax* **ac II II.** *z. bax* **ac III**
**ac-yalavac I.** *s.* hungry; very poor; **ac-yalavac olmaq** to be* hungry / very poor **II.** *z.* hungrily, poorly, halfstarved; **ac-yalavac**

**yaşamaq** to live poorly / half-starved; **ac-yalavac qoymaq** to make* poor / miserable, to take* away everything one has

**açar I.** *i.* **1. (həm** *müst.*, **həm də** *məc.*) key [ki:]; **2.** *məc.* clue [klu:]; **tapmacanın açarı** clue to a puzzle; **qapının açarı** the key of the door; **seyf açarı** safe key; **saatın açarı** key of clock; **sirrin açarı** key to a mistery; **siyasi vəziyyətin açarı** key to a political situation **qayka açarı**; *amer.* wrench 1) **ucu açıq açar** open-ended spanner; 2) **yaylı açar (yəni həcmi dəyişdirilə bilən)** adjustable spanner; 3) **sonu girdə açar** ring spanner; **açar salmaq** to try a key to open a door with another key; **problemin həlli üçün açar** a key to the problem **II.** *s.* key; **açar yeri** keyhole; **açar qabı** key-case; key-ring

**açarqayıran** *i.* key-maker

**açarlı** *s.* (*i.s.*) with a key, (*i.s.*) having a key

**açarsız** *s.* keyless; (*i.s.*) having no key

**açdırmaq** *f.* to ask / to cause *smb.* to open (*d.*), to have *smth.* opened; **sandığı ~** to have* the trunk opened, to ask *smb.* to open the trunk

**açıq I.** *s.* **1.** open; **~ qapı** open door; **~ bazar** open market; **~ iclas** open meeting; **~ məktub** 1) **(zərfsiz)** postcard; 2) **(mətbuatda dərc edilən)** open letter; **~ heca** *dilç.* open syllable; **~ məsələ** open question; **~ hava** open air; **~ havada** in the open air; out of doors; **~ ürəkli** open hearted; **~ yara** open wound; **~ dəniz** open sea; **~ səsvermə** open ballot, voting by show of hands; **~ liman** open port; **2.** overt; **~ düşmənçilik** overt hostility; *f.* **~ çay** weak tea; **3. (aydın)** serene, clear; **~ səma** clear / serene sky **II.** *z.* openly, open, frankly, publicly; **~ danışmaq** to speak* openly / frankly; **~ hərəkət etmək** to act openly; **qapını ~ qoymaq** to leave* the door open; **bir kəslə ~ olmaq** to be* open with *smb.*; *f.* **ağzı ~ qalmaq** to be* amazed (at *smth.*) / charmed / taken (with); to be* taken back

**açıq-abı** *s.* light-blue

**açıq-açığına** *z. bax* **açıq II**

**açıq-aşkar I.** *s. bax* **açıq-aydın I II.** *z. bax* **açıq-aydın II**

**açıq-aydın I.** *s.* **1.** quite clear, completely clear; **2.** evident, overt, obvious; **açıq-aydın narazılıq** evident / obvious displeasure; **3.** downright, barefaced; **açıq-aydın yalan** barefaced / downright lie **II.** *z.* evidently, obviously, quite evident / obvious, manifestly, overtly

**açıq-bənövşəyi** *s.* light-violet

**açıq-boz** *s.* light-grey

**açıqca I.** *s.* **1.** open, overt, frank, undisguised; **2.** evident, obvious **II.** *z.* **1.** quite openly / plainly, overtly; **~ hərəkət etmək** to act quite openly; **~ danışmaq** to speak* quite openly / evidently; **2.** quite clearly / manifestly

**açıqcasına** *z. bax* **açıqca II**

**açıq-çəhrayı** *s.* light-rose

**açıqdan-açığa** *z. bax* **açıq-aydın II**

**açıqfikirli** *s.* **1.** clear thinking, sensible, judicious; **açıqfikirli adam** sensible person, a man of good sense; **2.** free-thinking; progressive-minded, progressive; **açıqfikirli adamlar** progressive-minded people

**açıqfikirlilik** *i.* **1.** judiciousness, good sense; **2.** free-thinking

**açıq-firuzəyi** *s.* light-turquoise

**açıq-göy** *s.* light-blue

**açıqgöz** *s. bax* **açıqgözlü**

**açıqgözlü** *s.* open-eyed; watchful, sharp, keen-witted, quick on the uptake

**açıqgözlülük** *i.* sharpness, keen-wittedness, gumption

**açıq-qəhvəyi** *s.* light-brown

**açıq-qırmızı** *s.* light-red

**açıqlama** *fi.* explanation

**açıqlamaq** *f.* to explain (*d.* to), to elucidate (*d.*), to go into detail(s)

**açıqlıq** *i.* **1. (meşədə, çöldə və s.)** glade, clearing, vacant lot; **açıqlığa çıxmaq** to go* out into a glade; **2. (aydınlıq)** clearness, lucidity; **fikir açıqlığı** lucidity of mind; **3.** *məc.* frankness, candour

**açıqrəng** *s.* light-coloured

**açıqrəngli** *s. bax* **açıqrəng**

**açıq-saçıq I.** *s.* **1.** free-and-easy; overfree; **açıq-saçıq həyat** free-and-easy life; **2.** licentious; **açıq-saçıq yaşayış** licentious living **II.** *z.* **1.** openly, plainly; **açıq-saçıq danışmaq** to speak* openly; **2.** bold-

ly, shamelessly, licentiously; **özünü açıq-saçıq aparmaq** to be* unduly familiar, to be* free and easy; **açıq-saçıq həyat sürmək** to lead* a free-and-easy life

**açıq-saçıqlıq** *i.* **1.** openness, **2.** disoluteness, licentiousness; **3.** boldness, undue familiarity

**açıq-sarı** *s.* light-yellow

**açıq-sürməyi** *s.* light-blue

**açıq-şabalıdı** *s.* light-brown

**açıqürək** *s. bax* **açıqürəkli**

**açıqürəkli** *s.* open-hearted, kind-hearted; candid; frank; **açıqürəkli olmaq** to be* open-hearted; **açıqürəkli adam** an open-hearted man*

**açıqürəklilik** *i.* open-heartedness, frankness, candour, sincerity

**açıq-yaşıl** *s.* light-green

**açılış I.** *i.* **1.** opening; **2.** inauguration, unveiling; **təntənəli açılış** inauguration (of), grand opening (of); **abidənin açılışı** unveiling / inauguration of a memorial **II.** *s.* opening; **açılış günü** opening day

**açılışmaq** *f.* **1.** to get* used (to), to accustom (to), to habituate oneself (to); **2.** to become* free and more independent, to make* oneself familiar (with); **3.** to feel* easy / comfortable

**açılmaq** *f.* **1.** to open, to be* open; **Qapı açıldı.** The door opened; The door was opened; **Dükan saat 10-da açılır.** The shop opens at ten; **Otaqlar bir-birinə açılır.** The rooms open into each other; **2.** to be* declared open; **İclas açıldı.** The meeting was declared open; **3. (aşkar olmaq)** to come* out, to come* to light, to be* revealed; **Onun sirri açıldı.** His / Her secret came out; **4. (yara)** to open; **Yara açıldı** The wound opened; **5. (gül, çiçək)** to open, to blossom out; **Tumurcuqlar / Qönçələr açılır** The buds are opening; **6. (düymə)**, to come* undone / unfastened / unclasped; **(qarmaq)** to come* unhooked; **7. (dəmir yolu)** to come* uncoupled; **8. (hava)** to clear; **Hava açılır** The weather is clearing; **9. (düyün)** to untwist, to come* untwisted; **Düyün açıldı** The knot untwisted / came untwisted; **10. (süjet)** to unwind, to uncoil; **Süjet yavaş-yavaş açılır** The narrative unwinds slowly; **11. (saç)** to come* unplaited; **12. (qayka)** to come* unscrewed; **13. (sinəsi, döşü)** to become* naked / uncovered; **14. (səhər, yaz və s.)** to come*; **Səhər açıldı** Morning came; **15. (pəncərə, qapı)** to open (on), to look out (on); **Pəncərə dənizə açılır** The window opens on the sea; **16. (bomba)** to burst*; **Bomba açılmadı** The bomb didn't burst; **17. (tüfəng)** to fire; **Tüfəng açıldı** The rifle fired, A rifle shot was heard; **gözü açılmaq** 1) to recover one's sight; 2) *məc.* to begin* to see clearly, to be* enlightened, **Beləliklə, onun gözü açıldı** So he / she was enlightened; **ürəyi / qəlbi açılmaq** to be* glad / happy, to rejoice; **Mən sizi görəndə ürəyim açılır** I am glad to see you; *f.* **Adamın ürəyi açılır** One's heart fills with joy

**açma** *fs.* folding; **açma çarpayı** folding-bed; **açma qayıq** folding-boat; **açma qapı** folding-door; **açma pərdə** folding-screen; **açma stol** folding-table

**açmaq I.** *f.* **1.** to open; **məktəb açmaq** to open a school; **qapını açmaq** to open the door; **çətirini açmaq** to open one's umbrella; **gözünü açmaq** to open one's eyes; **mötərizə açmaq** to open brackets; **yeni dövr / səhifə açmaq** to open a new era / page; **iclas açmaq** to open a sitting / meeting; to declare a meeting / sitting open; **mübahisə açmaq** to open a debate; **atəş açmaq** to open a fire; **hesab açmaq** 1) *müh.* to open an account; 2) *id.* to open the score; **bir kəsin gözünü açmaq** *məc.* to open *smb.*'s eyes; **bir kəsə ürəyini açmaq** to open one's heart to *smb.*; **2. (kranı)** to turn on; **kranı açmaq** to turn on the tap; **3. (yol)** to clear (*d.*); **yol açmaq** to clear the way; **4.** to bare (*d.*), to uncover (*d.*); **sinəsini / döşünü açmaq** to bare one's chest / breast, to lay* one's chest / breast bare; **ürəyini açmaq** 1) to cheer up, to make* glad, to cause joy (to); 2) to reveal one's secret (to), to bare one's heart / soul, to lay* bare one's heart; **Siz ürəyinizi mənə açmalısınız, axı mən sizin bacınızam** You ought to lay bare your heart to *me*. I'm your sister, you

know; **5.** to inaugurate (*d.*), to unveil (*d.*); **abidəni açmaq** to inaugurate / to unveil the monument; **6. (sirri)** to let* out (*d.*), to reveal (*d.*), to lay* bare (*d.*); to discover (*d.*); **qəsdin üstünü açmaq** to reveal / to discover a plot; **7. (bağdan)** to untie **O, atı bağdan açdı** He / She untied the horse; **kəndiri açmaq** to unbind the rope; **bir kəsin əllərini açmaq** to untie *smb.*'s hands; *məc.* to leave* *smb.* free to act; **8. (paltarı)** to unfasten (*d.*); **paltonun qabağını açmaq** to unfasten the coat; **9. (düyməni)** to unbutton (*d.*); **Onun paltosunun düyməsini aç(ın)** Unbutton his / her coat; **10. (qarmağı)** to unhook (*d.*); **11. (kəməri)** to unbuckle (*d.*); **kəməri açmaq** to unbuckle the belt; **12. (bağlamanı)** to unpack (*d.*); **13. (düyünü, yumağı)** to untwist (*d.*); **düyünü açmaq** to untwist a knot; **14. (xəmiri)** to roll out (*d.*); **xəmiri açmaq** to roll out the dough / paste; **15. (süfrə)** to lay* (*d.*); **süfrə açmaq** to lay the table; *f.* **əl açmaq** to ask for alms, to go* begging; **dil açmaq** to begin* / to start to speak; *məc.* to loosen tongue; *f.* **ayaq açmaq** 1) to begin* / to start to walk; 2) to begin* / to start to visit; *f.* **könül açmaq** 1) to cheer up, to make* glad, to brighten up; 2) to declare one's love; **açıb-ağartmaq** to make* known (*d.*), to give publicity (*d.*); **açıb göstərmək** to disclose (*d.*), to lay* bare (*d.*); **açıb tökmək** *məc.* to tell* everything that one knows; **qazanın ağzını açmaq** to take* the lid off a saucepan; **Amerika açmaq** ≅ to retail stale news **II.** *f.* **1.** to like, to satisfy; to be* convenient; **Belə hava məni açır** I like such weather, Such weather satisfies me; **2. (sevindirmək)** to make* glad, to cause joy (to); **Bu xəbər məni açdı** This news made me glad

**bünövrə** *i.* **(həm *müs.* həm də *məc.*)** foundation, groundwork; base [-s]; ~ **tikmək** to build* the foundations; ~ **qoymaq** to lay* the foundation; **şəhərin ~si** the foundation of the city
**bünövrədən** *z.* primordially, from the start; always
**bünövrəli I.** *s.* **1.** well-grounded, well-founded; **2.** thorough, solid; ~ **öyrənmə** / **tədqiqat** thorough study; **3. (möhkəm)** durable, firm **II.** *z.* thoroughly; ~ **öyrənmək** to study thoroughly
**bünövrəlilik** *i.* **1.** fundamental nature / character; **2.** durability, firmness, solidity
**bünövrəsiz** *s.* **1.** groundless, unfounded; **2.** not solid / durable
**bünövrəsizlik** *i.* **1.** groundlessness; **2.** lack of strength / solidity
**bürc** *i.* **1.** tower; **2.** *astr.* constellation; ◊ **Böyük Ayı ~ü** the Great Bear; ◊ **Kiçik Ayı ~ ü** the Little Bear
**bürkü** *i.* stuffy heat, stuffiness, closeness [-s-]; **Necə də bürküdür**! How stuffy!
**bürküləmək** *f.* to get* / to become* stuffy; **Bürküləyir** It's getting stuffy; It's stuffy / close
**bürkülənmək** *f.* **1.** *bax* **bürküləmək**; **2.** to feel* uneasy from heat / stuffiness
**bürküləşmək** *f. bax* **bürküləmək**
**bürkülük** *i.* stuffiness, sultriness
**bürmə** *i.* bush, bushwood, thicket
**bürməlik** *i.* bushy place / area, place overgrown with bush / thicket
**bürmələmək** *f.* **1.** to turn up (*d.*), to fold up (*d.*); **2.** to crumple (*d.*)
**bürmələnmək** *f.* **1.** to be* turned up / folded up; **2.** to be* crumpled up
**büro** *i.* bureau; office; **məlumat ~su** information bureau, inquiry office
**bürokrat** *i.* bureaucrat, red-tapist; pedant
**bürokratcasına** *f.* as bureaucrat, like a bureaucrat; pedantically
**bürokratik** *s.* bureaucratic; ~ **dövlət** bureaucratic government
**bürokratiya** *i.* bureaucracy
**bürokratizm** *i.* bureaucratism
**bürokratlaşdırmaq** *f.* to make* bureaucratic (*d.*)
**bürokratlaşma** *fi.* becoming bureaucratic
**bürokratlaşmaq** *f.* to become* bureaucrat / bureaucratic
**bürokratlıq** *i. bax* **bürokratizm**
**büruzə**: ~ **vermək** to show* (*d.*), to display (*d.*), to manifest (*d.*); **cəsarətini ~ vermək** to show* / to display one's courage; **narazılığını ~ vermək** to show* / to manifest one's displeasure
**bürümə** *fi.* wrapping, muffling; **(üzünü)** covering; **(yorğanla)** blankiting
**bürümək** *f.* **1.** to wrap up (*d.* in), to muffle up (*d.* in); **uşağı şalla** ~ to wrap a child in a shawl, **boğazını** ~ to muffle one's throat; **özünü** ~ to wrap oneself (up); **şərfi boynuna** ~ to wrap a scarf round one's neck; **2.** to cover (up); **üzünü** ~ to cover one's face; **3.** to surround (*d.*), to gather round (*d.*); **Ağaclar evi bürüyür** The trees surround the house; **4.** to envelop (*d.*), to shroud (*d.*); **Evi alov bürüdü** The house was enveloped in flames; **Dağları duman bürüdü** The

mountains were shrouded / enveloped in mist; **5. (yorqanla)** to blanket (*d.*)

**bürünc I.** *i.* bronze **II.** *s.* bronze; ~ **medal** bronze medal; ◊ ~ **əsri** the Bronze Age

**bürüncək** *i.* anything that is used for covering one's body / face (such as a shawl, a veil, *etc.*)

**bürüncəkli** *s.* (*i.s.*) muffled up with shawl, *etc.*

**bürüncləmək** *f.* to bronze (*d.*)

**büründürmək** *f.* to cover up (*d.*), to wrap up (*d.*); **(yorqanla)** to blanket up (*d.*)

**bürünmək** *f.* **1.** to muffle / to wrap oneself up (in); **(yorqanla)** to blanket oneself up; **2.** to be* covered (in); to become* covered / enveloped (with); **Ev alova büründü** The house was covered in flames; **3.** to shroud (in), to blanket (with); **Dağlar / təpələr dumana büründü** The mountains / the hills were shrouded in mist; **Çöl qara büründü** The field was blanketed with snow

**bürünüklü** *s.* muffled, covered

**bürüşdürmək** *f.* **1.** to rumple (*d.*), to crumple (*d.*), to wrinkle (*d.*); **paltarı** ~ to rumple / to wrinkle a dress; **alnını** ~ to wrinkle one's forehead; **Diqqətli olun**, **paltarınızı bürüşdürməyin** Take care not to crumple your dress; **2. (bitkini)** to fade, to wither (*d.*); **Soyuq yarpaqları bürüşdürdü** The cold withered the leaves

**bürüşdürülmək** *f.* to be* crumpled / wrinkled / withered

**bürüşdürücü** *s.* *bax* **büzücü**

**bürüşmək** *f.* **1.** to wrinkle, to break into wrinkles; to get wrinkled; **2. (paltar)** to crease, to crumple, to become* creased / crumpled; **3. (bitki)** to fade, to wither; to become* faded / withered; **4. (soyuqdan, istidən)** to shrivel, to shrink (with); **soyuqdan** ~ to shrink with cold

**bürüşmüş** *fs.* wrinkled, puckered; ~ **üz** wrinkled face; ~ **dəri** puckered skin

**bürüşük I.** *i.* wrinkle; **(parçada)** crease **II.** *s.* wrinkled; puckered; line; ~ **dəri** wrinkled / puckered skin

**büsat** *i.* luxury, splendour, merriment

**büsatlı** *s.* **1.** festive; ~ **axşam** festive evening; **2.** luxurious, splendid; ~ **mehmanxana** luxurious hotel; ~ **saray** splendid palace

**büsbütün** *z.* perfectly, completely, utterly, entirely, wholly, stark; ~ **razı olmaq** to be* perfectly satisfied; **özünü** ~ **elmə həsr etmək** to devote himself / herself to science completely / entirely; **özünü** ~ **itirmək** to be* wholly / completely at a loss; ~ **yorulmaq** to be* utterly exhausted; ~ **kor** / **çılpaq olmaq** to be* stark blind / naked

**büst** *i.* bust

**büt** *i.* *din.* idol

**bütxana** *i.* heathen temple

**bütöv** *s.* **1. (sınmamış)** unbroken, intact, safe; **2. (bütün)** whole, entire; ~ **şəhər** the whole city; ~ **gün** whole day, all day long; ~ **ölkə** / **dünya** the entire country / world

**bütövlənmək** *f.* to become* complete / perfect

**bütövləşdirilmək** *f.* to be* made whole / complete / perfect

**bütövləşdirmək** *f.* to cause to become complete (*d.*) / perfect (*d.*)

**bütövləşmək** *f.* *bax* **bütövlənmək**

**bütövlük** *i.* integrity, completeness; **ərazi bütövlüyü** territorial integrity; **ölkənin bütövliyinə təminat vermək** guarantee the territorial integrity of a country

**bütövlükdə** *z.* completely, entirely, as a whole; **özünü** ~ **bir şeyə həsr etmək** to devote oneself entirely / completely to *smth.*

**bütövlüklə** *z.* **bütövlükdə**

**bütpərəst I.** *i.* idolater [ai-], heathen; ~**lər** the heathen **II.** *s.* idolatrous [ai-]

**bütpərəstlik I.** *i.* idolatry [ai-], heathendom, heathenism, heathenry **II.** *s.* idolatrous [ai-]

**bütün** *əv.* all, the whole of; ~ **Baku** all Baku, the whole of Baku; ~ **gün** all day long, the whole day

**bütünləşdirmək** *f.* to cause to become* / to grow* perfect (*d.*) / a whole

**bütünləşmək** *f.* to become* / to get* completed

**bütünlük** *i.* integrity, completeness, entirety

**bütünlüklə** *z.* completely, entirely, as a whole; ~ **bəyənmək** / **təsdiq etmək** to approve completely / root and branch, from top to bottom / in its entirety

**büzdüm** *i.* *anat.* coccyges, coccyges [ˈkɔksiks]

**büzmə** *i.* **(paltarda)** gathers *pl.*, frill; **(enli)** flounce

**büzmək** *f.* to wrinkle (*d.*), to frill (*d.*); **(parçanı)** to goffer (*d.*); **paltarı ~** to frill dress; **ağzını ~** to twist one's mouth; to make* a wry face; **dodağını ~** to purse / to curl one's lips

**büzmələmək** *f.* to gather (*d.*), to make* gathers *pl.*; **(parçanı)** to goffer (*d.*)

**büzmələnmək** *f.* to be* gathered; **(parça)** to be* goffered

**büzməli** *s.* gathered, frilly; **~ paltar** a frilly dress; **(parça)** goffered; **(dəmir**, **kağız)** corrugated; **~ yaxalıq** goffered collar; **~ dəmir** corrugated iron

**büzücü** *s.* tart, astringent; **ağız ~ alma** tart apple; **~ maddə** astringent, astringent substance

**büzük** *s.* wrinkled, puckered; **(parçada**, **kağızda və s.)** cockle; crooked

**büzüklük** *i.* the state of being wrinkled / puckered

**büzükmək** *f.* **1.** *bax* **büzüşmək**; **2. (soyuqdan və s.)** to shrink*; **soyuqdan ~** to shrink* with cold

**büzülmək** *f.* **1.** to shrink up, to gather up; **2. (ağrıdan və s.)** to writhe [raið]; **əzabdan ~** to writhe in agony; **3. (parça**, **kağız və s.)** to shrink, to cockle

**büzüşdürmək** *f.* to rumple (*d.*), to crumple (*d.*); **paltarı ~** to rumple a dress

**büzüşdürücü** *s.* *bax* **büzücü**

**büzüşdürücülük** *i.* astrigency, acerbity, tartness

**büzüşdürülmək** *f.* to be* rumpled / crumbled, to get* rumpled / crumpled

**büzüşmə** *fi.* shrinking up, coccking; **(ağrıdan)** writhing

**büzüşmək** *f.* **1.** to shrink; **2. (ağrıdan)** to writhe [raið]; **(yatarkən)** to nestle down

**büzüşük** *s.* **1.** wrinkled, puckered; crumpled; **2.** shrunk

**büzüşüklük** *i.* **1.** the state of being wrinkled / crumpled; **2.** the state of being shrunk

# Cc

**C**, **c** the 3[rd] letter of the Azerbaijani alphabet

**cabaca** *z.* in order; in place; in right place; ~ **etmək** to put* in order (*d.*), to regulate / to arrange systematically (*d.*); to put* in a particular place; **işləri ~ etmək** to put* things / matters straight; **Hər şey cabacadır** Everything is all right, *d.d.* Everything is *OK*

**cadar I.** *i.* crack, split; **(torpaqda**, **yerdə)** cleft, fissure; **(dəridə**, **yerdə və s.)** chap **II.** *s.* cracked; chapped; ~ **əllər** chapped hands; ~ **olmaq** to get* cracked, to get* chapped

**cadar-cadar** *s.* full of cracks; ~ **olmaq** to get* cracked, to crack **(dəri və s.)** to be* / to get* chapped; to chap; **istidən ~ olmaq** to crack with heat; **Əllərim soyuqdan cadar-cadardı** My hands are chapped from the cold

**cadarlanmaq** *f.* to crack; to split*; **(dəri**, **əl və s.)** to chap; **Soyuq hava dərini cadarladır** The cold weather chaps the skin

**cadu** *i.* magic, *d.d.* witchcraft, *d.d.* sorcery; ~ **etmək** to enchant (*d.*), to bewitch (*d.*); *məc.* to charm (*d.*)

**cadugər I.** *i.* magician, *məc.* wizard; **(kişi)** sorcerer, **(qadın)** sorceress, witch; **(xüsusi hekayələrdə)** warlock, soothsayer, *məc.* **(qadın)** enchantress, charmer; *d.d.* miracle worker **II.** *s.* charmful; magic

**cadugərlik** *i.* magic, bewitching, witchcraft, sorcery; *məc.* glamour, enchantment; ~ **etmək** to bewitch, to enchant

**cadulamaq** *f.* to conjure (*d.*), to practise witchcraft; *məc.* to charm; **Sanki qız onu cadulamışdı** As if the girl had charmed him

**cadulanmaq** *f.* to be* conjured / charmed

**cadulatmaq** *f.* to ask / to cause *s.o.* to conjure (*d.*) / to charm (*d.*)

**cağ** *z. bax* **cabaca**

**cağbacağ** *z. bax* **cabaca**

**cağlamaq** *f.* to pale (*d.*), to fence in (*d.*), to enclose (*d.*) with paling

**cağlanmaq** *f.* to be* paled, to be* fenced in, to be* enclosed with paling

**cahan** *i.* world; universe; **bütün ~da** in the wide world, throughout the world, all over the world, all the world over, in the whole world

**cahangir** *i.* **(istilaçı)** subjugator; conqueror

**cahanşümul** *s.* world, world-wide; universal; ~ **əhəmiyyət** universal importance; **bu kəşfin ~ əhəmiyyəti** the world importance of this invention; ~ **şöhrət** world-wide fame

**cah-calal** *i.* luxury; **(təmtəraq)** splendour, magnificence

**cah-calallı** *s.* luxurious, sumptuous, luxuriant; ~ **meşə** luxuriant forest; **(çox gözəl)** splendid, magnificent; ~ **ev** splendid house

**cahıl I.** *i.* youth, youngster; **~lar** the young **II.** *s.* young; ~ **adam** young man* / person

**cahıllaşmaq** *f. d.d.* to become* younger, to look younger; to grow* younger again

**cahıllıq** *i.* youth, youthhood

**cahil I.** *i.* ignorant / benighted man*; uneducated / unlearned person **II.** *s.* ignorant, ignoramus, benighted; uneducated, unlearned, unenlightened; inexperienced; not well-informed; ~ **(mədəniyyətsiz) adam** ignorant / benighted man* / person

**cahillik** *i.* ignorance, lack of education, intellectual darkness; inexperience; **(öz) cahilliyi üzündən** through (one's) ignorance

**caiz** *s.* allowable; solvable, permissible; possible; **Təbir cayizdirsə...** If one may put it that *way...*

**calaq I.** *i. bot.* inoculation, grafting, engrafting; **(paltarda)** stitch; ~ **etmək** *bax* **calamaq I (1-ci və 2-ci mənalarda) II.** *s. bot.* grafting; inoculation

**calaqçı** *i.* **1.** inoculater, engrafter; **2. (paltar)** stitcher

**calaqlamaq** *f. bax* **calamaq I (1-ci və 2-ci mənalarda)**

**calaqlanmaq** *f.* **1.** *bot.* to be* inoculated / engrafted; **2. (paltar və s.)** to be* stitched, to be* sewn on

**calal** *i.* **1.** splendour, magnificence; brightness; **2.** grandeur, greatness, sublimity; power, might

**calallı** *s.* splendid, magnificent, gorgeous; sumptuous, glorious, brilliant; *d.d.* excellent

**calamaq I.** *f.* **1.** *bot.* to inoculate (*d.* with), to engraft (*d.* upon); **2. (paltarı)** stitch (*d.* to), to sew* on (*d.* to); **3.** *məc. d.d.* **(pis işə)** to involve (*d.*), to entangle (*d.* in ), to implicate (*d.*); **birini cinayətə / sui-qəsdə ~** to implicate *smb.* in a crime / in a plot; **birini dava-dalaşa ~** to entangle *smb.* in a quarrel; **Məni bu pis işə calama** Don't involve me in this trouble **II.** *f.* **(su) (təsadüfən tökmək)** to spill* (*d.*); to pour out / away; **Çirkli suyu cala getsin** Pour away the dirty water

**calanmaq I.** *f.* **1.** to be* inoculated / engrafted; **2. (paltar)** to be* stitched / sewn on; **3.** *məc.* **(pis işə)** to be* involved / implicated / entangled in **II.** *f.* **(su)** to spill, to be* spilled / spilt; to be* poured out

**calatmaq** *f.* **1.** *bot.* to ask / to force *smb.* to inoculate (with) / to engraft (upon); **2. (paltar)** to ask / to force *smb.* to stitch (*d.* to) / to sew* on (*d.* to), to have* *smth.* stitched / sewn on

**cam** *i.* basin; **mis ~** copper basin; **saxsı ~** earthenware basin; **üç ~ su** three basins of water

**camaat** *i.* public; **(teatr və s.)** audience; people, nation; crowd; multitude; **~ı yarıb keçmək** to push / to make* / to fight* / to force / to elbow one's way through the crowd; **~ arasında / içərisində görünmək** to be* seen in public; **~ arasında olmaq / arasına çıxmaq** to make* one's appearance in society; **kömək üçün ~a müraciət etmək** to appeal to the multitude for help / to help; **bu şəhərin ~ı** the nations / people of this city; **Teatrda çoxlu camaat vardı** There was a large audience at the theatre; **Klub camaatla doludur** The club is full of people; **Camaat gözləyir** The public is (are) waiting

**camadar** *i.* bath-house attendant

**camal** *i.* beautiful face, beauty, prettiness, comeliness

**camallı** *s.* charm-faced, beautiful-faced, pretty-faced; **~ qız** a beautiful-faced girl

**camaşır** *i.* laundry

**camaşırçı** *i.* **(kişi)** laundry-man*; **(qadın)** laundress

**camaşırxana I.** *i.* laundry, wash-house, **(ümumi)** laundrette, *amer.* laundromat **II.** *s.* laundry; **~ fəhləsi** laundry-man*

**çame** *i. bax* **məscid**

**camış I.** *i.* bufallo (*pl.* bufalloes) **II.** *s.* bufallo; **~ qaymağı** bufallo cream; **~ südü** bufallo milk

**cami** *i. bax* **məscid**

**can I.** *i.* **1.** soul; spirit; **2.** being; creature; life; **3.** body; **4.** force, vigour; ~ atmaq to long (for), to be* dying (for); to crave for; to yearn (for); **qələbəyə ~ atmaq** to strive* for victory; **azadlığa ~ atmaq** to be* zealous for liberty; **savaşa / davaya ~ atmaq** to be* spoiling for a fight; **döyüşə ~ atmaq** to strain to be in action; **~ bəsləmək** to look after one's health; to look after oneself; **~ deyib ~ eşitmək** to live in harmony / concord; **işə ~ yandırmaq** to have* one's heart in one's work; **~(ını) qoymaq (fəda etmək)**, **~ından keçmək** to put* one's heart and soul (into); to give* (up) one's life (for *d.*); **~a gətirmək (mənfi mənada)** to harass (*d.*), to nag (*d.*), to torment (*d.*), to bother (*d.*) to death; **~ını üzmək** to weary (*d.*), to tire (*d.*), to wear* out ~ a **doymaq (təngə gəlmək)** to be* / to become* sick and tired (of ); *d.d.* to be* done up, to be* worn out; **Onun pis əməlləri məni cana gətirib** His / Her wrong doings have worn me out / to death; **~ı qurtarmaq** to escape with life and limb; **Canım haqqı, Canıma and olsun!** Upon my soul / life; **Canın üçün** Upon your life; **Canım!** Dear (sweet) heart, My (dear) life, My dear; *d.d.* **Canım ciyərim** My heart, My love; **~ vermək** 1) to agonize, to be* in agony, *d.d.* to have* one foot in the grave, to be* at one's last gasp; 2) **(diriltmək)** to inspirit (*d.*), to hearten (*d.*), to put* heart / pet (into), to fill with vigour, to enliven (*d.*); **Buranın havası adama can verir** Here the climate / the air cheers you up; **~ qoymaq** to put* one's heart (into), to set* one's heart (on), to put* one's soul; **~ı qurtarmaq** to get* rid (of); to rid* oneself (of); **~ üstə olmaq** to be* in agony of

death; **Yox canım!** Really it is impossible; **~a doymaq** to have* had enough of *smb.* / *smth.*; **~ çəkmək** to be* lazy, idle; to do* *smth.* unwillingly; **~ çürütmək** to work / to labour / to toil a long time (at *smth.*); **Soyuqdur**, **canım qızmır** It is cold, my body doesn't grow / get warm; **Burnun tutsan canı çıxır** He / She is so thin and feeble; **~dan düşmək** to weaken, to grow* weak(er) / feeble, to lose* one's strength / weight; **(tamamilə)** to collapse, to break* down; to be* dead tired, to get* tired / fatigued; **~dan salmaq** to weaken (*d.*), to enfeeble (*d.*); **(özünü)** to tire / to weary oneself, to fatigue oneself; **~ı yanmaq** to grieve (about, for, over, at); to be* anxious / worried (about); **~ına lərzə düşmək** to tremble / to shake* all over; **~ına çəkmək** / **hopmaq** to become* / to get* saturated / impregnated / soaked (with); **~ını almaq** to kill (*d.*); to do* away with (*d.*); to exterminate (*d.*); to take* *smb.*'s life; **öz ~ının hayına qalmaq**, **(öz) ~ından qorxmaq** to be* afraid of getting oneself into trouble; **Can şirin olar (yaxud şirindir)** *at. söz.* No man is so old but thinks he may yet live **II.** *s.* **~ ağrısı** bodily pain, pain of the-body; **~ dərmanı** remedy; savour; **(ağrıkəsən)** pain-killer; **~ həkimi** *d.d.* therapeutist

**canalan I.** *i.* charming / fascinating woman* (girl), a real beauty **II.** *s.* charmful, charming, fascinating, delightful, captivating; **~ təbəssüm** fascinating smile; **~ qız** charming girl

**canan** *i.* sweetheart; beloved, greatly loved; **Hər kəsin öz cananı gözəldir** Everyone's own sweetheart is beautiful

**canavar I.** *i.* wolf; **Qoyun dərisi geymiş canavar** A wolf in sheep's clothing / skin **II.** *s.* wolfish; wolf; **~ balası** wolf-cub; **~** iti wolf-hound, **~ sürüsü** wolf-pack; **~ dərisi** wolfskin

**can-başla** *z.* willingly, with great pleasure, with spirit, most willingly; with all one's soul / heart; **O, bunu can-başla edər** He / She will be glad to do it

**canbir** *z.* in a friendly manner, in friendly fashion, amicably; **~ qəlbdə yaşamaq** to live in harmony / concord

**can-ciyər** *s.* darling, beloved; intimate; **Canım-ciyərim!** My heart! My (dear) life! (My) dear / darling!; **~ olmaq** to be* near *smb.*'s heart; **birisi ilə ~ olmaq** to be* intimate with *smb.*

**candərdi** *z.* willy-nilly; against one's will; unwillingly, reluctantly; **bir şeyi ~ yerinə yetirmək** to do* *smth.* half-heartedly

**can-dildən** *z.* honestly, willingly, from the bottom of one's heart; **~ işləmək** to work conscientiously / willingly; **~ təbrik etmək** to congratulate heartily (*d.*)

**canfəşanlıq** *i.* zeal; diligence, ardour, assiduity; *amer.* assiduousness; **~ etmək** to be* zealous; to be* diligent; to be* assiduous

**canıbərk** *s.* (*i.s.*) of great vitality; tenacious (of life); stubborn; vigorous / sturdy / strong constitution; healthy; **~ qoca** hale old man*; **~ olmaq** to be* healthy / strong / of great vitality

**canıbərklik** *i.* healthiness; stubbornness; vigour, vitality

**canıyanan I.** *i.* sympathizer **II.** *s.* sympathetic

**canıyananlıq** *i.* sympathy; sympathies; **~ göstərmək** to sympathize (with), to feel* / to express sympathy (with)

**cani** *i.* criminal; offender; **(təhlükəli)** villain, miscreant; *hüq.* felon; **dövlət ~si** state criminal; **hərbi ~** war criminal

**canilik** *i.* criminality, criminal nature; villainy

**canla-başla** *z.* willingly, with great pleasure, with spirit, most willingly; with all one's soul / heart; from the bottom of one's heart, with all one's heart and soul, gladly

**canlandırma** *fi.* reanimation, revival; enlivening, animation

**canlandırmaq** *f.* to revive (*d.*); to pep (*d.*), to resuscitate (*d.*), to vivify (*d.*), to enliven (*d.*); to reanimate (*d.*), **(həyat vermək)** to pep (up), to give* life to; **bir kəsi ~** to pep up *smb.*

**canlanma** *fi.* animation, reanimation, reviving, enlivening

**canlanmaq** *f.* **1.** to come* to life; to be* / to become* animated; **2.** to grow* fat / stout, to put* weight / flesh (on), to gain flesh; *d.d.* to become* strong / stronger

**canlı** *s.* **1.** alive; lively; spirited; living; brisk, very active; vivacious; **~ dil** a living language; **~ nitq** lively speech; **2.** animated; *qram.* **~ əşya (cisim)** animated object; **~ təbiət** animate nature; **3.** strong; big-bodied, *d.d.* very strong, big, heavy, robust, muscular; **~ adam** a strong man* / person, a man* of strong build; **4. (televiziya verilişi) ~ veriliş** / **yayım** live (broadcast)

**cansağlığı** *i.* health, **möhkəm ~** good health; **~ arzulamaq** to wish good health

**cansıxıcı** *s.* wearisome, tedious, tiring, tiresome, troublesome, dull, boring, bored; **~ söhbət** a boring talk; **~ kitab** a dull book; **~ uşaq** a dull / stupid child*

**cansıxıcılıq** *i.* dullness; bore(dom), weariness, sickliness

**cansız** *s.* **1.** lifeless, inanimate, dead; **~ bədən** a lifeless / inanimate body; **~ səhra** a lifeless desert; **~ materiya** dead matter; **2.** weak, feeble; lean, **(arıq)** thin; sickly; **~ qoca kişi** a feeble old man*; **~ uşaq** weak / feeble child*

**cansızlaşmaq** *f.* to weaken, to grow* weak(er) / feeble; to lose* flesh, to grow* / to become* thin / emaciated / wasted

**cansızlıq** *i.* lifelessness; inanimateness; feebleness; weakness, weakling; *tib.* asthenia

**car** *i.* publicity; cry; exclamation; **~ çəkmək** to resound (with); to cry, to shout; to proclaim (*d.*), **(elan etmək)** to announce (*d.*); **~ etmək** to make* public / known (*d.*); **~ olmaq (aşkar olmaq)** to be* given publicity, to become* known, to be* made known; **aləmə ~ çəkmək** ≅ to set* all the bells a ringing; ≅ to spread* the news far and wide

**carçı** *i.* town / public crier; **(xəbərgətirən)** herald; *məc.* herald, forerunner, messenger, bringer of news; **baharın ~sı** a herald of spring; **Qaranquş baharın carçısıdır** The swallow is a herald of spring

**cari** *s.* current; present-day; present; **~ ildə** in the current year; **~ hesab** *mal.* current account; **~ məsələlər** present-day problems

**casus I.** *i.* spy; scout **II.** *s.* spy, scout; **~ adam** spy, scout; **~ təşkilatı** a spy organization, espionage organization; **~ dəstəsi** a scout troop

**casusluq** *i.* espionage; **~ etmək** to spy (on, upon), to scout about / around (for smb / *smth.*), to act as a spy

**cavab I.** *i.* answer, reply; response; **~ vermək** to answer (*d.*), to reply (to); to respond (to); to make* a reply / response (to); **suala** / **məktuba ~ vermək** to reply / to respond to a question / a letter; **O, sualıma cavab vermədi** He made no reply / response to my question He did not answer my question; **kimdənsə məktubuna ~ gözləmək** to await *smb.*'s response to one's letter; **sorğunuzun ~ında** in response to your inquiry; **məktubunuzun ~ında** in reply to your letter; **dərsə ~ vermək** to say* one's lesson; **müsbət ~** affirmative answer / reply; favourable reply; **~ qaytarmaq** to answer back; to return, to rejoin; to retort; to be* impudent / impertinent / insolent (to); to cheek (*d.*), *d.d.* to sauce (*d.*); **tələbata ~ vermək (uyğun olmaq)** to meet* the requirements; to be* up to the requirements; *d.d.* to be* up to the mark; **dəqiq ~** neat answer; **başı ilə ~ vermək** / **cavabdeh olmaq** to stake one's life on *smb.* (smth); **Buna başınla cavab verəcəksən** You will answer for this with your life **II.** *s.* respondent; **~ məktubu** a letter in return; **~ hissi** respondent sentiments

**cavabdeh** *i.* responder, respondent; *hüq.* defendant; **~ olmaq** to answer (for), to be* responsible / answerable (to *smb.*, for *smth.*); *hüq.* to be* defendant; to be* amenable; to be* accountable for

**cavabdehlik** *i.* responsibility; *hüq.* amenability; **cavabdehliyi öz üzərinə götürmək** to take* upon oneself the responsibility, to assume the responsibility (for); **~ daşımaq** to bear* the responsibility (for); **cavabdehliyi öz üzərindən atmaq** to decline the responsibility (for); **Bunun bütün cavabdehliyi sizin üzərinizə düşür** All / Full responsibility for this rests with you

**cavablı** *s.* (*i.s.*) with an answer / reply; in return, in answer; **~ məktub** a letter in return

**cavabsız** *s.* unanswered, (*i.s.*) without an answer / reply, (*i.s.*) having no answer / response; (*i.s.*) with no response / reply;

~ **məktub** unanswered letter; **Onun məhəbbəti cavabsız qaldı** His / Her love met with no response

**cavahirat** *i.* jewellery, jewelry; *top. i.* jewels; **süni** ~ false / paste jewelry

**cavan I.** *i.* youth (*pl. amer.* youths); youngster; **~lar** the youth; *d.d.* the younger generation; the youngsters **II.** *s.* young; youthful; immature; **(təcrübəsiz)** unexperienced; **lap** ~ the youngest; ~ **kadrlar** the youth; *d.d.* the younger generation; **~oğlan** young man*; ~ **qız** young girl; ~ **görkəm** youthful appearance; **O məndən cavandır** He / She is younger than me **III.** *z.* ~ **görünmək** to look young, to look youthful, to have* youthful looks

**cavancasına** *z.* youthfully

**cavanəzən** *i.* young married woman*; bride; newly married woman*

**cavanlanmaq** *f.* to grow* young again; to look younger; to rejuvenate / rejuvenize

**cavanlıq** *i.* youthfulness; youth; **cavanlığında** in one's youth

**caydaq** *s. d.d.* leggy, lanky, long-legged; ~ **oğlan (yöndəmsiz)** a gangling leggy boy; ~ **(hündür) oğlan (adam)** a long lanky fellow

**caynaq** *i.* claw; **(yırtıcı quşun)** talon; **quş caynağı** claw of a bird; **qartal caynağı** talon of an eagle; **caynaqlarını göstərmək** ≅ to show* one's claws, to show* one's teeth; to put* out a claw; **caynağına keçmək** to fall* into the clutches; **bir kəsin caynağında** in *smb.*'s claws; **bir şeyi caynağı ilə tutmaq** to claw hold of *smth.*; **caynağına keçirmək** *bax* **caynaqlamaq**

**caynaqlamaq** *f.* to claw (*d.*), to get* hold of / to pull / to dig* / to tear* with claws

**caynaqlanmaq** *i.* to be* clawed, to be* torn / seized / pulled with claws

**caynaqlatmaq** *i.* to ask / to cause *s.*o to claw (*d.*), to cause a bird to seize (*d.*) / to pull (*d.*) with claws

**caynaqlı** *s.* **1.** clawed, (*i.s.*) having claws, (*i.s.*) armed with claws; **2.** *d.d.* who seizes / grasps strongly; ~ **adam** a man armed with claws; a clawed man

**caynaqsız** *s.* clawless, without claws, (*i.s.*) having no claws

**caz I.** *i.* **(musiqi)** jazz; **(orkestr) caz**; jazz band **II.** *s.* jazz; jazzy; **caz orkestri** jazz band; ~ **musiqisi** jazz music

**cazibə I.** *i.* **1.** *fiz.* gravitation, gravity; **2.** magnetic force; **3.** attractiveness; charm, fascination, inclination, attraction **II.** *s.* **fiz**: ~ **qüvvəsi** attractive power; ~ **qanunu** the law of gravitation

**cazibədar** *s.* **1.** charming, delightful, fascinating, fascinated, attractive; very pleasing, winning; **(tamahlandırıcı)** tempting, alluring, inviting; piquant, seductive, seducing; **(üslub)** crisp; ~ **qadın** charming / attractive woman*; ~ **təbəssüm** winning / attractive / charming / fascinating smile; **Onun cazibədar qüvvəsi var** She has the power to attract; ~ **əda** charming manners; ~ **mənzərə** the seductive landscape; ~ **musiqi** / **səs** seductive music / voice; ~ **baxış** inviting look; **2.** gravitative, gravitational

**cazibəli** *s. bax* **cazibədar**

**cazibəlilik** *i.* piquancy, attractiveness, allurement, fascination, delightfulness

**cazibəsiz** *s.* charmless, unattractive, not delightful / fascinating

**cazibəsizlik** *i.* unattractiveness, the quality of being not charming / attractive

**cehiz** *i.* dowry; ~ **vermək** to give* dowry to

**cehizli** *s.* ~ **gəlin** a bride provided with a dowry

**cehizlik** *i.* destined for (to) dowry; **Bu cehizlikdir** It is destined for dowry

**cehizsiz** *z.* (*i.s.*) without dowry; ~ **gəlin** a bride without dowry

**cemper** *i.* jemper; **kişi ~i** pullover

**centlmen** *i.* gentleman*; **əsl** ~ true gentleman*; ~ **olmaq** to be* a gentleman*

**ceyran** *i. zool.* gazelle

**cəbbəxana** *i.* **1. (hərbi zavod)** arsenal; **2. (silah anbarı)** armoury; **(hərbi)** storeroom

**cəbhə I.** *i.* front, battle-field; **(ön cəbhə)** battle-front; **geniş** ~ wide / extended front; ~ **də olmaq** to be* at the front; **~yə getmək** to go* to the front; **ideoloji** ~ ideological front; **sülh ~si** the Front of Peace; vahid ~ united front; **sülh və demokratiya ~si** the Front of Peace and Democracy; **xalq ~si** the people's popular front **II.** *s.* front; ~ **xətti** front-line; ~ **yoldaşı** front-

line comrade / pal; brother-soldier; brother-officer

**cəbhəçi** *i.* front-line soldier

**cəbr** *i.* **1.** algebra; **2.** violence, press; oppression; **(əsarət)** yoke; compulsion, constraint

**cəbrən** *z.* by force, under compulsion / constraint

**cədvəl** *i.* (time-) table, schedule; list; **astronomik ~** astronomical tables; **vurma ~i** multiplication tables; **ölçü və çəki ~i** tables of weights and measures; **loqarifma ~i** tables of logarithms, logarithm tables; **idman yarışı ~i** (score) table; **~ üzrə** on schedule; **~ə əsasən / uyğun** according to schedule

**cəfa** *i.* suffering; torment, torture; pangs *pl.*; **~ çəkmək** to bear*, to stand*; **Cəfasını mən çəkdim, səfasını yad gördü** *at. söz.* ≅ One man makes a chair and another sits on it

**cəfakeş I.** *i.* sufferer, martyr **II.** *s.* suffering; **~ adam** sufferer, martyr

**cəfakeşlik** *i.* martyrdom, torment; suffering; *arx.* sufference; **~ etmək** to make* a martyr of oneself

**cəfəng I.** *s.* absurd, foolish, inept, preposterous; **(gülməli)** ridiculous; **(boş)** nonsensical; trifling; **Nə qədər də cəfəng!** How ridiculous! What rubbish **II.** *z.* absurdly, **(mənasız)** senselessly; foolishly; **~ danışmaq** to talk nonsense

**cəfəngiyat** *i.* drivel, absurdity; *d.d.* balderdash, nonsense, trash, rot, rubbish; **(yalan)** stuff and nonsense; **hər cür ~** all sorts of nonsense; small / trifling matter; **~ danışmaq** *d.d.* to talk nonsense; **Bu cəfəngiyyatdır!** That's nonsense!

**cəfəngləmək** *f.* to twaddle, to prate, to drivel; to talk nonsense / rot

**cəfənglik** *i.* absurdity; ineptitude; nonsense; twaddle; **(yalan-palan)** tittle-tattle

**cəfəri** *i. bot.* parsley

**cəftə** *i.* bolt, bar

**cəftələmək** *f.* to bolt (*d.*); to bar (*d.*); to hook (*d.*)

**cəftələnmək** *f.* to be* hooked; to be* bolted

**cəftələtmək** *f.* to ask / to cause *s.o.* to bolt (*d.*)

**cəftəli** *s.* hooked; bolted, barred

**cəftəsiz** *s.* (*i.s.*) without a hook, (*i.s.*) without a bolt

**cəhalət** *i.* ignorance, intellectual darkness; lack of culture; obscurantism

**cəhalətpərəst** *i.* obscurantist, obscurant

**cəhalətpərəstlik** *i.* obscurantism

**cəh-cəh** *i.* **(quşun)** warble; **(zəngulə)** trill; **~ vurmaq (quş** *haq.***)** to trill, to warble; *məc.* to trill; to sing* merrily; **bülbülün ~i** *d.d.* warble / warbling of the nightingale

**cəhd** *i.* **1.** effort; striving, endeavour, trying hard; **2.** solicitation, importunity; **~ etmək** to strive, to endeavour, to try; to show* zeal for *smth.*; to make* a great effort; **boş-boşuna / əbəs yerə ~ etmək** to waste one's efforts, to mill the wind, to beat* the air *idiom.*; **Cəhd ilə siçan taxtanı dələr** *at. söz.* ≅ Diligence is the mother of good luck (of success)

**cəhdlə** *z. d.d.* studiously, assiduously, diligently, zealously; **~ işləmək** to work with zeal / diligence

**cəhdli** *s.* zealous; diligent, painstaking; assiduous

**cəhənnəm I.** *i.* hell; Hades, the Underworld; *din.* Gehenna; *arx.* nether world; the nether regions; **~ əzabı çəkmək / ~ oduna yanmaq** to suffer / to go* through hell; **Cəhənnəm ol!** Go to hell! Away with you!, Be off!, Get away!, Go to the devil!; **II.** *s.* diabolical, infernal, hellish; **~ əzabı** torment of hell

**cəhət** *i.* **1.** *coğ.* pole; side, part; aspect; **2.** cause, **(əsas)** reason; motive; purpose; feature, peculiarity; **milli ~, (xüsuliyyət)** national peculiarity / feature; **heç bir ~dən** on neither side; **bir ~dən ... digər ~dən** on the one hand... on the other hand; **Başlıca cəhət odur** ***ki...*** The main thing is *that...*; **həyatın müxtəlif ~ləri** various aspects of life

**cəhl** *i.* argument, argumentation; debate, **(kiçik)** bicker, wrangle; **~ etmək** to argue (about, against), to have* an argument (about, against), to squabble (with), to have* a debate

**cəlb** *i.* **~ etmək** to draw* (in, into *d.*), to allure (*d.*); to attract (*d.*), to captivate (*d.*); to fascinate (*d.*); to charm (*d.*); (pis **işə**) to inveigle (*d.* into); **işə ~ etmək** to enlist (*d.*); **tədqiqat işinə ~ etmək** to draw* into

research work (*d.*); **dinləyicini ~ etmək** to draw* an audience; **birinin diqqətini / nəzərini bir şeyə ~ etmək** to arrest / to attract / to draw* *smb.*'s attention to *smth.*; **~ olunmaq** to be* drawn (into), to be* attracted (to), to be* fascinated (to); to be* carried away (by); to be* captured

**cəlbedici I.** *s.* attractive, winning; pleasing, charming; **(aldadıcı)** alluring, inviting; **~ təbəssüm** charming / fascinating / winning / attractive smile **II.** *z.* attractively, fascinatingly, delightfully; piquantly; charmingly; seductively; winningly, invitingly; alluringly

**cəld I.** *s.* fast, quick, rapid; energetic; prompt; swift; brisk, lively, nimble, agile, speedy; expeditious; **~ qaçan** a fast runner; **~ (qaçan)** at a fast horse; **~ olmaq** to be* prompt / fast / quick / swift / brisk / rapid (+ to *inf.*); **~ cavab** quick reply, swift response; **~ (diribaş) uşaq** smart / bright child; **Cəld ol!** Be quick! **II.** *z.* fast, quick(ly); rapidly; promptly; swift(ly); speedily; nimble; **~ qaçmaq / getmək** to run* / to go* fast; **~ danışmaq** to speak* fast; **Belə cəld danışmayın!** Don't speak so fast!

**cəldlik** *i.* quickness, promptness, swiftness; agility, dexterity; *amer.* vim, pep; nimbleness, briskness

**cəldləşdirmək** *f.* to quicken (*d.*), to cause (*d.*) to become quick / agile

**cəldləşmək** *f.* to become* agile / quick / prompt / swift / nimble

**cəllad I.** *i.* executioner, hangman*; *məc.* butcher; *məc.* despot; merciless person; brute **II.** *s.* **(rəhmsiz)** cruel; inhuman; **(vəhşi)** savage; **(sərt)** brutal; **~ adam** a brute, brutal / cruel man*

**cəlladcasına** *z.* **~ öldürmək** to butcher (*d.*), to execute (*d.*), **(xüsusilə bıçaqla)** to kill violently (*d.*)

**cəlladlıq** *i. məc.* brutality, cruelty, inhumanity, ruthlessness; **~ etmək** to butcher (*d.*), to kill violently (*d.*)

**cəm** *i.* **1.** totality, the aggregate; sum, the sum total; **2.** collection, gathering **3.** *qram.* plural (number); **~ etmək** to put* / to lay* (together) (*d.*); to heap (*d.*) (up together)

**cəmdək** *i. d.d.* carrion, dead flesh; *məc. d.d.* dead thing; **(böyük heyvan** *haq.***)** carcass, dead body; **inək cəmdəyi** carcass of a cow

**cəmi** *z.* in all, altogether, total; **ümumi ~** grand total, sum total; **(ancaq)** only

**cəmi-cümlətanı** *əd.* all in all, in all; only; **Cəmi-cümlətanı (vur-tut) iki kitabım var** I have two books in all, I have only two books

**cəmisi** *z. bax* **cəmi-cümlətanı**

**cəmiyyət** *i.* society; league; order; corporation; company; **ibtidai ~** primitive society; **sinifsiz ~** classless society; **kommunizm ~i** communist society; **kapitalist ~i** capitalist society; **Qırmızı Xaç və Qırmızı Aypara ~i** Red Cross and Crescent Society

**cəmiyyətəzidd** *s.* unsocial, anti-social

**cəmləmək** *f.* to sum up (*d.*); to put* / to lay* (together) (*d.*)

**cəmləşdirmək** *f.* to gather / to bring* together (*d.*), to collect (*d.*); to sum up (*d.*); to concentrate (*d.*); to fix (*d.*), **(fikir** *haq.***)** to focus (on) (*d.*); to attract and hold* the attention; **(əşya** *haq.***)** to heap (up, together) (*d.*); **diqqətini / var qüvvəsini ~** to concentrate on / to keep* / to focus / to fix / to direct one's attention / efforts (on *d.*) **fikrini ~** to collect one's thoughts; **gücünü ~** to summon (up) one's strength

**cəmləşmək** *f.* **1.** to gather together; **2.** to collect, to assemble; **Şagirdlər məktəbin zalına cəmləşdilər** The pupils assembled in the school hall

**cəmlətmək** *f.* to ask / to force *smb.* to gather (*d.*); to ask / to force *smb.* to sum (*d.*) up / to add up

**cənab** *i.*: **~ Braun** Mr. Brown; **~ prezident** Mr. President

**cənazə** *i.* **1. (əsasən insan** *haq.***)** corpse; **2.** dead human body; mortal remains

**cəncəl I.** *i.* muddle, mess, tangle; **(dolaşıqlıq)** mish-mash, jumble; cavil, slander; **~ə salmaq** to be* tangled in lies; to entangle (oneself); **~ə düşmək** to get* into a muddle; **~ salmaq (şər atmaq)** to slander *smb.*; **Bizi bu cəncələ kim saldı?** Who got us into this mess? **II.** *s.* tangled, muddled up, difficult; captious, pettifogging; **(pırtlaşıq)** intricate; **(qarışıq)** involved; **~ iş** captious case, intricate business, tangled knot; **~ məsələ** an intricate problem

**cəngavər I.** *i.* knight; fightingman*, fighter; pugilist **II.** *s.* fighter; martial; militant; bellicose; warlike; **~ təyyarəçi** a fighter pilot; **~ boksçu** a pugilist

**cəngəllik** *i.* jungle; *d.d.* **(qalın meşəlik)** thick / dense forest; *məc.* labyrinth; brushwood, thicket

**cənnət I.** *i.* paradise, the Garden of Eden, home of Adam and Eve, *şair.* Elysium **II.** *s. məc.* paradise; paradisiac, paradisiacal, paradisal; **~ ləzzəti** the joys of paradise; **~ alması** paradise apple; **~ qüşü** bird of paradise

**cənub I.** *i.* South; ~ a south; **~a getmək** to go* south; to go* to the South; **~da** in the South; **~ an (külək** *haq.***)** southerly, from the south; **~ istiqamətində** southerly, towards the south, southward(s) **II.** *s.* south, southern; **~ qütbü** *coğ.* South Pole; **~ küləyi** south wind, southern / southerly wind

**cənubi** *s.* south, southern; **~ Amerika** South America; **~ Avropa** Southern Europe

**cənub-qərb I.** *i.* south-west; **~dən (külək** *haq.***)** south-west, south-westerly, from the south-west; **~ə** south-westerly, towards the south-west **II.** *s.* south-west, south-westerly; **~ küləyi** south-westerly wind

**cənub-qərbi** *s.* south-west, south-westerly

**cənublu** *i.* **(cənubda yaşayan)** southerner

**cənub-şərq I.** *i.* south-east; **~ə** south-east; **~dən (külək** *haq.***)** south-east, south-easterly **II.** *s.* south-east; south-easterly; **~ küləyi** south-easter; **(cənub-şərqdən əsən külək)** south-easterly

**cənub-şərqi** *s.* south-east; south-easterly

**cərəyan** *i.* **1.** flow, movement; **2.** *fiz.* current; elektrik **~ı** electric current; **güclü** ~ strong current; **hava ~ı** air current; **daimi** ~ a steady flow; **elektron** ~ stream / flow of electrons; **~ etmək** to flow*; to pass; **(baş-vermək)** to occur, to happen; **3.** trend

**cərgə** *i.* **(xüsusilə teatrda)** row; line; *hərb.* file, rank; formation; **~ni sıxlaşdırmaq** to close* a file; **arxa** ~ back row; **birinci ~də** in the first row; in the first rank; **~yə düzülmək** to line up, to rank, to form a rank; to get* into a line, to form a line; **~yə düzmək** to line (*d.*), to rank (*d.*), to form in column (*d.*)

**cərgəarası I.** *i.* *k.t.* space between rows **II.** *s.*: **~ becərmə** inter-row cultivation

**cərgə-cərgə** *z.* in ranks, in rows

**cərgələmək** *f.* to rank (*d.*), to line (*d.*)

**cərgələnmək** *f.* to rank, to line (up); **Əsgərlər cəld cərgələndilər** The soldiers quickly lined up

**cərimə I.** *i.* **(pul)** fine; penalty; **~ni ödəmək** to pay* a fine; **ağır** ~ heavy fine; **~ etmək** to fine, to set* / to impose a fine (on); **~ vermək** to give* a penalty; **~ təyin etmək** to make* / to declare penalty; **O, yüz manat cərimə verdi** He / She paid hundred manats fine **II.** *s.* penal, penalty; **~ meydanı** *id.* penalty area; **~ zərbəsi** *id.* penalty kick; **~ batalyonu** *hərb.* penal battalion

**cəriműləmək** *f.* to fine (*d.*), to punish by fine (*d.*), to penalize (*d.*), to set* / to impose a fine (on)

**cərimələnmək** *f.* to be* fined / penalized; **Biz 50 $ cərimələndik** We were fined $ 50

**cərrah I.** *i.* *tib.* surgeon **II.** *s.* surgical; **~ alətləri** surgical instruments; **~ müalicəsi** surgical treatment

**cərrahiyə I.** *i.* operation **II.** *s.* *amer.* operative, surgical; **~ otağı** an operation room, surgery; **~ stolu** operating-table; **~ əməliyyatı** surgical operation; **~ müalicəsi** operative treatment

**cərrahlıq I.** *i.* surgery **II.** *s.* surgical; **~ sənəti** surgical profession; **~ təcrübəsi** surgical practice

**cəsarət** *i.* boldness, courage, bravery, valour; **~ etmək** to dare*, to venture (*d.* + to *inf.*), to make* bold (+ to *inf.*), to take* the liberty (of); **~ göstərmək** to show* / to display courage

**cəsarətlə** *z.* courageously, boldly, defiantly, fearlessly; resolutely; decidedly; **~ danışmaq** to speak* boldly / freely; **Mən cəsarətlə deyə bilərəm** I can safely say, I'll be bold to say

**cəsarətləndirmək** *f.* to cheer up (*d.*); to bolden (*d.*), to encourage (*d.*), to give* courage / confidence to, to inspire with courage / confidence

**cəsarətlənmək** *f.* to dare (+to *inf.*), to have* courage; to be* bold; to make* (so) bold; to screw up one's courage (+to *inf.*)

**cəsarətli** *s.* courageous, daring, audacious, bold, resolute, decided, plucky, brave, intrepid; ~ **olmaq** to be* brave / courageous; **Cəsarətli ol!** Don't lose courage! (Pluck up your) Courage!

**cəsarətlilik** *i.* boldness, audaciousness, audacity; encouragement, venture

**cəsarətsiz I.** *s.* irresolute, indecisive, cowardly, faint-heart(ed), craven, poor-spirited; ~ **olmaq** to be* coward / craven **II.** *z.* cowardly, faint-heartedly, cravenly

**cəsarətsizləşmək** *f.* to lose* courage, to lose* heart, to be* despondent; to become* faint-hearted / coward

**cəsarətsizlik** *i.* indecision; timidity; faint-heartedness, cowardice, cravenness

**cəsəd** *i.* dead body; corpse; **(böyük heyvan** *haq.***)** carcass

**cəsur** *s. bax* **cəsarətli**

**cəsurluq** *i. bax* **cəsarət**

**cəza I.** *i.* punishment; **(ciddi**, **ağır)** chastisement; **(töhmət mənasında)** penalty; **(bədən)** flogging; **cismani** ~ corporal punishment; **ölüm ~sı** punishment by death, capital punishment, death penalty; ~ **vermək** to inflict a punishment (on *smb.*); **Cani ölüm cəzası ilə cəzalandırılır** Murderer is punished by death **II.** *s.* punitive; ~ **dəstəsi** a punitive detachment

**cəzalandırılmaq** *f.* to be* punished / chastised, to be* subjected to punishment

**cəzalandırmaq** *f.* to punish (*d.*), **(ciddi)** to chastise (*d.*), to inflict a penalty (upon, on *d.*); to penalize (*d.*)

**cəzalanmaq** *f. bax* **cəzalandırılmaq**

**cəzasiz I.** *s.* unpunished **II.** *z.* with impunity; ~ **qalmaq** to go* unpunished

**cəzasızlıq** *i.* impunity

**cəzb** *i.* attraction; attractiveness, charm, fascination; **(aldadıcı)** seduction, delusion; ~ **etmək** to attract (*d.*), to draw* (*d.*); ~ **olunmaq** to be* carried away; to be* fascinated / captivated; **Maqnit dəmiri cəzb edir** Magnet attracts iron

**cəzbedici** *s.* charming, fascinating, alluring, captivating; ~ **qız** a charming girl; ~ **təbəssüm** charming / fascinating / captivating smile

**cəzirə** *i. bax* **səhra**

**cıdır I.** *i. d.d.* horse-race; racing; *d.d.* race-meeting, the races; **maneəsiz** ~ flat race(s); **maneəli** ~ obstacle-race; **~da iştirak etmək (adam və** ***at.*** *haq.***)** to race, to run (in) a race; **~da qalib gəlmək** to win the race **II.** *s.* racing, race; ~ **meydanı** hippodrome, race-course; ~ **proqramı** race-card; ~ **günü** race-day; ~ **atı** racer, race-horse; ~ **yolu** race-track **(stadionda)**, race-course

**cıdırçı** *i. id.* jockey, rider

**cığallamaq** *f.* **1.** to break* the rules of the game intentionally / deliberately; **2.** to retract one's words, to go* back on one's word

**cığallıq** *i.* intentional breaking of the game rules; ~ **etmək** *bax* **cığallamaq**

**cığıldamaq** *f.* to squeak; to give* / to make* a squeak, to peep; **Uşağın oyuncağı cığıldayır** The baby's toy peeps / squeaks

**cığıldaşmaq** *f.* to squeak (all) together, to chirp (all) together, to peep together

**cığıldatmaq** *f.* to cause to squeak (*d.*) / to chirp (*d.*)

**cığıltı** *i.* squeak, squeaking, rattle; **körpə ~sı** a baby's rattle; ~ **salmaq** to make* / to give* a squeak

**cığıltılı** *s.* squeaky; ~ **səs** a squeaky voice

**cığır** *i.* **1.** path; **(tarlada**, **meşədə)** footpath, track, pathway; trail; **işlək** / **döyənək** ~ *amer.* blazed trail, beaten track; **~la getmək** to follow the path; **~ından çıxmaq** *məc.* to overstep the limits (of), to exceed the bounds (of); **Bu cığırla gedin** Keep the path! **2.** *məc.* direction, way; **həyat ~ı** walk of life; line of life; ~ **açmaq** 1) to pave the way; 2) *məc.* to start a new method, to open the way to *smth.*; **~dan çıxmaq** *məc.* to overstep the limits, to pass all bounds, to go* over the line

**cığırdaş** *i.* fellow-traveller

**cıqqılı** *s. d.d.* **1.** tiny, tiny little, wee, diminutive; ~ **adam** diminutive man*; ~ **uşaq** a wee child, tiny little child, tiny tot; ~ **oğlan** a wee lad; ~ it a diminutive dog; ~ **əllər** tiny hands; **2.**: ~ **uşaqlar** tinies *pl.*

**cıqqır** *i.* **~ını çıxartmamaq** never to utter a sound, never to produce sounds, to keep* silent / silence

**cılxa** *s.* lean; **(çəki, gəlir)** net clear; pure; *amer.* straight **(saf, əlavəsiz)**; ~ **gümüş / qızıl** pure / clean silver / gold; ~ spirt pure alcohol; *d.d.* neat spirits *pl.*

**cılız** *s.* emaciated, puny, wasted; haggard; **(bir dəri-bir sümük)** scraggy, *d.d.* skinny; gaunt lean; weak, feeble, sickly, undersized; ~ **bədən** emaciated / meagre / gaunt frame; ~ **uşaq** weak / feeble child*; ~ **oğlan** skinny boy; ~ **qarı** a feeble / gaunt old woman*

**sılızlanmaq** *f.* to get* / to grow* / to become* emaciated / thin, to lose* flesh, to become* weaker; to pine

**cılızlaşdırmaq** *f.* to emaciate (*d.*), to make* thin (*d.*), to weaken (*d.*), to make* weaker (*d.*); **Uzun sürən xəstəlik onu cılızlaşdırmışdı** He / She was emaciated by long illness

**cılızlaşmaq** *f. bax* **cılızlanmaq**

**cılızlıq** *i.* gauntness, skinniness, emaciation, puniness, weakness

**cındır I.** *i.* rag, shred, scrap; **maşını silmək / təmizləmək üçün** ~ rag to polish the car with; **döşəmə ~ı** house-flannel; **Cındırından cin hürkər** He / She is dressed in shreds and tatters **II.** *s.* ragged [ˈræɡɪd], rag, scrappy; *d.d.* tattered, torn

**cındırçı** *i.* **(kişi)** ragman*, **(qadın, kişi)** rag-picker; **(qadın)** rag woman*

**cındırlaşmaq** *f.* to be* in tatters, to be* torn to tatters / to shreds

**cındırlı** *s.* (*i.s.*) ragged; in rags

**cındır-mındır** *i.* scraps, waste material; rags, old / worn clothing

**cınqıldamaq** *f.* to ring*; **(sim)** to twang; to jangle, **(metal əşya)** to clank, to clang, **(qab)** to clatter; **(pul)** to rattle

**cınqıldatmaq** *f.* **(zınqrov)** to peal (*d.*), **(stəkan)** to clink (*d.*); **(açar, pul)** to jingle (*d.*); *d.d.* to tinkle (*d.*), **(qab)** to clatter (*d.*); **(pul)** to rattle

**cınqılı** *s.* tiny, wee, very small

**cınqıltı** *i.* **(zınqrov)** peal, jangle, **(zəncir)** clank, **(açar)** clang (-ing); **(zınqrov və s.)** tinkling, tinkle; **(pul)** rattle

**cınqır** *i.*: **~ını çıxartmaq** to utter a word; **O, cınqırını çəkməyə curət etmir** He / She does not dare to utter a word; **Cınqırını çıxartma!** Don't dare to utter a word!

**cın-cındır** *i. bax* **cır-cındır**

**cır I.** *s. bot.* savage, **(meyvə)** wild; ~ **ağac** wild tree / wilding; ~ **alma** wild apple; *d.d.* wilding; **(albalı)** wild cherry; ~ **bitki** wild plants, wilding; ~ **armud** wild pear **II. (səs** *haq.***)**; ~ **səs** shrill voice, screamy voice; **Onun cır səsi var** He / She has a shrill / screamy voice

**cır-cındır** *i.* rags *pl.*; shabby clothes; old clothes; ~ **yığan**, ~ **alıb-satan** rag-picker, rag-and-bone man*; scrap merchant, dealer in scrap; ~ **içərisində olmaq** to be* in rags; ~ **geymiş** dressed in rags; ~ **alıb-satmaq** to buy* and to sell* scrap

**cırcırama** *i. zool.* dragonfly

**cırlıq** *i.* wildness; **(səsdə)** shrillness

**cırıq I.** *i.* **(dəridə, ağac gövdəsində)**, scar; **(paltarda)** tear **II.** *s.* ragged, tattered, torn; ~ **ayaqqabı** torn / broken shoes

**cırıq-cırıq** *s. d.d.* tattered, torn to shreds, worn to rags; ~ **olmaq** to be* in shreds and tatters, to be* in rags; **Onun üz-gözü cırıq-cırıqdır** Her / His face is covered with scratches; Her / His face is scratched all over

**çevirmək** *f.* **1.** to turn (*d.*); **sağa** / **sola** ~ to turn (to the) right / (to the) left; **2.** turn over (*d.*); **səhifəni** ~ to turn over a page; **Boçkanı ağzı üstə çevir** Turn the barrel over; **3.** to overturn, **to** tipple, to topple over; **Qayıq çevrildi** The boat overturned; **4.** to translate (*d.* from, into); **ruscadan ingiliscəyə** ~ to translate from Russian into English; **5. (paltarı və s.-ni)** to turn (*d.*); **paltonu ~ to turn a** coat; **avand tərəfinə** ~ to turn inside out (*d.*)
**çevirtdirmək** *f.* **1.** to ask / to cause *smb.* to turn (*d.*) / to turn over (*d.*); **2. (tərcümə etdirmək)** to ask / to cause *smb.* to translate (*d.*); to have* (*d.*) translated
**çevrə** *i.* **1.** circle; ~ **nin səthi** *riyaz.* area of a circle; **2.** contour, outline
**çevrələmək** *f.* to encircle (*d.* with), to surround (*d.* with), to outline (*d.*)
**çevrələnmək** *f.* to be* encircled (with) / surrounded (with) / outlined
**çevrələtmək** *f.* to ask / to cause *smb.* to encircle (*d.*), to ask / to cause *smb.* to surround (*d.*) with) / to outline (*d.*)
**çevrəsində** *z.* round, around; ~ **gəzmək** / **dolaşmaq** to walk round / around (*d.*)
**çevriliş** *i.* revolution; overturn; coup; **dövlət ~i** coup d'etat *fr.*; saray **~i** palace revolution; **hərbi** ~ military coup d'etat; ~ **etmək** to overturn (*d.*)
**çevrilmək** *f.* **1.** to overturn, to tip over; **(gəmi** *haq.***)** to capsize; to turn; **Maşın çevrildi** The car overturned; **o yan bu yana** ~ to turn from side to side; **2. (tərcümə olunmaq)** to be*translated
**çeynəmək** *f.* **1.** to chew (*d.*), to masticate (*d.*); to ruminate (*d.*); **saqqız** ~ to chew the cud / gum **2.** *məc.* to repeat with tiresome monotony (*d.*)
**çeynənmək** *f.* **1.** to be* chewed / masticated; **2.** to be* repeated with tiresome monotony
**çeynətmək** *f.* to ask / to cause *smb.* to chew (*d.*) / to masticate (*d.*)
**çəhrayı** *s.* pink, rose-coloured; rosy; ◊ **hər şeyi ~ görmək** to see* everything through rose-coloured spectacles *idiom.*
**çəhrayıtəhər** *s.* pinkish, whitish-pink
**çəkdirmək** *f.* **1.** to ask / to cause *smb.* to pull (*d.*) / to draw* (in, into); **2. (hava, maye və s.** *haq.***)** to ask / to cause *smb.* to draw out (*d.*); **3. (yedəkdə apartdırmaq)** to ask / to cause *smb.* to tow (*d.*); **4. (dişi)** to ask / to cause *smb.* to pull out (*d.*); **dişini** ~ to have* one's tooth pulled out; **5. (yükü və s.)** to ask / to cause *smb.* to weigh (*d.*)
**çəki** *i.* weight; *məc.* weight; influence, authority; **xüsusi** ~ specific weight; **böyük ~si olmaq** *məc.* to be* highly influential
**çəkic** *i.* hammer; **oraq və** ~ hammer and sickle; **buxar ~i** steam hammer
**çəkicləmək** *f.* to hammer (*d.*); **dəmiri** ~ to hammer iron
**çəkiclənmək** *f.* to be* hammered
**çəkicvuran** *i.* hammerer, hammerman*, blacksmith's striker
**çəkil** *i.* mulberry (tree)
**çəkillik** *i.* mulberry grove
**çəkilmək** *f.* **1.** to be* pulled (in, into, on, up), to be* drawn (in, into, on, up); **2. (hava, maye və s.)** to be* drawn (out); **3. (yedəkdə)** to be* towed; *məc.* to be* pulled; **4. (diş və s.)** to be* pulled out; **5. (məhkəməyə)** to be* brought to trial, to be* put on trial, to be* taken to court; **6. (çəki və s.)** to be* weighed
**çəkindirmək** *f.* to make* *smb.* avoid / abstain (from), to deviate (from *d.*)

**çəkinmək** *f.* to deviate (from), to avoid, to abstain (from), to refrain (from); **yeməkdən** ~ to abstain from food / eating; **kiminləsə görüşdən** ~ to avoid meeting *smb.*

**çəkmə** *i.* (high) boot; **(boğazı qatlama)** top-boot; **(dizdən yuxarı)** jackboot

**çəkməçi** *i.* shoemaker, bootmaker

**çəkmək I.** *f.* **1.** to pull (*d.*, in, into, on, up), to draw* (*d.*, in, into, on, up); **(sürümək)** to drag (*d.*), to tug (*d.*); **kiminsə saçından** ~ to pull *smb.* by the hair, to pull *smb.*'s hair; **2. (cəlb etmək)** to draw* (*d.* into), **3. (hava**, **maye və s.)** to draw* (*d.*), **hava** ~ to draw* / to breathe in the air; **maye** ~ to suck up / to absorb liquid; **su** ~ to draw* water; **4. (yedəkdə)** to tow (*d.*), to have* in tow (*d.*); *məc.* to pull (*d.*); **5. (diş və s.)** to pull out (*d.*), **diş** ~ to pull out a tooth; **məhkəməyə** ~ to bring* to trial (*d.*), to put* on trial (*d.*), to take* to court (*d.*), **6. (ağırlıq)** to weigh (*d.*); **qənd** / **naxıl və s**. ~ to weigh sugar / grain, *etc*. **II.** *f.* **1.** to smoke (*d.*); **papiros** ~ to smoke; **2. (spirt**, **araq və s.)** to distil (*d.*); **buğdadan araq** ~ to distil wheat

**çəkməsilən** *i.* shoeblack, bootblack

**çələng** *i.* garland, wreath*; ~ **hörmək** to garland, to make* a garland / wreath; ~ **qoymaq** to garland (on)

**çəlik** *i.* cane, walking-stick

**çəllək** *i.* barrel, cask; **(çaxır üçün)** tun

**çəlləkçi** *i.* cooper

**çəlləkçilik** *i.* cooperage

**çəlləkqayıran** *i. bax* **çəlləkçi**

**çəlpəşik** *s. bax* **dolaşıq II**

**çəltik** *i.* paddy, rice paddy

**çəltikçi** *i.* cultivator of paddy, paddy grower

**çəltikçilik I.** *i.* the job of paddy cultivator **II.** *s.* paddy growing; ~ **təssərrüfatı** paddy growing farm

**çəm** *i.* method of approach, right approach, correct approach; **yanaşmanın düzgün ~ini tapmaq** to find* the right method of approach

**çəmən** *i.* meadow; grassland

**çəmənçilik** *i.* cultivation of meadows

**çəmənli s** meadowy

**çəmənlik i** meadow, lawn, grass-plot

**çəmkirmək** *f.* to shout, to rate (at, *d.*), to shout (at), **kiməsə** ~ to shout at *smb.*, to rate at *smb.*; **çəmkirmə!** Don't shout! Don't rate!

**çən** *i.* mist; **(qatı)** fog; **(zəif ~)** haze; *şair.* shadow; **Bayırda çəndir** It is misty / foggy outside, **Çən qalxır** A mist is rising

**çənbər** *i.* hoop

**çənbərləmək** *f.* to hoop (*d.*); **çəlləyi** / **boçkanı** ~ to hoop a cask / barrel, to bind* a cask / barrel

**çənbərlənmək** *f.* to be* hooped

**çənbərlətmək** *f.* to ask / to force *smb.* to hoop (*d.*)

**çənə** *i.* jaw; *elm.* maxilla (*pl.* -ae); **yuxarı** ~ upper jaw; **aşağı** ~ lower jaw

**çənələşmək** *f.* to argue (about, against), to dispute (about, against), to have* an argument (about, against); to altercate (with) *d.d.*, to wrangle (with), squabble (with); **Siz nə çənələşirsiniz?** What are you arguing about?

**çəng** *i.*: ~ **inə keçmək** to fall* into *smb.*'s hand, to fall* into *smb.*'s clutches

**çəngə** *i.* wisp, tuft, handful; flock; **bir** ~ **göy ot** a wisp of grass; **bir** ~ quru ot a wisp of hay

**çəngəl** *i.* **1.** (*müx.* **mənalarda)** hook; **(tilov)** fish-hook; **2. (xörək yemək üçün)** fork

**çəngəl-bıçaq** *top. i.* part of dinner service; knives and forks

**çəngələmək** *f.* to take* *smth.* full of hand, to grasp (*d.*), to snatch (*d.*)

**çəngələoxşar** *s. bax* **çəngəlvarı**

**çəngəlvarı** *f.* forked; forky; fork-shaped

**çənləşmək** *f.* to become* / to grow* / to get* hazy / misty / foggy

**çənli** *s.* misty, hazy, foggy; **Bu gün hava çənlidir** It is misty / foggy today

**çəp I.** *s.* slanting, skew, oblique; **(göz)** squint, squinting, (adam) squint-eyed; ~ **baxış** scowling look, sidelong glance **II.** *z.* aslant, askew, asquint, obliquely; ~ **baxmaq** to look aslant / askew; **Yağış çəp yağırdı** The rain was falling aslant

**çəp-çəp** *z. bax* **çəp II**

**çəpəki** *s. bax* **çəp I**

**çəpəki** *z. bax* **çəp II**

**çəpər** *i.* fence, fencing; **bağ ~i** garden fence; **dəmir** ~ iron fencing; **məftil** ~ wire fencing

**çəpərləmək** *f.* **(içəridən)** to fence in (*d.*); **(çöldən)** to fence off (*d.*), to enclose (*d.*); to shut* in (*d.*); **bağı ~** to fence in the garden; **Uşaqlar gölə düşməsin deyə biz onu çəpərlədik** We fenced off the lake in case children should fall in

**çəpərlənmək** *f.* to be* enclosed / shut in / fenced in

**çəpərlətmək** *f.* to ask / to force *smb.* to enclose (*d.*) / to shut in (*d.*) / to fence in (*d.*) / to fence off (*d.*)

**çəpərli** *s.* fenced; enclosed; **~ bağ** a fenced garden

**çəpgöz** *s.* squint- eyed, cross-eyed

**çəpgözlü** *s. bax* **çəpgöz**

**çəpgözlük** *i.* squint, cast in the eye; *elm.* strabismus

**çəpik** *i.* clap; **~ çalmaq** / **vurmaq** to clap one's hands

**çəpinə** *z.* sidewise, slant, askew, aslant, slantwise; **~ baxmaq** to look sidewise / askance

**çəpiş** *i.* kid (yearling)

**çəpləşmək** *f.* to get* / to become* squinted

**çərçi** *i.* **1.** pedlar; **2. (xırdaçı adam)** hair-splitter; **~ olmaq** 1) to be* a pedlar; 2) *məc.* to be* a hair-splitter

**çərçilik** *i.* **1.** the business of pedlar; **2.** *məc.* hair-splitter; **~ etmək**; 1) to be* a pedlar; 2) *məc.* to be* a hair-splitter

**çərçivə** *i.* **1.** frame; **pəncərə ~si** window-frame; **~dən çıxarmaq** to take*out of its frame (*d.*); **2.** limit; **~dən çıxmaq** to exceed / to overstep the limits (of)

**çərçivələmək** *f.* to frame (*d.*)

**çərçivələnmək** *f.* to be* framed

**çərçivəsiz** *s.* **1.** unframed, frameless; **2.** *məc.* limitless

**çərən** *i.* chatter, jabber; **Bu çərəndən başqa bir şey deyil** It's nothing but talk, That's all talk

**çərənçi I.** *i.* chatterer, jabberer, chatterbox; **~ olmaq** to be* a chatterer / chatterbox **II.** *s.* chatty; chattery, garrulous, talkative

**çərənçilik** *i.* chattiness, talkativeness, loquacity; **~ etmək** *bax* **çərənləmək**

**çərənləmək** *f.* to chatter, to jabber; to talk nonsense

**çərəz** *i.* dessert, sweet stuff, sweets *pl.*, sweetmeats *pl.*, *amer.* candy

**çərxifələk** *i.* fortune, fate, the vicissitudes of life; the reverses / tricks of fortune, the ups and downs (of life)

**çərləmək** *f.* **1. (heyvan və s.)** to pine; **2.** *məc.* to be* reduced to despair; to be* exhausted

**çərlətmək** *f.* **1.** to cause (*d.*) to pine; **2.** *məc.* to cause / to force *smb.* to be driven to despair; *məc.* to cause *smb.* to be exhausted

**çərpələng** *i.* kite; **~ uçurmaq** to fly* a kite

**çərşənbə** *i.* Wednesday; **~ günləri** on Wednesdays

**çərtik** *i.* notch; incision; **~ açmaq** *bax* **çərtmək (2-ci mənada)**

**çərtilmək** *f.* **1. (itilənmək-karandaş və s.)** to be* sharpened; **2.** to be* notched / incised

**çərtmək** *f.* **1. (karandaşı)** to sharpen (*d.*); **karandaşı ~** to sharpen a pencil; **2.** to incise (*d.*); to notch (*d.*); **ağacı ~** to notch in the stick

**çətin I.** *s.* difficult, hard; complicated; arduous; **~ iş** arduous / hard / difficult work; **~ dil** difficult language; **~ sual** hard / complicated question; **~ tapşırıq** difficult / arduous task; **~ vaxt** / **zaman** hard time(s); **~ vəziyyət** difficult / painful situation / predicament, ticklish situation *d.d.*; **~ vəziyyətə düşmək** to get* into difficulties / trouble; **~ vəziyyətdə olmaq** to be* in great difficulties, **~ vəziyyətdən çıxmaq** to get* out of a difficulty; **~ (tərbiyə edilən) uşaq** difficult child; **~ vəziyyətə salmaq** to bring* to bay **II.** *z.* hard, with difficulty; **~ yaşamaq** to live hard, to have* a hard time

**çətinləşdirmək** *f.* to make* difficult (*d.*); to impede (*d.*); to hamper (*d.*); **Qar mənim hərəkətimi çətinləşdirdi** The snow hampered my movement

**çətinləşmək** *f.* to become* difficult / hard

**çətinlik** *i.* difficulty, impediment, embarrassment; obstacle; **bir qədər ~ törətmək** to be* a matter of some difficulty; **heç bir ~ törətmir** it causes no difficulty; **~ də olmaq (özünü itirmək)** to be* at a loss; **~dən çıxmaq** to get* out of a difficulty; **maddi ~** financial / money difficulties; **~lə qarşılaşmaq** to face / to meet* with difficulties; **çətinliyə üstün gəlmək** to overcome* difficulties

**çətir** *i.* umbrella; sunshade, parasol; **çimərlik ~ i** beach umbrella / parasol
**çəyirdək** *i.* stone; **(almada**, **portağalda və s.)** pip
**çəyirdəkli** *s.*: **~ meyvələr** stone-fruits, drupes
**çəyirdəksiz** *s.* stoneless, (*i.s.*) without stone; **~ meyvələr** stoneless fruits; fruits without stone
**çəyirtkə** *i.* locust
**çığır-bağır** *i. d.d.* hubbub, uproar, hue-and-cry; **~ salmaq** to make* a noise; to raise* / to set* up a clamour
**çığırmaq** *f.* to cry, to shout, to yell, to scream; **var qüvvəsi ilə ~** to yell / to shout at the top of one's voice
**çığırtı** *i.* yell, scream, shout
**çığırtmaq** *f.* to cause *smb.* to cry / to shout / to scream
**çıxar** *i.* expenditure, outlay; **gəlir və ~** income* and expenditure
**çıxarılmaq** *f.* **1.** to be* taken out, to be* extracted; **(pulu kassadan)** to be* drawn, to be* carried out; **2. (qəzet**, **qanun və s.)** to be* published, to be* issued; **3. (işdən)** to be* led out, to be* discharged out, to be* dismissed; **O, işdən çıxarıldı** He / She was discharged / dismissed from office; **4. (sahilə və s.)** to be* put ashore, to be* landed; **Desant sahilə çıxarıldı** The troops were landed ashore; **5. (bir şeyi yerindən)** to be* pulled out, to be* torn out, to be* pulled up; **Ağac kökündən çıxarıldı** The tree was torn out by the roots; **6. (mineral**, **daş kömür və s.)** to be* extracted, to be* mined
**çıxarış** *i.* extract, excerpt; **protokoldan ~** extract from the minutes
**çıxarmaq** *f.* **1.** to take* out (*d.*), to pull out (*d.*); to extract (*d.*); **(pulu kassadan)** to draw* (*d.*), to carry out (*d.*); to sentence (*d.*); **hökm ~** to pass sentence (on), to sentence (*d.*); **qətnamə ~** to pass a resolution; **qərar ~** to decide (*d.*), to make* a decision; **(məhkəmədə)** to give / to pronounce judgement; **2. (qəzet**, **qanun və s.)** to publish (*d.*), to issue (*d.*); **qəzet ~** to publish a newspaper; **əmr / qərar ~** to issue an order / an edict; **3. (işdən)** to lead* out (*d.*), to discharge (*d.*), to dismiss (*d.*); to give* the sack *d.d.*; **işdən ~** to dismiss from office (*d.*); to disembark (*d.*), to land (*d.*); **desant ~** to land troops, to make* a landing; **4. (bir şeyi yerindən)** to pull out (*d.*), to tear* out (*d.*), to pull up (*d.*), **səhifəni kitabdan ~** to tear* a page out of a book; **kökündən ~** to tear* out by the roots (*d.*); **dişi ~** to pull out / extract a tooth*; **5. (mineral**, **daş kömür və s.)** to extract (*d.*), to mine (*d.*)
**çıxartmaq** *f. bax* **çıxarmaq**
**çıxdaş** *i.* spoilage, waster, defective goods / products / rejects
**çıxıq** *i.* dislocation; dislocated part
**çıxılan** *i. riyaz.* subtrahend
**çıxılmaz** *s.* hopeless, desperate; **~ vəziyyət** hopeless / desperate situation
**çıxıntı** *i.* **1.** protuberance, projection; **2.** appendix
**çıxış** *i.* **1. (səhnədə)** performance; **(tələblə)** statement; **(məruzə ilə)** speech; **birinci ~** first performance, *fr.* debut; **kütlələrin inqilabi ~ı** revolutionary action of masses; **2.** (yer) outlet, way out, exit; street door; **vəziyyətdən ~** way out of a situation; **Başqa çıxış yoxdur** There is no other way out, **Bu yeganə çıxışdır** It is the only thing to be done; ◊ **bütün giriş və ~ları bilmək** to be* perfectly at home, to know* all the ins and outs
**çıxmaq** *f.* **1.** to go* out; **(vaqondan)** to alight, to get* out; **evdən ~** to go* out (of the house), to leave* the house; **küçəyə ~** to go* into the street, to go* outdoors; **işə ~** to come* to work; **dənizə ~** to put* to sea, to put* out; **2. (çapdan çıxmaq)** to appear, to be* out, to be* published, to be* issued; **işığa ~ (kitab)** to appear, to be* out, to be* published; **3. (nəticədə alınmaq)** to come*, to make*, to be*; **Bundan heç bir şey çıxmaz** Nothing will come of it, **Ondan yaxşı mühəndis çıxar** He / She will make / be a good engineer; **4. (kök**, **nəsil)** to be* (by origin); **O, kəndli təbəqəsindən çıxıb** He / She is a peasant; **O, xalq içindən çıxıb** He / She is (a man) of the people; **5. (tərkibdən çıxmaq)** to leave* (*d.*), to drop out (of); **ittifaqdan ~** to leave* the union, to drop out of the union; **6. (səmt və s.)** to look (on, towards),

to face (*d.*), to front (*d.*), to open (on), to give* (on); **Otağın pəncərələri küçəyə çıxır** The room overlooks the street; **7.** *müh.* **və** *riyaz.* to deduct (*d.*), to keep* back (*d.*); **üç faiz ~** to deduct three per cent; *riyaz.* to subtract (*d.*); **harasa ~** to mount (*d.*), to ascend (*d.* to); **kürsüyə ~** to mount the platform; **dağa ~** to climb a mountain; **zirvəyə ~** to ascend to the summit; **8. (günəş və s.)** to rise*; **Günəş çıxır** The sun is rising; **nəyinsə əksinə ~** to come* out against *smth.*; **əleyhinə ~** to protest (against), to make* a protest (against); **9. (getmək)** to go*, to come* out, to leave*; **darvazadan ~** to go* / to come* out of the gates

**çılğın** *s.* hot-tempered, quick-tempered; irascible; peppery; *d.d.* **~ təbiətli adam** hot-tempered person / man*

**çılğıncasına** *z.* irately, irascibly, irritably; hot-bloodedly, hot-headedly

**çılğınlaşmaq** *f.* to become* hot-tempered / quick-tempered

**çılğınlatmaq** *f.* to cause *s.o.* to become hot-tempered / quick-tempered

**çılğınlıq** *i.* irateness, irascibility, irritability

**çılpaq** *s.* **1. (lüt)** naked, nude; **~ bədən** nude / naked body; **~ dəlil** nude / naked fact; **~ həqiqət** the naked truth; **2. (yarpaqdan və s.)** bare, naked; **~ ağac** bare / naked tree

**çılpaqlandırmaq** *f.* to bare (*d.*), to strip (*d.*)

**çılpaqlanmaq** *f.* to get* / to become* nude / naked / stripped

**çılpaqlıq** *i.* nakedness, nudity; bareness

**çımxırmaq** *f.* to shout (at), to raise one's voice (at), to snarl (at); to answer with a snarl; to cheek (*d.*); *d.d.* to sauce (*d.*)

**çınqıl** *i.* gravel, shingle, pebble; **~ tökmək** to gravel (*d.*)

**çınqıllı** *s.* pebby, shingly, gravelly; **~ torpaq** gravelly soil

**çıraq** *i.* lamp; **neft çırağı** kerosene / oil lamp

**çıraqban I.** *i.* illumination **II.** *s.* lighted; illuminated; **~ otaq** a brightly lighted / illuminated room

**çır-çırpı** *top. i.* brushwood

**çırmalamaq** *f.* to roll up (*d.*); **qolunu ~** to roll up one's sleeves

**çırmamaq** *f. bax* **çırmalamaq**

**çırmanmaq** *f.* to roll one's sleeves / dress

**çırpdırmaq** *f.* to ask / to cause *smb.* to shake out (*d.*)

**çırpı** *i.* brushwood

**çırpılmaq** *f.* **1.** to be* shaken out; **2.** to strike* (against); **Qayıq qayaya çırpıldı** The boat struck (against) a rock

**çırpınmaq** *f.* to fight* (with, against), to hit* (against); **(ürək** *haq.***)** to throb, to beat*; **Həyəcandan ürəyim (bərk) çırpınır** My heart is throbbing / beating with excitement

**çırpıntı** *i.* beating, throbbing

**çırpışdırmaq** *f.* to pinch (*d.*), to snap (*d.*); **Kimsə mənim kibritimi çırpışdırıb** Someone has pinched my matches

**çırpışmaq** *f. bax* **dalaşmaq**

**çırpmaq** *f.* **1.** to shake* (*d.*); *məc.* to shake* up (*d.*); **2.** to bang (*d.*), to slam (*d.*); **kitabı stolun üstünə ~** to slam the book on the table

**çırtdamaq** *f. bax* **çırtlamaq**

**çırtıq** *i.* flick, fillip; **~ çalmaq** to snap one's fingers

**çırtlamaq** *f.* to eat*, to nibble; **günəbaxan tumu ~** to eat* / to nibble sunflower seeds

**çırtma** *i.* flick, fillip, click; **~ vurmaq** to give* a fillip; **burnuna ~ vurmaq** to give* a flick / a fillip on the nose

**çırtmalamaq** *f.* to give* a flick / fillip

**çıtızmaq** *f.* to hint (at), to drop / to make* hints (about)

**çızqırmaq** *f.* to spurt (out); **Yaradan qan cızqırdı** Blood spurt out from the wound

**çızqırtmaq** *f.* to spurt (*d.*)

**çiban** *i. tib.* furuncle; **~ çıxarmaq** to have* furuncles

**çibanlı** *s.* furunculous

**çiçək I.** *i.* flower; **təzə ~** fresh / natural flower; **~ açmaq** *bax* **çiçəkləmək II.** *i. tib.* smallpox; **~ döymək** to vaccinate (*d.*); **~ çıxartmaq** to fall* ill with smallpox, to be* taken ill with smallpox

**çiçəkçilik I.** *i.* floriculture, flower-growing **II.** *s.* floricultural

**çiçəkləmək** *f.* to flower, to blossom, to bloom; to be* in blossom / flower; **Alma ağacları çiçəkləyir** The apple trees are blossoming

**çiçəkli** *s. bot.* **1.** flowering; **~ bitkilər** flowering plants; **2.** flowery; **~ çəmənlər** flowery meadows

**çiçəklik** *i.* flower garden, parterre; **(çiçək kərdisi)** flower bed

**çiçəksiz** *s. bot.* flowerless; ~ **bitki** flowerless plant

**çidar** *i.* **1.** **(at** *haq.***)** hobble, horse-lock; **2.** *məc.* hindrance, obstacle

**çidarlamaq** *f.* to hobble (*d.*); **atı** ~ to hobble the horse

**çidarlanmaq** *f.* to be* hobbled

**çidarlatmaq** *f.* to ask / to cause *smb.* to hobble (*d.*), to have* (*d.*) hobbled

**çil I.** *i.* freckles; spots **II.** *s.* (*i.s.*) covered with grey (white) sports; spotty; dappled, spotted, freckled, blotched; ~ at dappled horse

**çilçıraq** *i.* chandelier, chandelabrum

**çiləmək** *f.* to splash (*d.* on); **su** ~ to splash water (on)

**çilənmək** *f.* to be* splashed

**çilətmək** *f.* to ask / to cause *smb.* to splash (*d.* on)

**çiləyən** *i.* sprayer, pulverizer, atomizer

**çilingər** *i.* metal craftsman* / worker; **quraşdırıcı** ~ fitter; **(qıfıl ustası)** locksmith; **(alət düzəldən)** tool-maker

**çilingərxana** *i.* metal workshop

**çillə** *i.* **1.** period of sixty days of winter; **kiçik** ~ period of twenty days of winter; **böyük** ~ period of forty cold days of winter from the beginning **2.** forty days after birth

**çilləmək** *f.* **1.** to cover with grey / white spots; **2.** to freckle; **Günəş adamın üzünü çillədir** The sun freckles one's face

**çillənmək** *f.* **1.** to be* covered with grey / white spots; **2.** to become* freckled

**çilləşmək** *f.* *bax* **çillənmək**

**çilli** *s.* freckled; ~ **üz** freckled face

**çim** *s.* ~ **yağ** fatty, very fat, too fat

**çimdik** *i.* pinch, nip; ~ **götürmək** *bax* **çimdikləmək**

**çimdikləmək** *f.* to pinch (*d.*), to nip (*d.*); **Uşağı çimdikləmə** Don't pinch the child*

**çimdikləşmək** *f.* to pinch each other / one another

**çimdiklətmək** *f.* to ask / to cause *smb.* to pinch (*d.*)

**çimdirmək** *f.* to bath (*d.*), to bathe (*d.*), to give a bath (*d.*)

**çimərlik** *i.* beach; **qadın** / **kişi çimərliyi** women's / men's beach

**çimizdirmək** *f.* *bax* **çimdirmək**

**çimmək** *f.* to bathe; (vannada) to take* a bath

**çin I.** *i.* rank; title; **hərbi** ~ military rank; **admiral ~i** the rank of admiral **II.** *i.* toothed sickle **III.** *s.* Chinese; ~ **dili** Chinese, the Chinese language; ~ **səddi** the Chinese wall **IV.** *z.* ~ **olmaq** / **çıxmaq** to come* true; **Yuxun** / **arzun çin** olsun Let your dream / wish come true

**çinar** *i. bot.* plane (tree)

**çinarboy** *s.* slender and tall

**çinarlıq** *i. bot.* plane grove

**çincə I.** *s.* Chinese; ~ **ingiliscə lüğət** Chinese-English dictionary **II.** *z.* Chinese; ~ **danışmaq** to speak* Chinese / the Chinese language; ~ **yazmaq** to write* (in) Chinese

**çini I.** *i.* china, porcelain [ˈpɔ:slın] **II.** *s.* china; ~ **dəsti** china set; ~ **qab** china (-ware)

**çinləmək** *f.* to put* / to lay*(*d.*) together in orderly way / method

**çinlənmək** *f.* to be* put together in an orderly way / method

**çinlətmək** *f.* to ask / to cause *smb.* to put (*d.*) in an orderly way / method

**çinli** *i.* Chinese, Chinee *d.d.*; **~lər** the Chinese

**çinovnik** *i.* official, functionary

**çinovniklik** *i.* officialdom

**çinşünas** *i.* sinologue, sinologist

**çinşünaslıq** *i.* sinology

**çirgindirmək** *f.* *bax* **iyrəndirmək**

**çirginmək** *f.* *bax* **iyrənmək**

**çirk** *i.* **1.** dirt; **2.** **(palçıq və s.)** mud; **3.** *bax* **irin**; ~ **etmək** *bax* **irinləmək**; **Çirki yu** Wash the dirt

**çirkab** *i.* slops *pl.*

**çirkin** *s.* **1.** plain, unattractive, not beautiful, not good-looking; plain face, ugly; **2.** *məc.* dirty, slovenly

**çirkinləşdirmək** *f.* to cause *smb.* / *smth.* to become ugly, to make* plain (*d.*)

**çirkinləşmək** *f.* to lose* one's good looks, to grow* plainer, to become* unattractive

**çirkinlik** *i.* **1.** plainness, ugliness; **2.** *məc.* lowness; dirt

**çirkləndirmək** *f.* to dirty (*d.*), to soil (*d.*), to make* dirty; to stain (*d.*); **əlini** ~ to stain one's hand, to dirty one's hand; **Əlini çirkləndirmə** Don't dirty your hand

**çirklənmək** *f.* to dirty, to become* soiled / stained; **Ağ ayaqqabı tez çirklənir** White shoes dirty very quickly
**çirkləşmək** *f. bax* **çirklənmək**
**çirkli** *s.* **1.** dirty; filthy; **(küçə, yol və s.)** muddy, miry; ~ **üz** dirty / grimy face; ~ **əl** dirty / grimy hands; ~ **paltar (alt)** dirty linen; ◊ ~ **iş** dirty work; **2.** *bax* **irinli**
**çiskin I.** *i.* drizzle **II.** *s.* drizzly; ~ **gün** a drizzly day; ~ **yağış** drizzly rain
**çiskinləşmək** *f.* to drizzle; **Çiskinləyir** It's drizzling
**çiskinli** *s.* drizzly; ~ **gün** a drizzly day
**çit I.** *i.* print, printed calico, printed cotton, chintz **II.** *s.* print; ~ **don** print dress
**çitəmək** *f.* to mend (*d.*); **paltarını** ~ to mend (up) one's clothes
**çitənmək** *f.* to be* mended
**çitətmək** *f.* to ask / to cause *smb.* to mend (*d.*); to have (*d.*) mended
**çiv** *i.* wedge; ~ **çalmaq** to force / to drive* a wedge
**çivləmək** *f.* to wedge (*d.*), to fix a wedge (*d.*)
**çivlənmək** *f.* to be* / to become* wedged
**çivlətmək** *f.* to ask / to cause *smb.* to wedge (*d.*); to have* (*d.*) wedged
**çiy** *s.* raw; uncooked; unboiled; ~ **ət** raw meat; ~ **süd** fresh milk; ~ **su** unboiled water
**çiyələk I.** *i. bot.* **1. (yabanı)** strawberries *pl.*; **bağ çiyələyi** garden strawberries; **2. (ayrı-ayrı dənəsi)** strawberry **II.** *s.* strawberry; ~ **mürəbbəsi** strawberry jam
**çiyələklik** *i.* strawberry field
**çiyid** *i. bot.* seed; stone; **pambıq ~i** cotton seed
**çiyidli** *s.* seedy; ~ **portağal** seedy orange
**çiyidsiz** *s.* seedless; (*i.s.*) without seeds
**çiyin** *i.* shoulder; **~lərini çəkmək** to shrug one's shoulders
**çiyin-çiyinə** *z.* shoulder to shoulder; ~ **vuruşmaq** to fight* shoulder to shoulder
**çiyinli** *s.* broad-shouldered
**çizgi** *i.* line; **düz** ~ straight / right line; **paralel ~lər** parallel (lines)
**çizgi** *s.*: ~ **filmi** ( animated) cartoon film, animated cartoon
**çizgiləmək** *f.* to line (*d.*), to rule (*d.*)
**çizgilənmək** *f.* to be* lined / ruled
**çizgilətmək** *f.* to ask / to cause *smb.* to rule (*d.*) / to line (*d.*); to have* (*d.*) ruled / lined

**çoban** *i.* herdsman; *amer.* cow-boy; **(qoyan otaran)** shepherd
**çobaniti** *i.* shepherd's dog
**çocuq** *i. bax* **uşaq**
**çocuqluq** *i. bax* **uşaqlıq**
**çodar** *i.* **1.** drover; herdsman*; **2.** cattle-dealer
**çox I.** *sy.* many, much, plenty; *d.d.* a lot of; ~ **iş** much / plenty of work, a lot of work; ~ **vaxt** much / plenty of time; ~ **adam** a lot of people; ~ **kitab** many / plenty of books, a lot of books **II.** *z.* **1.** too; **Bu çox bahadır** It is too expensive; **2.** very, very much; greatly, vastly; ~ **soyuq** very cold; ~ **gec gəlmək** to come* very late; **3.** much*, a great deal; *d.d.* a lot; ~ **bilmək** to know* much, to know* a great deal, to know a lot
**çoxadamlı** *s.* populous, crowded; ~ **şəhər** populous town; ~ **iclas** crowded meeting
**çoxadlı** *s.* polyonymous
**çoxaldılmaq** *f.* to become* increased / risen / bred / spawned / multiplied
**çoxallahlı** *i.* polytheist
**çoxallahlılıq** *i.* polytheism
**çoxalmaq** *f.* to increase, to rise*; ***bial.*** to propagate itself; **(həm də canlılar** *haq.***)** to breed*; **(balıq, qurbağa və s.)** to spawn; **(bitkilər** *haq.***)** to propagate
**çoxaltmaq** *f.* to increase (*d.*), to enlarge (*d.*), to extend (*d.*); **(artırmaq)** to augment (*d.*); to multiply (*d.*); **(sənəd və s.)** to manifold (*d.*), to duplicate (*d.*); to mimeograph (*d.*); **gəliri** ~ to increase profits; **istehsalı** ~ to increase production (of), to increase / extend output (of)
**çoxarvadlı I.** *i.* polygamist **II.** *s.* polygamous, polygynous
**çoxarvadlılıq** *i.* polygamy, polygyny
**çoxatomlu** *s. fiz.* polyatomic
**çoxayaqlı** *i. zool.* myriapod, multiped
**çoxayaqlılıar** *top. i. zool.* myriapods
**çoxbaşlı** *s.* many-headed; ~ **əjdaha** many-headed dragon
**çoxbilən I.** *i.* sage, wise man* / person*, man* / person of wisdom; omniscient **II.** *s.* sage, wise, erudite, expert; all knowing, knowing everything
**çoxbilmiş** *fs. bax* **çoxbilən**
**çoxbilmişlik** *i.* omniscience, wisdom

**çoxbucaqlı I.** *i. riyaz.* polygon **II.** *s. riyaz.* polygonal, multangular
**çoxcərgəli** *s. k.t.* many-rowed, many-lined
**çoxcildli** *s.* multivolume, voluminous; (*i.*s) in many volumes
**çoxcildlilik** *i.* the state of being in many volumes
**çoxçalovlu** *s.* ~ **ekskavator** multiscoop excavator, chainbucket excavator
**çoxdalğalı** *s.* multiwave
**çoxdan** *z.* long ago, for a long time; **Mən onu çoxdan görmürəm** I haven't seen him / her for a long time, I haven't seen him / her for ages
**çoxdanışan** *s.* loquacious, garrulous, takative
**çoxdankı** *s.* old, ancient, bygone, long-standing; of long-standing; ~ **hadisə** ancient / bygone events; ~ **dost** an old friend, ~ **dostluq** a long-standing friendship
**çoxdərəcəli** *s.*: ~ **seçki** election by several stages
**çoxdilli** *s.* **1.** polyglot; **2. (ölkə, xalq haqda)** polylingual / multilingual; ~ **lüğət** polyglot dictionary
**çoxdilşli** *s.* multicuspid
**çoxərli** *s.* polyandrous
**çoxərlilik** *i.* polyandry
**çoxəsirlik** *s.* centuries-old; **bəşərin ~ tarixi** the century-old history of mankind
**çoxfazalı** *s. el.* polyphase, multiphase
**çoxformalı** *s.* multiform
**çoxformalılıq** *i.* multiformity
**çoxgülən** *s.* mocker, scoffer; *d.d.* **(kişi)** merry fellow, **(qadın)** merry woman*
**çoxhecalı I.** *i. dilç.* polysyllable, multisyllable **II.** *s. dilç.* polysyllabic, multisyllabic; ~ **söz** polysyllable / multisyllable word
**çoxhədli** *s. riyaz.* multinominal, polynominal
**çoxhüceyrəli** *s. biol.* multicellular
**çoxillik** *s.* **1.** (*i.s.*) of many years; ~ **təsərrüfat planı** long-term economic plans; **2.** *bot.* parennial; ~ **bitki** parennial herbs
**çoxişlənən** *s.*: ~ **mallar** consumer goods *pl.*
**çoxqiymətli** *s. riyaz.* multiciphered **çoxqiymətli rəqəm** number expreeesed by several figuores
**çoxqütblü** *s.* multipolar
**çoxlampalı** *s. rad.* **çoxlampalı radio** multivalve / multi-tube receiver
**çoxləçəkli(lər)** *s. bot.* polypetalous
**çoxlu** *s.* numerous, many, a great number, a great deal
**çoxluq** *i.* **1.** majority; **səs çoxluğu** majority of votes, a majority vote; **2.** great / large number; **3.** abundance, plenty
**çoxmənalı** *s. dilç.* polysemantic
**çoxmənalılıq** *i. dilç.* polysemantism, polysemy
**çoxmənzilli** *s.*: ~ **ev** tenement-house* [-s]
**çoxmərtəbəli** *s.* many-storeyed, multistorey; ~ **tikili** / ev many-storeyed building / house
**çoxmillətli** *s.* multinational; ~ **dövlət** a State of / including many nationalities; multinational state
**çoxmilyonlu** *s.* of many millions, many-millioned; ~ **geniş zəhmətkeş sinfi** the vast / broad masses of working people / class
**çoxmotorlu** *s.* multi-engined
**çoxnövçü** *i. id.* multiathlon, all-round athlete, multieventer, multi-discipline competition
**çoxnövlü** *s.* multiathlonist
**çoxnüvəli** *s. kim.* polycyclic
**çoxpilləli** *s.* multi-stage; multi-step; ~ **raket** multi-stage rocket
**çoxrəqəmli** *s.* multiciphered, multicyphered; **çoxrəqəmli ədəd** number expressed by several figures
**çoxrəngli** *s.* **1.** many-coloured, multicoloured; **2.** *poliq.* polychromatic, polychrome
**çoxrənglilik** *i.* polychromy
**çoxsahəli** *s.*: ~ **təsərrüfat** varied / diversified economy; **kənd təsərrüfatı** mixed farming agriculture
**çoxsəsli** *s.* **1.** many-voiced, multisonous; **2.** *mus.* polyphonic
**çoxsəslilik** *i.* polyphony
**çoxsimli** *s.* many-stringed; ~ **musiqi aləti** many-stringed musical instrument
**çoxşaxəli** *s.* many-field, many-branched; varied; ~ **fəaliyyət** many-branched activity; ~ **təsərrüfat** varied economy
**çoxşaxəlilik** *i.* the state of being many field / many branched
**çoxşəkilli** *s.* **1.** multi-picture; **2.** *teatr.* multiact
**çoxtəkərli** *s.* multiwheel

**çoxtərəfli** *s.* **1.** *riyaz.* polygonal; **2.** multilateral; many-sided; ~ **müqavilə** multilateral treaty
**çoxtərəflilik** *i.* manysidedness
**çoxtirajlı** *s.* (*i.s.*) published in large editions
**çoxtoxumlu** *s.* *biol.* polysemic; *bot.* many-seeded
**çoxuşaqlı** *s.*: ~ **ailə** large family; ~ **ana** mother of many children; mother of a large family / having a large family
**çoxüzlü** *s.* **1.** multiface, multi-faced; **2.** hypocritical
**çoxyeyən I.** *i.* *d.d.* glutton, gormandizer **II.** *s.* gluttonous; ~ **adam** a gluttonous person / man*
**çoxyerli** *s.* multi-seater; ~ **təyyarə** multi-seater aircraft
**çolaq I.** *i.* cripple, a lame man* / person*; **~lar** *top.* i the lame **II.** *s.* lame, limping; ~ **adam** a lame man* / person*
**çolaqlaşmaq** *f.* to become* crippled / lame
**çolpa** *i.* cockerel
**çomaq** *i.* cudgel; bludgeon; shepherd's stick
**çomaqlamaq** *f.* to cudgel (*d.*), to beat* / to strike* with a cudgel (*d.*), to bludgeon (*d.*)
**çomaqlaşmaq** *f.* to cudgel each other / one another
**çomaqlatmaq** *f.* to ask / to cause *smb.* to cudgel (*d.*)
**çopur I.** *i.* pock, pockmark **II.** *s.* pocky, pockmarked; ~ **üz** a pockmarked face
**çopurlanmaq** *f.* to become* pocked / pockmarked
**çopurlaşmaq** *f.* *bax* **çopurlanmaq**
**çopurlu** *s.* pocky, pockmarked; ~ **üz** a pockmarked face
**çopurluq** *i.* pitting; **çiçəkdən** ~ the pitting of the small-pox
**çoşka** *i.* sucking-pig
**çoşkalamaq** *f.* to farrow
**çovdar I.** *i.* rye **II.** *s.* rye; ~ **uru** rye-flour; ~ **çörəyi** rye-bread
**çovğun** *i.* snow-storm; blizzard; **dəhşətli** ~ a terrible snow-storm; **Çovğun ötüşdü** the snow-storm has blown over
**çovğunlu** *s.* stormy; ~ **gün** a stormy day
**çökdürmək** *f.* **1.** to make *smth.* precipitate; **2.** to make* *smb.* sit down / obey / kneel, to bring* / to force *smb.* to his knee
**çökək I.** *i.* hollow cavity, depression, hold, pit **II.** *s.* sunken; ~ **yanaqlar** sunken cheeks
**çökəlmək** *f.* **1.** to sink*, to fall*; to go* down; **2.** to get* / to become* sunken
**çökmək** *f.* (*müx.* **mənalarda)** to settle; **(həm də bina haqqında)** to sink*; **diz** ~ to kneel* down
**çökük** *s.* sunken, concave; ~ **güzgü** a concave mirror; ~ **yanaqlar** sunken cheeks
**çöküklük** *i.* concavity
**çöküntü** *i.* **1.** sediment, deposit; **2.** (atmosfer) precipitation; **3.** *geol.* deposit
**çöl** *i.* field, steppe; waste / vacant land; **~ə çıxmaq ~də qalmaq (evsiz olmaq)** to have* no shelter / refuge; to be* homeless; **~lərə düşmək** to wander, to roam, to roam from place to place
**çölgöyərçini** *i.* wild dove, pigeon
**çöllaləsi** *i.* wild poppy
**çöllü** *i.* *d.d.* peasant, villager
**çöllük** *i.* steppe, waste / vacant land
**çölördəyi** *i.* *zool.* wild duck
**çölpişiyi** *i.* *zool.* wild cat
**çölsiçanı** *i.* *zool.* field mouse
**çöltoyuğu** *i.* *zool.* hazel-grouse, hazel-hen
**çömbəlmək** *f.* to squat
**çömbəltmək** *f.* to ask / to force *smb.* to squat
**çömçə** *i.* ladle; scoop; **şorba ~si** a soup ladle
**çömçəquyruq** *s.* *zool.* tadpole
**çömçələmək** *f.* to ladle (out, *d.*)
**çömçələnmək** *f.* to be* ladled (out)
**çömçələtmək** *f.* to ask / to cause *smb.* to ladle (*d.*)
**çöməlmək** *f.* *bax* **çömbəlmək**
**çömmək** *f.* *bax* **dönmək**
**çöp** *i.* **1.** straw; ◊ ~ **dən yapışmaq** to catch* (at) a straw; **2.** *bakt.* bacillus (*pl.* -li)
**çöpatma** *i.* throwing / casting lots
**çör-çöp** *top.* *i.* all kinds of brushwood
**çörək I.** *i.* bread; **qara** ~ brown bread; **ağ** ~ white bread; **ev çörəyi** home-made bread; **bayat** ~ stale bread; **təzə** ~ fresh baked / newly-baked bread; **yağ** ~ bread and butter; **gündəlik** ~ daily bread; ~ **pulu qazanmaq** to make* one's bread, to earn one's living; ◊ **başqasının çörəyini yemək** ≅ to be* a dependant, to live at *smb.* else's expense; to be* a useless mouth *idiom.*; ◊ **kiminsə çörəyini əlindən al-**

**maq** ≅ to take* the bread out of *smb*.'s mouth **II.** *s*.: ~ **dükanı** baker's (shop); ~ **talonu** bread-ticket; ~ **ölkəsi** grain-raising country, grain producing country; ~ **zavodu** mechanical bakery, bread-baking plant
**çörəkağacı** *i. d.d.* **(ailədə çörək qazanan)** bread-winner
**çörəkbişirən** *i.* baker
**çörəkçi** *i.* baker
**çörəkçilik** *i.* the profession of baker
**çörəkdaşıyan** *i.* bread-carrier
**çörəkxana** *i.* **(dükan)** baker's (shop)
**çörəkqabı** *i.* bread-basket; bread-plate
**çörəkləmək** *f.* to feed* on bread, to give* bread (to *d.*)
**çörəkli** *s. məc.* hospitable
**çörəkpulu** *i.* daily earnings, money earned daily; ~ **qazanmaq** to make* / to earn one's living
**çörəksatan** *i.* bread-seller
**çörəksiz** *s.* **1.** breadless; (*i.s.*) without bread; **2.** *məc.* inhospitable
**çötkə** *i.* obacus (*pl*. -si), calculation / counting frame
**çözdürmək** *f.* **1. (ipi**, **sapı və s.)** to ask / to cause *smb*. to unwind (*d*.); **2.** to ask / to cause *smb*. to explain (*d*.)
**çözələmək** *f.* **1. (ipi**, **sapı və s.)** to unwind* (*d*.), to uncoil (*d*.); **2.** to explain (*d*.), to make* clear, to give* the reason for
**çözmək** *f. bax* **çözələmək**
**çözüm** *i.* solution, explanation
**çubuq** *i.* **1.** (long) switch, birch (rod), twig; stick; **(dəmirdən)** rod; **2.** (tobacco-) pipe
**çubuqlamaq** *f.* to switch (*d*.), to birch (*d*.); to strike* (*d*.) with a twig
**çubuqlanmaq** *f.* to be* switched / birched / struck with a twig
**çubuqlaşmaq** *f.* to strike* each other with a twig
**çubuqlatdırmaq** *f.* **çubuqlatmaq** *f.*
**çubuqlatmaq** *f.* to ask / to force *smb*. to switch (*d*.) / to birch (*d*.) / to strike* with a twig (*d*.)
**çuğul** *i.* informer; *d.d.* telltale
**çuğullamaq** *f. d.d.* to tell* tales (about), to peach (against, on, upon), to inform (*d*. of), to denounce (*d*. to)
**çuğullanmaq** *f.* to be* denounced
**çuğullatdırmaq** *f.* **çuğullatmaq**
**çuğullatmaq** *f.* to ask / to cause *smb*. to denounce
**çuğulluq** *i.* denunciation; ~ **etmək** *bax* **çuğullamaq**
**çuğundur I.** *i. bot.* beet, beetroot; **yem ~u** mangel (-wuzel); **xörək ~u** red beet; **şəkər** / **qənd ~u** sugar-beet, white beet **II.** *s.* ~ **şəkəri** / **qəndi** beet-sugar
**çuğundurçıxaran I.** *i. k.t.* beet-harvester, beet digger / lifter **II.** *s*.: ~ **kombayn** beet-harvesting combine
**çuğundurçu** *bax* **çuğundurəkən**
**çuğundurçuluq I.** *i. k.t.* (sugar-) beet growing **II.** *s.* (sugar-) beet-growing (*attr*.); ~ **sovxozu** (sugar-) beet-growing state farm
**çuğundurəkən** *i. k.t.* (sugar-) beet grower
**çuxa** *i.* Caucasian coat, long waisted outer garment
**çuxalı** *s.* (*i.s.*) with a Caucasian coat, (*i.s.*) having a Caucasian coat on
**çuxasız** *s.* (*i.s.*) without a Caucasian coat (on)
**çuxasızlıq** *s.* the state of being without a Caucasian coat
**çuxur** *i.* hollow, groove, cavity, excavation
**çuxurlamaq** *f.* to make* hollow / groove / cavity
**çuxurlanmaq** *f.* to become* hollowed / grooved
**çuxurlaşdırmaq** *f.* **çuxurlamaq**
**çuxurlamaq** *f.* to make* hollow / groove / cavity
**çuxurlatdırmaq** *f. bax* **çuxurlatmaq**
**çuxurlatmaq** *f.* to ask / to force *smb*. to hollow / to groove (*d*.)
**çuxurluq** *i.* hollow place, groove place, cavitation
**çuqun I.** *i.* cast iron **II.** *s.* cast-iron; ~ **qazan** cast-iron kettle / pot
**çuqunəridən** *i.* founder, caster, smelter
**çuquntökmə** *s*.: ~ **zavodu** iron founder
**çul** *i.* horse-cloth, horse-cover
**çulğalamaq** *f.* to wrap up (*d*.); **(odeyala)** to blanket (*d*.), to cover (*d*.); dumana ~ to wrap in mist (*d*.)
**çulğalanmaq** *f.* to be* wrapped up / covered
**çulğamaq** *f. bax* **çulğalanmaq**
**çullamaq** *f.* to cover / to wrap with a horse-cloth (*d*.)

**çullanmaq** *f.* to be* covered / wrapped with a horse-cloth **At çullandı** The horse was covered with a horse-cloth
**çullatdırmaq** *f. bax* **çullatmaq**
**çullatmaq** *f.* to ask / to cause *smb.* to cover (a horse, an ass, *etc.*), to have* (*d.*) covered with horse-cloth
**çullu** *s.* (*i.s.*) covered with a horse-cloth
**çulsuz** *s.* (*i.s.*) without a horse-cloth
**çulsuzluq** *i.* the state of being without a night cap on
**çust** *i.* light and heelless footwear
**çutku** *i.* cap, night cap
**çutkusuz** *s.* capless, (*i.s.*) without a night cap on
**çuval** *i.* sack, a large bag
**çuvaş I.** *i.* **(kişi)** Chuvash; **(qadın)** Chuvash woman **II.** *s.* Chuvash; **~ dili** Chuvash, the Chuvash language
**çuvaşca** *z.* Chuvash; ~ **danışmaq** to speak Chuvash; ~ **yazmaq** to write in Chuvash; ~ **demək** to stay in Chuvash
**çuvalduz** *i.* a big needle
**çünki** *bağ.* because, as, since, for; **Uşaqlar meşəyə gedə bilmədilər**, **çunki yağış yağırdı** The children could not go to the forest because / as / for it was raining
**çürük** *s.* rotten, putrid; **(diş** *haq.***)** decayed; *elm.* carious
**çürükçü I.** *i.* bore, nuisance, smal-minded man **II.** *s.* borthersome; small-minded, boring, irksome
**çürükçülük** *i.* meanness, pettiness, pedantry
**çürüklük** *i.* putrefaction, putridity
**çürümək** *f.* **1.** to rot, to decompose; **(diş)** to decay, to become* carious; **2. (süd)** to curdle; **(qan)** to coagulate
**çürüntü** *i.* humus, rotten stuff, rot
**çürüntülük** *i.* rottenness; putridity
**çürütmək** *f.* to rot (*d.*), to let* rot (*d.*) ◊ **haqq-hesabı ~** 1) settle accounts (with), to reckon (with); to settle up; 2) **(qisas almaq)** to get* even (with), to take* vengeance (on, for); **düşmənlə hesabı** ~ to take* vengeance on one's enemy

# Dd

**D, d** the 5th letter of the Azerbaijani alphabet

**da** *əd.* **1.** also, **(cümlənin sonunda)** too, **(inkar cümlələrdə)** either [ˈaɪðə]; **O da gedəcək** He / She will also go, He / She will go too; **Onlar da getməyəcəklər** They will not go either; **2.** even, even if; **Bunu uşaq da bilir** Even a child knows this; **Onlar soruşsaydılar da**, **mən danışmayacaqdım** I'd not speak even if they asked; **3.** as well; **Onlar da gedirlər** They go as well; **4.** so; **Siz hazırsınızmı?** – **Bəli. Uşaqlar da** – Are you ready? – Yes. So are the children.

**dabaq** *i. bayt.* foot-and-mouth disease; **~ olmaq** to fall* / to get* ill with foot-and-mouth disease, to be* taken ill with foot-and-mouth disease

**dabaqlı** *s. bayt.* (*i.s.*) (fallen) ill with foot-and-mouth disease; **~ heyvan** cattle (fallen) ill with foot-and-mouth disease

**daban** *i.* heel; **hündür ~ ayaqqabı** high-heeled shoes; **alçaq ~ ayaqqabı** low-heeled shoes; ◊ **~ almaq** to run* away, to go* away; **təpədən ~a qədər** from head to foot, from top to toe; ◊ **bir kəsin ~ını yalamaq (yaltaqlanmaq)** to lick *smb.*'s shoes / boots; ◊ **~ına tüpürmək** *d.d.* to take* to one's heels, to make* a dash, to show a clear pair of heels

**dabancıq** *i.* little / small heel

**dabanaltı** *i.* heel-tap

**dabanaltılıq** *i.* (*smth.*) suitable for heel-tap

**dabanbalığı** *i. zool.* crucian (carp)

**dabanbasa** *z. bax* **dabanbasma**

**dabanbasma** *z.* immediately, at once, in no time; **bir kəslə ~ getmək** to follow hard on *smb.*'s heel; **bir kəsin dalınca ~ gəzmək** to dog *smb.*'s steps

**daban-dabana** *z.*:**~ zidd** diametrically opposite

**dabandalı** *i.* **(ayaqqabıda)** counter, back

**dabandaşı** *i.* pumic (-stone)

**dabanıçatlaq I.** *məc. d.d.* sloven; scruff; **(qadın)** slatter **II.** *s. məc.* slovenly, sloppy

**dabanıqara** *s. bax* **qaradaban**

**dabanıüstə** *z.* immediately, at once, in no time; **~ geri qayıtmaq** to come* back immediately / at once, to return immediately / at once

**dabanlı** *s.* (*i.s.*) with heel; (*i.s.*) having heel; **hündür ~** high-heeled; (*i.s.*) with high-heel, (*i.s.*) having high heel; **hündür ~ ayaqqabı** high-heeled shoes, shoes with high heel / (*i.s.*) having high heel; **alçaq ~** low-heeled; (*i.s.*) with low-heel, (*i.s.*) having low heel; **alçaq ~ ayaqqabı** low-heeled shoes, shoes with low heel

**dabanlıq** *i.* **1.** some material for / suitable for heel; **2.** *tex.* step-bearing

**dabansız** *s.* heelless (*i.s.*) without heel, (*i.s.*) having no heel

**dabanüstə** *z. bax* **dabanıüstə**

**dabbağ I.** *i.* currier, tanner, leather-dresser; fur-dresser **II.** *s.* tanning; leather-dressing; **~ sənayesi** tanning industry

**dabağxana** *i.* tannery; ◊ **~da gönünü tanımaq** to know* (*d.*) thoroughly / deeply

**dabbağlıq** *i.* the profession of a leather-dresser / currier

**dad I.** *i.* taste; **~ına baxmaq** to taste (*d.*), to test the taste (of), to have* a taste (of); **şorbanın ~ına baxmaq** to taste the soup, to have* the taste of the soup; **~ını bilmək** to taste (*d.*); to have* tasted (*d.*); **azadlığın ~ını bilmək** to have* tasted the freedom; **şirin (acı və s.) ~ vermək** to taste sweet (bitter, *etc.*); ◊ **ağzının ~ını bilmək** to have* good taste, to be* tasteful, to be* fond of tasty eating; ◊ **~ı damağında qalmaq** to continue to feel the taste of *smth.* pleasant, to continue to remember the taste of some delicious / delightful eating **II.** *i.* help, aid, assistance; **~a yetmək / çatmaq** to help, to give* help, to aid, to give* support to, to go* to the aid (of), to come* to assistance; **bir kəsin dadına çatmaq** to help *smb.*, to give* support to *smb.*, to come* to smb's rescue; **O, mənim dadıma çatdı** He / She came to my rescue; He / She came to my assistance / aid; **~ çəkmək** to complain bitterly; **Dad əlindən!** (My) God! Goodness me! Oh! God forbid him / her!

**dadamal** *s.* (especially of animals) (*i.s.*) falling into the habit of going somewhere to eat; getting into the habit of doing the same action

**dad-aman** *i.* complaint; cry for help / aid; ~ **etmək** to complain bitterly, to cry for help; **Dad-aman əlindən!** My god! Goodness me!

**dadanaq** *s. bax* **dadamal**

**dadandırmaq** *f.* **1.** to cause *smb.* to get / to fall into the habit (of+*ger.*); **2.** to entice (*d.*+to *inf.*) (away), to persuade someone to do a wrong action

**dadanmaq** *f.* to fall* into the habit of doing some action, to give* oneself up to *smth.*; to make* a habit of going / coming somewhere

**dad-bidad** *i.*: ~ **etmək** to ask for help / assistance, to cry for mercy; to complain bitterly; **Ey dad-bidad!** Dear me! Dear!

**dadbilmə** *i.* taste sensation

**daddırmaq** *f.* to ask / to cause *smb.* to taste (*d.*)

**dad-duz** *i. bax* **dad I**

**dad-fəryad** *i.* (loud) cry, moan, yell, scream; ~ **etmək** to yell, to cry loudly

**dad-haray** *i.* shout, yell, scream, cry; ~ **salmaq** to cry, to give* a cry, to shout, to call for help / assistance

**dadıcı** *i.* taster

**dadıxmaq** *f.* to turn / to become* rancid, to taste or smell unpleasant

**dadılmaq** *f.* to be* tasted*

**dadımlıq** *i.*: **bir** ~ a bit (of *smth.*) for tasting, taste; **bir** ~ **şorba** a taste of soup

**dadızdırılmaq** *f.* to be* tasted; to ask / to cause *smb.* to taste (*d.*)

**dadızdırmaq** *f. bax* **daddırmaq**

**dadızmaq** *f.* to taste (*d.*)

**dadlandırılmaq** *f.* to be* made tasty / tasteful

**dadlandırmaq** *f.* to make* tasty (*d.*) / tasteful (*d.*)

**dadlanmaq** *f.* to become* / to get* tasty; to ripe

**dadlı** *s.* tasty, palatable, savoury, dainty; *d.d.* nice, pleasant; ~ **xörək** tasty / savoury / palatable dish; ~ **tikə** titbit; *amer.* tidbit

**dadlı-dadlı** *s.* tasty, palatable, delicious; ~ **xörəklər** tasty / palatable / delicious dishes

**dadlı-duzlu** *s.* **1.** tasty, appetizing; **2.** (of women) pretty, juicy (of women), attractive, nice

**dadlıq** *i.* seasoning, relish, flavouring, condiment

**dadlı-ləzzətli** *s.* palatable, tasty, delicious

**dadlılıq** *i.* the quality of being tasty

**dadlı-tamlı** *s. bax* **dadlı-duzlu**

**dadmaq** *f.* **1.** to taste (*d.*), to put* (*d.*) to the taste; **2. (təcrübədə görmək)** to experience (*d.*); **bir şeyin bəhrəsini** ~ to enjoy the fruits of *smth.* **3.** to have* a definite taste; **şirin (acı və s.)** ~ to taste sweet (bitter, *etc.*), to have* sweet (bitter, *etc.*) taste

**dadsız** *s.* tasteless, (*i.s.*) without taste; unpalatable, unsavoury, insipid; ~ **qida** insipid / tasteless food

**dadsız-duzsuz** *s.* tasteless, unpalatable

**dadsızlıq** *i.* the state or quality of being tasteless / unpalatable

**dadverici** *s.* flavouring; ~ **maddələr** flavouring substances

**dağ I.** *i.* mountain, **(alçaq)** hill; **başı qarlı ~lar** snow-capped mountains; **~a çıxmaq** to go* uphill; **~dan enmək** to go* downhill; **~ın döşü** the slope of the mountain; **~ın ətəyi** the bottom / the foot of the mountain; foothills; ◊ **bir kəsin dalında / arxasında ~ kimi durmaq / dayanmaq** to defend *smb.* with might and main, to stand* through thick and thin, to be* solidly behind *smb.* **II.** *s.* mountain; ~ **silsiləsi** mountain chain, chain / range of mountains; ~ **keçisi** mountain goat; ~ **xəstəliyi** mountain sickness; ~ **keçidi** mountain-pass **III.** *i.* brand; ~ **basmaq** to brand (*d.*); to stigmatize (*d.*); ~ **çəkmək** to inflict deep mortification, to wound deeply, to hurt *smb.*'s feelings deeply; **bir kəsin ürəyinə ~ çəkmək** to hurt* / to wound *smb.*'s heart; to offend *smb.* deeply, to break* *smb.*'s heart **IV.** ***s.***: ~ **su** boiled water **V.** *z.*: ~ **etmək (yağı)** to melt (*d.*); **(aydınlaşdırmaq)** to explain (*d.*) thoroughly, to clarify (*d.*) completely

**dağal I.** *i.* boaster, braggart, show-off **II.** *s.* pugnacious; arrogant, boastful

**davam** *i.* **1.** steadfastness, stableness, firmness; **2.** solidity, durability; **3.** continuation, extension; **məsələnin ~ı** continuation of the question; **Davamı var** To be continued; **~ etmək** to continue (*d.*, *ger.*, to *inf.*), to go* on (with+*ger.*) to keep* on (+*ger.*), to proceed (with); **Mən işimi davam etdirdim** I continued my work, I went on with my work; **Onlar oxumağı davam etdirdilər** They continued reading / to read; **~ gətirmək (dözmək)** 1) to stand* (*d.*), to bear* (*d.*), to tolerate, to undergo* (*d.*), to suffer (*d.*), to endure (*d.*); **ağrıya ~ gətirmək** to suffer pain; **soyuğa ~ gətirmək** to endure cold; **ehtiyaca ~ gətirmək** to undergo* hardships *pl.*, to suffer privations *pl.*; **Mən belə ağrıya artıq davam gətirə bilmirəm** I can't bear / stand such pain any longer; **ənənəni ~ etdirmək** to carry on the tradition; 2) to put* up with; **Çox isti idi**, **lakin səyahətçilər davam gətirməli idilər** It was too hot, but the travellers had to put up with it

**davamçı** *i.* continuer, successor, follower

**davametdirən** *i. bax* **davamçı**

**davametdirici** *i. bax* **davamçı**

**davametmə** *i.* duration

**dava-mərəkə** *i. bax* **dava-qalmaqal**

**dava-mərəkəli** *s.* very scandalous, quarrelsome, rowdy; debatable

**davamiyyət** *i.* attendance; **yaxşı ~** good attendance: **pis ~** poor attendance; **Məktəbə davamiyyət icbaridir** Attendance at school is compulsory

**davamlı*s.*** **1.** durable, solid, firm; strong, stable; hard-wearing; **~ özül** stable foundation; **~ parça** hard-wearing fabric, durable stuff; **~ rəng** / **boya** fast dye / colour; **2.** of great endurance; **Siz çox davamlısınız** You are of great endurance, You are a great stayer

**davamlılıq** *i.* **1.** durability, solidity, firmness; **2.** powers of endurance, hardiness; **(mənəvi)** fortitude

**davamsız** *s.* **1.** not strong / solid / durable; **(tezsınan)** fragile, brittle; *məc.* delicate; **~ şüşə** brittle / fragile glass; **2.** flimsy; **~ parça** flimsy cloth / stuff; **3.** unstable, non-persistent;**~ qaz** *hərb.* non-persistent gas

**davamsızlıq** *i.* **1.** unstableness; non-persistence; **2.** lack of strength / solidity; **3.** brittleness, fragility, flimsiness

**davar** *i.* sheep and goats *pl.*

**davarlı** *s.* (*i.s.*) having sheep and goats

**davarçılıq** *i.* sheep and goat breeding; **~la məşğul olmaq** to breed sheep and goats

**davasız I.** *s. bax* **dərmansız II.** *s.* peaceful; calm, easy-tempered **III.** *z.* peacefully; calmly

**davasız-dalaşsız** *z. bax* **davasız II**

**davasız-dərmansız** *z.* without medicine, not using any medicine

**davasızlıq I.** *i. bax* **dərmansızlıq II.** *i.* **1.** absence of war; **2.** absence of scandal / quarrel

**davasız-şavasız** *z. bax* **davasız II**

**dava-şava** *i.* brawl, uproar, row, scandal; **kefli adamın ~sı** drunken brawl; **~ salmaq** to kick up a row / rowdy, to make* an uproar

**dava-şavalı** *s.* vexed, disputable, questionable, moot; **~ məsələ** a vexed question

**dava-şavasız** *z.* peacefully, in harmony; **~ yaşamaq** to live in harmony / peacefully

**davranış I.** *i.* **1.** behaviour, conduct; **yaxşı ~** good behaviour / conduct; **pis ~** bad behaviour / conduct, misbehaviour; **Mənim onun davranışından xoşum gəlmir** I don't like his / her behaviour; **2.** manner; **3.** treatment (of); **nəzakətli ~** polite / courteous treatment **II.** ***s.***: **~ qaydaları** norms of behaviour; the rules of conduct

**davranışlı** *s.* polite, kind, courteous

**davranışsız** *s.* impudent, insolent, rude; **(uşaqlar və yeniyetmələr** *haq.***)** cheeky; *d.d.* saucy; *amer.* sassy

**davranma** *fi.* manner, behaviour; treatment; **bir kəsə qarşı yaxşı** / **pis ~** good / bad treatment of *smb.*; **pis ~** bad* behaviour, misbehaviour; **xoşagələn ~** a pleasant manner

**davranmaq** *f.* **1.** to behave, to treat; **pis ~** to behave / to treat badly; **nəzakətlə ~** to behave politely / kindly; **bir kəslə yaxşı ~** to treat *smb.* kindly; **bir kəslə pis ~** to treat *smb.* badly, to illtreat *smb.*; **O, arvadı ilə pis davranır** He behaves badly to his wife; **2.** to bear* (oneself) in a polite way; **Davranmağı öyrənin!** Learn how to behave, Behave (yourself)!

**davul** *i.* drum; ~ **çalmaq** to beat* the drum
**davulçalan** *i.* drummer, drum player
**davulçu** *i. bax* **davulçalan**
**davulçuluq** *i.* the profession of a drummer
**dayaq I.** *i.* **1.** prop, rest, foot*; **2.** *tex.* stop, bearing, log; **3.** pedestal; **4.** *məc.* support; **5. (körpüdə)** pier; **6.** stronghold, bulwark; **sülhün dayağı** stronghold of peace; **7.** *fiz.* **həm də** *məc.* fulcrum (*pl.*: -crums or -cra); **bir kəsə ~ olmaq** / **durmaq** to support / to defend *smb*. **II.** *s.* supporting, bearing; ~ **məntəqəsi** *hərb.* supporting / strong point; ~ **dirək** bearing pile; ~ **plitə** base-plate; ~ **nöqtəsi tapmaq** *məc.* to gain a foothold
**dayaq-divar** *i. arxit.* buttress, abutment, counterfort
**dayaqlamaq** *f.* to supply (*d.*), with support / bearing
**dayaglanmaq** *f.* to lean* (against, on), to rest (upon)
**dayaqlı** *s.* (*i.s.*) having bearing / support
**dayaqlıq** *i.* anything fit / suitable for support
**dayaqsız** *s.* (*i.s.*) without bearing / support
**dayaqsızlıq** *i.* the state of being without bearing / support
**dayamaq** *f.* to rest (*d.* against), to set* (*d.* against); to put (*d.* against), to prop, (*d.* under), to place (*d.* under); **dirsəyini stola** ~ to rest one's elbow on the table; **dirəyi divara** ~ to rest a pole against the wall; **O, velosipedini hasara dayadı** He / She propped his / her bicycle against the fence
**dayanacaq** *i.* **1.** stop, stopping-place, station; **(dəmir yolunda və ya avtobus marşrutunda axırıncı dayanacaq)** terminus; **(şəhərin mərkəzində avtobus dayanacağı)** terminal; **2.** *bax* **dayaq I**
**dayandırılma** *fi.* stopping, stoppage, ceasation, halting; **hərbi əməlliyatın ~sı** ceasation of hostilities; **silahlanmanın ~sı** halting of arms race; **atəşin ~sı** cease-fire
**dayandırılmaq** *f.* to be* stopped / ceased, to be* put to an end, to be* broken off, to be* discontinued
**dayandırma** *fi.* stopping, check(ing); ceasation; ceasing; stoppage, halting; **hərbi əməliyyatı** ~ ceasation of hostilities; **atom silahının istehsalını** ~ stoppage / halting of the production of atomic weapon
**dayandırmaq** *f.* to stop (*d.*), to cease (*d.*), to discontinue (*d.*), to put* an end (to), to make* an end (of); to break* off (*d.*), to halt (*d.*), to check (*d.*), to suspend (*d.*); **(atı və s.)** to rein / to pull up; **yaradan qanaxmanı** ~ to stop a wound; **söhbəti** ~ to cease / to stop talking; **atəşi** ~ to cease fire / firing; **qatarı (avtomobili və s.)** to stop a train (car, *etc.*); **işi** ~ to discontinue one's work; **danışığı** ~ to break* off the conversation; **küçə hərəkətini** ~ to bring* traffic to a standstill
**dayanmadan** *z.* **1.** immediately, at once; **Biz dayanmadan qayıtdıq** We returned immediately; **2.** incessantly, unceasingly, uninterruptedly, continuously, without break; **Yağış dayanmadan yağırdı** It was raining incessantly / unceasingly
**dayanmaq** *f.* **1.** to stop, to come* to a stop, to cease; **qəflətən** ~ to stop short / dead; **Qatar beş dəqiqə dayanır** The train stops five minutes; **İş dayanıb** The work has come to a stop; **Yağış dayanıb** The rain has ceased / stopped; **2. (mehmanxanada və s.)** to put* up (at), to stop (at), to stay (at); **mehmanxanada** ~ to stay / to stop at a hotel; **3. (hərəkətsiz durmaq)** to stand*, to come* to a standstill; **ayaq üstə** ~ to stand* on one's feet; **4. (söhbətdə, mühazirədə və s. bir məsələ üzərində)** to dwell on; **məsələ üzərində** ~ to dwell on the question; **5. (israr etmək)** to stand* on / upon, **6. (söykənmək)** to lean* (on, upon), to rest (against); **7. (tab gətirmək)** to hold* out, to stand* firm; **8. (gözləmək)** to wait; **Bircə dəqiqə dayan** Wait just a minute; ◊ **bir kəsin arxasında dağ kimi** ~ to defend *smb.* with might and main, to be* solidly behind *smb.*
**dayanmaz** *s.* incessant, uninterrupted, persistent; ~ **səs-küy** persistent noise; ~ **yağış** incessant rain
**dayaz** *s.* **1.** shallow, not deep; ~ **çay** shallow river; ~ **boşqab** shallow dish; **2. (adam)** small-minded, narrow-minded; **3. (ötəri)** superficial; ~ **bilik** superficial knowledge
**dayazbilikli** *s.* (*i.s.*) with superficial knowledge

**dayazbiliklilik** *i.* small-mindedness, narrow-mindedness
**dayazca** *s.* **1.** quite shallow; **2.** *məc.* quite superficial
**dayazfikirli** *s.* *bax* **dayazdüşüncəli**
**dayazfikirlilik** *i.* *bax* **dayazdüşüncəlilik**
**dayazdüşüncəli** *s.* narrow-minded, small-minded
**dayazdüşüncəlilik** *i.* narrow-mindedness, small-mindedness
**dayazlamaq** *f.* to become* / to grow* shallow
**dayazlandırılmaq** *f.* to be* made (*d.*) shallow
**dayazlandırmaq** *f.* to make* shallow (*d.*)
**dayazlanma** *fi.* *bax* **dayazlaşma**
**dayazlanmaq** *f.* to become* / to get* shallow, to shallow (*d.*)
**dayazlaşma** *fi.* shallowing, becoming shallow
**dayazlaşmaq** *f.* *bax* **dayazlanmaq**
**dayazlatmaq** *f.* to cause *smth.* to grow / to become shallow; to ask / to cause *smb.* to shallow (*d.*)
**dayazlıq** *i.* **1.** shallowness; shoal; **2.** *məc.* superficiality
**dayça** *i.* *bax* **daylaq**
**dayçalı** *s.* *bax* **daylaqlı**
**day-day** *i.* *d.d.* *bax* **dayı**
**dayə** *i.* nanny, nurse, nurse-maid; **(xəstəxanada)** hospital nurse; **(müraciət)** nursey, nanny
**dayəlik** *i.* nursing; ~ **etmək** to be* a nurse, to work as a nurse
**dayı** *i.* uncle (on the mother's side)
**dayıarvadı** *i.* the wife of one's uncle, uncle's wife
**dayıdostu** *i.* *bax* **dayıarvadı**
**dayıqızı** *i.* (first) cousin [kʌzn]; a daughter of one's uncle (on the mother's side)
**dayılı** *s.* (*i.s.*) having an uncle; *məc.* (*i.s.*) having support
**dayılıq** *i.* the state of being an uncle (on the mother's side); ~ **etmək** to patronize (*d.*), to protect (*d.*)
**dayınəvəsi** *i.* **(oğlan)** uncle's grandson; **(qız)** uncle's grand-daughter (on the mother's side)
**dayıoğlu** *i.* (first) cousin (on the mother's side)
**dayıoğluluq** *i.* the state of being (first) cousin (on the mother's side)
**dayıuşağı** *i.* the children of one's uncle (on the mother's side)
**dayıuşağılıq** *i.* the state of being the children of one's uncle (on the mother's side)
**daylaq** *i.* foal; yearling (foal)
**daylaqlı** *s.* (*i.s.*) with a foal, (*i.s.*) having a foal
**daz I.** *i.* bald spot / patch, bald-head **II.** *s.* bald, bald-headed
**dazbaş** *s.* bald-headed; ~ **adam** bald-headed man*
**dazbaşlıq** *i.* baldness, the state of being bald
**dazılamaq** *f.* to walk quickly / rapidly, to go* quickly / rapidly
**dazlanma** *fi.* growing / becoming bald
**dazlanmaq** *f.* *bax* **dazlaşmaq**
**dazlaşdırmaq** *f.* to cause to become* / to grow* bald (*d.*)
**dazlaşmaq** *f.* to become* / to grow* bald, to get* bald
**dazlıq** *i.* baldness, bald-headedness
**debet** *i.* *müh.* debit
**debil** *i.* moron, a very foolish person / child*
**debil** *s.* moronic; ~ **uşaq** moronic child*
**debillik** *i.* moronity
**debit** *i.* **(suyun, qazın və s. miqdarı)** output, yield; **qazın ~ i** output of gas
**debitor** *i.* *müh.* debtor
**debüt** *i.* **1.** debut [´deıbu:]; **2.** *şahm.* (chess) opening
**debütant** *i.* debutant [deıbju:´ta:ŋ]; **(qadın)** debutante [deıbju´ta:nt]
**dedikcə** *z.* very, too, extremely; ~ **maraqlı** very / too / extremely interesting
**dedi-qodu** *i.* talk, rumours; gossip; **~ya səbəb olmaq** to give* rise to a lot of talk; **~ya son qoymaq** to put* a stop to idle talk
**dedi-qoduçu** *i.* tale-teller, scandalmonger
**dedi-qoduçuluq** *i.* scandal; talking scandal; ~ **etmək** to gossip; to talk scandal
**dedirtdirmək** *f.* *bax* **dedirtmək**
**dedirtmək** *f.* to ask / to cause *smb.* to say
**deduksiya** *i.* deduction
**deduktiv** *s.* deductive; ~ metod deductive method
**defis** *i.* hyphen [´haıfən]; **~lə yazmaq** to hyphen (*d.*), to hyphenate (*d.*), to join (*d.*) with a hyphen

**defisit I.** *i.* deficit **II.** *s.* scarce; in short supply; ~ **mallar** commodities in short supply, scarce commodities
**defisitlik** *i.* the state of being deficit
**deformasiya** *i.* deformation
**degenerasiya** *i.* degeneration
**degenerat** *i.* morron, a very foolish person
**degenerativ** *s.* moronic
**dehade** *i.* speaking / talking continuously
**dehqan** *i. bax* **kəndli**
**dehqanlıq** *i. bax* **kəndlilik**
**dekabr I.** *i.* December **II.** *s.* December; ~ **günü** a December day, a day in December
**dekada** *i.* Ten-day period; **Azərbaycan ədəbiyyətı və incəsənəti ~sı** Azerbaijan Ten-Day Festival of Literature and Arts
**dekalitr** *i.* decalitre
**dekan** *i.* dean (president of a faculty)
**dekanat** *i.* dean's office
**dekanlıq** *i.* **1.** *bax* **dekanat**; **2.** the job of a dean; ~ **etmək** to be* a dean, to work as a dean
**deklamasiya** *i.* recitation; declamation; ~ **demək** to recite (*d.*); to declaim (*d.*)
**deklamasiyaçı** *i.* reciter
**deklarasiya** *i.* declaration
**dekorasiya** *i.* scenery (in theatre)
**dekorativ** *s.* decorative; ornamental; ~ **sənət** decorative art; ~ **bitki** ornamental plant
**dekorator** *i.* decorator, scene-painter
**dekret I.** *i.* decree; edict; **sülh haqqında** ~ the Decree on Peace; **torpaq haqqında** ~ the Decree on land **II.** *s.* ◊ ~ **məzuniyyəti** maternity leave
**deqazasiya** *i.* degassing, decontamination; ~ **etmək** to degas (*d.*), to decontaminate (*d.*)
**deqazator** *i.* decontaminator
**deqradasiya** *i.* degradation
**dequstasiya** *i.* tasting
**dequstator** *i.* taster
**delfin** *i. zool.* dolphin
**delta I.** *i. coğ.* delta; **Kür çayının ~sı** the delta of the Kur **II.** *i.* **(yunan əlifbasının 4-cü hərfi)** delta
**demaqoq I.** *i.* demagogue, demagog **II.** *s.* demagogic, demagogical; ~ **nitq** demagogic speech
**demaqoqcasına** *z.* demagogically
**demaqoqiya** *i.* demagogy, demagogism
**demaqoqlaşmaq** *f.* to become* a demagogue / a demagog
**demaqoqluq** *i.* demagoguery, demagogy; ~ **etmək** to act as / like a demagog, to act / to behave demagogically
**demə** *əd.* It appears *that* ..., It turns out, Turn out to be; **Demə onlar qohum imişlər** It appears that they are relatives; **Demə o, mehriban adam imiş** He / She turned out a very kind man
**demək I.** *f.* **1.** to say* (*d.* to); to tell* (about *d.*); **həqiqəti** ~ to tell / to say* the truth; **yalan** ~ to tell* a lie, to tell* lies; **öz fikrini** ~ to give* one's opinion (of); **Deyirlər *ki,...*** ...They say, It is said; **2.** to call (*d.*), to name (*d.*); **Bu kitaba maraqlı demək olmaz** The book can't be called interesting **II. ara** *s.* so, then; **Demək, siz heç nə görmədiniz** So you saw nothing; **Demək, siz gedirsiniz** So / Then you are going
**deməli ara** *s. bax* **demək II**
**demi** *i. bax* **qəlyan**
**demokrat** *i.* democrat
**demokratik** *s.* democratic, democratical; ~ **azadlıq** democratic liberty; ~ respublika democratic republic
**demokratikcəsinə** *z.* democratically, as / like a democrat
**demokratikləşdirilmə** *fi.* being democratized; democratization
**demokratikləşdirilmək** *f.* to be* democratized
**demokratikləşdirmə** *fi.* democratizing; democratization
**demokratikləşdirmək** *f.* to democratize (*d.*)
**demokratikləşmə** *fi.* getting / becoming democratized, democratization
**demokratikləşmək** *f.* to get* / to become* democratized
**demokratiklik** *i.* the state of being democratic
**demokratiya** *i.* democracy; **burjua ~sı** bourgeois democracy
**demokratizm** *i.* democratism
**demokratlaşdırılma** *fi. bax* **demokratikləşdirilmə**
**demokratlaşdırılmaq** *f. bax* **demokratikləşdirilmək**

**demokratlaşdırma** *fi. bax* **demokratikləşdirmə**
**demokratlaşdırmaq** *f. bax* **demokratikləşdirmək**
**demokratlaşma** *fi. bax* **demokratikləşmə**
**demokratlaşmaq** *f. bax* **demokratikləşmək**
**demoqrafik** *s.* demographic
**demoqrafiya** *i.* demography
**dempinq** *i. iqt.* dumping
**departament** *i.* department
**departasiya** *i.* deportation; **zorla ~ edilmə** deportation by force
**depo** *i.* depot [ˊdepou]; shed; **yanğın ~su** fire-station
**deputat** *i.* deputy
**deputatlıq** *i.* the state of being a deputy; duty of a deputy
**dermatin** *i.* leatherette
**dermatologiya** *i.* dermatology
**dermatoloq** *i.* dermatologist
**desant** *i.* **1.** landing; **2. (ordu)** the landing force
**desantçı** *i.* paratrooper
**desert** *i.* dessert
**despot** *i.* despot
**despotcasına** *z.* despotically
**despotçuluq** *i. bax* **despotizm**
**despotik** *s.* despotic, despotical
**despotizm** *i.* despotism
**despotluq** *i.* despotism
**deşdirilmək** *f.* to be* bored, to be* drilled, to be* punched / pierced, to be* perforated
**deşdirmək** *f.* to ask / to cause *smb.* to drill (*d.*) / to bore (*d.*), to ask / to cause *smb.* to punch / to pierce (*d.*); to have* (*d.*) drilled / bored / punched / pierced
**deşdirtmək** *f. bax* **deşdirmək**
**deşik I.** *i.* hole, puncture; gap; **deşiyi tutmaq** to stop a gap / hole; **~ açmaq** *bax* **deşmək**; **dişdə ~** a hole in a tooth; **siçan deşiyi** a mouse's hole; **burun deşiyi** nostril **II.** *s.* torn, full of holes, worn through; punctured; **~ çəkmə** torn boots; **~ qazan** a saucepan with a hole in it; **~ şin** a punctured tire
**deşikaçan I.** *i.* **1.** puncher; **2.** *tex.* punch; driller **II.** *s.* boring, drilling; **~ dəzgah** boring / drilling machine
**deşikaçma** *i.* boring, drilling; perforation
**deşik-deşik** *s.* holey, full of holes / gaps; **~ etmək** to pierce with holes (*d.*); **(güllə ilə)** to riddle (*d.* with); **adamı ~ etmək (güllə ilə)** to riddle a man* with shots; **~ olmaq** to be* all holes; to be* / to become riddled; **Əgər tərpənsəniz, sizi deşik-deşik edəcəm (güllə ilə)!** If you move I'll riddle you with bullets!
**deşikli** *s.* (*i.s.*) with holes / riddles; (*i.s.*) having holes / riddles, perforated, punctured; **~ kərpic** perforated bricks
**deşilmək** *f.* **1.** to be* riddled / perforated / punctured / drilled; to get* riddled with holes; **2. (paltar)** to wear through; **3. (yara)** to open
**deşmək** *f.* **1.** to drill (*d.*), to bore (*d.*), to make* / to punch a hole (in), to pierce a hole; **(quş)** to peck (*d.*); **(komposterlə)** to punch (*d.*); **(iti silah ilə)** to pierce (*d.*); **(divarı)** to breach (*d.*); **(təkəri)** to puncture (*d.*); **Mıx təkəri deşdi** A nail punctured the tyre; **2.** *tex.* to perforate (*d.*); **kağızı ~** to perforate the paper; **3.** to gnaw [nɔ:]; **Dərd ürəyimi deşir** Grief gnaws my heart
**detal** *i.* `detail
**detektiv I.** *i.* detective **II.** *s.* detective; **~ roman** detective novel / story
**devalvasiya** *i. iqt.* devaluation, deprecation
**devirmə** *fi.* overthrow; **hökümətin ~si** overthrow of government
**devirmək** *f.* to overthrow* (*d.*), to overturn (*d.*); to depose (*d.*), to dethrone (*d.*); **hökuməti ~** to overthrow* the government; **Ordu dövlət başçısını devirdi** The army deposed the head of the state
**deviz** *i.* motto
**devriliş** *i. bax* **devirmə**
**devrilmə** *fi.* deposition, dethronement, overthrow, overturn
**devrilmək** *f.* to be* overthrown / deposed / dethroned
**deyə** *bağ.* in order; **İtirməsin deyə o açarı cibinə qoydu** He / She put the key into his / her pocket ( in order ) not to lose it; **Ora gecikməsin deyə o saat** 6**-da qalxdı** He / She got up at 6 (in order) to be there in time
**deyə-gülə** *z.* merrily, gaily; **~** vaxt **keçirmək** to have* a jolly good time, to pass one's time merrily

**deyək** *ara. s.* ~ **ki**, Say *that*..., Let us assume; **Deyək ki**, **siz haqlısınız** Assuming that you are *right* ...
**deyən-gülən** *s.* cheerful, joyous, buoyant, merry, jovial; ~ **adam** cheerful / merry / jovial man*
**deyəsən** *ara. s.* seem (to be+*adj*. or *part*.), look like, It seems *that*...; **Deyəsən**, **o ağıllıdır** He / She seems to be clever, He / She seems clever; **Deyəsən**, **o razıdır** He / She seems to be pleased / satisfied, It seems that he / she is pleased / satisfied; **Deyəsən**, **yağış yağacaq** It looks like rain
**deyib-gülən** *s. bax* **deyən-gülən**
**deyib-gülmək** *f.* to joke, to jest, to chatter; **deyib-gülməyi sevmək** to be* fond of a joke
**deyici** *i.* telltale, informer
**deyicilik** *i.* informing; peaching, speaking behind *smb*.; ~ **etmək** to tell tales (to *smb*. about), to inform *smb*. (about); to speak* ill of *smb*.
**deyikləmək** *f.* to betroth, to declare betrothed at an early age
**deyikli I.** *i.* betrothed; ~**lər** the betrothed **II.** *s.* betrothed; **bir kəsə** ~ **olmaq** to be* betrothed to *smb*.
**deyiklilik** *i.* the state of being betrothed
**deyil** *əd.* to be+not; **Mən həkim deyiləm** I am not a doctor; **O, müəllim deyil** He / She is not (isn't) a teacher; **Biz fəhlə deyilik** We are not (aren't) workers
**deyilən** *s.* called; by name, so-called; **yuxarıda** ~ aforesaid, aforementioned / abovementioned
**deyilmə** *fi.* being said / told
**deyilmək** *f.* **1.** to be* said / told; **2.** to be* called / named
**deyilmiş** *fs.* said; **yuxarıda** ~ aforesaid, aforementioned, stated above
**deyindirmək** *f.* to cause *smb*. to grumble
**deyingən I.** *i.* grumbler; **(arvad)** shrew **II.** *s.* querulous, peevish; ~ **qoca** querulous old man*
**deyingənlik** *i.* peevishness, querulousness
**deyinmək** *f.* to grumble (at); **öz-özünə** ~ to mutter to oneself; **burnunun altında** ~ to mutter (into one's beard)
**deyişdirmək** *f.* **1.** to ask / to cause two or more people to enter an argument, to ask / to cause two or more people to wrangle (with); **2.** to ask / to cause two (or more) ashugs (Caucasian folk poets and singers) to compete with in poems and singing
**deyişmə** *i.* **1.** quarrelling, wrangling, altercation; **2.** competition between ashugs (Caucasian folk poets and singers); **3.** a kind of poem, composed by ashugs
**deyişmək** *f.* **1.** to quarrel (with), to argue (with); to exchange bandy words (with), to wrangle (with); **2.** to compete in telling poems and singing (of ashugs)
**dezaktivasiya** *i.* decontamination
**dezertir** *i.* deserter
**dezertirlik** *i.* desertion
**dezinfeksiya** *i.* disinfection
**dezinfeksiyaçı** *i.* disinfector
**dezinfeksiyaedici** *s.* disinfectant; ~ **vasitə** disinfectant
**də** *əd.* phonetic variant of the particle
**da** used after front vowels
**dəb** *i.* fashion, vogue [voug]; ~**də** in fashion / vogue; ~**ə düşmək** to come* into fashion / into vogue, to become* fashionable; ~**dən çıxmaq** to go* out of fashion / vogue; ~ **yaratmaq** to introduce a fashion; ~**ə salmaq** to bring* into fashion (*d*.); ~**ə uyğun** / **müvafiq** in the fashion, fashionably; ~**ə uyğun geymək** to dress fashionably; **son** ~**də** in the latest fashion; ~ **salmaq** to set* a fashion
**dəbbə I.** *i.* **1.** boaster, braggart, show-off; **2.** fault-finder **II.** *s.* **1.** boastful, vainglorious; **2.** fault-finding
**dəbbəçilik** *i. bax* **dəbbəlik**
**dəbbələmək** *f.* to find* fault on purpose to retract one's words / bargain, to go* back on one's bargain
**dəbbəlik** *i.* **1.** boastfulness, vaingloriousness, vainglory; **2.** retraction; ~ **etmək** 1) *bax* **lovğalanmaq**; 2) *bax* **dəbbələmək**
**dəbdəbə** *i.* luxury, splender, magnificence
**dəbdəbəli I.** *s.* sumptuous, splendid, magnificent; luxurious; ~ **mehmanxana** / **ev** / **saray və s**. luxurious / magnificent / splendid hotel / house / palace, *etc*.; ~ **paltar** magnificent dress; ~ **həyat** magnificent / splendid life, a life of luxury; ~ **qonaqlıq** sumptuous feast **II.** *z.* luxuriously,

sumptuously, splendidly; ~ **yaşamaq** to live luxuriously / sumptuously, to live in luxurious surroundings, to live in luxury; to live like a lord

**dəbdəbəlik** *i.* sumptuousness, magnificence, luxury

**dəbərdilmək** *f.* to be* moved / budged

**dəbərişmək** *f.* to move / to budge all together

**dəbərmək** *f.* to move, to budge; **Qatar dəbərdi** The train moved; **O, yerindən dəbərmədi** He / She didn't budge

**dəbərtmək** *f.* to move (*d.*), to budge (*d.*); **əlini** ~ to move one's hand; **Mən daşı dəbərdə bilmədim** I couldn't budge the rock

**dəbilqə** *i.* helmet, head-piece; polad ~ steel helmet; **dalğıc ~si** diving-helmet, diver's helmet

**dəbilqəli** *s.* (*i.s.*) with helmet; (*i.s.*) having helmet

**dəc** *s.* complete, perfect; ~ **etmək** to complete (*d.*), to make* (*d.*) perfect; ~ **bağlamaq** to bundle up (*d.*)

**dəcəl I.** *i.* prank, mischief, prankish person **II.** *s.* naughty, prankish, mischievous; ~ **uşaq** mischievous / naughty child; *d.d.* bundle* of mischief; ~ **olmaq** to be* naughty; **Dəcəl olma!** Don't be naughty!

**dəcəlləşmə** *fi.* becoming mischievous / naughty

**dəcəlləşmək** *f.* to become* mischievous / naughty

**dəcəllik** *i.* naughtiness, prankishness, mischievousness; ~ **etmək** to play pranks, to be* up to mischief; **Dəcəllik ertmə!** Don't play pranks!

**dəcləmək** *f.* **1.** to put* in order carefully; **2.** to pile up grain and mark

**dədə** *i. d.d.* dad, daddy

**dədə-baba I.** *i.* forefathers, ancestors **II.** *s.* forefather's, grandfather's; ~ **adətləri** old customs

**dəf** *i.* **1.** drum; ~ **çalmaq** to beat* the drum; **2.** repulse, ~ **etmək** to repulse (*d.*), to parry (*d.*), to beat* off / back (*d.*); **hücumu dəf** ~ **etmək** to beat* off / to repulse an attack; **zərbəni** ~ **etmək** to parry / to repel a blow

**dəfçalan** *i.* tambourine player, drummer

**dəfçi** *i. bax* **dəfçalan**

**dəfçilik** *i.* the profession of a tambourine player / drummer

**dəfə** *i.* time, once, occasion; **bu** ~ this time, for this once, on this occasion; **iki** ~ twice; **üç** ~ thrice; **bir** ~ once; **çox** ~ often, many times; **birinci (ikinci**, **üçüncü və s.)** ~ for the first (second, third, *etc.*) time; **gələn** ~ another time; **bir ~də** once again, once more; **axırıncı** ~ for the last time; **gündə bir** ~ once a day; **ildə iki** ~ twice a year; **hər** ~ every time, each time; **birinci və axırıncı** ~ once and for all; **İki dəfə iki dörd eylər** Twice two is four; **Yüz dəfə ölç**, **bir dəfə biç** *at. söz.* ~ Look before you leap; Think before you act

**dəfələrcə** *z. bax* **dəfələrlə**

**dəfələrlə** *z.* repeatedly, time and again, more than once, many times, over and again

**dəfəlik** ***i.***: **bir** ~ 1) at one go, at a stretch; 2) once and for all, for ever, for ever and ever

**dəfinə** *i.* treasure, buried treasure; hoard

**dəfn I.** *i.* burial, funeral **II.** *s.* funeral; ~ **bürosu** funeral parlour; undertaker's office; ~ **etmək** to bury (*d.*)

**dəfnetmə** *i.* burial

**dəfnə I.** *i.* laurel, bay (-tree) **II.** *s.* bay, laurel; ~ **ağacı** bay-tree; ~ **yarpağı** bay leaf; ~ **çələngi** laurels *pl.*, laurel wreath

**dəfnəlik** *i.* laurel grove

**dəftər** *i.* writing-book; **(məktəbli üçün)** exercise book, copy-book; **qaralama üçün** ~ rough note-book; **şəkil çəkmək üçün** ~ drawing book, sketch-book; **not ~i** music book

**dəftərçə** *i.* note-book

**dəftər-kitab** *top. i.* copy books and books, writing materials

**dəftər-qələm** *top. i.* copy-books and pens

**dəftərxana I.** *i.* office **II.** *s.* clerk; *məc.* red-tapist

**dəftərxanaçı** *i.* clerk; *məc.* red-tapist

**dəftərxanaçılıq** *i.* the job of a clerk

**dəhan** *i. bax* **ağız**

**dəhləmək** *f.* to drive* on (*d.*), to urge (*d.*), to urge on (*d.*)

**dəhliz** *i.* passage, entrance (hall), enterroom, corridor

**dəhmərləmə** *fi.* driving on, urging on

**dəhmərləmək** *f. bax* **dəhləmək**
**dəhmərlənmək** *f.* to be* driven, to be* urged on
**dəhnə** *i.* **1. (yüyənin atın ağzına qoyulan dəmir hissəsi)** bit; **2. (dəyirmanda)** millpond; **3. (arxın başlanğıcı)** weir
**dəhrə** *i.* hook
**dəhrələmək** *f.* to cut* with a hook (*d.*)
**dəhrələnmək** *f.* to be* cut with a hook
**dəhrələtdirmək** *f. bax* **dəhrələtmək**
**dəhrələtmək** *f.* to ask / to cause *smb*. to cut (*d.*) with a hook
**dəhrəli** *s.* with a hook, having a hook
**dəhrəsiz** *s.* hookless, (*i.s.*) without hook
**dəhrəşəkilli** *s.* hook-shaped
**dəhşət** *i.* terror, horror; **~ə salmaq** / **gətirmək** to terrify (*d.*), to horrify (*d.*), to petrify; **~dən titrəmək** / **əsmək** to shudder with horror; **~ə gəlmək** to be* horrified; **Nə dəhşətdir!** How terrible / horrible!
**dəhşətləndirmək** *f.* to terrify (*d.*), to horrify (*d.*), to petrify (*d.*)
**dəhşətlənmək** *f.* to be* frightened (at), to be*terrified / horrified
**dəhşətli** *i.* terrible, horrible; **~ hava** terrible weather; **~ isti** terrible heat; **~ müharibə** terrible war; **~ külək** terrible wind; **~ cinayət** a horrible crime
**dəxli** ***i.***: **~ olmaq** to concern (*d.*); **Bunun mənə dəxli varmı?** Does this concern me?; **~ olmamaq** to have* nothing to do (with); not to concern; **Bunun mənə dəxli yoxdur** I have nothing to do with it, It's no concern of mine, It's of no concern to me **Bunun sənə dəxli yoxdur** It 's not your business, You have nothing to do with it, It's no concern of yours
**dəqiq I.** *s.* exact, precise; accurate, punctual; **~ vaxt** exact time; **~ tərcümə** exact / accurate / faithful translation; **~ adam** punctual man*; **~ elmlər** exact sciences; **~ alətlər** precision instruments; **~ hesablama** precise / nice calculation **II.** *z.* exactly, precisely, punctually, sharp, accurately; **~ demək** to say* / to tell* exactly; **~ tərcümə etmək** to translate exactly / accurately
**dəqiqə** *i.* minute; moment; **İkiyə on dəqiqə işləyib** Ten minutes past one; **Üçə on dəqiqə qalıb** Ten minutes to three; **Bir dəqiqə gözləyin** Wait a minute; **Bu dəqiqə** This very moment / minute, At the present moment; **O dəqiqə** Instantly, In no time, At once; **Dəqiqədə bir** *bax* **dəqiqəbaşı** II
**dəqiqəbaşı I.** *s.* occuring every minute, at interval of a minute; continual, incessant **II.** *z.* (at) every minute, (at) every instant; continually, incessantly
**dəqiqəbədəqiqə** *z.* every minute / moment; any minute / moment
**dəqiqəlik** *s.* momentary; minute's, moment's; **bir ~ istirahət** a moment's / minute's rest
**dəqiqləşdirilmək** *f.* to be* defined more precisely / accurately
**dəqiqləşdirmək** *f.* to specify (*d.*), to make* exact (*d.*), to be* made more exact / precise (*d.*), to define (*d.*) more exactly / precisely, to give* a more precise definition; **müqavilənin hər bir bəndini ~** to specify / to determine each point of the contract; **məlumatı ~** to make* the information more exact / precise
**dəqiqləşmək** *f.* to be* / to become* more exact / precise / accurate
**dəqiqlik** *i.* exactness, precision; accuracy; punctuality; **tərcümənin dəqiqliyi** faithfulness / fidelity / accuracy of a translation
**dəlalət** ***i.***: **~ etmək** to show (*d.*), to witness (d), to testify (*d.*), to give* evidence
**dəldirmək** *f. bax* **deşdirmək**
**dəldirtdirmək** *f. bax* **deşdirmək**
**dələ** *i. zool.* squirrel
**dələduz I.** *i.* swindler, cheat, knave; *d.d.* rogue **II.** *s.* roguish, knavish
**dələduzcasına** *z.* knavishly, roguishly, like a swindler / knave
**dələduzluq** *i.* roguishness, knavishness; **(oyunda)** foul; **~ etmək** to swindle, to cheat
**dələmə** *i.* fresh cheese, not yet tempered
**dəli I.** *i.* **1. (kişi)** madman*, **(qadın)** madwoman*; madcap; **ipləmə** / **zəncirli ~** violent / raving lunatic; **2. (igid)** dare-devil, a very brave man*, man* of courage **II.** *s.* mad; **~ etmək** to drive* / to send* mad (*d.*); to madden (*d.*); to make* *smb*. to fly into rage; **~ olmaq** to be* mad, to run* / to go* mad; to get* mad / crazy; **(bərk hirslənmək)** to fly* into rage; **bir kəsin dalınca ~ kimi qaçmaq** to run* after *smb*. like

mad; **bir kəsi ~ etmək** to drive* *smb*. mad; **Bu uşaq məni dəli edəcək** This child will drive me mad / crazy

**dəlibaş** *i.* **1.** madcap; **(qız)** tomboy, hoyden; **2. (igid)** dare-devil, man of courage

**dəlibaşlıq** *i.* unruliness, violence; disorderly / unruly conduct; **~ etmək** to get* / to be* violent, to behave violently

**dəlibəng** *i. bot.* stramonium, thornapple

**dəlicəsinə** *z.* madly, in a mad way; **~ sevmək** to love madly, to be* madly in love; **bir kəsi ~ sevmək** to love *smb*. madly, to be* mad / crazy about *smb*.; to adore (*d*.)

**dəli-divanə** *i.* mad and crazy; **~ etmək** to drive* mad (*d*.) / crazy, to madden (*d*.); ~ to be* out of one's wits, to go* mad, to go* off one's head; **bir kəsin / şeyin ~si olmaq** to be* crazy about / for *smb*. / *smth*., to go* crazy with *smb*. / *smth*.; **Səndən ötrü dəli-divanəyəm**, **əzizim** I am crazy about / for you, darling

**dəlidolu I.** *i.* madcap, romp; dare-devil **II.** *s.* bold, dashing, valiant, sharp

**dəlidoluluq** *i.* alertness, briskness, pertness

**dəlik** *s. bax* **deşik II**

**dəlik-deşik** *s.* with holes, full of holes / gaps

**dəlik-dəlik** *s. bax* **deşik-deşik**

**dəliqanlı I.** *i.* daring / bold fellow, dare-devil; *d.d*. dashing fellow **II.** *s.* dashing, valiant, mettlesome, violent, perky; full of life / mirth; **~ gənc zabit** a dashing young officer

**dəliqanlılıq** *i.* boldness, dashing behaviour, bravado; perkiness; **~ etmək** to be* violent, to act / to behave dashingly

**dəliqudurmuş** *s.* rabid, mad; furious, violent

**dəliqudurmuşluq** *i.* violence, unruly / riotous conduct, fury, rage, blind fury

**dəlil** *i.* argument, reason, evidence, proof; **maddi ~** material evidence; **~ gətirmək** to adduce / to furnish / to produce evidence; **~ göstərmək** to give* / to show* proofs; **təkzibedilməz ~** irrefutable argument; **ağıllı ~** sensible argument; **zəif ~** weak argument

**dəlixana** *i.* lunatic asylum; *d.d*. madhouse

**dəliləşdirmək** *f.* to cause to go mad (*d*.) / crazy (*d*.) / insane (*d*.)

**dəliləşmək** *f.* to go* mad, to go* crazy, to become* mad

**dəlilik** *i.* madness, craziness, insanity; mad behaviour; **özünü dəliliyə vurmaq / qoymaq** to pretend to be mad / crazy / insane; **~ etmək** to act / to behave madly / crazily / insanely

**dəlilsiz** *s.* unsubstantiated, unfounded; proofless; **~ hesabat** unsubstantiated report; **~ ittiham** unfounded accusation

**dəlilsizlik** *i.* prooflessness; groundlessness

**dəlilsiz-sübutsuz I.** *s. bax* **dəlilsiz II.** *z.* prooflessly, groundlessly, without adducing any proof, on one's bare word

**dəlinmək** *f. bax* **deşilmək**

**dəlisov** *s.* unbalanced, wayward, half-witted; **~ oğul** a wayward son

**dəlisovluq** *i.* whimsy, whimsey [-zi], a strange act

**dəlitəhər** *s. bax* **dəlisov**

**dəllal** *i.* broker; mediator; **~ olmaq** to be* / to become* a broker

**dəllalbaşı** *i.* chief broker

**dəllalbazar** *i. bax* **dəllalbazarı**

**dəllalbazarı** *i.* second-hand market, black market

**dəllalhaqqı** *i.* broke rate

**dəllallıq** *i.* broking, brokerage; meditation; **~ etmək** to be* a broker, to act as a broker

**dəllək** *i.* **1.** *bax* **bərbər**; **2.** one who circumcises; **3.** *məc. d.d.* fleecer, swindler

**dəlləkxana** *i. bax* **bərbərxana**

**dəlləklik** *i.* **1.** *bax* **bərbərlik**; **2.** the profession of one who circumcises

**dəlmə-deşik I.** *i. bax* **dəlik-deşik II.** *s. bax* **deşik-deşik**

**dəlmək** *f. bax* **deşmək**

**dəm I.** *i.* fumes, carbon monoxide, charcoal fumes **II.** ***s.***: **~ qazı** carbon monoxide, charcoal fumes; **Onu dəm qazı vurub / tutub** He / She has been poisoned by carbon monoxide / (charcoal) fumes; He / She is suffering from carbon monoxide **III.** *i.* brew; **~ almaq** to draw*, to brew; **Çay dəm alır** The tea is drawing / brewing; **~ə qoymaq** to draw (*d*.), to brew (*d*.), to put (*d*.) on the stove / fire to draw* **IV.** ***s.***: **~ çayniki** teapot **V.** *i.* moment, instant; **Bu dəmdə** At that moment, At that very instant; **ayrılıq ~i** moment / hour of parting **VI.** *i.* accompaniment; **~ tutmaq 1)** *mus.*

to accompany (*d.* on), to join (in singing) (*d.*), to join in a singing (*d.*); **2)** *məc.* to echo [ekou] (*d.*); ~ **vurmaq (danışmaq)** to speak* / to tell* boastly about a matter one has no right to speak / to talk about; ◊ ~ **olmaq** to be* completely drunk

**dəmadəm** *z.* always, continually, constantly, incessantly

**dəmbədəm** *z.* (at) every moment / instant; always, continually

**dəmbərsək** *s.* boastful; haughty, arrogant

**dəmdəməki I.** *i. d.d.* giddy person; flibbertigibbet **II.** *s.* light, light-minded, frivolous, light-headed, flippant

**dəmdəməkilik** *i.* lightness, light-mindedness, flippancy, flightiness

**dəmdəsgah** *i.* luxury, splendour, magnificence, solemnness

**dəmdəsgahlı** *s.* luxurious, sumptuous, splendid

**dəmək** *i.* hole, burrow; **siçan dəməyi** a mouse's hole

**dəmir I.** *i.* iron; **(məmulat)** hardware; ◊ **Dəmiri isti-isti döyərlər** *at. söz.* Strike the iron while it is hot **II.** *s.* iron; ~ **darvaza** iron gates; ~ **çubuq** iron rods; ◊ ~ **iradə** iron will; ~ **intizam** iron discipline; ◊ ~ **dövrü (əsri)** the Iron Age; ~ **yolu** railway; *amer.* railroad ◊ ~ **pərdə** the Iron Curtain

**dəmirağac** *i. bot.* iron tree

**dəmir-beton I.** *i.* reinforced concrete, ferroconcrete **II.** *s.*: ~ **qurğu** reinforced concrete construction; ~ **məmulatları** ferro-concrete items

**dəmirçi I.** *i.* (black) smith, hammersmith **II.** *s.* blacksmith's; ~ **işi** blacksmith's work

**dəmirçixana** *i.* smithy, blacksmith's shop

**dəmirçilik** *i.* the profession of a blacksmith; ~ **etmək** to be* a blacksmith, to work as a blacksmith

**dəmir-dümür** *top. i.* iron items / articles; iron pieces

**dəmirli** *s.* ferreous; *geol.* ferruginous; **(su)** chalybeate [kəˈlɪbɪɪt]; ~ **sular** chalybeate waters

**dəmiryol** *s.* railway, *amer.* railroad; ~ **vağzalı** railway station, *amer.* railroad station; ~ **şəbəkəsi** railway system; ~ **qovşağı** (railway) junction; ~ **hərəkəti** railway traffic, train service; ~ **tikintisi** railway construction; ~ **xətti** railway track / line

**dəmiryolçu** *i.* railwayman*, *amer.* railroadman*, railroader

**dəmiryolçuluq** *i.* the profession / the job of a railwayman / railroader

**dəmkeş I.** *i.* **(samovarda)** crown, top ring **II.** *i. mus.* **1.** accompanist; **2.** *məc.* yes-man

**dəmkeşlik** *i.* the profession of an accompanist

**dəmləmək** *f.* **1.** to brew (*d.*), to draw* (*d.*), to make* (*d.*); **çay** ~ to make* tea; **2. (plov)** to evaporate (*d.*)

**dəmləndirmək** *f.* to cause *smb.* to become drunk

**dəmlənmək** *f.* **1. (çay**, **kofe və s.)** to be made / brewed; **Çay dəmlənib** The tea is ready; **2.** to become* drunk, to get* drunk; **O, dəmlənib** He has got / become drunk

**dəmləşmək** *f. bax* **dəmlənmək (2-ci mənada)**

**dəmlətmək** *f.* to ask / to cause *smb.* to brew (*d.*) / to make (*d.*) / to draw (*d.*), to have (*d.*) brewed / drawn / made; **çay** ~ to ask / to cause *smb.* to brew / to draw / to make tea, to have* the tea brewed / drawn / made

**dəmrov** *i. tib.* herpes [-pi:z]

**dəmrovlu** *s.* (*i.s.*) with herpes, (*i.s.*) having herpes, ill with herpes

**dəmtutan** *i. bax* **dəmkeş II**

**dəmyə I.** *i. k.t.* dry-farming land **II.** *s. k.t.* not irrigated; ~ **torpaq** land / soil not requiring irrigation

**dən** *i.* **1.** grain; **2.** feeding-stuffs for hens; ~ **düşmək (saça)** to be* touched with grey, to begin to grow / to turn grey; **~ə düşmək** 1) to begin* to ripe; 2) to die because of eating a plenty of grain

**dəndə** *i.* spoke

**dəndən** *s.* grainy, granular; ~ **kürü** granulated / soft caviar

**dəndənə** *i. tex.* rack-wheel, gear-wheel

**dəndənəli** *s.* toothed, cogged; ~ **təkər** cogwheel

**dənə** *i.* piece; **beş** ~ five pieces

**dənə-dənə** *z.* **1.** by the piece; ~ **satmaq** to sell by the piece; **2.** by the grain

**dənələmək** *f.* granulate (*d.*), to make* grainy (*d.*), to grain (*d.*)

**dənələnmək** *f.* to granulate; to be* granulated, to grain, to be* grained
**dənələtdirmək** *f. bax* **dənələtmək**
**dənələtmək** *f.* to ask / to cause *s.o.* to granulate (*d.*) / to grain (*d.*)
**dənəli** *s.* grainy; granular
**dənəmuzd** *s.* by the piece; **~ haqq** pay by the piece
**dənəvər** *s. bax* **dəndən**
**dənəvərlənmək** *f. bax* **dənəvərləşmək**
**dənəvərləşdirmək** *f.* to make* (*d.*) grainy / granulated, to cause to become grainy / granulated
**dənəvərləşmək** *f.* to become* / to get* grainy / granulated
**dənəvərli** *s.* grainy, granular
**dəng** ***s.***: **~ olmaq** to become* / to get* fatigued (of loud noise), to get* / to become* tired / fatigued (of nonsense talk); **~ etmək** to tire / to fatigue *smb.* of idle / dull / nonsense talk
**dəngəsər** *s.* insane, foolish, light-minded; **~ etmək** to bore (*d.*), to disturb (*d.*)
**dəngüş I.** *i.* talker, a light-minded man* / person, a silly person **II.** *s.* talkative, garrulous, light-minded, silly, stupid
**dəniz I.** *i.* sea; **Xəzər ~i** the Caspian Sea; **açıq ~** the open sea; **qapalı ~** the closed sea; **açıq ~də** on the open sea, on the high sea; **~ə çıxmaq** to put* to sea; **~in dibi** bottom of the sea, sea-bottom; **~in dibində** at the bottom of the sea; **~ ilə** by sea; **~ ilə səyahət etmək** to voyage, to travel by sea; **~ə atılmaq / tullanmaq** 1) to be* thrown into the sea; 2) to jump into the sea; **~in arxasında / o tayında** over the sea, beyond the sea **II.** *s.* sea; **~ havası** sea air; **~ suyu** sea-water; **qırağı** sea-side, seashore **~ qırağında yaşamaq** to live at the sea-side; **~ səyahəti** voyage; **~ gəzintisi** sea trip; **~ döyüşü / vuruşması** sea battle; **~ xəritəsi** sea chart; **~ dövləti** sea power; **~ donanması** marine; **~ müharibəsi** sea war; **~ vuruşması** sea-fight; **~ xəstəliyi** sea-sickness; **~ qulduru** pirate, sea-robber; **~ heyvanları / bitkiləri** animals / plants which live in the sea; **~ quşu** sea bird; **~ dumanı** sea fog; **~ Allahı** Sea-God
**dənizatı** *i. zool.* hippocapus, sea-horse
**dənizçi** *i.* seaman*, sailor; *şair.* seafarer; **~ olmaq** to be* a sailor / seaman*; to go* to sea, to take* / to follow* the sea
**dənizçilik I.** *i.* navigation, seafaring **II.** *s.* nautical, seafaring, naval; **~ məktəbi** naval school / college, nautical college / school; **~ astronomiyası** nautical astronomy
**dənizkələmi** *i. bot.* sea-kale
**dənizkənarı I.** *i.* seaside **II.** *s.* seaside; **~ bulvar** seaside boulevard
**dənizkirpisi** *i. zool.* sea-urchin
**dənizotu** *i. bot.* sea-grass
**dənizpərisi** *i.* siren
**dənizpişiyi** *i. zool.* sea bear
**dənizşeytanı** *i. zool.* sea-devil
**dəniztısbağası** *i. zool.* trutle
**dənizulduzy** *i. zool.* starfish
**dənqurudan** *i.* grain dryer
**dənləmək** *f.* to peck (*d.*), to take* grains one by one
**dənlənmək** *f.* **1.** to peck; to take* grains one by one; **Toyuqlar dənlənir** The hens are pecking; **2. (yavaş-yavaş yemək)** *d.d.* to peck at one's food
**dənli** *s.* grain; **~ bitkilər** grain-crops, cereals
**dənlik** *i.* **1. (quşlarda)** crop, craw; **2.** funnel-shaped box at mill into which grain is poured
**dənli-paxlalı** ***s.***: **~ bitkilər** leguminous plants / crops
**dənsiz** *s.* grainless, (*i.s.*) without grains; empty
**dənsizlik** *i.* the state of being grainless / without grains
**dəntəmizləyən** ***s.***: **~ maşın** winnower, winnowing machine
**dəntəmizləyici** *s. bax* **dəntəmizləyən**
**dənyeyən** *s. zool.* granivorous
**dərbədər** ***s.***: **~ düşmək** to wander; *d.d.* to knock about the world; to become* homeless; **~ etmək / salmaq** to make* *smb.* knock about the world / wander
**dərc** ***i.***: **~ etmək** to print (*d.*), to publish (*d.*); **~ etdirmək** to publish (*d.*), to ask / to cause *smb.* to publish (*d.*), to have* (*d.*) published / printed
**dərd** *i.* grief, sorrow, distress; **~ çəkmək** to grieve (for), to sorrow (for); **~ əlindən dəli olmaq** to be* distraught with grief; **~ə**

**düşmək** 1) to get* into trouble, to come* to grief; 2) to fall* ill, to have* serious / painful illness; **~ə salmaq** to give* trouble, to give* *smb*. pain; **bir kəsin ~inə qalmaq** / **~ini çəkmək** 1) to think* about / of *smb*., to be* anxious / worried about *s.o*.; 2) to take* care of *smb*.; **~ə şərik olmaq** to share one's grief / sorrow; **~ini açmaq** to make* a clean breast of one's grief, to tell* *smb*. about / of one's grief / sorrow; **~ini təzələmək** to reopen old sores; **Dərd budur ki**, ... The trouble is *that* ...

**dərd-bəla** *top. i.* misfortune, distress, grief, sorrow; trouble; **Dərd-bəladan uzaq ol(un)!** May you be free from trouble!

**dərd-ələm** *top. i.* mourn, sorrow, grief

**dərd-ələmli** *s.* mournful, sorrowful, doleful

**dərd-əzab** *top. i. bax* **əzab**

**dərd-əzablı** *s. bax* **əzablı**

**dərdirmək** *f.* to ask / to cause *smb*. to gather (*d*.) / to pick (*d*.)

**dərdisər** *i.* anxiety, sorrow; cares; **bir kəsə ~ vermək** to give* *smb*. (a lot of) trouble

**dərd-kədər** *top. i. bax* **dərd-ələm**

**dərd-qəm** *top. i. bax* **dərd**

**dərd-qəmli** *s. bax* **qəmgin I**

**dərd-qubar** *top. i. bax* **dərd**

**dərd-qubarlı** *s. bax* **dərdli**

**dərd-qüssə** *top. i.* grief, sorrow, mourning

**dərd-qüssəli** *s. bax* **qüssəli**

**dərdləşmək** *f.* to confide one's sorrow / misfortune / distress / secret to each other

**dərdlətmək** *f.* to grieve (*d*.), to cause grief (to *smb*.), to give* a lot of trouble, to cause *smb*. to become troubled

**dərdli** *s.* sorrowful, sad, mournful, doleful, miserable; **~ olmaq** to be* miserable / sorrowful / sad; **~ görünmək** to look sad / sorrowful miserable / mournful

**dərdli-dərdli** *z.* sadly, sorrowfully, mournfully

**dərdlilik** *i.* the state of being sad / sorrowful / mournful

**dərdmöhnət** *i. bax* **dərd**

**dərd-sər** *i. bax* **dərdi-sər**

**dərdsiz I.** *z.* care-free, careless, light-hearted; untroubled **II.** *z.* carelessly, light-heartedly

**dərdsiz-qəmsiz I.** *s. bax* **dərdsiz I II.** *z. bax* **dərdsiz II**

**dərdsizlik** *i.* unconcern, light-heartedness, carelessness

**dərə** *i.* valley; *şair.* vale, dale

**dərəbəyi** *i.* feudal lord; arbiter

**dərəbəyilik** *i. tar.* **1.** feudalism; **2.** high-handedness, arbitrariness

**dərəcə** *i.* **1.** degree, extent; **lazımi ~də** to the right extent / degree, **son ~yə qədər** / **kimi** to the last degree / extent; **müəyyən ~yə kimi** / **qədər** to a certain degree / extent; **2.** rank, title; **elmi ~** academic rank; **hərbi ~** military rank; **3.** *qram.* degree; **sifətin ~ləri** degrees of comparison of adjectives; **4. (elmi)** degree; **doktorluq ~si** doctor's degree; **namizədlik ~si** candidate's degree; **~ vermək** to confer a degree (on); to award / to grant a degree; **5.** *id.* class; **birinci ~** first-class

**dərəcəli** *s.* **1.** grade, class; **birinci ~** first grade / class; **birinci ~ diplom** first-class diploma; **birinci ~ oyunçu** first-class / grade player; **birinci ~ idmançı** first-grade sportsman*, **(qadın)** first-grade sportswoman*, **üçüncü ~ tornaçı** third-grade turner; **2.** graduated; **~ xətkeş** a graduated ruler

**dərəcəsiz** *s.* **1.** (*i.s.*) without degree / rank / grade / class; **2.** not graduated, (*i.s.*) having no graduations

**dərəli** *s.* (*i.s.*) with valleys

**dərəlik** *i.* a country / district with valleys

**dərəli-təpəli** *s.* broken, rugged; hilly

**dərəlik-təpəlik** *i.* broken / hilly country, broken ground; a place with hills and valleys

**dərə-təpə** *top. i. bax* **dərəlik-təpəlik**

**dərə-təpəli** *s. bax* **dərəli-təpəli**

**dərə-təpəlik** *i. bax* **dərəlik-təpəlik**

**dərhal** *z.* immediately, at once, instantly, in no time, without delay; **~ qayıtmaq** to return immediately / at once / instantly

**dəri** *i.* skin; **(malqara)** hide; *anat.* cutis; **(xammal)** leather [le-]; **~dən çıxmaq** *d.d.* to go* all out; **bir ~ bir sümük** bag of bones, skin and bone; ◊ **qoyun ~sinə girmiş qurd** / **canavar** a wolf in sheep's clothing / skin

**dərialtı** *i. tib.* hypodermic, subcutaneous; **~ hüceyrə** hypodermic / subcutaneous tissue

**dəriaşılayan** *i.* tanner
**dəriboyayan** *i.* dyer of skin
**dəriboyunlu** *s.* (*i.s.*) with fur collar; ~ palto a coat with fur collar
**dəriçi** *i.* currier, tanner, leather-dresser / currier
**dəriçilik** *i.* the profession of a tanner / leather-dresser
**dərixana** *i.* tannery
**dərili** *s.* leathery; ~ **ət** leathery meat
**dərilmək** *f.* to be* picked / gathered / plucked
**dərin I.** *s.* deep; profound; ~ **kədər** deep sorrow; ~ **yara** a deep wound; ~ **qab şkafı** a deep cupboard; ~ **yuxu** deep / a profound sleep; ~ **sükut** profound / perfect silence; ~ **bilik** deep / profound knowledge; ~ **adam** a deep person; ~ **boşqab** soup-plate; ~ **kök salmaq** / **atmaq** to be* deeply rooted **II.** *z.* deeply, deep; profoundly; ~ **düşünmək** to think deeply / profoundly; **Sakit** / **Lal axan su dərin olar** *at. söz.* ◊ Still waters run deep
**dərindən** *z. bax* **dərin II**
**dərindüşüncəli** *s.* profound; ~ **mütəfəkkir** a profound thinker
**dərindüşüncəlilik** *i.* profoundity, insight; depth of thought
**dərinfikirli** *s. bax* **dərindüşüncəli**
**dərinfikirlilik** *i. bax* **dərindüşüncəlilik**
**dərinləşdirmək** *f.* **1.** to deepen (*d.*), to make* deeper (*d.*); **qanovu** ~ to deepen the ditch, to make* the ditch deeper; **2.** *məc.* to extend (*d.*), to intensify (*d.*); **biliyini** ~ to extend one's knowledge; ~ to intensify contradictions
**dinmək** *f.* to start to say / to talk, to begin* to speak
**dinməz I.** *i.* taciturn / silent person **II.** *s.* taciturn, silent **III.** *z.* silently, taciturnly, without a word
**dinməzcə** *z. bax* **dinməz III**
**dinməz-danışmaz I.** *s. bax* **dinməz II II.** *z. bax* **dinməz III**
**dinməz-söyləməz** *z. bax* **dinməz III**
**dinozavr** *i. zool.* dinosaur [ˈdaɪnəsɔ:]
**dinpərəst** *i.* supporter / defender of religion, religious, devout
**dinpərəstlik** *i. bax* **dindarlıq**
**dinsiz I.** *i.* atheist, irreligious person, nonbeliever **II.** *s.* **1.** irreligious; godless; unbelieving; **2.** *d.d.* merciless, brutal, cruel
**dinsizlik** *i.* atheism, godlessness, devoutness
**dipdiri** *s.* **1.** quite alive, thoroughly alive; **2.** not cooked perfectly, under-cooked (of rice, *etc.*)
**diplom I.** *i.* diploma; certificate of degree **II.** *s.*: ~ **işi** degree work / thesis, graduation work / paper
**diplomat** *i.* diplomat; diplomatist
**diplomatcasına** *z.* diplomatically, tactfully
**diplomatik** *s.* diplomatic; ~ **münasibətlər** diplomatic relations; ~ korpus diplomatic corps [kɔ:]
**diplomatiya** *i.* diplomacy
**diplomatlıq** *i.* the profession / the job of a diplomat
**diplomçu** *i.* student working on graduation thesis / engaged in degree thesis
**diplomlu** *s.* certificated; professionally qualified; (*i.s.*) with a diploma
**diplomsuz** *s.* (*i.s.*) not certificated; (*i.s.*) without a diploma
**dirçəldilmək** *f.* to be* rebirthed / revived
**dirçəliş** *i.* revival, rebirth, renascence, regeneration; **sənayenin ~i** rebirth / revival of industry
**dirçəlmək** *f.* **1.** to revive, to vivify; to come* to life, to become* animated; **2. (xəstə** *haq.***)** to get* better, to recover; **3. (böyümək)** to grow* up
**dirçəltdirmək** *f. bax* **dirçəltmək**
**dirçəltmək** *f.* **1.** to revive (*d.*), to vivify (*d.*), to enliven (*d.*); **qədim ənənəni** ~ to revive an old custom; **2. (böyütmək)** to rear; to bring* up; **ailəni** ~ to rear a family
**direksiya** *i.* board (of directors), management

**direktiv I.** *i.* instructions *pl.*, directives, directions **II.** *s.* directive, directory; **~ göstərişlər** instructions, directives, directions
**direktor I.** *i.* director, manager; **məktəb ~u** director of a school; school principal; **(kişi)** head master; **(qadın)** head mistress **II.** *s.* director's, managerial
**direktorat** *i.* directorate, board of directors
**direktorluq** *i.* the job / duty of director; **~ etmək** to be* a director, to work as a director
**dirək** *i.* post, pole; pillar; log, beam; **teleqraf dirəyi** telegraph-pole, telegraph-post; **sərhəd dirəyi** frontier post; **cəmiyyətin (ailənin və s.) dirəyi** *məc.* pillar of society (family, *etc.*); **~ qoymaq** *bax* **dirəkləmək**
**dirəkləmək** *f.* to put* / to place a pole (under); to put* / to place a post / log (under)
**dirəklənmək** *f.* to be* placed / put pole (under), to be* placed a log (under)
**dirəklətdirmək** *f. bax* **dirəklətmək**
**dirəklətmək** *f.* to ask / to cause *smb.* to place a log / a pole (under *d.*)
**dirəmək** *f.* to rest (*d.* against), to set* (to), to prop (up) (*d.*); to press (*d.* against); **dirəyi divara ~** to rest a pole / a log against the wall; **burnunu** aynaya **~** to press one's nose against the window; ◊ **ayağını yerə ~** to persist, to be* stubborn, to refuse to make any change in what one is doing / thinking; **ayaqlarını yerə ~** to dig* one's heels in, to plant one's feet firmly; ◊ **bir kəsi divara ~** to drive* *smb.* into a corner, to bring* *smb.* to bay, to put* *smb.* in a spot; ◊ **gözlərini ~** to stare (at)
**dirənmək** *f.* **1.** to rest (*d.* against), to set* (*d.* against); to lean (*d.* against); **dirsəyi ilə divara ~** to set* one's elbow against the wall; to lean one's elbow on / against the wall; **2.** to persist (in+*ger.*), to insist (on, upon+*ger.*); **3. (bərk yorulmaq)** *d.d.* to get* extremely tired, to be* completely exhausted
**dirəşmək** *f.* to persist (in+*ger.*); to insist (on, upon+*ger.*) to be* stubborn
**diri I.** *i.* **1.** living, live; alive; **~ dillər** living languages; **~ çəki** live weight; **Qoca olmağına baxmayaraq o hələ diridir** Though old he is still alive; **2.** *məc.* lively; **~ uşaq** a lively child*; **3. (düyü və s., bişməmiş)** under-done, under-cooked, not cooked properly **II.** *z.* alive; **~ tutmaq** to catch* alive, to take* alive
**diribaş** *s.* lively, alive; *d.d.* bright, smart, brisk; **~ uşaq** lively / bright child
**diribaşlaşmaq** *f.* to get* / to become* lively, to become* bright / smart
**diribaşlıq** *i.* liveliness, vivacity; smartness, briskness
**dirigöz** *s. d.d. bax* **diribaş**
**dirigözlü I.** *s. bax* **diribaş II.** *z.* alive; **~ öldürmək** to torture mercilessly
**diri-diri** *z.* alive, while alive; **~ basdırmaq** to bury alive; ◊ **~ udmaq** to swallow unchewed
**dirijabl** *i.* dirigable (balloon), airship
**dirijor I.** *i.* conductor; **(nəfəsli alətlər üçün)** band-master **II.** *s.* conductor's; **~ çubuğu** conductor's baton
**dirijorluq** *i.* profession of a conductor; **~ etmək** to conduct (*d.*); to be* a conductor
**dirildilmək** *f.* to be* revived; to be* enlivened
**dirilik I.** *i.* **1.** being alive; vitality; **2.** liveliness, vivacity **II.** *s.* **~ suyu** ≅ water of life
**dirilmə** *fi.* **1.** coming to life; resurrection; returning to life; **2.** enlivening
**dirilmək** *f.* **1.** to come* to life, to return to life; **2.** to reliven up; to revive; **Sulasanız bu gül diriləcək** This rose will revive if you water it
**diriltmə** *fi.* bringing to life, resuscitating, resuscitation, reanimation; enlivening, making more lively; reviving
**diriltmək** *f.* to bring* (*d.*) to life, to resuscitate (*d.*); to enliven (*d.*), to revive (*d.*); **Onu diriltdilər** He / She was resuscitated
**diringi** *i.* light music (specially for dance)
**dirrik I.** *i.* kitchen-garden **II.** *s.*: **~ məhsulları** vegetable crops
**dirrikçi** *i.* market-gardener; *amer.* truck farmer
**dirrikçilik** *i.* market-gardening; *amer.* truck farming; **~lə məşğul olmaq** to do* market-gardening; to grow* vegetables
**dirsək** *i.* **1.** elbow; **2. (çayda, yolda və s.)** bend

**dirsəkaltı** *i.* elbow-rest, arm (of a chair)
**dirsəkləmək** *f.* to elbow (*d.*), to push (*d.*) with elbow
**dirsəklənmək** *f.* **1.** to lean one's elbow(s) (on); **2.** to be* elbowed
**dirsəkləşmək** *f.* to elbow each other / one another, to push each other / one another with elbows
**dirsəklətdirmək** *f. bax* **dirsətləkmək**
**dirsəklətmək** *f.* to ask / to cause *smb.* to elbow (*d.*) / to push with one's elbow (*d.*)
**dirsəkli** *i. bax* **dirsəkvarı (1-ci mənada)**
**dirsəklik** *i. bax* **dirsəkaltı**
**dirsəkşəkilli** *s. bax* **dirsəkvarı**
**dirsəkvarı** *s.* **1.** *tex.* elbow, cranked; ~ **val** crankshaft; **2.** *anat.* ~ **sümük** ulna (*pl.* -nae); **3.** elbow-shaped
**disk** *i.* **1.** disk, disc; (telefonda) dial; **ayın ~i** moon's disk; **2.** *id.* discus (*pl.* -ci); ~ **atmaq** to throw* discus
**diskatma** *i.* discus-throwing
**diskjokey** *i.* disk-jockey
**diskoteka** *i.* disco(theque)
**diskussiya** *i.* discussion, debate; ~ **etmək** to discuss (*d.*), to debate (*d.*)
**dispanser** *i.* clinic, health centre
**dispetçer** *i.* dispatcher; controller
**disput** *i.* public debate
**dissertant** *i.* candidate for a degree
**dissertantlıq** *i.* the state of being a candidate for a degree
**disertasiya** *i.* thesis (*pl.* theses), dissertation; ~ **yazmaq** to write* a thesis; ~ **müdafiə etmək** to defend a thesis
**distansiya** *i.* distance; **buradan vağzala qədər** ~ the distance from here to the station; **uzaq ~dən** from a distance
**distillə** *i.* distillation; ~ **etmək** to distill (*d.*); ~ **edilmiş** distilled; ~ **edilmiş su** distilled water
**diş I.** *i.* **1.** tooth* (*pl.* teeth); **süd ~i** milk-tooth*, first-tooth*; **yan / köpək ~lər** canine teeth; **azı ~lər** molars; **ağıl ~i** wisdom tooth*; **laxlayan** ~ loose tooth*; **süni / taxma** ~ false / artificial tooth*; **~lərini qıcamaq (çətinlikdə)** to grit one's teeth; **Qar mənin üzümə vururdu, lakin mən dişlərimi qıcadım və yoluma davam etdim** The snow was blowing in my face, but I gritted my teeth and went on; **~lərini xırçıldatmaq** to grind* one's teeth; **Bəzi adamlar yatanda (yuxuda) dişlərini xırçıldadırlar** Some people grind their teeth during their sleep; **~lərini qıcırdatmaq (hirsdən)** to gnash one's teeth; **~lərini (bir-birinə) sıxmaq** to clench one's teeth; **O, dişlərini bir-birinə sıxdı** He / She clenched his / her teeth; **~i müalicə etdirmək** to have* dental treatment, to have* one's teeth attended (to); **təbii ~lər** natural teeth; **~in dibi** the root of a tooth*; **~lərini yoxlatmaq / göstərmək** to have* one's teeth examined; **bir kəsin ~inə plomb qoymaq** to stop / to fill *smb.*'s tooth*; **bir kəsin ~ini çəkmək** to extract / to pull out *smb.*'s tooth*; **~ə qapaq taxmaq / qoymaq** to crown a tooth*; **~ini taqqıldatmaq** to click one's teeth; **~i düşmək / tökülmək** to fall* out; **Mənim dişim (dişlərim) tökülür** My teeth are falling out; **O (uşaq) dişlərini dəyişir** He / She is losing his / her teeth; **2. (qala divarında)** merlon, battlement; **3. (dırmıqda, təkərdə)** tooth*; **(mişarda)** (saw-) tooth; **4. (sarımsaqda)** clove; **bir ~ sarımsaq** a clove of garlic **II.** *s.* **1.** tooth, dental; ~ **ağrısı** toothache; ~ **həkimi** dentist; ~ **texniki** dental mechanic; ~ **şotkası** toothbrush; ~ **tozu** tooth-powder; **2.** *dilç.* dental; ~ **samitləri** dental consonants
**dişbatan** *s.* **1.** eatable; **2.** *məc.* vulnerable
**dişbatmaz** *s.* **1.** tough, not eatable; ~ **ət** tough meat; **2.** *məc.* irresistible, invincible
**dişçöpü** *i.* toothpick
**dişdək** *i. bax* **dişlək**
**dişdək-dişdək** *z. bax* **dişlək-dişlək**
**diş-diş** *s.* toothed; cogged; ~ **olmaq** to become* toothed / cogged; ~ **təkər** cog-wheel
**dişəbənzər** *s.* tooth-shaped, toothlike
**dişəbənzərlik** *i.* the state of being tooth-shaped / toothlike
**dişi I.** *i.* female [ˊfi:-] **II.** *s.* female: ~ **fil** a female elephant; ~ **heyvan** female animal; ~ **quzu** a female lamb; ~ **canavar** she-wolf; ~ **qoyun** ewe, sheep; ~ **keçi** she-goat, nanny-goat; ~ **aslan** lioness
**dişicik** *i. bot.* pistil

**dişicikli** *s. bot.* (*i.s.*) with pistil, (*i.s.*) having pistil
**dişiciksiz** *s. bot.* (*i.s.*) without pistil
**dişilik** *i.* the state of being female
**dişqyrdalayan** *i.* toothpick
**dişlə** *i.* pole, beam
**dişlək** *i.* **1.** bite; **2. (həşərat dişləyi)** sting; **O, almadan bir dişlək götürdü** He / She took a bite out of the apple
**dişlək-dişlək** *z.*: ~ **etmək** to bite* all over; **(həşərat)** to sting* all over; ~ **olmaq** to be* bitten all over, **(həşərat)** to be* stung all over
**dişləmək** *f.* to bite* (*d.*); **(həşərat)** to sting (*d.*); **dişləyib qoparmaq** to bite* off (*d.*); ◊ **İşləməyən dişləməz** ≅ He who does not work, neither shall he eat
**dişlənmək** *f.* to be* bitten; **(həşərat)** to be* stung
**dişlətdirmək** *f. bax* **dişlətmək**
**dişlətmək** *f.* to ask / to cause *smb.* to bite (*d.*)
**dişli** *s.* **1.** (*i.s.*) with teeth, (*i.s.*) having teeth; **2.** toothed, cogged; ~ **təkər** cogwheel; **3.** *məc.* sharp-tongued, quick-tongued; brave; influential
**dişsiz I.** *s.* **1.** toothless; ~ **adam** a toothless man*; **2.** *zool.* edentate; **3.** *məc.* weak, feeble; ~ **adam** 1) a toothless man*; 2) an impotent man*; ~ **adam** *məc.* an impotent man* **II.** *z. məc.* feebly, weakly, impotently
**dişsizlik** *i.* **1.** toothlessness; **2.** *məc.* impotence, weakness, feebleness
**div** *i.* **1.** ogre [ougə]; **2.** *məc.* a giant, a huge and strong man*
**divan I.** *i.* sofa; **(yastıqlı)** ottoman; **(oturmaq üçün)** settee **II.** *i. arx.* law-court, justice; ~ **tutmaq** to inflict reprisals, to deal* (with); *d. d.* to make* short work (of), to give* short shrift (to), to punish (*d.*) sternly / mercilessly / ruthlessly / pitilessly **III.** ***i.*** divan (selected poems of a poet)
**divanə I.** *i.* **1.** madman; maniac; **2.** man* in love **II.** *s.* **1.** mad, senseless; **2.** in love with, enamoured (of)
**divanəlik** *i.* **1.** madness, senselessness; **2.** being in love; ~ **etmək** 1) to lead* the life of a madman; 2) to be* in love (with)
**divanxana** *i. tar.* court-house, court-room
**divan-krovat** *i.* folding divan
**divar I.** *i.* wall; **əsas** ~ main wall; **dörd** ~ **arasında** within four walls; **institutun** **~ları arasında** within the precincts of the institute; **bir kəsi ~a dirəmək** / **qısnamaq** to drive* *smb.* into a corner, to back *smb.* against the wall; **~a dırmaşmaq** 1) to climb the wall; 2) *məc.* to be* beside oneself; to go* into a frenzy; **~a dırmaşdırmaq** 1) to ask / to cause *s.o.* to climb the wall; 2) *məc.* to cause / to force *s.o.* to be beside oneself / to go into a frenzy; ◊ **Divarın da qulağı var** (Even)(the) walls have ears **II.** *s.* wall; mural; ~ **qəzeti** wall newspaper; ~ **nəqqaşlığı** mural painting; ~ **saatı** clock; ~ **şkafı** wall-cupboard, built-in cupboard
**diversant** *i. bax* **təxribatçı**
**diversiya** *i. bax* **təxribat**
**diviziya** *i.* division
**diyar** *i.* country, land; **doğma** ~ native land; **bizim ~da** in our part / country
**diyarbədiyar** *z.* from country to country; ~ **gəzmək** to wander from country to country
**diyar-diyar** *z. bax* **diyarbədiyar**
**diyarşünas** *i.* regional ethnographer, student of local lore
**diyarşünaslıq** *i.* (regional) ethnography, study of local lore
**diyircək** *i.* small ball; bead; *elm.* globule; **yastıq üçün** ~ ball for bearings
**diyircəkli** *s.* (*i.s.*) with ball, (*i.s.*) having ball; ~ **qələm** ball-point pen, biro (*pl.* biros)
**diyircəksiz** *s.* balless, (*i.s.*) having no ball
**diyircəksizlik** *i.* the state or quality of having no ball
**diyirlədilmək** *f.* to be* rolled
**diyirləmək** *f. bax* **diyirlətmək**
**diyirlənmək** *f.* to roll; **Top çalaya diyirləndi** The ball rolled into the hole
**diyirlətdirmək** *f. bax* **diyirlətmək**
**diyirlətmək** *f.* **1.** to roll (*d.*); **çəlləyi** ~ to roll the barrel; **2.** to ask / to cause *s.o.* to roll (*d.*)
**diz I.** *i.* knee; **~i üstə durmaq** to kneel; ~ **çökmək** to go* / to fall* on one's knee; to beg (for *smth.*); **~ə qədər** up to one's knees, knee-deep; **bir kəsi ~i üstə çökdürmək** to bring* someone to his knees; **~inə döymək (peşman olmaq)** to repent bitterly (of), to be* sorry (for, *d.*) awfully

**II.** ***s.***: ~ **qapağı** *anat.* knee-cap, knee-pan; patella; ~ **oynağı** *anat.* knee joint

**dizbədiz** *z. bax* **diz-dizə**

**diz-dizə** *z.* knee by knee, privately; ~ **oturmaq** to sit* knee by knee

**dizel** *i.* diesel

**dizenteriya** *i. tib.* dysentery

**dizenteriyalı** *s. tib.* dysenteric; (*i.s.*) suffering from dysentery

**dizin-dizin** *z.*: ~ **sürünmək** to crawl on all fours; ~ **süründürmək** to make* *smb.* crawl on all fours

**dizləmək** *f.* to knee (*d.*), to hit* with the knee (*d.*)

**dizlənmək** *f.* to be* kneed

**dizlətdirmək** *f. bax* **dizlətmək**

**dizlətmək** *f.* to ask / to cause *smb.* to knee (*d.*)

**dizlik** *i.* breeches, pants, underpants

**dodağıqalın** *s.* thick-lipped; ~ **qız** / **arvad** / **kişi və s**. a thick lipped girl / woman* / man*, *etc*.

**dodağıqalınlıq** *i.* the quality of having thick-lips

**dodağıyoğun** *s. bax* **dodağıqalın**

**dodağıyoğunluq** *i. bax* **dodağıqalınlıq**

**dodaq I.** *i.* lip; **yuxarı** ~ upper lip; **aşağı** ~ lower lip; **dodağını dişləmək** to bite* one's lip; ◊ **dodağını sallamaq** to be* sulky (with), to be* in the sulks (with); **~larını marçıldatmaq** to smack one's lips, to make* a smacking sound with one's lips; **~larını büzmək**; 1) to purse / to curle one's lips; 2) to make* (up) a lip; *d.d.* to be* on the point of crying, to be* going to cry, to be* about to cry; **bir kəsin ~larından öpmək** to kiss *smb.*'s lips; **~ları qaçmaq** *d.d. bax* **gülümsəmək II.** *s.* **1.** lip; ~ **pomadası** lipstick; **2.** *dilç.* labial; ~ **samiti** labial

**dodaqaltı** *z.*: ~ **danışmaq** to mutter (into one's beard); ~ **zümzümə etmək** to hum, to sing in a law voice, to hum a song

**dodaqbadodaq** *z.* **1.** brimful; **stəkanı ~ doldurmaq** to fill a glass brimful; **2.** lips to lips

**dodaqdəyməz** *i. ədəb.* **dodaqdaymaz** (a kind of ashug poem in which labial are not used)

**dodaq-dodağa** *z.* lips to lips; ~ **öpüşmək** to kiss lips to lips, to kiss on each other's lips

**dodaqlama** *z.* brimful: ~ **doldurmaq** to fill brimful (with); **O qənddanı qəndlə dodaqlama doldurdu** She / He filled the bowl brimful with sugar

**dodaqlanan*s.*** *dilç.* labialized, rounded; ~ **samitlər** labialized consonants, labials

**dodaqlanma** *i. dilç.* labialization

**dodaqlanmaq** *f.* to labialize; to be* labialized

**dodaqlı** *s.* (*i.s.*) with lips, (*i.s.*) having lips; thick-lipped

**dodaqucu** *z. bax* **dilucu II**

**dodaqvarı** *s.* lip-shaped

**doğan** *s.* **1.** *zool.* viviparous; ~ **balıq** a viviparous fish; **2.** (*i.s.*) able to give birth (to descendants); ~ **qadın** woman* in child-birth

**doğanaq** *i.* hook (a wooden hooked bar fastened at the end of a rope for tying a knot)

**doğar** ***s.***: ~ **qoyun** ewe able to give birth to a lamb; ~ **donuz** sow, sow able to give birth to a piglet

**doğma I.** *i.* birth, childbirth, delivery, child-bearing, childbed; **asan** ~ easy birth / delivery; **vaxtından əvvəl** ~ premature birth **II.** *s.* **1.** one's own; ~ **qardaş** / **bacı** / **dayı və s**. one's own brother / sister / uncle, *etc*.; **2.** native, home; ~ **torpaq** native land; ~ **şəhər** home town; ~ **ev** native home; ◊ ~ **dil** mother tongue, native language

**doğmaq** *f.* **1.** to give* birth (to); *məc.* to give* rise (to); (at) to foal; **(qoyun)** to lamb; **(inək)** to calve [ka:v]; **(maral)** to fawn; **(pişik)** to kitten; **(donuz)** to farrow; **2. (günəş, ay)** to rise*; **Günəş doğur** The sun is rising; **3. (meydana çıxmaq)** to arise*; **Buradan yeni bir sual doğur** A new question arises here

**doğmalıq** *i.* kindred, kinship, relationship, cognate

**dogramac** *i.* dogramaj (food consisting of sour milk and some chopped greens and cucumber)

**doğramaq** *f.* **1. (ağacı)** to fell (*d.*); **(odunu)** to hew (*d.*), to hack (*d.*), to chop (*d.*); **2. (əti)** to mince [mıns], to chop (*d.*); **3. (qılıncla)** to cut* (*d.*), to sabre (*d.*), to slash (*d.*); **4. (mişarla)** to saw (*d.*); **5. (çörəyi və s.)** to crumble (*d.*); **çörək** ~ to

crumble bread; **(dilim-dilim kəsmək)** to slice bread; **6. (dilim-dilim doğramaq)** to cut* (*d*.) (into pieces), to slice (*d*.)

**doğram-doğram** *z*.: ~ **etmək** to cut* / to chop (*d*.) into pieces; ~ **olmaq** to be* cut / chopped into pieces

**doğranılmaq** *f*. to be* cut / chopped / sliced (into pieces)

**doğranmaq** *f*. **1.** to be* cut / chopped; **2. (ağac)** to be* hewed (down) / hacked down; **3. (ət)** to be* minced / chopped; **4. (mişarla)** to be* sawn; **5. (çörək)** to be* crumbled; **(dilim-dilim edilmək)** to be* sliced

**doğratdırmaq** *f*. **1.** to ask / to cause *smb*. to cut (*d*.); **2. (ağacı)** to ask / to cause *smb*. to hew (*d*.) / to hack (*d*.); **3. (mişarla)** to ask / to cause *smb*. to saw (*d*.); **4. (çörəyi)** to ask / to cause *smb*. to crumble (*d*.); **(dilim-dilim kəsdirmək)** to ask / to cause *smb*. to slice (*d*.)

**doğratmaq** *f*. *bax* **doğratdırmaq**

**doğru I.** *s*. **1.** true, right, sound, correct; ~ **qərar** a true / right / sound decision; **yeganə** ~ **yol** the only true way; **2.** honest, faithful; **daha ~su** or, to be more true **II.** *z*. rightly, truly, correctly, true; ~ **danışmaq** to speak* true; ~ **çıxmaq** to come* true, to prove to be right; **Onun yuxusu doğru çıxdı** His / Her dream became true **III.** *qoş*. towards, toward; **şəhərə** / **kəndə** / **dənizə və s**. ~ towards the city / village / sea, *etc*., **əsrin sonuna** ~ towards the end of the century; **İrəliyə doğru!** Forward!

**doğruca** *z*. truthfully, honestly, uprightly

**doğruçu** *s*. truthful, upright; ~ **adam** a truthful / an upright man*

**doğruçuluq** *i*. truthfulness, uprightness, honesty; **Doğruçuluq ən yaxşı siyasətdir** *at. söz*. Honesty is the best policy

**doğrudan** *z*. indeed, really; verily; **Doğrudan da** Really; **Doğrudanmı?** Really? **Bu, doğrudan da səhvdir** Indeed, It's a mistake

**doğrudan-doğruya** *z*. *bax* **doğrudan**

**doğru-düzgün I.** *s*. *bax* **doğru I II.** *z*. *bax* **doğru** II

**doğrulmaq** *f*. to come* true, to turn out true; to be* confirmed / corroborated; **Şayiələr doğrulur** The rumours are confirmed / corroborated

**doğrultmaq** *f*. **1.** to justify (*d*.); **ümidi** ~ to justify hope; **bir kəsin etimadını** ~ to justify *smb*.'s confidence / trust; **özünü** ~ to justify oneself; **2. (nəzəriyyə, metod və s.)** to prove its value; **özünü təcrübədə** ~ to demonstrate its value in practice; **xərcini** ~ to pay* the expenses; **Nəzəriyyə özünü doğrultdu** The theory proved to be correct

**doğruluq** *i*. correctness, accuracy; faithfulness; uprightness

**doğruluqsevən** *s*. truthful, upright, veracious; ~ **adam** truthful / upright man*

**doğrusu ara** *s*. to tell (you) the truth; **Doğrusu, mən onu tanımıram** To tell the truth, I don't know him / her

**doğruyabənzər** *s*. likely, probable, verisimilar; ~ **nəticə** a probable result; ~ **əhvalat** a likely story

**doğruyaoxşar** *s*. *bax* **doğruyabənzər**

**doğu** *i*. The East

**doğub-törəmə** *fi*. giving birth (to); propagating

**doğub-törəmək** *f*. *biol*. to propagate; **Həşəratlar yumurta vasitəsilə doğub-törəyirlər** Insects propagate themselves by means of eggs

**doğub-törəməz** *s*. barren, sterile, infertile

**doğub-törəməzlik** *i*. barrenness, sterility, infertility

**doğub-törətmək** *f*. **1.** to give* birth (to a number of children), to bring* into the world (a number of children); **2.** to procreate (*d*.), to produce (*d*.), to engender (*d*.)

**doğulma** *fi*. birth; ~ **günü** birthday; ~ **yeri** birthplace; ~ **gecəsi** birthnight; ~ tarixi date of birth

**doğulmaq** f to be* born; *məc*. to come* into being / existence; **kor** / **kar** / **lal və s**. ~ to be* born blind / deaf / dumb, *etc*.; **Böyük Nizami on ikinci əsrdə doğulub** Great Nizami was born in the twelfth century

**doğulub-törənmək** *f*. **1.** to be* born in great number, to be* propagated; **2.** to come* into being / existence in great number

**doğuluş** *i*. *bax* **doğulma**

**doğum I.** *i*. childbirth, delivery **II.** *s*. delivery, maternity lying-in; ~ **şöbəsi** delivery

room; ~ **evi** maternity home / hospital, lying-in hospital / home

**doğurmaq** *f.* **1.** to provoke (*d.*), to give* rise (to); **(güclü hisslər)** to stir up (*d.*), to excite (*d.*), to rouse (*d.*), to arouse (*d.*); **qəzəb** / **nifrət** / **maraq və s.** ~ to excite / to stir up anger / hate / curiosity, *etc.*; **şübhə** ~ to give* rise to doubt, to raise doubts, **qibtə** / **paxıllıq** ~ to arouse / to excite envy; **həyəcan** ~ to cause alarm; **narahatlıq** ~ to give* rise to anxiety; **2.** to create (*d.*), to cause (*d.*), to make* (*d.*); **təəssürat** ~ to make* / to create an impression (on, upon), to have* an effect (on); **sensasiya** ~ to make* / to cause a sensation

**doğuş** *i.* **1.** birth, delivery, childbirth, lying-in, childbed; **asan** ~ easy birth / delivery; **çətin** ~ difficult birth / delivery; **vaxtından əvvəl** ~ premature birth / delivery; **2.** rising; **günəşin ~u** sunrise, rising of the sun

**doğuzdurmaq** *f.* **1.** to help to give birth to a child; to deliver; **Onlar arvadı doğuzdurdular** They delivered the woman; **2. (heyvanı)** to help to breed

**doğuzdurulmaq** *f.* **1.** to be* helped to give birth (to), to be* helped to deliver; **2. (heyvan)** to be* helped to breed

**doxsan** *sy.* ninety; ~ **bir** ninety-one; ~ **iki** ninety-two; ~ **birinci**, ~ **ikinci və s.** ninety-first, ninety-second, *etc.*

**doxsanca** *sy.* only / just ninety

**doxsanıncı** *sy.* ninetieth; ~ **səhifə** page ninety; ~ **illərin əvvəllərində** in the early nineties; ~ **illərin sonunda** in the late nineties; ~ **illər** the nineties

**doxsanyaşlı** *s.* ninety-year-old; (*i.s.*) of ninety; ~ **kişi** ninety-year-old man*; a man* of ninety

**dok** *i.* dock

**doker** docker

**doktor** *i.* **1.** doctor, physician [fɪz-]; ~ **olmaq** to be* a doctor / physician; **2. (elmi dərəcə)** doctor **(qısa forması** Dr; **filologiya elmləri ~u** doctor of philology

**doktorant** *i.* person working for doctor's degree

**doktorluq I.** *i.* **1.** the profession of a doctor; **2.** the state of being a doctor **II.** ***s.***: ~ **dissertasiyası** thesis for a Doctor's degree; ~ **dərəcəsi** Doctor's degree

**doktrina** *i.* doctrine, teaching, tenet [ˊti:-]

**doqqaz** *i.* path (in the village), narrow way (in the village)

**doqquz** *sy.* nine

**doqquzaylıq** *s.* (*i.s.*) of nine months; nine-month old

**doqquzca** *sy.* just nine, only nine

**doqquzgünlük** *s.* (*i.s.*) of nine days, nine-day

**doqquzillik** *s.* (*i.s.*) of nine years; nine-year-old

**doqquzluq** *i.* nine; **(qurmaqda)** the nine (of); ~ **ürək (qumar kağızında)** the nine of hearts

**doqquzmərtəbə** *i.* a nine-storeyed building

**doqquzmərtəbəli** *s.* nine-storeyed; ~ **bina** a nine-storeyed building

**doqquzrəqəmli** *s. riyaz.* nine-digit, nine-figure(s)

**doqquzuncu** *sy.* ninth

**doqquzyaşar** *s.* nine-year-old, (*i.s.*) of nine

**doqquzyaşlı** *s.* nine-year-old, (*i.s.*) of nine; ~ **uşaq** a child of nine, a nine-year-old child

**doqmatik** *s.* dogmatic

**doqmatiklik** *i. bax* **doqmatizm**

**doqmatizm** *i.* dogmatism

**dolab** *i.* wall-cupboard, built-in cupboard, (built-in) closet

**dolaq** *i.* **1. (ayaq üçün)** foot-binding; **2. (qıç üçün)** puttee; **3.** *el.* winding

**dolaqçı** *i.* winder

**dolaqlamaq** *f.* to wind* (round *d.*); **ayaqlarını** ~ to wind* round one's feet (with foot-bindings); **qıçlarını** ~ to wind* round one's legs (with puttees)

**dolaqlanmaq** *f.* to be* wound; **(ayaqlar)** to be* wound round (with foot-bindings); **(qıçlar)** to be* wound round (with puttees)

**dolaqlatdırmaq** *f. bax* **dolaqlatmaq**

**dolaqlatmaq** *f.* to ask / to cause *smb.* to wind (round *d.*) **ayaqlarını** ~ to ask / to cause *smb.* to wind one's feet (with foot-bindings); **qıçlarını** ~ to ask / to cause *smb.* to wind round one's legs (with puttees)

**dolaqlı** *s.* wound; **(ayaq)** (*i.s.*) being wound round (with foot-bindings); **(qıçlar)** (*i.s.*) being wound round (with puttees)

**dolaqlıq** ***s.***: **parça (ayaqlar üçün)** a sheet of material for / fit footbindings; **(qıçlar üçün)** a sheet of material suitable for / fit for puttees

**dolaqsız** *s.* **(ayaqlar)** (*i.s.*) without footbindings, (*i.s.*) having no foot-bindings; **(qıçlar)** (*i.s.*) without puttees, (*i.s.*) having no puttees

**dolama I.** *i. tib.* withlow **II.** *fi.* **1.** winding; twining; **~ cığır** a winding path; **~ pilləkan** winding stairs; **2.** zigzag; **~ cığır** a zigzag path; **3. (ələsalma)** fooling, pulling *smb.*'s leg

**dolama-dolama** *z.* in a zigzag; **~ getmək** to go* in a zigzag

**dolamaq** *f.* **1.** to wind* (*d.* about); to twine (*d.* about); to spin (*d.*); **sapı ~** to spin thread; **sapı tağalağa ~** to wind* thread on a reel; **qollarını boynuna ~** to twine one's arms round / about *smb.*'s neck; **Sarmaşıq ağaca dolandı** The ivy twined round the tree; **dəsmalı boynuna ~** to wind* a towel round one's neck; **2.** *məc.* to fool (*d.*); **bir kəsi ~** to fool *smb.*, to pull *smb.*'s leg; ◊ **barmağına ~** to twist / to wind* *smb.* round one's little finger, to deceive (*d.*), to take* in (*d.*), to cheat (*d.*)

**dolam-dolam** *s. bax* **dolama II**

**dolanacaq** *i.* **1.** life, the way one lives; ◊ **Dolanacaq yoxdur** Life is impossible; **Onun əlindən mənə dolanacaq yoxdur** I get no peace with him / her around; **2.** living; ◊ **~ qazanmaq** to earn / to make* a living

**dolanbac** *s. bax* **dolama II (2-ci mənada)**

**dolandırılmaq** *f.* **1.** to be* turned / rotated; **2.** to be* taken care / supported to live

**dolandırmaq** *f.* **1.** to turn (*d.*), to revolve (*d.*), to rotate (*d.*), to wheel round (*d.*); **2.** to take* care (of), to support (*d.*) to live, to provide *smb.* with money to live on; ◊ **başını ~** to live anyhow / haphazardly, to make* both ends meet

**dolanışıq** *i. bax* **dolanacaq**

**dolanma** *fi.* **1.** rotation; revolution; going round, spinning round; **2.** living

**dolanmaq** *f.* **1.** to turn, to revolve, to rotate; **öz oxu ətrafına ~** to revolve on its axis; **2.** to go* round; to walk along; **3.** to live; **birtəhər ~** to live in a small way / somehow; **yaxşı ~** to live a well-to-do life; **4. (yola getmək)** to get* on (with); to get* along together (with)

**dolaşa** *i. zool.* jackdaw

**dolaşdırılmaq** *f.* **1. (sap, saç və s.)** to be* entangled / matted; **2. (hadisə, əhvalat və s.)** to be* mixed up; to become* / to get* entangled, to be* interlaced / interweaved; **3.** to be* drawn (into) / involved

**dolaşdırmaq** *f.* **1. (ipi, sapı və s.)** to entangle (*d.*), to tangle (*d.*), to mat (*d.*), to mix up (*d.*); **sapı ~** to tangle threads; **saçı ~** to tangle hair; **2.** *məc.* to confuse (*d.*); **bir kəsi ~** to confuse *smb.*; to put* out (*d.*); **Mən sayırdım, siz məni dolaşdırdınız** I was counting and you put me out; **məsələləri ~** to complicate matters, to muddle a business, to make* a mess of a business, to get* things into a muddle

**dolaş-dolaş** *s.* (en)tangled; **~ olmaq** to become* / to get* entangled; **Sap dolaş-dolaş olub** The thread has got tangled; **~ etmək** to (en)tangle (*d.*); *məc.* to muddle up (*d.*), to confuse (*d.*)

**dolaşıq I.** *i.* confusion, muddle, tangle, mess; jumble, mish-mash **II.** *s.* **1.** (en)tangled, confused, involved, matted; ~ arqument involved / tangled argument; hesabat confused report; **~ saç** tangled / matted hair; **~ düyün** tangled knot; **2.** *məc.* knotty, intricate; **~ məsələ** knotty / intricate question **III.** *z.* confusedly, confusingly, intricately, complicatedly

**dolaşıqlı** *s. bax* **dolaşıq II**

**dolaşıqlıq** *i. bax* **dolaşıq I**

**dolaşmaq** *f.* **1.** to become* / to get* (en)tangled / confused; to entangle oneself (in); **Uşağın ayağı kəndirə dolaşdı** The child's leg got tangled with the rope; **2. (gəzmək)** to go* round, to walk about; to make* a tour; **3. (sataşmaq)** to offend (*d.*), to hurt* (*d.*); to tease (*d.*); **bir kəsə ~** to offend *smb.*, to hurt *smb.*, to tease *smb.*; **4. (çətin vəziyyətə düşmək)** to find* oneself in a difficult position; to get* into trouble; **dili ~** to stammer; **Əsəbiləşəndə onun dili dolaşır** He / She stammers when he / she is nervous; ◊ **əl-ayağa ~** to be* in the way

**dolayı I.** *s.* roundabout, indirect; **~ yol** roundabout way; **~ cavab** an indirect answer; **~ nəticə** an indirect result; **Dolayı gəl!** Come roundabout! **II.** *z.* indirectly, in a

roundabout way; ~ **getmək** to go* indirectly, to take* a roundabout way / course; **bir şeyi ~ eşitmək** to hear *smth*. in a roundabout way; **Mən bu xəbəri dolayı eşitdim** I heard this news in a roundabout way

**dolayısına** *z. bax* **doalyı II**

**dolayısılə** *z. bax* **dolayı II**

**dolça** *i.* can; **bir ~ su** a can of water

**doldurmaq** *f.* **1.** to fill (*d.* with); **vannanı su ilə ~** to fill the bath with water; **Zəhmət olmasa**, **qəndqabını qəndlə doldurun** Please, fill this sugar-basin with sugar; **qəlyanı ~** to fill one's pipe; **2.** to stuff (*d.* with); **toyuğu / balığı / ördəyi və s**. ~ to stuff a chicken / fish / a duck, *etc*.; **balınc ~** to stuff a pillow; **başını lazımsız şeylərlə ~** to stuff one's head with unnecessary things; **Başa düşmədiyin şeylərlə başını doldurma** Don't stuff your head with things you don't understand; **3. (silahı)** to load (*d.*), to charge (*d.*); **silahı ~** to load / to charge one's gun; **Əsgərlər silahlarını doldurdular** The soldiers loaded / charged their guns; **4. (planı)** to fulfil (*d.*), to carry out (*d.*); **planı ~** to fulfil the plan

**doldurtdurmaq** *f. bax* **doldurtmaq**

**doldurtmaq** *f.* **1.** to ask / to cause *smb*. to fill (*d.* with); **2.** to ask / to cause *smb*. to stuff (*d.* with); **toyuğu / balığı / ördəyi və s.)** ~ to ask / to cause *smb*. to stuff a chicken / a duck / fish, *etc*.; **3. (silahı)** to ask / to cause *smb*. to load / to charge (*d.*); **silahını ~** to have* one's gun loaded / charged; **4. (planı)** to ask / to cause *smb*. to fulfil (*d.*) to ask / to cause to carry out (*d.*)

**doldurulmaq** *f.* **1.** to be* filled; **2. (toyuq**, **balıq**, **balınc və s.)** to be* stuffed; **3. (silah)** to be* loaded / charged, to get* loaded / charged; **4. (plan)** to be* fulfilled / carried out

**dolğun I.** *s.* **1.** full, stout, portly; **(uşaq**, **qadın və s.)** plump; ~ **ay** full moon; ~ **uşaq** plump child; **2.** *məc.* rich in content, full of value; **(kitab**, **nitq və s.)** substantial, solid, interesting; ~ **kitab** substantial / solid / interesting book **II.** *z.* substantially, profoundly, deeply; thoroughly, in detail; ~ **kömək etmək** to help substantially

**dolğunlaşdırmaq** *f.* to make* (*d.*) more substantial / solid / interesting

**dolğunlaşmaq** *f.* **1. (kökəlmək)** to become* full / plump, to get* stout / full; **2.** to become* substantial / solid, to get* substantial / solid; **3.** to become* / to get* mature

**dolğunluq** *i.* **1. (bədəncə)** stoutness, **(uşaq**, **qadın)** plumpness; **2. (məzmunca)** richness of content, fullness; **hakimiyyət dolğunluğu** fullness of power

**dollar** *i.* dollar

**dolma** *i.* an Azerbaijani dish cooked by wrapping round forcemeat mixed with rice in vine leaves or cabbage; **yarpaq ~sı** forcemeat mixed with rice and wrapped round in vine leaves

**dolmaq** *f.* **1.** to fill (with), to fill up (with); **Zal tezliklə doldu** Soon the hall filled; **Tezliklə həyət adamla doldu** Soon the yard filled / filled up with people; **Onun gözləri yaşla doldu** His / Her eyes filled with tears; **2. (plan)** to be* fulfilled / carried out; **3. (sünbül)** to become* / to get* juicy, to start to become ripe; ◊ **gözü qanla** ~ to be* ready to commit a crime

**dolmalıq** *s. smth*. (meat, cabbage, *etc*.) fit / suitable for cooking dolma (an Azerbaijani dish cooked by wrapping round forcemeat mixed with rice in vine leaves or cabbage); ~ **ət** meat fit / suitable for cooking dolma

**dolu I.** *i.* hail; ~ **yağmaq** to hail; **Dolu yağır (adətən)** It hails; **(indi)** It's hailing **II.** *s.* **1.** full (up), packed; crowded; ~ **boşqab** a full plate; ~ **olmaq** to be* full / packed / crowded; **Avtobus dolu idi** The bus was crowded; **2. (silah)** loaded; ~ **tüfəng** a loaded gun; **ağızbaağız ~** brimful, full to the brim; **3. (bədəncə)** stout, portly; plump

**dolubədən** *s.* stout, portly; plump

**dolubədənli** *s. bax* **dolubədən**

**dolubədənlilik** *i.* stoutness, plumpness

**doludöymə** *i. bax* **doluvurma**

**doluxa-doluxa** *z.* with tears in one's eyes, being deeply moved / touched

**doluxmaq** *f.* to be* touched / moved, to get* touched / moved; to shed* a few tears

**doluluq** *i.* stoutness; plumpness; the state of being full / crowded

**dolusu** -ful (the second part of compound words such as **ağızdolusu** - mouthful, **ovucdolusu** - handful)

**doluşmaq** *f.* to pour, to come* pouring in; to rush / to get* in with groups

**doluvurma** *i.* damage done by hail

**domba** *s.* protuberant; *d. d.* bulging

**dombagöz** *s.* goggle-eyed, pop-eyed; (*i.s.*) with bulging eyes

**dombagözlü** *s. bax* **dombagöz**

**dombagözlülük** *i.* the state of having goggled eyes, the state of being goggle-eyed / pop-eyed

**dombalaq** *i.* somersault; ~ **aşmaq** to somersault; to turn / to throw* a somersault

**dombalaqlanmaq** *f.* to somersault, to make* / to turn / to throw* a somersault

**dombalan** *i. bot.* **(kartofabənzər göbələk növü)** truffle

**dombalangöz** *s. bax* **dombagöz**

**dombalangözlü** *s. bax* **dombagöz**

**dombalıq** *i.* salience, protuberance, prominence

**dombalmaq** *f.* **1.** to bend* down, to stoop; **2. (şişmək)** to swell* out, to become* swollen

**dombaltmaq** *f.* **1.** to stick* out; **qarnını** ~ to stick out one's belly; **2.** to bend* (*d.*), to force / to cause / to ask *smb.* to bend down (*d.*)

**dombul** *s.* plump; ~ **cücə** a plump chicken; **balaca** ~ **əllər** little plump hands

**dominant I.** *i.* dominant **II.** *s.* dominant, dominating; ~ **ideya** dominant / dominating idea

**dominantlıq** *i.* domination

**dominyon** *i. bax* **müstəmləkə I**

**domino** *i.* dominoes *pl.*

**domkrat** *i. tex.* jack; **~la qaldırmaq** to jack up (*d.*), to lift with a jack (*d.*), **Maşını domkratla qaldır** Jack up the car

**domna I.** *i. tex.* blast-furnace **II.** *s.*: ~ **sobası** blast-furnace

**domnaçı** *i.* blast-furnace operator

**domuşmaq** *f.* to squirm; to get* / to become* squirmed

**domuşuq** *s.* squirmed; timid

**don I.** *i.* dress, gown, frock; **axşam ~u** evening dress / gown; **baharın yaşıl ~u** green dress of spring; ◊ **~a girmək** to pretend to be, to put* on a mask; ◊ **Gözəllik ondur**, **doqquzu dondur** *at. söz.* ≅ The tailor makes the man, Fine feathers make fine birds **II.** *i.* **1.** frost; **2.** icy-crushed ground, ice-covered ground; **Yollar dondur** Roads are covered with ice; ~ **vurmuş** frostbitten **III.** *s.* frozen; **Torpaq dondur** The ground is frozen

**donanma I.** *i.* fleet; marine; **hərbi dəniz ~sı** navy; **dəniz ~sı** marine; **hava ~sı** air force, air fleet; **çay ~sı** inland water transport; **mülki ~ (ticarət ~sı)** merchant / mercantile marine **II.** *s.* naval; ~ **zabiti** naval office

**donanmaçı** *i.* seaman*, sailor

**dondurma I.** *i.* ice cream; bir pay ~ a portion of ice cream; **şokoladlı** ~ chocolate ice cream **II.** *fi.* freezing; refrigeration; ◊ ~ **şumu** *k.t.* autumn ploughing

**dondurmaçı** *i. bax* **dondurmasatan**

**dondurmaçılıq** *i.* the job of an ice-cream mould

**dondurmaq** *f.* to freeze (*d.*), to refrigerate (*d.*), **ət** ~ to freeze / to refrigerate meat; **qiymətləri** ~ to freeze prices

**dondurmasatan** *i.* **1. (kişi)** ice-cream vendor; ice-cream man*; **2. (qadın)** ice-cream vendor, ice-crean woman*

**dondurucu I.** *i.* ice-box, refrigerator; *d.d.* fridge, frig **II.** *s.* refrigerating; ~ **qurğu** refrigerating plant; ~ **avadanlıq** refrigerating equipment

**dondurulmaq** *f.* to be* frozen / refrigerated

**dondurulmuş** *fs.* frozen, refrigerated; ~ **ət** / **çolpa** frozen / refrigerated meat / chicken; ~ **ərzaq** frozen / refrigerated food

**donjuan** *i.* Don Juan; philanderer

**donjuanlıq** *i.* philandering

**donkixot** *i.* Quixote

**donkixotluq** *i.* quixotism, quixotry

**donqar I.** *i.* hump; hunchback **II.** *s.* hunched, hunchbacked, humped, humpbacked

**donqarbel I.** *i. bax* **donqar I II.** *s. bax* **donqar** II

**donqarburun** *s.* (*i.s.*) with an aquiline nose; hooked / aquiline nose

**donqarburunlu** *s. bax* **donqarburun**

**donqarlamaq** *f.* to arch (*d.*), to hunch (*d.*); **belini** ~ to arch one's back; **Pişik belini donqarladı** The cat arched her back

**donqarlanmaq** *f.* to become* / to get* hunched / arched
**donqarlaşdırmaq** *f. bax* **donqarlatmaq**
**donqarlaşmaq** *f. bax* **donqarlanmaq**
**donqarlatmaq** *f.* to arch (*d.*), to hunch (*d.*)
**donqarlı** *s.* **1.** (*i.s.*) with hump, (*i.s.*) having hump; **2.** *bax* **donqar**
**donqarlıq** *i.* the state of being humpbacked / hunched / arched
**donquldamaq** *f.* **1.** to grumble, to mutter; **O, öz-özünə donquldadı** She / He muttered to herself / himself; **2. (ayı)** to growl
**donquldanmaq** *f. bax* **donquldamaq**
**donquldaşmaq** *f.* **1.** to grumble / to mutter together; **2. (ayılar)** to growl together
**donquldatmaq** *f.* **1.** to cause *smb.* to grumble / to mutter; **2. (ayı)** to cause to growl (*d.*)
**donqultu** *i.* **1.** grumble, mutter; **2. (ayı səsi)** growl
**donlu** *s.* (*i.s.*) dressed in gown, (*i.s.*) having a dress on; (*i.s.*) in a dress
**donluq I.** *i.* salary, (rate of) pay **II.** *i.* fabric suitable / fit for a dress; dress material
**donma** *fi.* freezing; ~ **nöqtəsi** freezing-point
**donmaq** *f.* **1.** to freeze; to be* frozen, to get* / to become* frozen; **2. (bərk üşümək)** to freeze* to death; to be* stiff with cold; **Su** 0 **dərəcədə donur** Water freezes at the temperature of 0 degrees Centigrade; **Çay donub** The river is / has frozen (up); **3.** to be* / to get* stiff (with); **soyuqdan** ~ to be* / to get* stiff with cold; **dəhşətdən** ~ to stiffen in / with astonishment; **Mən donmuşam (soyuqdan)!** I am frozen! **Onun əlləri donub** His / Her hands got frozen; **Mənim barmaqlarım soyuqdan donub** My fingers are numb with cold
**donmuş** *fs.* **1.** frozen; ~ **ət** / **çolpa** frozen meat / chicken; **2.** stiff, numb; **soyuqdan** ~ numb / stiff with cold
**donor I.** *i.* donor; **(qan verən)** blood donor **II.** *s.* donor
**donos** *i.* denunciation (of), information (against)
**donosçu** *i.* informer; sneak, a sneaky person
**donsuz** *s.* dressless; (*i.s.*) without dress, (*i.s.*) having no dress
**donubqalmaq** *f.* to freeze; to be* struck (with); to stand* rigid / paralysed (with); **qorxudan** ~ to freeze / to be* struck with fear; **yerində** ~ to stop short / dead, to stand* rooted to the spot
**donuxdurmaq** *f.* to cause *smb.* to become torpid; to cause *smb.* to grow torpid
**donuxluq** *i.* torpidity, torpidness; dumbness
**donuxma** *fi.* becoming torpid, growing torpid
**donuxmaq** *f.* **1.** to become* torpid / dumb, to be* struck (with); **2.** *məc.* to grow* torpid / dumb; **təəccübdən** ~ to grow* dumb with surprise, to be* striken dumb with surprise; **3.** to lose* one's wits, to go* out of one's mind
**donuxmuş** *s.* torpid, dumb
**donuq** *s.* **1.** frozen; **2.** *məc.* mat, dull, puzzled; ~ ***baxış*** puzzled look; ~ **şagird** dull pupil; ~ **rəng** mat / dull colour; ~ **boya** mat paint
**donuqlaşdırmaq** *f.* to make* mat / dull (*d.*)
**donuqlaşmaq** *f.* to become* mat / dull, to get* mat / dull
**donuqluq** *i.* **1.** freeze, frozen condition; **torpağın donuqluğu** frozen condition of ground; **2.** dullness, dimness, wanness; **3.** apathy
**donuz I.** *i.* **1.** pig; swine; **(bordaqlanmış)** hog; **(dişisi)** sow; **(döllük)** boar; **2.** *məc.* swine, hog **II.** *s.* pig; ~ **əti** pork; ~ **balası** / **çoşqası** sucking-pig; ~ **yağı** fat; **(əridilmiş)** lard **(iç piyi)** suel; ~ **damı** pigsty; ~ **dərisi** pig-skin
**donuzabaxan** *i.* pig-tender, pig-breeder
**donuzçu** *i.* **1.** pig-breeder; **2.** pig-tender
**donuzçuluq I.** *i.* pig-breeding, swine-breeding **II.** *s.* pig-breeding, swine-breeding; hog-breeding; ~ **ferması** pig-breeding farm
**donuzluq** *i.* **1.** pigsty, pigpen; **2.** *d.d. bax* **həbsxana**
**donuzotaran** *i.* swine-herd
**donuzsaxlayan** *i.* pig-tender, pig-breeder
**donvurma** *i.* frostbiting, frostbite
**dopdoğru I.** *s.* quite correct, completely true **II.** *z.* quite truly, completely true
**dopdolu** *s.* chock-full, completely full, cram-full; **(adamla)** overcrowded; ~ **olmaq** to be* chock-full / cram-full / completely full; ~ **olmaq (adamla)** to be* overcrowded
**dor** *i.* mast

**doraĝacı** *i. bax* **dor**
**dosent** *i.* senior lecturer, reader *amer.* assistant professor
**dosentlik** *i.* post of senior lecturer, university readership; *amer.* assistant professorship
**dost I.** *i.* friend; **(xüsusən kişi cinsi)** pal, buddy; **köhnə** ~ old friend / pal; **yaxın** ~ close / intimate friend / pal, bosom friend; **(xüsusən oğlanlar** *haq.***)** chum; **Biz çox illərdi ki, dostuq** We have been friends / pals for many years; **Dost, (çox vaxt kinayə ilə) yolumdan çəkil!** Get out of my way, buddy! **Qulaq as, dost!** Listen, pal! **Hər şeyin təzəsi, dostun köhnəsi** *at. söz.* ≅ An old friend is better than two new; ◊ **Əsl dost yaman gündə tanınar** *at. söz.* A friend in need is a friend indeed **II.** *s.* friendly, amicable; ~ **ölkələr** friendly countries; ~ **əlaqələr** amicable relations
**dost-aşna** *top. i.* friends and pals, near ones, one's friends and relatives
**dostbaz** *s.* loving to make friends easily; loving to support one's friends passionately
**dostbazlıq** *i.* favouritism, passionate attitude to one's friends; ~ **etmək** to support one's friends passionately, to patronize / to protect one's friends
**dostcasına** *z.* like a friend, in a friendly manner / way, as a friend, amicably
**dost-doğma** *s. bax* **doğma II**
**dost-düşmən** *top. i.* friends and enemies; social surroundings; one's peoples, one's associates
**dostlaşdırmaq** *f.* to bring* together (*d.*), to unite in friendship (*d.*)
**dostlaşmaq** *f.* to make* friends (with), to become* friends, to be* on / in friendly terms
**dostluq I.** *i.* friendship, amity; **bir kəslə ~etmək** to make* friends with *smb.*, to be* in good terms with *smb.*, to be* on friendly terms with *smb.*; **əsl** ~ real freindship; **Onun dostluğu heç vaxt uzun çəkmir** His / Her friendship never lasts long; ~ **xatirinə** for the sake of friendship, for friendship's sake **II.** *s.* friendly; ~ **köməyi** friendly help / aid; ~ **görüşü** 1) goodwill visit; 2) *id.* friendly match
**dostpərəst** *s. bax* **dostbaz**
**dostpərəstlik** *i. bax* **dostbazlıq**
**dost-tanış** *top. i.* friends and acquaintances
**dostyana** *z. bax* **dostcasına**
**doşab** *i. bax* **bəkməz**
**dotasiya** *i.* grant, (State) subsidy
**dov** *i.*: ~ **gəlmək** to overcome* (*d.*), to overpower (*d.*), to gain a victory (over)
**dovdaq** *i. zool.* bustard
**dovşan I.** *i.* hare; **(ev dovşanı)** rabbit; **bir oxla iki ~ vurmaq** *zərb. məs.* ≅ to kill two birds with one stone **II.** *s.* hare's; rabbit's; ~ **dərisi** hare-skin; rabbit-skin
**dovsançı** *i.* rabbit-breeder
**dovşançılıq I.** *i.* rabbit-breeding **II.** *s.* rabbit-breeding; ~ **ferması** rabbit-breeding farm
**dovşandodaq** *s.* harelip
**dovşandodaqlı** *s. bax* **dovşandodaq**
**dovşandodaqlıq** *i.* the stateof having harelip
**doydurma** *fi.* **1.** satiation, satiety, repletion; **2.** *kim.* saturation
**doydurmaq** *f.* **1.** to satiate (*d.* with), to give* to eat to one's heart's content, to sate (*d.* with); to satisfy (*d.*); ◊ **cana** ~ to bore (*d.* with), to tire (*d.*) out, to pester (*d.* with); **2.** *kim.* to saturate (*d.* with)
**doydurucu** *s.* **(xörək)** substantial, copious, filling; **(qida, yem)** nourishing
**doydurulmaq** *f.* **1.** to be* full / sated; **2.** *kim.* to become* saturated; **3.** to be* fed up (with)
**doymaq** *f.* **1.** to have* had enough, to be* satisfied / full / sated; **2.** *kim.* to become* saturated; ◊ **cana** ~ to be* bored stiff, to be* fed up (with)
**doymamazlıq** *i.* **1.** gluttony; **2.** insatiability; greed
**doymamış** *s. kim.* unsaturated; ~ **məhlul** unsaturated solution
**doymaz** *s.* insatiable; greedy
**doymazlıq** *i.* **1.** gluttony; **2.** insatiability; greed
**doymuş** *s.* **1.** sated, satisfied, replete; **2.** *məc.* saturated; ~ **məhlul** saturated solution
**doyumluq** *s.* a quantity enough to satiate; **bir ~ yemək** a portion of food to be full up
**doyunca** *z.* to one's heart's content, to satiety; ~ **yemək (içmək)** to eat* (to drink*) to one's heart's content, to eat* (drink*) one's fill; ~ **danışmaq** to talk to one's heart's content

**doyurmaq** *f. bax* **doydurmaq**
**doyuzdurmaq** *f. bax* **doydurmaq**
**doyuzdurulmaq** *f. bax* **doydurulmaq**
**doza** *i.* dose; **(maye dərman üçün)** draught; **artıq** ~ overdose; **az** / **kiçik** ~ underdose; **böyük ~da vermək** to give* an overdose; **öldürücü** ~ fatal dose; **şüalanma ~sı** radiation dose
**dozanqurdu** *i. zool.* breetle
**dozimetr** *i. fiz.* dosimeter; **şəxsi** ~ personal dosimeter
**döl** *i.* **1.** *biol.* foetus, fetus [ˈfi:təs]; **2.** *k.t.* **(qoyun)** lambing; ~ **düşmək** to start lambing, to start to procreate
**dölləndirmək** *f.* **1.** to impregnate (*d.*); to fecundate (*d.*); **2.** *k.t.* to inseminate (*d.*)
**döllənmək** *f.* **1.** to become* / to get* impregnated; **2.** *k.t.* to become* / to get* inseminated
**döllətdirmək** *f. bax* **dölləndirmək**
**döllətmək** *f. bax* **dölləndirmək**
**döllük I.** *i.* pedigree **II.** *s.* pedigree; ~ **heyvan** pedigree cattle
**dölsüz** *s.* sterile; ~ **heyvan** sterile animal
**dölsüzləndirilmək** *f. bax* **dölsəzləşdirilmək**
**dölsüzləndirmək** *f.* to sterilize (*d.*), to sterilise (*d.*)
**dölsüzlənmək** *f.* to become* / to get* sterilized
**dölsüzləşdirilmək** *f.* to be* made sterilized
**dölsüzləşdirmək** *f.* to sterilize (*d.*)
**dölsüzləşmək** *f.* to become* / to get* sterilized
**dölsüzlük** *i.* sterility, barrenness
**döndərilmək** *f.* to be* turned / reverted
**döndərmək** *f.* to turn (*d.*); **(cəld)** to swing* (*d.*); **maşını** ~ to turn the car; **(cəld)** to swing* the car round; **açarı** ~ to turn the key; **tarixin təkərini** ~ to reverse the course of history
**dönə-dönə** *z.* repeatedly, more than once, time and again; ~ **demək** to say* once and again / repeatedly
**dönəlgə** *i. bax* **tale**
**fışqırtmaq** *f.* to squirt (*d.*); **O, suyu üstümə fışqırtdı** He / She squirted the water over me
**fibra** *i.* fibre
**fibrin** *i. fiziol.* fibrin
**fibroma** *i. tib.* fibroma (*pl.* fibromata)
**fidan** *i.* shoot, offshoot; sucker
**fiqur** *i.* **1.** figure; **həndəsi** ~ geometrical figure; **2.** *şahm.* chess-man, piece; **(qumarda)** picture-card, face-card
**fiqurlu** *s.* figured, figure; shaped; form; ~ **konki sürmə** figure skating; ~ **uçuş** *av.* acrobatic flight; ~ **kərpic** shaped brick; ~ **konki sürən** figure skater
**fikir** *i.* thought; idea; conception; mind; **(düşüncə**, **xəyalat)** mediation; reflection; **(rəy**, **mülahizə)** opinion; notion; **(niyyət)** thought, intention; **aydın** ~ bright / clear thought / idea / conception; lucid mind; **qərəzli** ~ preconceived idea, preconception; **qəfil yaranan** ~ sudden thought; **dolaşıq** ~ confused / tangled / muddled thought (idea, conception); knotty idea; **əsas** ~ fundamental / basic idea; **yanlış** ~ wrong / incorrect idea / conception; **Bu fikir yanlışdır** This conception is wrong; **köhnə** ~ old / out-of-date idea (conception, thought); **təhrif olunmuş** ~ mispresented / perverted / distorted idea (conception); ~ **aydınlığı** clarity of thought / idea; lucidity of mind; ~ **ayrılığı** difference / cleavage / divergence of opinion; ~ **dolaşıqlığı** confusion of thought; ~ **aparmaq** to fall* into thinking, to become* thoughtful; **Onu fikir apardı** He / She fell into thinking; ~ **vermək**: 1) to pay* attention (to), to take* notice (of); **Ona fikir verməyin** Take no notice of him; 2) **(qayğısına qalmaq)** to take*care (of), to think* (of); **Səhhətinizə fikir verin** Take care / Think of your health; ~ **etmək**: 1) **(fikirləşmək)** to think* (about, of), to ponder (over); **Nə fikir eləyirsən?** What are you thinking about? 2) **(kədərlənmək**, **qəm yemək)** to grieve (about, at, for, over); to lament (*d.*), to brood (over); ~ **irəli sürmək** to put* forward an idea / a conception; ~ **yaratmaq** to form an opinion (about); to give* an idea (of); ~ **yürütmək** to reason; ~ **söyləmək** / **demək** to speak* (about, on); to utter / to express an opinion (about); **öz fikrini söyləmək** to express / to utter one's opinion (about), to give* one's view (on); **O, bu haqda öz fikrini söyləyib** He / She has given his / her view on it; **bir** / **şeyin əleyhinə** / **lehinə** ~ **söyləmək** to declare opinion against / for *smth.*; ~ **çəkmək** to grieve (about); **ağlına** ~ **gəlmək**: **Qəflətən ağlıma belə bir fikir gəldi** Suddenly such an idea entered / flashed across my mind, Suddenly such a thought struck me / occured to me; **(filan) ~də olmaq** to keep* the idea *that*...; Abide* by the thought / Notion *that*...; **Mən bu fikirdəyəm ki,...** I am of the opinion *that*...; **özü haqqında yüksək ~də olmaq** to have* a high opinion of oneself, to think* very well / highly / too much of oneself; to think* no small beer of oneself *idiom.*; **eyni ~də olmaq** to be* of the same opinion; **əvvəlki** / **həmin ~də qalmaq** to remain of the same opinion; **dərin fikrə getmək** / **dalmaq** to be* lost / sunk in thought, to be* plunged in a deep reverie (on, about); to muse (on, upon, over); **Dərin fikrə dalaraq o**, **saatlarla oturdu** He / She sat musing for hours; **qəmgin ~ (lər)ə dalmaq** / **qərq olmaq** to be* lost in gloomy reflection (on); to brood (on, over); **O,küncdə oturub öz müsibətləri haqqında qəmgin fikirlərə qərq olmuşdu** Sitting in the corner he / she was lost in gloomy reflection on his / her own misfortunes; **fikrə tərəfdar olmaq** / **çıxmaq** to uphold* the idea / conception /

option; **fikri aydınlaşdırmaq** to elucidate the idea / thought / conception; **fikri bəyənmək** to approve the idea; **fikri izah etmək** to explain / to interpret the idea / conception; **fikri müdafiə etmək** to make* a stand for the idea / conception / opinion; **öz fikrini müdafiə etmək** to assert one's point of view / opinion / idea; **fikri təsdiq etmək** to confirm the idea / conception; **fikri təhrif etmək** to distort / to pervert / to mispresent the thought; **qəti fikri olmaq** to have* a good mind; **Onun qəti fikri vardı ki**, **mənim haqqımda polisə xəbər** / **məlumat versin** He / She had a good mind to report me to the police; **öz fikri olmaq** to have* one's own idea / notion / opinion (about); **fikrində olmaq (niyyətində olmaq)** to have* a thought / an intention (to+*inf.* / of+*ger.*); **Onun fikri var ki**, **yeni bir kitab yazsın** He / She has a thought / an intention of writing a new book; **fikrində araşdırmaq** / **götür-qoy etmək** to deliberate (*d.*), to ruminate (over, about, on, upon), to meditate (on, upon), to turn over in one's mind (*d.*); **O son hadisələri fikrində araşdırdı** He / She was ruminating over the recent events, He / She was turning over the recent events in his / her mind; **fikrində bir şey tutmaq** to think* of *smth.*; **Fikrində bir rəqəm tut** Think of a number; **fikrindən daşınmaq** / **əl çəkmək** to give* up the thought / idea (of+*ger.*); **Oraya getmək fikrindən əl çək** / **daşın** Give up the thought / idea of going there; **fikrindən çıxmaq** *bax* **unutmaq**; **fikrindən çıxmamaq** / **getməmək (bir kəs**, **bir şey)** to have* *smb.* / *smth.* on one's mind; **fikrinə düşmək (bir şey etmək)** to have* an intention (to+*inf.*); **O, evlənmək fikrinə düşüb** He has an intention to marry; **~ini dağıtmaq** to disperse one's thoughts; **~ini dəyişmək** to change one's mind; **O, getmək istəyirdi**, **lakin fikrini dəyişdi** He / She wanted to go, but changed his / her mind; **~ini toplamaq** / **cəmlə(şdir)mək** to collect one's thoughts; **Fikrimcə,...** In my opinion; **Müəllifin fikrincə,...** According to the author...; **Mən bu fikirdəyəm ki,...** I am of the opinion that..., **Fikir məni üzür** The thought tortures / tears me

**fikir-xəyal** *i.* reflection; muse; thought

**fikirli-fikirli** *z.* thoughtfully, pensively

**fikirləşmədən** *z.* **1.** without thinking; thoughtlessly; **O, fikirləşmədən cavab verdi** He / She answered without thinking; **2. (götür-qoy etmədən)** without deliberation; **(dərhal)** offhand; **Siz bunu fikirləşmədən edə bilərsiniz** You can do it offhand; **Mən fikirləşmədən sizə cavab verə bilmərəm** I can't give you an answer offhand

**fikirləşmək** *f.* **1.** to think* (about, of, over); to ponder (over); to consider (*d.*); **Biz kəndə getmək haqqında fikirləşirik** We are thinking about / of going to the country; **2. (dərindən)** to muse (on, upon, over); **(fikrində araşdırmaq)** to ruminate (on), to meditate (about, on, over); **O, son hadisələr haqqında fikirləşirdi** He / She was ruminating / meditating on the recent events; **3. (xəyalında götür-qoy eymək)** todeliberate (*d.*); **Onlar fikirləşirdilər**, **təzə maşın alsınlar**, **ya yox** They were deliberating whether to buy a new car or not; **başqası haqqında ~** to think* of other people; **özü haqqında ~** to think* of oneself

**fikirli I.** *s.* thoughtful, (*i.s.*) full of thought; pensive, looking pensive; given of reverie; ruminant; **~ baxış(lar)** / **nəzər(lər)** thoughtful look(s); **~ sifət** / **üz** thoughtful face; **~ olmaq** to be* thoughtful / pensive / ruminant; to be* fallen into a reverie **II.** *z.* thoughtfully, pensively; **~ görünmək** to look pensive / thoughtful

**fikirlilik** *i.* thoughtfulness, pensiveness; reverie

**fikirsiz** *s.* **1.** thoughtless; (*i.s.*) manifesting lack of thought; **2. (qayğısız)** careless; gay

**fikirsizlik** *i.* **1.** thoughtlessness; lack of thought; **2. (qayğısızlıq)** carelessness; gayness

**fikir-zikir** *i.* thought; reflection; **~ etmək** to think* hardly (about, over); to brood (over, about)

**fikrən** *z.* mentally; intellectually

**fikri** *s.* mental; intellectual

**fiksaj** *i.* **1.** *fot.* fixing agent; **2.** *rəs.* fixative; **~ etmək** to fix (*d.*)

**fiksator** *i. tex.* **1.** pawl, stop, latch, holder; **2. (saç üçün)** fixer, fixing solution
**fikus** *i. bot.* ficus
**fil I.** *i. zool.* elephant; **bala** ~ elephant calf; **dişi~** cow-elephant, elephant cow, she-elephant; **erkək** ~ he-elephant; **Dəvədən böyük fil də var** *zərb. məs.* ≅ There is a still higher / more powerful authority to appeal to **II.** *s.* elephant, elephantine; ~ **bağırtısı** elephant trumpet; ~ **balası** elephant calf; ~ **dişi** tusk; ~ **sümüyü** ivory; ~ **boyda** elephantine; ◊ ~ **xəstəliyi** *tib.* elephantiasis; ◊ ~ **qulağında yatmaq** ≅ to be* unaware (of), to be* in ignorance (of)
**filan** *əv.* such and such; so and so; ~ **saatda** at such and such hour; ~ **şeylər** such and such things; ~ **cür** so and so
**filan-behman** *əv.* so and so; this and this; that and other
**filan-fəsməkan** *əv. bax* **filan-behman**
**filankəs** *əv.* so-and-so; such person; **Filankəsin dediyinə qulaq asma** Take no notice of what so-and-so says
**filantrop** *i.* philanthropist
**filantropiya** *i.* philanthropy
**filarmoniya** *i.* philarmonic society
**filatelist I.** *i.* philatelist; **II.** *s.* philatelic; **~lər cəmiyyəti** Philatelic Society
**filateliya** *i.* philately
**filatelizm** *i.* philatelism
**filban** *i.* elephant driver, elephanteer
**filbədən** *s.* elephantine
**filial** *i.* branch; subsidary; **institutun ~ı** branch of the Institute
**filiz I.** *i.* ore; **qızıl** / **gümüş** / **mis** / **maqnit** / **manqan ~i** gold / silver / copper / magnetic / manganese ore; **dəmir ~i** iron-ore, iron-stone; **~i zənginləşdirmək** / **saflaşdırmaq** to dress ore; **~i yumaq** to wash ore **II.** *s.* ore; ~ **yatağı** ore deposit; ~ **mədəni** pit, mine; ~ **hövzəsi** mining basin
**filizçıxaran** *i.* miner
**filizli** *s.* ore-bearing
**filizsaflaşdırma** *i.* oredressing
**film** *i.* film; *amer.* movie; **bədii** ~ feature film; **qısametrajlı** ~ short film; **rəngli** ~ colour / technicolour film; **sənədli ~a** documentary (film); record film; **dublyaj edilmiş** / **olunmuş** ~ dubbed film; **səsli** ~ sound-film; talkie *bot.*; **səssiz** ~ silent film; **tammetrajlı** ~ full-length film; **xronikal** ~ news-reel; ~ **çəkmək** to make* a film; to shoot* a film; **~i dublyaj etmək** to dub a film; **~i ekranlara buraxmaq** to release a film
**filmoskop** *i.* film viewing device
**filmoteka** *i.* film library / collection
**filologiya** *i.* philology; ~ **elmləri** doktoru Doctor of philology; ~ **elmləri namizədi** Candidate of philology
**filoloji** *s.* philological; ~ **fakültə** philological faculty / department
**filoloq** *i.* philologist; ~ **olmaq** to be* a philologist
**filosof** *i.* philosopher
**filosofcasına** *z.* philosophically, like a philosopher
**filosofanə I.** *s.* philosophical; ~ **fikirlər** philosophical ideas **II.** *z.* philosophically, like a philosopher; ~ **danışmaq** to speak* philosophically
**filtr** *i.* filter; **(radioda)** sifter; **işıq ~i** light filter
**filtrasiya** *i.* filtration
**filtrli** *s.* (*i.s.*) furnished with a filter / sifter
**fin I.** *i.* Finn **II.** *s.* Finnish; ~ **dili** Finnish, the Finnish language
**final I.** *i.* **1.** finale; **(pyesdə)** denouement; **2.** *id.* final **II.** *s.* final; ~ **yarışları** *id.* finals / sports finals; ~ **görüşü** *id.* Final
**finalçı** *i. id.* participant / participator of the final(s)
**fincan** *i.* cup; **bir** ~ **dolusu** cupful; **bir** ~ **çay** / **qəhvə** a cup of tea / coffee
**fincə I.** *s.* Finnish, in Finnish; **~-ingiliscə lüğət** Finnish-English dictionary **II.** *z.* Finnish, in Finnish; ~ **danışmaq** to speak* Finnish, to speak* the Finnish language; ~ **yazmaq** to write* in Finnish
**finikiyalı** *i.* Phoenician
**finiş** *i. id.* finish; **~ə çatmaq** to come* to finish
**finka** *i.* Finnish dagger / knife
**firavan I.** *s.* stumptuous, luxurious, prosperous, well-to-do; ~ **həyat** / **yaşayış** luxurious / stumptuous life; life of luxury **II.** *z.* luxuriously, stumptuously, prosperously; ~ **yaşamaq** to live in luxury; to live on the

fat of the land *idiom.*; to live / to be* in clover *idiom.*; to live in plenty *idiom.*
**firavanlıq** *i.* luxury, prosperity; luxurious life
**firiştə** *i.* angel
**firma** *i.* firm
**firni** *i.* firni (starchy jelly of milk and rice flour)
**firon** *i.* **1.** *tar.* Pharaoh; **2.** *məc.* tyrant; a cruel person / man*
**fironluq** *i.* *məc.* tyrany; cruelty; ◊ ~ **etmək** to tyranize, to act / to behave like Pharaoh [΄feərou]
**firuzə** *i.* (precious stone) turquoise
**firuzəyi** *s.* turquoise, (*i.s.*) of turquoise colour
**fisqarmoniya** *i.* *mus.* harmonium
**fişəng** *i.* (sky-)rocket; firework; ~ **atmaq** to let* off a rocket
**fişəngbazlıq** *i.* fire-works *pl.*
**fit** *i.* **1.** **(səs)** whistle; **(zavodun, fabrikin)** hooting; **(avtomobilin)** honk; **həyəcan ~i** alarm whistle; **2.** **(alət)** whistle; hooter; **(avtomobildə)** motor-car horn; honk; **(fabrikdə, zavodda)** factory whistle; ~ **vermək** / **çalmaq (ağızla)** to whistle; **(fitlə)** to blow* a whistle, to hoot; to honk; **nahar ~i vermək** to pipe (to) dinner; ~ **veriləndə** / **çalınanda** at the sound of whistle; when the whistle blows; **Fabrikin fiti çalınır** The factory whistle is hooting / shrieking; ◊ **~ə basmaq** to hiss (*d.*), to catcall (*d.*); **aktyoru ~ə basmaq** to hiss an actor off the stage, to catcall an actor
**fitə** *i.* **1.** apron (especially for screening one's privates in the public bath); **2.** hairdresser's sheet (for covering client's breast); ~ **bağlamaq** / **tutmaq**: 1) to wind* an apron round one's thighs in the public bath; 2) to cover client's breast with a sheet at the hairdresser's
**fitil** *i.* **1.** *bax* **piltə (2-ci mənada)**; **2.** slow-match
**fitləmək** *f.* **1.** to whistle, to pipe; **nahara** ~ to pipe to dinner; **2.** *məc.* to set* (*d.* on); **iti bir kəsin üstünə** ~ to set* a dog on *smb.*
**fitnə** *i.* intrigue; sedition; provocation; mischief; ~ **salmaq** / **törətmək** to make* mischief
**fitnəbaz** *i.* intrigant, **(qadın)** intrigante; intriguer, plotter
**fitnəbazlıq** *i.* intriguing, intriguery
**fitnəçi** *i.* *bax* **fitnəkar I**
**fitnəçilik** *i.* *bax* **fitnəkarlıq**
**fitnə-fəsad** *i.* *bax* **fitnə**
**fitnəkar I.** *i.* mischief-maker, mischief-hatcher, trouble-maker; **(provokator)** provocateur; stool-pigeon *bot.*; provoker, instigator **II.** *s.* mischief-making, mischief-hatching; trouble-making; provocative
**fitnəkarlıq** *i.* **(ara qarışdırma)** trouble-making, instigation; **(provokasiya)** provocation
**fitrə** *i.* alms, charity (given at the close of Ramadan)
**fitrən** *z.* by nature; naturally
**fitrət** *i.* nature, character
**fitrətən** *z.* *bax* **fitrən**
**fitrə-zəkat** *i.* *bax* **fitrə**
**fitri** *s.* inborn, innate, native; ~ **ağıl** innate / native intellect / wit; mother wit *idiom. bot.*; ~ **istedad** inborn / innate talent; ~ **qabiliyyət** innate / natural abilities *pl.*
**fitva** *i.* **1.** decision / judgement (of a Muslim jurist); **2.** instigation, incitement; setting-on; ~ **vermək**; 1) to give* / to pronounce a judgement; 2) to instigate (*d.* to), to incite (*d.* to)
**fitvaçı** *i.* instigator; **(ara qızışdıran)** fire hand *bot.*; provoker
**fitvalamaq** *f.* to instigate (*d.* to), to set* (on)
**fizik** *i.* physicist
**fizika** *i.* physics
**fiziki** *s.* physical; ~ **əmək** physical / manual labour; ~ **kimya** physical chemistry; ~ **coğrafiya** physical geography
**fiziki-riyazi** *s.* physico-mathematical, physical and mathematical
**fizikşünas** *i.* *bax* **fizik**
**fizikşünaslıq** *i.* *bax* **fizika**
**fiziokrat** *i.* *iqt.* physiocrat
**fiziokratik** *s.* physiocratic
**fiziologiya** *i.* physiology
**fizioloji** *s.* physiological; ~ **məhlul** physiological / salt solution
**fizioloq** *i.* physiologist
**fizionomist** *i.* physiognomist
**fizionomiya** *i.* physiognomy
**fizioterapevt** *i.* physiotherapeutist
**fizioterapevtik** *s.* physiotherapy (*attr.*); ~ **kabinet** physiotherapy room

**fizioterapiya** *i. tib.* physiotherapy, physical therapy
**flakon** *i.* bottle; **ətir ~**u scent bottle; **bir ~ ətir** a bottle of perfume / scent
**flaqman** *i. dən.* **1. (zabit)** flag-officer; **2. (gəmi)** flagship; **~ gəmisi** flagship
**flaqştoq** *i.* flagstaff
**flamand I.** *i.* Fleming; **~lar** *top. i.* the Flemish **II.** *s.* Flemish; **~ dili** Flemish, the Flemish language
**flamandca** *z.* Flemish; in Flemish; **~ danışmaq** to speak* Flemish / the Flemish language
**flaminqo** *i. zool.* flamingo
**flanel** *i. tex.* flanel
**flebit** *i. tib.* phlebitis
**fleksiya** *i. dilç.* inflexion; **daxili ~** internal inflexion
**flektiv** *s. dilç.* inflected; **~ dillər** inflected languages
**fleqmatik I.** *i.* phlegmatic person **II.** *s.* phlegmatic
**fleqmatiklik** *i.* phlegmatic character / nature / behaviour
**fleqmatizm** *i.* phlegm, coolness, apathy
**fleyta** *i.* flute; **~(da) çalmaq** to play the flute
**fleytaçalan** *i. bax* **fleytaçı**
**fleytaçı** *i.* flutist
**fleytaçılıq** *i.* the profession of a flutist
**fligel** *i.* outbuilding, outhouse
**flora** *i.* flora
**florensiyalı** *i.* Florentine
**florin** *i. tar.* **(sikkə pul)** florin
**flüger** *i.* weathercock, weather-vane
**flüs** *i.* swollen cheek
**fokstrot** *i.* foxtrot; **~ oynamaq** to dance the foxtrot
**fokus I.** *i. fiz.*, *tib.* focus; **zəlzələnin fokusu** focus of an earthquake; **~**a **gətirmək** to bring* to a focus **II.** *s.* focal; **~ məsafəsi** focal distance / length **III.** *i.* (conjuring) trick; (kartla) card-trick; **~ göstərmək** to juggle, to conjure, to do* conjuring tricks
**fokusçu** *i.* conjurer, juggler
**fokusçuluq** *i.* jugglery, juggling; legerdemain; **~ etmək** to juggle
**fokuslaşdırmaq** *f.* to focus (*d.*), to bring* to a focus (*d.*)
**folklor** *i.* folk-lore
**folklorçu** *i. bax* **folklorşünas**
**folklorşünas** *i.* specialist in folk-lore
**folklorşünaslıq** *i.* folk-lore studies
**folqa** *i.* foil; **qızıl ~** gold foil
**fon** *i.* **(***müx.* **mənalarda)** background; **~unda** against the background (of); **işıqlı ~da** against a light background, on a light background
**fond** *i.* fund; **ehtiyat ~u** reserve fund; **əmək haqqı ~u** wage fund; direktor **~u** director's fund; **mənzil ~u** housing resources; **qızıl ~u** fund / stock of gold; **yardım ~u** relief fund; **əsas lüğət ~u** basic word stock; **sənayenin əsas ~ları** basic funds of industry
**fonem** *i. dilç.* phoneme
**fonematik** *s. dilç.* phonemic
**fonetik** *s. dilç.* phonetic; **~ transkripsiya** phonetic transcription
**fonetika** *i. dilç.* phonetics; **Fonetika dilçiliyin bir bölməsidir** Phonetics is a branch of linguistics
**fonetist** *i.* phonetician
**fonoqraf** *i.* phonograph
**fonoqrafiya** *i.* phonography
**fonoqram** *i.* phonogram
**fonologiya** *i.* phonology
**fonoloji** *s.* phonologic(al)
**fonometr** *i. fiz.* phonometer
**fonometrik** *s.* phonometric(al)
**fontan** *i.* fountain; **su ~ı** a fountain of water; **neft ~ı** oil-gusher; **~ vurmaq** to gush, to spring* forth
**fontanlamaq** *f.* to gush, to spring* forth
**fontanvuran** *s.* gushing; **~ neft quyusu** gushing oil-well
**forma** *i.* **1.** form; shape; **~ və məzmun** form and content; **fel ~sı** verbal form; **qramatik ~lar** grammatical forms; **qutunun ~sı** the shape of the box; **2.** *tex.* **(qəlib)** mould; **3. (qiyafə)** uniform; **~da olmaq** 1) to be* in good form, to feel* fit; 2) to be* in the uniform; **~da olmamaq** to be* out of form; **~ vermək** to give* a form / shape (to)
**formadüzəldici** *s.* formative; **~ şəkilçilər** formative suffixes; word-changing suffixes
**formal I.** *s.* formal, formalistic; nominal; **~ münasibət** formal attitude, lack of interest; **~ məntiq** formal logic; **~ menicer** nominal manager; ~ metod formalistic method **II.** *z.* formally; nominally; **~ hərəkət etmək** to act formally

**formalaşdırılmaq** *f.* to be* given a form / shape (to); to be* moulded
**formalaşdırmaq** *f.* to form (*d.*), to give* a form (to); to shape (*d.*), to give* a shape (to); to mould (*d.*); **xasiyyəti ~** to mould / to build* up the character
**formalaşma** *fi.* formation, being formed; being moulded; shaping, being shaped
**formalaşmaq** *f.* to be* formed; to be* moulded; to shape, to be* shaped; to develop into
**formallaşdırılmaq** *f.* to be made formal
**formallaşdırmaq** *f.* to make* formal
**formallaşma** *fi.* getting / becoming formal
**formallaşmaq** *f.* to get* / to become* formal
**formalı** *s.* shaped; (*i.s.*) of the form; in the form (of)
**formalin** *i. əcz.* formalin
**formalist** *i.* formalist
**formalistcəsinə** *z.* formally, in a formalistic way / manner
**formalistik** *s.* formalistic
**formalizm** *i.* formalism; formality
**formallaşdırılmaq** *f.* to be* given a form / shape (to); to be* moulded
**formallaşdırmaq** *f.* to form (*d.*), to give* a form (to); to shape (*d.*), to give* a shape (to); to mould (*d.*); **xasiyyəti** ~ to mould / to build* up the character
**formallıq** *i.* formality; **qanunun formallığı** formality of law
**formasız** *s.* formless; shapeless; **(qiyafəsiz)** uniformless
**formasızlıq** *i.* formlessness; shapelessness
**formasiya** *i. siya.*, *qeol.* formation; structure; **qeoloji** ~ geological formation; **ictimai-iqtisadi** ~ social and economic structure
**format** *i.* format, size; type face (of a book); **kitabın ~ı** the format of the book
**formativ** *i.* formative
**formul** *i. bax* **formula**
**formula** *i.* formula (*pl.* -as, -ae)
**formulyar** *i.* **1.** service list; **2.** ticket, card; **rəsmi** ~ official list
**fors*i.*** *bot.* swagger; **~ etmək** *bax* **forslanmaq**
**forslanmaq** *f. bot.* to swagger
**forslu** *s. bot.* swaggering
**forsunka** *i. tex.* sprayer; oil / fuel burner
**fortepiano** *i.* piano; upright piano; **~(da) çalmaq** to play the piano
**fortepianoçu** *i. bax* **pianoçu**
**forum** *i.* forum; **beynəlxalq** ~ international forum
**forvard** *i. id.* forward
**fosfat** *i. kim.* phosphate
**fosfor** **I.** *i. kim.* phosphorus **II.** *s.* phosphoric; **~ turşusu** phosphoric acid
**fosforit** *i. miner.* phosphorite
**fosforlaşdırmaq** *f.* to phosphorate (*d.*)
**fosforlaşmaq** *f.* to be* phosphorated; to turn into phosphorate
**fosforlu** *s.* phosphorus; phosphorescent; (*i.s.*) (mixed) with phosphorate
**fosgen** *i. kim.* phosgen
**foto** **I.** *i.* photo, photograph; **~ çəkmək** to take* a photo (of), to photograph (*d.*) **II.** ***s.*** photographic; **~ kağızı** photographic paper
**fotoalbom** *i.* album of photo(graph)s
**fotoaparat** *i.* camera
**fotoatelye** *i.* photographer's (studio)
**fotoböyüdücü** *i.* enlarger
**fotoelement** *i.* photoelectric cell, photocell, photopile
**fotoetüd** *i.* photographic sketch
**fotogenik** *s.* photogenic; **~ sifət** photogenic face
**fotoxromiya** *i.* photochromy
**fotoxronika** *i.* pictorial review
**fotokamera** *i. bax* **fotaparat**
**fotokimya** *i.* photochemistry
**fotokimyəvi** *s.* photochemical
**fotoqraf** *i.* photographer; **həvəskar** ~ amateur photographer; **peşəkar** ~ professional photographer
**fotoqrafçı** *i. bax* **fotoqraf**
**fotoqrafik** *s.* photographic
**fotoqraflıq** *i.* profession of a photographer
**fotoqrafiya** *i.* **1.** photography; **rəngli ~** colour photography; **ağ-qara** ~ black and white photography; **2.** (atelye) photographer's (studio)
**fotolaboratoriya** *i.* photolaboratory, photolab
**fotolent** *i.* (photographic) film
**fotoliz** *i. kim.* photolysis
**fotomexanik** *i.* photomechanic
**fotomexanika** *i.* photomechanics
**fotomexaniki** *s.* photomechanical
**fotometrik** *s.* photometric
**fotometriya** *i. fiz.* photometry

**fotomontaj** *i.* photomontage
**fotomüxbir** *i.* newspaper / magazine photographer
**fotoobyektiv** *i.* lens
**fotoplyonka** *i. bax* **fotolent**
**fotoreklam** *i.* photographic advertisement; picture advertisement
**fotoreportaj** *i.* picture story, photo-report
**fotoreportyor** *i. bax* **fotomüxbir**
**fotosərgi** *i.* photo-exhibition
**fotosinkoqrafiya** *i. poliqr.* photozincography
**fotosintetik** *s.* photosynthetic
**fotosintez** *i. bot.*, *biol.* photosynthesis
**fotosurət** *i.* photographic copy
**fotoşəkil** *i.* photo, photograph
**fototexnologiya** *i.* phototechnology
**fototelefon** *i.* phototelephone
**fototeleqraf** *i.* phototelegraph
**fototeleqram** *i.* phototelegram
**fototerapiya** *i. tib.* phototherapy
**foye** *i.* foyer; crush-room *bot.*
**foyeli** *s.* (*i.s.*) with a foyer / a crush-room, (*i.s.*) having a foyer / a crush-room
**foyesiz** *s.* foyerless, (*i.s.*) without a foyer / a crush-room
**fövq** *i.* top, summit; **~ündə** about, up, on, upon
**fövqəladə** *s.* extraordinary; unusual; uncommon; extreme; ~ **surətdə** extraordinarily; extremely; ~ **vəziyyət** extraordinary situation; **(ölkədə)** state of emergency; ~ **səlahiyyət** extraordinary power; ~ **sessiya** extraordinary session; ~ **hadisə** extraordinary accident; ~ **tədbir** / **ölçü** extraordinary measures; ~ **və səlahiyyətli səfir** Ambassador Extraordinary and Plenipotentiary
**fövqəladəlik** *i.* unusualness; singularity, rarity; extraordinary character
**fövqəlbəşər** **I.** *i.* superman*, a man of great ability **II.** *s.* superhuman, superman
**fövqəltəbii** *s.* supernatural, preternatural; ~ **varlıq** supernatural being; ~ **qüvvələr** preternatural forces
**fövqəltəbiilik** *i.* supernatural character / feature
**fövrən** *s.* instantly, immediately
**fövri** *s.* instant, instantaneous, immediate
**fövt** *i.* missing; ~ **etmək** to miss (*d.*); **fürsəti** ~ **etmək** to miss an opportunity; ~ **olmaq** to die, to pass away
**frak** *i.* dress-coat, tail-coat, swallow-tail(s), evening dress
**frakiyalı** *i.* Thracian
**fraklı** *s.* wearing a dress-coat / a tail-coat; in a dress-coat / a tail-coat
**fraksiya** **I.** *i.* **1.** *siya.* fraction; group, faction; **partiya ~ları** party factions; **~lar arası(nda) mübarizə** struggle between factions; factional conflict; **2.** *kim.* fraction; **yüngül** ~ light fractions; **~lara ayırmaq** / **parçalamq** *kim.* to fractionate (*d.*) **II.** *s.* factional; fractional; factious; ~ **ziddiyyəti** factional conflict; ~ **distilasiyası** *kim.* fractional distillation
**fraksiyaçı** *i. siya.* factionary, factionist, factioneer
**fraksiyaçılıq** *i. siya.* factionalism, fractionalism
**fraqment** *i.* fragment
**fraqmentar** *s.* fragmentary
**fraqmentarlıq** *i.* fragmentariness; fragmentary character (of)
**frank** *i.* (pul) franc
**franklar** *i. tar.* Franks
**fransız** **I.** *i.* Frenchman*, **(qadın)** Frenchwoman* **II.** *s.* French; ~ **dili** French, the French language; **~-ingiliscə lüğət** French-English dictionary
**fransızca** **I.** *s.* French, in French, in the French language; ~ **yazmaq** to write* in French **II.** *z.* French, in French; ~ **danışmaq** to speak* French
**fransızlaşdırılmaq** *f.* to be* Frenchified
**fransızlaşdırmaq** *f.* to Frenchify (*d.*)
**fransızlaşmaq** *f.* to Frenchify, to become* / to be* Frenchified
**fransızlaşmış** *s.* Frenchified
**fraza** *i.* phrase; **adi** ~ ordinary phrase
**frazeologiya** *i.* phraseology
**frazeoloji** *s.* phraseological; ~ **lüğət** phraseological dictionary; ~ **birləşmə** phraselogical unit
**freqat** *i.* **1.** *dən.* frigate; **2.** *zool.* frigate-bird
**freska** *i. rəs.* fresco
**frezer** *i. tex.* cutter, milling; ~ **dəzgahı** milling-machine
**frezerçi** *i.* milling-machine operator
**frezerləmək** *f. tex.* to mill (*d.*), to cut* (*d.*)

**frontal** *s.* frontal; ~ **hücum** frontal / direct attack; ~ **sorğu** frontal interrogation / interrogatory / questioning
**fruktoza** *i. kim.* fructose
**fuqa** *i. mus.* fugue [fju:g]
**fuqas** *i.* fougasse; high-explosive; ~ **bombası** high-explosive / demolition bomb
**fundamental** *s.* fundamental; substantial; solid; basic; ~ **bina** a solid building; ~ **tədqiqat** fundamental investigation / research; ~ **əsər** basic work; ~ **surətdə** / **şəkildə** fundamentally
**funikulyor** *i.* funicular (railway)
**funksional** **1.** *s. riyaz.* functional; ~ **hesablama** functional calculus; ~ **asılılıq** functional dependence; **2.** *tib.* dynamic disease; ~ **ürək xəstəliyi** functional heart-trouble
**funksionallıq** *i.* functionality, functional dependence
**funksiya** *i.* function; **törəmə** ~ *riyaz.* derived function; **tərs(imə)** ~ *riyaz.* inverse function; ~ **ifa etmək** to function, to fulfil a function (of); ~ **daşımaq** to function (as), to functionate (as)
**funt** **I.** *i.* **(çəki ölçüsü)** pound **II.** *i.* **(pul vahidi)**: ~ **(sterlinq)** pound (sterling)
**fut** *i.* **(uzunluq ölçüsü)** foot
**futbol** *i.* football; *amer.* soccer; ~ **oynamaq** to play football
**futbolçu** *i.* football-player; footballer
**futbolçuluq** *i.* the profession of a football-player
**futlyar** *i.* case; **alət ~ı** instrument case
**futurist** *i.* futurist
**futurizm** *i. in.* futurism
**füzelyaj** *i.* fuselage [-zı-], hull
**füzun** *z.* more, much more
**fürsət** *i.* good* opportunity, convenient / opportune moment; ~ **düşmək** to have* good* opportunity; **~i əldən vermək (fövtə vermək)** to miss good* opportunity, to waste an opportunity / a chance
**füsünkar** *s.* charming, fascinating, captivating, lovely, delightful; ~ **təbəssüm** charming / captivating smile; ~ **qadın** / **qız** / **təranə** / **mənzərə** lovely woman* / girl / melody / view
**füsunkarcasına** *z. bax* **füsunkarlıqla**
**füsunkarlıq** *i.* fascination, captivation, charm
**füsunkarlıqla** *z.* charmingly; delightfully; fascinatingly; ~ **gülümsəmək** to smile charmingly / delightfully

# Gg

**G**, **g** the 9th letter of the Azerbaijani alphabet
**gah** *bağ. now...* now; **~ burada ~ orada** now here, now there, here and there
**gahdanbir** *z.* sometimes, at times, from time to time, now and then, now and again
**gah-gah** *z. bax* **gahdanbir**
**gap** *i.* chat; chatter; talk, conversation; **~ etmək** / **vurmaq** to chat, to have* a chat (on, about); **Gapı kəsin!** Stop chattering!
**gapçı I.** *i.* chatterer, chatterbox; talker; **~ olmaq** to be* a chatterer / chatterbox **II.** *s.* chatty; talkative; **~ qadın** a chatty / talkative woman*
**gapçılıq** *i.* talkativeness; chattering
**gavalı I.** *i.* plum **II.** *s.* plum; **~ ağacı** plum tree; **~ cemi** plum jam
**gavalılıq** *i.* plum-tree grove
**gec I.** *s.* late; tardy; **~ qonaq** late guest; **~ olmaq** to be* late; **~ çatma** tardy arrival **II.** *z.* late, tardily; **Avtobus 5 dəqiqə gec gəldi** The bus arrived 5 minutes late / later
**gecə I.** *i.* **1.** night; **bütün ~** all night; **bir ~də** within a night; **Qütb ~si** the Polar night; **Min bir ~** The Arabian Nights; **keçən ~** last night; **sabah ~** tomorrow night; **2. (gecəvaxtı)** at night; **~ işləmək** to work at night; **~dən xeyli keçmiş** late at night; **Bəyaz gecələr** White Nights; **uzun ~lər** long nights; **~ uzunu** nightlong; **hər ~** nightly, every night **II.** *s.* night; **~ qatarı** night train; **~ işi** night work; **~ vaxtı** nighttime; **~ növbəsi** night shift; **~ gözətçisi** night-watchman*; **~ köynəyi (kişi üçün)** night-shirt; **(qadın üçün)** night-gown, night-dress; **~ məktəbi** night school
**gecəbəgündüz** *s.* night and day, day and night
**gecdən** *z. bax* **tezdən**
**gecə-gündüz** *s.* night and day; the clock round, round the clock
**gecə-gündüzlü** *z. bax* **gecəbəgündüz**
**gecəkəpənəyi** *i. bax* **pərvanə**
**gecəkorluğu** *i.* night blindness
**gecəquşu** *i.* **1.** *bax* **yarasa**; **2.** *d.d.* one who can't sleep by nights
**gecələmək** *f.* to pass the night, to spend* the night, to stay (for) the night, to stay overnight; **çöldə ~** to spend* the night in the open
**gecəli-gündüzlü** *s. bax* **gecə-gündüz**
**gecəlik** *s.*: **bir ~** *smth.* enough for a night; for a night
**gecəpapağı** *i.* nightcap
**gecəyarı** *z.* midnight; **~da** at midnight; **~dan sonra** after midnight; **~dan əvvəl** before midnight
**gecəyarısı** *z.* midnight; **Onlar şəhərə gecəyarısı çatdılar** They arrived in the city at midnight
**gec-gec** *z.* seldom, rarely, not often
**gecikdirmək** *f.* **1.** to cause to be late, to make* *smb.* be late; **2.** to delay; **cavabı ~** to delay one's answer, to be* slow in answer; **məvacibi ~** to fail to pay out salaries / wages in time, to withhold* salaries / wages
**gecikmək** *f.* **1.** to be* late, to be* overdue; **beş dəqiqə ~** to be* five minutes late / overdue; **Qatar** / **təyyarə** / **avtobus və s. on dəqiqə gecikir** The train / the plane / the bus, *etc.* is ten minutes late / overdue; **2. (bir şeyə** / **bir yerə gecikmək)** to be* late for; **dərsə ~** to be* late for the lesson; **qatara ~** to be* late for the train, to miss one's train; **3.** to stay too long, to linger (on, over)
**gec-tez** *z.* sooner or later, some time or other, early or late
**gecyetirən** *s.* late ripening; late
**gedə-gedə** *z.* going, in motion; **~ yatmaq** to fall* asleep on one's feet
**gedən-gələn** *i.* visitors, callers; guests; passers-by
**gedər-gəlməz** *i. d.d.* exile; Siberia
**gediş** *i.* **1.** going-away / out / off; leaving, departure; **2.** *şahm.* move; **(qumarda)** lead, turn; **Gediş sizindir** *şahm.* it is your move; **(qumarda)** It is your lead; **atla ~** *şahm.* move of the knight; **ağıllı ~** clever move
**gediş-gəliş** *i.* **1.** motion; traffic; comings and goings; **sərnişin ~i** passenger traffic; **küçə ~i** street traffic; **2. (əlaqə)** intercourse; relation; **~i kəsmək** to break* off with *smb.*

**gen I.** *i. biol.* gene [dʒi:n] **II.** *s.* wide, broad; ~ **qapı** wide door; ~ **yol** wide road; ~ **çay** wide / broad river; ~ **tuman** / **yubka** wide skirt

**gen-bol I.** *s.* **1.** spacious, roomy; **(geyim)** loose, wide; ~ **zal** spacious hall; **2.** free; ~ **həyat** free and untrammelled life **II.** *z.* ~ **yaşamaq** to live in easy circumstances, to live a well-to-do life

**gen-bolluq** *i.* **(məkan)** expanse; *məc.* freedom, liberty

**gendən** *z.* afar, from afar, at a distance, from a distance; ~ **baxmaq** to look from a distance

**gendən-genə** *z. bax* **gendən**

**genealogiya** *i.* genealogy

**genealoji** *s.* genealogical; ~ **cədvəl** genealogical table

**general I.** *i.* general; **(familiya qarşısında)** General; **ordu ~ı** general of the Army **II.** *s.* general's; ~ **rütbəsi** generalship, rank of general

**generalissimus** *i.* Generalissimo (*pl.* -os)

**generalitet** *i.* the generals *pl.*, the general officers *pl.*

**general-qubernator** *i.* governor-general

**general-leytenant** *i.* lieutenant-general

**generallıq** *i.* the position of a general

**general-mayor** *i.* major-general

**general-polkovnik** *i.* colonel-general

**generasiya** *i. fiz.* generation

**generator** *i. tex.* generator; **qaz ~u** gas generator / producer; **cərəyan ~u** dynamo; **dəyişən cərəyan ~u** alternator; **sabit cərəyan ~u** direct-current generator

**genetik** *s.* genetic

**genetika** *i.* genetics *pl.*

**genezis** *i.* genesis, origin

**genəldilmək** *f.* to be* widened / broadened

**genəlmək** *f.* to broaden, to widen, to expand, to gain in breadth, to become* widened / broadened; **Çay bu yerdə genəlir** The river broadens (out) at this point

**genəltdirmək** *f.* to ask / to cause *s.o.* to widen (*d.*), to ask / to force *s.o.* to broaden (*d.*); to cause *s.o.* to expand (*d.*)

**genəltmək** *f.* to enlarge (*d.*), to widen (*d.*); to expand (*d.*); **təsir dairəsini** ~ to extend the sphere of influence; **yolu** ~ to widen the road

**geniş I.** *s.* wide, broad, large; spacious, vast; extensive; ~ **qapı** wide door; ~ **yol** wide road; ~ **ekran** broad screen; ~ **dünyagörüşü** broad outlook; ~ **mənada** in the broad sense; ~ **kütlələr** the broad / vast masses; ~ **plan** extensive plan; ~ **tikinti** wide-scale construction; ~ **miqyasda** on a large scale; **elmi nailiyyətlərin ~ tətbiqi** wide / spread adoption of scientific advances; ~ **ailə** a large family; ~ **ürək** *məc.* large heart; ~ **ərazi** / **məkan** vast space; ~ **tanışlıq** extensive acquaintance; ~ **ədəbiyyat** voluminous literature; ~ **zal** spacious hall **II.** *z.* wide, widely; **həm də** *məc.* broadly; ~ **açmaq** to open wide; **gözlərini ~ açmaq** to open one's eyes wide; **Qapılar geniş açılmışdı** The doors stood wide open; ~ **tanınmış** widely-known

**genişalınlı** *s.* (*i.s.*) with a large forehead

**genişekranlı** *s.* wide-screen; ~ **film** wide-screen film

**genişhəcmli** *s.* capacious; large, vast, broad

**genişkökslü** *s.* broad-chested; ~ **kişi** / **adam** a broad-chested man* / person

**genişqəlbli** *s.* open-hearted, broad-minded; ~ **adam** an open-hearted man* / person

**genişqəlbliklə** *z.* broad-mindedly, open-heartedly

**genişqəlblilik** *i.* open-heartedness, broad-mindedness

**genişlədilmək** *f.* to be* widened / broadened, to become* vast / larger

**genişləmək** *f.* to wide (*d.*), to broad (*d.*), to enlarge (*d.*)

**genişləndirmək** *f.* to broaden (*d.*), to enlarge (*d.*), to widen (*d.*); **dünyagörüşünü** ~ to widen the mind; to broaden the outlook; **təsir dairəsini** ~ to extend the sphere of influence

**genişlənmək** *f.* to expand, to dilate, to become* wider / broader; **Qızdırıldıqda metallar genişlənir** Metals expand when they are heated; **Onun gözləri dəhşətdən genişləndi** His / Her eyes dilated with terror

**genişlətdirmək** *f. bax* **genişlətmək**

**genişlətmək** *f.* to cause to become wider / broader / larger

**genişlik** *i.* broadness, largeness, expanse, spaciousness, wide

**geniştəhər** *s.* **(paltar)** loose, easy-fitting; somewhat large / broad
**genişürəkli** *s. bax* **genişqəlbli**
**genişürəklilik** *i. bax* **genişqəlblilik**
**genitmək** *f.* **1. (qovmaq)** to drive* out (*d.*), to turn out (*d.*); to turn out of the house; **2.** ***bax*** **azıtmaq**
**geobotanika** *i.* geobotany
**geodezist** *i.* geodesist
**geodeziya** *i.* geodesy
**geofizika** *i.* geophysics
**geofiziki** *s.* geophysical
**geokimya** *i.* geochemistry [-ke-]
**geokimyəvi** *s.* geochemical [-ke-]
**geologiya** *i.* geology
**geoloji** *s.* geological
**geoloq** *i.* geologist
**geosentrik** *s.* geocentric
**geosentrizm** *i.* geocentrism
**gerb** *i.* arms *pl.*, coat of arms; **Dövlət ~i** State Emblem, National Emblem
**gerçək I.** *s.* true, trustworthy; actual, real **II.** *z.* truly, correctly
**gerçəkdən** *z.* truly, seriously, in earnest; **Siz gerçəkdən danışırsınız?!** Are you serious?!
**gerçəklənmək** *f. bax* **gerçəkləşmək**
**gerçəkləşmək** *f.* to be* going to become true, to become* true / real
**gerçəkli** *z.* truly, really
**gerçəklik** *i.* reality, life; trustworthiness; **müasir ~** present-day reality / life; **imkanı gerçəkliyə çevirmək** to turn possibility into reality; **gerçəkliyə çevrilmək** to become* true, to be* translated into life, to become* a reality
**geri** *z.* back, backwards; **~ addım atmaq** to make* a step back / backwards; **~ vermək / qaytarmaq** to return (*d.*), to give* back (*d.*); **sözünü ~ götürmək** to take* back one's words, to retract; *d.d.* to eat* one's words; **~ baxmaq** to look back; **saatı ~ çəkmək** to put* a watch / a clock back; **~ qalmaq**: 1) to fall* / to drop behind, to lag behind; *məc.* to be* backward, to be* behind; **həyatdan ~ qalmaq** to lag behind life, to fail to keep pace with life; **beş** il **~ qalmaq** to be* five years behind; 2) **(saat)** to be* slow; **Saat on dəqiqə geri qalır** The watch / the clock is ten minutes slow; **~ dönmək** 1) to return, to be* / to come* back; **Mən istəyirəm ki, o geri dönsün** I want him / her to come back; 2) to turn (round); **bir kəsin səsinə ~ dönmək** to turn at *smb.*'s voice; **~ durmaq** to step back; to step aside (from); to walk away (from); **~ düşmək** to fall* / to drop behind, to lag behind; *məc.* to be* behind, to be* behindhand
**geridə** *z.* behind; **~ qoymaq** to leave* (far) behind (*d.*); **Bütün çətinliklər geridə qalıb** All hardships have been left behind
**geridən** *z.* from behind
**geri-geri** *z.* backwards; **~ getmək** to walk backwards, to go* / to move backwards
**geriləmə** *fi.* lag, lagging, behind; **~ni aradan qaldırmaq** to eliminate the lag, to catch* up with the arrears
**geriləmək** *f.* **1.** to fall* / to lag behind; **(bir işi yerinə yetirməkdə)** to be* behindhand; **2. (arıqlamaq)** to lose* flesh, to grow* thin
**gerilətmək** *f.* to cause to fall / to lag behind
**gerilik** *i.* backwardness; lagging behind, lag; **geriliyi aradan qaldırmaq** to catch* up with the arrears
**geriyə** *z. bax* **geri**
**germanist** *i. dilç.* Germanist, specialist in German philology
**germanistika** *i. dilç.* Germanic philology
**germanizm** *i. dilç.* Germanism
**germanium** *i. kim.* germanium
**germetik I.** *s.* hermetic **II.** *z.* hermetically; **~ bağlanmış** hermetically sealed
**gestapo** *i.* Gestapo
**gestapoçu** *i.* one who works at Gestapo
**getdikcə** *z.* gradually, little by little; **(vaxt)** as time goes on; **(məsafə)** as you move on
**get-gedə** *z. bax* **getdikcə**
**get-gəl** *i.* **1.** intercourse; dealings *pl.*; relation, visit; **2.** red tape; procrastination; **~ə salmaq** *bax* **süründürmək**
**gethaget** *i.* **1.** going continually; **2.** disaster, misfortune
**getmək** *f.* **1.** to go*; to walk; **qol-qola ~** to walk arm-in-arm; **işə ~** to go* to work; **kəşfiyyata ~** *hərb.* to go* on reconnaissance; **ova ~** to go* shooting, to go* hunt-

ing; **2. (baş çəkmək)** to go* to see (*d.*), to attend (*d.*), to visit (*d.*); **teatra** ~ to go* to the theatre; **məktəbə** ~ to go* to school; **(oxumaq)** to attend school; **mühazirəyə** ~ to attend lectures; **O hər gün onlara gedir** He / She visits them every day; **3. (çıxıb getmək, yola düşmək)** to leave*, to go* away / off, to depart, to start; **işdən** ~ to leave* work; **vəzifədən** ~ to leave* one's post, to resign one's post; **səhnədən** ~ to leave* stage, to retire from the stage; **Qatar saat** 5-**də gedir** The train leaves / starts / departs at 5

**getməli** *s.* worth going / visiting

**geydirilmək** *f.* **1.** to be* dressed; **2. (taxılmaq)** to be* put on

**geydirmək** *f.* to clothe (*d.*), to dress (*d.*); **O, uşağı geydirdi** He / She dressed the child

**geydirtmək** *f.* **1.** to ask / to cause *s.o.* to put on (*d.*); to ask / to cause *s.o.* to array; **2.** to ask / to cause *s.o.* to be dressed

**geyib-kecinmək** *f.* to dress up, to smarten (oneself) up; to array oneself (in)

**geyilmək** *f.* to be* worn; to be* dressed

**geyim** *i.* clothes *pl.*, garments *pl.*, attire; **(ən yaxşı libas)** array; **üst ~ləri** street-clothes; **iş ~ləri** overalls; **baş ~ləri** head-gear, head-dress; alt **~ləri** underclothes, underclothing, underwear

**geyim-kecim** *i. bax* **paltar**

**geyimli** *s.* dressed; **(gözəl)** arrayed; **mavi** ~ attired in blue, dressed in blue

**geyimli-kecimli** *s.* well-dressed, arrayed

**geyincək** *i. bax* **geyim**

**geyindirib-kecindirmək** *f.* to dress up (*d.*); to attire (*d.*), to dress out (*d.*); to array (*d.* in)

**geyindirmək** *f. bax* **geydirmək**

**geyindirtmək** *f. bax* **geydirtmək**

**geyinib-kecinmək** *f. bax* **geyib-keçinmək**

**geyinikli I.** *s.* full dressed; (*i.s.*) with one's clothes on **II.** *z.* dressedly, with one's dress on

**geyinmək** *f.* to put* on (*d.*), to dress (oneself); **yaxşı** ~ to dress well; to array oneself (in)

**geyişdirmək** *f.* to cause (*d.*) to feel itch

**geyişik** *i.* itch; ~ hiss **etmək** to feel itch

**geyişmək** *f.* to itch; **Onun burnu geyişir** His / Her nose itches

**geymək** *f.* to put* on (*d.*); **(qəşəng)** to array; **O nə geymişdi?** What (clothes) did he / she wear?, What (clothes) had he / she (got) on?

**gəbə** *i.* carpet; rug; ~ **döşəmək** to carpet (*d.*); **sehirli** ~ the magic carpet

**gəbəçi** *i. bax* **gəbətoxuyan**

**gəbərdilmək** *f. kob.* to be* killed / perished

**gəbərmək** *f.* **kob** to die, to perish (with); to fall*; **acından** ~ to die of hunger; to perish with hunger

**gəbərtmək** *f.* **kob** to kill (*d.*), to cause to die (*d.*), to perish (*d.*)

**gəbətoxuyan** *i.* carpet-maker, carpet-weaver

**gəda** *i.* serf, bondsman*, bondman*; *məc.* groveller

**gədalıq** *i.* the state of being serf / bondman*

**gədə** *i.* **1.** *d.d.* boy; **2.** boy servant

**gədə-güdə** *i.* bondmen, grovellers; dishonourable persons, riff-raff

**gədik** *i. bax* **aşırım (1-ci mənada)**

**gəldi-gedər** *s. bax* **müvəqqəti**

**gəldikcə** *z.* gradually, little by little, day by day

**gələcək I.** *i.* the future, time to come; **~də** in the future; **gələcəyə arxayın olmaq** to face the future calmly / confidently, to look ahead calmly / confidently; **Gələcək göstərər** The future will show; **~dən xəbər vermək** to forecast the future **II.** *s.* future; next, coming, forthcoming; ~ **nəsil** the next / coming generation; generation to come, succeeding generation; ~ **hadisələr** forthcoming events; ~ **gün** the day to come; ◊ ~ **zaman** *qram.* the future tense; ~ **zamanın qeyri-müəyyən forması** *qram.* the Future Indefinite Tense form; ~ **zamanın davamedici forması** *qram.* The Future Continuous tense form; ~ **zamanın bitmiş forması** *qram.* The Future Perfect Tense form; ~ **zamanın davam edib bitəcək forması** *qram.* The Future Perfect Continuous Tense form

**gələn** *s.* coming, next; forthcoming; ~ **həftə / ay / il və s.** next week / month / year, *etc.*; ~ **seçki** next election; ~ **mövsüm** coming season; ~ **oğlan** coming boy; ~ **ildə** in the coming year; ~ **iclas** next meeting; ~ **dəfə** next time; ~ **dərsdə** at the next lesson

**gələn-gedən** *s. bax* **gedən-gələn**
**gəl-get** *i. bax* **get-gəl**
**gəl-gəl** *z.*: ~ **demək** to call, to invite, to attract
**gəlib-çatmaq** *f.* to arrive; **Onlar evə gec gəlib çatdılar** They arrived home late
**gəlib-çıxmaq** *f.* to arrive; **Onlar evə gec gəlib çıxdılar** They arrived home late
**gəlib-keçmək** *f.* to come* and to pass
**gəlib-gedən** *s. bax* **gedən-gələn**
**gəlimli** *s.* profitable, gainful, having a gain
**gəlin I.** *i.* **1.** bride, fiancee *fr.* [fi´a:nseı]; ~ **köçürmək** to see* the bride off to the house of the bridegroom; **2. (oğulun arvadı)** daughter-in-law (*pl.* daughters-in-law); **3. (qardaş arvadı)** sister-in-law (*pl.* sisters-in-law) **II.** *s.* bridal; ~ **paltarı** a bridal dress
**gəlincə** *bağ.* as to, as regards; **Mənə *gəlincə*...** As to *me*..., **İkinci məsələyə *gəlincə*...** As regards the second *question*...
**gəlincik** *i.* doll; **(teatrda)** puppet
**gəlir** *i.* income; profit, return; **xalis** ~ net profit; ~ **vermək** / **gətirmək** to bring* in an income; to be* profitable; **illik** ~ annual income; **(dövlətdə)** annual revenue; **milli** ~ national income; **zəhmətsiz** ~ unearned income: **(rüşvət)** bribe
**gəlir-çıxar** *i.* income and expenditure
**gəlirli** *s.* profitable, paying, lucrative, remunerative; **təsərrüfatın** ~ **sahəsi** the profitable branch of the economy; **gəlirli müqavilə** lucrative contract; ~ **iş** lucrative trade
**gəlirlilik** *i.* profitableness; profitability, remunerativeness, lucrativeness
**gəlirsiz** *s.* unprofitable, profitless, unremunerative, unlucrative
**gəlirsizlik** *i.* unprofitableness, unlucrativeness
**gəlirverən** *s. bax* **gəlirli**
**gəliş-gediş** *i. bax* **gediş-gəliş**
**gəlişigözəl I.** *s.* accidental, by chance, unexpected **II.** *z.* accidentally, by chance, unexpectedly
**gəlmək** *f.* **1.** to come*; to arrive; **hakimiyyətə** ~ to come* to power; **nəticəyə** ~ to come* to a conclusion; to arrive at a conclusion; **razılığa** ~ to come* to an agreement / understanding, to come* to terms; **sona** ~ to come* to an end; **dəhşətə** ~ to be* horrified; **ağlına** ~ to occur to *smb.*, to come* into *smb.*'s mind, to cross *smb.*'s mind; **Onun ağlına gəldi *ki*,...** It occured to him *that*..., It came into his mind *that*..., It crossed his mind *that*...; **özünə** ~ to come* to oneself; **huşa** ~ to come* to one's sense, to regain one's consciousness / one's sense; *d.d.* to come* round; **2.** to appear, to present oneself; **məhkəməyə** ~ to appear before the court; **göstərilən vaxt** ~ to present oneself at the fixed / appointed time; **3.** to reach one's ears, to be* heard; to come*; **Qonşu otaqdan səs gəlirdi** Sounds were heard from the next room; **4.** to seem (to); **Mənə elə gələr *ki*,...** It seems to me *that*...; **5.** to fit; **Bu paltar sizə gəlir** This dress fits you; **6.** to weigh; **Bu** 5 ***kq*. gələr** It may weigh 5 *kgs*.
**gəmi I.** *i.* ship, vessel; steamer; liner; **ticarət ~si** merchant ship / vessel; **hərbi** ~ warship, man-of-war; ~ **ilə getmək** to go* a board (the) ship; **yelkənli** ~ sailing ship; **balina ovlaya** ~ whale-boat, whaleship; **balıq ovlayan** ~ fishing-boat; **sərnişin ~si** passenger ship; **yük ~si** freight ship **II.** *s.* naval; ship's; ship; ~ **mühəndisi** naval architect; ~ **heyəti** ship's crew; ~ **tərsanəsi** shipyard, dockyard
**gəmicik** *i.* a small / a little boat
**gəmiçi** *i.* boatswain; *d.d.* bosun [´bousn]
**gəmiçilik** *i.* navigation; seafaring
**gəmiqayıran** *i.* shipwright, shipbuilder, *hərb.* naval architect
**gəmiqayırma I.** *i.* shipbuilding **II.** *s.* shipbuilding; ~ **tərsanəsi** shipbuilding yard
**gəmirici** *i. zool.* rodent; **~lər** *zool.* rodents
**gəmirik** *i.* bite; the mark of gnawing
**gəmirilmək** *f.* to be* gnawed [nɔ:d]
**gəmirişdirmək** *f.* to cause to gnaw each other / one another
**gəmirişmək** *f.* to gnaw [nɔ:] each other / one another
**gəmirmək** *f.* to gnaw (*d.*); **sümük (it və s.)** ~ to gnaw a bone; (*adam.*) to pick a bone
**gəmirtləmək** *f. bax* **gəmirmək**
**gəmirtlənmək** *f.* to be* gnawed
**gənc I.** *i.* youth, youths; **bir dəstə** ~ a group of youths; **ölkənin ~ləri** the youth of the country **II.** *s.* young; ~ **nəsil** the young(er)

generation; ~ **seçicilər** the young electors; ~ **pionerlər** young pioneers; ~ **təbiətçi** young naturalist **III.** *z.* ~ **görünmək** to look young
**gənccəsinə** *z.* youthfully
**gəncləşdirilmək** *f.* to be* rejuvenated (by)
**gəncəşdirmək** *f.* to rejuvenate (*d.*)
**gəncləşmək** *f.* to become* / to grow* / to get* younger, to look younger, to become* rejuvenated
**gənclik I.** *i.* **1.** youth; youthfulness; **ikinci** ~ second youth; **2.** *top. i.* youth, young people **II.** *s.* youthful; ~ **həvəsi** youthful enthusiasm
**gəndalaş** *i. bot.* **1. (meyvə)** elder-berry; **2. (bitki)** elder
**gəndalaşlıq** *i.* elder grove
**gənə** *i. zool.* tick
**gənəgərçək I.** *i. bot.* caster-oil plant **II.** *s.*: ~ **yağı** caster-oil
**gənəli** *s.* (*i.s.*) having tricks
**gənəşmək** *f.* to seek* advice, to ask advice (of); *d.d.* to talk things over (with)
**gənzik I.** *i. anat.* nasopharynx **II.** *s. anat.* nasopharynxal
**gər** *i. bax* **çəkil**
**gərdək** *i.* screen, curtain (used before the bed of the newly-married people); ~ **qurmaq** / **tutmaq** to set* up a screen, to make* bed for newly-married people; **gərdəyə (gərdək dalına) girmək**: 1) to take* oneself off behind the screen, to hide* oneself behind the screen / the curtain; 2) *məc.* to hide* oneself (from)
**gərdəklik** *i.* material of which a screen can be made, material fit for making a screen / a curtain
**gərdən** *i.* the part of the body below neck
**gərdənbənd** *i.* necklace; **brilyant** ~ diamond necklace
**gərdiş** *i. bax* **hərəkət (1-ci mənada)**
**gərək** *mod. s.* **1.** It is necessary (+to *inf.*); **Gərək biz bu kitabı oxuyaq** It is necessary for us to read this book; **2.** It is necessary (*that*.... should); **Gərək kimsə ora getsin** It is necessary that *smb.* should go there; **3.** need (+passive *inf.*); **Gərək bunu ehtiyatla edəsiniz** It needs to be done carefully; **4.** must (+passive *inf.*); **Bu gərək edilsin** It must be done; **5.** to have (+ passive *inf.*) **Bu iş gərək görülsün** This work has to be done; **6.** one should (+*inf.*); **Gərək ehtiyatlı olasan** One should be careful; **7.** ought (+to *inf.*); **Siz gərək həkimə gedəsiniz** You ought to see a doctor
**gərəkli** *s. bax* **lazımlı**
**gərəklilik** *i. bax* **lazımlılıq**
**gərəksiz** *s. bax* **lazımsız**
**gərəksizlik** *i.* uselessness
**gərgin I.** *s.* strained, intense, tense, intensive; ~ **diqqət** strained attention; ~ **münasibət** strained relation; ~ **əmək** intensive work; ~ **sifət** a strained / intense face; ~ **əzələlər** tense muscles; ~ **qayğı** intensive care **II.** *z.* intensively, intensely; hard; ~ **işləmək** to work hard / intensively
**gərginlənmək** *f. bax* **gərginləşmək**
**gərginləşdirilmək** *f.* to be* intensified, to be* sharpened; to be* brought to a head
**gərginləşdirmək** *f.* **1.** to intensify (*d.*), to strain (*d.*), to sharpen (*d.*), to bring* to a head (*d.*); **2. (pisləşdirmək)** to aggravate (*d.*); **münasibətləri** ~ to strain the relations; **əzələni** ~ to strain a muscle
**gərginləşmək** *f.* **1.** to become* intensified / sharp; **2.** to become* aggravated / strained; **Vəziyyət gərginləşib** The situation has become aggravated
**gərginlik** *i.* **1.** tension, tensity; tenseness; **beynəlxalq** ~ international tension; **beynəlxalq gərginliyi zəiflətmək** to ease / to relax / to reduce international tension; **2.** *fiz.* tension; **yüksək** ~ *el.* high tension; **yüksək ~li cərəyan** high tension current; **əsəb gərginliyi** nervous tension; **əzələlərin gərginliyi** tension of muscles
**gərilmə** *fi.* tension, pull; **səthi** ~ *fiz.* surface tension
**gərilmək** *f.* to lengthen out; to stretch
**gərmə** *i.* **1.** kizyak (manure briquettes used for heating); **2.** tension, tensity
**gərmək** *f.* to tense, to stick* out; **əzələlərini** ~ to tense one's muscles; **sinəsini** ~ to stick* out one's chest
**gərməşöv** *i. bot.* guelder rose, snowball tree
**gərnəşmək** *f.* to stretch; **O, yatağından qalxdı və gərnəşdi** He / She got out of bed and stretched
**gəşt** *i. bax* **hərəkət**

**gətirilmək** *f.* to be* brought / carried

**gətirmək** *f.* **1.** to bring* (*d.*), to fetch (*d.*); to carry (*d.*); **geri** ~ to bring* back (*d.*); **Zəhmət olmasa**, **gedin bir parça təbaşir gətirin** Go and fetch a piece of chalk, please; **Onları vağzala taksi gətirdi** A taxi carried them to the station; **2. (məhsul)** to yield (*d.*), to bear* (*d.*); **meyvə** ~ to yield fruit, to bear* fruit; **mənfəət** ~ to be* of use, to give* benefit; **xoşbəxtlik** ~ to bring* luck / happiness; sitat ~ to cite / to make* a quotation; **sübut** ~ to produce proofs; **misal** ~ to give* an example; **dəhşətə** ~ to horrify (*d.*); **normal hala** ~ to restore to a normal state (*d.*); **hərəkətə** ~ to set* / to put* in motion (*d.*), to set* going; **evə** ~ to get* / to take* / to convey (*d.*) home; **(heyvanı)** to drive* home

**gətirtdirmək** *f. bax* **gətirtmək**

**gətirtmək** *f.* to ask / to cause (*d.*) to bring / to fetch (*d.*)

**gətizdirilmək** *f.* to ask / to cause to be brought / fetched

**gətizdirmək** *f. bax* **gətizdirilmək**

**gəvələmək** *f.* **1.** to chew (*d.*), to masticate (*d.*); **2.** to eat* bread (without anything)

**gəvəzə I.** *i.* talker, chatterbox, gas-bag, windbag, blabber(mouth) **II.** *s.* talkative, garrulous **III.** *z.* garrulously; stupidly, foolishly

**gəvəzələmək** *f.* to chatter, to blabber, to talk nonsense

**gəvəzəlik** *i.* talkativeness, blabberness

**gəyirmə** *i.* belching, belch, eructation

**gəyirmək** *f.* to belch

**gəyirti** *i. bax* **gəyirmə**

**gəyirtmək** *f.* to cause *smb.* to belch

**gəzdirmək** *f.* **1.** to lead (*d.*), to conduct (*d.*); **(miniklə)** to drive* (*d.*); **(atı)** to draw* (*d.*); to take out for a walk; **(miniklə)** to take* for a drive (*d.*); **2.** to carry, to wear*; **pulu cibində** ~ to carry one's money in one's pocket; **silah** ~ to bear / to carry arms; **uşağı qucağında** ~ to carry a child in one's arms; ◊ **bir kəsi əli üstündə** ~ to make much of *smb.*

**gəzə-gəzə** *z.* walking, going

**gəzəl** *i.* pomegranate peel

**gəzən** *s.* **1.** wandering, roaming; vagrant; ~ **musiqiçi** vagrant musician; **2.** walking; ~ **xəstə** walking patient

**gəzəyən I.** *i.* **1.** traveller; idler; **2.** a fancy woman, a fallen woman*; **(kişi)** rake, immoral man*, reveller **II.** *s.* **1.** idle; travelling; **2. (qadın)** loose; ~ **qadın** a loose woman*

**gəzəyənlik** *i.* **1.** idleness; **2.** looseness

**gəzhagəz** *z.* **1.** walk constantly / continually; **2. (axtarmaq)** to look for (*d.*) for a long time, to seek* (*d.*) for a long time

**gəzib-dolanmaq** *f. bax* **gəzib-dolaşmaq**

**gəzib-dolaşmaq** *f.* to travel, to tour, to make a journey, to go* on a trip; **Avropanı** ~ to be* on trip to Europe; **dünyanı** ~ to journey all over the world

**gəzinə-gəzinə** *z. bax* **gəzə-gəzə**

**gəzinmək** *f.* to walk up and down; to walk along; to have* a walk, to pace up and down, to go* to and fro; **otaqda** ~ to pace up and down the room; **platformada** ~ to go* to and fro on the platform

**gəzinti** *i.* walk, taking a walk, walking; picnic, airing; outing; **(miniklə)** drive; (atla) ride; **(qayıqla)** sail; **(xizəklə)** ski [ski:]; trip; **bayram ~si** festival, outdoor fete; **xalq ~si** public merry making; **~yə getmək** to go* for a walk; **(çöldə)** to go* on a picnic

**gəzişə-gəzişə** *z. bax* **gəzə-gəzə**

**gəzişmək** *f.* to go* to and fro; to pace up and down; to have* / to take* a walk; **parkda** ~ to have* a walk in the park; **blatformada** ~ to go* to and fro on the platform

**gəzmək** *f.* **1.** to walk, to have* / to take* a walk, to be* out for a walk; **2.** to walk about, to stroll about; **3.** to travel all over, to have* a trip / journey; **dünyanı** ~ to travel all over the world; **4.** to roll, to roll about; **(miniklə)** to drive* about; **(atla)** to ride; **5. (axtarmaq)** to look for (*d.*)

**gəzməli** *s.* worth visiting / travelling / walking

**gic I.** *i.* crank, fool, eccentric (person); queer fish, idiot **II.** *s.* fool, foolish, stupid, silly; idiotic; ~ **olmaq** *bax* **gicləşmək III.** *z.* foolishly, stupidly, idiotically

**gicbaş** *i. bax* **gicbəsər**

**gicbəsər I.** *i.* fool, idiot, blockhead, idlehead **II.** *s.* silly, doltish, stupid, unwise; ~ **adam** a stupid man*

**gicbəsərlik** *i.* foolishness, foolery, stupidity

**gicgah** *i.* temple
**gic-gic** *z.* foolishly, idiotically, stupidly; **~ danışmaq** to speak* idiotically / foolishly / stupidly
**gicəlləndirici** *s.* giddy [gı-], dizzy; **(müsbət mənada)** stunning; **~ hündürlük** giddy / dizzy height; **~ müvəffəqiyyət** dizzy / giddy success
**gicəlləndirmək** *f.* to dizzy, to make* dizzy, to cause dizziness / giddiness (*d.*), to stupefy (*d.*)
**gicəllənmək** *f.* to be* dizzy, to go* round; I'm dizzy **Mənim başım gicəllənir** My head is going round
**gicəllətmək** *f.* *bax* **gicəlləndirmək**
**gicəlmək** *f.* to feel* giddy, to be* giddy; to be* dizzy; **Mənim başım gicəlir** I feel giddy, My head is swimming
**gicəltmək** *f.* *bax* **gicəlləndirmək**
**gicikmək** *f.* to play fool, to fool (about)
**giciştdirmək** *f.* to cause to itch (*d.*)
**gicişmək** *f.* to itch; ◊ **bir işi görmək üçün əlləri ~** to itch one's hand (+to *inf.*), to be* itching to do *smth.*
**gicitkən** *i. bot.* nettle
**gicitkənanası** *i. bot.* dead-nettle
**gicitkənli** *s.* (*i.s.*) with nettle, (*i.s.*) having nettle
**gicitkənlik** *i.* bed of nettles, area overgrown with nettles
**gicləşmək** *f.* **1.** to become* idiotic / stupid, to go* crazy; **2.** to act idiotically / foolishly; to speak* idiotically / foolishly
**giclik** *i.* idiocy, imbecility; **~ etmək** to act idiotically / stupidly / foolishly
**gictəhər I.** *s.* silly, doltish, imbecile, not very bright; **~ oğlan** dull / silly boy; **~ görkəm** silly / inane look; **~ oğlan** imbecile fellow **II.** *z.* stupidly, inanely, doltishly
**gictəhərlik** *i.* dullness, doltishness, inanity
**gigiyena** *i.* hygiene [ˈhaɪdʒi:n]; **əmək ~sı** occupational hygiene
**gigiyenik** *s.* hygienic [ˈhaɪdʒi:nɪk]
**gil I.** *i.* clay **II.** *s.* clayey [ˈkleɪɪ]; earthen; **~ torpaq** clayey soil; **~ qab** earthenware crockery; **~ məmulatı** earthenware, pottery
**gilas I.** *i.* (sweet) cherries *pl.*; **(ayrıca meyvə)** (sweet) cherry **II.** *s.* cherry; **~ ağacı** cherry tree; **~ mürəbbəsi** cherry preserve / jam
**gilaslıq** *i.* cherry-orchard, cherry grove
**gilavar** *i.* south-west wind (from the Caspian sea)
**gildir-gildir** *z.* *bax* **gilə-gilə**
**giley** *i.* grumble; complaint; **~ etmək** to grumble, to make* a complaint (to, about), to lodge a complaint (with, about)
**giley-güzar** *i.* *bax* **giley**; **~ etmək** *bax* **gileylənmək**
**giley-güzarçı** *i.* grumbler, complainer
**gileylənmək** *f.* to grumble, to complain, to make* a complaint (to, about)
**gileyli** *s.* displeased, dissatisfied; **~ olmaq** to be* dissatisfied, to be* displeased
**gilə** *i.* **1.** drop; **bir ~ də** not a drop, not a bit; **bir ~ səbri olmaq** to have* a little patience; **2.** separate seeds of pomegranate, grape, *etc*. **3. (gözdə)** pupil (of the eye); **4. (məmədə)** nipple, pap
**gilə-gilə** *z.* drop by drop
**gilələmək** *f.* to separate fruit from its rind / peel
**gilələnmək** *f.* to be* separated from its **(üzüm)** cluster / **(nar)** peel
**gilələtdirmək** *f.* *bax* **gilələtmək**
**gilələtmək** *f.* to ask / to cause smb to separate fruit from its rind / **(üzüm)** cluster
**giləmeyvə** *i.* berry; **~ yığmaq** to gather berries
**gilənar I.** *i.* *bax* **albalı I II.** *i.* *bax* **albalı II**
**gilənarlıq** *i.* cherry-tree grove, cherry-tree orchard
**giliz** *i.* **(patronda)** cartridge-case; **(papirosda)** cigarette-wrapper
**gillədə-gillədə** *z.* rolling
**gillədilmək** *f.* to be* rolled
**gillənmək I.** *f.* to roll; **Çəllək gilləndi** The barrel rolled **II.** *f.* *bax* **gilləşmək**
**gilləşmək** *f.* to become* / to get* clay, to turn into clay
**gillətmək** *f.* **1.** to roll (*d.*); to cause to roll (*d.*); **2.** *məc. d.d.* to drink* off at one draught / gulp / go (*d.*)
**gillətdirmək I.** *f.* *bax* **gillətmək** *f.* **I II.** *f.* *bax* **gillətmək** *f.*
**gilli** *s.* clayey, clay; **~ torpaq** clayey soil; *elm.* loam
**gillik** *i.* clayey place / soil
**gimnast** *i.* gymnast; **~ların çıxışı** gymnastic display

**gimnastik** *s.* gymnastic; ~ **hərəkətlər** gymnastic exercises, gymnastics
**gimnastika** *i.* gymnastics; **(məktəbdə)** drill
**gimnastyorka** *i.* field shirt
**gimnazist** *i.* **(oğlan)** grammar school boy, high school boy; **(qız)** grammar school girl, high school girl
**gimnaziya** *i.* grammar school, high school, gymnasium; ◊ **klassik** ~ classic school, classical education gymnasia
**ginekologiya** *i.* gynaecology [-nı-]
**ginekoloji** *s.* gynaecological; ~ **xəstəliklər** women's diseases
**ginekoloq** *i.* gynaecologist [-nı-]
**gip-girdə** *s.* **1.** quite round; **2. (adam** *haq.***)** *d.d.* stout, fat, short and stout
**gips** *i.* **1.** gyps(um); **2. (cərrahlıqda və s. işlədilən)** plaster (of Paris); **qolu ~ə qoymaq** to put* the arm in plaster / in a plaster cast; **3. (heykəltəraşlıqda işlədilən)** plaster cast
**gipsləmək** *f.* **(müxtəlif mənalarda)** to plaster (*d.*); **(torpağı)** to gypsum (*d.*)
**gipslənmək** *f.* to be* plastered; **(torpaq** *haq.***)** to be* gypsumed
**gipsləşmək** *f.* to get* / to become* plastered, to turn into plaster
**gipslətdirmək** *f. bax* **gipslətmək**
**gipslətmək** *f.* to ask / to cause *s.o.* to plaster (*d.*); **(torpağı)** to ask / to cause *s.o.* to gypsum (*d.*)
**gipsli** *s.* plastered, mixed with plaster, gypseous
**girdab** *i. bax* **burulğan**
**girdə** *s.* round, circular; ~ **boşqab** a round plate
**girdəcə** *s.* roundish
**girdələmək** *f.* to make* round (*d.*)
**girdələndirmək** *f. bax* **girdələmək**
**girdələnmək** *f.* to get* / to become* round
**girdələşmək** *f. bax* **girdələnmək**
**girdələtdirmək** *f. bax* **girdələtmək**
**girdələtmək** *f.* to ask / to cause *s.o.* to make round (*d.*)
**girdəsifət** *s.* round faced, chubby; ~ **uşaq** a round faced child*
**girdəsifətli** *s.* round faced, (*i.s.*) with round face
**girdəüz** *s. bax* **girdəsifət**
**girdəüzlü** *s. bax* **girdəsifətli**
**girdin** *i.* log; billet
**girdirmək** *f.* to pass through (*d.*), to thrust (*d.*), to put* in (*d.*), to push, to make* a push
**girər-girməz** *z.* **Otaqda girər-girməz o məni gördü** As soon as I entered the room, he / she saw me
**girəvə** *i.* chance, opportunity; occasion; ~ **düşmək** to have* chance / opportunity; **~yə salmaq** to choose* an opportunity, to seek* for chance, to choose* the right moment / time
**girəvələmək** *f.* to take* an opportunity, to use every possible chance, to choose the right moment / time
**girgi** *i. bax* **sancı**
**giriftar** *s. bax* **düçar**
**girinc** *s.* ~ **olmaq** to tire oneself out, to exhaust oneself; to be* sick (of); ~ **etmək** to bore (*d.* with), to exhaust (*d.*); **(xahişlə və s.)** to importune (*d.*), to bother (*d.* with); **O məni lap girinc edib** I am bored to death with him / her
**girinti** *i.* hollow, cavity; depression
**girinti-çıxıntı** *i.* bend, unevenness; **(***xüs.* **sümükdə)** sinus
**girintili-çıxıntılı** *s.* uneven, sinuous, not flat / smooth / plane
**giriş** *i.* **(kitabda və s.)** preface, introduction; **(nitqdə)** preamble, opening, introductory remarks *pl.*
**girişdirmək** *f.* to set* to work / to do* some action; to push (*d.*)
**girişmək** *f.* to set* to do some work (on), to set* about (+*ger.*), to tackle (*d.*), to start (+*ger.*), to begin* (+to *inf.*, or *ger.*) to set* about working, to start working; **bir problemi həll etməyə** ~ to tackle a problem
**girləmək** *f.* to follow (*d.*); to watch (*d.*), to be* after (*d.*); ◊ **başını** ~ 1) to live somehow / in some way / by some means; 2) to spend* one's time in vain, to do* no work
**girlənmək** *f.* **1.** to stray, to wander; **2.** to live somehow / in some way
**girmək** *f.* **1.** to enter, to go* in, to come* in; **otağa** ~ to enter the room, to go* into the room; **limana ~ (gəmi)** to sail / to steam into the port, to enter the harbour; **əlaqəyə** ~ to enter into relation (with); rola ~ to

feel* at home in one's role, to enter into one's role; **2.** to call (on), to drop in (at); **instituta ~ (binaya)** to call at the institute; **(oxumaq üçün)** to enter the institute; **yolüstü ~** to drop in on the way / when passing by; **O, dükana girməlidir** He / She must look in at the shop; **3.** to join (*d.*), to enter (*d.*); **partiyaya ~** to join the party; **vuruşa ~** to join battle; **itttifaqa ~** to ally oneself (with), to enter into an alliance (with); **4.** to go* to work (for), to join (*d.*), to enter (*d.*); **universitetə ~** to join / to enter the university; **məktəbə ~** to enter the school, to go* the school; **işə ~** to go* to work; **5.** to get* (into); **suya ~** to get* into water; ◊ **bir kəsin qəlbinə ~** to worm oneself into *smb.*'s confidence; ◊ **gözə ~** to hang* round, to make* a nuisance of oneself; **6. (parça)** to shrink

**girov** *i.* **1.** guarantee, deposit; **(pul)** security; caution (money); **~ qoymaq** to leave* as deposit; **2. (adam)** hostage; **~ saxlamaq** to take* hostage (*d.*)

**giş** *i.* canvas, linen; sackcloth

**gitara** *i.* guitar [gɪ-]

**gitaraçalan** *i.* guitarist [gɪ-]

**gitaraçı** *i. bax* **gitaraçalan**

**giyişmək** *f.* to itch; **Onun burnu giyişir** His / Her nose itches

**gizildəmək** *f.* to ache [eɪk]; to be* sick; **Onun qolu gizildəyir** His / Her arm aches

**gizildətmək** *f.* to cause (*d.*) to ache, to cause (*d.*) to be sick

**gizilti** *i.* pain; stab, pang; **kədər ~si** pang / stab of sadness

**gizlədilmək** *f.* to be* hidden, to be* concealed

**gizləmək** *f.* **1.** to hide* (*d.*), to conceal (*d.*); **cinayətkarı ~** to hide* / to conceal a criminal; **2.** to keep* back (*d.*); (hissini) to keep* to oneself, to dissemble (*d.*), to cover (*d.*); **bir kəsdən nəsə ~** to keep* *smth.* from *smb.*; **acığını ~** to hide* / to dissemble one's anger; **narahatlığı ~** to cover one's anxiety; **bir kəsin ölümünü bir kəsdən ~** to conceal *smb.*'s death from *smb.*; **öz adını ~** to conceal one's name

**gizlənmək** *f.* to hide* (oneself) (from); **Partizanlar meşədə gizləndilər** The guerrillars hid in the forest

**gizlənpaç** *i.* (a kind of children's game) hide-and-seek; **~ oynamaq** to play hide-and-seek; *məc.* to play a shifty game

**gizlətdirmək** *f.* to ask *s. o.* to hide (*d.*) / to conceal (*d.*), to cause *s. o.* to hide (*d.*)

**gizlətmək** *f. bax* **gizləmək**

**gizli I.** *s.* **1.** secret; **(sənəd)** confidential; **~ əmr** secret order; **~ iclas** secret meeting; **~ kəbin** secret / clandestine marriage; **~ arzu** secret / unavowed dream; **~ ümid** secret hope; **~ səsvermə** (secret) ballot; **2.** illegal, underground, secret; **~ təşkilat** secret / underground organization; **~ iş** secret / underground work; **~ fəaliyyət** secret activity; **~ mətbəə** secret / underground press; **3.** intimate; **~ dostlar** intimate friends **II.** *z.* secretly, covertly, in secret; **tam ~** with great secrecy, top secret

**gizli-gizli** *z. bax* **gizli III**

**gizlin I.** *s. bax* **gizli I II.** *z. bax* **gizli II**

**gizlincə** *z.* in secret, in an underhand way, secretly; **Planlar gizlincə hazırlandı** Plans were made in secret / secretly

**gizlinlik** *i.* secrecy; intimacy

**gonbul I.** *i.* stout / fat / corpulent man*; **(gənc oğlan)** fat boy / fellow **II.** *s.* stout, fat, corpulent

**gonbulluq** *i.* stoutness, fatness, corpulence, corpulency

**gop** *i.* boast, bragging; **(boş danışıq)** twaddle; **(uydurma)** tittle-tattle; **~a basmaq (özü barədə)** to boast (of, about), to brag (of, about); **Ona inanmayın, gopa basır** Don't believe him, he is just boasting; **Gopa basma!** Don't brag!

**gopcul** *s. bax* **gopçu II**

**gopçu I.** *i.* boaster, bragger; liar, show-off **II.** *s.* boastful, vainglorious; **~ adam** a boastful / vainglorious man* / person

**gopçuluq** *i.* boasting, bragging, vainglory

**goplamaq** *f.* **1. (yalan danışmaq)** to lie, to tell* lies, to talk at random, to talk through one's hat *idiom.*; **2. (özünü tərifləmək)** to brag

**gor** *i. bax* **qəbir I**

**gorbagor** *i.* **(söyüş)** cursed, damned; **~ olmaq** to die, to pass away / on / over; **~ etmək** to kill (*d.*), to perish (*d.*)

**goreşən** *i. zool.* **1.** hyena; **2.** *d.d.* an ill person / man*

**göbək** *i.* **1.** navel, *tib.* omphalos; *anat.* umbilicus; **göbəyə qədər** / **kimi** till navel, up to the waist; waist-deep; **göbəyə qədər qar içində olmaq** to be* waist-deep in snow; ~ **atmaq (oynaaq)** to dance the belly-dance; ~ **bağlamaq** to develop a paunch, to become* fat / stout; **göbəyi bir yerdə kəsilmək (yaxın dost olmaq)** to be* bosom / inseparable friends; **göbəyini kəsmək (uşağın)** to cut* the navel-string; **göbəyi bitişik olmaq** *məc.* to be* always together, to do* everything together; **göbəyi düşmək** 1) to develop an umbilical / hernia; 2) to injure one's navel by taking heavy things; **göbəyi piylənmək** *bax* **kökəlmək**; **2.** heart, centre; ◊ **şəhərin göbəyində** in the heart / centre of the city; ◊ **dünyanın göbəyi** the hub of the universe

**göbəkbağı** *i. anat.* navel-string; **~nı kəsmək** to cut* the navel-string

**göbəkli** *s.* paunchy, stout, fat, (*i.s.*) having a paunch; ~ **adam** stout / fat / paunchy man* / **(qadın)** woman*

**göbələk I.** *i.* **1. yeməli)** mushroom; **(zəhərli)** toadstool; ~ **yığmaq** to mushroom; ~ **yığmağa getmək** to go* mushroom-picking; **2.** *biol.* fungus (*pl.* -gi); ◊ ~ **kimi inkişaf etmək** to spring* up all over, to mushroom; **Son zamanlar Bakıda mağazalar göbələk kimi artır** Shops have mushroomed in Baku recently **II.** *s.* **1.** mushroom; ~ **şorbası** mushroom soup; ◊ ~ **yağışı** the rain that makes the mushrooms grow; **2.** fungous; ~ **xəstəliyi** fungous disease

**göbələklik** *i.* a good spot for picking mushrooms, a place teeming with mushrooms

**göbələkşəkilli** *s. bax* **göbələkvarı**

**göbələkvarı** *s.* mushroom like, mushroom-shaped

**göbələkvarılıq** *i.* the state of being mushroom-shaped / mushroom like

**gödək I.** *s. bax* **qısa I II.** *z. bax* **qısa II**

**gödəkboy** *s. bax* **qısaboylu**

**gödəkboylu** *s. bax* **qısaboylu**

**gödəkcə** *i.* waistcoat

**gödəkcəli** *s.*: ~ **qadın** a woman in a waistcoat

**gödəkqol** *s. bax* **qısaqol**

**gödəkqollu** *s. bax* **qısaqollu**

**gödəklik** *i. bax* **qısalıq**

**gödəkyun** *s. bax* **qısayun**

**gödəkyunlu** *s. bax* **qısayunlu**

**gödəlmək** *f. bax* **qısalmaq**

**gödəltdirmək** *f. bax* **qısaltdırmaq**

**gödəltmək** *f. bax* **qısaltmaq**

**gödən** *i. anat.* belly, stomach; **yekə ~ olmaq** to eat much, to be* gourmand / a glutton

**gödənqulu I.** *i. bax* **qarınqulu I II.** *s. bax* **qarınqulu II**

**gödərək** *s.* undersized, shortish

**göl I.** *i.* lake; **duzlu** / **şor** ~ salt lake; **süni** ~ artificial lake; **təbii** ~ natural lake **II.** *s.* lake; ~ **suyu** lake water; ~ **sahili** bank (of the lake)

**göllındirmək** *f.* to dam up (*d.*); **suyu** ~ to dam (up) the water

**göllənmək** *f.* to form a lake / a pool; **Su göləndi** The water formed a pool / a lake

**gölləşmək** *f.* **1.** to pond back, to pond up; **2.** to form a lake

**göllük I.** *i.* lake-country, lake-land **II.** *s.* lake, laky; ~ **ölkə** lake-country, lake-land, lake district

**gölmə** *i. bax* **gölməçə**

**gölməçə** *i.* lakelet, pond

**gölməçələnmək** *f.* to form a lake, to become* a lake

**gömdürmək** *f. bax* **basdırmaq (1-ci mənada)**

**gömgöy** *s.* dark-blue, deep-blue

**gömmək** *f. bax* **basdırmaq (1-ci mənada)**

**gömrük I.** *i.* duty; customs *pl.*; ~ **qoymaq** / **almaq** to impose tax (on), to tax (*d.*); **idxal gömrüyü** import duty; ixrac **gömrüyü** export duty **II.** *s.* ~ **tarifi** customs tariff; ~ **alan** customs official / officer; ~ **yoxlaması** customs examination; ~ **deklarasiyası** customs declaration

**gömrükçü** *i.* customs official, custom-house officer

**gömrükxana** *i.* custom-house

**gömülmək** *f. bax* **basdırılmaq (2-ci mənada)**

**gön** *i.* **(insan və heyvanda)** skin; **(iribuynuzlu heyvanda)** hide; **buzov ~ü** calfskin; ◊ **~ü suya vermək** to spoil everything; **~ünü soymaq**; 1) to skin (*d.*); 2) *məc.* to take* everything one has; to punish severely / mercilessly

**göndərilmək** *f.* to be* sent; **(məktub)** to be* posted

**göndəriş** *i.* notice, notification; (*hüq.*) summons; **(əsgərliyə getmək üçün)** call-up papers *pl.*

**göndərmək** *f.* to send* (*d.* to), to dispatch (*d.* to); **bir kəsi həkim dalınca ~** to send *smb.* for the doctor; **bir kəsi ezamiyyətə ~** to send* *smb.* on a mission; **bir şeyi poçtla ~** to send* *smth.* by post; **pulu poçtla / teleqrafla ~** to remit (money); **bir kəsə salam ~** to send* greetings to *smb.*; **geri ~** to send* back (*d.*); **məktub ~** to send* / to dispatch a letter; **dəvətnamə ~** to dispatch invitation; **uşağı mağazaya ~** to dispatch a child to the shop

**göndərtdirmək** *f. bax* **göndərtmək**

**göndərtmək** *f.* to ask / to cause *smb.* to send (*d.*) / to dispatch (*d.*)

**gönüqalın** *s.* **1.** *zool.* pachydermatous; **~ heyvan** pachyderm; **2.** *məc.* thick-skinned; **(laqeyd)** unfeeling, case-hardened

**gönüqalınlıq** *i.* **1.** *məc.* unfeelingness; case-hardenedness; **2.** The state or quality of being pachydermatous

**gördürmək** *f.* **1.** to cause *smb.* to see; **2.** to cause *smb.* to do (*d.*), to force *smb.* to carry out some work

**görə** *bağ.* **1.** according to, in accordance with; **məsləhətə ~** according to the advice; **vəziyyətə ~** in accordance with one's position; **dəbə ~** according to fashion, after the fashion; **qərara ~** in accordance with the decision; **2.** thanks to, owing to; **fakta ~** thanks to the fact

**görkəm** *i.* air, appearance, look, aspect; **Otağın səliqəli görkəmi var** The room looks tidy; **Onun görkəmi xoşagələn deyildi** He / She had a disagreeable appearance There was a disagreeable air about him; **ciddi ~ almaq** to assume a grave air; **~inə görə mühakimə yürütmək** to judge by appearance

**görkəmli** *s.* **1.** notable, remarkable; eminent; distinguished, prominent; **~ aktyor** distinguished actor; **~ şair** a notable poet; **~ həkim** an eminent doctor; **~ qələbə** notable victory; **2. (xarici görkəmcə)** imposing, dignified, impressive; **~ adam** dignified / impressive man*, man* of impose / dignified appearance

**görkəmlilik** *i.* imposing / dignified / impressive appearance; prominence, prominency

**görkəmsiz** *s.* **(xüsusən sifətdən)** ill-favoured, unattractive; plain, homely, not much to look at; **(əşya)** unsightly

**görkəmsizlik** *i.* homeliness, plainness; unsightliness

**görmək** *f.* **1.** to see* (*d.*); **ötəri ~** to catch* a glimpse (of); **yuxu ~** to dream*, to have* a dream; **Siz orada bir şey görürsünüzmü?** Do you see anything there? **yuxuda ~** to dream* (of, that); **Sizi görməyimə şadam!** (I am) glad to see you!; **2.** to notice (*d.*); **(müşahidə etmək)** to observe (*d.*), to sight (*d.*), to catch* sight (of); **O, bağda iki uşaq gördü** He / She noticed two children in the garden; ◊ **iş ~** to carry out some work, to do* some work

**görməli** *s.* worth seeing, worth to see; **(maraqlı)** interesting; **gəlməli ~** worth coming and seeing, interesting to come and to see; **~ yerlər** places of interest; **~ yerlərə baxmaq** to go* sightseeing

**görməmiş** *s.* greedy; avid; **~ olmaq** to be* greedy; **~ kimi** greedily; **~ kimi yemək** to eat* greedily (*d.*), to gobble (*d.*)

**görməmişlik** *i.* greediness, avidity; **~ etmək** to act avidly / tactlessly

**görsənmək** *f. bax* **görünmək**

**görsətmək** *f. bax* **göstərmək**

**görükmək** *f. bax* **görünmək**

**görünmək** *f.* **1. (özünü göstərmək)** to show oneself; **(gözə görünmək)** to come* in sight; to show* up; **gözə ~ (üzə çıxmaq)** to emerge, to appear; **bir kəsin gözünə ~** to appear in *smb.*'s presence; **2.** to be* seen; **Uzaqda göl görünür** A lake is seen in the distance; **3.** to seem (to), to appear (to); **O ağıllı görünür** He / She seems to be *clever*. He / She seems clever; **O, qoca görünür** He / She looks old; **Bu sizə qəribə görünə bilər** It may seem strange to you; **4. (şəxssiz** *cüm.***)** It seems *that*...; **Görünür, o razıdır** He / She seems to be pleased; **Görünür yağış yağacaq** It seems that it will *rain*. It looks like rain; **Görünür ki,...** Apparently, To all appearance, Evidently

**görünməz** *s.* invisible; **(çox xırda)** imperceptible; ~ **adam** invisible man*

**görünüş** *i.* **1. (peysaj)** view; **öndən** ~ front view; **yandan** ~ side view; **ümumi** ~ general view; **2.** air, appearance, look; **Onun görünüşü xoşagələn deyil** He / She has a disagreeable *appearance*. There is a disagreeable air about him / her

**görüş** *i.* **1.** meeting; **(rəsmi)** visit, call; **dostluq ~ü** goodwill visit; **rəsmi** ~ duty call, official visit; **bir ölkəyə ~ə gəlmək** to be* on an official visit to a country; **seçicilərlə** ~ meeting with one's constituents; **2. (sevgililərin görüşü)** rendezvous [ˈrɔndivu:]; *amer.* date; ~ **təyin etmək** to make* a rendezvous; **bir kəslə ~ təyin etmək** to fix / to make* an appointment with *smb.*; **~ə gəlmək** to keep* an appointment / date; **~ə getmək** to go* out on date; **3.** view, outlook; **dünya ~ü** world outlook; **(ideologiya)** ideology; **4.** *id.* match

**görüşmək** *f.* **1.** to see* each other, to meet*; **(təsadüfən)** to come* across, to encounter; **2.** to greet each other / one another; **bir kəslə gec-gec** ~ to meet* *smb.* seldom; **bir kəslə tez-tez** ~ to meet* *smb.* frequently / often

**göstərici** *i.* **1.** indicator, showing; **yaxşı** ~ a good indicator; **pis** ~ a bad indicator; **mədəni səviyyənin ~si** indicator of the cultural level; **əla ~lər** splendid showing *sing.*; **yaxşı ~lərə nail olmaq (işdə)** to make* a good showing; **(təhsildə)** to make* good progress; **2.** *riyaz.* exponent, index (*pl.* indexes or indices); **əlifba ~sı** alphabetical index; **kəmiyyət və keyfiyyət ~ləri** quantitative and qualitative indices, indexes; **3.** *tex.* indicator; **(əqrəb)** pointer; **4. (yol)** road-sign

**göstərilmə** *fi.* showing, demonstration; display

**göstərilmək** *f.* to be* shown / demonstrated / displayed

**göstəriş** *i.* **1.** instructions *pl.*; **2.** directions *pl.*; ~ **vermək** to give* instructions; ~ **almaq** to get* instructions

**göstərmək** *f.* **1.** to show* (*d.* to, *d.*); to indicate (*d.*); **(nümayiş etdirmək)** to demonstrate (*d.*), to display (*d.*); **özünü** ~ to show* oneself; to put* one's best foot foremost; **özünü zəhmətdə** ~ to prove one's worth in labour; **igidlik** ~ to display courage; **yol** ~ 1) to show* the way, to indicate the way; **hərarət** ~ to indicate the temperature; 2) **(məsləhət vermək)** to give* advice; **qüsurları** ~ to point out the defects; **bilet** ~ to show* the tickets; **sənəd** ~ to show* one's document; **sübut** ~ to show* / to present proofs; **2. (cihaz)** to show*, to register, to read*; **Termometr mənfi 8 dərəcə göstərir** The thermometer shows / reads 8 degrees below zero; **3. (şahidlik etmək)** to testify (*d.*), to give* evidence (of), to bear* witness; **Sizə göstərərəm! (hədə)** I'll show you! ◊ **bir kəsə qapını** ~ **(otaqdan çıxarmaq)** to show* *smb.* the door

**göt** *i. tab.* **1.** arse, bottom; **~ü üstə yıxılmaq** to fall* on one's bottom; **vedrənin / qazanın ~ü** the bottom of the bucket / pot; *d.d. amer.* ass; **2.** *anat.* anus

**götür-qoy** *z.* ~ **etmək** to think* over (*d.*), to discuss (*d.*), to debate (*d.*); **bir şeyi əvvəlcədən** ~ **etmək** to think* *smth.* over in advance; **O, bu məsələni əvvəlcədən götür-qoy etməlidir** He / She must think the matter over in advance; ~ **edilmək** to be* thought over, to be* discussed

**götürmək** *f.* **1.** to take* (*d.*); bilet ~ to take* / to book tickets; **əsir** ~ to take* prisoner; **zaminə** ~ to go* bail (for); **başlanğıcını** ~ to originate (in, from); **uçota** ~ to register; **bir şey üçün üzərinə məsuliyyət** ~ to assume responsibility of *smth.*; ◊ **bir kəsdən nümunə** ~ to follow / to take* *smb.*'s example; **2. (qaldırmaq)** to lift (*d.*); **daş** ~ to lift a stone; **3. (yerə düşən bir şeyi götürmək)** to pick up (*d.*); **4. (işə)** to engage (*d.*); **5. (oğulluğa, qızlığa)** to adopt (*d.*); **uşağı övladlığa** ~ to adopt a child; **6. (qəbul etmək)** to admit (*d.*); **Onu universitetə götürüblər** He / She was admitted to the university; **7. (dəfn etmək)** to bury (*d.*)

**götürtdürmək** *f. bax* **götürtmək**

**göturtmək** *f.* **1.** to cause *smb.* to take (*d.*); **2. (qaldırtmaq)** to force *smb.* to lift (*d.*) / to pick up (*d.*) / **(övladlığa)** to adopt (*d.*)

**götürülmək** *f.* **1.** to be* taken; **2. (qaldırılmaq)** to be* lifted / picked up; **3. (instituta və s.)** to be* admitted; **(övladlığa)** to be* adopted; **4. (qaçmaq)** *d.d.* to dart out, to fly* out / away; **5. (dəfn edilmək)** to be* buried; **Cənazə saat beşdə götürüləcək** The funeral cortege will start at five

**gövdə** *i.* **1.** body; figure, stature; frame; trunk; **2. (gəminin)** hull; **3.** *bot.* trunk, bole; **ağacın ~sı** the trunk / bole of a tree; **4.** *tex.* frame, framework; **maşının ~sı** the frame of a car

**gövdəli** *s.* **1. (yaxşı mənada)** wellbuilt, shapely, stately; **~ xanım** stately lady; **2. (yekəpər)** bulky

**gövdəsiz** *s.* (*i.s.*) without trunk / bole, (*i.s.*) having no trunk / bole

**gövdəsizlik** *i.* **1.** the state or quality of being without trunk **2.** the state or quality of being without bole / trunk

**gövhər** *i.* a kind of precious stone

**gövşək** *i.* rumination; **(çeynəmə)** mastication

**gövşəmək** *f.* to ruminate; **(çeynəmək)** to chew (*d.*), to masticate (*d.*)

**gövşəyən** *s.*: **~ heyvan** ruminating animal, ruminant; **İnək gövşəyəndir** The cow is a ruminant

**göy I.** *i.* **(səma)** (the) sky; heaven; **~lər** the heavens; **~də** in the sky; **~dən düşmək** to fall* from the moon, to drop from the clouds; *d.d.* to appear / to come* out of the blue; **bir kəsi ~lərə qaldırmaq (tərifləməklə)** to extol / to laud / to praise *smb.* to the skies; ◊ **~ün yeddinci qatında olmaq** *d.d.* to be* in the seventh heaven / sky; **yer ~ qədər fərqli** as far removed as heaven from earth; **Göy qaralır** It is getting dark; ◊ **~də almaq / götürmək** to buy* up (*d.*); ◊ **~də alınmaq / satılmaq** *d.d.* to be* sold like hot cakes; **Bu kitab göydə alınacaq** This book will be sold / bought like hot cakes; **~də axtarmaq** to try / to endeavour to get (*d.*); **~də razı olmaq** to agree easily / without doubt; ◊ **~dən od yağmaq** to be* very hot; ◊ **~dən od yağdırmaq (günəş)** to heat intolerably; **~ə sovurmaq** to destroy completely (*d.*); **~ə sovrulmaq** to be* destroyed completely, to be* collapsed; **~ə çəkilmək** 1) to become* deficient; 2) to go* up / to fly* up in the sky **II.** *s.* heavenly; **~ cisimləri** heavenly bodies; **~ qübbəsi** the vault of heaven; **~ rəngi** sky-blue colour **III.** *i. bax* **göyərti I IV.** *i. bax* **xəsis I V.** *i.* **(zərbədən bədəndə zədə)** bruise **VI.** *i. bax* **kürəkən VII.** *s.* **1. (mavi)** blue; **~ dəniz** blue sea; **2. (yaşıl)** green; **~ meşə** green forest; **3.** unripe; **~ meyvə** unripe fruit **VIII.** *s. bax* **xəsis II**

**göyçək** *s.* pretty, nice, good-looking; **~ qız** a pretty / nice girl

**göyçəkcə** *s.* quite pretty / nice

**göyçəkləndirmək** *f. bax* **göyçəkləşdirmək**

**göyçəkləşdirmək** *f.* to cause to become pretty / nice, to make* pretty / good-looking

**göyçəkləşmək** *f.* to grow* / to get* pretty, to become* nice / good-looking

**göyçəklik** *i.* prettiness, niceness; grace

**göydəndüşmə I.** *i.* windfall, godsend; **Sən mənim üçün güydəndüşməsən**, **Səni mənə Allah göndərib** You proved to be a real godsend to me **II.** *s.* unexpected, sudden; **~ xəbər** unexpected news

**göyəm I.** *i. bot.* sloe; blackthorn **II.** *s.* blackthorn; sloe; **~ ağacı** blackthorn bush; **~ mürəbbəsi** sloe preserve / jam

**göyəmlik** *i.* blackthorn grove

**göyərçin I.** *i.* **(ev)** dove; **(çöl)** pigeon; **sülh ~i** the dove of peace; **poçt ~i** homing-pigeon, carrier-pigeon, messenger-pigeon **II.** *s.* **~ yuvası** pigeon-hole; **~ poçtu** pigeon-post

**göyərçinsaxlayan** *i.* pigeon-fancier

**göyərmək** *f.* **1. (zərbədən)** to become* / to turn blue; **2. (görünmək)** to show* blue; **Uzaqda dəniz göyürir** The sea shows blue in the distance; **3. (yaşıllaşmaq)** to become* / to grow* green; **4. (toxum)** to sprout; **Toxum göyərməyə başlayıb** The seeds have begun to sprout

**göyərtə** *i.* deck; **yuxarı ~** upper deck; **orta ~** middle deck; **aşağı ~** lower deck; **~yə çıxmaq** to come* / to go* on deck

**göyərti I.** *i.* **1. (bitki)** plant; greenery; **2. (bədəndə əzik)** bruise; **3. (tərəvəz)** green vegetables; **bir dəstə ~** a bunch of greens **II.** *s.* greens; **~ dükanı** greens shop, greengrocer's; **~ konservi** tinned greens; **~ əkən** greens grower; **~ qutabı** flat greens pie

**göyərtiçi** *i.* **1.** *bax* **göyərtisatan**; **2. (göyərtiəkən)** greens grower

**göyərtili** *s.* **1.** green; ~ **həyət** green yard; **2.** (*i.s.*) with greens
**göyərtilik** *i.* **1.** greens bed; **2.** *bax* **çəmənlik**
**göyərtisatan** *i.* greengrocer
**göyərtisiz** *s.* **1. (göyərti bitməyən)** bald of vegetation; bald; ~ **çöllər** fields bare of grass; ~ **təpə** bald hill; **2. (xörək)** (*i.s.*) without greens
**göyərtmək** *f.* **1.** to sprout (*d.*); to grow* (*d.*), to cultivate (*d.*); **Nəm hava buğdanı göyərtdi** Wet weather sprouted the wheat; **2. (gözünü)** to give* a black eye, to make* black (*d.*); **3. (rəngləmək)** to paint blue
**göy-göyərti** *i.* different greens
**göygöz** *s.* blue-eyed; ~ **uşaq** a blue-eyed child
**göygözlü** *s.* *bax* **göygöz**
**göyləşmək** *f.* **1.** *bax* **xəsisləşmək**; **2. (yaşıllaşmaq)** to grow* green
**göylük** *i.* *bax* **1. çəmənlik**; **2.** *d.d.* *bax* **xəsislik**
**göynədici** *s.* **(yanıqdan)** burning; **(soyuqdan)** aching
**göynəmək** *f.* **1.** to ache; **2. (acı-acı ağlamaq)** to whimper
**göynətmək** *f.* **1.** to cause to ache (*d.*); **2. (acı-acı ağlatmaq)** to cause to whimper (*d.*)
**göyöskürək** *i.* whooping-cough
**göyrüş** *i.* ash-tree
**göyrüşlük** *i.* ash-tree grove
**göysatan** *i.* *bax* **göyərtisatan**
**göyümsov** *s.* bluish
**göyümtraq** *s.* *bax* **göyümsov**
**göyümtül** *s.* *bax* **göyümsov**
**göz I.** *i.* **1.** eye; **~lərini korlamaq** to spoil* one's eyes, to ruin one's eyesight; **iti ~** keen / sharp eye; ◊ **~dən düşmək** to fall* into disesteem; to fall* into a disgrace; **~ etmək / vurmaq** to wink (at); ◊ **~ə girmək** to ingratiate oneself with *smb.*, to curry *smb.*'s favour; ~ **görə-görə yalan danışmaq / söyləmək** to tell* a barefaced lie; **~ü qalmaq** to be* unable to take one's eyes off; **~ü almaq (asan görünmək)** to think* oneself capable of doing *smth.*; ~ **qoymaq (güdmək)** to cast covetous eyes (upon *d.*); **~-qulaq olmaq** to be* all eyes and ears; **Bu uşaqdan göz-qulaq olun** Keep a sharp eye on this child, Take care of this child; **Gözümün nuru** The light of my eye, darling; ◊ **~ü olmaq (istəmək)** to desire *smth.* / *smb.* strongly; **~ü olmamaq (istəməmək)** to have* no particular desire for; **~ü tutmaq (xoşuna gəlmək)** to take* a fancy to; **(sevmək)** to fall* in love; **~ünü qırpmadan (yatmadan)** without getting a wink of sleep; **(qorxmadan)** bravely; **sərrast** ~ true eye, keen eye; **~ünün içinə demək** to say* to one's face; **ölümün / təhlükənin ~ünə dik baxmaq (qorxmamaq)** to look danger / death straight in the eye; **bir kəsin ~ündə** in *smb.*'s eye, in *smb.*'s opinion; ◊ **bir şeyə ~ yummaq** to pay* no attention / no heed to *smth.*; ◊ **bir kəsin ~ünü açmaq (başa salmaq)** to open *smb.*'s eyes; ◊ **gözdən iraq**, **könüldən qıraq** *zərb. məs.* Out of sight, out of mind; **~-~ə** tete-a-tete *fr.*; **~ünü zilləmək** to stare (at) ◊ **~ünə təpmək (acgözlüklə yemək)** to fall* upon one's food; to gluttonize (*d.*); ◊ **~ünü döymək** to blink, to look blank; ◊ ~ **ağartmaq** to look menacingly / threateningly; **~ünü bərəltmək** to stare (at), to open one's eyes wide; **~ünə pərdə çəkmək / toz üfürmək** tocut* a dash, to show* off; ◊ **~ünə ağ salmaq** to punish severely; ◊ **~ü uçmaq** tolong / to desire for; ◊ **~ü süzülmək** to be* sleepy, to want to sleep; **~ü sataşmaq** to see* by chance / to notice accidentally; **~ü seçmək** to make* out (*d.*), to discern (*d.*); ◊ **~ü su içməmək** to have* one's doubts (as to); ◊ **~ü kəlləsinə çıxmaq / dörd olmaq** to look for *smth.* / *smb.* attentively; to look around worriedly; ◊ **~ü doymaq** to have* had enough; ◊ **~ü qızmaq** to fly* into a rage, to become* furious, to lose* one's self-control, to fly* into a temper; **~ü yaşarmaq** to shed* a few tears; to be* on the point of crying / weeping; **~ü yol çəkmək** to stare (at), to be* thoughtful; **~ü götürməmək (qibtə etmək)** to envy (*d.*); **(zəhləsi getmək)** to abhor (*d.*), to detest (*d.*); **~ü qamaşmaq** to feel* colic in the eyes; to be* dazzled; **Maşının işığı mənim gözlərimi qamaşdırdı** The lights of the car dazzled my eyes; **~ə çarpmaq** to be* striking; ~ **dəymək**, **~ə gəlmək** to put* the evil eyes (on, upon), to put* off (by too much praise) (*d.*); **Göz dəyməsin!** Touch wood! **~ə girmək** to worm oneself into the favour (of), to fawn on *smb.*; ~ **verib işıq verməmək** to give* no rest (*i.*), never to leave in

peace; ◊ ~ **qoymaq** to watch (*d.*); to look (after), to keep* one's eye (on); **~dən keçirmək** to look over / through (*d.*); **(cəld)** to have* a glance (*d.*), to run* over (*d.*); **~ə sataşmaq** to be* noticed; **~ünü qıymaq** to screw upon one's eyes; **~ünü ovuşdurmaq** to rub one's eyes; ◊ **~ünün ağı-qarası** the only (one), darling; ◊ **~ünün kökü saralmaq** to be* in an agony of suspense, to be* tired of waiting, to wait (*d.*) for a long time; **Gözün(üz) aydın!** I congratulate you!; **2. (iynədə)** eye; **iynənin ~ü** the eye of a needle; **3. (bulaqda)** origin, source; **bulağın ~ü** the origin / source of a spring; **4. (tərəzidə)** pan, tray; **tərəzinin ~ü** the pan / the tray of a balance **II.** *s.*: ~ **xəstəlikləri** diseases of the eye; eye diseases; ~ **xəstəxanası** eye-hospital; ~ **həkimi** oculist, eye-specialist, eye-doctor; ~ **almacığı** *anat.* eye-ball; ~ **qapağı** eyeild; ~ **ağı** white (of the eye); ~ **qarası** *bax* **bəbək**; ~ **yaşı** tear; ~ **çanağı (yuvası)** *anat.* eye-socket

**gözağartması** *i.*: ~ **vermək** to threaten (*d.*), to menace (*d.*)

**gözaltı I.** *i. d.d.* sweet-heart, beloved **II.** *z.*: ~ **baxmaq** 1) **(mənfi mənada)** to lour (at), to look distrustfully; 2) **(xəlvətcə)** to look secretly, to cast* a furtive glance

**gözaydınlığı** *i.* congratulation; ~ **vermək** to congratulate (on, upon); **bir kəsə ~ vermək** to congratulate *smb.* (on, upon); to offer one's congratulation to *smb.*

**gözbağlayıcı** *i.* conjurer, conjuror

**gözbəgöz** *z.* tete-a-tete

**gözcük** *i.* **(qapıda)** peep-hole

**gözdə-qulaqda** *z.*: ~ **olmaq** to be* on the alert (for), to be* watchful

**gözəçarpan** *s.* noticeable; attractive; distinguishable

**gözədəyən** *s.* noticeable; attractive; distinguishable; ~ **şeylər** noticeable things

**gözədəyməz** *s.* unnoticed, not distinguishable / attractive

**gözəgələn** *s.* pretty, attractive, noticeable; ~ **qız** a pretty girl

**gözəgəlimli** *s. bax* **gözəgələn**

**gözəgəlimlilik** *i.* prettiness, attractiveness

**gözəgörünməz I.** *i.* **1.** the invisible being, an invisible man*; **2.** *d.d.* God **II.** *s.* invisible, unnoticeable; ~ **adam** an invisible man*

**gözək** *i.* darn; ~ **qomaq** *bax* **gözəmək**

**gözəkli** *s.* darned; ~ **corab** a sock full of darns

**gözəl I.** *i.* beauty; "**Yeddi gözəl**" "Seven beauties" **II.** *s.* beautiful; handsome; fine; nice; ~ **qadın** a beautiful woman; ~ **kişi** a handsome man; ~ **sözlər** fine words; ~ **gün** a nice day **III.** *z.* beautifully, nicely, finely; ~ piano **çalmaq** to play the piano beautifully; ~ **görülmüş iş** a job nicely carried out; ~ **davranmaq** to behave finely ◊ **Çox gözəl!** Okay! All right!

**gözələmək** *f. bax* **gözəmək**

**gözəl-gözəl** *z. bax* **gözəl III**

**gözəl-göyçək** *s. bax* **gözəl II**

**gözəllənmək** *f. bax* **gözəlləşmək**

**gözəlləşdirmək** *f.* to beautify (*d.*), to cause to become more beautiful (*d.*); to improve in appearance (*d.*)

**gözəlləşmək** *f.* to become* / to grow* more beautiful, to improve (in appearance); **(qız)** to get* / to become* prettier; **Bu qız günbəgün gözəlləşir** This girl is getting prettier day by day

**gözəllik** *i.* beauty; prettiness; grace; **təbiətin gözəlliyi** the charms / beauty of nature; ◊ **Gözəllik ondur**, **doqquzu dondur** *at. söz.* ≅ The tailor makes the *man*. Fine feathers make fine birds

**gözəmək** *f.* to darn (*d.*); **yamamaq və** ~ to patch and to darn; **corab** ~ to darn a sock

**gözənmək** *f.* to be* darned

**gözətçi I.** *i.* guard, watchman, warden; ~ **olmaq** to be* on guard; **gecə ~si** night watchman; **meşə ~si** forest warden **II.** *s.* guard; ~ **işi** guard duty; ~ **budkası** sentry-box

**gözətçilik** *i.* **1.** guarding; ~ **etmək** to be* a guard / a watchman*; to work as a watchman*; **2.** the job of a watchman*

**gözətdirmək** *f. bax* **gözətmək**

**gözətmək** *f.* to ask / to force to darn (*d.*)

**gözəyarı** *z.* approximately, roughly; by eye; ~ **ölçmək** to measure (*d.*) by eye

**gözgörə** *z. bax* **gözgörəsi**

**gözgörəsi** *z.* openly; obviously, manifestly; ~ **yalan danışmaq** to tell* a barefaced lie

**göz-göz** *z.*: ~ **etmək (fürsət axtarmaq)** to choose* a suitable moment, to use every opportunity

**göz-gözə** *z.* tete-a-tete; **bir kəslə ~ danışmaq** to speak* tete-a-tete to *smb.*

**gözqamaşdırıcı** *s.* dazzling, blinding; ~ **günəş işığı** dazzling sunlight; ~ **gözəllik** dazzling beauty
**göz-qaş** *i.*: ~ **etmək** to wink (at), to give* a wink (at); ~ **oynatmaq** to make* / to pull faces; to look coquettishly, to give* oneself airs *idiom.*
**göz-qulaq** *i.*: ~ **olmaq** to be* on the alert (for), to be* watchful
**gözləmə** *fi.* waiting; ~ **otağı** waiting-room
**gözləmək** *f.* **1.** to wait (for); to expect (*d.*); to await; **oturub** ~ to sit* and to wait; to cool one's heels *idiom. d.d.*; **Vaxt gözləmir** Time passes There is no time to be lost; **O məni gözləməyə vadar etdi** He / She made me *wait*. He / She has kept me waiting; **Mən sizdən kömək gözləyirəm** I look to you for help / support; **Biz sizi gözləmirdik** We didn't expect you; **Mən gözlədiyim kimi oldu** It happened just as I (had) expected; **imkan düşənə kimi** ~ to wait for an opportunity / chance; **Mən məktub gözləyirəm** I am expecting a letter; **2. (keşiyini çəkmək)** to guard (*d.*), to watch (over); to protect (*d.* from); **3. (riayət etmək)** to keep* (*d.*), to observe (*d.*); **pəhriz** ~ to keep* diet; **müddəti** ~ to keep* to the schedule; sakitliyi ~ to keep* silence; **qanunu** ~ to keep* / to observe the law; **öz növbəsini** ~ to keep* one's turn; **qaydanı** ~ to observe order
**gözlənilən** *s.* forthcoming; ~ **hadisə** forthcoming event
**gözlənilmədən** *z.* suddenly, all of a sudden, unexpectedly
**gözlənilmək** *f.* **1.** to be* expected, to be* waited; **2. (keşiyi çəkilmək)** to be* watched / guarded; **3. (riayət edilmək)** to be* kept / observed
**gözlənilməyən** *s. bax* **gözlənilməz**
**gözlənilməz** *s.* unexpected, sudden, unlooked-for; ~ **xəbər** unexpected news; ~ **ölüm** sudden death; ~ **nəticə** unlooked-for result; ~ **xəstəlik** a sudden illness; ~ **zərbə** surprise attack / blow
**gözlənilməzlik** *i.* suddenness, unexpectedness
**gözlənməz** *s. bax* **gözlənilməz**
**gözləşmək** *f.* to exchange winks (with), to exchange glances
**gözlətmək** *f.* to make* *smb.* wait (for); to force to keep (*d.*) waiting
**gözlü** *s.* **1.** (*i.s.*) having eyes, (*i.s.*) with eyes; **2.** (*i.s.*) having drawers / pigeon-holes; **üç** ~ **mənzil** a flat with three rooms, a flat having three romms
**gözlük** *i.* spectacles, specs, eyeglasses, glasses; **(gün üçün)** sunglasses; **(toz və s. üçün)** goggles; ~ **geyinmək** to wear* glasses
**gözlükçü** *i.* optician
**gözlüklü** *s.* (*i.s.*) having glasses, (*i.s.*) wearing glasses
**gözmuncuğu** *i.* amulet, charm
**gözucu** *z.* superficially, cursorily; **kitaba** ~ **baxmaq** to glance over / through a book; materialla ~ **tanış olmaq** to glance over the material, to take* a look at the material; **bir şeylə** ~ **tanış olmaq** to make* a cursorily inspection
**gözüac** *s. bax* **acgöz II**
**gözüaclıq** *i. bax* **acgözlük**
**həcmli** *s.* capacious, bulky; voluminous
**həcv** *i.* libel, pasquil, satire, lampoon, pamphlet
**həcvyazan** *i.* satirist, lampoonist, pamphleteer, pasquillant
**hədd** *i.* **1.** limit; **~i keçmək**, **~dən keçmək** to overstep the limits, to pass all bounds; **Hədd görünmür** There seems to be no limit (to); **2.** degree, extent; son **~ə kimi** to the last degree / extent; **müəyyən ~ə kimi** to a certain extent / degree
**həddi-büluğ** *i.* majority, full age; **~a çatmaq** to come* of age, to attain one's majority
**hədə** *i.* threat, menace; **müharibə ~si / təhlükəsi** threat of war, **(təhlükə)** menace of war
**hədəf** *i.* target, mark; **~ə düşmək** (*müst.* və *məc.*) to hit* the mark; **~ə düşməmək** (*müst.* və *məc.*) to miss the mark, to be* wide of the mark; **Zərbə hədəfə düşdü** (*müst.* və *məc.*) The blow went home; ~ moving target
**hədəqə** *i.* socket, eye-socket; **Onun gözləri hədəqəsindən çıxdı** His / Her eyes popped out of their sockets
**hədə-qorxu** *i. bax* **hədə**
**hədələmək** *f.* to threaten (*d.* with), to menace (*d.* with); **Onu ölümcül təhlükə hədələyir** Mortal danger threatens him / her, He / She is threatened by mortal danger; **Onlar məni silahla hədələdilər** They menaced me with weapon
**hədələnmək** *f.* to be* threatened / menaced
**hədələtmək** *f.* to ask / to cause *s.o.* to threaten (*d.*) / to menace (*d.*)
**hədələyici** *s.* threatening, menacing; ~ ton menacing tone
**hədər I.** *s.* useless, vain; ~ **arzu** / **ümid** vain hope; ~ **cəhd** vain / useless effort **II.** *z.* uselessly, for nothing, in vain, to no purpose; **O hədər yerə ora gedir** He / She goes there for nothing; **Bütün gün hədər getdi** The whole day has been wasted
**hədərən-pədərən** *i. d.d.* absurdity, nonsense; ~ **danışmaq** to talk nonsense / rubbish, to twaddle, to prate about
**hədə-zorba** *i. bax* **hədə**
**hədis** *i.* **1.** story, tale, legend; **2.** hadith
**hədiyyə** *i.* present, gift, offering; ~ **etmək** to make* a present (*i.*); ~ **almaq (qəbul etmək)** to receive a present / a gift

**hədsiz I.** *s.* **1.** boundless, infinite, unbounded, unrestricted, unlimited; **2.** great number; **Onların sayı hədsiz idi** There were lots of them **II.** *z.* infinitely, boundlessly

**hədsiz-hesabsız** *s.* countless, innumerable, numberless

**hədsiz-hüdudsuz** *s.* infinite, boundless

**hədyan** *i.* delirium, ravings; nonsense, rubbish; *məc.* gibberish; ~ **danışmaq** to talk nonsense, to talk rubbish

**həftəbecər** *i.* pickles

**həftə** *i.* week; **iki** ~ two weeks, a fortnight; **bir** ~ **sonra** in a week; **hər** ~ every week; **keçən** ~ last week; **bu** ~ this week; **gələn** ~ next week

**həftəarası** *z.* interweek, within a week

**həftəaşırı** *z.* in a week, once in a week

**həftələrcə** *z.* for weeks; **Mən onu həftələrcə gözlədim** I had been waiting for her / him for weeks

**həftəlik** *s.* weekly; per week, week's; ~ **müddət** a week, a week's time; ~ jurnal weekly, weekly magazine; ~ **məlumat** weekly information; ~ **əmək haqqı** week's wage(s)

**həkim** *i.* physician; *d.d.* doctor; **qadın** ~ woman doctor; **bütün xəstəliklər üçün** ~ *d.d.* general practitioner; **hərbi** ~ medical officer, *amer.* army surgeon; baytar ~ veterinary (surgeon); **diş ~i** dentist; ~ **çağırmaq** to call the doctor

**həkimanə I.** *s.* wise, sage, reasonable, judicious, clever **II.** *z.* reasonably, judiciously, wisely, cleverly, sensibly

**həkimbaşı** *i.* head physician; *hərb.* chief medical officer, chief army doctor

**həkimxana** *i.* polyclinic

**həkimlik** *i.* doctoring

**həkk** *i.* **1.** carving, tretwork, engraving; **2.** scraping; ~ **etmək** to scrape (*d.*); to engrave (*d.*)

**həkkak** *i.* engraver; **taxta ~ı** wood-cutter, wood-engraver; **daş ~ı** lapidary; **polad ~ı** steel-cutter

**həqarət** *i.* humiliation, abasement; *d.d.* comedown; **~ə dözmək** to stand* / to bear* humiliation

**həqarətlə** *z.* abusively, insultingly

**həqarətli** *s.* insulting, abusive, humiliating; ~ **məktub** an abusive letter

**həqiqət** *i.* **1.** truth, justice; **Bu dəqiq həqiqətdir** That is the exact truth; **Onun dediklərində çoxlu həqiqət var** There is a great truth in what he / she says; **Bunda bir kəlmə də həqiqət yoxdur** There is not a word of truth in it; ~ **axtarmaq** to seek* justice; ~ **uğrunda mübarizə aparmaq** to fight* for justice; ~ **yolunda** / **naminə əzab çəkmək** to suffer in the cause of justice; **obyektiv** ~ objective truth; **mütləq** ~ absolute truth; **nisbi** ~ relative truth; **~i tapmaq** to arrive at the truth; **Bu köhnə həqiqətdir** It is an old truth **2.** reality; **müasir** ~ present-day reality / life; **imkanları ~ə çevirmək** to turn possibility into reality; **~ə çevrilmək** to be* translated into life, to become* a reality; ◊ **müqəddəs** ~ God's truth, gospel truth; ◊ **çılpaq** ~ naked truth

**həqiqətən** *z.* indeed, in truth, actually; truly, really, verily; **Siz həqiqətən də haqlısınız** Indeed you are right

**həqiqilik** *i.* truthfulness, uprightness, fidelity, veracity; **həyatın həqiqiliyi** fidelity of life

**həqir** *s.* **1.** base, meek, mean, low, worthless, miserable, paltry; **2.** pitiful, pitiable, poor, wretched; ~ **görkəmdə olmaq** to be* a sorry sight; to cut* a poor figure

**həqiranə** *z.* **1.** pitifully; ~ **gülümsəmək** to smile pitifully; ~ **görünmək** to cut* a poor figure; **2.** humbly, with humility, meekly

**həlak** *i.* death, distruction; ◊ ~ **olmaq** to perish, to be* killed, to lose* one's life; ~ **etmək** to kill (*d.*); to murder (*d.*)

**hələ** *z.* **1.** for the present, for the time being; **Bunu hələ belə qoymaq olar** You can leave it as it is for the present; **2.** still; **(inkarda)** yet; **Yarpaqlar hələ yaşıldır** The leaves are still green; **O, hələ yorulmayıb** He / She is not tired yet; **Sən bu kitabı oxuyubsanmı? Hələ yox** Have you read this book? Not yet; **Hələ yağış yağır** It is still raining

**hələ-belə** *z.* **1.** so, thus; **Bütün həftə hələ-belə keçdi** The whole week passed so / thus; **2.** like that; **Hələ-belə çölə çıxmaq olmaz** You can't go out like that

**hələ-həlbət** *z.* without fail, at any rate, whatever happens, in any case; **Hələ-həlbət gəlin** Come without fail

**hələlik** *z.* for the present, for the time being; **Bunu hələlik belə saxlamaq olar** You can leave it as it is for the present; **Hələlik!** See you soon! Bye-bye! So long! Cheerio!

**həlim I.** *i.* broth, decoction **II.** *s.* **1.** mild, gentle, calm, quiet; ~ **xasiyyət** mild / gentle disposition; **2.** kind; ~ **adam** a kind person

**həlimlik** *i.* softness; *məc.* mildness, gentleness, modesty; kindness

**həll** *i.* solution; settlement; ~ **etmək** 1) **(məsələni**, **problemi və s.)** to solve; **məsələni** ~ **etmək** to solve the question; **problemi** ~ **etmək** to solve the problem; 2) to dissolve; **əhəngi suda** ~ **etmək** to dissolve lime in water

**həlledici** *s.* decisive; ◊ ~ **səs** deciding / casting vote; **O, həlledici səsə malikdir** He / She has the deciding vote; ~ faktor determinant factor; ~ **qələbə** decisive victory; ~ **sahə** key sector (of); ~ an decisive moment

**həlledilməz** *s.* insoluble, insolvable; ~ **maddə** insoluble substance; ~ problem unsolvable / insoluble problem; ~ **məsələ** insoluble question

**həlletmə** *i.* decision, determination

**hılləhüş** *i. bax* **hılləm-qılləm**

**hılləm-qılləm** *i.* cheat, swindler; *d.d.* rouge [ˈroug]; *d.d.* old fox

**həm I.** *bağ.* and, as well, both; **həm mən**, **həm də sən** both you and **I II.**: prefix indicating similarity or company; **~ahəng** harmonious; **~əsr** contemporary; **~cins** of the same kind / race / sex

**həmahəng** *s.* harmonious (with), in keeping harmony (with)

**həmail** *i.* **1.** *hərb.* crossbelt, shoulderbelt; **(qılınc və s. üçün)** baldric, sword-belt, waist-belt; **2. (dua)** amulet

**həmcins** *s.* **1.** homogenous; similar; ~ **üzvlü cümlə** *qram.* sentence with homogenous parts / members; **2.** (*i.s.*) of the same sex

**həmcinslik** *i.* **1.** homogeneity, uniformity; **2.** the state of being of the same sex

**həmçinin** *bağ.* also, as well; **(cümlənin axırında)** too; **O, həmçinin gedəcək** He / She will also go, He / She will go as well, He / She will go too

**həmdəm** *i.* bosom friend, sincere friend, constant companion; ~ **olmaq** to be* bosom friend

**həmdərd** *i.* fellow sufferer

**həmdin** *i.* **(bir dinə məxsus olan)** coreligionist; ~ **adamlar** people of the same relegion

**həməqidə** *i.* like-minded person, person of like mind, person holding the same views, person having identical ideas / opinions; **O, bizim həməqidəmizdir** He / She holds the same views as we, He / She is at one with us

**həmən** *əv. bax* **həmin**

**həməsr** *i.* contemporary

**həmfikir I.** *i.* like-minded person, person of like mind, person holding the same views, person having identical ideas / opinions; **O, bizim həmfikrimizdir** He / She holds the same views as we, He / She is at one with us **II.** *s.* like-minded; (*i.s.*) holding the same views, (*i.s.*) having identical ideas / opinions

**həmfikirli** *s. bax* **həmfikir**

**həmfikirlilik** *i.* identity / harmony / conformity of ideas / opinions

**həmxana** *i.* roommate, housemate

**həmxasiyyət** *s.* (*i.s.*) having identical character / disposition / temper

**həmin** *əv.* the same; ~ **vaxt** the same time

**həmişə** *z.* always, for ever, everlastingly; ~ **olduğu kimi** as ever, as always, as usual

**həmişəbahar** *s. bot.* **1.** marigold; **2.** *bax* **həmişəyaşıl**

**həmişəcavan** *s.* ever - young

**həmişəki** *s.* usual, customary

**həmişəlik** *z.* for ever, for good; finally, once and for all

**həmişəyaşıl** *s.* evergreen; ~ **bitkilər** evergreens, evergreen plants

**həmkar I.** *i.* colleague **II.** *s.*: **~lar ittifaqı təşkilatı** trade union organization

**həmkarlıq** *i.* collaboration

**həmkəndli** *i.* fellow-villager

**həmlə** *i.* attack; **(piyada)** assault; **silahlı** ~ armed attack; **gözlənilməz** ~ surprise attack; **~ni dəf etmək** to repulse an attack; ~ **etmək** to advance / to rush to the attack

**həmrəy** *s.* solidary (with), unanimous; ◊ ~ **olmaq** to be* solidary (with); **bir kəslə** ~ **olmaq** to share *smb.*'s opinion, to express one's solidarity with *smb.*

**həmrəylik** *i.* solidarity; unanimity; **sinfi ~** class solidarity; **zəhmətkeşlərin beynəlxalq həmrəyliyi** international solidarity of the working people

**həmsərhəd** *s.* (*i.s.*) having the same border

**həmsöhbət** *i.* interlocutor; **(qadın)** interlocutress

**həmşəhərli** *i.* (fellow-)countryman*; fellow-townsman*

**həmtay** *i.* equal, like, similar (to); **kiməsə ~ olmaq** to be* equal to *smb.* (in), to equal *smb.* (in); **kiməsə öz ~ı kimi yanaşmaq** to treat *smb.* as one's equal

**həmyaş** *i.* (*i.s.*) (of) the same age; **~ olmaq** to be* (of) the same age; **Biz həmyaşıq** We are (of) the same age

**həmyerli** *i.* (fellow-)countryman; fellow townsman*; **(bir kənddən)** fellow-villager

**həndbol** *i. id.* handball

**həndbol** *s. id.* handball; **~ komandası** handball team

**həndbolçu** *i.* handball player

**həndəsə I.** *i.* geometry **II.** *s.* geometric(al); **~ silsilə** geometric progression

**həndəvər I.** *z.* round, around; **Həndəvərdə heç kim yoxdur** There is nobody round / around **II.** *z.* around, round; **şəhərin ~ində** around / round the town

**həngamə** *i.* uproar; noise; bustle, turmoil; *d.d.* confusion, muddle; **böyük ~ salmaq** to make* a racket, to kick up a row; to cause a sensation; **~siz** without a fuss, without any fanfares

**hənirti** *i. d.d.* breathing sound; rustle

**hər** *əv.* each, every, any; **~ vaxt** each time, at any time; ~ an always, any moment; **~ bir** every; each, each one; anyone of, whoever; **~ gün** every day; continually; **~ iki gündən bir** every two days, every other day; **~ addımda** at every step; **~ dəfə** every time; **~ halda** in any case, under any circumstances; **~ kim** whoever; **~ necə** in whatever way; **~ nəyin bahasına olursa olsun** at any cost; **~ nədənsə** for some reason or other; **~ nə qədər** however much, **~ harada** wherever; **~ yerdə** everywhere; **~ zaman** every time, always; **~ kəs** everyone, everybody, anyone, anybody; **~ şey** everything, anything; **Hər şey ola bilər** Anything may happen; **Hər kəs bilməlidir** Everyone ought to know; **~ kəsdən qabiliyyətinə görə, ~ kəsə əməyinə görə** from each according to his ability, to each according to his work; **~ kəsdən qabiliyyətinə görə, ~ kəsə ehtiyacına görə** from each according to his ability, to each according to his needs

**hərarət** *i.* **1.** warmth, heat, ardour; **havanın ~i** warmth of the air; **2. (qızdırma)** temperature, fever; **Onun hərarəti var** He / She has a temperature; **~in düşməsi** fall* of temperature; **~in qalxması** rise* of temperature; **Onun hərarəti yoxdur** He / She hasn't a temperature; **otaq ~i** room temperature

**hərarətlə** *z.* warmly, cordially; **~ qarşılamaq** to greet warmly; **~ danışmaq** to speak* warmly / cordially

**hərarətli** *s.* warm, warmish; spirited

**hərarətölçən** *i. bax* **termometr**

**hərb** *i.* battle, fight, war, warfare

**hərbə** *i.* threat, menace; **~ zorba gəlmək** to threaten (*d.* with), to menace (*d.* with)

**hərbi** *s.* military; **~ elm** military science, science of war; **~ kommunizm** war communism *tar.*; **~ əməliyyat** military operations *pl.*; **~ komissariat** military registration and enlistment office; **~ nazirlik (İngiltərədə)** War Office, **(ABŞ-da)** War Department; **~ nazir (İngiltərədə)** War Minister; Secretary of State for War; **(ABŞ-da)** Secretary of War; **~ gəmi** warship, man-of-war (*pl.* men-); **~ akademiya** Military Academy; **~ sənaye** war industry; **~ xidmət** military service; **~ attaşe** military attache; **~ yol** military road; **~ məhkəmə** court martial; **~ vəziyyət** martial law; **~ təlim** military training; **~ zavod** munition factory; **~ cani** war criminal; **~ avantüra** military adventure

**hərbiçi** *i.* soldier, serviceman*

**hərbiləşdirilmə** *fi.* militarization

**hərbiləşdirilmək** *f.* to be* militarized

**hərbiləşdirmə** *fi. bax* **hərbiləşdirilmə**

**hərbiləşdirmək** *f.* to militarize (*d.*)

**hərbiləşmə** *fi.* militarization

**hərbiləşmək** *f.* to get* / to become* militarized, to be* militarized

**hərcayi I.** *s.* **1.** free-and-easy, over-fill; **2.** misplaced, irrelevant, inappropriate; ~ **sözlər** misplaced words **II.** *z.* irrelevantly, inappropriately

**hərcəhətli** *z. bax* **hərtərəfli II**

**hərc-mərclik** *i.* disorder, anarchy, chaos, confusion, muddle; ~ **salmaq** to put* into disorder (*d.*), to disarrange (*d.*); **istehsalda** ~ anarchy in production

**hərçənd** *bağ.* in spite, despite, though, although

**hərdəmxəyal** *s.* light-minded, light-headed, frivolous; ~ **adam** a light-minded man*, a frivolous person

**hərdəmxəyallıq** *i.* inconstancy, light-mindedness, flippancy

**hərdən** *z. d.d.* at times, (every) now and then, now and again, from time to time, sometimes

**hərdənbir** *z. bax* **hərdən**

**hərə** *əv.* everyone; **Hərə öz yerini tutmalıdır** Everyone must take his seat

**hərəkat** *i.* movement; **fəhlə ~ı** working-class movement; **inqilabi** ~ revolutionary movement; **xalq ~ı** national movement; **sülh ~ı** peace movement

**hərəkət** *i.* **1.** motion, movement; **irəli** ~ forward movement; **~ə gətirmək** to set* / to put* in motion (*d.*), to set* going (*d.*); **~ə başlamaq** to begin* to move; **(mexanizm haqda)** to come* into operation / play; **O, həmişə hərəkətdədir** He / She is always on the go, He / She is always on the move; **2.** traffic; **küçə ~i** street traffic; **Hərəkət dayanıb** The traffic has been suspended; **3. (təsir və s.)** action, operation; **~ə gətirmək** to put* in action (*d.*); to set* going (*d.*); **4. (fəaliyyət)** activity; **şüurlu** ~ conscious activity

**hərəkətli** *s.* lively, active, agile, operative

**hərəkətsiz** *s.* inactive, inoperative, immovable, motionless, still, fixed; ~ **baxış** fixed stare / look; ~ **ulduz** fixed star; ~ **hava** still air

**hərəkətsizcə** *z.* motionlessly, inactively, still

**hərəkətsizlik** *i.* inaction, inactivity, inertness, motionlessness

**hərəkətverici** *s.* motive; ~ **qüvvə** motive forces, motive power; **cəmiyyətin ~ qüvvəsi** motivating forces of society; **tarixin ~ qüvvəsi** motivating forces of history

**hərəm** *i.* harem; wife

**hərəmxana** *i.* harem

**hərf** *i.* letter; **böyük** ~ capital letter; **kiçik** ~ small letter; **baş** ~ initial / first letter; ◊ **ölü** ~ dead letter

**hərfbəhərf** *z.* letter for letter; letter after letter; word for word

**hərf-hərf** *z. bax* **hərfbəhərf**

**hərfi** *s.* literal; word for word; **sözün ~ mənası** literal sense of the word; ~ **tərcümə** literal translation, word-for-word translation

**hərgah** *bağ.* **əgər**

**hərgünkü** *s.* daily, everyday; ~ **həyat** daily / everyday life

**hərif I.** *i.* strange fellow; queer bird; ~ **olmaq** to be* ignorant; to be* deceived **II.** *s.* naive [na:ı´:v], naive [neıv]; ~ **adamlar** naive people

**hərifləmək** *f.* **(aldatmaq)** to deceive (*d.*), to cheat (*d.*), to swindle (*d.*)

**həriflik** *i.* naivety [na:´i:vtı]

**həris** *s.* greedy (of, for), avid (of, for), covetous

**həriscəsinə** *z.* greedily, covetously, avidly

**hərisləşmək** *f.* to get* / to become* greedy / covetous

**hərislik** *i.* greediness, avidity, covetousness

**hərki-hərkilik i** anarchy [-ki], chaos, lack of restraint, willfulness, license [laı-]

**hərləmək** *f.* to turn (*d.*), to whirl (*d.*), to spin* (*d.*), to wheel round (*d.*)

**hərlənmək** *f.* **1.** to turn, to revolve; **(sürətlə)** to sprint*; **öz oxu ətrafına** ~ to revolve on its axis; **2. (gəzmək)** to take* a walk / a stroll, to go* for a walk / a stroll

**hərlətmək** *f.* to ask / to cause *smb.* to turn (*d.*) / to spin (*d.*) / to whirl (*d.*)

**hərrac** *i.* auction; **~a qoymaq** to sell* by auction (*d.*)

**hərraclıq** *i.* auction; the act of auction

**hərtərəfli I.** *s.* comprehensive, thorough, detailed, all-round; ~ **təhsil** / **inkişaf və s**. all-round education / development, *etc.*; ~ **bilik** comprehensive knowledge; ~ **müzakirə** thorough / detailed consideration / discussion **II.** *z.* comprehensively, thoroughly, closely, in detail; ~ **müzakirə et-**

**mək** to discuss thoroughly / comprehensively / in detail (*d.*)

**hərzə I.** *s.* **1.** garrulous, talkative; ~ **adam** garrulous / talkative person; **2.** meaningless, absurd; ~ **sözlər** meaningless / absurd words **II.** *z.*: ~ **danışmaq** to speak* nonsense, to talk much and stupidly; to talk rot

**hərzə-hərzə** *z. bax* **hərzə II**

**hərzələmək** *f.* to speak* nonsense, to talk much and stupidly; to talk rot

**hərzəlik** *i.* talkativeness, absurdity; ~ **etmək** to talk nonsense, to speak nonsense, to talk much and stupidly; to talk rot

**həsəd** *i.* envy; ~ aparmaq to envy (*d.*); **Mən ona həsəd aparıram** I envy him / her; ◊ **~dən partlamaq** to be* bursting with envy

**həsədlə** *z.* enviously, with envy

**həsədli** *s.* envious, covetous

**həsir** *i.* bast mat / matting

**həsirçi** *i.* bast mat weaver

**həsirləmək** *f.* to cover the floor with bast mat

**həsirtoxuyan** *i.* bast mat weaver

**həsr** *i.*: ~ **etmək** to devote (*d.* to); to dedicate (*d.* to); to give* up (*d.* to); **özünü** ~ **etmək** to devote oneself (to); **həyatını elmə** ~ **etmək** to devote / to give* (up) one's life to science; ~ **olunmaq** to be* devoted / dedicated; **bütün gücünü sülh uğrunda mübarizəyə** ~ **etmək** to dedicate all one's energy to the fight for peace

**həsrət** *i.* regret (for); longing for a person or place, feeling a loss; **bir kəsin ~ini çəkmək** to long to see *smb.* again; **bir şeyə** ~ **qalmaq** not to have / to gain *smth.* desirable; **bir şeyə** ~ **qoymaq** to deprive of / to take* away *smth.* desirable; **bir kəsin** / **bir şeyin ~ini çəkmək** to miss *smb.* or *smth.*; ~ **çəkmək** to be* bored, to have* a tedious time

**həssas** *s.* sensible, perceptible, felt, sensitive, tactful; ~ **münasibət** tactful / delicate approach; ~ **adam** sensitive man*

**həssaslıq** *i.* **1.** sensibleness, perceptibility, sensitiveness; **2. (radio və s.)** sensitivity; **3.** tactfulness

**həşəmətli** *s.* splendid, magnificent, great, majestic

**həşərat** *i.* insect

**həşəratöldürən** *s. kim.* insecticide

**həşəratyeyən** *s. bot. zool.* insect-eating, insectivorous; **Çox quşlar həşəratyeyəndir** Many birds are insectivorous

**həşir** *i. bax* **hay-küy**

**həştad** *sy. bax* **səksən**

**həştadıncı** *sy. bax* **səksəninci**

**həştadyaşlı** *s. bax* **səksənyaşlı**

**hətta** *bağ.* even; **Hamı gəlmişdi**, **hətta uşaqlar da** Everyone came, even the children; ~ **əgər** even if; **O, hətta təsəvvür edə bilməzdi ki**, **bu belədir** He / She couldn't even imagine that it is so

**həvalə** *i.*: ~ **etmək** to intrust, to charge / to commission (*d.* with, *d.* with *ger.*); **O**, **bu məktublara cavab verməyi sizə həvalə edir** He / She entrusts you with the answering of these letters

**həvədiş** *s. bax* **iridiş**

**həvəng** *i.* pestle; ◊ **~də su döymək** ≅ to beat* the air

**həvəngdəstə** *i.* mortar and pestle

**həvəs** *i.* wish, inclination (to, for); disposition (to); enthusiasm, animation; interest; desire (for); longing (for); **~dən düşmək** to lose* desire, to be* indifferent; **~dən salmaq** to cause *smb.* to lose desire to *smth.*; **~ə salmaq** / **gətirmək** to excite (*d.*), to cause (*d.*) to wish; **~ə gəlmək** to take* a liking (to+*ger.*), to acquire a taste (for + *ger.*); **~i olmaq** to have* desire / interest (in); ~ **doğurmaq** to arouse / to rouse interest (for); ~ **göstərmək** to show* interest (in); **öz ~i ilə** by one's own wish, following one's inclination; **~lə danışmaq** to speak* with enthusiasm / with animation

**həvəskar** *i.* amateur, dilettante; ~ **olmaq** to be* a lover (of); **şahmat ~ı olmaq** to be* very fond of chess; **təbiət ~ı** nature-lover; **O**, **gül həvəskarıdır** He / She is very fond of flowers; **incəsənət ~ı** a lover of art

**həvəslə** *z.* willingly; readily; with enthusiasm, with animation; **O bunu həvəslə edər** He / She will be glad to do it

**həvəsləndirici** *s.* encouraging, stimulating; ~ **təbəssüm** encouraging smile

**həvəsləndirilmək** *f.* to be* encouraged, **(maddi)** to be* given an incentive (to); to be* stimulated

**həvəsləndirmək** *f.* to encourage (*d.*); (maddi) to give* an incentive (to), to stimulate the interest (of)

**həvəslənmək** *f.* to take* (to), to give* oneself up (to); to be* carried away; to take* a great interest (in *smth.*); to be* keen (on *smth.*); to take* a fancy (to *smth.*)

**həvəsli** *s.* enthusiastic, enthusiastical, willing

**həvəssiz** **I.** *s.* unwilling, reluctant **II.** *z.* unwillingly, with reluctance, reluctantly

**həya** *i.* shame; modesty; bashfulness, shyness; **abrı ~sı olmamaq** to be* dead to shame; **~sını itirmək** to lose* all sense of shame; to be* lost to shame; **~sını atmaq** to throw* off all shame

**həya-abır** *i. bax* **abır-həya**

**həyalanmaq** *f.* to become* modest; to be* ashamed

**həyalı** *s.* modest; **(utancaq)** bashful, shy, timid

**həyalılıq** *i.* modesty; **(utancaqlıq)** bashfulness, shyness, timidity

**həyan** *i.* protection; **bir kəsə ~ olmaq** to take* *smb.* under one's protection

**həyasız** *s.* impudent, shameless; barefaced, brazen (-faced); **~ olmaq** to be* shameless / barefaced / impudent

**həyasızcasına** *z.* shamelessly, barefacedly, impudently, brazenly

**həyasızlaşmaq** *f.* to become* shameless / barefaced / brazen / impudent

**həyasızlıq** *i.* shamelessness; **(sırtıqlıq)** impudence

**həyat** **I.** *i.* life; normal ~ plain living; **~ uğrunda mübarizə** struggle for life; **özünü ~dan məhrum etmək** to take* one's own life, to commit suicide; **~ boyu** for life; **~a tətbiq etmək** to put* into practice (*d.*), to carry out (*d.*); **~a qədəm basmaq** to start out in life; **gələcək ~** future life; ◊ **~dan hər şeyi almaq** to enjoy life to the full; **Ayda həyat yoxdur** There is no life on the Moon **II.** *s.* life, vital; (*i.s.*) of life; **~ yolu** path / road in life; **~ səviyyəsi** standard of life; **~ təcrübəsi** experience of life

**həyati** *s.* vital; **~ məsələ** vital question; question of vital importance; **~ təcrübə** life experience

**həyatilik** *i.* vitality, vital power

**həyatverici** *s.* life-giving; **~ qüvvə** life-giving force

**həyəcan** *i.* alarm, anxiety, uneasiness, agitation, excitation; excitement; **güclü ~ keçirmək** to be* extremely / greatly excited; **~lı olmaq** to be* alarmed / anxious / uneasy / perturbed; **~ yaratmaq** to arouse / to cause alarm / anxiety; **yanğın ~ı** fire-alarm, **hərbi ~** battle alarm; **hava ~ı** air-raid warning; *amer.* aircraft warning; **kimyəvi ~** gas alert *amer.* gas-alarm; **yalançı ~** false alarm

**həyəcanlandırmaq** *f.* to excite (*d.*), to revolt (*d.*), to agitate (*d.*); to trouble (*d.*), to alarm (*d.*)

**həyəcanlanmaq** *f.* to become* excited; to be* agitated / worried / alarmed

**həyəcanlı** **I.** *s.* anxious, uneasy, troubled, agitated, perturbed, worried; **~ baxış** anxious / worried look; **~ sidnal** alarming signal; **~ olmaq** to be* anxious / uneasy / worried (about), to take* alarm **II.** *z.* anxiously, worriedly; with emotion, with agitation; **~ danışmaq** to speak* in an agitated tone, to speak* with emotion, to speak* with deep feeling

**həyəcanlılıq** *i.* anxiety, uneasiness; nervousness

**həyət** *i.* yard, court, courtyard; **örtülü ~** covered yard / courtyard

**həzər** *i.* fear, misgiving; **~ etmək** to avoid (*ger.+d.*), to evade (*d.*); *d.d.* to steer clear (of), to escape (*d.*); **kiminləsə görüşməkdən ~ etmək** to avoid meeting *smb.*

**həzərat** *i.* **1.** those present; **2.** gentlemen, the master, people

**həzin** **I.** *s.* dismal, plaintive; sad, melancholy; **~ səs** dismal sound; **~ mahnı** a dismal / plaintive song **II.** *z. bax* **həzin-həzin**

**həzin-həzin** *z.* dismally, plaintively; **~ oxumaq** to sing* dismally / plaintively, to sing* a tune mournfully

**həzm** **I.** *i.* digestion; **~ etmək** to digest (*d.*); **~ olunmaq** to be* digested; **O, piyi həzm edə bilmir** He / She can't digest fat **II.** *s.* digestive; **~ orqanları** digestive organs

**həzrət** *i.* Excellency (title); **~ləri** Her / His Excellency, Her / His Majesty

**həzz** *i.* pleasure, delight, enjoyment; **bir şeydən ~ almaq** to feel* / to experience pleas-

ure in *smth.*, to find* / to take* a pleasure in *smth.*; to enjoy *smth.*
**hıçqırıq** *i.* sobbing
**hıçqırmaq** *f.* to hiccup [-kʌp], hiccough; **Mən bütün gecəni hıçqırdım** I hiccuped all night
**hıçqırtı** *i.* hiccup [-kʌp], hiccough
**hıqqanmaq** *f. d.d.* to hesitate, to stammer, to falter
**hıqqıldamaq** *f. d.d.* to groan
**hibrid** *i.* hybrid
**hibridləşdirmək** *f.* to hybridize (*d.*)
**hibridləşmək** *f.* to be* / to become* hybridized
**hicran** *i.* separation; parting; ~ **vaxtı** at parting; ~ **günü** day of parting
**hicrət** *i.* emigration, migration, immigration
**hicri** *i.* **1.** the beginning of Moslem era from the 16th of June 622; **2.** Mohammad's travelling from Mecca to Madina
**hiddət** *i.* anger; rage, fury; *şair.* ire; **~ə gəlmək** to become* furious; to fly* into a rage; **~dən özünü bilməmək** to be* transported with rage, to be* beside oneself with rage
**hiddətlə** *z.* furiously, wrathfully, fiercely, irately; ~ **danışmaq** to talk furiously / wrathfully
**hiddətləndirmək** *f.* to infuriate (*d.*), to enrage (*d.*)
**hiddətlənmək** *f.* to get* / to become* furious, to get* into a fury, to fly* into a passion; to become* / to get* infuriated / enraged
**hiddətli** *s.* furious, violent, fierce, irate, wrathful; ~ **olmaq** to be* furious (with)
**hiddətlilik** *i.* furiousness, irateness, fierceness
**hidrogen** *i.* hydrogen
**hifz** *i.* ~ **etmək** to take* care (of), to protect (*d.*), to preserve (*d.*); to save (*d.*); **Allah sizi hifz etsin!** God save you!
**hikkə** *i. bax* **inad I**
**hikkəli** *s. bax* **inadkar II**
**hikkəlilik** *i. bax* **inadkarlıq**
**hikmət** *i.* wisdom; knowledge; **xalq ~i** folk wisdom, popular wisdom
**hikmətamiz** *s. bax* **hikmətli**
**hikmətli** *s.* wise, sage; ~ **söz** sage / wise saying
**hil** *i.* cardamon
**hilal** *i.* half-moon; ◊ Hilal **Əhmər** Red Half-Moon
**hilali** *s.* fortnightly
**him** *i.* **1.** hint (made by other person with his eye, head, *etc.*); **incə** ~ delicate / gentle hint; ~ **etmək** to drop a hint; **~i başa düşmək** to take* the hint; **2.** foundation, groundwork; ~ **tikmək** to build* the foundation; **~ini qoymaq** to lay* the foundation
**himayə** *i.* patronage, protection; **~sı altında** under the patronage / protection (of); ~ **etmək** to patronize (*d.*), to protect (*d.*)
**himayəçi** *i.* patron, protector, sponsor; **(qadın)** patroness, protectress
**himayədar** *i. bax* **himayəçi**
**himayədarlıq** *i. bax* **himayəçilik**
**himayəedici** *s. bax* **himayəkar**
**himayəkar** *s.* **1.** protective; **2. (baxış, səs tonu və s.)** condescending, patronizing; ~ **ton** condescending tone
**himləmək** *f.* to hint (*d.*)
**himləşmək** *f.* to drop a hint to each other
**himn** *i.* hymn; **dövlət ~i** national anthem
**hin** *i.* hen-coop, hen-house
**hindi** *i.* (American / Red) Indian
**hindli** *i.* Indian
**hindtoyuğu** *i. zool.* turkey(-cook), turkey (-hen)
**hindu** *i.* Hindoo
**hinduşka I.** *i. zool.* turkey; **erkək** ~ turkey-cock; **dişi** ~ turkey-hen **II.** *s.*: ~ **balası** / **cücəsi** turkey-poult [-pou-]
**hipertoniya** *i.* hypertonia, high blood pressure
**hipnoz** *i.* hypnosis, mesmerism; **(təlqin qüvvəsi)** hypnotism, mesmerism; ~ **altında olmaq** to be* in a hypnotic sleep, to be* mesmerized; **~la müalicə etmək** to treat (*d.*) by hypnotism / mesmerism
**hipnozçu** *i.* hypnotizer, hypnotist, mesmerist
**hipnozlamaq** *f.* to hypnotize (*d.*), to mesmerize (*d.*)
**hipnozlanmaq** *f.* to be* hypnotized / mesmerized
**hirs** *i.* anger, ire, wrath, malice, fury, spite; ~ **başına vurmaq** to fly* into a rage
**hirsləndirmək** *f.* to anger (*d.*), to make* angry (*d.*), to incense (*d.*)
**hirslənmək** *f.* to be* angry (with), to become* / to get* into a wax; **Mən onun kobudluğuna hirsləndim** I was incensed at his / her rudeness

**hirsli I.** *s.* angry (with), cross (with), irate **II.** *z.* angrily, wrathfully, irately
**hirslilik** *i.* quick / hot temper; irritability
**his** *i.* soot, smoke-black; lampa **~i** lamp-black; **~ etmək (lampa və s.** *haq.***)** to smoke; **~ə vermək** to smoke (*d.*); to blacken (*d.*)
**hisbasmış** *s. bax* **hisli**
**hisxana** *i.* smoke-house
**hisləmək** *f.* to soot (*d.*), to smoke-black (*d.*), to blacken (*d.*) with smoke
**hislənmək** *f.* to be* / to become* covered with soot, to be* blackened with soot, to get* covered with soot
**hislətmək** *f.* to ask / to cause *smb.* to soot (*d.*) / to smoke (*d.*)
**hisli** *s.* sooty, smoky; **~ tavan** smoky ceiling; **~ otaq** smoky room
**hisli-paslı** *s.* dirty, (*i.s.*) covered with dirt, smudgy
**hiss I.** *i.* **(***müx.* **mənalarda)** sense; feeling; **beş ~** the five senses; **eşitmə ~i** sense of hearing; **görmə ~i** sense of sight; **iybilmə ~i** sense of smell; **dadbilmə ~i** sense of taste; **ləmsə ~i** sense of touch; **məsuliyyət ~i** sense of responsibility; **yumor ~i** sense of humour; **vəzifə ~i** sense of duty; **şərəf ~i** sense of honour; **razılıq ~i** sense / feeling of satisfaction; **ağrı ~i** sense / feeling of pain; **iftixar ~i** feeling of pride; **gözəllik ~i** sense of beauty; **yenilik ~i** sense of the new; **~ etmək** to feel* (*d.*); to have a sensation (of); **aclıq ~ etmək** to feel* hungry; **yorğunluq ~ etmək** to feel* tired; **yaxşı / pis ~ etmək** to feel* better / worse; **özünü günahkar ~ etmək** to feel* guilty, to feel* one's guilt; **~ olunmaq** to be* felt / observed; **~ini itirmək** to fall* insensible, to faint (away); *şair.* to swoon **II.** *s.*: **~ orqanları** organs of sense
**hissə** *i.* **1.** part, share, portion; **üçdə bir ~** a third (part); **bədənin ~ləri** parts of the body; **dünyanın ~ləri** *coğ.* parts of the world; **nitq ~ləri** *dilç.* parts of speech; **üç ~dən ibarət roman** novel in three parts; **ehtiyat ~lər** spare parts; spares; **maşın ~ləri** parts / pieces of a machine; **2. (bölmə)** department; **3. (hərbi)** unit; **hərbi ~** military unit
**hissəcik** *i.* **1.** fraction, (little) part; **2.** *qram.* particle
**hissə-hissə** *s.* in parts, part by part
**hissiyyat** *i.* sense, sensation; **görmə ~ı** visual sensation
**hissiz** *s.* **1.** insensible, insensitive, unconscious; **~ vəziyyətdə olmaq** to be* unconscious; **2.** unfeeling, callous, heartless
**hissizləşdirmək** *f.* to anaesthetize (*d.*)
**hissizləşmək** *f.* to get* / to become* anaesthetized
**hissizlik** *i.* **1.** insensibility; **2.** callousness, hard-heartedness
**hiylə** *i.* ruse, trick, craft, cunning; **~ ilə** by trick; **hərbi ~** ruse of war, war ruse; **~ işlətmək** to use cunning, to be* craft, to cheat, to swindle
**hiyləbaz I.** *i. bax* **hiyləgər I II.** *s. bax* **hiyləgər** II
**hiyləgər I.** *i.* fraud, cheat, trickster; slyboots **II.** *s.* sly, cunning; **(məkrli)** artful; **~ adam** a sly person; **~ təbəssüm** sly smile; **~ baxış** cunning look
**hiyləgərlik** *i.* slyness, cunning; artfulness, trickery
**hoqqa** *i.* trick, juggling; **~ çıxarmaq** to juggle; to conjure, to do* conjuring tricks
**hoqqabaz** *i.* conjurer, juggler
**hoqqabazlıq** *i.* jugglery, sleight of hand; buffoonery; **~ etmək** to juggle, to buffoon
**holland I.** *i.* Dutchman*; **~lar** the Dutch **II.** *s.* Dutch; **~ dili** Dutch, the Dutch language; **~ incəsənəti** Dutch art; **~ pendiri** Dutch cheese
**homoseksual** *s.* homosexual
**homoseksualist** *i.* homosexualist
**homoseksualizm** *i.* homosexualism
**hopdurma** *fi.* absorption
**hopdurmaq** *f.* to absorb (*d.*), to drink* in (*d.*); *məc.* to imbibe (*d.*), to take* in (*d.*)
**hopdurulmaq** *f.* to cause to be absorbed
**hop-hop** *i. zool.* hoopoe [-pu:]
**hopmaq** *f.* to soak (into), to be* absorbed
**hoppana-hoppana** *z.* jumping, hopping, leaping
**hoppandırmaq** *f.* to cause to jump / to hop / to leap (*d.*)
**hoppanma** *fi.* jump, leap; **paraşütdən ~** parachute jump; **suya ~** *id.* diving; **vışkadan (suya) ~** high diving; **hündürlüyə ~** *id.* high jump; **uzununa ~** *id.* jump; **yerində**

~ standing jump; **qaçaraq** ~ *id*. running jump

**hoppanmaq** *f.* to spring*, to jump, to leap*; **(sürətlə)** to bound; **sevincdən** ~ to jump for joy; to leap* high with joy

**horra** *i. d.d.* thin porridge; wash

**hov** *i.* **1.** help; ~ **etmək** to ask people to come and to help; **2.** *tib*. swelling, inflammation

**hovlamaq** *f.* to become* inflamed, to be* inflamed (with, by), to swell (with)

**hovlu** *s.* **(hovlamış)** inflamed; ~ **göz** an inflamed eye

**hovur** *i.* a short period of time, a bit, a little; bir ~ **dincəlmək** to rest a bit / a little; **Bir hovur gözlə(yin)** What a bit / a little

**hovuz** *i.* pond, reservoir

**hoydu-hoydu** *i.* catcall, hiss; **~ya götürmək** to catcall (*d.*); to hiss off (*d.*); **aktyoru ~ya götürmək** to hiss an actor off

**hoydulamaq** *f.* to catcall (*d.*), to hiss off (*d.*); to make* fun (of)

**höccələmək** *f.* to pronounce in syllables, to spell out by syllables

**höccələtmək** *f.* **1.** to ask / to cause *smb*. to pronounce (*d.*) in syllables; **2.** to ask / to cause *smb*. to spell (*d.*) / to read(*d.*) out by syllables

**höcət I.** *i.* pigheaded person; obstinate / stubborn person, wilful and stupid person **II.** *s.* obstinate, stubborn, refractory; ~ **uşaq** a stubborn child

**höcətlə** *z.* stubbornly, obstinately, pigheadedly

**höcətləşmək** *f.* to argue, to dispute (with, against, about)

**höcətlik** *i.* stubbornness, obstinacy, pigheadedness

**hökm** *i.* **1.** order; **~ə görə** by order; **kiminsə ~ünə görə** by order of *smb*.; ~ **vermək** to give* an order; to issue an order; ~ **almaq** to receive an order; **2.** *hüq*. sentence, **(məhkəmənin)** verdict, judgement; **(məhkumiyyət)** condemnation; ~ **çıxarmaq** to pass sentence (on), to sentence (*d.*); **bir kəsin ölümü haqqında ~ çıxarmaq** / **vermək** to sentence / to condemn *smb*. to death; **~ü icra etmək** to execute the sentence / a judgement

**hökmdar** *i.* lord, ruler; master, sovereign, monarch; **(qadın)** lady sovereign; queen

**hökmən** *z.* certainly, without fail; **O, hökmən gələcək** He / She will come without fail; **Gələcəksinizmi? Hökmən** Will you come? Certainly

**hökmran I.** *i.* dictator, ruler, sovereign **II.** *s.* ruling; prevailing, prevalent, predominant; ~ **sinif** ruling class

**hökmranlıq** *i.* supremacy; **(siyasi)** rule, sway, dictatorship; domination, dominion, ascendency (over); **havada** ~ supremacy in the air; **fəhlə hökmranlığı** dictatorship of the proletariat

**hökümət** *i.* government; *amer*. administration

**hönkür-hönkür** *z.*: ~ **ağlamaq** to burst* out sobbing, to cry bitterly, to sob

**hönkürmək** *f.* to sob, to cry bitterly

**hönkürtmək** *f.* to cause *smb*. to sob / to cry bitterly

**hönkürtü** *i.* sob, sobbing

**hördürmək** *f.* **1. (toxutmaq)** to ask / to cause *smb*. to weave (*d.*); **2. (divarı və s.)** to ask / to cause *smb*. to build (*d.*)

**hörgü** *i.* laying; **daş ~sü** masonry; **kərpic ~sü** bricklaying

**hörmək** *f.* **1. (saçı)** to braid (*d.*), to plait (*d.*); **saçını** ~ to plait / to braid one's hair; **2. (krujeva və s.)** to weave (*d.*); **3.** (tor) to net; **4. (çələng)** to twine (*d.*); **çələng** ~ to twine a wreath [ri:-]; **5. (divar və s.)** to build* (*d.*), to make (*d.*); **divar** ~ to build* a wall

**hörmət** *i.* honour, respect, esteem; consideration; ~ **bəsləmək** to feel* / to cherish respect; **~i** olmaq to be* held in respect; ~ **qoymaq** / **etmək** / **göstərmək** to respect (*d.*), to esteem (*d.*), to honour (*d.*), **~dən düşmək** to lose* respect / authority; **~dən salmaq** to defame (*d.*), to disgrace (*d.*); **kiminsə yanında ~ə malik olmaq** to stand* high in *smb*.'s esteem; **~lə yanaşmaq** to treat with respect / distinction; **(məktubun axırında)** **~lə** respectfully yours, yours' faithfully; **Hörmət və ehtiram** My compliments

**hörmətcil** *s.* affable, friendly, cordial, hearty, kind (to)

**hörmətcillik** *i.* affability, kindness, respectableness

**hörmətlə** *z.* honourably, respectably

**hörmətli** *s.* honourable, (*i.s.*) worth of respect, venerable, respectable; ~ **qonaq** guest of honour

**hörmətsiz** *s.* disrespectable, disrespectful

**hörmətsizlik** *i.* disrespect, lack of respect

**hörmətsizliklə** *z.* disrespectfully; **kiməsə ~ yanaşmaq** to treat *smb.* without any respect (*d.*), to have* no respect (for);

**hörük** *i.* **1. (saç və s.** *haq.***)** plait, braid, tresses **2. (heyvan bağlanılan)** tether [´teðə]

**hörükləmək** *f.* **1. (saçı və s.)** to plait (*d.*), to braid (*d.*); **2. (heyvanı)** to tether (*d.*)

**hörüklənmək** *f.* **1. (saç və s.** *haq.***)** to be* plaited / braided; **2. (heyvan** *haq.***)** to be* tethered

**hörüklətmək** *f.* **1. (saçı və s.)** to ask / to cause *smb.* to plait (*d.*); to have* one's hair plaited; **2. (heyvanı)** to ask / to cause *smb.* to tether (*d.*)

**hörülmək** *f.* **1. (saçı və s.)** to be* plaited / braided; **(krujeva)** to be* twined; **2. (divar və s.)** to be* built

**hörümçək I.** *i.* spider **II.** *s.* spider's; ~ **toru** spider's web, cobweb

**hövlank** *z.* hurriedly, hastily; fearfully, frighfully

**hövsələ** *i.* patience; **(dözümlülük)** endurance; **kimisə ~dən çıxarmaq** to try *smb.*'s patience; to exasperate *smb.*' **O, məni hövsələdən çıxarır** I have no patience with him / her; **~dən çıxmaq** to lose* patience, to get* out of patience; **~sini basmaq** to be* patient, to have* patience, to arm oneself with patience

**hövsələli** *s.* patient; long-suffering; resigned

**hövsələsiz** *s.* impatient; ~ **adam** impatient man*

**hövsələsizlik** *i.* impatience; ~ **etmək** to be* impatient, to display impatience

**hövsələsizliklə** *z.* impatiently, with impatience; ~ **gözləmək** to wait with impatience, to wait impatiently

**hövzə** *i.* basin; **kömür ~si** coal basin, coalfield

**höyüş** *s. bax* **yaş III**

**hulu I.** *i.* peach **II.** *s.* peachy; ~ **ağacı** peach-tree; ~ **rəngi** peach-colour

**humanist** *i.* humanist; ~ **olmaq** to be* a humanist

**humanitar** *s.* humanitarian; ~ **elmlər** the humanities; **(İngiltərə universitetlərində)** arts

**humanizm** *i.* humanism

**hun** *i. tar.* Hun [hʌn]; ~ **lar** the Huns

**huri** *i. mif.* houri, fairy, nymph

**huş** *i.* **1.** consciousness; mind; **bir kəsi ~a gətirmək** to restore *smb.* to consciousness; *d.d.* to bring* *smb.* round; **~a gəlmək** to regain consciousness; **~unu itirmək** to faint, to lose* consciousness; **2.** drowsiness; ~ **aparmaq** to doze; *məc.* to nod

**huşlu** *s.* quick-witted, sharp, bright, receptive; ~ **uşaq** intelligent child

**huşluluq** *i.* quick-wits *pl.*, quickness of wit, receptivity

**huşsuz** *s.* absent-minded; ~ **olmaq** to be* absent-minded

**huşsuzluq** *i.* absent-mindedness, absence of mind

**huyuqmaq** *f.* to be* frightened / startled (with); (at) to shy, to take* fright (of)

**huyuqdurmaq** *f.* to frighten (*d.*); to cause to be frightened / startled; **(atı)** to cause to be shy / to take fright (of)

**hücum** *i.* attack; storm; ~ ~ **etmək** to attack an enemy; **~la almaq** / **tutmaq** to take* / to capture by storm (*d.*); **silahlı** ~ armed attack; **gözlənilməz** ~ surprise attack; **şəhərə** ~ **etmək** to attack a town; **hava ~u** air attack

**hücumçu** *i.* **1.** attacker; **2.** *id.* forward; **mərkəz ~su** centre forward

**hüdud** *i.* **1.** boundary, border; **(dövlət)** frontier **2. (son hədd)** limit; **bütün hüdudları keçmək** to overstep the limits, to pass all bounds

**hüdudsuz** *s.* boundless, infinite, limitless, endless

**hüquq I.** *i.* **1. (***müx.* **mənalarda)** right; veto **~u** the right of veto; **səsvermə ~u** the vote; suffrage; **vətəndaşlıq ~u** civic rights *pl.*; **2. (elm sahəsi)** law; **beynəlxalq** ~ international law **II.** *s.* law; ~ **fakültəsi** faculty / department of law

**hüquqi** *s.* legal, juridical; ~ **idarələr** legal institutions; ~ **şəxs** juridical person

**hüquqsuz** *s.* (*i.s.*) without any rights, deprived of civil rights

**hüquqsuzluq** *i.* **1.** lawlessness, illegality; **2.** lack of rights, absence of civil rights
**hüquqşünas** *i.* lawyer, jurist
**hüquqşünaslıq** *i.* science of law, jurisprudence
**hündür I.** *s.* high; **(adam haqda)** tall; **(ev, dağ və s.)** lofty; **~ yer** highland district, highlands *pl.* **II.** *z.* high, high up; loud, loudly; **~ə qalxmaq / dırmaşmaq** to climb high; **~dən danışmaq** to talk loud
**hündürboy** *s.* tall; **~ adam** a tall man*
**hündürlük** *i.* height; **(yer səthində)** altitude; **dəniz səthindən ~də** height above sea level
**hünər** *i.* **1.** courage, bravery, valour; boldness, audacity; **~ göstərmək** to display / to show courage; **qəhrəmanlıq ~i** heroic deed; **2.** ability, skill, handicraft
**hünərli I.** *s.* valorous, fearless, valiant, heroic, brave, courageous **II.** *z.* valorously, fearlessly, bravely, courageously
**hünərsiz** *s.* unheroic, incapable, not brave, not courageous
**hürdürmək** *f.* to cause / to force to bark (*d.*)
**hürən** *s.* barking; **Hürən it dişləməz** *at. söz.* A barking dog never bites
**hürkmək** *f.* to be* frightened / startled (with); (at) to shy, to be* afraid (of); **At səsdən hürkdü** The horse shied at the noise
**hürkütmək** *f.* to frighten (*d.*), to frighten away (*d.*), to scare away (*d.*), **(atı)** to shy (*d.*)
**hürmək** *f.* to bark; ◊ aya **~ (boş danışmaq)** to bark at the moon
**hürriyyət** *i. bax* **azadlıq**
**hürüşmək** *f.* to bark (all together)
**hüsn** *i. şair.* beauty, charm, fascination
**hüsnxət** *i.* calligraphy
**hüzn** *i.* condolence
**hüznlə** *z.* sadly, sorrowfully; **bir kəsə ~ başsağlığı vermək** to offer / express *smb.* one's condolences, to present one's condolences to *smb.*
**hüznlü** *s.* mournful, doleful, grievous

# Xx

**X**, **x** the 12th letter of the Azerbaijani alphabet
**xacə i** eunuck [΄ju:nək]
**xaç I.** *i.* **(***müx.* **mənalarda)** cross; **~ qoymaq (imza əvəzinə)** to make* one's cross, to sign with a cross; **Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti** International! Red Cross Organization **II.** *s.* **~ yürüşü** *tar.* crusade; **~ atası (kirvə)** godfather; **~ anası** godmother; **~ oğulluğu** godson; **~ qızlığı** goddaughter
**xaçlamaq** *f. din.* to baptize (*d.*), to christen (*d.*)
**xaçlanmaq** *f.* to be* baptized / christened
**xaçpərəst** *i.* Christian; **~ olmaq** to be* a Christian
**xaçpərəstlik** *i.* christianity; **xaçpərəstliyi qəbul etmək** to adopt Christianity
**xaçvarı** *s.* cross-shaped; cruciform
**xaçvarılıq** *i.* the state or quality of being cross-shaped / cruciform
**xadim** *i.*: **dövlət ~i** statesman*; **ictimai ~** public man* / figure; **siyasi ~** political figure; **inqilabi ~** revolutionary; **elmi ~** scientist, man* of science; **mədəniyyət ~i** cultural worker; **əməkdar ~** honoured worker; **əməkdar elm ~i** Honoured Scientist; **əməkdar incəsənət ~i** Honored Art Worker; **din ~i** minister of religion
**xadimə** *i.* servant, maid, maidservant, housemaid; **(mehmanxanada)** chambermaid; **(gəmidə)** stewardess
**xahiş** *i.* request; **~ etmək** to ask (*d.*); to request (*d.*); **~lə müraciət etmək** to make* a request (for); **kiminsə ~ini yerinə yetirmək** to comply with *smb.*'s request; **kiminsə ~inə görə** at *smb.*'s request; **Mənim sizdən xahişim var** I have a favour to ask of you; **Xahiş edirəm səs salmayın** I request you to stop making such a noise, Silence, please
**xain I.** *i.* traitor; **(qadın)** traitress, betrayer; **~ çıxmaq** to turn traitor; **vətən ~i** traitor to one's country **II.** *s.* traitorous, treacherous, perfidious; **~ zabit** treacherous officer; **~ hərəkət** treacherous action; **~ qadın** a perfidious woman*
**xaincəsinə** *z.* treacherously, traitorously, perfidiously
**xainlik** *i.* **1.** treachery, betrayal, perfidy; **2.** traitorousness, treacherousness, perfidiousness; **~ etmək** to be* / to become* a traitor / a betrayer
**xak** *i. arx.* earth, ground, soil
**xaki** *s.* (colour) khaki
**xaqan** *i.* **1.** Khakan (the title of Mongolian, Chinese and Turkish rulers); **2.** *arx.* sovereign, ruler, monarch
**xaqanlıq** *i. tar.* **1.** khakanate (the territory ruled by a khakan); **2.** the state of being a Khakan
**xal I.** *i.* brithmark, mole **II.** *i.* point; **~ yığmaq / toplamaq** to score points; **~ hesabı ilə tutulan** jep points position; **~ hesabı ilə qalib gəlmək** to win* by point
**xala** *i.* aunt; **(müraciət)** aunty; **(zarafatyana)** woman*
**xalacan** *i. d.d.* aunty
**xala-xala** *i.* a kind of children's game in which the sides show the same respect to each other
**xalaqızı** *i.* cousin, first cousin
**xalanəvəsi** *i.* second cousin
**xalaoğlu** *i.* cousin, first cousin
**xalça** *i.* rug, carpet; ◊ **sehirli ~** the magic carpet
**xalçaçı** *i.* carpet-maker, carpet-weaver
**xalçaçılıq I.** *i.* carpet-making, carpet-weaving **II.** *s.* carpet-making, carpet-weaving; **~ arteli** carpet-weaving artel
**xalça-palaz** *i. mon.* all kinds of rugs (strip of carpet, stair-carpet, runner and so on)
**xalçatoxuyan** *i. bax* **xalçaçı**
**xal-xal** *i.* enclosure (for cattle); sheep-pen, sheep-fold (for sheep and goat)
**xal-xal** *s. bax* **xallı**
**xalı** *i.* carpet; **~ salmaq** to carpet (*d.*)
**xalıçı** *i. bax* **xalçaçı**
**xalıçılıq** *i. bax* **xalçaçılıq**
**xalı-xalça** *top. i.* all kinds of carpets and rugs
**xali** *s.* empty, not occupied, vacant
**xaliq** *i. bax* **Allah**
**xalis** *s.* **1.** real, pure, neat; straight; **~ ipək** real silk; **~ qızıl** pure / real gold; **~ gümüş** pure / real silver; **~ spirt** pure alcohol; **~ viski** straight / neat whisky; **2. (gəlir,**

**çəki və s**. *haq.***)** net, clear; ~ **çəki** net weight; ~ **gəlir** net profit, clear profit

**xalq I.** *i.* people; nation; **türk ~ları** Turkic peoples; **ingiliscə danışan ~lar** English speaking peoples; **Azərbaycanda yaşayan ~lar** the peoples living in Azerbaijan; **azad ~ lar** free nations **II.** *s.* people's; popular; folk; national; ~ **artisti** people's artist; ~ **demokratiyası** people's democracy; ~ **məhkəməci** People's Court; ~ **mahnısı** folk / popular song; ~ **yaradıcılığı** popular / folk art; ~ **təsərrüfatı** national economy; ~ **cəbhəsi** popular front

**xalqçı** *i. tar.* narodnik, Russian populist

**xalqçılıq** *i. tar.* Narodism, Populism

**xalqşünas** *i.* ethnographer

**xalqşünaslıq** *i.* ethnography

**xallamaq** *f.* to blotch (*d.*), to spot (*d.*), to stain (*d.*); to dapple (*d.*)

**xallanmaq** *f.* to become* blotched / spotted / dappled

**xallı** *s.* spotty, blotched, dappled; ~ **maral** spotted deer; ~ **at** a dappled horse

**xallılıq** *i.* **1.** the state of having birthmark (s); **2. (at və s.)** the state of being dappled

**ispanaq I.** *i. bot.* spinach [ˊspɪnɪdʒ] **II.** *s. bot.* spinach; ~ **yarpağı** spinach leaf
**ispanca** *z.* Spanish; ~ **danışmaq** to speak* Spanish, to speak* the Spanish language; ~ **yazmaq** to write* in Spanish; ~ **demək** to say* in Spanish
**ispaniyalı** *i.* Spaniard, the citizen of Spain
**ispolkom** *i.* executive committee
**israf** *i.* expense, expenses; squander; ~ **etmək** to waste (*d.*); to squander (*d.*), to use aimlessly / in vain; **pulunu ~ etmək** to waste one's money, to squander one's money; **gücünü / qüvvəsini ~ etmək** to squander one's strength / energy
**israfçı I.** *i.* squanderer, spendthrift, waster **II.** *s.* wasteful, spendthrift (*attr.*), extravagant; ~ **qadın** extravagant woman*; ~ **vərdişlər** wasteful habits
**israfçılıq** *i.* squandering, wastefulness, dissipation; ~ **etmək** to squander (*d.*), to waste (*d.*); to dissipate (*d.*)
**israilli** *i.* Israeli [ɪzˊreɪli]
**israr** *i.* insistence, persistence; urgency; ~ **etmək** to persist (in+*ger.*), to insist (on / upon+ger); **öz dediyində ~ etmək** to have* one's own way, to stand* one's ground
**israrla** *z.* persistently, insistently, urgently
**israrlı** *s.* persistent, insistent, urgent
**istedad** *i.* talent (for), gift (for); **qeyri-adi** ~ extraordinary / unusual talent; **böyük ~ sahibi** a man of great talent; **musiqiyə ~ı olmaq** to have* a talent / a gift for music; **dilə ~ı olmaq** to have* a gift for language; **öz ~ını inkişaf etdirmək** to develop one's talent; **~ını göstərmək** to display / to show* one's talent
**istedadlı** *s.* talented, gifted [ˊgif-]; ~ **aktyor / yazıçı / rəssam və s.** talented actor / writer / painter, *etc.*; ~ **adam** a talented / gifted person; ~ **uşaq** a gifted child
**istedadlılıq** *i.* giftness, gifted nature, talent
**istedadsız** *s.* talentless, untalented, ungifted, (*i.s.*) without talent; ~ **adam** talentless person, a person without talent
**istedadsızlıq** *i.* lack of talent; the state of being without talent / gift
**istefa** *i.* resignation; retirement; **~ya çıxmaq** to resign, to retire, to go* into retirement; **~da olmaq** to be* retired; **~da olan polkovnik** retired colonel; **hökumət ~sı** resignation of a government
**istehkam** *i.* fortification
**istehkamçı I.** *i.* field-engineer, sapper; *amer.* combat engineer **II.** *s.* field-engineer (*attr.*); *amer.* combat engineer (*attr.*); ~ **rota** field-engineer company; ~ **işi** field engineering
**istehkamçılıq** *i.* the profession of a sapper / field-engineer; *amer.* the profession of a combat engineer
**istehlak I.** *i.* consumption, use **II.** *s.* consumption (*attr.*); use; ~ **şeyləri** objects of consumption; ~ **malları** consumer goods ~ **dəyəri** use value; ~ **kooperativi** consumer's cooperatives
**istehlakçı** *i.* consumer, user; **~ların cəmiyyəti** consumer's society
**istehsal I.** *i.* production, manufacture; **kütləvi** ~ mass production; **maşın ~ı** production of machines, **ayaqqabı ~ı** manufacture of shoes; **məişət malları ~ı** production of consumer goods **II.** *s.* production (*attr.*) industrial; productive; ~ **planı** production plan; ~ **münasibətləri** relations of production; ~ **prosesi** industrial process; ~ **gücü** productive capacity
**istehsalat I.** *i.* plant, factory, works; **~da işləmək** to work at a plant / at a factory **II.** *s.* production, industrial; ~ **iclası** production conference, conference* of production; ~ **stajı** industrial work record
**istehsalatçı** *i.* production / industrial worker, one engaged in production

**istehsalçı** *i.* producer; **xırda** ~ small producer
**istehza** *i.* **1.** irony; **acı** ~ biting irony; ◊ **taleyin ~sı** irony of fate; ~ **ilə danışmaq** to speak* ironically (of); ~ **ilə baxmaq** to look ironically; **2.** mockery; ~ **etmək** to mock (at)
**istehzalı** *s.* ironic, ironical, quizzical; ~ **baxış** ironical / quizzical glance / look; ~ **təbəssüm** quizzical smile
**istehzasız I.** *s.* (*i.s.*) without irony; mockless **II.** *z.* without irony, without mock; ~ **danışmaq** to speak* without irony / mock
**istehzayana** *z.* ironically, with irony, quizzically; ~ **baxmaq** to glance / look ironically / quizzically
**istək** *i.* wish, desire; **(güclü)** longing; **Sizin istəyinizə görə** In accordance with your desire; **bir kəsin istəyini yerinə yetirmək** to meet* *smb.*'s wish; **Necə istəyirsiniz** As you wish
**istəkli I.** *i.* beloved, darling, dear, dearest **Tom öz istəklisi ilə getdi** Tom went away with his dear **II.** *s.* desired, beloved, dear; ~ **arvad** a beloved wife; ~ **ər** a beloved husband; **mənim** ~ **dostum** a dear friend of mine
**istəklilik** *i.* the state of being beloved / dear
**istəksiz I.** *s.* reluctant, unwilling **II.** *z.* reluctantly, unwillingly, with reluctance
**istəksizlik** *i.* reluctance, unwillingness
**istəmədən** *z.* unintentionally, involuntarily, unwillingly; by accident, accidentally
**istəmək** *f.* **1.** to want (*d.*+to *inf.*); to like (*d.*+to *inf.*); **çay** / **çörək** / **su və s.** ~ to want tea / bread / water, *etc*.; **görmək** ~ to want to see; **Mən sizi görmək istəyirəm** I want to see you; **Demək istəyirəm** I want to say; **Kitab istəyirəm** I want a book; **2.** to ask; **kömək** ~ to ask for help; **bir kəsin qızını** ~ to ask someone for the hand of his / her daughter; ◊ **İstəyənin bir üzü, verməyənin iki üzü qara** *at. söz.* ≅ It's more embarrassing to refuse than to ask; **3.** to love; **Uşaq anasını çox istəyir** The child loves its mother very much
**istəməli** *s.* lovable, loveable, (*i.s.*) worthy of love; desirable; ~ **qadın** a desirable woman*; ~ **uşaq** a lovable child
**istəməz** : It's not necessary, It's not needed
**istənilmək** *f.* **1.** to be* wanted; **2.** to be* asked; **3.** to be* loved
**istənilməli** *s.* loveworthy, (*i.s.*) worthy of love, worth loving; (*i.s.*) deserving love
**istər** *bağ.* or; *either* ... or; ~ **siz**, ~ **biz** you or we; ~ **bu gün**, ~ **sabah** today or tomorrow, either today or tomorrow
**istər-istəməz** *z.* willingly or unwilligly, willy-nilly, like it or not; **İstər-istəməz siz getməlisiniz** You must go willy-nilly
**istətdirmək** *f.* to cause (*d.*) *s.o.* to want (*d.*); to cause (*d.*) to ask (*d.*); to love (*d.*)
**istətmək** *f.* *bax* **istətdirmək**
**isti I.** *i.* heat; **yay ~si** summer heat; **~dən əziyyət çəkmək** to suffer from the heat **II.** *s.* **1.** hot; ~ **gün** a hot day; ~ **bulaq** hot spring; ~ **su** hot water; **2.** warm; ~ **palto** warm coat; ~ **ölkələr** warm countries
**istiarə** *i. ədəb.* metaphor
**istibdad I.** *i.* despotism **II.** *s.* despotic, despotical
**istibdadçı** *i.* despot
**istibdadçılıq** *i.* despotism
**isticə** *s.* warmish, likewarm, terpid, slightly warm
**istifadə** *i.* use; utilization; ~ **etmək** to use (*d.*), to make* use (of); to utilize (*d.*); to enjoy (*d.*); **bacarığından** ~ **etmək** to utilize one's abilities; **~dən çıxmaq** to get* / to go* out of use, to be* no longer in use, to fall* into disuse, to cease to be used; **fürsətdən** ~ **etmək** to take* an opportunity; **hüquqdan** ~ **etmək** to enjoy the rights; **imtiyazdan** ~ **etmək** to enjoy privileges
**istifadələnmək** *f.* to make* use (of), to profit (by)
**istifadəsiz (istifadədə olmayan)** *s.* unused; untapped; ~ **boşqablar** unused plates; ~ **ehtiyatlar** untapped reserves; ~ **mənbələr** untapped resources
**istifadəsizlık** *i.* the state of being unused / untapped
**istixana I.** *i.* hothouse, greenhouse **II.** *s.* hothouse (*attr.*); ~ **bitkiləri** hothouse plants; ~ **dirrikçiliyi** hothouse market gardening
**isti-isti** *z.* while it is hot; **Bəzi adamlar çayı isti-isti içməyi xoşlayırlar** Some people like to drink tea while it is hot; **Dəmiri**

**isti-isti döyərlər** *at. söz.* ≅ Strike the iron while it is hot
**istiqamət** *i.* **(***müx.* **mənalarda)** direction; **bütün ~lərdə** in all directions; **cənub ~ində** in the direction of South; **hücumun ~i** *hərb.* line of advance
**istiqamətləndirici** *s. bax* **istiqamətverici**
**istiqamətləndirilmək** *f.* to be* guided, to be* directed
**istiqamətləndirmək** *f.* **1.** to direct (*d.* at, to), to turn (*d.* to); **2. (silahı)** to aim (*d.* at), to level (*d.* at); **diqqətini ~** to direct one's attention (to)
**istiqamətlənmək** *f.* **1.** to be* directed / turned (to); **2. (silah)** to be aimed; **3.** to make one's way (to, towards), to direct one's steps (to, towards), to pick one's way (towards); to be* bound (for); **Gəmi Bakıya istiqamətləndi** The steamer was bound for Baku
**istiqamətverici** *s.* guiding, leading; *hərb.* directing; **~ qüvvə** guiding / directing force
**istiqanlı** *s.* **1.** *zool.* warm-blooded; **~ heyvanlar** warm-blooded animals; **2.** pleasant, pleasing, likeable, attractive; **3.** hot-tempered, quick-tempered; *d.d.* peppery; **~ adam (çılğın)** hot-tempered / quick-tempered person
**istiqanlılıq** *i.* **1.** *zool.* warm-bloodness; **2.** likeableness; attractiveness
**istiqbal** *i.* **1.** the future; **parlaq ~** bright future; **2.** meeting; **~a çıxmaq** to meet* solemnly, to go* to meet solemnly
**istiqbalçı** *i. arx.* one who meets / who goes to meet (*d.*)
**istiqlal** *i. bax* **istiqlaliyyət**
**istiqlaliyyət I.** *i.* independence; sovereignty; **milli ~** national independence; **~ qazanmaq** to become* independent, to enjoy independence; to win* independence **II.** *s.*: independent; **~ günü** the day of independence, Independence day
**istiqlaliyyətçi** *i.* freedom lover, one who fights for independence
**istiqraz** *i.* loan; **dövlət ~ı** state loan; **daxili ~** internal loan; **xarici ~** foreign loan
**istila** *i.* conquest; aggression; **~etmək** to conquer (*d.*)
**istilaçı I.** *i.* conqueror, aggressor **II.** *s.* aggressive, predatory
**istilaçılıq I.** *i.* **1.** aggression; **2.** the act of aggression **II.** *s.* aggressive; **~ siyasəti** aggressive policy; **~ müharibəsi** aggressive war, war of aggression
**istilah** *i. bax* **termin**
**istilədici** *s.* heating; hot; **~ aparat** heating apparatus; **~ içki** heating drink; **~ kompres** hot compress
**istiləndirilmək** *f.* to be* heated, to be* warmed
**istiləndirmək** *f.* to heat (*d.*), to warm (*d.*)
**istilənmək** *f.* to get* / to become* warmer; to warm up
**istiləşdirmək** *f. bax* **istiləndirmək**
**istiləşmək** *f.* to get* / to become* warmer, to warm up; **istiləşir** It's getting warm (er)
**istilətmək** *f. bax* **isitmək (1-ci mənada)**
**istilik I.** *i.* heat; warmth; 35 **dərəcə ~** 35 degrees above zero; **~vermək** to give* out warmth; **Soba istilik vermir** The stove gives out no warmth **II.** *s.* thermal; heat (*attr.*); **~ mühərriki** heat-engine; **~ enerjisi** heat / thermal energy; **~ tutumu** thermal / heat capacity
**istilikkeçirən** *s. fiz.* heat-conducting
**istilikkeçirmə** *i. fiz.* heat / thermal conductivity
**istilikölçən** *i.* **(cihaz)** *fiz.* calorimeter
**istilikötürmə** I *fiz.* heat transfer / transmission
**istiliksevən** *s. bot.*, *zool.* heat-loving; **~ bitkilər** heat-loving plants; **~ heyvanlar** heat-loving animals
**istilikvermə** *i. fiz.* heat irradiation, heat emission
**istinad I.** *i.* **(həm** *məc.* **həm də** *müst.***)** support; **~ etmək** to base (on) **II.** *s.*: **~ nöqtəsi** foothold; **~ nöqtəsi tapmaq** to gain a foothold
**istinadgah** *i.* **1.** shelter; **~ tapmaq** to find* a shelter / **(daldanacaq)** asylum; **2.** support; foothold; **3.** stronghold; bulwark; **sülhün ~ı** stronghold / bulwark of peace
**istintaq I.** *i.* **1.** interrogation, questioning; examination; **~etmək** / **aparmaq** to interrogate (*d.*), to question (*d.*); to examine (*d.*); **2.** *hüq.* investigation; inquest; **ilkin ~** preliminary investigation; **məhkəmə ~ı** judicial investigation **II.** *s.* investigating, investigation (*attr.*), investigatory; **~ orqanları** investigating bodies / agencies

**istintaqçı** *i.* investigator

**istiot** *i.* pepper; **qara (qabıqlı, döyülməmiş)** capsicum; **(qırmızı)** cayenne pepper [ˌkeıenˊpepə]

**istiotqabı** *i.* pepper-box, pepper-pot

**istiotlamaq** *f.* to pepper (*d.*); **əti ~** to pepper meat

**istiotlanmaq** *f.* to be* peppered

**istiotlanmış** *fs.* peppered; **~ ət** peppered meat

**istiotlatdırmaq** *f. bax* **istiotlatmaq**

**istiotlatmaq** *f.* to ask / to cause *smb.* to pepper (*d.*)

**istiotlu** *s.* pepper (*attr.*), peppery; **~ xörək** peppery meal

**istiotluq** *i.* pepper-bed, place / bed planted with pepper

**istiotluluq** *i.* the quality / state of being peppery

**istirahət I.** *i.* rest; relaxation; **yay ~i** summer rest; **~ etmək** to rest, to have* a rest; to be* on holiday **II.** *s.* rest; holiday; **~ günü** rest-day; day of rest; day off; **~ evi** rest / holiday home

**istirahətsiz** *s.* restless, fidgety, uneasy; anxious; **~ uşaq** restless / fidgety child, fidget

**istirahətsizlik** *i.* restlessness; uneasiness

**istismar I.** *i.* **1.** exploitation; **2. (mexanizmi, müəssisəsi və s. )** operation, exploitation; **~ etmək** to exploit (*d.*); to operate (*d.*); **əməyi ~ etmək** to exploit labour; **kasıbları ~ etmək** to exploit the poor; **~ a vermək** to put* into operation (*d.*), to turn over for operation (*d.*); **dəmir yolunu ~ a vermək** to put* into operation a railway **II.** *s.* operation (*attr.*), running; **~ xərcləri** operation / running costs

**istismarçı I.** *i.* exploiter **II.** *s.* exploiter (*attr.*); **~ siniflər** the exploiter classes

**istismarçılıq** *i.* the act of exploitation

**istisna** *i.* exception; **~ təşkil etmək** to be* an exception; **~ etmək** to exclude (*d.*); to except (*d.*); **~ etmək yolu ilə** by way of exception

**istisnalıq** *i.* exceptional nature, exceptionality, exceptionalism

**istisnasız** *z.* without exception

**isti-soyuq** *i.* the heat and the cold; **özünü ~dan qorumaq** to protect oneself from the heat and cold

**isti-soyuqluq** *i.*: **~ ists soyuqluğu olmamaq** to have* nothing to do (with), to have* no concern (with); **Bunun mənə isti-soyuqluğu yoxdur** I have nothing to do with it, I have no concern with it

**istisu** *i.* istisu (hot water, a kind of mineral water in Azerbaijan)

**iş I.** *i.* work, job; business; occupation; affair, matter; **çətin ~** hard / difficult work; **elmi ~** scientific work; **ictimai ~** social work; **~ axtarmaq** to look for job / for work; ◊ **~ başında** at one's work; **~ açmaq** to raise* unnecessary difficulties; **~i düşmək** to apply to someone (for help, advice, *etc.*); **~ə düşmək** to get* into trouble, to meet* difficulties; **birinin başına ~ açmaq** to get* *smb.* into trouble; **Belə işlər keçməz** This sort of things can't go / won't do!; **Mənim işlərimə qarışma(yın), öz işinlə məşğül ol(un)** Don't meddle with my business, mind your own business / affairs **II.** *s.* working; **~ günü / vaxtı / paltarı / saatları / yeri** working day / time / clothes / hours / place

**işarə** *i.* **1.** sign [saın]; mark; **bərabərlik ~si** sign of equality; **yol hərəkəti ~ləri** road / traffic signs; **nida ~si** *qram.* exclamation mark; **sual ~si** *qram.* question mark; **durğu ~ləri** *qram.* punctuation marks; **~ vermək** to sign, to give* a sign; to signal; **~ etmək / qoymaq** to mark (*d.*), to sign (*d.*), to note (*d.*); **Mən işarə verənə kimi / qədər gözləyin** Wait till I give a sign; **2. (göz, qaş işarəsi)** hint, allusion; **incə / zərif ~** gentle hint

**işaraləmək** *f.* to mark (*d.*); to mark out (*d.*), to mark off (*d.*)

**işarələnmək** *fi.* to be* marked, to be* marked out

**işarələtdirmək** *f. bax* **işaralətmək**

**işarələtmək** *f.* to ask / to cause *smb.* to mark (*d.*)

**işarəli** *s.* (*i.s.*) with mark / sign, (*i.s.*) having mark / sign

**işarəlilik** *i.* the state of being marked

**işarəsiz** *s.* markless; (*i.s.*) without a mark / a sign

**işarəsizlik** *i.* the state of being markless / signless

**işarət** *i. bax* **işarə**
**işarmaq** *f.* to shimmer, to glimmer, to flicker
**işartı** *i.* shimmering, flicker, glimmer
**işbacaran** *s.* (*i.s.*) capable of working, efficient
**işbaz I.** *i.* businessman*; **(qadın)** businesswoman* **II.** *i.* efficient, business-like
**işbazlıq** *i.* efficiency, business-like character
**işbilən** *s. bax* **işbacaran**
**işburaxma** *i.* absence (from work)
**işcil** *s.* efficient, business-like; hard-working; **~ katib** an efficient secretary
**işcillik** *i.* business-like character, efficiency
**işçi** *i.* worker, **(qadın)** woman-worker; **ixtisaslı ~** skilled worker; **rəhbər ~** person in charge
**işdək** *i.* business-like, efficient
**işdənçıxarma** *i.* discharge, dismissal
**işdankənar** *s.* non-working; **~ vaxt** non-working time
**işgəncə** *i.* torture; **~ vermək** to torture (*d.*), to put* (*d.*) to the torture; **Polis onlara işgəncə verdi** The police tortured them
**işgəncəli** *s.* agonizing, poignant; **~ şübhələr** agonizing doubts; **~ xatirələr** poignant memories
**iş-güc** *top. i.* all kinds of business / work / affairs; **bir kəsi ~dən etmək** to prevent *smb.* from working, to tear* *smb.* away from work; **~ü olmaq** to be* busy; **~ü başdan aşmaq** to be* very busy, to have* much work to do
**işgüzar** *s.* **1.** business (*attr.*); **~ adam** businessman*; **~ dairələr** business circles; **~ söhbət** talk on business matters; **2.** efficient, business-like, practical; **~ katib** efficient secretary; **~ əlaqə** business-like co-operation; **~ məsləhət** practical advice
**işgüzarcasına** *z. bax* **işgüzarlıqla**
**işgüzarlıqla** *z.* efficiently, in an efficient way / manner
**işğal** *i.* occupation; **~ etmək** to occupy (*d.*); **ölkəni / şəhəri və s. ~ etmək** to occupy a country / town, *etc.*
**işğalçı I.** *i.* occupier, invader **II.** *s.* occupation; **~ ordu** occupation troop
**işğalçılıq I.** *i.* the character of being aggressive **II.** *s.* aggressive, annexationist, expansionist; **~ müharibələri** wars of conquest / aggression, aggressive wars; **~ siyasəti** annexationist / expansionist policy, aggressive policy
**işədüzəltmə** *i.* placing in a job, provision of employment
**işəmə** *fi. tab.* urination
**işəmək I.** *i.* to urine; to water, to piss *tab.* **O, şalvarına işəyib** He's pissed his trousers **II.** *f.* to urinate; *d.d.* to water; **yerinə ~** to wet one's bed
**işəmuzd** *s.*: **~ əmək haqqı** piece-work payment, piece-rate pay
**işəmuzdçu** *i.* piece-worker
**işəmuzdçuluq** *i.* piece-work
**işəyarar** *s. bax* **işəyarayan**
**işəyararlıq** *i.* **1.** ability to work; **2.** helpfulness; usefulness
**işəyarayan** *s.* **1.** able-bodied, (*i.s.*) capable of working, (*i.s.*) able to work; **2.** helpful; useful, giving help
**işığahəssas** *s.* light-sensitive; **~ kağız** sensitized paper; photographic paper
**işığahəssaslıq** *i. fiz.* photo-sensitivity
**işıq I.** *i.* light; **gündüz işığı** daylight; **günəş işığı** sunlight; **ay işığı** moonlight; **~da** by the light; **şam işığında** by the light of a candle, by candlelight; **ay işığında** by moonlight; **~ salmaq** to shed* / to throw* light (on); **bir kəsin işığını kəsmək** to stand* in *smb.*'s light; **İşığımı kəsmə!** Don't stand in my light! **II.** *s.* light (*attr.*); **~ siqnalı** light signal; **~ dalğası** *fiz.* light wave; **~ seli** *fiz.* luminous flux
**işıqlandırılmaq** *f.* to be lightened / lighted
**işıqlandırma** *fi.* **1.** lighting, illumination; **süni ~** artifical lighting; **2.** *məc.* elucidation; **(izah)** interpretation
**işıqlandırmaq** *f.* **1.** to lighten (*d.*), to light up (*d.*); to illuminate (*d.*); **otağı ~** to light the room; **2.** *məc.* to elucidate (*d.*), to throw* light (on, upon)
**işıqlanmaq** *f.* to light up, to brighten; to be* lighted; **Səma işıqlanır** The sky is brightening; **İşıqlanır** It is dawning, Day is breaking; **İşıqlanıb** It's already daylight
**işıqlaşar-işıqlaşmaz** *z.* as soon as day breaks, very early in the morning, as soon as dawn breaks
**işıqlaşmaq** *f.* to brighten; to clear up; **İşıqlaşır** It's dawning, Day is breaking

**işıqlatdırmaq** *f. bax* **işıqlatmaq**
**işıqlatmaq** *f.* to brighten (*d.*), to light (*d.*)
**işıqlı** *s.* light; ~ **otaq** a light room; ◊ ~ **dünya** the world
**işıqlıq** *i.* lightness; **otağın işıqlığı** lightness of the room; **işıqlığa çıxmaq** to be* / to get* free, to begin to live happily; **İşıqlığa çıxasan!** Be happy
**işıqsız** *s.* lightless; (*i.s.*) without light, (*i.s.*) having no light
**işıqsızlıq** *i.* lightlessness, absence of light
**işıqucu** *i. məc.* a slight opportunity
**işıldamaq** *f.* to sparkle, to twinkle, to glitter, to glimmer
**işıldayan** *s.* **1.** luminous; **(fosforlu)** phosphorescent; ~ **rəng** luminous paint; ~ **işarələr** luminous signs; **2.** shining, beaming
**işıltı** *i.* distant faint light; glimmer, flicker; **ümüd ~sı** a glimmer / a flicker of hope
**işım-işım** *z.*: ~ **işıldamaq** to twinkle / glimmer very brightly
**işlədici** *s.* **(dərman)** purgative; ~ **imalə** purgative enema
**işlədilmək** *f.* to be* used, to be* in use; **geniş** ~ to be* in wide / common usage, to be* widely used
**işlək** *s.* **1.** efficient, hard working; ~ **fəhlə** efficient work; ~ **adam** a hard-working person, an industrious person; **2.** everyday; ~ **ifadə** everyday expression
**işləmək** *f.* **1.** to work; **ciddi** / **bərk** / **səylə** ~ to work hard, to work with zeal / diligence; to work tooth and nail *idiom.*; **kitab üzərində** ~ to work on a book; **fabrikdə** ~ to work at a factory; **qul kimi** ~ to work like a slave; **2. (motor və s.)** to run*, to function; **Motor rahat işləyir** The engine is running smoothly; **Telefon işləmir** The telephone doesn't function, The telephone is out of order; **3. (mağaza**, **kitabxana və s.)** to be* open; **Kitabxana saat 9-a kimi işləyir** The library is open till 9 o'clock; **4. (cinayət)** commit; **cinayət** ~ to commit a crime; **qarnı** ~ to have* diarrhoea [ˌdaɪəˈriə]; **Uşağın qarnı işləyir** The child has diarrhoea
**işlənilmək** *f. bax* **işlənmək**
**işlənmək** *f.* **1.** to be* used; **cümlədə** ~ to be* used in a sentence; **2.** to be* worked out; **Yeni metod işlənib** A new method has been worked out; **3.** to be* trimmed; **qızılla** ~ to be* trimmed with gold
**işlənmiş** *fs.* **1.** used, second-hand; ~ **maşın** used / second-hand car; **2. (bəzədilmiş)** trimmed (with), embroidered (with), decorated with needlework
**işlətmək** *f.* **1.** to use (*d.*), to put* (*d.*) to use; **qaz** ~ to use gas; **beynini** ~ to use one's brains / wits; **zor** ~ to use force; **2.** to ask / to cause (*d.*) to work; **3.** to put* (*d.*) into practice; **təcrübədə** ~ to put* (*d.*) into practice; **4.** to commit; **cinayət** ~ to commit a crime
**iş-peşə** *top. i. bax* **iş-güc**
**işrət** *i.* feast, banquet; orgy; **~lə məşğül olmaq** to feast, to celebrate with feast; to drink (wine, *etc.*) and have sex (with)
**işrətli** *s.* (*i.s.*) with feast / banquet; ~ **həyat** life with feast
**işsiz I.** *i.* **1.** unemployed person; **~lər** *top. i.* the unemployed; **2. (veyl)** idler **II.** *s.* unemployed, workless, jobless; ~ **olmaq** to be* unemployed, to be* out of work, to be* jobless
**işsiz-gücsüz I.** *s.* idle; unemployed, jobless; ~ **adam** an idle man*; an unemployed person **II.** *z.* idly; ~ **dayanmaq** to stand idly
**işsizlik** *i.* **1.** unemployment; **2. (veyllik)** idleness
**işsiz-peşəsiz I.** *s. bax* **işsiz-gücsüz I II.** *z. bax* **işsiz-gücsüz II**
**iştaha** *i.* appetite; **yaxşı** ~ good appetite; **pis** ~ poor appetite; **bir kəsin ~sını açmaq** to give* *smb.* an appetite, to whet *smb.*'s appetite; **~sını itirmək** to lose* one's appetite; **İştahalı olasınız!** Bon appetite!; **İştəha diş altındadır** *at. söz.* Appetite comes with eating
**iştahaaçan I.** *i.* appetizer; aperitif **II.** *s.* appetizing; appetitive; ~ **yemək** appetizing meal
**iştahagətirən** *s. bax* **iştahaaçan II**
**iştahalandırılmaq** *f.* to be* appetized
**iştahalandırmaq** *f.* to appetize (*d.*), to whet appetite (*d.*)
**iştahalanmaq** *f.* to have* good appetite; *məc.* to have* great desire / wish (to eat)
**iştahalı** *s.* appetitive; (*i.s.*) having good appetite

**iştahalılıq** *i.* the state of having good appetite

**iştahasız I.** *s.* appetiteless; (*i.s.*) having poor appetite, (*i.s.*) without appetite **II.** *z.* without appetite

**iştahasızlıq** *i.* the state of having poor appetite

**iştahla** *z.* with appetite; ~ **yemək** to eat* with appetite

**iştirak** *i.* **1.** participation; ~ **etmək** to participate (in), to take* part (in); **fəal** ~ active participation; **bir kəsin ~ı ilə** with the participation of *smb.*; **2.** presence; **Sizin iştirakınız vacibdir** Your presence is important

**iştirakçı** *i.* participant, participator; **(cinayətdə)** accomplice; **(yarışda)** competitor; **(oyunda)** player; **(qurultayda və s.)** member

**iştirakçılıq** *i.* participation; **(cinayətdə və s.)** complicity

**it I.** *i.* dog; **ağıllı** ~ a clever dog; **~dən qorxmaq** to be* afraid of dog; **ov** ~ *i.* gun-dog; **(tazı)** hound; ~ **kimi yaşamaq** to lead* a dog's life; ~ **kimi ölmək** to die like a dog; ◊ ~ **kimi yorulmaq** to be* dog-tired; **İtə yiyəsinə / sahibinə görə hörmət edərlər** *at. söz.* Love me, love my dog **II.** *s.* dog (*attr.*); dog's; doggish; doggy ~ **xaltası** dog-collar; ~ **biti** dog-louse; ◊ **~(in) günü** dog's life; ◊ **günündə yaşamaq** to live a dog's life, to live like a dog

**itaət** *i.* obedience; ~ **etmək** to obey (*d.*); **qanuna** ~ **etmək** to obey the law; **bir kəsə** ~ **etmək** to obey *smb.*; **Qulaq asın və itaət edin!** Listen and obey!

**itaətkar** *s.* obedient (to), humble; ~ **uşaq** obedient child; ~ **qarabaş** obedient servant; ~ **olmaq** to be* obedient (to), to obey (to)

**itaətkarcasına** *z.* obediently, humbly

**itaətkarlıq** *i.* obedience (to); ~ **göstərmək** to display / to show* obedience (to), to obey (to)

**itaətlə** *z.* obediently, humbly

**itaətli** *s. bax* **itaətkar**

**itaətlilik** *i. bax* **itaətkarlıq**

**itaətsiz** *s.* disobedient, recalcitrant; rebellious; unruly; ~ **uşaq** disobedient child

**itaətsizlik** *i.* disobedience, recalcitrance; rebelliousness, unruliness; ~ **göstərmək** to display / to show* disobedience, to be* unruly / disobedient

**italiyalı** *i.* Italian; the citizen of Italy; **~lar** the Italians

**italyan I.** *i. bax* **italiyalı II.** *s.* Italian; **~dili** Italian, the Italian language; ~ **dilində danışmaq** to speak* Italian, to speak* the Italian language

**italyanca** *z.* Italian; ~ **danışmaq** to speak* Italian, to speak* the Italian language; ~ **yazmaq** to write* in Italian; ~ **demək** to say* in Italian

**itarısı** *i.* wasp

**itbaz** *i.* dog-lover

**itburnu** *i. bot.* dog-rose; **(meyvəsi)** hips *pl.*

**itdamı** *i.* kennel; *amer.* kennels, dog-hole, doghouse

**itdirsəyi** *i. tib.* sty, stye [stai]

**itələmək** *f.* to push (*d.*); to shove (*d.*); **(bilmədən)** to jog (*d.*); to give* a push / shove; ◊ **itələyib yerində durmaq** to be* the very image (of); **O, atasını itələyib yerində durub** He is the spit and image of his father

**itələnmək** *f.* to be* pushed / shoved; **(bilmədən)** to be* jogged

**itələşmək** *f.* to push / to shove each other, to push / to shove one another

**itələtdirmək** *f. bax* **itələtmək**

**itələtmək** *f.* to ask / to cause *smb.* to push, to ask / to cause *s.o.* to shove (*d.*)

**ithaf** *i. ədəb.* dedication; ~ **etmək** to dedicate (to)

**iti I.** *s.* **1.** sharp, acute; keen; ~ **bıçaq** sharp knife; ~ **göz** sharp / keen eyesight; ~ **dil** sharp tongue; **2.** rapid, swift, speedy; ~ **axın** rapid / swift current; ~ **əllər** speedy hands **II.** *z.* **1.** rapidly, swiftly; ~ **axmaq** to flow / to run* rapidly; ~ **danışmaq** to speak* rapidly / swiftly; **2.** sharp, sharply; ~ **dönmək** to turn sharp; ~ **baxmaq** to look sharply

**itiaxan** *s.* running rapidly, flowing swiftly / rapidly

**itibaxışlı** *s.* sharp-eyed; ~ **adam** a sharp-eyed person

**itib-batmaq** *f.* **1.** to be* missing, to be* lost; **2.** to disappear, to vanish; **3. (ölmək)** to perish, to die; **harada itib-batmısınız?** Where on earth have you been?

**itibucaq** *i. riyaz.* acute angle

**itibucaqlı** *s.* acute angled, (*i.s.*) with acute angle; ~ **üçbucaq** acute-angled triangle
**itiburun** *s.* sharp-nosed; pointed; ~ **çəkmə** shoes with pointed toes
**itiburunlu** *s. bax* **itiburun**
**itibuynuz** *s.* sharp-horned; ~ **kələ** sharp-horned bull
**itibuynuzlu** *s. bax* **itibuynuz**
**itidırnaq** *s.* sharp-nailed; (*i.s.*) with sharp nails
**itidırnaqlı** *s. bax* **itidırnaq**
**itidil** *s.* sharp-tongued; (*i.s.*) with sharp tongue
**itidilli** *s. bax* **itidil**
**itidiş** *s.* sharp-toothed; (*i.s.*) with sharp teeth
**itidişli** *s. bax* **itidiş**
**itigedən** *s.* high-speed, fast; ~ **qatar** fast / high-speed train
**itigörən** *s.* sharp-eyed, (*i.s.*) having sharp eyes
**itigöz** *s.* sharp-eyed, (*i.s.*) with sharp eyes; lively
**itigözlü** *s. bax* **itigöz**
**iti-iti** *z.* too / very fast, too / very rapidly, too / very swiftly; ~ **yerimək** to go* too / very fast
**itiqanadlı** *s.* swift-winged; (*i.s.*) with swift wings
**itiqulaq** *s.* sharp-eared, (*i.s.*) with sharp ears
**itiqulaqlı** *s. bax* **itiqulaq**
**itik** *i.* loss, lost things; **Bütün itiklər (itən şeylər) tapıldı** All the lost things were found
**itiləmək** *f.* to sharpen (*d.*); **(bıçağı və s.)** to grind* (*d.*); **(çarxçı daşı ilə)** to whet (*d.*); **bıçaq** ~ to grind* a knife; **(daşla)** to whet a knife
**itilənmək** *f.* to be* sharpened; to get* / to become sharpened; **(daşla)** to be* whetted
**itilənmiş** *fs.* sharpened; whetted; ~ **bıçaq** sharpened knife
**itiləşmək** *f. bax* **itilənmək**
**itilətdirmək** *f.* to ask / to cause *smb.* to sharpen (*d.*); **(daşla)** to ask / to cause *smb.* to whet (*d.*); to have (*d.*) sharpened / whetted
**itilətmək** *f. bax* **itilətdirmək**
**itiləyici** *s.* grinding; ~ **dəzgah** grinding machine
**itilik** *i.* **1.** sharpness, acuity, acutiness; **2. (görmə və s.)** keenness
**itilmək** *f.* to be* off, to get* off / away, to clear out, to sleep away; **İtil!** Be off! Clear out! **İtil cəhənnəmə!** Go to hell!
**itirilmiş** *fs.* lost; ~ **xoşbəxtlik** lost happiness
**itirmə** *fi.* loss; **(vaxt, pul və s.)** waste; **qan** ~ loss of blood; **huşunu** ~ loss of consciousness
**itirmək** *f.* to lose* [lu:z]; **bir kəsi gözdən** ~ to lose* sight of *smb.*; **nüfuzunu** ~ to lose* prestige; **vaxt** ~ to waste one's time; **ümidini** ~ to lose* one's hope; ◊ **başını** ~ to lose* one's head
**itirtdirmək** *f.* to ask / to cause *s.o.* to remove (*d.*), to ask / to cause to drive out (*d.*)
**itirtmək** *f. bax* **itirtdirmək**
**itiuc** *s.* pointed, sharp-pointed
**itiuclu** *s.* sharp-pointed, (*i.s.*) with sharp point
**itiyarpaq** *s.* sharp-leaved; (*i.s.*) with sharp leaves
**itiyarpaqlı** *s. bax* **itiyarpaq**
**itki** *i.* loss; **ümumi** ~ total loss; **ağır** ~ grievous loss; **böyük** ~ serious loss
**itkin** **I.** *s.* missing; ~ **adamlar** missing people **II.** *z.*: ~ **düşmək** to be* missing, to be* lost, to disappear; ~ **salmaq** to drive* out / away (*d.*), to banish (*d.*)
**itkinlik** *i.* disappearance; banishment
**itkisiz** *z.* without loss / waste; **məhsulu** ~ **yığmaq** to bring* in a harvest without loss
**itkisizlik** *i.* the state of being without loss
**it-qurd** *top. i.* riff-raff
**itmək** *f.* **1.** to be* lost, to disappear, to vanish; **Uşaq itdi** The child was lost; **gözdən** ~ to disappear from view; **O, izdihamın işində itdi** He vanished in the crowd; **2.** to be* wasted, to go* to waste; **Mənim bütün günüm itdi** I've wasted the whole day
**itmiş** *fs.* lost; ~ **vaxt** lost time; ~ **imkan** lost opportunity
**itoynadan** *i. d.d.* wag; joker, jester
**itsaxlayan** *i.* dog-keeper, dog-fancier
**ittifaq** *i.* union; alliance; **yazıçılar ~ı** writers' union; **hərbi** ~ military alliance
**ittiham** **I.** *i.* charge (of / against), accusation (of); **bir kəsi bir şeydə ~ etmək** to accuse *smb.* of *smth.* **II.** *s.* accusatory; ~ **hökmü** *hüq.* verdict of guilty
**ittihamçı** *i.* accuser; *hüq.* prosecutor; **dövlət ~sı** public prosecutor
**ittihamnamə** *i.* verdict of guilty
**ityatmaz** *s.* a very dirty bed place
**ityeməz** *s.* extremely bad / poor; ~ **xörək** a meal of extremely poor quality

**iy** **I.** *i.* smell, odour; scent; ~ **bilmək** to smell, to catch* / to pick up the smell (of); ~ **hiss etmək** to catch* / to pick up the smell (of), to smell; **qəşəng** / **dəhşətli** / **qeyri-adi** ~ a nice / horrible / unusual smell; **qızılgülün ~i** the scent of roses; **çiçəklərin ~i** the scent / odour of flowers; **ətirin ~i** the scent / odour of perfume; **zərif ~ a** delicate scent / odour; **zəif** ~ a faint smell / odour; **iyrənc ~ a** nasty / disgusting smell; reek; **tütün və pivə ~i** a reek of tobacco and beer; ~ **gəlmək** 1) to smell (of); 2) **(pis)** to reek (of); **Baharın iyi gəlir** It smells of spring, Spring is in the air; **Onun nəfəsindən (ağzından soğan iyi gəlir)** His breath reeks of onions; ◊ **Bu işdən əyrilik iyi gəlir** This business reeks of dishonesty; ◊ **Siz bilirsinizmi bundan nə iyi gəlir?** *d.d.* Do you realize what this implies? ◊ **Bundan xata iyi gəlir** This means trouble **II.** *i. toxuc.* Spindle

**iybilmə** *i.* sense of smell; **həssas (zərif)** ~ **qabiliyyətinə malik olmaq** to have* a fine / an acute sense of smell; *d.d.* to have* a good nose

**iyəbənzər** *s.* spindle-shaped

**iyimək** *f.* to go* bad, to become* rotten

**iyimiş** *s. bax* **iylənmiş**

**iyirmi** *sy.* twenty; ~ **bir** twenty-one; ~ **iki** twenty-two; ~ **üç və s.** twenty-three, *etc.*

**iyirmicə** *sy.* only twenty, just twenty

**iyirminci** *sy.* twentieth; ~ **illər** the twenties; ~ **illərin əvvəllərində** in the early twenties; ~ **illərin sonlarında** in the late twenties; ~ **səhifə** page twenty; ~ **səhifədə** on page twenty; ~ **otaq** Room 20

**iyitmək** *f. bax* **iyləndirmək**

**iyləmək** *f.* to smell* (*d.*), to sniff (*d.*), to have* a smell; **qırmızıgül** ~ to smell / to sniff a rose; **Bu şərabı iyləyin, görün yaxşıdırmı?** Have a smell of this wine: does it seem all right?

**iyləndirmək** *f.* to let* (*d.*) become rotten, to let* (*d.*) go* bad; **əti** ~ to let* the meat become rotten / bad

**iylənmək** *f.* **1. (xarab olmaq)** to go* bad, to become* rotten / tainted; **Ət iylənib** The meat has become rotten / tainted; **2. (iy vermək)** to smell (of); **(pis iy vermək)** to reek (of), to stink* (of); **yaxşı** / **qəşəng** / **turş** ~ to smell good / nice / sour; **sarımsaq** ~ to reek of / to stink of garlic; **tər** ~ to reek of sweat; **Onun nəfəsi sarımsaq iylənir** His breath smells of / reeks of / stinks of garlic; ◊ **Balıq başından iylənir** *at. söz.* Fish begins to stink at the head

**iylənmiş** *s.* rotten, tainted, (gone) bad; ~ **ət** rotten / tainted meat; ~ **yumurta** rotten egg

**iyləşmək** *f.* to sniff each other, to smell each other / one another

**iylətmək** *f. bax* **iyləndirmək**

**iyli** *s.* fragrant, odorous, aromatic; ~ **çiçəklər** fragrant flowers; ~ **sabun** aromatic soap

**iylilik** *i.* odorousness, fragrancy

**iynə** *i.* **1.** needle; **2. (həşəratda)** sting*; **3.** *tib.* injection; **bir kəsə ~ vurmaq** to give* *smb.* injection; ◊ ~ **üzərində oturmaq** *d.d.* to be* on pins and needles

**iynəbatırma** *i. tib.* acupuncture

**iynəqabı** *i.* needle-case

**iynələmə** *fi.* **1.** *bax* **iynəbatırma**; **2.** pricking with needle

**iynələmək** *f.* to needle (*d.*), to prick (*d.*); *məc.* to pique [pi:k] (*d.*), to sting* (*d.*)

**iynəli** *s.* **1.** pricky; (*i.s.*) covered with needles; **2.** *məc.* ironical; ~ **sözlər** ironical words; ~ **kompliment** ironical compliment

**iynəşəkilli** *s. bax* **iynəvarı**

**iynəvarı** *s.* needle-shaped

**iynəvurma** *i.* injection

**iynəyarpaq** *s.* coniferous; ~ **meşə** coniferous forest; ~ **ağaclar** coniferous trees

**iynəyarpaqlı** *s. bax* **iynəyarpaq**

**iynəyarpaqlılar** *top. i. bot.* conifers

**iyrənc** **I.** *s.* disgusting, abominable, foul, repulsive; ~ **iy** disgusting / foul smell; ~ **hava** abominable / foul weather **II.** *z.* disgustingly, abominably

**iyrənclik** *i.* the state of being disgusting / foul

**iyrəndirmək** *f.* to disgust (*d.*), to provoke / to cause disgust, to make* *smb.* feel sick, to fill (*d.*) with disgust; **bir kəsdən** ~ to feel* an aversion for *smb.*; **Sənin kobud hərəkətlərin məni iyrəndirir** Your rude behaviour disgusts me; **Mehmanxanadakı yemək məni iyrəndirdi** The food at the hotel filled me with disgust

**iyrənən** *s.* fastidious, squeamish; finical; ~ **adam** fastidious person

**iyrənmək** *f.* to be* fastidious / squeamish (about); **Mən hər şeydən iyrənirəm** I'm squeamish about everything

**iysiz** *s.* odourless, scentless, (*i.s.*) without smell; ~ **çiçəklər** scentless / odourless flowers

**iysizlik** *i.* lack of odour / scent / smell

**iyşəkilli** *s. bax* **iyəbənzər**

**iz** *i.* track, footprint, footstep; *məc.* trace, sign [saın], vestige; **təzə** / **yeni** ~ **lər** fresh tracks / footprints; **bir kəsi ~ə salmaq** to put* *smb.* on trail (of); **~ə düşmək** to come* upon the tracks, to find* traces (of); *məc.* to get* on the tracks / trail (of); **bir kəsin ~i ilə getmək** to follow in the tracks of *smb.*; **(elm sahəsində)** to follow in *smb.*'s footsteps; **~i itirmək** to lose* track (of); **zəhmətin ~ləri** signs of labour; **daha erkən mədəniyyət ~ləri** vestiges of an earlier civilization

**izafət** *i. dilç.* postpositional attributive group

**izafi** *s.* **1. (lazımsız)** unnecessary; ~ **söhbətlər** unnecessary talks; **2.** *siya. iq.* surplus (*attr.*); ~ **əmək** surplus labour; ~ **dəyər** surplus value; ~ **məhsul** surplus production

**izafilik** *i.* surplus

**izah** *i.* explanation, elucidation; ~ **etmək** to explain (*d.* to); **mətni** ~ **etmək** to elucidate a text; **səbəbi** ~ **etmək** to elucidate the reason; **sözün mənasını bir kəsə** ~ **etmək** to explain the meaning of the word to *smb.*

**izahat I.** *i.* **1.** explanation; **yazılı** ~ written explanation; **bir kəsdən** ~ **tələb etmək** to demand an explanation of / from *smb.*; to insist on an explanation from *smb.*; ~ **vermək** to explain (*d.*), to elucidate (*d.*), to give* an explanation; **2.** comment; commentary; **İzahat artıqdır (lazım deyil)** Comment is superfluous, No comment is needed **II.** *s.* explanatory; ~ **vərəqəsi** explanatory note, note of explanation; ~ **işi** explanatory work

**izahatçı** *i.* commentator

**izahatçılıq** *i.* the job of a commentator

**izahedici** *s.* explanatory, elucidatory; ~ **qeyd** explanatory note; ~ **sözlər** elucidatory words

**izahedilməz** *s.* inexplicable, unaccountable; ~ **səbəblər** unaccountable reasons; ~ **sirr** inexplicable mystery

**izahedilməzlik** *i.* inexplicability

**izahlı** *s.* explanatory, elucidatory; ~ **lüğət** explanatory dictionary

**izahsız** *s.* (*i.s.*) without explanation / elucidation; (*i.s.*) having no explanation / elucidation

**izaxtaran** *i.* tracker, pathfinder

**izçi** *i.* tracker, pathfinder

**izdiham** *i.* **1.** crowd; **~a qarışmaq** to mingle in / with the crowd; **2.** procession; train; **dəfn ~i** funeral procession / train

**izdihamlı** *s.* crowded, busy; ~ **iclas** crowded meeting; ~ **küçələr** crowded / busy streets

**izdihamlılıq** *i.* the state of being crowded

**izdivac** *i. arx. s.* marriage; ~ **etmək** to marry, to get* married

**izhar** *i. arx.* expression, revealing; ~ **etmək** to express (*d.*), to tell* (*d.*), to say* (*d.*); **dərdini kədərini** ~ **etmək** to give* vent to one's sorrow and grief; **hisslərini** ~ **etmək** to give* vent to one's feelings

**izin** *i.* permission; permit; ~ **vermək** to permit, to allow, to give* permission; ~ **almaq** to get* / to have* permission

**izincə** *z.* ~ **getmək** to go* after, to follow in the tracks

**izinli** *s. bax* **icazəli**

**izinsiz** *s. bax* **icazəsiz**

**izləmək** *f.* **1.** to pursue (*d.*), to chase (*d.*), to be* after, to go* after, to follow (*d.*); **düşməni** ~ to pursue the enemy; **bir kəsi daban-dabana** ~ to follow *smb.* close(ly), to follow hard on smb,'s heel; **2. (xəfiyyə)** to shadow (*d.*); **Mən hiss etdim ki**, **məni izləyirlər**, **lakin arxamda heç kimi görə bilmədim** I felt that I was being shadowed, but I couldn't see anyone behind me

**izlənmək** *f.* **1.** to be* pursued / tracked / chased / followed; **2. (xəlvəti)** to be* shadowed; **Onu hər yerdə izləyirlər** He / She is shadowed everywhere

**izlətdirmək** *f.* **1.** to ask / to cause *smb.* to pursue (*d.*) / to chase (*d.*) / to trace (*d.*); **2. (xəlvəti)** to ask / to cause *smb.* to follow (*d.*) / to shadow (*d.*)

**izlətmək** *f. bax* **izlətdirmək**

**izolə** *i.*: ~ **etmək** to isolate [ˊaı-] (*d.*), **(həm də** *tex.***)** to insulate (*d.* from, against); ~ **olunmaq** to be* isolated / insulated; **(adam** *haq.***)** to isolate oneself; ~ **edilmiş** isolated,

insulated; ~ **edilmiş fakt** isolated / insulated fact

**izoləedici** *s. tex.* insulating

**izolyasiya** *i. fiz. tex.* isolation; **(həm də** *tex.***)** insulation; **(həm də** *tib.***)** quarantine

**izolyator** *i.* **1.** *tex. fiz.* insulator; **2. (xəstəxanada və s.)** isolation ward; **(həbsxanada)** punishment cell; solitary confinement cell; **(siyasi dustaqlar üçün)** "**izəlator**" (in the former USSR)

**izsiz I.** *s.* traceless; (*i.s.*) without leaving a trace / track / footprints; **II.** *z. bax* **izsiz-soraqsız**

**izsiz-soraqsız** *z.* without leaving a trace; ~ **yoxa çıxmaq** to disappear without leaving a trace; to disappear completely

**izsiz-tozsuz** *z. bax* **izsiz-soraqsız**

**iztanıyan** *i. bax* **izaxtaran**

**iztirab** *i.* pang, torment, poignancy, agony; **aclıq ~ları** pangs of hunger; **qısqanclıq ~ları** pangs / torments of jealousy; ~ **çəkmək to** agonize, to be* in torment; ◊ **bir kəsə ~ vermək** to put* *smb.* to (the) torture, to cause *smb.* to suffer pangs / torments

**iztirabla** *z.* poignantly, agonizingly

**iztirablı** *s.* poignant, agonizing; ~ **xatirələr** agonizing / poignant memories; ~ **günlər** agonizing days; ~ **şübhələr** agonizing doubts

**iztirablılıq** *i.* poignancy, the state of being poignant / agonizing

**iztirabsız** *s.* (*i.s.*) without poignancy / agony, calm

**iztirabsızlıq** *i.* lack of poignancy, the state of being without agony

**izzət** *i.* respect, honour, esteem; ~ **sahibi olmaq** to be* esteemed / respected; ~ **göstərmək** to respect (*d.*), to show* respect for, to respect (*d.*)

**izzətli** *s.* respected / esteemed highly, (*i.s.*) worthy of respect / honour

# Jj

**J**, **j** the 15th letter of the Azerbaijani alphabet
**jaket** *i.* jacket
**jalə** *i.* dew; dew-drop
**jandarm** *i.* gendarme
**jandarmeriya** *i. top. i.* gendarmery
**janr** *i.* genre [ˈʒa:ŋr]
**janrist** *i.* genre-painter, painter of genre
**jarqon** *i. dilç.* jargon, slang; **(müəyyən sosial qrupa məxsus)** cant; **oğru jarqonu** thieves' cant; **jarqonla danışmaq** to cant; to speak* slang
**jelatin I.** *i.* gelatin(e) **II.** *s.* gelatinous
**jelatinləşdirmək** *f.* to gelatinize (*d.*)
**jelatinləşmək** *f.* to gelatinize; to be* gelatinized
**jele** *i.* jelley
**jenşen** *i. bot.* ginseng
**jest** *i.* gesture
**jeton** *i.* **1. (sikkə əvəzi)** counter; **2. (nişan)** medal
**jilet** *i.* waistcoat; *amer.* vest
**jiletli** *s.* **1.** (*i.s.*) with a waistcoat; **jiletli kostyum** costume with a waistcoat; **2.** in a waistcoat, wearing a waistcoat
**jiletlik** *s.* good / suitable for waistcoat; **jiletlik parça** fabric / cloth suitable for waistcoat
**jirovka** *i.* endorsement; banking order
**jmıx** *i.* oilcake, cotton-cake
**jmıxdoğrayan I.** *i.* oilcake grinder, cotton-cake grinder **II.** *s.* oilcake grinding, cotton-cake grinding
**jokey** *i.* jockey
**jonqlyor** *i.* juggler
**jonqlyorluq** *i.* jugglery; **jonqlyorluq etmək** to juggle
**julik** *i.* rogue, swindler; trickster **(oyunda)** cheat; **(kart oyununda)** sharper
**juliklik** *i.* roguery, swindle; sharp practice; ~ **etmək** to swindle; **(oyunda)** to cheat
**jurnal** *i.* **1. (dövri məcmuə)** periodical; **(elmi məcmuə)** journal; **(kütləvi məcmuə)** magazine; **aylıq jurnal** monthly (magazine); **həftəlik jurnal** weekly (magazine); **iki həftədən bir çıxan jurnal** fortnightly; **2. (qeydəalma kitabı**, **dəftəri)** register; diary, journal; **sinif jurnalı** class register; **növbə jurnalı** *dan.* log (-book); **jurnalda qeydə almaq** / **qeyd etmək** to register (*d.*)
**jurnalist** *i.* journalist, pressman*, a newspaper reporter
**jurnalistika** *i.* journalism
**jurnalistlik I.** *i.* the profession of a journalist **II.** *s.* journalistic; **jurnalistik fəaliyyət** journalistic activity
**jüri** *i.* **(təltif üzrə)** jury; **jüri üzvü** judge; **(incəsənət sərgisində)** hanging committee; **jüri üzvü** member of the hanging committee; **(idman yarışında)** umpire; **(hakimlər heyəti)** judges *pl.*; **jüri üzvü olmaq** to be* one of the judges; to be* a member of the hanging committee

# Kk

**K, k** the 16th letter of the Azerbaijani alphabet
**kabab** *i.* kabab, kebab, cabob (meat on skewers); ~ **bişirmək** to cook kabab; ~ **çəkmək** to stick meat on skewers, to spit pieces of mutton on skewers; ◊ **ürəyini**, **ciyərini** ~ **etmək** to make* *smb.* suffer greatly; to distress (*d.*), to afflict (*d.*); ~ **olmaq** *məc.* to scorch, to be* scorched; **günün altında qızınmaq**, **özünü günə vermək** to bask in the sun, ◊ **günün altında** ~ **olmaq** to be* fried in the sun
**kababçı** *i.* kabab- / cabob-dealer
**kababçılıq** *i.* the job of a kabab-dealer / kabab cook
**kababxana** *i.* kababkhana, Kebab house
**kabablıq** *s.* (*i.s.*) suitable / good for kabab; ~ **ət** mutton / chunks of lamb suitable for kabab
**kabardin I.** *i.* Kabardian, Kabardinian, Kabarda(man*) **II.** *s.* Kabardinian, Kabardian; ~ **dili** Kabardinian, the Kabardinian language
**kabardincə I.** *s.* Kabardian, Kabardinian; ~ **kitablar** Kabardi(ni) an books **II.** *z.* Kabardian; ~ **danışmaq** to speak* Kabardian; ~ **yazmaq** to write* in Kabardian
**kabel** *i.* cable; **asma** ~ overhead cable; **yeraltı** ~ underground cable; **sualtı** ~ submerged cable; **telefon** / **teleqraf ~i** telephone / telegraph cable
**kabinet I.** *i.* **1. (iş otağı)** study; **2. (həkimin qəbul otağı)** consulting-room; **(cərrahın otağı)** surgery; **(diş həkiminin otağı)** dental surgery; **(restoranda)** private room; **(massaj üçün)** massage-room; **3.** *siya.* **(hökumət)** cabinet **II.** *s.* cabinet; ~ **alimi** armchair scientist; ~ **elmi** book-learning; ◊ ~ **portreti** cabinet photograph
**kabinə** *i.* booth; **(yük maşınında)** cab; **(liftdə)** lift car; **pilot ~si** cockpit, cabin; **seçki** / **səsvermə ~si** polling booth
**kabus** *i.* ghost, spectre / specter, spook; **(qarabasma**, **gözəgörünmə)** phantom; apparition; ~ **kimi** ghostly; ~ **şəkilli** ghosty, ghostly
**kabusabənzər** *s.* ghostlike
**kadet I.** *i.* cadet **II.** *i. siya.* Constitutional-Democrat; ~ **partiyası** (The Party of) Constitutional-Democrats
**kadr I.** *i.* **(kino)** sequence; **(tək şəkil)** still **II.** *i.* cadre; **~lar** personnel sing; **gənc ~lar** young personnel sing; **~ların seçilməsi** selection of personnel; **~ların hazırlanması** training (of) specialists, training (of) skilled workers; **~lar hazırlamaq** to train specialists, to train skilled workers **III.** *s.* personnel, staff; **~lar şöbəsi** personnel / staff department
**kafe** *i.* cafe; coffee-house
**kafedra** *i.* **1.** chair; **2. (xitabət kürsüsü)** rostrum; **3.** department
**kafel** *i.* glazed / Dutch tile; dalle, stone tile
**kafelli** *s.* tiled
**kafeteriya** *i.* cafeteria
**kafər** *i. bax* **kafir** I
**kafi I.** *i.* **(qiymət)** satisfactory, fair **II.** *s.* satisfactory; sufficient; ~ **dərəcədə** satisfactorily; sufficiently; ~ **olmaq** to be* sufficient; to be* satisfactory
**kafilik** *i.* satisfactoriness; sufficiency
**kafir I.** *i.* giaour [ˊdʒauə], infidel, unbeliever; pagan **II.** *s.* **1.** infidel, unfaithful, godless; **(mürtəd)** apostate, blasphemous; **2. (zalım**, **insafsız)** hard-hearted, stone-hearted
**kafircəsinə** *z.* hard-heartedly, cruelly
**kafirlik** *i.* **1.** infidelity, unfaithfulness, godlessness, blasphemy, apostasy, ungodliness; **2.** *məc.* **(zalımlıq**, **insafsızlıq)** hard-heartedness, cruelty
**kaftan** *i.* caftan, kaftan
**kaftar I.** *i.* **1.** *zool.* hyena; **2.** *məc.* **(çox qoca adam)** a decrepit man* / woman*; **3. (deyingən qarı)** grimalkin; tremagant; shrew; **(söyüş məqamında)** A witch! Old hag! **II.** *s.* very old; **(əldən düşmüş)** decrepit; senile; ~ **it** / **at** a decrepit dog / horse
**kaftarkus** *i. zool. bax* **kaftar (1-ci mənada)**
**kaftarlaşmaq** *f.* **1. (qocalmaq)** to grow* / to become* very old; **2. (qocalıb əldən düşmək)** to become* / to grow* senile
**kaftarlıq** *i.* **1. (qocalıq)** old age, oldness; **2. (qoca zəifliyi)** senility

**kağız I.** *i.* **1.** (*müst.* **məna)** paper; **ağ / yazılmamış ~** blank / clean paper; **qəzet ~ı (çap üçün)** news-print; **damalı ~** squared paper; **divar ~ı** wallpaper, paper-hangings *pl.*; **məktub üçün ~** letter paper, note paper; **rəngli ~** coloured paper; **şirəli ~** glossy paper; **xətli / cızıqlı ~** ruled paper; **~a bükmək** to paper (*d.*), to wrap up in paper (*d.*), to fold / enclose in paper; **~a köçürmək (fikri)** to commit to paper; **~ çəkmək (divara)** to paper (the wall); **2. (məktub)** letter; **3. (sənəd)** paper, document; **qiymətli ~lar (səhm, istiqraz, borc, qəbzi və s.)** securities *pl.*; ◊ **~ını almaq (boşanmaq)** *d.d.* to get* a divorce; ◊ **~ını vermək (boşamaq)** *d.d.* to divorce (*d.*); **dilindən ~ almaq (bir şey üçün)** to make* *smb.* sign (for), **(bir şey üçün)** to make* *smb.* pledge / commit himself (to+*inf.*); **dilindən ~ vermək** to give* a receipt (for), to pledge / to commit himself (to+*inf.*); **~ üzərində qalmaq** to remain on paper **II.** *s.* paper; **~ istehsalı** paper making, paper production; **~ dəsmal** paper napkins; tissue; **~ pul** paper money / currency; **~ fabrikası** paper-mill

**kağızbadam** *i.* almond (with thin and brittle shell)

**kağızçılıq** *i.* **(bürokratçılıq)** red tape *idiom.*

**kağızkəsən I.** *i. poliqr.* **(maşın)** paper-cutter **II.** *s.* paper-cutting; **~ bıçaq** paper-knife

**kağız-kuğuz** *i.* **1. (yazılı kağızlar)** scribbles *pl.*; **2. (kağız qırıntıları)** scraps / bits of paper

**kağızqatlayan** *i. poliqr.* **(işçi və maşın)** folder

**kağızlamaq** *f.* to paper (*d.*); to line (*d.*) with paper; to hang* wallpaper; **divarı ~** to paper the wall, to line the wall with paper

**kağızlanmaq** *f.* to be* papered, to be* lined with paper

**kağızlaşmaq** *f.* **(məktublaşmaq, yazışmaq)** to be* in correspondence (with), to correspond (with)

**kağızlatdırmaq** *f.* **1.** to have* (*d.*) papered; **2.** to make* *smb.* paper (*d.*); to ask / to cause *s.o.* to paper (*d.*)

**kağızlatmaq** *f. bax* **kağızlatdırmaq**

**kağızlı** *s.* **1. (divar** *haq.***)** papered, lined with paper; **2. (sənədi olan)** (*i.s.*) having document / paper, furnished with document / paper

**kağızpaylayan** *i.* **1. (poçtalyon)** post-man; *amer.* letter-carrier; **2. (kuryer)** messenger

**kağızsız** *s.* **1. (kağızı olmayan)** paperless; **(divar** *haq.***)** unpapered, (*i.s.*) not lined with paper; **2. (sənədsiz)** (*i.s.*) without document / paper, (*i.s.*) not furnished with documents / papers

**kaha** *i.* **(zağa)** grotto, den; **(mağara)** cave, caverna, den

**kahal** *s.* **1. (başısoyuq)** negligent, careless, care-free, devil-may-care; **öz vəzifəsinə / işinə ~ olmaq** to be* negligent of one's duty; **2. (ağır tərpənən, ləng)** sluggish, slow; **~ adam** slowcoach, laggard

**kahallıq** *i.* **1.** negligence; carelessness; **~ etmək** to neglect (of); **2.** sluggishness

**kahı** *i. bot.* lettuce

**kahin** *i.* **1. (ruhani)** priest; **(qədim Romada)** augur; **(qədim Yunanıstanda)** oracle; **2. (gələcəkdən xəbər verən adam)** augur [ˈɔ:gəʳ]

**kahinlik** *i.* **1.** priesthood; **2. (gələcəkdən xəbər vermək)** augury

**kainat** *i.* the universe

**kakao I.** *i.* **1. (tozu, içkisi)** cocoa; **2. (paxlası)** cacao, cocoa-beans **II.** *s.*: **~ toxumu** cacao-seed; **~ dənəsi (qabıqdan çıxarılmış)** cacao nibs; **~ yağı** cacao – seed oil; **~ ağacı** cacao (-tree)

**kaktus I.** *i. bot.* cactus [ˈkæktəs] **II.** *s. bot.* cactaceous [kəkˈteıʃəs]

**kal** *s.* **1. (yetişməmiş)** unripe, green; **2.** *məc.* immature; **3. (səs** *haq.***)** hoarse, husky, raucous [ˈrɔ:kəs]; **~ səs** hoarse / husky voice; **~ səslə danışmaq** to speak* in a hoarse voice; **4.** *məc.* **(gec anlayan)** hard of understanding, slow-witted; **(kütbeyin)** dull, obtuse, stupid; **~ adam** slow-witted person; dullard, dunderhead; ◊ **yuxudan ~ oyanmaq** to awake* having / getting not enough sleep

**kalafa** *i.* **1. (xarabalıq)** ruin; **2. (divarda iri dəlik)** hole, gap; **3. (iri oyuq, çuxur)** pit

**kalafalıq** *i.* ruins *pl.*

**kalağayı** *i. bax* **kəlağayı**

**kalambur** *i.* pun

**kalan** *i. d.d.* **1. (pullu, varlı)** moneyed; **puldan ~ olmaq** to be* rich in money, to wallow in money; **~ adam** moneyed man*;

man* of means; **2. (çox**, **bol)** abundant, plentiful; **Burada göbələk kalandır** Here mushrooms are plentiful / abundant
**kalendar** *i. bax* **təqvim**
**kaleydoskop** *i.* kaleidoscope
**kaleydoskopik** *s.* kaleidoscopic(al)
**kalış** *i. bot.* durra
**kalışlıq** *i.* durra-grove
**kalibr** *i.* **1. (silah lüləsində)** calibre; *amer.* caliber; **2.** *tex.* gauge
**kalibri** *i. zool.* hummingbird
**kalium** *i. kim.* potassium
**kalium-karbonat** *i. kim.* potash
**kaliumlu** *s. kim.* potassium; potash; ~ **kübrə** potash fertilizer
**kalka** *i.* **1. (kağız)** tracing-paper; **(parça)** tracing-cloth; **üzünü ~ya köçürmək** to trace (*d.*), to calk (*d.*); **2.** *dilç.* loan translation; ~ **etmək** *dilç.* to borrow as a translation loan word
**kalkulyasiya** *i.* calculation; ~ **etmək** to calculate (*d.*)
**kalkulyator** *i.* calculator; cost-clerk
**kallaşmaq** *f.* **(səs)** to become* / to get* hoarse / raucous / husky; **səsi kallaşana qədər qışqırmaq (ağlamaq)** to shout (cry) oneself hoarse
**kallaşmış** *s. bax* **kal (3-cü mənada)**
**kallıq** *i.* **1. (səsin və s. kallığı)** raucousness, hoarseness, huskiness; **2.** unripeness; immaturity; **3.** *məc.* **(kütlük**, **korazehinlik)** dullness, stupidity, obtuseness, slow-wittedness
**kalliqraf** *i.* calligrapher, calligraphist
**kalliqrafik** *s.* calligraphic; ~ **xətt** calligraphic hand (writing) ~ **xətlə yazmaq** to write* calligraphically
**kalliqrafiya** *i.* calligraphy
**kalmıq I.** *i.* Kalmyc (Kalmuck), **(qadın)** Kalmyk woman* **II.** *s.* Kalmyk; ~ **dili** Kalmyk, the Kalmyk language
**kalmıqca** *z.* Kalmyk, in Kalmyk; ~ **danışmaq** to speak* Kalmyk, to speak* the Kalmyk language; **~yazmaq** to write* in Kalmyk
**kalorimetr** *i. fiz.* calorimeter
**kalorimetriya** *i. fiz.* calorimetry
**kaloriya** *i. fiz.* calorie; **böyük ~** large calorie, kilogram-calorie; **kiçik** ~ small calorie, gram-calorie
**kaloriyalı** *s.* high-calorie; rich in calories; ~ **qida** food rich in calories; ~ **yanacaq** high-calorie fuel
**kaloriyalılıq** *i.* caloric value
**kalsium** *i. kim.* calcium
**kam I.** *i.* **1. (arzu**, **istək**, **murad)** wish, desire; aspiration; **2. (məqsəd**, **məram)** aim, purpose, object, end; **3. (ləzzət**, **zövq)** delight; ~ **almaq**: 1) to gain / to attain one's object; 2) **(intiqam almaq)** to avenge (*d.*), to take* vengeance (on); 3) **(başqasının bədbəxtliyinə sevinmək)** to gloat over, to rejoice at the misfortune of others; **~a yetmək** / **yetişmək** / **çatmaq** to gain / to attain one's object / ends; to secure one's object; to succeed in one's object; to achieve one's desire; **~a yetməmək** / **çatmamag**, **~ı gözündə qalmaq** to fail in one's object, not to achieve one's desire **II.** *i.*: **~ına çəkmək 1. (udmaq əjdaha**, **ilan və s.)** to gulp down (*d.*), to swallow (*d.*); **2. (məngirləmək**, **yiyələnmək)** to make* *smth.* one's own; to appropriate (*d.*)
**kamal** *i.* **1. (əqli yetkinlik)** mental maturity; perfection; **2. (ağıl**, **zəka)** mind, intelligence, intellect, wisdom, sense, wit; ~ **sahibi** man of sense / wisdom; a clever / intelligent man; **~a yetirmək**: 1) to perfect (*d.*) (in), to bring* to perfection (*d.*); 2) **(tamamlamaq**, **başa çatdırmaq)** to complete (*d.*); **~a yetmək / yetişmək / çatmaq** to attain / to achieve perfection, to perfect oneself (in); to gain mental maturity
**kamallanmaq** *f.* to become* wise / clever / intelligent; to become* mentally mature
**kamallı** *s.* clever, wise, intelligent
**kamallılıq** *i.* **1.** cleverness; intellectuality; **2.** mental maturity; **3.** reasonableness
**kamalsız** *s.* **1.** not wise / clever / intelligent; **2.** mentally immature
**kamalsızlıq** *i.* the state or quality of being not wise / clever / intelligent
**kaman I.** *i. bax* **kamança II.** *i.* bow; ~ **yayı** bow-string; **qaşı ~** *bax* **kamanqaş**; **~ın yayını dartmaq** to draw* / to bend* a bow; ~ **kimi əyilmək** to bend* as a bow; to stoop (with); **O, qocalıqdan kaman kimi əyilir** He is stooping with old age; ~ **kimi** / **tək əymək** to stoop / to bend* down (*d.*); **~a dönmək** to bend* as a bow

**kamança** *i. mus.* kamancha (an oriental bow instrument – a kind of fiddlle or violin); ~ **yayı** fiddle-bow, fiddlestick
**kamançaçalan** *i. mus.* kamancha-player
**kamançaçı** *i. bax* **kamançaçalan**
**kamançaçılıq** *i.* the profession of a kamancha-player
**kamandar** *i.* **1. (oxatan)** bowman; **2. (yay-ox-daşıyan)** bow-bearer
**kamanqaş** *s.* arch-browed, (*i.s.*) with arched eyebrows
**kamanqaşlı** *s. bax* **kamanqaş**
**kambala** *i. zool.* plaice, flounder; flat-fish
**kameliya** *i. bot.* camellia
**kamera I.** *i.* **1. (xüsusi otaq)** chamber, cell; **dezinfeksiya ~sı** disinfection chamber; **saxlama ~sı** cloak-room; check-room, left-luggage room; **həbsxana ~sı** cell, ward; **biradamlıq** ~ solitary (confinement) cell, one-man cell; **2. (topun rezin kisəsi)** bladder; **(şinin rezin borusu)** inner tube (of a tire); **3. (fotoaparat)** camera; **4.** *tex.* chamber; **hava ~sı** air-chamber **II.** *s.* chamber; ~ **musiqisi** chamber music; ~ **konserti** chamber concert
**kamerton** *i. mus.* tuning fork, pitchfork
**kamfora I.** *i. əcz.* camphor **II.** *s.*: ~ **ağacı** camphor tree; ~ **yağı** camphor-oil
**kamforalı** *s.* camphorous, camphoric
**kamil** *s.* **1.** perfect; mature; **2. (mahir)** capable; skilled; experienced; skilful; **3. (bitkin)** complete
**kamilləşdirilmək** *f.* to be* perfected; to be* improved
**kamilləşdirmək** *f.* to perfect (*d.*), to make* perfect (*d.*)
**kamilləşmək** *f.* **1.** to become* perfect (in); to perfect oneself (in); **2. (müdrikləşmək)** to gain wisdom
**kamillik** *i.* **1.** perfection; (mental) maturity; **2. (bitkinlik)** completeness
**kampaniya** *i.* campaign; drive; **mətbuat ~sı** press campaign; **seçki ~sı** election campaign; **səpin ~sı** sowing campaign
**kamsız** *s.* unhappy, unlucky, luckless
**kanal** *i.* **1. (süni arx)** canal; **suvarma ~ı** irrigation canal; **(dənizlər arasında boğaz)** channel; **2.** *anat.* duct, canal; **sidik ~ı** urethra; **3. (silah lüləsində)** bore (of the barrel); **4.** *məc.* **(yol, vasitə)** channel; **müxtəlif ~lardan istifadə etmək** to use different channels
**kanalizasiya I.** *i.* sewer, sewerage; ~ **çəkmək** to sewer (*d.*), to supply with sewerage system (*d.*) **II.** *s.* sewerage; ~ sistemi sewerage system; ~ **borusu** sewer (-pipe); **müasir ~ sistemi olan şəhər** a town / city with a modern sewerage system
**kanalizasiyalı** *s.* sewered, supplied with sewerage system
**kanalizasiyasız** *s.* unsewered; (*i.s.*) not furnished with sewerage system, (*i.s.*) having no sewerage system
**kanat** *i.* rope, cable; **polad** ~ steel-rope
**kandar** *i.* threshold; **~a ayaq basmaq** to step over the threshold, to set* foot* on *smb.*'s threshold; ◊ **bir kəsin ~ını qoparmaq** ≅ to pester *smb.*, to visit (*d.*) frequently
**kanifol** *i.* rosin, colophony; ~ **sürtmək** / **çəkmək** to rosin (*d.*)
**kanifollatmaq** *f.* to be* rosin (*d.*), to have* (*d.*) rosined
**kanifollanmaq** *f.* to be* rosined
**kanifollatdırmaq** *f.* to ask / to cause *smb.* to rosin (*d.*)
**kanifollatmaq** *f. bax* **kanifollatdırmaq**
**kankan** *i.* well-sinker
**kankanlıq** *i.* well-sinking; the job of a well-sinker
**kanoe** *i. id.* canoe
**kansler** *i.* chancellor; **Almaniyanın ~i** the Chancellor of Germany
**kantata** *i. mus.* cantata
**kapella** *i. mus.* **(xor)** choir [ˈkwaıə]
**kapillyar** *i. anat.* capillary blood vessel
**kapital** *i. iqt.* capital; **daimi** ~ constant capital; **dəyişən** ~ variable capital; **dövriyyə ~ı** circulating / working capital; **əmtəə ~ı** commodity capital; **əsas** ~ fixed capital; **maliyə ~ı** financial capital; **sənaye ~ı** industrial capital; **ölü** / **istifadəsiz** ~ dead stock, unemployed capital; **ticarət ~ı** trade capital; ~ **qoyuluşu** capital investment; ~ **qoymaq** to invest (capital)
**kapitalist I.** *i.* capitalist; financer **II.** *s.* capitalistic, capitalist; ~ **istehsal üsulu** capitalist way of production; ~ **ölkələri** capitalist countries

**kapitalizm I.** *i.* capitalism; **inhisarçı ~** monopolistic capitalism; **sənaye ~i** industrial capitalism **II.** *s.* capitalism, capitalist; **~ quruluşu** capitalism, capitalist system; **~ cəmiyyəti** capitalist society, capitalism

**kapitallaşdırılmaq** *f. iqt.* to be* capitalized

**kapitallaşdırmaq** *f. iqt.* to capitalize (*d.*)

**kapitallaşmaq** *f. iqt.* to get* capitalized

**kapitan** *i.* **(***müx.* **məna)** captain; **komandanın ~ı** the captain of the team

**kapot** *i.* **1. (don)** capote, house-coat; **2.** *tex.* **(avtomobildə)** bonnet, **(təyyarədə)** cowl(ing)

**kapral** *i. hərb.* corporal

**kapriççio** *i. mus.* capricco

**kapron I.** *i. toxuc.* kapron **II.** *s.* kapron; **~ lifi** kapron / synthetic fibre; **~ corab** kapron stockings

**kapsul I.** *i. əcz.* capsule **II.** *i. hərb.* percussion cap, fulminate cap; *amer.* primer (cap); **detonator ~u** detonating cap

**kapsullu I.** *s.* capsulate, enclosed in a capsule **II.** *s.* capped, (*i.s.*) having a percussion / fulminate cap; (*i.s.*) having a detonating cap

**kapüşon** *i.* hood, cowl

**kar I.** *i.* deaf man* / woman* / girl / boy / child*; **~lar** *top. i.* the deaf **II.** *s.* **1.** deaf; **tamam ~** stone-deaf; **bir qulağı ~** deaf of an ear / deaf in one ear; **2.** *dilç.* voiceless; **~ samit** voiceless consonant; **~ etmək (bir kəsi)** to deafen (*d.*); **~ olmaq** to be* deaf; **O kişi kardır** That man is deaf; **(eşitmək qabilliyyətini itirmək)** to become* / to grow* deaf; **O, kar olub** He has become / grown deaf; **Bu səs bizi kar edəcək** This nose will deafen us **III.** *i.* **1. (peşə, məşğuliyyət)** occupation; **O nə karın sahibidir?** What is his occupation? **2. (iş)** dealing; **bir kəslə ~ı olmaq** to have* dealings with *smb.*, to have* *smth.* to do with *smb.*; **Mənim onunla heç bir karım yoxdur** I have no dealings with him / her; I have nothing to do with him / her; **3. (təsir**, **təsir qüvvəsi)** effect, efficacy; ◊ **~ aşmamaq**: 1) **(nəticə verməmək)** to yield no results; to be* of no effect; 2) **(kifayət etməmək)** to be* not sufficient; **Bundan kar aşmaz**, **bir az da əlavə et** It is not sifficient, add some more; **~ vermək** to come* in handy (to), to stand* *smb.* in good stead; **~ eləmək** / **salmaq** to have* / to produce effect (on, upon); to take* effect; **Mənim sözlərim ona kar eləmədi** My words didn't have an effect on him; **Dərman kar eləmədi** / **salmadı** The medicine didn't take effect; ◊ **~ görmək** to help (*d.*), to render assitance (to); **~a gəlmək** to prove useful (to), to be* of use (to), to come* in handy (to), to be* helpful (to); **Qutunu atma**, **bir gün karına gələr** Don't throw the box away, it may come in handy some time or other

**karabin** *i.* car(a)bine

**karabinçi** *i. bax* **karabinyor**

**karabinyor** *i.* car(a)bineer

**karagələn** *s.* **1. (köməyi dəyən)** helpful; (*i.s.*) of service / assistance; affording aid; beneficial; **2. (gərəkli)** good for *smth.*, useful (to)

**karagəlməyən** *s. bax* **karsız I**

**karagəlməz** *s. bax* **karsız I**

**karamel I.** *i.* caramel **II.** *s.* caramel; (*i.s.*) of caramel; **~ konfeti** caramel, sugarplum; **~ fabriki** factory of caramel

**karandaş I.** *i.* (lead) pencil; **rəngli ~** coloured pencil; **(üstü açıq)** crayon; **kimyəvi ~** ink / indelible pencil; **~la** with a pencil; **~la çəkilmiş** drawn in pencil, pencilled; **~la cəkilmiş şəkil** pencil drawing, pencilling; **~la yazmaq** to write* in / with a pencil; **~la çəkmək** to draw* with a pencil **II.** *s.* pencil; **~ qabı** pencil-case

**karandaşçərtən** *i. bax* **karandaşyonan**

**karandaşyonan** *i.* pencil sharpener

**karantin** *i.* quarantine; **~də olmaq** to be* in quarantine; **~ə salmaq** to quarantine (*d.*), to put* / to place in quarantine (*d.*)

**karat** *i.* carat

**karbid I.** *i. kim.* carbide; carbonide **II.** *s.* carbide; **~ lampası** carbide lamp

**karbohidrat** *i. kim.* carbohydrate

**karbohidrogen** *i. kim.* hydrocarbon

**karbol** *s.* carbolic; **~ turşusu** *kim.* carbolic acid

**karbon I.** *i. kim.* carbon **II.** *s.* carbon, carbonic; **~ qazı** carbon dioxide gas, carbonic acid gas; **~ turşusu** carbonic acid

**karbonat** *i. kim.* carbonate
**karbonit** *i. kim.* carbonite
**karbonlaşdırmaq** *f. kim.* to carbonate (*d.*), to carbonize (*d.*)
**karbonlaşmaq** *f. kim.* to carbonate, to be* carbonized
**karbonlu** *s. kim.* carbonaceous; carbonic
**karbonsuz** *s. kim.* carbon free
**karbonsuzluq** *i.* the state or quality of being carbon free
**karbürator** *i. tex.* carburetter, carburet(t)or
**kardinal** *i.* cardinal
**kardinallıq** *i.* cardinalate
**kardioqraf** *i.* cardiograph
**kardioqrafiya** *i.* cardiography
**kardioqram** *i. tib.* cardiogram
**kardiologiya** *i. tib.* cardiology
**kardioloji** *s. tib.* cardiologic(al)
**kardioloq** *i. tib.* cardiologist
**karel I.** *i.* Karelian **II.** *s.* Karelian; ~ **dili** Karelian, the Karelian language; ~ **xalqı** the Karelian people
**kareta** *i.* coach
**karə**: **Nə karəsən?** What are you? What is your occupation? **Nə karədir?** What is he / she? What is his / her occupation?
**kargah** *i.* **1. (xalça, palaz hanası)** carpet-maker's loom; weaver's loom; ~ **toxumaq** to make* / to weave carpet; **2. (tikmə sağanağı)** tambour; **3. (krujeva sağanağı)** lace-frame
**kargüzar I.** *i.* clerk; ~ **işləmək** to work as a clerk; to be* a clerk **II.** *s.* **1.** clerk's, clerical; ~ **vəzifəsi** clerk's office / post; **2. (işgüzar)** business-like; ~ **adam** business-like man* / person; **O, çox kargüzardır** He is very business-like
**kargüzarlıq** *i.* clerical work; clerk's occupation
**karxana** *i.* **1. (daş mədəni)** quarry; **qum ~sı** sand-pit; **əhəng daşı ~sı** lime-pit, limestone quarry; **2.** *arx.* **(emalatxana, fabrik, zavod)** manufactory; factory; mill; workshop; **çit ~sı** textile factory
**karxanaçı** *i.* manufacturer
**karxanaçılıq** *i.* the job of a quarry worker / manufacturer
**karıxdırıcı** *s.* **1. (çaşdırıcı)** bewildering, confusing; **2. (yanıldıçı)** causing to fall into error, causing to make a slip of tongue
**karıxdırmaq** *f.* **1. (çaşdırmaq, fikrini dolaşdırmaq)** to bewilder (*d.*), to confuse (*d.*); **Kənddən gəlmiş qocanı şəhərdəki izdiham və nəqliyyat karıxdırmışdı** The old man from the country was bewildered by the crowd and the traffic in the city; **Çox sual verərək məni karıxdırdılar** Asking many questions they confused me; **2. (yanıltmaq)** to make* one fall into error; to make* one slip; to put* one out; **3. (diqqətini, fikrini dağıtmaq)** to distract (*d.*)
**karıxmaq** *f.* **1. (çaşmaq)** to be* bewildered, to get* / to be* confused; to blunder; **O qədər sual verdilər ki, karıxdım** They asked so many questions that I got confused; **2. (səhv etmək)** to fall* into error; **3. (özünü itirmək)** to be* perplexed / puzzled; to be* at a loss; to be* nonplus(s)ed
**karikatura** *i.* caricature; **(siyasi məzmunlu)** cartoon; **~sını çəkmək** / **vermək** to caricature (*d.*), to lampoon (*d.*)
**karikaturaçılıq** *i.* the profession of caricaturist / cartoonist
**karikaturist** *i.* caricaturist; cartoonist
**karkas** *i.* frame, framework
**kar-lal I.** *i.* deaf-mute, deaf and mute **II.** *s.* deaf-and-dumb; **~lar(ın) əlifbası** deaf-and-dumb alphabet
**karlaşdırılmaq** *f.* **1.** to be* deafened; **2.** *dilç.* to be* devocalized / devoiced
**karlaşdırma** *fi.* **1.** deafening; **2.** *dilç.* devocalizing, devocalization, devoicing
**karlaşdırmaq** *f.* **1.** to deafen (*d.*); **2.** *dilç.* to devocalize (*d.*), to devoice (*d.*)
**karlaşmaq** *f.* **1.** to become* / to grow* deaf; **2.** *dilç.* to become* devocalized / devoiced / voiceless
**karlı I.** *s.* **1. (işbacaran, işgüzar)** efficient; worthy; business-like; **O, çox karlı adamdır** He is a very efficient man; **2. (təsirli)** effective, efficacious; **(dərman** *haq.***)** drastic, potent; **3. (möhkəm, tutarlı)** effectual; ~ **cəza** effectual punishment; **4. (effektiv, yaxşı nəticə verən)** efficient; ~ **metod** / **üsul** efficient method; **5. (gəlirli)** profitable, paying; **Karlı bir iş tapdım** I got a paying / profitable job; **6. (çox)** in large quantities, plentiful, a lot (of); **Onun karlı pulu var** He has a lot of money; **7.** *məc.* **(güclü, bərk**

– **yağış**, **qar**, **tufan**, **hücum** **və** **s**. *haq.*) heavy **II.** *z.* **1. (təsirli)** effectively, efficiently; **2. (bərk**, **güclü)** hard, heavily

**karlıq** *i.* deafness; **özünü ~a vurmaq** / **qoymaq** to pretend to be deaf; to turn a deaf ear *idiom.*

**karnaval** *i.* carnival

**karniz** *i.* **1.** *mem.* cornice; **(pəncərə üzərində çıxıntı)** ledge; **(damın kənar çıxıntıları)** eaves *pl.*; **2. (pərdə asmaq üçün)** cornice

**karp** *i. zool.* carp

**karsala** *s. d.d.* **1. (ağır eşidən)** dull / hard of hearing; **2. (əfəl**, **kütbeyin)** obtuse, stupid, muddle-headed, sheepish; **(key)** torpid; **(utancaq**, **cəsarətsiz)** diffident; **(əməzək)** awkward, clumsy

**karsız I.** *s.* **1. (vecsiz**, **faydasız)** worthless, good-for-nothing; useless; **2. (təsir etməyən)** ineffective, inefficacious; **(təsir qüvvəsi olmayan)** impotent; **(dərman** *haq.*) nondrastic, taking no effect; **(tutarlı olmayan)** ineffectual; **~ dərman** ineffective / nondrastic medicine / drug; **~ cəza** ineffectual punishment; **(lazımi nəticə verməyən)** inefficient; **~ üsul** inefficient method; **3. (iş bacarmayan**, **işgüzar olmayan)** inefficient, not business-like, ineffectual; unable to get things done; **~ adam** inefficient man* / person; **4. (fərsiz)** poor, bad; **~ natiq** poor speaker; **5. (küt**, **bacarıqsız)** obtuse **II.** *z.* ineffectively; inefficiently; ineffectually

**karsızlıq** *i.* **1. (vecsizlik)** uselessness; **2. (təsirsizlik)** ineffectiveness; inefficaciousness; **3. (bacarıqsızlıq)** inefficiency

**kart** *i.* (playing-) card; pasteboard; **bir dəst ~** a pack of cards; **~la qumar (oyunu)** gambling; **~ oynamaq** to play cards; **~la qumar oynamaq** to gamble; **~ paylamaq (oyunda)** to deal* (round) the cards; **~ı kəsmək** to cut* the cards; **~da bəxti gətirmək** to be* lucky at cards; ◊ **~ basmaq** to cheat, to swindle

**kartoçka** *i.* **(***müx.* **mənada)** card; **vizit ~sı** visiting-card, calling card, pasteboard; **kataloq ~sı** index card

**kartof I.** *i.* potato; **qızardılmış ~** fried potatoes; chips *pl.*; **soyutma ~** boiled potatoes, potatoes boiled in their skins / jackets; **közdə bişmiş ~** baked potatoes, potatoes baked in their skins / jackets; **təzə ~** new potatoes *pl.*; **~ soymaq** to peel potatoes **II.** *s.* potato; **~ qabığı** potato peelings, peels of potato; **~ püresi** potato mash, mashed potatoes *pl.*; **~unu** potato flour

**kartofçıxaran** *i. bax* **kartofqazan**

**kartofçu** *i.* potato grower

**kartofçuluq** *i.* potato culture, potato growing

**kartofçuluq** *s.* potato growing; **~ təsərrüfatı** potato growing farm

**kartofdoğrayan I.** *i.* potato cutter **II.** *s.* potato-cutting

**kartofəkən I.** *i.* potato-planter, potato grower **II.** *s.* potato-planting, potato growing

**kartofəzən I.** *i.* potato-pulper **II.** *s.* potato-pulping

**kartofqazan I.** *i.* potato digger **II.** *s.* potato-digging

**kartofsoyan I.** *i.* potato peeler **II.** *s.* potato-peeling

**kartoftəmizləyən** *s. bax* **kartofsoyan**

**kartofyığan I.** *i.* potato lifter / picker / raiser, potato elevator **II.** *s.* potato-picking; **~ kombayn** potato-picking combine

**kartoqraf** *i.* cartographer

**kartoqrafik** *s.* cartographic(al)

**kartoqrafiya** *i.* cartography

**kartoqram** *i.* cartogram

**karton I.** *i.* pasteboard, cardboard **II.** *s.* pasteboard, cardboard; **~ qutu** pasteboard / cardboard box

**kartonaj** *s.* cardboard articles *pl.*; **~ fabrikası** factory of cardboard articles; **~ məmulatı** cardboard articles

**kartoteka I.** *i.* card index, card catalogue; file **II.** *s.* card-index; **~ qutusu** card-index box; file

**karusel** *i.* merry-go-round; roundabout, whirligig

**kasa** *i.* cup, bowl; ◊ **səbr ~sını daşırmaq** ≅ to make* the cup run over; **səbr ~sını doldurmaq** ≅ to fill up the cup *idiom.*; **Bizim səbr kasamız dolub** Our patience is exhausted

**kasad** *s.* **1. (bazar**, **ticarət** *haq.*) stagnant, dull, slack; **~ bazar** stagnant / dull market; **~ olmaq** to be* stagnant / dull; **Bu gün**

**bazar kasaddır** To-day the market is stagnant / dull; **Bu həftə alver kasaddır** Trade / Selling is slack / stagnant this week; **2. (qıt**, **az)** scanty, scarce, meagre, poor; in short supply; deficient; ~ **məhsul** poor crop; bad harvest; ~ **olmaq** to be* scarce / in short supply; **Bu il meyvə kasaddır** This year fruits are scarce; **bir şeydən ~ olmaq** to be* short of smth; **O, puldan kasaddır** He is short of money / cash; **ağıldan** ~ mentally deficient

**kasadlaşdırmaq** *f.* to impoverish (*d.*), to make* scanty (*d.*), to make* (*d.*) poor; **həyatı** ~ to impoverish life

**kasadlaşmaq** *f.* **1. (bazar**, **alver** *haq.***)** to become* stagnant / slack / dull; **Bazar kasadlaşıb** The market has become stagnant / dull; **2. (qıtlaşmaq)** to become* scanty / scarce / deficient

**kasadlıq I.** *i.* **1. (bazarda**, **alverdə)** slackness of trade, bad selling; **2. (qıtlıq)** scantiness, scarcity, deficiency, dearth, shortage, privation, short supply; **Keçən il meyvə kasadlığına quraqlıq səbəb oldu** Last year the scarcity of fruits was caused by the drought; ◊ ~ **çəkmək** to be* short (of), to be* in want (of) **II.** *s.*: ~ **vaxtında** / **dövründə** in time of dearth; ~ **ili** year of bad harvest; year of dearth *idiom.*

**kasaşəkilli** *s. bax* **kasavarı**

**kasavarı** *s.* bowl-shaped, cup-shaped

**kasayaoxşar** *s.* cuplike, bowl-like

**kasıb I.** *i.* poor; **~lar** the poor **II.** *s.* **1. (***müx.* **və** *məc.* **mənada)** poor; ~ **adam** poor man*; ~ **torpaq** poor soil; **təbii sərvətlərdən** ~ **ölkə** country poor in natural resources; ~ **nitq** poor speech; **ağıldan** ~ feeble-minded; **2.** dull; **(ehtiyacı olan)** indigent, needy; ~ **ailələr** needy families; **3. (məzmunca**, **keyfiyyətcə zəif)** poor, mearge; ~ **düşmək** *bax* **kasıblaşmaq**; ~ **salmaq** *bax* **kasıblaşdırmaq**

**kasıbçılıq** *i. bax* **kasiblıq**

**kasıb-kusub** *top. i. d.d.* the poor, the poor people; **kənd ~ı** the village poor, the poor people in / of the village

**kasıblamaq** *f.* to become* / to grow* poor; to fall* into poverty; to be* poorly off *idiom.*; **Əri öləndən bəri o, çox kasıblayıb** She has been poorly off since her husband died

**kasıblaşdırmaq** *f.* to impoverish (*d.*), to cause to become / to grow poor (*d.*), to reduce to poverty (*d.*)

**kasıblaşmaq** *f. bax* **kasıblamaq**

**kasıblıq** *i.* **1.** poverty, penury; indigence, frugality; ~ **içində yaşamaq** to live in poverty / penury; **2.** *məc.* poorness, poverty (of); **təxəyyülün kasıblığı** poorness / poverty of one's imagination; ~ **etmək** to earn for one's life; **kasıblığa düşmək** *bax* **kasıblamaq**; ◊ **Kasıblıq ayıb deyildir** *at. söz.* ≅ Poverty is no sin; Poverty is not a shame, but the being ashamed of it is

**kasıbvarı** *z. bax* **kasıbyana**

**kasıbyana I.** *s.* poor; modest; ~ **həyat** / **dolanışıq** modest life; ~ **paltar** / **geyim** modest dress / attire; **(yemək**, **qida** *haq.***)** frugal; ~ **nahar** frugal dinner **II.** *z.* poorly, in the manner of the poor; modestly; frugally; ~ **geyinmək** to dress modestly; ~ **yaşamaq** to live modestly; ~ **nahar etmək** to dine frugally

**kaska** *i.* helmet

**kassa I.** *i.* **1. (mağazada)** cashbox; till; **(bilet satmaq üçün)** booking-office; **teatr ~sı** box-office; **yanmayan** ~ safe; strong box; **(xırda pul yığmaq üçün)** money-box; **2. (kredit müəssisəsi)**: **əmanət ~sı** savings-bank; **qarşılıqlı yardım ~sı** mutual insurance / benefit fund, mutual aid fund; **3.** *poliqr.* **(şrift qutusu)** case **II.** *s.* cash; ~ **kitabı** cash-book; ~ **hesabı** cash-account

**kassasiya I.** *i. hüq.* cassation **II.** *s. hüq.* cassation; ~ **şikayəti** appeal; ~ **məhkəməsi** Court of Appeal, Court of Cassation; ~ **şikayəti** / **ərizəsi vermək** to appeal to a Court of Cassation

**kassasiyaçı** *i.* one who refers to Court of Cassation

**kasset** *i.* **(foto və maqnitafon üçün)** cassette; **(foto lövhələri üçün)** plate-holder; **(kino lenti üçün)** film-holder; **video** ~ video cassette

**kassir** *i.* cashier

**kassirlik** *i.* the post of a cashier

**kasta** *i.* caste

**kastanet** *i.* castanet

**kaş (ki)** *əd.* if, if only; **Kaş o burada olaydı!** If only she / he were here!
**kaşalot** *i. zool.* cachalot, sperm-whale
**kaşanə** *i.* palace, mansion, mansion-house
**kaşı** *i.* **1.** glazed tile; glazed brick; **2. (şirəli qab)** glazed vessel (bowl, plate, dish, etc); glazed pottery
**kaşılı** *s.* (*i.s.*) covered with glazed tiles; (*i.s.*) of glazed bricks
**kaşne** *i.* muffler, scarf; comforter
**kataliz** *i. kim.* catalysis
**katalizator** *i. kim.* catalyst, catalyzer
**kataloq** *i.* catalogue; **fənn ~u** subject catalogue; **~a daxil etmək / ~nu tərtib etmək** to catalogue (*d.*)
**kataloqçu** *i.* cataloguer
**katar** *i. tib.* catarrh; **mədə ~ı** gastric catarrh
**katarakt** *i. tib.* cataract
**kataraktlı** *s. tib.* cataractal
**kataral** *i. tib.* catarrahal
**kateqoriya** *i.* **1.** category; **qramatik ~** grammatic(al) category; **2.** *id.* class
**kateqoriyalı** *s.* **1.** categoric, categorical; (*i.s.*) of a category, (*i.s.*) relating to a category; constituting a category; **2.** *id.* (*i.s.*) of a class, (*i.s.*) relating to a class
**kater** *i. dən.* launch; boat
**katet** *i. riyaz.* cathetus
**kateter** *i. tib.* catheter
**katib** *i.* **1.** secretary; **baş ~** secretary general; **daimi ~** permanent secretary; **şəxsi ~** personal / private secretary; **elmi ~** scientific secretary; **dövlət ~i (ABŞ-da)** Secretary of State; **~in müavini / köməkçisi** under-secretary; **2. (xəttat)** scribe
**katiblik** *i.* **1. (katib vəsifəsi)** secretaryship; secretariat(e); **2. (katiblər heyəti)** secretariat(e); **~ etmək** to be* a secretary, to work as a secretary
**katod** *i. fiz.* cathode
**katodlu** *s. fiz.* cathodic
**katolik I.** *i.* (Roman) Catholic **II.** *s.* (Roman) Catholic
**katoliklik** *i.* (Roman) Catholicism
**katolikos** *i.* Catholicos
**katolisizm** *i.* (Roman) Catholicism
**katorqa I.** *i.* penal servitude, hard labour; **(həm də** *məc.***)** drugery; **~ya məhkum şəxs** convict; **~ya məhkum etmək** to condemn to penal servitude (*d.*); **~ya məhkum edilmək** to be* condemned to penal servitude **II.** *s.*: **~ işi** hard labour, penal servitude; **~ həbsxanası** convict prison
**kauçuk I.** *i.* (India) rubber, caoutchouc; **sintetik ~** synthetic rubber **II.** *s.* rubber; caoutchouc; **~ ağacı** caoutchouc tree
**kauçuklu** *s.* rubber-bearing; **~ bitkilər** rubber-bearing plants
**keçə I.** *i.* felt, thick felt; **~ çəkmə** felt boots, snow boots; **~ atmaq / basmaq / təpmək** to felt, to full thick felt, to make* thick felt; **yerə ~ döşəmək** to cover the floor with felt; **üzərinə ~ çəkmək** to overlay* with felt (*d.*) **II.** *s.* felt; **~ çəkmə** felt boots *pl.*; **~ şlyapa** a felt hat
**keçəçi** *i.* felter, fuller
**keçəçilik** *i.* felting, fulling, profession of a felter / a fuller
**keçəxana** *i.* fulling-mill, felt fulling-mill
**keçəl I.** *i.* **1.** *tib.* scabies; **2.** bald spot / patch **II.** *s.* **1. (keçəllik xəstəliyinə tutulmuş)** scabby; **2. (daz)** bald, bald-headed; **~ yer** bald patch / spot
**keçəlbaş** *s.* bald, bald-headed
**keçələmək** *f.* to cover with (thick) felt (*d.*); to overlay* with (thick) felt (*d.*)
**keçələnmək** *f.* to be* covered with (thick) felt; to be* overlaid with (thick) felt
**keçələt** *i.* ford
**keçələtdirmək** *f. bax* **keçələtmək**
**keçələtmək** *f.* to ask / to cause *smb.* to cover (*d.*) with (thick) felt, to ask / to cause *smb.* to overlay (*d.*) with (thick) felt
**keçəlkərkəs** *i. zool.* griffon (-vulture)
**keçəlləşmək** *f.* **1.** to grow* bald; **2.** to fall* ill with tetter / mange, to be* taken ill with tetter / mange
**keçəllik** *i.* **1. (xəstəlik)** mange, tetter; scab; **2. (dazlıq)** baldness
**keçən I.** *i.* bygone; ◊ **Keçənə güzəşt deyərlər** *at. söz.* ≅ Let bygones be bygones **II.** *s.* **1. (keçib getmiş)** past, overpast, bygone; ◊ **Keçən gün ələ düşməz** *at. söz.* ≅ Lost time is never found again; **Keçən günə gün çatmaz (calasan günü günə)** *at. söz.* ≅ The past time was the best time; **2. (ötən, əvvəlki)** previous, last; **~ həftə** last week
**keçi I.** *i.* goat; **(erkəyi)** he-goat, billy-goat; **(dişisi)** she-goat, nanny-goat; ◊ **~ni bostana buraxmaq** ≅ to set* the wolf to keep

the sheep; ◊ **Keçi suyu bulandırdı** ≅ Find quarrel in a straw **II.** *s.* goat, goat's; **~ südü** goat's milk; **~ əti** goat's meat; **~ dərisi** goat's skin; **~ balası** kid

**keçici** *s.* **1. (ötüb keçən, ötəri)** transient, transitory; passing; challenge; **~ hisslər** transient feelings; **~ bayraq** challenge banner; **~ kubok** *id.* challenge prize / cup; **2. (yoluxucu)** contagious, infectious; *elm.* zymotic; **~ xəstəlik** infectious / zymotic disease

**keçicilik** *i.* **(yoluxuculuq)** infectiousness, contagiousness

**keçid I.** *i.* **1. (***müx.* **məna)** passage; transition; **istidən soyuğa ~** transition from heat to cold; **kapitalizmdən sosializmə ~** transition from capitalism to socialism; **yeddillik təhsildən ümumi onillik təhsilə ~** switch-over from 7-year education to general 10-year education; **2. (çayda)** ford, crossing, river-crossing; **3. (küçədə)** crossing, passage, passage-way; **4. (dağlarda)** pass **II.** *s.* transition(al); **~ dövrü** transition(al) period

**keçilmək** *f.* **1. (məsafə)** to be* covered; **(çay, körpü, sərhəd və s.)** to be* crossed; **(maneə)** to be* surmounted (by / with); **2. (aparılmaq: dərs, məşğələ və s.)** to be* conducted; **Dərslər bu otaqda keçilir** Lessons are conducted in this room; **3. (tədris olunmaq)** to be* taught; **Məktəblərdə müxtəlif fənlər keçilir** Various subjects are taught at schools

**keçilməz** *s.* **1. (keçilməsi mümkün olmayan)** impassable, impenetrable; **~ yol** impassable road / way; **~ meşə** impenetrable forest; **~ palçıq** impassable mud; **2. (bağışlanılmaz)** unpardonable, inexcusable, unforgivable; **~ günah** unpardonable sin

**keçilməzlik** *i.* impassability

**keçinmək I.** *f.* **1. (dolanmaq, yaşamaq)** to live somehow, to live from mouth to mouth; **2. (yola getmək)** to get* on (with), to get* along together (with); **3. (ötüşmək)** to manage (without), to do* (without); **Köməksiz keçinə bilərsinizmi?** Can you manage / do without assitance / help? **II.** *f.* **(ölmək)** to pass away, to decease, to die

**keçiotaran** *i.* goatherd, shepherd

**keçirici I.** *i. fiz.* conductor; **elektrik ~sı** *bax* **naqil II.** *s. fiz.* couductive, conducting

**keçiricilik** *i. fiz.* conductivity; conductance; **maqnit (dövrəsinin) ~i** permeability, permeance

**keçirilmək** *f.* **1. (icra olunmaq, aparılmaq)** to be* held; to be* conducted; to be* carried out; **İclaslar bu zalda keçirilir** Meetings are held in this hall; **Seçkilər hər beş ildən bir keçirilir** Elections are held every five years; **Bu kampaniya hər yanda keçirilir** The campaign is conducted / carried on everywhere; **Daha sınaqlar keçirilməyəcəkdir** Tests will be not carried out any more; **həyata ~** to be* put into practice, to be* realized; **(qərar)** to be* implemented; **2. (ötürülmək)** to be* passed; **(elektrik cərəyanı)** to be* conducted (by)

**keçirməyən** *s.*: **su ~** water-resistant; waterproof, water-tight; **cərəyan ~** non-conductive

**keçirtmək I.** *f.* **1. (addatmaq)** to take* / to lead* / to put* across (*d.*); to convey (*d.*); **(xəlvətcə)** to smuggle (*d.*); **(bərə ilə)** to ferry (*d.*); **çaydan (körpüdən, sərhəddən) ~** to take* across the river / bridge / frontier; **su ~** to be* pervious to water; to leak; **su keçirməmək** to be* impervious to water, to be* water-resistant; **2. (bir şeyin içərisindən)** to run* / to pass / to put* (*d.*through); **Məftili borunun içərisindən keçir(t)** Pass the wire through the pipe; **əti maşından ~** to mince meat; **3. (başqa işə, vəziyyətə, vəzifəyə və s.)** to transfer (to), to move (to); to switch (*d.*over to); to shift (to); **Onu başqa vəzifəyə keçirdilər** They transfered / moved him to another post / position; **Gəlin söhbəti başqa mövzuya keçirək** Let's switch the conversation over to another subject; **4. (icra vaxtını dəyişdirmək)** to put* off / to adjourn (*d.*till), to postpone (*d.*); to delay (*d.*); **İclası sabaha keçirdilər** They put off / adjourned the meeting till tomorrow; **5. (icra etmək) iclas / konfrans ~** to hold* a meeting / a conference; **seçkilər ~** to hold* elections; **reforma ~** to carry out a reform; **müzakirə ~** to held* / to lead*

a discussion; **həyata** ~ to put* into practice (*d.*); to realize (*d.*); **(qərarı)** to implement (*d.*); **kampaniya** ~ to conduct / to carry on a campaign; **6. (taxmaq, geydirmək)** to pull on (*d.*); to put* on (*d.*), to get* on (*d.*); **başına** ~ to pull over (*d.*); **dəstəyə** ~ to haft (*d.*), to thrust into the haft; **yüyəni atın başına** ~ to bridle a horse, to put* the bridle on a horse; **(cərəyanı)** to conduct (*d.*); **Rezin elektrik cərəyanını keçirmir** The rubber doesn't conduct the electric current; **7. (vaxtı)** to spend* (*d.*), to pass (*d.*); **vaxt** ~ to pass (away) the time, to cheat time, to while the time away; **vaxtı boş** ~ to waste time; to pass the time idly; to loaf away one's time; **8. (yaşamaq)** to live; to be*; **köçəri həyat** ~ to live a nomadic life; **ömrünü fəhləlikdə** ~ to be* a worker throughout one's life; **uşaqlığını kənddə / şəhərdə** ~ to spend* one's childhood in the country / in town; **nəzərdən** ~ to look over / through (*d.*); **ötəri nəzərdən** ~ to glance / to run* over (*d.*); **qılıncdan** ~ to put* to the sword (*d.*); **həyəcan** ~ to be* alarmed, to get* / to be* excited; **qorxu hissi** ~ to feel* / to experience fear; **xəstəlik** ~ to have* an illness, to be* ill / sick for a time **II.** *f.* **(söndürmək)** to put* out (*d.*), to extinguish (*d.*); **odu / ocağı** ~ to put* out / to extinguish a fire; **işığı** ~ to turn off / to switch off / to put* out the light; **şamı** ~ to put* out a candle, to blow* out a candle; **qazı** ~ to turn off the gas

**keçmək I.** *f.* **1. (***müx.* **məna)** to pass; **basıb üstündən** ~ to run* / to move over (*d.*); **üstündən sürüb** ~ to override* (*d.*); **üstündən addımlayıb** ~ to overstep (*d.*); **arxasına** ~ to go* behind; **daxilinə** ~ to pass / to penetrate into; **başqa əllərə** ~ to pass into other hands; **başqa məsələyə** ~ to go* on to the next / other question / point; **əldən ələ** ~ to pass through many hands, to change hands (many times); **bir kəsin əlinə** ~ to fall* into *smb.*'s hands; **yan** ~ to avoid (*d.*), to leave* out (*d.*); **məsələdən yan** ~ to by-pass / to side-step the question; **üstündən ~ (nəzərə almamaq)** to overlook (*d.*), to pass over, to disregard (*d.*); **Bu məsələnin üstündən keçmək olmaz** This problem cannot be passed over / disregarded; **2. (bir tərəfdən o biri tərəfə)** to cross (*d.*), to get* across (*d.*); **sudan** ~ to wade through the water; **körpüdən / sərhəddən / çaydan** ~ to get* across / to cross the bridge / river / frontier; **düşmən(in) tərəf(in)ə** ~ to desert to the enemy; **bir kəsin tərəfinə** ~ to come* over to *smb.*'s side; **3. (yol, məsafə qət etmək)** to cover / to traverse (*d.*); **O, uzun və şərəfli bir yol keçib** He has covered / traversed a long and glorious path; **4. (zaman, vaxt,** *haq.***)** to pass, to elapse, to go*, to wear* on / away; **İki saat keçdi, amma o gəlmədi** Two hours passed but he didn't come; **Sən oyanana qədər bir neçə saat keçdi** Several hours elapsed before you woke up; **Vaxt keçir** Time is moving on; **zaman *keçdikcə...*** by the lapse of time...; **başqa işə (peşəyə)** ~ to change one's work (profession); **sözdən işə** ~ to pass from words to deeds; **hücuma** ~ to launch an attack, to take* / to assume the offensive; **o biri sinifə ~ (məktəbdə)** to get* one's remove; **başqa mövzuya** ~ to turn to other things; **5. (ötmək, arxada qoymaq)** to outrun, to outdistance (*d.*), to leave* (*d.*) behind, to pass (*d.*); **(uçuşda)** to outfly* (*d.*); **(cıdırda)** to forge ahead (off); **6. (olmaq, baş vermək)** to be*; **Müzakirə müvəffəqiyyətlə keçdi** The discussion was successful; **7. (yoluxmaq, sirayət etmək)** to infect (*d.*); **Xəstəlik uşağa da keçmişdi** The disease had infected the child too; **təsiri** ~ to affect (*d.*), to influence (*d.*), to impact (*d.*), **8. (sovuşmaq, qurtarmaq)** to be* over, to pass; **Onun xəstəliyi keçib** His illness is over / has passed; **9. (öyrənmək)** to study (*d.*); **Onlar iki xarici dil keçirlər** They study two foreign languages; **təcrübə** ~ to do* practical work; to practice; **10. (təlim etmək)** to conduct (*d.*); **dərs** ~ to conduct a lesson; **hərbi taktiki / təlim** ~ to conduct / to carry out tactical exercises; **11. (qiymətdə güzəşt etmək)** to bate, to abate, to take* off (*d.*), to come* down; **O, bir qəpikdən də kecməz** He / She won't take a farthing less; **günahından (təqsirindən, suçundan)** ~ to absolve

*smb.* from sin (guilt; blame); **Sənin bütün günahlarından (təqsirindən, suçundan) keçirəm** I absolve you from all sins (blame); **Tarix günahımızdan keçər** History will absolve us **II.** *f.* **(sönmək)** to go* out, to be* out, to die out

**keçmiş I.** *i.* the past; old times *pl.*; antiquity; **şərəfli** ~ glorious past; **uzaq** ~ remote past; ~ **də** in former times, in the old days; formerly; in the olden times / days; **yaxın** ~ **də** not long ago, in recent times **II.** *s.* past, former, bygone; ~ **zaman** *qram.* past tense; ~ **zamanlarda** in former times, in the old days, in bygone days, in the time now past **III.** *z.* after, later; **bir az** ~ not long after, **bir neçə gün** ~ a few days later; **bir həftə** ~ a week later; **Biz bir az keçmiş gəldik** We arrived soon after

**kef I.** *i.* **1. (ovqat)** humour, mood, spirits, frame of mind; fig; **~i kök** in good fig; **~i aşağı olmaq** to be* in low spirits / out of humour; **2. (hal, əhval)** health, state of health; **Xəstənin kefi necədir?** How is the patient's health? In what state of health is the patient? **(Öz) kefin necədir?** How are you? **3. (həzz, nəşə)** pleasure, delight, sweet bliss; **(sərxoşluq nəşəsi)** kef, keef; **4. (eyş-işrət məclisində əylənmə)** carouse, carousal, revel(s), racket, orgy, bacchanalia, drinking bout; *d.d.* burst; *amer.* (*jarqon.*) bat; **~ə qurşanmaq** to go* on the racket, to go* on a bat; **5. (istək, şıltaq)** whim, whimsy; sweet will; **~i qalxanda** / **istəyəndə** when she / he is in a whimsical mood; **öz ~inə** at one's own sweet will; ~ **vermək** 1) **(zövq vermək)** to give* pleasure (i), to delight (*d.*); 2) **(əyləndirmək)** to amuse (*d.*), to give* joy (*i.*); to divert (*d.*), to entertain (*d.*); ~ **eləmək** 1) **(əylənmək)** to divert oneself; to have* lovely merrymaking / floric / merriment; 2) **(kef məclisində əylənmək)** to carouse, to revel (in), to spree, to go* on the spree; to have* an orgy; *d.d.* to go* on the burst; *amer.* (*həmç.*) to go* on a bat; 3) **(firavan yaşamaq)** to be* in bliss; to luxurate (in, on) **~də olmaq** to be* on the spree, to have* a spree; **Əcəb kefdir!** What a spree! **~ə qurşanmaq** to engage in a carousal, to go* on the spree, to go* on a bat; **~ə getmək** to go* out on a spree; **~i aşağı olmaq** to be* in low spirits / out of humour, to be* out of sorts *d.d.*; to be* a cup too low **idiom**; **~i açılmaq** / **durulmaq** / **kökəlmək** to cheer up, to become* cheerful / merry; **~i qarışmaq**: 1) to lose* one's good spirits; 2) to take* a turn for the worse, to become* / to grow* worse (about smb's health); **Xəstənin kefi qarışıb** The patient's health has taken a turn for the worse; **~i istəmək** to wish, to want, to desire; **Kefi istəyəndə gedə bilər** He may go whenever he wants to; **~i istəyən qədər** to one's heart's content; ~ **yuxarı olmaq**: 1) to be* in high spirits / high-spirited / in whimsical mood; to be* in good fig; 2) **(sərxoş olmaq)** to be* (a little) tipsy; to be* in one's cup *idiom.*; **~i kök** / **saz olmaq** 1) to be* in high spirits / in whimsical mood, to be* in good fig; 2) **(güzaranı yaxşı olmaq)** to be* well-to do / prosperous / well-off; to be* well-heeled **idiom**; **~i kök olmaq** to live in plenty; **~i olmamaq**: 1) to be* out of humour / in low spirits; 2) **(özünü xəstə hiss etmək)** to feel* ill; **~i pozulmaq** / **korlanmaq** to lose* one's good spirits, to be* dispirited / crestfallen / dejected; **Onun kefi pozuldu** His / Her spirits drooped; **Kefim yoxdur**: 1) I feel ill / bad; 2) I have no mood (for); **Kefin necə istəyir** As you like / wish; It is up to you; **Öz kefinə** *bax* As you like / wish; It is up to you; **bir kəsin ~inə dəymək** / **toxunmaq** to offend *smb.*, to hurt* / to wound smb's feelings; **öz** ~ **inə** at one's sweet will / pleasure / wish; **~inə yatmaq** to like (*d.*), to please (*d.*); **Bu onun kefinə yatmır** It doesn't please him / her; ◊ ~ **inə soğan doğramaq** to upset* (*d.*), to dispirit (*d.*); **~ini açmaq**: 1) **(özünün)** to amuse oneself; 2) **(başqasının)** to amuse *smb.*; to exhilarate (*d.*); to put* *smb.* in good spirits, to keep* up smb's spirits; **~ini korlamaq** / **pozmaq** to upset* (*d.*), to dispirit (*d.*), to deject (*d.*), to make* *smb.* sad **II.** *s.*: ~ **əhli** merrymaking people; ~ **məclisi** drunken revelry, a jovial feast, spree, wild merry making; ~ **məclisi qurmaq** to have* drinking-bout / an orgy / a revelry

**kefal** *i. zool.* grey mullet
**kefcil I.** *i.* reveller, carouser **II.** *s.*: ~ **adam** reveller, debaucher
**kefcillik** *i.* carousal, carouse, revelry, reveling, debauchery
**kefçi** *i. bax* **kefcil I**
**kef-damaq** *i. bax* **kef (4-cü mənada)**
**kef-əhval** *i. bax* **kef (1-ci və 2-ci mənalarda)**
**kefxana** *i.* secret resort; an opium den
**kefikök I.** *s.* **1.** well-doing, well-to-do, well-off; ~ **adam** a well-doer; **2. (kefi yuxarı)** exhilarated **II.** *z.* luxuriously, sumptuously; ~ **yaşamaq** to live luxuriously / in clover
**kefiköklük** *i.* well-doing; **(xoş əhval-ruhiyyə)** exhilaration
**kefir** *i.* kefir, yog(h)ourt, yog(h)urt
**kefləndirici** *s.* intoxicating, heady, befudding; ~ **şərab** heady wine; ~ **hava** heady air
**kefləndirmək** *f.* to intoxicate (*d.*), to inebriate (*d.*), to make* drunk / tipsy / dizzy (*d.*); to befuddle (*d.*)
**keflənmə** *fi.* intoxication, inebriation, inebriety; getting / growing intoxicated, getting tipsy / drunk / dizzy
**keflənmək** *f.* to get* / to grow* intoxicated, to get* drunk / tipsy / inebriate; to be* drunk / tipsy (with), to be* intoxicated (with)
**kefli I.** *i.* drunk man; *d.d.* sot **II.** *s.* intoxicated, drunk, tipsy, inebriate; tight *d.d.*; ~ **yerişi** tipsy gait; ~ **səs** tipsy voice
**kefli-kefli** *z.* in the state of intoxication, in the drunken state; tipsily, drunkenly, sotishly
**keflilik** *i.* tipsiness, drunkenness; inebriation, sotishness
**kefsiz I.** *s.* **1. (xəstə)** unwell, unhealthy; sick; ~ **olmaq** to be* / to feel* unwell; **2. (bikef)** dejected, depressed; sad, spiritless, gloomy; ~ **görünmək** to look dejected; ~ **olmaq** to be* spiritless / morbid / sad; ~ **adam** a dejected person **II.** *z.* sorrowfully, sadly; spiritlessly, dejectedly
**kefsiz-kefsiz** *z. bax* **kefsiz II**
**kefsizləmək** *f.* to be* unwell / ill / ailing; to feel* ill / unwell
**kefsizlik** *i.* **1.** indisposition; sickness, ailment; **2. (pərişanlıq)** dejection; slack / languid / dull mood
**keks** *i.* cake
**keql I.** *i.* **1. (oyun)** skittles, ninepins; **2. (oyundakı toxmaqların hər biri)** skittle, ninepin; ~ **oynamaq** to play skittles / ninepins **II.** *i. poliqr.* point; size of type; ~ **8-lik** eight pointtype ~ **10-luq** ten pointtype
**kelt I.** *i.* Celt **II.** *s.* Celt; ~ **dili** Celtic, the Celtic language
**kenquru** *i. zool.* kangaroo
**kepka** *i.* cap
**keramika I.** *i.* ceramics [sɪˊræmɪks] **II.** *s.* ceramic [sɪˊræmɪk]
**keramikaçı** *i.* ceramist
**keşik** *i.* guard, watch; ~ **çəkmək** to watch (*d.*), to keep* watch (over), to sentinel (*d.*); ~**də durmaq** to be* on guard / on watch; **keşiyində durmaq** to be* / to stand* on guard (of), to stand* sentinel (over); **sülhün keşiyində durmaq** to stand* on guard of peace
**keşikçi I.** *i.* watch (man), guard, guardsman*; sentry, sentinel; **(qadın)** female watchman*; **gecə ~si** night watchman*; ~ **qoymaq** to post a sentry; **~ni dəyiş(dir)mək** ~ to relieve a sentry **II.** *s.* sentry, watch, guard; ~ **budkası** watch-box, sentry-box; ~ **dəstəsi** sentry-unit; ~ **postu** sentry post; ~ **qülləsi** watch-tower; ~ **gəmisi** patrol ship, partol vessel
**qeyri-stabillik** *i.* instability; **iqtisadi** ~ instability of economics
**qeyri-standart** *s.* non-standard; *amer.* non-typical
**qeyri-standartlıq** *i.* the quality of being non-standard
**qeyri-şəffaf** *s.* opaque [o(u)′peik]
**qeyri-şəffaflıq** *i.* opaquesness, [o(u)′peiknis], opacity
**qeyri-şüuri I.** *s. bax* **qeyri-iradi I II.** *z. bax* **qeyri-iradi II**
**qeyri-şüurilik** *i. bax* **qeyri-iradilik**
**qeyri-təbii I.** *s.* **1.** unnatural, abnormal; ~ **gülüş** unnatural laugh; **2.** affected, not natural **II.** *z.* unnaturally, abnormally
**qeyri-təbiilik** *i.* **1.** affectation, abnormality; **2.** artificiality
**qeyri-təkmil** *s.* imperfect, incomplete
**qeyri-təkmillik** *i.* imperfection, incompleteness
**qeyri-üzvi** *s.* inorganic; ~ **kimya** inorganic chemistry; ~ **aləm** the inorganic world
**qeyri-üzvilik** *i.* the quality of being inorganic
**qeyz** *i.* rage, fury, anger, wrath [rɔθ]; **~i tutmaq** fly / to get* into a rage, to become* / to get* furious; **~indən özünü bilməmək** to be* beside oneself with rage, to be* blind with rage; **~ə gətirmək** to put* into a rage
**qeyzlə** *z.* angrily, furiously, wrathfully
**qeyzləndirilmək** *f.* to be* raged / angered
**qeyzləndirmək** *f.* to infuriate (*d.*), to make* (*d.*) furious, to put* *smb.* into a rage, to provoke *smb.*'s wrath
**qeyzlənmək** *f.* to rage, to get* / to fly* into a rage, to become* furious, to be* angry (with); **Dəniz qeyzləndi** The sea raged
**qeyzlətmək** *f. bax* **qeyzləndirmək**
**qeyzli I.** *s.* angry, rageful, wrathful, furious; ~ **olmaq** to be* enraged / furious, to fly into a rage, to become* furious / infuriated; ~ **adam** wrathful / furious / angry man **II.** *z. bax* **qeyzlə**
**qeyzli-qeyzli** *z. bax* **qeyzlə**
**qeyzlilik** *i.* furiousness, furiosity, rage
**qəbahət I.** *i.* blameworthiness, reprehensibility; vice, fault, defect; ~ **etmək** to act / to behave wrongly **II.** *s.* blameful, blameworthy, blamable, reprehensible; ~ **iş** blameworthy / reprehensible / blamable deed
**qəbahətli** *s. bax* **qəbahət II**
**qəbahətlilik** *i.* obscenity; indecency, ribaldry, bawdy, bawdiness
**qəbahetsiz** *s.* blameless, faultless, irreproachable, impeccable
**qəbahətsizlik** *i.* irreproachability, blamelessness
**qəbih** *s.* infamous, foul, vile; **(adam** *haq.***)** villainous, scoundrelly, loathsome, sicking, nasty
**qəbihlik** *i.* infamy, vileness, foulness
**qəbil** *i.* kind, type, sort; **bu ~dən** this kind / type / sort (of)
**qəbilə I.** *i.* tribe; **köçəri ~lər** nomad / nomadic tribes **II.** *s.* tribal; ~ **həyatı** tribal life; ~ **başçısı** the leader / head of the tribe; ~ **davaları** tribal wars; ~ **rəvayətləri / əfsanələri** tribal legends
**qəbir I.** *i.* grave; tomb; ◊ **bir ayağı ~də olmaq** to have* one foot in the grave; **bir kəsə ~ qazmaq** to dig* a pit / grave for *smb.*; **özünə ~ qazmaq** *məc.* to dig* one's own grave; **beşikdən ~ə kimi / qədər** from the cradle to the grave, from birth to death **II.** *s.* sepulchral; ~ **daşı** sepulchral stone, grave-stone, tombstone
**qəbireşən** *i. zool.* hyena
**qəbiristan** *i.* grave-yard, cemetry; **(kilsədə)** churchyard; ◊ **qardaşlıq ~ lığı** common / communal graveyard
**qəbiristanlıq** *i. bax* **qəbiristan**
**qəbirqazan** *i.* grave-digger
**qəbul I.** *i.* **1.** reception, receiving; **2. (partiya və s.)** admittance; **3. (dərman)** taking; ~ **etmək** 1) to receive (*d.*); **qonaq ~ etmək** to receive guests / visitors; **xəstə ~ etmək (həkim)** to receive patients; 2) admit (*d.* to), accept (*d.* for); **üzv ~ etmək** to accept a member (for); **partiyaya ~ etmək** to admit to / into the party (*d.*); **vətəndaşlığa ~ etmək** to naturalize (*d.*); **vətəndaşlığı ~ etmək** to be* naturalized, to be* granted

a citizenship, to become* a citizen (of); **O, Azərbaycan vətəndaşlığını qəbul etdi** He / She became a citizen of Azerbaijan; **işə ~ etmək** to take* on (*d.*), to give* employment; **məktəbə / instituta ~ etmək** to admit to school / to the institute; 3) **(razılaşmaq)** to accept (*d.*); **təklif ~ etmək** to accept an offer / a proposal; **qanun ~ etmək** to pass a law; 4) to take*; **qida ~ etmək** to take* food; **dərman ~ etmək** to take* one's medicine; **vanna ~ etmək** to take* / to have* a bath; **qərar ~ etmək** to decide, to come* to / reach / to adopt a decision; **Onlar mühüm bir qərar qəbul etdilər** They came to an important decision; **bir şeyi zarafat kimi ~ etmək** to take* *smth.* as a joke; **vəzifə ~ etmək** to take* over / to accept a post; **komandanlığı ~ etmək** to take* / to assume command (of, over); **hədiyyə ~ etmək** to accept / to take* a present; 5) adopt (*d.*); **qətnamə ~ etmək** to adopt a resolution; **xristianlığı / müsəlmanlığı ~ etmək** to adopt Christianity / Mohammedanizm **II.** *s.* reception, calling; consultation; **~ günü** reception day; **~ saatı** reception hours; calling hours; **(həkimin)** consultation hours; **~ komissiyası** selection committee; **~ imtahanları** entrance examinations; **~ məntəqəsi** reception centre

**qəbulçu** *i.* inspector, receiving clerk

**qəbuledici I.** *i.* **1.** *rad.* wireless (set), radio (set); **2.** receiver; inspector (of goods at a factory) **II.** *s.* receiving; **~ stansiya** receiving station

**qəbuledilməz** *s.* unacceptable, inadmissible; **~ şərtlər** unacceptable terms; **~ təklif** inadmissible proposal

**qəbuletmə** *i.* receiving, reception; **(dərmanı)** taking

**qəbiz** *i. tib.* constipation; **~ olmaq** to be* constipated; to constipate; **tez-tez ~ olmaq** to be* often constipated; **Mən yenə qəbiz olmuşam** I'm constipated again; **Uşaq asanlıqla (tez-tez) qəbiz olur** The child constipates very easily

**qəbz** *i.* receipt; **baqaj ~i** luggage receipt; **~ vermək** to receipt (*d.*); **bir kəsə ~ vermək** to give* *smb.* a receipt

**qədd** *i.* **1.** figure, stature, **2.** back; **~i bükülmək**; 1) to stoop, to bend* (down); 2) to grow* old, to advance in years; **~ini düzəltmək** to draw* oneself up, to stand* erect; **~i bükülmüş / əyilmiş** stooping, bent

**qəddar** *s.* cruel, ruthless, merciless, tyrannical, vicious; **~ düşmən** ruthless / merciless / vicious / bitter enemy

**qəddarca** *z. bax* **qəddarcasına**

**qəddarcasina** *z.* cruelly, ruthlessly, mercilessly, tyrannically; **~ döymək** to beat* cruelly / mercilessly, to beat* black and blue

**qəddarlıq** *i.* cruelty, ruthlessness, mercilessness, despotism; **~ etmək** to act cruelly / mercilessly / ruthlessly / tyrannically; to be* very cruel / merciless / ruthless; to tyrannize (over)

**qəddəmək** *f.* to sharpen (*d.*), to point (*d.*); **karandaş ~** to sharpen a pencil

**qəddənmək** *f.* to be* sharpened / pointed

**qəddətdirmək** *f. bax* **qəddətmək**

**qəddətmək** *f.* to ask / to cause *smb.* to sharpen (*d.*); to have* (*d.*) sharpened

**qədd-qamət** *i.* figure, stature; gracefulness, a fine figure of a man or woman

**qədd-qamətli** *s.* slender, graceful, stately; **~ qız** a slender girl; **~ xanım** a stately lady

**qədd-qamətsiz** *s.* ill-proportioned, not slender

**qədəh** *i.* glass, goblet; **~ qaldırmaq** to raise one's glass (to), to give* a toast to *smb.*

**qədəh-qədəh** *z.* glass by glass, glass after glass

**qədəhvarı** *s.* goblet shaped, glass shaped

**qədək** *i.* blue coarse calico

**qədəm** *i.* step; **~ atmaq** to step, to make* a step, to start / to begin* to go; **~ basmaq / qoymaq** 1) to make* / to take* a step; 2) to call on (*d.*), to visit (*d.*), to come* to see (*d.*); **Qədəmləriniz mübarək olsun!** You are welcome!

**qədəm-qədəm** *i.* step by step; slowly; gradually

**qədər I.** *i.* number, quantity; **kifayət ~** as much / many as one needs; **mümkün ~** if possible **II.** *i.* **qoş 1.** till, until, to; **nahara ~** till dinner, **səhərdən axşama ~** from morning till night; **səhərə ~** until tomorrow; **üçdən beşə ~** from three to five;

**2.** as far as, up to; **Moskvaya** ~ as far as Moscow; **on manata** ~ up to ten manats; **3.** about, under; **üç günə** ~ about three days; **on yaşa** ~ **uşaqlar** children under ten (years)

**qədərsiz** *s.* innumerable, countless, numberless; ~ **ordu** innumerable army

**qədim** *s.* ancient, old; antique; ~ **ədəbiyyat** / **incəsənət** ancient literature / art; ~ **dillər** ancient languages; ~ **şəhərlər** ancient cities; ~ **abidələr** ancient monuments; ~ **ənənələr** ancient traditions; ~ **adətlər** ancient customs; ~ **tarix** ancient history; ~ **ingilis** / **rus** / **Azərbaycan dili** old English / Russian / Azerbaijani; ~ **zamanlarda** / **vaxtlarda** / **əyyamda** in ancient / old times

**qədimdə** *z.* in ancient times, in old days

**qədimdən** *z.* since old / ancient times, since long

**qədimdənqalma** *s.* ancient, antique, age-old; ~ **qəsr** ancient castle; ~ **mebel** antique furniture; ~ **adətlər** age-old customs

**qədimi** *s. bax* **qədimdənqalma**

**qədimlik** *i.* antiquity

**qədir** *i.* value, appreciation; **~ini bilmək** to value (*d.*), to appreciate (*d.*); **öz ~ini bilmək** to know* one's own value; **öz həyatının ~ini bilmək** to value one's own life; **dostluğun ~ini bilmək** to appreciate friendship

**qədirbilən I.** *i.* valuer, appreciator **II.** *s.* thankful, grateful; gratifying; appreciative; ~ **nəsillər** thankful / appreciative generations

**qədirbilməz** *s.* ungrateful; thankless; ~ **adam** ungrateful man

**qədirbilməzlik** *i.* ingratitude

**qədir-qiymət** *i. bax* **qədir**

**qədli-qamətli** *s. bax* **qədd-qamətli**

**qədtəzə** *s.* quite new / fresh, unused

**qəfəs** *i.* **1. (ev heyvanları və quşlar üçün)** cage; **(ev quşları üçün)** coop; **(ev dovşanı üçün)** (rabbit-) hutch; **(şahin üçün)** mew; **~ə salmaq** to cage (*d.*), to put* (*d.*) in / into a cage; **~ə salınmış quş** caged bird; **döş ~i** *anat.* chest; **2.** *məc.* prison, jail

**qəfəsə** *i.* **1.** rack; **2. (kitab və s. üçün)** shelf; **kitab ~si** bookshelf

**qəfil** *s.* sudden, unexpected; *hərb.* surprise; ~ **ölüm** sudden death; ~ **nəticə** unexpected result; ~ **hücum** surprise attack

**qəfilcə** *z. bax* **qəflətən**

**qəfildən** *z. bax* **qəflətən**

**qəflət I.** *i.* ignorance, lack of information; ◊ **~də olmaq** to be* ignorant (of), to be* in ignorance (of), to be* unaware (of); ◊ **~də saxlamaq** to keep* in ignorance **II.** *s.* ◊ ~ **yuxusu** ignorance, somnolence; ◊ ~ **yuxusundan oyanmaq** to open one's eyes to the world; ◊ **bir kəsi ~ yuxusundan oyatmaq** to open *smb.*'s eyes to the world

**qəflətən** *z.* suddenly, all of a sudden, unexpectedly; **Qız qəflətən qışqırdı** Suddenly / All of a sudden the girl cried

**qəhbə I.** *i. bax* **fahişə I II.** *i. bax* **fahişə II**

**qəhbəxana** *i. bax* **fahişəxana**

**qəhbəlik** *i. bax* **fahişəlik**

**qəhər** *i.* **1.** anger, rage, fury, wrath; **2.** sorrow, sadness; **~dən boğulmaq** to suffocate with rage, to choke with anger / rage; to suffocate with sorrow

**qəhərlənmək** *f.* **1.** to become* furious, to choke with anger, to suffocate with rage; **2.** to become* sad / sorrowful, to choke with sorrow

**qəhərli I.** *s.* angry, irate; *şair.* wrathful, malicious, furious **II.** *z.* angrily, furiously, irately, maliciously; *şair.* Wrathfully

**qəhərli-qəhərli** *z. bax* **qəhərli II**

**qəhət** *i.* shortage, deficit; ~ **olmaq**, **~i** / **~ə çıxmaq** to grow* scanty, to become* deficit, to run* low / short; **(maye)** to run* dry, to dry up; ◊ **başına söz ~ olmaq** to have* nothing / no more to say; **başına iş ~ olmaq** to have* nothing to do

**qəhətlənmək** *f.* to grow* scanty, to become* deficit; to run* dry, to dry up

**qəhətləşmək** *f. bax* **qəhətlənmək**

**qəhətlik** *i.* shortage; **yanacaq qəhətliyi** fuel shortage

**qəhqəhə** *i.* (loud) laughter; ◊ ~ **çəkmək** to shout / to roar with laughter

**qəhqəhəli** *s.*: ~ **gülüş** roaring / loud laughter

**qəhr** *i.* **1.** fury, rage; *şair.* wrath; **2.** indignation; **3.** sorrow, sadness; ~ **etmək** to destroy (*d.*), to ruin (*d.*), to smash (*d.*)

**qəhrəman** *i.* **1.** hero; **milli ~** national hero; **bir kəsin gözündə ~ olmaq** to be* / to become* a hero in *smb.*'s eyes; **Sovet İttifaqı ~ı** Hero of the Soviet Union; **2. (bədii əsərdə)** character; **romanın ~ı** character / hero of a novel

**qəhrəmancasına** *z.* heroically, as a hero; **~ həlak olmaq** to die a hero's death

**qəhrəmanlaşmaq** *i.* to become* a hero

**qəhrəmanlıq I.** *i.* heroism, exploit, feat, great / heroic deed; **hərbi ~** feat of arms; **əmək qəhrəmanlığı** labour heroism / exploit; **~ göstərmək** to display heroism **II.** *s.* heroic; **~ poeması** heroic poem

**qəhvə I.** *i.* coffee; **qara ~** black coffee; **döyülmüş ~** ground coffee; **döyülməmiş ~** coffee beans; **qovrulmuş ~** roasted coffee **II.** *s.* coffee; **~ ağacı** coffee tree; **~ xıltı** coffee-grounds; **~ fincanı** coffee-cup **qəhvədan** *i.* coffee-pot

**qəhvəxana** *i.* coffee-house, cafe [ˈkæfeɪ]

**qəhvəli** *s.* (*i.*s) with coffee, (*i.s.*) mixed with coffee; **~ dondurma** ice-cream with coffee

**qəhvəüyüdən** *i.* coffee-grinder

**qəhvəyi** *s.* coffee-coloured, dark brown

**qəlb I.** *i.* soul, heart; **~ində** at heart; **~inin dərinliyində** in the bottom of one's heart, in one's heart of hearts; **~ləri sevindirmək** to gladden / to rejoice the hearts; **daş ~li** stone hearted; **incə ~li** tender-hearted; **sevən ~** affectionate heart; **bir kəsin ~ini sındırmaq** to hurt* / to wound *smb.*'s feelings, to break* one's heart **~ yanmaq** to feel* sorry (for), to pity (*d.*); ◊ **~inə yatmaq** to like very much; **~inə yol tapmaq** to worm into *smb.*'s confidence **II.** *s.* false, spurious; ~ pul false / spurious coin

**qəlbaçan** *s.* cheerful, merry, lively, amusing; **~ otaq** cheerful room; **~ rənglər** cheerful colours

**qəlbdən** *z.* from one's heart, heartily, frankly

**qəlbdən-qəlbə** *s.* from heart to heart

**qəlbən** *z.* heartily, sincerely; **~ inanmaq** to believe sincerely

**qəlbəyatan** *s.* pleasant; pleasing; likable; likeable; bewitching, enchanting, charming, fascinating; **~ ətir** pleasant perfume; **~ uşaq** enchanting child; **~ gənc** a charming young man*; **~ oğlan / qız** a fascinating boy / girl

**qəlbəyatanlıq** *i.* cheerfulness, charm, fascination

**qəlbi** *s. bax* **hündür**

**qəlbidaş** *s.* stony heart; pitiless, merciless; ruthless

**qəlbidaşlıq** *i.* pitilessness, mercilessness; ruthlessness

**qəlbiqara** *s.* **1.** distrustful, mistrustful; **2.** envious; **~ adam** envious person; **3.** jealous; **~ qadın** a jealous woman*

**qəlbiqaralıq** *i.* **1.** distrustfulness, mistrustfulness; **2.** jealousy; **3.** envy, enviousness

**qəlbiqırıq** *s.* offended; unhappy, unlucky

**qəlbiqırıqlıq** *i.* the state of being offended / unlucky

**qəlbiləndirmək** *f. bax* **yüksəltmək**

**qəlbilənmək** *f. bax* **yüksəlmək**

**qəlbilətmək** *f. bax* **yüksəltmək**

**qəlbiləşmək** *f. bax* **yüksəlmək**

**qəlbilik** *i. bax* **yüksəklik**

**qəlbinazik** *s.* soft-hearted; merciful, pitiful

**qəlbinaziklik** *i.* soft-heartedness, kindness, soft heart, clemency

**qəlbisınıq** *s. bax* **qəlbiqırıq**

**qəlbisınıqlıq** *i. bax* **qəlbiqırıqlıq**

**qəlbitəmiz** *s.* sincere, honest, honestminded, clement

**qəlbitəmizlik** *i.* honesty, uprightness, fairness

**qəlblik** *i.* **1.** falseness; **2.** insincerity, dishonesty

**qəlboxşayan** *s. bax* **qəlbəyatan**

**qəlbsiz** *s.* callous, heartless, soulless, hardhearted, unfeeling

**qəlbsizlik** *i.* callousness, heartlessness, hardheartedness

**qələbə I.** *i.* victory; **(müvəffəqiyyət)** triumph; **~ qazanmaq / almaq** to have* / to get* / to win* / to gain (the) victory; to score a victory; **tam ~** final victory; **(güləşdə)** victory by fall; **xal hesabı ilə ~ (boksda, güləşdə və s.)** victory on points; **müasir elmin ~si** the triumph of modern science; **xeyrin şər üzərində ~si** the triumph of good over evil **II.** *s.* victory, triumphal; **~ günü** Victory Day; **~ himni** triumphal hymn; **~ mərasimi** triumphal procession; **~ çələngi** triumphal wreath [ri:θ]

**qələm** *i.* pen; **avtomat ~** fountain-pen; **diyircəkli ~** ball-point(pen); ◊ **~ çəkmək** to cross (*d.*) out; to strike* (*d.*) out; *məc.* to

destroy (*d.*), to do* away (with); ◊ **~ə əl atmaq** to set* / to put* a pen to paper, to take* a pen in hand
**qələmdan** *i. bax* **qələmqabı**
**qələmə** *i. bot.* poplar
**qələməlik** *i.* poplar grove
**qələmqabı** *i.* pencil-box; pen-case
**qələmqaş** *s. bax* **qələmqaşlı**
**qələmqaşlı** *s.* (*i.s.*) with fine eyebrow, (*i.s.*) having a fine eyebrow
**qələmucu** *i.* **1.** point-protector; **2.** pen, nib
**qələmyonan** *i.* pen-sharpener
**qələt** *i.* **1.** foolishness, stupidity, foolish / stupid action; **Qələt eləmə!** Stop this nonsense / foolishness!; **2. (səhv)** error; mistake; **(kobud)** blunder; **~ etmək** to take* a false step, to make* a mistake; **(kobud)** to commit a blunder
**qələtsiz I.** *s.* falseless, unerring; precise, accurate; **~ hesab** precise calculations *pl.* **II.** *z.* falselessly, unerringly; precisely, accurately
**qələvi** *i. kim.* alkali
**qələviləşmə** *fi.* alkalization
**qələvili** *s. kim.* alkaline; **~ maye** alkaline solution; **~ torpaq** alkaline / alkali soil
**qələvilik** *i.* alkalescence, alkalinity
**qəlib I.** *i.* **1. (ayaqqabı üçün)** last, bootlast, boot-tree; **ayaqqabını ~ə vurmaq** to put* shoes on the last, to have* shoes lasted / stretched; **2. (papaq üçün)** block **3.** *tex.* mould, cast **II.** *i.* thick felt for covering yurta (nomad tent)
**qəlibçı** *i.* **1.** one who makes lasts / forms; **2.** moulder
**qəlibçilik** *i.* the profession of a moulder / last
**qəlibqayıran** *i.* **1.** one who makes bootlasts; **2.** *tex.* moulder
**qəlibləmək** *f.* **1. (ayaqqabını)** to last (*d.*); **2. (papağı)** to block (*d.*); **ayaqqabını ~** to put* shoes on the last, to have* shoes stretched; **3.** *tex.* to mould (*d.*)
**qəliblənmək** *f.* **1. (ayaqqabı)** to be* lasted; **2. (papaq)** to be* blocked; **3.** *tex.* to be* moulded
**qəliblətmək** *f.* **1. (ayaqqabını)** to ask / to cause *smb.* to last (*d.*) / to put* on the last; **2.** *tex.* to ask / to cause *smb.* to mould (*d.*)
**qəliz** *s.* **1.** *bax* **qatı (1-ci mənada)**; **2.** difficult to understand, **(üslub)** bombastic, high-flown; complicated, intricate; **~ məsələ / problem** knotty problem; **~ sual** difficult / complicated question
**qəlizləndirmək** *f. bax* **qəlizləşdirmək**
**qəlizlənmək** *f.* to thicken, to get* / to become* thicker; **Duman qəlizlənir** The fog is thickening, The fog is getting denser / thicker
**qəlizləşdirmək** *f.* **1.** *bax* **qatılaşdırmaq**; **2.** to complicate (*d.*), to make* difficult / complicated
**qəlizləşmək** *f. bax* **qəlizlənmək**
**qəlizlik** *i. bax* **qatılıq**
**qəlpə I.** *i.* splinter, fragment, sliver, shiver; **mərmi ~si** shell-splinter; **sınmış şüşənin ~ləri** fragments of broken glass **II.** *s.* shrapnel; **~ yarası** shrapnel wound
**qəlpə-qəlpə** *z.* pieces, fragments; **~ olmaq** to be* broken into pieces / fragments
**qəlpələmək** *f.* to splint (*d.*), to splinter (*d.*); to break* to pieces
**qəlpələndirmək** *f. bax* **qəlpələmək**
**qəlpələnmək** *f.* to break*, to become* splintered, to get* splintered, to be* broken into pieces / fragments
**qəlpələşmək** *f.* to split, to splinter
**qəlpələtmək** *f.* to ask / to cause *smb.* to splinter (*d.*)
**qəlpəli** *s.* fragmentation; **~ bomba** fragmentation bomb; **~ mərmi** fragmentation shell
**qəlsəmə** *i. zool.* gill
**qəlsəməli** *s. zool.* branchiate [-k-]
**qəlsəməsiz** *s. zool.* (*i.s.*) without branchiate, (*i.s.*) having no branchiate
**qəltan** *i.* clot / lump of mud; **qanına ~ olmaq** to be* covered with one's own blood; **qanına ~ etmək** to beat* till one bleeds, to beat* black and blue, to beat* mercilessly / ruthlessly
**qəlyan** *i.* (tobacco-) pipe; **~ çəkmək** to smoke a pipe
**qəlyanaltı** *i.* **1. (səhər)** breakfast; **(gündüz)** lunch, snack; **~ etmək** to have* breakfast; to have* a snack; **2. (dükan)** snackbar
**qəlyanaltıxana** *i.* snack-bar
**qəlyanboğaz** *s. d.d.* long-necked
**qəm** *i.* grief, sadness, distress, sorrow; **~ yemək / çəkmək** to grieve, to be* sad, to long (for), to yearn (for); **(keçmişdə baş vermiş bir iş üçün)** to mourn (*d.* for); **~ə batmaq** to be* sad / sorrowful / melan-

choly; **Qəm yemə!** Don't be sorry! Don't be sad! **~inə şərik olmaq** to share one's sorrows
**qəmə** *i.* poniard, small dagger
**qəm-ələm** *i.* mourning; **~də olmaq** to be* in deep mourning
**qəmər** *i. bax* **ay I**
**qəməri** *s.* lunar; **~ ay** lunar month
**qəmərüz** *s. bax* **qəmərüzlü**
**qəmərüzlü** *s. bax* **ayüzlü II**
**qəmgətirən** *s.* sad, melancholy, depressing; **~ musiqi / mahnı və s.** sad music / song, *etc.*; **~ xəbər** melancholy / depressing news
**qəmgin I.** *s.* sad, sorrowful, melancholy; mournful; **~ mahnı** sad / sorrowful song; **~ əhvali ruhiyyə** melancholy mood; **~ görünmək** to look sad / sorrowful / melancholy; **~ olmaq** to be* sad / sorrowful / melancholy; **O, qəmgindir** He / She is in a melancholy mood, He / She is in low spirits **II.** *z.* sadly, sorrowfully; mournfully
**qəmgin-qəmgin** *z. bax* **qəmgin II**
**qəmginləşdirmək** *f.* to mak* (*d.*) sad / sorrowful / melancholy
**qəmginləşmək** *f.* to grow* sad / sorrowful, to become* melancholy / sad
**qəmginlik** *i.* sadness, melancholy; **(baxışda, üzdə)** wistfulness, sorrowfulness
**qəmiş** *i.* **1.** *bax* **qamış**; **2.** bore, pain in the neck; ◊ **~ qoymaq** to disturb, to bore, to annoy; **Qəmiş qoyma!** Don't disturb! Don't bore!; ◊ **~ini çəkmək** to be* off, to leave* (*d.*) alone, to leave* in peace, to stop nagging; **Qəmişini çək!** Leave me alone! Get rid!
**qəm-kədər** *i. bax* **kədər**
**qəm-qübar** *i.* grief, sorrow, sadness
**qəm-qüssə** *i. bax* **qəm**
**qəmləndirmək** *f. bax* **qəmginləşdirmək**
**qəmlənmək** *f. bax* **qəmginləşmək**
**qəmli I.** *s. bax* **qəmgin I II.** *z. bax* **qəmgin** II
**qəmli-qəmli** *z. bax* **qəmgin II**
**qəmlilik** *i. bax* **qəmginlik**
**qəmsiz** *s.* light-hearted, carefree; careless, happy-go-lucky; **~ həyat** carefree life / existence; **~ adam** happy-go-lucky person
**qəmsizlik** *i.* light-heartedness, carelessness
**qəmzə** *i.* coquetry, mincing manners; airs and graces *pl.*; **~ satmaq** to flirt (with), to coquet (with), to behave affectedly
**qəmzəkarlıq** *i.* coquetry, affectedness, mincing manners *pl.*, airs and graces *pl.*
**qəmzəli I.** *s.* coquettish, arch; **~ qız** coquettishgirl; **~ xanım** coquettish lady; **~ təbəssüm** an arch smile **II.** *z.* coquettishly, archly
**qəmzəli-qəmzəli** *z. bax* **qəmzəli II**
**qəmzəlilik** *i. bax* **qəmzəkarlıq**
**qənaət** *i.* economy, saving (in, of), thrift, husbandry; **~ etmək** to save (*d.* on), to economize (*d.* on); **vaxta və əməyə ~ etmək** to save time and labour; **vəsaitə ~ etmək** to economize / to save on materials; **~ə gəlmək** to come* to a conclusion, to draw* a conclusion, to make* sure (of)
**qənaətbəxş** *s.* **1.** satisfactory; **~ dəlil / sübut** satisfactory argument; **~ nəticə** satisfactory result; **2.** exhaustive, comprehensive; **~ izahat** comprehensive explanation
**qənaətbəxşlik** *i.* satisfactoriness
**qənaətcil** *s.* thrifty, economical; **~ evdar qadın** a thrifty housewife; **~ ev sahibəsi** an economical housekeeper
**qənaətcillik** *i.* thriftiness, thrifty, economy
**qənaətçi** *s.* economical, thrifty
**qənaətçillik** *i.* thrift, economy
**qənaətkar** *s. bax* **qənaətcil**
**qənaətkaranə** *z.* economically, thriftily
**qənaətkarlıq** *i.* economy, thrift
**qənaətlə** *z.* economically, thriftily
**qənaətləndirici** *s.* satisfactory; **~ nəticə** satisfactory result
**qənaətləndiricilik** *i.* satisfaction
**qənaətləndirmə** *fi.* satisfaction
**qənaətləndirmək** *f.* to satisfy (*d.*), to content (*d.*), to please (*d.*); **bir kəsi ~** to satisfy *smb.*
**qənaətlənmək** *f.* to be* satisfied, to be* content; **bir şeylə ~** to be* satisfied / content with *smth.*
**qənaətli** *s. bax* **qənaətcil**
**qənaətlilik** *i. bax* **qənaətcilik**
**qənaətsiz I.** *s.* uneconomical **II.** *z.* uneconomically
**qənaətsizlik** *i.* the state of being uneconomical
**qənbər I.** *i.* cobble (-stone); boulder **II.** *s.* cobble-stone; **~ döşənmiş yol** cobble-stone road
**qənbərlik** *i.* place full of cobbles
**qənd I.** *i.* sugar; **kəllə ~** sugar loat; **qamış ~i** cane-sugar; **çuğundur ~i** beet sugar; **~ kimi şirin** as sweet as sugar **II.** *s.* sugar; **~ qa-**

**mışı** sugar-cane; ~ **sənayesi** sugar industry; ~ **zavodu** sugar-refinery, sugar-house; ~ **tozu** granulated sugar; ~ **çuğunduru** sugar beet

**qəndab** *i.* syrup, sirup

**qənddan** *i.* sugar-bowl

**qəndxırdalayan** *i.* sugar-crackers

**qəndil** *i.* chandelier, candelabrum (*pl.* candelabra)

**qəndqabı** *i.* sugar-bowl

**qəndqıran** *i. bax* **qəndxırdalayan**

**qəndsındıran** *i. bax* **qandxırdalayan**

**qənim** *i.* adversary, hater, destroyer; **Allah sənə qənim olsun** May God punish / curse you! **~i olmaq** to manage (*d.*), to succeed in dealing with some difficulties; **Onun qənimi mənəm** I can manage him / her

**qənimət** *i.* trouphy; **(zorla alınmış)** looty, loot; **(quldurluqla əldə edilmiş)** plunder; spoil; **~i bölüşdürmək** to divide up the spoil; **hərbi** ~ captured material; spoils of war; ~ **bilmək** / **saymaq** to profit by, to profit from, to take* advantage (of), to take* occasion (+to *inf.*), to take* / to seize the opportunity (+to *inf.*, of+*ger.*); to avail oneself of opportunity

**qənimətçi** *i.* profiteer, self-seeker; grabber

**qənimətçilik** *i.* profiteering, grabbing, self-seeking

**qənirsiz** *s.* matchless, inimitable, incomparable; ~ **gözəl** incomparable beauty

**qənirsizlik** *i.* splendour, excellence

**qənnadı** *s.*: ~ **mağazası** confectioner's (shop); ~ **məmulatı** confectionery

**qənşər I.** *i.* opposite, opposite side **II.** *s.* opposite; ~ **istiqamət** opposite direction; ~ **tərəf** opposite side; **küçənin ~ tərəfi** the opposite side of the street **III.** *z.* opposite; ~ **oturmaq** to sit* opposite; ~ **gəlmək** to come* opposite; **~ə çıxmaq** to come* out to the front **IV.** *qoş.* opposite; **evimizin ~ində** opposite our house

**qənşər-qənşərə** *z.*: ~ **oturmaq** to sit* opposite each other

**qəpik** *i.* copeck, farthing; **son qəpiyə qədər** / **kimi** to the last farthing / copeck; ~ **siz olmaq** to be* penniless, to have* no money at all; **Bir qara qəpiyə dəyməz** It's not worth a farthing; **Qəpiyin qədrini bilməsən**, **manat olmaz** *at. söz.* Take care of the pence and the pounds will take care of themselves

**qəpik-qəpik** *z.* copeck by copeck; copeck after copeck

**qəpik-quruş** *i.* (small) change, penny, small money; petty cash

**qəpiklik** *i.* **1.** worth one copeck; **2. (ucuz)** very cheap; **3.** *məc.* petty

**qəpiksiz** *s.* penniless; moneyless; impecunious

**qərar I.** *i.* decision; resolution; agreement; sentence, judgement; ~ **qəbul etmək** to decide (*d.*), to resolve (*d.*); to come* to a decision, to arrive at a decision, to make* / to reach a decision; ~ **vermək** to decide (*d.*), to sentence (*d.*); ~ **çıxarmaq** to pronounce judgement, to deliver a judgement; **(iclasda)** to pass a resolution; **~ı ləğv etmək** to cancel / to revoke / to annul a decision; **(məhkəmənin)** to revoke a sentence; **ümumi iclasın ~ı** decision of a general meeting; **~a alınmaq** to be* decided, to become* settled **II.** *i.* patience; ~ **tutmaq** to come* down, to calm oneself, to keep* patience; **~ı kəsilmək** to lose* patience; to find* oneself in a difficult / awkward situation; **Qərarım gəlmir** I can't stand, I am out of patience

**qərargah I.** *i.* headquarters, staff; **ali** / **baş** ~ Armed Forces Staff; **(quru qoşunları baş qərargahı)** General Staff; **hərbi** ~ headquarters staff; **~da** at headquarters; **polis ~ı** police headquarters **II.** *s.* staff; ~ **zabiti** staff officer

**qərarlaşdırılmaq** *f.* to be* decided / settled / resolved

**qərarlaşdırmaq** *f.* **1. (razılaşdırmaq)** to decide (*d.*), to resolve (*d.*), to come* to a decision, to arrive at a decision; **2. (yerləşdirmək)** to settle down (in)

**qərarlaşmaq** *f.* **1. (razılaşmaq)** to agree upon / on, to decide, to settle; **bir yerə getməyə** ~ to decide to go somewhere; **2. (yerləşmək)** to settle down (in); **bir yerdə** / **şəhərdə və s.** ~ to settle down in some place / in a town, *etc.*

**qərarlaşmış** *fs.* fixed, established; ~ **qiymət** fixed price; ~ **qayda** established order

**qərarnamə** *i. bax* **qərar I**

**qərarsız** *s.* **1.** without a decision / resolution / judgement; **2. (səbirsiz)** restless, fidgety, impatient; **~ uşaq** impatient child; **~ adam** a restless / fidgety man*; **~ qoca** a fidgety old man*; **Belə qərarsız olma(yın)!** Don't be so fidgety!; **3. (arası kəsilməyən)** continuous, uninterrupted, without stopping; incessant; **~ təminat** continuous supply; **~ yazışma** uninterrupted correspondence; **~ yağış(lar)** incessant rain(s)

**qərarsızlıq** *i.* **1. (səbirsizlik)** restlessness, impatience; **2.** duration, ceaselessness

**qərb I.** *i.* **1.** west; **~ə** to the west (of), west (wards) (of); to westward (of); **~ də** in the west; **2. (Qərbi Avropa)** the West; *şair.* the Occident **II.** *s.* west, western; occidental; **~ küləyi** west wind; **~ dövlətləri** the Western Powers; **~ yarımkürəsi** Western hemisphere; **~ mədəniyyəti** Occidental civilization

**qərbçi** *i.* westernizer, westernist

**qərbçilik** *i. tar.* westernism

**qərbi** *s.* western; west; **~ Avropa** Western Europe; **~ Berlin** West Berlin; **~ avropalı** Occidental

**qərbli** *i.* Occidental

**qərənfil** *i. bot.* pink; **çoxləçəkli ~** carnation; **türk ~i** sweet-william; **qırmızı / ağ / çəhrayı və s.** ~ red / white / pink, *etc.* carnation

**qərənfillik** *i.* place where carnation grows

**qərəz I.** *i.* **1.** secret aim / intention; **2.** partiality, ill-will, malevolence **II. mod** *s.* in short, to make* / to cut* a long story short

**qərəzkar I.** *i.* profit-seeker, mercenary-minded person **II.** *s.* selfish, mercenary; **~ adam** selfish / mercenary person

**qərəzkarlıq** *i.* tendentiousness, bias(s)ed nature; insidiousness; **~ etmək** to act tendentiously / insidiously

**qərəzlə** *z.* tendentiously, intentionally, on purpose

**qərəzli** *s.* preconceived, ill-intentioned, tendentious; **~ fikir / mülahizə** preconceived opinion; **~ məruzə** tendentious report

**qərəzlik** *i.* **1.** ill-will, malevolence; **2.** hostility, animosity

**qərəzlilik** *i. bax* **qərəzlik**

**qərəzsiz I.** *s.* impartial, disinterested, unselfish; unbias(s) ed; **~ hakim** impartial judge; **~ kömək** disinterested help / assistance; **~ xidmət** unselfish service; **~ tənqid** unbias(s)ed critisism **II.** *z.* impartially, disinterestedly

**qərəzsizcə** *z. bax* **qərəzsiz II**

**qərəzsizcəsinə** *z. bax* **qərəzsiz II**

**qərəzsizlik** *i.* impartiality, disinterestedness, unselfishness

**qərib I.** *i.* stranger, foreigner; outlander; **~ olmaq** to be* a stranger / foreigner **II.** *s.* strange, foreign; outlandish **~ adam** a strange man, a foreigner, a stranger

**qəribanə** *z. bax* **qərib-qərib**

**qəribçilik** *i. bax* **qəriblik**

**qəribə I.** *s.* **1. (görünməmiş, qeyri-adi)** strange, queer, odd, unusual, uncommon; funny; *d.d.* rum; **~ adam** a strange / queer man; **~ quş** an unusual / uncommon bird; **~ əhvalat**; an unusual / queer story; **~ iş** queer business; **Burada qəribə nə var?** What is there (so) strange in that? **Qəribədir...** Strange to say ...**Qəribədir, mən ony görmədim** Strange to say, I didn't notice it; **2. (çox yaxşı)** remarkable, extraordinary, wonderful; **~ oxşarlıq** a remarkable resemblance / likeness; **~ yaddaş** a wonderful memory; **Sizin qəribə yaddaşınız var** You have got a wonderful memory; **Nə qəribədir!** How wonderful! **II.** *z.* **1.** strangely, in a strange way; **~ danışmaq** to speak* in a strange way; **Qəribə görünür** It seems strange; **2.** amazingly, wonderfully

**qəribələşmək** *f.* to become* strange / unusual / uncommon

**qəribəlik** *i.* strangeness, queerness, oddity; **Bütün adamların öz qəribəliyi var** All people have their oddities

**qəribləmək** *f. bax* **qəribsəmək**

**qərib-qərib** *z.* pitifully, sorrowfully, sadly, compassionately; **~ oxumaq** to sing* sadly / sorrowfully / pitifully

**qəriblik** *i.* the state of being a stranger / foreigner; **~də yaşamaq**, **qəribliyə düşmək** to live in a foreign / strange land; **~də qalmaq / olmaq** to be* / to stay in a foreign / strange land; ◊ **qəribliyə salmaq** to take* no heed (of), to pay* no attention (to)

**qəribsəmək** *f.* **1.** to be* sad / melancholy; **2.** to long (for), to grieve (for), to miss;

to be* bored; **vətən** / **ev üçün ~** to be* / to feel* homesick
**qəribsətmək** *f.* to estrange (*d.*); to cause to be alone / to feel miserable
**qərq** *i.* **~ etmək** 1) to ruin (*d.*), to crush (*d.*); **məhsulu ~ etmək** to ruin the crops; **ümidi ~ olmaq** to crush one's hopes, to frustrate one's hopes; **gəmini ~ etmək** to sink* the ship; 2) to throw* about (*d.*), to scatter (*d.*), to scatter about (*d.*); to spill (*d.* over); **~ olmaq** to ruin, to crush; **(gəmi)** to sink*, to go* down; to be* spilled (spilt) over / scattered about; ◊ **fikrə ~ olmaq** to be* lost / absorbed / buried / plunged in thought, to be* deep in thought
**qəsb** *i.* seizure, capture; **hakimiyyəti ~ etmək** to seize power; **şəhəri ~ etmək** to capture a city / a town
**qəsbkar** *i.* aggressor, invader; usurper [ju(:)ˊzə:pə]
**qəsbkarlıq I.** *i.* aggression, invasion; usurpation **II.** *s.* aggressive, invasive, predatory; predacious; **~ siyasəti** aggressive policy, annexationist / expansionist policy; **~ müharibələri** aggressive / invasive / predatory wars, wars of aggression / conquest
**qəsd** *i.* **1.** attempt (at); **bir kəsin həyatına ~ etmək** to attempt / to make* an attempt upon *smb.*'s life; **öz həyatına ~ etmək** to commit / to attempt suicide; **2.** plot, conspiracy; **~in üstünü açmaq** to discover a plot, to unveil a conspiracy; **3.** *bax* **məqsəd**
**qəsdçi** *i.* **1.** terrorist; **2.** plotter, conspirator
**qəsdçilik** *i.* **1.** terrorism; **2.** plot, conspiracy; attempt (at)
**qəsdən I.** *s.* intentional, deliberate; **~ edilmiş hərəkət** intentional act; **~ ölüm** / **öldürülmə** deliberate murder **II.** *z.* intentionally, purposely, on purpose, wittingly, deliberately; **bir işi ~ etmək** / **görmək** to do* *smth.* on purpose / intentionally / deliberately
**qəsd-qərəz** *i.* **1.** ill-will, malevolence; undertone of hostility; **~ etmək** to show* ill-will (towards); **2.** enimity, hostility, animosity
**qəsdlə** *z. bax* **qəsdən II**
**qəsdlənmək** *f.* to intend (+to *inf.*), to be* about (+to *inf.*), to mean* (to *inf.*)
**qəsdsiz** *z.* without intention / purpose, by accident, accidentally, inadvertently
**qəsdsizlik** *i.* unexpectedness, inadvertence
**qəsəbə I.** *i.* settlement; village; **fəhlə ~si** workers' town, work-men's settlement **II.** *s.* settlement, village; **~ soveti** settlement / village soviet; **~ soveti deputatı** settlement soviet deputy
**qəsəm** *i. bax* **and**
**qəsidə** *i.* ode
**qəsidəçi** *i. bax* **qəsidəyazan**
**qəsidəçilik** *i.* the profession of one who writes or recites odes
**qəsidəxan** *i.* one who recites odes
**qəsidəyazan** *i.* one who writes odes
**qəsr** *i.* castle; **qədim** / **köhnə ~** an ancient / old castle
**qəssab** *i.* butcher
**qəssabbaşı** *i.* head butcher
**qəssabxana** *i.* **1. (ət dükanı)** butcher's (shop); **2.** *bax* **sallaqxana**
**qəssablıq** *i.* the job of a butcher
**qəşəng I.** *s.* **1.** pretty, nice, fine, lovely; **2.** graceful, elegant; handsome; **~ qız** a pretty / nice girl; **~ qadın** a lovely woman; **~ hava** lovely weather; **~ bina** a handsome building; **~ nitq** graceful spech; **~ otaq** elegant room **II.** *z.* beautifully, handsomely, nicely, prettily; gracefully; **~ piano çalmaq** to play the piano beautifully; **~ danışmaq** to speak* handsomely; **~ hərəkət etmek** to behave nicely; **~ geyinmək** to dress prettily; **~ oynamaq** to dance gracefully
**qəşəngcə** *z.* prettily, beautifully, gracefully, elegantly, **~ geyinmək** to dress prettily
**qəşəng-qəşəng I.** *s. bax* **qəşəng I II.** *z. bax* **qəşəng II**
**qəşənglənmək** *f. bax* **qəşəngləşmək**
**qəşəngləşdirilmək** *f.* to be* made pretty / nice / beautiful / graceful / elegant / handsome
**qəşəngləşdirmək** *f.* to make* pretty (*d.*) / nice (*d.*) / beautiful (*d.*) / graceful (*d.*) / elegant (*d.*) / handsome (*d.*)
**qəşəngləşmək** *f.* to grow* prettier / more beautiful, to improve in appearance, to get* prettier; **Qız gündən-günə qəşəngləşir** The girl gets prettier day by day
**qəşənglik** *i.* refinement, elegance, grace, gracefulness; **dadın qəşəngliyi** refinement of taste; **üslubun qəşəngliyi** elegance of

style; **təbii** ~ natural grace; **təsviredilməz** ~ indescribable grace

**qəşiş** *i.* hashish

**qəşş** *i.* fainting fit, faint; swoon; *tib.* syncope; ~ **etmək** to faint (away), to swoon; *d.d.* to pass out; to lose* consciousness

**qət** *i.*: ~ **etmək 1. (qərara almaq)** to decide (*d.*), to settle (*d.*); to make* up one's mind, to determine; **məktub yazmağı ~ etmək** to decide / to determine / to make* up one's mind to write a letter; **2.** to overcome*; **məsafə ~ etmək** to overcome* distance

**qətedici** *s.* decisive; ~ **qələbə** decisive victory

**qətfə** *i.* bath towel, turkish towel

**qətfələmək** *f.* to wipe / to dry (*d.*) with a bath towel

**qətfələnmək** *f.* to wipe / to dry oneself with a bath towel

**qətfələtdirmək** *f. bax* **qətfələtmək**

**qətfələtmək** *f.* to ask / to cause smb / to dry (*d.*) with a bath towel

**qəti I.** *s.* decisive, resolute, drastic, final; ~ **mübarizə** decisive struggle; ~ **döyüş** decisive battle / action; ~ **tədbirlər** resolute / drastic measures; ~ **qərar** final decision; ~ **cavab** final reply; ~ **surətdə** decisively, with an expression of the utmost determination **II.** *z.* decidedly, decisively, flatly, resolutely, positively; ~ **cavab vermək** to answer decidedly; ~ **imtina etmək** to refuse flatly; ~ **hərəkət etmək** to act decisively; **O, bunu qəti inkar etdi** He / She denied it positively

**qətiyyən** *z.* **1.** absolutely, categorically, flatly; **Bu qətiyyən mümkün deyil** It's absolutely impossible; **2.** a bit, at all; **Bu qətiyyən mənim xoşuma gəlmir** I don't like it a bit; **Onlar məni qətiyyən tanımırlar** They don't know me at all; **Qətiyyən yox!** Not at all!

**qətiyyət** *i.* determination, resolution, resolve

**qətiyyətlə** *z. bax* **qəti II**

**qətiyyətli** *s.* resolute, determined; decisive; ~ **adam** resolute / determined person; ~ **hərəkət** decisive action

**qətiyyətlilik** *i.* resolution, resoluteness, decisiveness

**qətiyyətsiz I.** *s.* indecisive, undecided, irresolute; hesitating; ~ **cavab** indecisive answer; ~ **xasiyyət** undecided / indecisive character **II.** *z.* indecisively, undecidedly, uncertainly; ~ **danışmaq** to speak* indecisively / undecidedly

**qətiyyətsizlik** *i.* undecidedness, indecisiveness; indecision; uncertainty, lack of firmness; ~ **etmək** / **göstərmək** to hesitate, to be* undecided, to act indecisively

**qətl I.** *i.* execution; ~ **etmək** / ~**ə yetirmək** to execute (*d.*); **(elektrik stulunda)** to electrocute (*d.*); ~ **olunmaq** to be* executed; **(elektrik stulunda)**; to be* electrocuted; ~**inə fərman vermək** to sentence (*d.*) to death; **asmaqla ~ə yetirmək** to execute (*d.*) by hanging **II.** *s.* execution; ~ **günü** execution day; ~ **yeri** execution place

**qətlgah** *i.* execution place

**qətlkar** *i.* executioner

**qətnamə** *i. bax* **qərar I**

**qətran I.** *i. bax* **qatran I II.** *s. bax* **qatran** II

**qətranlamaq** *f. bax* **qatranlamaq**

**qətranlanmaq** *f. bax* **qatranlanmaq**

**qətranlanmış** *fs. bax* **qatranlanmış**

**qətranlatdırmaq** *f. bax* **qatranlatmaq**

**qətranlatmaq** *f. bax* **qatranlatmaq**

**qətranlı** *s. bax* **qatranlı**

**qətrə** *i. bax* **damcı**

**qətrəbəqətrə** *z. bax* **damcı-damcı**

**qətrə-qətrə** *z. bax* **damcı-damcı**

**qəttəzə** *s. bax* **qədtəzə**

**qəvvas** *i.* diver

**qəvvaslıq** *i.* the profession of a diver

**qəyyum** *i.* guardian; **(əmlak üzərində)** trustee

**qəyyumçuluq** *i. bax* **qəyyumluq**

**qəyyumluq** *i.* guardianship; **(əmlak üzərində)** trusteeship; ~ **etmək** to be* a guardian (to), to be* warden (to); to have* the wardship (of); *məc.* to look (after), to protect (*d.*); to take* care (of)

**qəza I.** *i.* catastrophe [-fi], wreck, ruin; **(təyyarə)** crash; **(bədbəxt hadisə)** accident; **gəmi ~sı** shipwreck; **dəniz ~sı** accident at sea; **qatar ~sı** train smash / crash; **dəmiryol ~sı** railway accident, rail disaster; ~**ya uğramaq** to meet* an accident, to be* wrecked / crashed; **(təyyarə)** to be* crashed **II.** *s.* crash; ~ **dəstəsi** *hərb.* crash crew

**qəzadan** *z.* suddenly, unexpectedly, all of a sudden, all at once

**qəza-qədər** *i. bax* **tale**
**qəzavü-qədər** *i. bax* **tale**
**qəzet I.** *i.* newspaper, paper; **gündəlik** ~ daily paper; *d.d.* daily; **axşam ~i** evening newspaper / paper; divar **~i** wall newspaper; **təzə** ~ fresh newspaper; **bu günün ~i** today's newspaper, **dünənin ~i** yesterday's newspaper **II.** *s.* newspaper; ~ **köşkü** newsstand; ~ **kağızı** newsprint; ~ **məqaləsi** paragraph; ~ **müxbiri** newspaper reporter; ~ **işçisi** journalist
**qəzetçi** *i.* newsman, pressman, journalist
**qəzetçilik** *i.* **1.** the profession of a newsman / pressman; **2.** newspaper business
**qəzetsatan** *i.* newspaper-seller, newsvendor; **(oğlan)** news-boy, newspaper boy
**qəzəb** *i.* rage, fury, wrath; **~ini gizlətmək** bottle one's wrath; **~ini cilovlamaq** control one's fury; **~dən özünü bilməmək** to be* beside oneself with rage / transported with rage; **Allahın ~i** God's wrath, the wrath of God; **~ə gəlmək** to be* punished ruthlessly / mercilessly; **Allahın ~inə gəlmək** to be* punished by God
**qəzəblə** *z.* furiously, indignantly; wrathfully, wrathily
**qəzəbləndirilmək** *f.* to be* made furious / indignant, to be* caused to get furious / wrathful
**qəzəbləndirmək** *f.* to infuriate (*d.*), to make* indignant (*d.*), to rouse the indignation (of), to fill with indignation (*d.*), to stir, to fury (*d.*); **bir kəsi** ~ to drive* *smb.* into fury / a rage, to make* *smb.* cross
**qəzəblənmə** *fi.* animosity, bitterness, frenzy
**qəzəblənmək** *f.* to get* angry / cross / indignant, to become* angry / furious; to fly* into a rage; to be* angry (with), to be* cross (with), to feel* bitter (towards); **bir kəsə** ~ to get* angry with *smb.*, to be* cross / with *smb.*, **bir şeyə** ~ to get* angry / furious at *smth.*
**qəzəbli I.** *s.* furious, wrathful, wrathy, ireful; menacing; formidable; ~ **baxış** menacing look; ~ **düşmən** formidable enemy **II.** *z. bax* **qəzəblə**
**qəzəl** *i.* ghazal (a kind of eastern poem); ◊ ~ **oxumaq** to tell* tales
**qəzəlçi** *i.* one who writes ghazals, ghazal writer
**qəzəlçilik** *i.* **1.** the profession of a ghazal-writer; **2.** verbosity, verboseness
**qəzəlxan** *i.* **1.** one who sings or reads ghazals; **2.** singer of ghazals
**qəzəlləmək** *f. d.d.* to tell* tales, to talk nonsense, to talk rubbish
**qəzil** *i.* goat's wool
**qəzilli** *s.* (*i.s.*) with wool (of goats), woolly (of goats)
**qəziyyə** *i.* incident, accident; occurrence; **qəribə** ~ strange occurrence; **Onun başına qəziyyə gəlib** He / She met an accident
**qıc** *i.* cramp, convulsion; ~ **olmaq** to be* seized with cramp, to be* seized by a convulsion; **Üzgücü qıc oldu** The swimmer was seized with cramp; **Onun üzü qıc oldu** His / Her face was seized by a convulsion
**qıcamaq** *f.* to clench, to grit; **dişlərini** ~ to grit / to clench one's teeth **Mən dişlərimi qıcadım** I clenched / gritted my teeth
**qıcanmaq** *f.* to make* an action as to strike (*d.*), to raise one's hand against (*d.*); **ağacla** ~ to brandish a stick at *smb.*; **yumuruqla** ~ to draw* back one's fist
**qıcıq** *i.* irritation
**qıcıqlamaq** *f.* irritate (*d.*); **Qaba parça dərini qıcıqlayır** Rough material irritates the skin
**qıcıqlandırıcı I.** *i.* irritant **II.** *s.* irritant, irritative; ~ **faktor** irritative agent
**qıcıqlandırıcılıq** *i.* irritability
**qıcıqlandırılmaq** *f.* to be* caused to become irritated
**qıcıqlandırmaq** *f.* to irritate (*d.*), to get* on *smb.*'s nerves, to annoy (*d.*)
**qıcıqlanma** *fi.* irritation, irritability
**qıcıqlanmaq** *f.* to become* irritated / annoyed, to get* irritated / annoyed
**qıcıqlatmaq** *f.* to irritate (*d.*), to annoy (*d.*), to get* on *smb.*'s nerves
**qıcıqlayıcı I.** *i.* irritant, irritable **II.** *s.* irritant, irritative; irritating
**qıcımaq** *f.* to clench (*d.*); **dişlərini** ~ to clench one's teeth
**qıcqırma** *fi.* **1.** fermentation; **2.** *məc.* ferment
**qıcqırmaq** *f.* to ferment, to sour, to turn sour, to become* sour; **Şərab qıcqırmağa başlayır** The wine is beginning to ferment; **Süd qıcqırıb** The milk has turned sour

**qıcqırmış** *fs.* fermented, soured
**qıcqırtma** *fi.* fermenting; fermentation
**qıcqırtmaq** *f.* to ferment (*d.*), to cause (*d.*) to undergo chemical changes
**qıclaşmaq** *f.* to be* seized with cramp, to become* / to grow* cramped
**qıclıq** *i.* convulsion, cramp; spasm
**qıcolma** *i.* convulsion, cramp; spasm
**qıç** *i.* leg; **~ını ~ının üstünə aşırmaq** to cross one's legs; **stolun ~ları** the legs of the table; ◊ **taxta ~** wooden leg
**qıça** *i.* **1.** *bax* **dilim**; **2.** *bot.* ear; **qarğıdalı ~sı** corn-cob; **~ vermək** *bot.* to ear
**qıçsız** *s.* legless; **(bir qıçı olmayan)** one-legged
**qıçsızlıq** *i.* the state of being legless / having no legs
**qıdığıgəlmə** *i.* tickle; sensation of tickling
**qıdıq** *i.* tickle, tickling; **qıdığı gəlmək / tutmaq** to be* ticklish; **qıdığı gələn** ticklish; **Qıdığım gəlir** I'm ticklish
**qıdıqlamaq** *f.* tickle (*d.*); **bir kəsi ~** to tickle *smb.*, to give* *smb.* a tickle
**qıdıqlanmaq** *f.* to be* tickled; **burnu / boğazı və s.** ~ to have* a tickle in one's nose / throat, *etc.*
**qıdıqlaşmaq** *f.* to tickle each other / one another
**qıdıqlatdırmaq** *f. bax* **qıdıqlatmaq**
**qıdıqlatmaq** *f.* to ask / to cause *smb.* to tickle (*d.*)
**qıdıqlı** *s.* ticklish, easily tickled
**qıf** *i.* funnel
**qıfabənzər** *s. bax* **qıfvarı**
**qıfabənzərlik** *i. bax* **qıfaoxşarlıq**
**qıfaoxşar** *s. bax* **qıfvarı**
**qıfaoxşarlıq** *i.* the state of being funnel-shaped
**qıfıl** *i.* lock; **asma ~** padlock; **qapını ~la bağlamaq** to lock the door; **Qapını qıfılla!** Lock the door!
**qıfıllamaq** *f.* to lock; **qapını ~** to lock the door; **Qıfılla!** (*d.d.*) **(Danışma!)** Shut up!
**qıfıllanmaq** *f.* to be* locked
**qıfıllatdırmaq** *f. bax* **qıfıllatmaq**
**qıfıllatmaq** *f.* to ask / to cause *smb.* to lock (*d.*)
**qıfıllı** *s.* locked; **~ qapı** locked door
**qıfılsız** *s.* lockless; (*i.s.*) without a lock
**qıfşəkilli** *s.* funnel-shaped
**qıfvarı** *s.* funnel-shaped
**qıfvarılıq** *i.* the state of being funnel-shaped
**qığ** *i.* droppings *pl.*
**qığılcım** *i.* spark; **~ saçmaq / vermək** to spark, to sparkle; **həyat ~ı** the vital spark, the spark of the life; **həyatın son ~ı** the last spark of life: ◊ **Qığılcımdan alov doğar** The spark will kindle [kin-] a flame; **Gözlərimdən qığılcım yağdı / töküldü** I saw stars
**qığılcımlandırmaq** *f.* to spark (*d.*), to cause (*d.*) to spark / to throw out sparks (*d.*)
**qığılcımlanma** *fi.* sparking
**qığılcımlanmaq** *f.* to spark, to throw* out sparks, to scintillate
**qığılcımlı** *s.* **1.** spark, sparking; **2.** *məc.* flashing; **~ baxış** flashing look
**qığılcımsaçan** *s.* sparkling, flashing; **~ baxış** flashing look
**qığılcımsız** *s.* sparkless, without sparks
**qığıldamaq** *f.* **1. (uşaq)** prattle; **2. (toyuq və s.)** squawk
**qığıldanmaq** *f. bax* **qığıldamaq**
**qığıldaşmaq** *f.* **1. (uşaqlar)** to prattle (together); **2. (toyuqlar və s.)** to squawk
**qığıldatmaq** *f.* **1. (uşağı)** to cause to prattle (*d.*); **2. (toyuğu və s.)** to cause / force to squawk (*d.*)
**qığıltı** *i.* **1. (uşaqda)** baby-talk, prattling; **2. (toyuqda və s.)** squawk, squawking
**qığırdaq I.** *i. anat.* cartilage, gristle **II.** *s. anat.* cartilaginous, gristly
**qığırdaqlı** *s. bax* **qıpırdaq II**
**qığ-qığ** *i.* baby-talk, childish prattle; **~ etmək** prattle
**qığlama** *fi.* defecation (of sheep, goats and camels)
**qığlamaq** *f.* to defecate (of sheep, goats and camels)
**qığlatdırmaq** *f. bax* **qığlatmaq**
**qığlatmaq** *f.* to cause to defecate (*d.*) (of sheep, goats and camels)
**qıjı** *i. bot.* fern
**qıjıldama** *f.* noise of quickly running water (of water)
**qıjıldamaq** *f.* to run* swiftly (of water)
**qıxmıq** *i.* chip, wood chips
**qıxmıqlamaq** *f.* to chip (*d.*), to cut* wood to pieces

**qıxmıqlanmaq** *f.* to be* cut to pieces / to chips
**qıxmıqlatdırmaq** *f. bax* **qıxmıtlatmaq**
**qıxmıqlatmaq** *f.* to ask / to cause *s.o.* to chip (*d.*)
**qıjılıq** *i.* ferny place
**qıjıltı** *i.* (of water) noise of quickly running water
**qıl** *i.* bristle; hair; **at ~ı** horse-hair; ◊ **həyatı ~dan asılı olmaq** ≅ to escape death by a hairbreadth
cost; **həyatı ~inə (bahasına)** at the cost / expense of one's life; ◊ **öz ~ini bilmək** to know* one's own worth / value, to have* a high opinion of oneself; **Bunun qiyməti yoxdur** It is invaluable / priceless; **2.** estimate, appraisal; valuation; **yüksək ~ almaq** to receive / to win* a high appraisal; **müsbət ~ almaq (kitab**, **məqalə və s.)** to be* favourably received; **3. (imtahanda)** mark(s); **yüksək ~ almaq** to get* / to receive a high mark; **~ vermək** *bax* **qiymətləndirmək**; **~ qoymaq** / **kəsmək** to fix the price (of); **~dən salmaq** to depreciate **II.** *s.* rate, price; **~ komissiyası** rates commission

**qiymətqoyan** *i.* valuer, estimator; *amer.* appraiser; price-fixer

**qiymətqoyma** *i.* valuation, price-fixing, valorization

**qiymətləndirilmək** *f.* to be* valued / estimated / appraised; **yüz manata ~** to be* valued / estimated / appraised at one hundred manats; **(xüsusən dövlət tərəfindən)** to be* valorized

**qiymətləndirmək** *f.* to value (*d.*), to state the value (of), to price (*d.*), to fix the price (of); to estimate (*d.*), to appreciate (*d.*), to appraise (*d.*); **evi ~** to state the value of the house; **bir şeyi** 5 **manata ~** to estimate / to appraise *smth.* at 5 manats, to put* *smth.* down at 5 manats; **vəziyyəti ~** to assess / to appraise the situation

**qiymətlənmək** *f.* **1.** to get* / to become* valuable, to grow* precious / valuable; **2.** to be* valued / estimated / appraised; to be* valorized

**qiymətləşmək** *f.* to bargain (with), to haggle about / over (with)

**qiymətli** *s.* valuable, precious; **~ şəkil** / **brliyant** / **məlumat** / **kəşf** / **hədiyyə** / **təklif və s**. valuable picture / diamond / information / discovery / present / suggestion, *etc.*; **~ daş** precious stone; **~ vaxt** precious time; **~ məktub** registered letter

**qiymətlilik** *i.* the state or the quality of being valuable

**qiymətsiz** *s.* **1. (qiyməti az)** (*i.s.*) of little value, not valuable; valueless, priceless, worthless; **2.** *məc.* invaluable, priceless; beyond / above price; **~ daş-qaş** priceless jewels

**qiymətsizləşdirilmək** *f.* to be* depreciated; to depreciate

**qiymətsizləşdirmə** *fi.* depreciation; making valueless / preciousless

**qiymətsizləşdirmək** *f.* to depreciate (*d.*); to make* valueless / priceless (*d.*)

**qiymətsizlik** *i.* **1.** worthlessness, valuelessness, **2. (müsbət mənada)** pricelessness

**qiyyə** *i.* scream, squeal, screech, whooping; **~ vurmaq** to squall, to scream, to cry out loudly, to whoop

**qladiator** *i. tar.* gladiator

**qladiatorluq** *i.* the job of a gladiator

**qladiolus** *i. bot.* gladiolus (*pl.* -li)

**qlaukoma** *i. tib.* glaucoma

**qliserin** *i.* glycerine

**qlobal** *s.* global; **~ dəyişikliklər** global changes; **~ raket** global missile, **~ məsələ** global question

**qlobus** *i.* globe; **yer kürəsinin ~u** terrestrial globe

**qlükoza** *i.* glucose, bextrose, grape-sugar

**qnoseologiya** *i. fəls.* gnosiology, epistemology

**qnoseoloji** *s. fəls.* gnosiological, epistemological

**qobu** *i.* gorge, ravine

**qobur** *i.* holster

**qoburlu** *s.* (*i.s.*) with holster, (*i.s.*) having a holster

**qobustan** *i.* ground / country broken by ravines

**qobuz** *i.* gobuz (an old Azerbaijani musical instrument)

**qoca I.** *i.* an old man*; **~lar** the old, the aged, old people; **Qocaların bizim köməyimizə ehtiyacı var** The aged need our help **II.** *s.* old; aged; advanced in age; **~ alim** aged scientist

**qocafəndi** *s.* fit / suitable for an aged / old man* / woman*

**qocalaşdırmaq** *f. bax* **qocaltmaq**

**qocalaşmaq** *f.* to grow* old, to advance in age / years

**qocalı-cavanlı** *top. i.* the old and the young, one and all, everybody, everyone

**qocalıq I.** *i.* old age, senility; **~da** in one's old age; **vaxtsız ~** premature senility **II.** *s.* senile; **~ xəstəliyi** senile disease

**qocalma** *fi.* aging, growing old
**qocalmaq** *f.* to grow* old, to become* aged, to get* old
**qocalmış** *fs.* old, aged; ~ **kişi** an aged man*; ~ **ağac** an old tree
**qocaltmaq** *f.* to make* look old (*d.*), to cause to grow old (*d.*), to age (*d.*); **Dərd-kədər onu vaxtsız qocaltdı** Sorrow has aged him / her prematurely; **Bu paltar sizi qocaldır (qoca göstərir)** This dress makes you look older
**qocaman** *s.* venerable, veteran; ~ **alim** venerable scholar, **(dəqiq elmlər sahəsində)** venerable scientist; ~ **müəllim** veteran teacher
**qocamanlıq** *i.* venerability
**qocasayağı** *z.* as an old man*, like an old man*
**qocasayaq** *z. bax* **qocasayağı**
**qocayana** *z.* like an old man*, as an old / aged man*
**qocayemi** *i.* anything suitable / fit for the old
**qoç I.** *i.* **1.** ram; **(axtalanmış)** wether; **2.** *bax* **igid** I; ◊ **Qoç döyüşünə qoç dözər / gərək** ≅ A Hercules can resist a Hercules **II.** *s.* courageous, brave, gallant; ~ **Koroğlu** courageous Koroglu
**qoçaq I.** *i.* a brave man / fellow, a man of courage, dare-devil, dashing fellow **II.** *s.* dashing; gallant, courageous, brave, lively; ~ **adam** dare-devil; ~ **əsgər** a gallant soldier; ~ **atlı** dashing rider
**qoçaqcasına** *z.* bravely, dashingly, boldly, courageously
**qoçaqlanmaq** *f.* to become* courageous / brave / gallant, to summon up courage
**qoçaqlaşmaq** *f.* to become* / to get* brave; to summon up courage
**qoçaqlıq** *i.* bravery, courage, boldness, gallantry
**qoçu** *i.* **1.** ruffian, hooligan; chieftain; **2.** hired assassin
**qoçubaşı** *i.* chieftain, robber chief, leader of ruffians
**qoçuluq** *i.* chieftainship; ~ **etmək** to be* a ruffian / hooligan, to act like a ruffian / hooligan
**qoduq** *i.* foal, young of an ass, young donkey
**qoduqlamaq** *f.* to foal, to give* birth to a foal (of an ass)
**qoduqluq** *i. d.d.* lock-up, quod; prison, jail
**qodu-qodu** *i. etnoqr*. The performance the players of which put on fancy-dress and sing merry songs going from yard to yard in case of steady rain
**qoğal** *i.* flat cake, cookie
**qoğlu-moğlu** *i.* gogol-mogol (raw eggs and sugar beaten up together)
**qohum I.** *i.* relation, relative; kinsfolk, kinsman* kinswoman*, kindred; **yaxın** ~ near relation; **ən yaxın** ~ nearest relative; **uzaq** ~ distant relation; **Onun Amerikada heç bir qohumu yoxdur** He / She has no kinsfolk in America; **Onun dəfnində qohumlarından az adam iştirak etdi** A few of his kindred were present at his funeral **II.** *s.* kindred, related, cognate, allied; ~ **millətlər** kindred nations; ~ **dillər** allied / kindred / cognate languages; ~ **elmlər** allied / cognate sciences
**qohumbaz I.** *i.* nepotist **II.** *s.* nepotic
**qohumbazlıq** *i.* nepotism; ~ **etmək** to display nepotism, to protect one's relatives / kinsfolk
**qohumcanlı** *s. bax* **qohumbaz**
**qohumcanlılıq** *i. bax* **qohumbazlıq**
**qohum-əqraba** *top. i. bax* **qohum-qardaş**
**qohum-qardaş** *top. i.* relatives *pl.*, relations *pl.*, kinsfolk [-z-]; **yaxın** ~ near relations / relatives
**qohum-qonşu** *i. top*. the relations and the neighbours
**qohumlaşdırmaq** *f.* to make* related (*d.*), to relate(*d.*) by marriage, to relate in kinship (with)
**qohumlaşmaq** *f.* to become* related (with), to become* relations
**qohumlu** *s.* (*i.s.*) having relatives / relations / kinsfolk
**qohumluq I.** *i.* relationship, kindred, kinship; **qan qohumluğu** blood relationship, consanguinity **II.** *s.* kindred, related; ~ **əlaqələri** ties of relationship / blood
**qohumpərəst** *s. bax* **qohumbaz**
**qohumpərəstlik** *i. bax* **qohumbazlıq**
**qohumsuz** *s.* (*i.s.*) without relatives / relations / kinsfolk; (*i.s.*) having no relations / relatives; solitary, lonely
**qohumsuzluq** *i.* loneliness; the state of being without relatives / relations

**qoxu** *i. bax* **iy**
**qoxulamaq** *f. bax* **iyləmək**
**qoxulu** *s. bax* **iyli**
**qoxumaq** *f. bax* **iylənmək**
**qoxumuş** *s. bax* **iylənmiş**
**qoxusuz** *s. bax* **iysiz**
**qoxusuzluq** *i. bax* **iysizlik**
**qoxutmaq** *f. bax* **iyləndirmək**
**qol** *i.* **I.** *i.* **1.** arm; branch; sleeve; tributary; **sağ** / **sol** ~ right / left arm; **bir kəsin ~ları arasına atılmaq** to run* / to rush / to fly* into *smb.*'s arms; **gödək** / **uzun ~ don** a dress with short / long sleeves; **çayın ~u** a branch of a river; **Reyn çayının ~ları** The branches / tributaries of the Rhine; **2.** signature; **~ çəkmək** to sign (*d.*); **bir kəsin ~unu təsdiq etmək** to witness *smb.*'s signature; **Zəhmət olmasa**, **bura qol çəkin** Sign here, please **II.** *i. id.* goal; **~ vurmaq** to score a goal
**qolac** *i.* measure (equal to the length from the top of the finger of one hand to the top of the finger of the other hand)
**qolaclamaq** *f.* to measure (*d.*) with open arms
**qolaclanmaq** *f.* to be* measured with open arms
**qolaylamaq** *f.* to facilitate (*d.*), to make* easy / easier (*d.*)
**qolayaşmaq** *f.* to get* / to become* easier
**qolaylatdırmaq** *f. bax* **qolaylatmaq**
**qolaylatmaq** *f.* to ask / to cause *smb.* to make easier (*d.*)
**qolaylıq** *i.* **1.** facilitation; easing; **2.** easiness, lightness
**qolazlamaq** *f.* to fling* (*d.*), to hurl (*d.*); **daşı ~** to throw* / to hurl stones (at); **O, pəncərəyə bir kərpic qolazladı** He hurled a brick at the window
**qolbaq** *i. bax* **bilərzik**
**qolbağı** *i. bax* **bilərzik**
**qolbənd** *i. bax* **bilərzik**
**qol-boyun** *z.* with arms round each other, in an embrace; **~ olmaq** to embrace, to hug one another, to put* arms on one another's neck
**qol-budaq** *i.* ramification, branches; **~ atmaq** to branch out, to ramify, to grow* branchy
**qol-budaqlı** *s. bax* **qollu-budaqlı**
**qolçaq** *i.* oversleeve, armlet
**qolçomaq** **I.** *i. arx.* kulak; **~lar** *top. i.* the kulaks **II.** *s.* kulak; **~ ünsürlər** kulak elements
**qolçomaqlıq** *i.* the state of being kulak
**qol-qabırğa** *i.* arms and ribs; ◊ **~sını sındırmaq** / **əzmək** 1) to beat* unmercifully, to beat* black and blue; 2) **(təhrif etmək)** to distort (*d.*), to mispresent (*d.*); **(musiqini**, **ədəbi əsəri)** to butcher (*d.*)
**qol-qanad** *i.* **1.** arm and wing, wings; **2.** branches (of trees) ◊ **~ açmaq (həm** *müst.*, **həm** *məc.***)** to spread* one's wings ◊ **~ı qırılmaq** to lose* opportunity, to be* deprived (of), to get* into hopelessness; ◊ **~ vermək** to cheer up (*d.*), to encourage (*d.*), to inspire (*d.*), to hearten (*d.*), to feel* / to inspire with enthusiasm; ◊ **~ını qırmaq** / **kəsmək** to clip someone's wings, to prevent someone from being as active as before
**qol-qıç** *i.* extremities
**qol-qola** *z.* arm in arm: **~ gəzmək** to walk arm in arm
**qollamaq** *f. d.d.* to sign (*d.*); **məktubu ~** to sign a letter
**qollanmaq** *f. d.d.* to be* signed; **Məktub qollanıb** The letter has been signed
**qollu** *s.* (*i.s.*) with sleeves / arms, (*i.s.*) having sleeves / arms
**qollu-budaqlı** *s.* branchy; branched; **~ olmaq** to be* branchy
**qollu-qanadlı** *s.* **1.** *bax* **qollu-budaqlı**; **2.** (*i.s.*) having a lot of relatives; **~ adam** *məc.* a man* having a lot of relatives
**qolsuz** *s.* armless; **(birqollu)** one armed; **(paltar)** sleeveless; **~ jaket** / **kofta** sleeveless jacket / blouse
**qolsuz-budaqsız** *s.* **1.** armless, branchless; **2.** *məc.* (*i.s.*) without child / relatives; (*i.s.*) having no child / relative; childless
**qolsuz-qanadsız** *s.* **1.** wingless; **2.** *bax* **qolsuz-budaqsız (2-ci mənada)**
**qolsuzluq** *i.* armlessness, sleevelessness
**qoltuq** *i.* **1.** armpit; **2.** bosom; **qoltuğunun altında** under one's bosom, under (one's) arm; **qoltuğunun altına almaq** / **çəkmək** *məc.* to shelter (*d.*), to give* refuge (*d.*); ◊ **qoltuğuna qarpız vermək (yalandan tərifləmək)** to flatter (*d.*), to adulate (*d.*); ◊ **xoruzunu qoltuğuna vermək** ≅ to

denounce (*d.*); to drive* out (*d.*); to criticize mercilessly; **(işdən qovmaq)** to sack (*d.*), to fire (*d.*); ◊ **qoltuğunun altı şişmək** ≅ to become* proud (of), to get* a swelled head (over)
**qoltuqağacı** *i.* crutch; pair of crutches; ~ **ilə gəzmək** to walk with crutches
**qoltuqaltı** *i.* dress-preserver, dress-shield
**qoltuqlamaq** *f.* **1.** to take* *smb.*'s arm, to slip one's arm through *smb.*'s; **2.** *məc.* to flatter (*d.*), to adulate (*d.*)
**qoltuqlanmaq** *f.* **1.** to be* taken by arms; **2.** to be* flattered
**qoltuqlu** *s.* (*i.s.*), with elbow-rest / arm, (*i.s.*) having elbow-rest / arm
**qoluçirməkli** *z.* with rolled up sleeves
**qolugüclü I.** *i. bax* **qoluzorlu I II.** *s. bax* **qoluzorlu II**
**qolugüclülük** *i. bax* **qoluzorluluq**
**qolukəsik** *s.* armless; (*i.s.*) without arms, (*i.s.*) having no arms
**qolukəsiklik** *i.* armlessness; the state of having no arms
**qoluqüvvətli** *s.* robust, sturdy, muscular; ~ **oğlan** robust / sturdy fellow
**qoluzorlu I.** *i.* one who abuses one's power / position **II.** *s.* (very) strong, robust; ~ **adam** a robust man
**qoluzorluluq** *i.* the state or quality of being robust
**qom** *i.* bunch, bundle; **bir ~ çiçək** / **açar** a bunch of flowers / keys
**qomarlamaq** *f.* to surround (*d.*), to encircle (*d.*); **düşməni ~** to surround / to encircle the enemy; **Əsgərlər düşməni qomarladılar** The soldiers surrounded the enemy
**qomarlanmaq** *f.* to be* surrounded / encircled
**qom-qom** *z.* bunch-bunch; bunch by bunch; bundle by bundle
**qomindan** *i.* Kiomintang
**qomindançı** *i.* member of the Kiomintang
**qomlamaq** *f.* to bunch (*d.*), to bundle (*d.*)
**qomlanmaq** *f.* to be* bunched / bundled
**qomlalatdırmaq** *f. bax* **qomlatmaq**
**qomlatmaq** *f.* to ask / to cause *s.o.* to bunch (*d.*) / to bundle (*d.*)
**qonaq I.** *i.* guest, visitor; **çağrılmış ~** invited guest; **çağrılmamış ~** uninvited guest / intruder; **hörmətli ~** respected guest; **şərəfli ~** guest of honour; **~ getmək** to visit (*d.*), to pay* a visit (*i.*); **~ gəlmək** to come* to see (*d.*); **~ qəbul etmək** to receive visitors / guests; **~ qalmaq** to be* on a visit; **~ etmək** to entertain (*d.* to; **rəsmi** *d.* at); to treat (*d.* to), to feast (*d.*) **II.** *s.*: **~ otağı** drawing-room; **(sadə döşənmiş)** sitting-room
**qonaqcıl** *s. bax* **qonaqpərəst**
**qonaqcıllıq** *i. bax* **qonaqpərəstlik**
**qonaqçı** *i.* hospitable person
**qonaq-qara** *top. i.* guests, visitors
**qonaq-qaralı** *s. d.d.* hospitable; **~ ev** hospitable household
**qonaqlamaq** *f.* to entertain (*d.* to), to give* a party
**qonaqlıq** *i.* entertainment, evening-party, dinner-party; **(zəngin)** feast; **(rəsmi)** banquet; **bir kəsə ~ vermək** to entertain / to banquet / to feast *smb.*; **qonaqlığa dəvət etmək** to invite / to ask to an entertainment / a banquet / a feast / an evening-party
**qonaqpərvər** *s. bax* **qonaqpərəst**
**qonaqpərvərlik** *i. bax* **qonaqpərəstlik**
**qonaqpərəst** *s.* hospitable; **~ adam** a hospitable man*
**qonaqpərəstlik** *i.* hospitality; **~ göstərmək** to show* / to display a hospitality
**qonaqpərəstliklə** *z.* hospitably
**qonaqsevən** *s. bax* **qonaqpərəst**
**qonaqsevər** *s. bax* **qonaqpərəst**
**qonaqsevərlik** *i.* hospitality
**qonaqsevərliklə** *z.* hospitably, in a hospitable way
**qonaqsevməz** *s.* inhospitable; **~ adam** an inhospitable man*
**qonaqsevməzlik** *i.* inhospitality
**qondarılmaq** *f.* **1.** to be* arranged / installed / placed (in its place); **2. (uydurulmaq)** to be* fabricated / installed / concocted / made up
**qondarma I.** *fi.* **1.** placing, installation, arrangement; **2.** *tex.* mounting, setting, installation; **3.** fiction, fabrication, concoction **II.** *s.* false, faked, fictional, fictitious; imaginary; **~ ittiham** false / faked accusation; **~ ad** fictitious name
**qondarmaçılıq** *i.* fabrication, concoction; fable

**qondarmaq** *f.* **1.** to place (*d.*); *tex.* to mount (*d.*), to install (*d.*), to set* (*d.*); **telefonu / radioqəbuledicini və s.** ~ to set* / to install the telephone / the radio set, *etc.*; **2. (özündən düzəltmək)** to make* up (*d.*), to fabricate (*d.*), to concoct (*d.*); **özündən** ~ to tell* stories

**qondola** *i.* **(qayıq növü)** gondola

**qondolaçı** *i.* gondolier

**qondurmaq** *f.* **(quşu və s.)** to cause to perch (*d.*)

**qonmaq** *f.* **1. (quş)** to perch; **2. (milçək və s.)** to alight, to settle; **3. (toz)** to settle

**qonorar** *i.* fee; honorarium (*pl.*, riums, -ria); **müəllif ~ı** author's emoluments; **(tirajdan alınan)** royalties *pl.*

**qonşu I.** *i.* neighbour; *amer.* neighbor; **yaxın ~lar** next-door neighbours; **Uzaq qohumdan yaxın qonşu yaxşıdır** *at. söz.* ≅ A next-door neighbour is better than a distant relative; **Gülmə qonşuna, gələr başına** *at. söz.* ≅ Don't laugh at another's misfortune, it may happen to you one day; **Qonşuya ümid olan şamsız yatar** *at. söz.* ≅ One who relies on one's neighbour, will go to bed without (having) supper **II.** *s.* neighbouring, next, adjacent; vicinal; ~ **ölkələr** neighbouring countries; ~ **otaq** next / adjacent room; ~ **kənd** neighbouring village

**qonşucasına** *z.* like neighbours, as neighbours

**qonşuluq I.** *i.* neighbourhood, neighbourship; vicinity; ~ **etmək** to have* neighbourly relations, to be* on good / friendly terms with one's neighbour; **~da yaşamaq** to live in the neighbourhood **II.** *s.* neighbourly; ~ **münasibətləri** neighbourly relations

**qonum-qonşu** *top. i.* the neighbours, all the neighbourhood

**qonurgöz** *s.* brown-eyed

**qonurgözlü** *s. bax* **qonurgöz**

**qonurgözlülük** *i.* the quality of having brown eyes

**qonurlaşmaq** *f.* to get* / to become* brown

**qonurluq** *i.* the quality of being brown

**qonurumtul** *s.* brownish

**qonurvarı** *s.* brownish

**qonuşma** *fi.* coversation, talk

**qonuşmaq** *f.* to converse, to talk, to have* a talk

**qoparaq** *z.* quickly, rapidly, swiftly; ~ **getmək** to run* quickly / rapidly; **qoparağını götürmək** to run* after (*d.*) quickly / swiftly; to chase; **düşmənin qoparağını götürmək** to chase the enemy

**qoparaqlamaq** *f.* to run* after (*d.*) quickly, to drive* away (*d.*); to chase; **oğrunu** ~ to chase the thief

**qoparaqlanmaq** *f.* to be* driven away / out; to make* a run / rush; to be chased

**qopardılmaq** *f.* to be* torn off; **(çiçək, meyvə və s.)** to be* picked / plucked

**qopardılmış** *fi.* **1.** picked; plucked; **2.** broken off

**qoparılmaq** *f. bax* **qopardılmaq**

**qoparmaq** *f.* **1.** to tear* (*d.*) away / down / off; **(çiçəyi, meyvəni və s.)** to pick (*d.*), to pluck (*d.*) of; **(yapışdırılmış kağızı)** to unstick (*d.*); **2.** to pull out (*d.*), to tear* out (*d.*); **(bitkini)** to pull up; **alağı kökündən** ~ to pull up the weeds by the roots, to tear* up the weeds by the roots; ◊ **qiyamət** ~ to kick up a row, to make* a row, to set* up a clamour; ◊ **ürəyini** ~ to frighten deadly; ◊ **pul** ~ to rush / to squeeze money, to extort money from

**qopartdırmaq** *f.* to ask / to cause *smb.* to tear away / out; **(çiçəyi, meyvəni)** to ask / to cause *smb.* to pick (*d.*); **(bitkini)** to ask / to cause *smb.* to pull up / out; **(yapışdırılmış kağızı və s.)** to ask / to cause* *smb.* to unstick (*d.*)

**qopartmaq** *f.* **qoparmaq**

**qopmaq** *f.* **1. (düymə və s.)** to come* off, to tear* off **2. (suvaq və s.)** to peel off; **3. (yapışdırılmış bir şey)** to come* unstuck; **4. (tufan və s.)** to break* out; to break* off; **Tufan saat 5-də qopdu** The storm broke out at 5; **Budaq qopdu** The branch broke off; **Fəryad qopdu** There was a shout / a yell / a cry

**qopuz** *i. bax* **qobuz**

**qor** *i.* ember, grains of fire in ashes: red-hot grains of coal in ashes; ◊ **yerinə** ~ **dolmaq** / **tökülmək** to be* very uneasy / anxious; to be* frightened

**qora** *i.* **1.** wild grapes; **2.** unripe grapes; ◊ **gözünün ~ sını tökmək / sıxmaq** to cry, to weep, to squeeze out a tear
**qoraba** *i.* **1.** *bax* **abqora**; **2.** thick preserve made of grapes
**qorabişirən** *s.*: ~ **ay** the hottest month of summer: August
**qorasuyu** *i. bax* **abqora**
**qorxacaq** *s.* timid, timourous, cowardly, faint-hearted; apprehensive, chickenhearted
**qorxacaqlıq** *i.* timidity, faint-heartedness; cowardice
**qorxaq I.** *i.* coward, craven **II.** *s.* **1.** cowardly, craven, fainthearted, chicken-hearted; timid; ~ **adam** cowardly man*, faint-hearted / chicken-hearted fellow; ~ **baxış** timid look; **2. (qətiyyətsiz)** indecisive, irresolute **III.** *z.* **1.** in a cowardly way / manner, cravenly, faint-heartedly; **2.** indecisively
**qorxaqcasına** *z. bax* **qorxaq III**
**qorxaqlıq** *i.* **1.** cowardice, cravenness, faint-heartedness, chicken-heartedness; cowardliness; **2.** indecisiveness; ~ **göstərmək** to display / to show* faint -heartedness; ~ to act / to behave indecisively; ~ **etmək** *bax* **qorxmaq**
**qorxa-qorxa** *z. bax* **qorxaq III**
**qorxmaq** *f.* **1.** to be* afraid (of), to fear (*d.*); **(bərk)** to dread (*d.*); **yoluxmaqdan** ~ to be* afraid of infection; **itdən** ~ to be* afraid of a dog, to fear a dog; **bir kəsdən / şeydən bərk** ~ to dread *smb.* / *smth.*; **çətinlikdən** ~ to be* afraid of difficulties, to be* daunted by difficulties; **təhlükədən** ~ to shrink* in the face of danger; **2. (tamamlıqsız)** to be* frightened; to have* the wind up; to get* cold feet; *d.d.* to chicken out; to fear; **Qorxuram gecikək** I fear we'll be late; **Qorxuram yağış yağa** It's raining, I fear; **Qorxma!** Don't fear! Don't be afraid / be frightened!
**qorxmalı** *s.* terrible, frightful, fearful, dreadful; ~ **hekayə** terrifying story; ~ **xəstəlik** dreadful disease
**qorxmaz** *s.* **1.** fearless, intrepid; dauntless, undaunted; **2.** *bax* **igid**
**qorxmazlıq** *i.* fearlessness, intrepidity
**qorxu** *i.* **1.** fear, fright; dread; **ölüm ~su** fear / dread of death; ~ **içərisində olmaq**, **~ya düşmək** to be* gripped / siezed with fear; **~dan** with / from fear; **~dan əsmək** to quake with fear, to shiver from fear; **~ya salmaq** to inspire fear; **2. (məsuliyyət hissi)** risk, responsibility; **öz ~sundan** at one's own risk, at one's own responsibility; **3.** *bax* **təhlükə**
**qorxubilməz** *s. bax* **qorxmaz**
**qorxubilməzlik** *i.* fearlessness, intrepidity
**qorxuducu** *s.* threatening, menacing; ~ **ton** menacing tone; ~ **məktub** a threatening letter
**qorxudulmaq** *f.* to be* frightened, to be* terrorized
**qorxu-hürkü** *i.* **1.** fear, fright; **2.** threat [θret], menace
**qorxulu** *s.* **1.** fearful, terrible, dreadful; ~ **tufan** fearful / terrible storm; ~ **xəstəlik** dreadful disease / illness; ~ **xəbər** terrible / dreadful news; ~ **uçurum** fearful precipice; **2.** *bax* **təhlükəli**
**qorxuluq** *i.* **(quşları və s. qorxutmaq üçün bağa, bostana qoyulan)** scarecrow
**qorxunc** *s.* frightful; fearful; terrible; shocking; ~ **səhnə** a frightful scene; ~ **xəbər** terrible / dreadful / shocking news
**qorxusuz I.** *s.* **1.** *bax* **qorxmaz**; **2.** *bax* **təhlükəsiz II.** *z.* **1.** bravely, fearlessly, courageously; boldly; **2.** safely
**qorxusuz-hürküsüz I.** *s.* fearless, intrepid; brave, courageous, bold **II.** *z.* fearlessly, intrepidly; bravely, courageously, boldly
**qorxusuzluq** *i.* fearlessness, intrepidity
**qorxuşmaq** *f.* to be* afraid (of) / to get* frightened all together
**qorxutma** *fi.* frightening
**qorxutmaq** *f.* to frighten (*d.*), to scare (*d.*); to threaten (*d.* with), to menace (*d.* with); **uşaq** ~ to frighten a child*; **bir kəsi** ~ to scare *smb.*; **Qoy bu səs sizi qorxutmasın; bu küləyin səsidir** Don't let the noise scare you; it's only the wind
**qorxuzmaq** *f. bax* **qorxutmaq**
**qorilla** *i. zool.* gorilla
**qor-qoduq** *top. i.* riff-raff, rabble, small fry
**qorlamaq** *f.* to kindle (*d.*), to stir embers
**qorlandırmaq** *f. bax* **qorlamaq**
**qorlanmaq** *f.* to start to kindle; to be* stirred (of embers)

**qorlaşmaq** *f. bax* **qorlanmaq**
**qorlatmaq** *f.* to ask / to cause *smb.* to kindle (*d.*), to ask / to cause *smb.* to stir embers
**qorluq** *i.* fire of red-hot embers; brazier
**qorodki** *i.* (a kind of game) gorodki (kind of skittles)
**qorodovoy** *i. tar.* policeman*
**qoruq I.** *i.* preserve, reservation; (nature) reserve; **(quş qoruğu)** sanctuary; **meşə qoruğu** forest reserve **II.** *s.* **(qanunla mühafizə edilən)** protected; ~ **meşə** protected forest, forest-reserve
**qoruqçu** *i.* **(kişi)** watchman*; **(qadın)** watchwoman*
**qoruqçuluq** *i.* the job of a watchman* / watchwoman*; ~ **etmək** to be* a watchman* / watchwoman*, to work as a watchman* / watchwoman*
**qoruq-qaytaq** *i.* norm of behaviour; rule of conduct
**qoruq-qaytaqsız** *s. d.d.* unruly, unbridled; ~ **uşaq** unruly child; ~ **dil** unbridled tongue
**qoruma** *fi.* guarding, protection, defence, defending; **sülhü** ~ the defence of peace; **vətəni** ~ the protection of one's country;
**qorumaq** *f.* **1.** to guard (*d.* from, against), to protect (*d.* from); **evi** ~ to guard the house; **İt evi qoruyur** The dog guards the house; **uşaqları yoluxuçu xəstəlikdən** ~ to protect children against infectious diseases; **2.** to defend (*d.*); **vətəni** ~ to defend one's country; **3.** to take* care (of), to preserve (*d.* from); **öz sağlamlığını** ~ to take* care of one's health, to watch one's health; **Tale sizi hər bəladan qorusun!** Fate may preserve you from harm!
**qorunma** *fi.* protection, preservation; **təbiətin ~sı** protection of nature; **qədim tikililərin ~sı** preservation of ancient buildings
**qorunmaq** *f.* **1.** to be* guarded (from, against), to be* protected (from); **Bu abidə dövlət tərəfindən qorunur** This monument is protected by the State; **2.** to defend oneself, protect oneself, to be* on one's guard; to be* careful not (+to *inf.*), to take* care not (+to *inf.*)
**qoruyucu I.** *i. tex.* safety device, protector **II.** *s.* protective, preventive; *tex.* safety; ~ **geyim** protective dressing / clothing; ~ **zolaq** *k.t.* protective belt; ~ **peyvənd** *tib.* protective / preventive vaccination (inoculation); ~ **klapan** *tex.* safety valve, relief valve
**qospital** *i.* hospital; **səhra ~ı** field hospital
**qoşa I.** *s.* pair, double, parallel; twin; ~ **sürüşmə** *id.* pair skating; ~ **qapı** double doors; **xətlər** parallel lines; **~dirəklər** parallel bars; ~ **avarlı (qayıq)** pair-oar; ~ **çarpayı (oxşar)** twin beds **II.** *z.* together; ~ **getmək** to go* together
**qoşaatlı** *s.* pair-horse, two-horse; ~ **fayton** two-horse carriage
**qoşaavarlı** *s. dən.* pair-oar
**qoşabuynuz** *s.* two-horned
**qoşabuynuzlu** *s. bax* **qoşabuynuz**
**qoşadırnaqlı** *i. zool.* cloven-footed, cloven-hooved
**qoşadorlu** *s. dən.* two-masted; ~ **gəmi** two-masted
**qoşahərfli** *s. dilç.* double-lettered
**qoşaqanad** *s.* two-winged; *zool.* dipterous
**qoşaqanadlı** *s. bax* **qoşaqanad**
**qoşa-qoşa** *z.* in pairs, two by two
**qoşalamaq** *f.* to pair (*d.*), to double (*d.*); to pair up (*d.*)
**qoşalanmaq** *f.* to double (*d.*), to be* doubled / paired; to be* paired up
**qoşalaşdırılmaq** *f.* to be* doubled / paired
**qoşalaşdırmaq** *f. bax* **qoşalamaq**
**qoşalaşdırma** *fi.* pairing, coupling; doubling
**qoşalaşmaq** *f.* to become* / to get doubled; to act in pairs
**qoşalaşmış** *fs.* doubled, paired
**qoşalatdırmaq** *f. bax* **qoşalatmaq**
**qoşalatmaq** *f.* to ask / to cause *smb.* to double (*d.*), to ask / to cause *smb.* to pair up (*d.*)
**qoşalıq** *i.* the state or quality of being double (parallel)
**qoşalülə** *i.* double-barrel, a gun with two barrels
**qoşalülə** *s.* double-barrelled; ~ **tüfəng** double-barrelled gun
**qoşalüləli** *s. bax* **qoşalülə**
**qoşanağara** *i.* a musical instrument consisting of two drums tied with each other and struck with two sticks
**qoşaoxlu** *s. tex.* biaxial
**qoşasaat** *i.* double-period
**qoşasaitli** *i. dilç.* diphthong; geminate

**qoşasamitli** *s. dilç.* double consonant, geminated consonant
**qoşasəsli** *s. dilç.* double voiced
**qoşaşdırmaq** *f.* **1.** to race (*d.*); **atları ~** to race horses; **2. (çütləmək)** to pair (*d.*); **3. (səsləri)** to harmonize (*d.*)
**qoşaşmaq** *f.* to run* a race against each other
**qoşatəkərli** *s.* two-wheeled
**qoşayelkənli** *s. dən.* two-sailed
**qoşdurmaq** *f.* **1. (öküzü, kəli)** to ask / to cause *smb.* to yoke (*d.*); **(atı, iti və s.)** to ask / to cause *smb.* to harness (*d.*); **öküzləri ~** to ask / to cause *smb.* to yoke oxen; **atları ~** to harness horses; **2. (vaqonu)** to ask / to cause *smb.* to couple (*d.* to); to ask / to cause *smb.* to hitch (*d.*); **3. (şer)** to ask / to cause *smb.* to write (*d.*); **4. (mahnı)** to ask / to cause *smb.* to compose (*d.*); **5. (cərəyanı)** to ask / to cause *smb.* to connect (*d.*); to ask / to cause *smb.* to switch on (*d.*); **radionu ~** to ask / to cause *smb.* to switch the radio / wireless on
**qoşdurtmaq** *f. bax* **qoşdurmaq**
**qoşqu I.** *i.* **1.** harness; **2.** trailer; **ikioxlu ~** double-axle trailer **II.** *s.* draught [-a:ft]; **~ heyvanı** beast of draught; **~ atı** a draught-horse, carriage-horse; **(arabaya qoşulan)** cart-horse
**qoşma** *i.* **1.** a form of an Azerbaijani poem; **2.** *qram.* postposition
**qoşmaq** *f.* **1. (öküzü və s.)** to yoke (*d.*); **(atı, iti və s.)** to harness (*d.*), to put* (*d.* to), to set* (*d.* in); **öküzləri ~** to yoke oxen; **atları ~** to harness horses; **2. (vaqon və s.)** to couple (*d.*); **3. (cərəyanı)** to connect (*d.*); **4. (şer)** to write* (*d.*); **5. (mahnı)** to compose (*d.*); **Radionu qoşun** Switch on the radio / wireless
**qoşucu** *i.* coupler
**qoşulma** *fi.* **1.** joining; **2.** *el.* connection; **3. (fikrə və s.)** adhesion, adherence; **4. (nəqliyyat)** hitching, hooking; **(vaqon)** coupling
**qoşulmaq** *f.* **1. (öküz və s.)** to be* yoked; **(at, it və s.)** to be* harnessed; **2. (vaqon və s.)** to be* coupled; **3. (cərəyan)** to be* connected; **4. (şer)** to be* written; **5. (mahnı)** to be* composed; **6. (bir kəsə)** to join (*d.*); **(həmrəy olmaq)** to associate (oneself) (with); **Tezliklə uşaqlar bizə qoşuldular** Soon the children joined us; **mübarizəyə ~** to join in the fight; **söhbətə ~** to join (in) conversation
**qoşun I.** *i.* troops; forces; **(çox miqdarda olan)** horde; **nizami ~** regular troops; *d.d.* the regulars; **quru ~ları** land forces; **muzdlu ~** mercenary army; **rabitə ~ları** signal troops; *amer.* communication troops **II.** *s.* army; **~ dəstəsi** army unit
**qot I.** *i. tar.* goth **II.** *s.*: **~ dili** Gothic; **~ əlifbası** Gothic alphabet
**qotik** *s.* Gothic; **~ üslub** Gothic style
**qotaz** *i.* tassel, pompon (pompom)
**qotazlamaq** *f.* tassel (*d.*)
**qotazlanmaq** *f.* to be* tasselled
**qotazlatmaq** *f.* to ask / to cause *smb.* to tassel (*d.*); to have* (*d.*) tasselled
**qotazlı** *s.* tasselled, tasseled; (*i.s.*) with tassels; (*i.s.*) with pompons; **Fransız dənizçiləri qotazlı papaq geyirlər** French sailers wear a pompom on their caps
**qotazlılıq** *i.* pomposity, pompousness
**qotazvarı** *s.* tassel-shaped, pompon-shaped
**qotur I.** *i. tib.* **1.** the itch; **~ tutmaq** to have* the itch, to suffer from the itch; **2. (heyvanda)** mange [meındʒ] **II.** *s.* **1.** itchy; (*i.s.*) suffering from the itch, (*i.s.*) having the itch; **2. (heyvan)**, mangy [ˈmeındʒı]
**qoturlamaq** *f.* **1.** to catch* the itch, to suffer from the itch; **2. (heyvan)** to catch* the mange, to suffer from the mange
**qoturlaşmaq** *f.* **1.** to become* / to get* itchy; **2. (heyvan)** to become* / to get* mangy
**qoturluq I.** *i.* **1.** the state of being itchy; **2. (heyvanda)** the state of being mangy; manginess **II.** *s.*: **~ xəstəliyi** the itch; **(heyvanda)** the mange [meı-] **~ gənəsi** itch-mite
**qov I.** *i.* **(baş tükündə)** scurf, dandruff **II.** *i.* **(çaxmaqdaşı üçün)** tinder [ˈtın-]
**qovaq I.** *i. bot.* poplar; **ağ ~** white poplar, abele **II.** *s.* poplar; **~ meşəsi** poplar wood / forest
**qovaqlıq** *i.* poplar grove
**qovalamaq** *f.* to drive* away / out (*d.*), to turn out (of *d.*); to send* (*d.*) away; **(işdən)** to sack (*d.*), to dismiss (*d.*); **evdən ~** to turn out of the house; **bir kəsi işdən ~** to sack; *smb.*, to fire *smb.*; *d.d.* to give* *smb.* the

sack; **məktəbdən ~** to expel from school; **Külək buludları qovaladı** The wind drove away the clouds
**qovalanmaq** *f.* to be* driven away / turned out; **(işdən)** to be* dismissed / sacked; **(məktəbdən və s.)** to be* expelled (from); **Oğlan məktəbdən qovalandı** The boy was expelled from school
**qovalatdırmaq** *f. bax* **qovalatmaq**
**qovalatmaq** *f.* to ask / to cause *smb*. to drive away (*d*.) / to turn out (*d*.); **(işdən)** to ask / to cause *smb*. to sack (*d*.) / to dismiss (*d*.)
**qovarlanmaq** *f.* **1.** to be* proud (of), to take* pride (in); to pride oneself (upon); **2. (tamamlıqsız)** to put on haughty airs, to look haughty, to get* on one's high horse *idiom.*
**qovarlı I.** *s.* proud, haughty **II.** *z.* proudly, haughtily
**qovarlılıq** *i.* haughtiness, pride
**qovdu-qaçdı** *i. d.d.* running about; turmoil
**qovdurmaq** *f.* to ask / to cause *smb*. to drive out (*d*.); **(işdən)** to ask / to cause *smb*. to dismiss (*d*.); to ask / to cause *smb*. to give *smb*. the sack; **(məktəbdən və s.)** to ask / to cause *smb*. to expel (*d*.)
**qovdurtmaq** *f. bax* **qovdurmaq**
**qovğa** *i.* fight, uproar, row, brawl, scandal; **~ salmaq** to kick up a row, to make* an uproar; **başı ~da olmaq** to get* into trouble
**qovğaçı I.** *i.* brawler, trouble-maker; pugnacious man*; **(oğlan)** pugnacious boy; **(qız)** pugnacious girl **II.** *s.* pugnacious, scandalous; **~ adamlar** pugnacious people
**qovğaçılıq** *i.* pugnacity, pugnaciousness
**qovğalı** *s.* **1.** rowdy, scandalous, quarrelsome; **başı ~ olmaq** to be* in trouble; **2.** disastrous, calamitous
**qovğasız** *s.* troubleless, scandalless; (*i.s.*) without trouble / scandal
**qovhaqov** *i.* hurry, haste; quick activity
**qovlamaq** *f. bax* **qovalamaq**
**qovlanmaq** *f. bax* **qovalanmaq**
**qovlatdırmaq** *f. bax* **qovalatmaq**
**qovlatmaq** *f. bax* **qovalatmaq**
**qovlu** *s.* scurfy; (*i.s.*) covered with scurf
**qovluq** *i.* **1. (kağız saxlamaq üçün)** folder, portfolio; **2. (portfel növü)** under-arm (document) case
**qovma** *fi.* **1.** banishment; **(cəmiyyətdən)** expulsion; **(ölkədən)** deportation, proscription; **(vətəndən)** expatriation; **2. (sürgün)** exile
**qovmaq** *f.* **1.** to drive* out (*d*.), to turn out (*d*.); **evdən ~** to turn (*d*.) out of the house; **bir kəsi işdən ~** to give* *smb*. the sack, to sack *smb*., to fire *smb*.; **məktəbdən ~** to expel from school (*d*.); **2.** to banish (*d*.); **ölkədən ~** to banish from the country; **dərdi / qəmi ~** to drive* away boredom; **Onu qovun**! Turn him / her out!
**qovraq** *s. bax* **qıvraq**
**qovraqlaşmaq** *f. bax* **qıvraqlaşmaq**
**qovraqlıq** *i. bax* **qıvraqlıq**
**qovrulmaq** *f.* **1.** to be* fried / roasted / broiled; to fry, to roast, to broil; **2.** *məc.* writhe, squirm; to be* writhed / squirmed; **ağrıdan ~** to writhe with pain; **günəşdə ~***məc.* to bask in the sun, to roast oneself
**qovrulmuş** *fs.* **(tavada)** fried; **(sobada)** roast (-ed); broiled
**qovşaq** *i.* **1.** joint, junction; **yol qovşağı** road junction; **dəmiryol qovşağı** (railway) junction **2.** *tex.* unit, assembly
**qovuq** *i.* **1.** bubble; **sabun qovuğu** soap bubble; **sabun qovuğu buraxmaq** to blow* bubbles; **2. (üzmək üçün)** air-bladder
**qovuqlanmaq** *f.* to bubble
**qovuqlu** *s.* (*i.s.*) full of bubbles, (*i.s.*) with bubbles
**qovulmaq** *f.* **1.** to be* driven away / turned out; **2. (işdən)** to be* dismissed / sacked; **3. (məktəbdən)** to be* expelled (from); **4. (ölkədən) ~** to be* banished
**qovun** *i. bax* **yemiş**
**qovun-qarpız** *top. i.* water-melons, melons and gourds
**qovurğa** *i.* fried / roasted wheat
**qovurma** *fi.* **1.** frying, roasting; **2.** roast, roast meat
**qovurmaçı** *i.* one who cooks and sells the internal organs of the sheep
**qovurmaçılıq** *i.* the job of a man who cooks and sells the internal organs of the sheep
**qovurmaq** *f.* **(tavada)** to fry (*d*.); **(odda, kürədə)** to roast (*d*.), to broil (*d*.); **qəhvə ~** to roast coffee
**qovurtdurmaq** *f.* to ask / to cause *smb*. to fry (*d*.), to ask / to cause *smb*. to roast (*d*.), to ask / cause *smb*. to broil (*d*.)

**qovurtmaq** *f. bax* **qovurtdurmaq**
**qovuşdurmaq** *f.* **1.** to join (*d.*), to unite (*d.*); to connect (*d.*); **2.** to marry (*d.*), to join (*d.*), to join in marriage (*d.*); **sevgililəri** ~ to join lovers (in marriage); **Allah sizi qovuşdursun**! May God join you!
**qovuşdurulmaq** *f.* **1.** to join, to unite, to connect; to be* joined / united / connected; **2.** to marry, to join (in marriage); to be joined (in marriage)
**qovuşma** *fi.* **1.** joining, junction; **2.** *kim.* compound; **3.** *riyaz.* combination; **4.** *bax* **vüsal**
**qovuşmaq** *f.* **1.** to join, to unite, to come* together; **2.** to join (in marriage), to marry, to meet* again after a long absence; **3. (çay və s.)** to interflow, to flow together, to join; ◊ **Qaranlıq qovuşur** It's getting dark, Night is drawing on, Night is falling
**qovuşmaz** *s.* **1.** unsociable; **2.** incompatible
**qovuşmazlıq** *i.* **1.** reserve, estrangement; **2.** incompatibility
**qovuşuq** *s.* joint, mixed; complicated, involved
**qovuşuqluq** *i.* involvement; complication; confusion
**qovut** *i.* roasted wheat ground to flour; a gruel made of such flour
**qovzadılmaq** *f. bax* **qovdurmaq**
**qovzamaq** *f. bax* **qaldırmaq**
**qovzanmaq** *f.* **1.** to rise*, to get* up; to stand* up; **2.** to raise oneself a little
**qovzatdırmaq** *f. bax* **qaldırtmaq**
**qoy** *əd.* **1.** let (+*inf.*); **Qoy o getsin** Let him / her go; **2.** though, even; **Qoy gec olsun**, **mən gözləyəcəyəm** Though it is late, I intend to wait; **Qoy o gəlməsin**, **mən dəvət edəcəyəm** Even he / she doesn't come, I'll invite him / her
**qoydurmaq** *f.* to ask / to cause *smb.* to put (*d.*), to ask / to cause *smb.* to place
**qoyma I.** *s.*: ~ **diş** false teeth **II.** *fi.* **1.** putting, placing, arrangement; **2.** *tex.* mounting, installation; setting
**qoymaq** *f.* **1.** to put* (*d.*), to place (*d.*), to set* (*d.*), to stand* (*d.*); **kitabı rəfə** ~ to put* the book on the shelf; **məktubu zərfə** ~ to put* the letter into an envelope; **abidə** ~ to put* up / erect a monument (to); **çaydanı sobanın üstünə** ~ to place the teapot on the stove; **gülləri** / **çiçəkləri suya** ~ to set* the flowers in water; **qrafini stolun üstünə** ~ to stand* the jug on the table; **2. (banka**, **kompress və s.)** to apply (*d.*), to put* on (*d.*) **banka ~ (xəstəyə)** to apply cupping-glasses; **3. (səhnəyə)** to put* on the stage (*d.*), to stage (*d.*); **4.** to raise (*d.*), to put* (*d.*); ◊ **məsələ** ~ to raise a question; **səsə** ~ to put* to the vote (*d.*); **5.** to fix (*d.*), to set* (*d.*); **vaxt** ~ to fix the time; **qiymət** ~ to fix / to set* the price; **6.** to let* (*d.*), to allow (*d.*), to permit (*d.*); **uşaqları oynamağa** ~ to let* the children play, to permit / to allow the children to play; **məsələni müzakirəyə** ~ to bring* up a question for discussion; **şərt** ~ to make* terms, to lay* down conditions / terms; **məqsəd** ~ to make* it one's aim, to set* oneself *smth.* as an object; **qol ~ (razılaşmaq)** to append one's signature; **gözətçi** ~ *hərb.* to post a sentry; **Onu içəri qoymayın** Don't let him / her in, Don't allow him / her to enter
**qoyulma** *fi.* **1.** statement; **məsələnin ~sı** statement of a question, the way a question is put / stated; **2. (silah)** erection, raising; **3. (səhnəyə)** staging; production; **(tamaşa)** play, performance; **4.** *tex.* mounting, installation; **(cihaz)** setting
**qoyulmaq** *f.* **1.** to be* put / placed / set; **Kitab rəfə qoyuldu** The book was put on the shelf; **2.** to be* staged / put on the stage; **Bu pyes keçən il səhnəyə qoyuldu** This play was put on the stage last year; **3.** to be* fixed / set; **Qiymət qoyuldu** The price was fixed
**qoyuluş** *i.* **1. (məsələnin və s.)** putting, propounding, statement; **məsələnin ~u** statement of a question, the way a problem is put / posed; **2. (səhnə)** staging, production
**qoyun I.** *i.* **1.** sheep (*pl.*: sheep): **(dişi)** ewe [ju:]; **(erkək)** ram; **2. məc** harmless creature **II.** *s.* sheep, sheep's; ~ **iti** sheepdog; ~ **dərisi** sheepskin; ~ **ferması** sheep-farm; ~ **xalxalı** sheepfold, sheep-walk; ~ **örüşü** sheep-run; ~ **sürüsü** flock of sheep; ◊ ~ **dərisində qurd** / **canavar** a wolf in sheep's clothing **III.** *i.* **1.** *bax* **qoltuq (1-ci mənada)**; **2.** *bax* **ağuş**
**qoyunabaxan** *i. bax* **qoyunçu**

**qoyunboğan** *i. bot.* erbena
**qoyunçu** *i.* sheep-breeder, sheepman*
**qoyunçuluq I.** *i.* sheep-breeding **II.** *s.* sheep (-breeding); ~ **ferması** sheep-farm
**qoyuneşşəyi** *i. d.d.* boob, booby
**qoyunqıran** *i. bot. St.* John's wort
**qoyunqırxan** *i.* shearer
**qoyun-keçi** *top. i.* sheep and goats
**qoyun-quzu** *top. i.* sheep and lambs
**qoyunotaran** *i. bax* **çoban**
**qoz I.** *i.* walnut; nut; ~ **yığmaq** to nut; ~ **yığmağa getmək** to go* nutting; **qarzaksiz** ~ shelled walnut(s) **II.** *s.* walnut; ~ **ağacı** walnut-tree; **(material)** walnut; ~ **halvası** nougat; ~ **qabığı** walnutshell; ~ **ağaclığı** walnut grove; ~ **ağacından hazırlanmış mebel** walnut furniture; ◊ ~ **qabığına soxmaq** ≅ to rule *smb.* with a rod of iron, to ill-treat (*d.*), to maltreat (*d.*); ≅ ~ **qabığına girmək** to creep* into any hole in order to hide oneself
**qozabənzər** *s.* nut-shaped
**qozalamaq** *f.* **1. (pambıq)** to form / to grow* bolls; **2. (palıd və s.)** to form / to grow* cones
**qozalanmaq** *f.* to form bolls (of cotton)
**qozavarı** *s.* cone-shaped; boll-shaped
**qozbel I.** *i.* hunchback, humpback; **Qozbeli qəbir düzəldər** *at. söz.* = Can the leopard change his spots? **II.** *s.* hunched, humped; hunchbacked, humpbacked
**qoz-qoz** *i.* the name of a children's play; ◊ ~ **oynamaq** to be* impudent / insolent, not to obey, to argue vainly / in vain
**qozlanmaq** *f. d.d.* to boast (of), to pride oneself (of), to plume oneself (on, upon)
**qozlu I.** *s.* (*i.s.*) with nuts, (*i.s.*) having nuts **II.** *s.* conceited, arrogant, boastful, vainglorious
**qozluq** *i.* walnut grove
**qozsındıran** *i.* nutcracker(s)
**qozşəkilli** *s.* nut-shaped, nutlike
**qozvarı** *s.* nut-shaped, nut-like
**qönçə** *i. bot.* bud; **təzə ~lər** new buds
**qönçədodaq** *s.* (*i.s.*) with beautiful and tender lips, (*i.s.*) having beautiful and tender lips
**qönçələnmə** *fi.* budding; starting to bud
**qönçələnmək** *f.* to bud, to come* into buds; to produce buds
**qönçəli** *s.* (*i.s.*) with buds; (*i.s.*) having buds
**qövr** *i.*:~ **etmək** to make* itself felt; **Yara qövr edir** The wound is making itself felt
**qövs I.** *i.* arch; arc; **elektrik ~ü** *tex.* electric arc **II.** *s.* arc; ~ **qaynağı** *tex.* arc welding; ~ **lampası** arc lamp
**qövsəbənzər** *s. bax* **qövsvarı**
**qövsi** *s.* arched, bow-shaped; ~ **qaş** arched eyebrows; ~ **xətt** arched line
**qövsi-qüzey** *i.* rainbow
**qövslü** *s.* arc; ~ **lampa** arc lamp; ~ **qaynaq** arc welding
**qövsşəkilli** *s. bax* **qövsvarı**
**qövsvarı** *s.* arched, bow-shaped [bou-]; ~ **qaş** arched eyebrows
**qradus** *i.* degree
**qraf** *i.* count; **(qadın)** countess; **(İngiltərədə)** earl [ə:l]
**qrafa** *i.* column
**qrafik** *s.* graphic; ~ **işarələr** / **simvollar** graphic signs / symbols
**qrafika** *i. in.* **1.** drawing; **2. (hərflərin şəkli)** script
**qrafin** *i.* **(su üçün)** water-bottle, carafe [kə'ra:f]; **(şərab üçün)** decanter
**qrafinya** *i.* countess
**qrafit** *i.* graphite, black lead, plumbago
**qrafitli** *s.* (*i.s.*) with graphite, (*i.s.*) having graphite / plumbago
**qraflıq** *i.* **1. (titul)** earldom [ə:l]; **2. (inzibati-ərazi bölgüsü)** county, shire; **mərkəzi ~lar** the Midlands
**qram** *i.* gramme [græm], gram
**qram-atom** *i. fiz.*, *kim.* gramme atom
**qrammafon I.** *i.* gramophone **II.** *s.* gramophone; ~ **valı** gramophone record
**qrammatik** *s.* grammatical; ~ **anlayışlar** grammatical notions; **dilin** ~ **quruluşu** grammatical structure of a language; ~ **səhv** grammatical mistake / error; ~ **qayda** grammatical rule, grammar rule; ~ **təhlil etmək** 1) **(cümlə üzvlərinə görə)** to analyse (*d.*); 2) **(nitq hissələrinə görə)** to parse [pa:z]
**qrammatika** *i.* grammar; **praktik** ~ practical grammar; **nəzəri** ~ theoretical grammar
**qrammatikasız** *s.* grammarless; (*i.s.*) without grammar, (*i.s.*) having no grammar
**qrammatikləşmə** *fi.* grammaticalization

**qrammatikləşmək** *f.* to grammaticalize, to get* / become grammaticalized
**qrammatiklik** *i.* grammaticality
**qrammatist** *i.* grammarian
**qranit** *i. geol.* facet [fæ-]
**qranka** *i.* proof, galley-proof, slip
**qravitasiya** *i. fiz.* gravitation
**qravüra I.** *i.* engraving **II.** *s.* engraving, engraver's; ~ **emalatxanası** engraver's shop
**qravüraçı** *i.* engraver; **(ağacda naxışaçan)** woodcutter, wood-engraver; **(dəmirdə naxışaçan)** steei-cutter
**qravüraçılıq** *i.* the profession of an engraver
**qreyder** *i.* **(maşın)** grader
**qreyderçi** *i.* graderist
**qreypfrut** *i. bot.* **(ağacı və meyvəsi)** grapefruit
**qrif I.** *i.* **(nəşriyyat)** (signature) stamp **II.** *i. əs.* griffin, gryphon [grai-]
**qril I.** *i.* grill **II.** *f.* to grill
**qrim** *i.* make-up; **(rənglər)** greasepaint
**qrimçi** *i.* maker-up, make-up artist / man*; **(qadın)** make-up woman*
**qrimləmə** *fi.* making-up, make-up
**qrimləmək** *f.* to make* up (*d.*); **cavan aktyoru qoca kimi** ~ to make* a young actor up as an old man
**qrimlənmək** *f.* to make* oneself up
**qrimlətdirmək** *f. bax* **qrimlətmək**
**qrimlətmək** *f.* to ask / to cause *smb.* to make up (*d.*); **(özünü)** to ask / to cause *smb.* to make oneself up
**qrimli** *s.* made-up
**qrip** *i. tib.* influenza, grippe; *d.d.* flu [flu:]; ~ **olmaq** to have* influenza / the flu; **O, qrip olub** He / She has influenza / the flu
**qripli** *s. tib.* influenzal; ~ **sətəlcəm** influenzal pneumonia
**qrossmeyster** *i. şahm.* grand master
**qrossmeysterlik** *i. şahm.* title / rank of grand master
**qrup** *i.* group; cluster; **bir** ~ **adam** a group of people; **bir** ~ **tamaşaçı** a cluster of spectators; **gan ~u** blood group
**qrupbaz** *i.* clique-organizer, one who likes to organize cliques
**qrupbazlıq** *i.* clannishness, cliquishness, clique-formation
**qrupçuluq** *i.* clannishness, clique-formation, cliquishness [ˊkli:k-]
**qruplaşdırılma** *fi.* being grouped / classified; grouping, classification; **kitabların ~sı** grouping of books; **dillərin ~sı** classification of languages
**qruplaşdırılmaq** *f.* to be* grouped / classified; **Kitabxanalarda kitablar adətən fənlər üzrə qruplaşdırılır** In libraries books are usually classified by subjects
**qruplaşdırma** *fi.* grouping; classification
**qruplaşdırmaq** *f.* to group (*d.*), to classify (*d.*); **dilləri** ~ to group / classify languages; **bitkiləri** ~ to group / classify plants
**qruplaşma** *i.* alignment, group; **hərbi** ~ military alignment; **siyasi ~lar** political groups
**qruplaşmaq** *f.* to group, to form groups; to form / to organize cliques
**qu** *i. zool.* swan; **(erkək)** cob, cob-swan
**quaş** *i.* gouache
**quba** *i. bax* **quba-qaz**
**quba-qaz** *i.* wild goose
**qubar** *i.* grief, sorrow, sadness, bore; ~ **etmək** *bax* **qubarlanmaq**
**qubarlandırılmaq** *f.* to be* very sad, to be* made very sad
**qubarlandırmaq** *f.* to distress (*d.*), to grieve (*d.*), to bore (*d.*); to sadden (*d.*)
**qubarlanmaq** *f.* to be* sad / melancholy, to be* in distress, to be bored
**qubarlatmaq** *f. bax* **qubarlandırmaq**
**qubarlı I.** *s.* sad, mournful, doleful, wistful **II.** *z.* sadly wistfully, dolefully
**qubarlılıq** *i.* sadness, dolefulness, wistfulness
**qubernator I.** *i.* governor; **ştatın ~u** the governor of the state **II.** *s.* governor's; (*i.s.*) of a governor
**qubernatorluq** *i.* governorship
**quberniya** *i.* province
**qubka** *i.* **(yuyunmaq üçün)** sponge [-ʌ-]; ~ **ilə yumaq** to sponge (*d.*)
**qucaq** *i.* embrace, arms *pl.*; **ana qucağı** mother's embrace / arms; **təbiətin qucağında** in nature's lap; **bir kəsin qucağına atılmaq** to throw* / to fall* into *smb.*'s arms; **bir kəsi qucağına almaq** 1) *bax* **qucaqlamaq**; 2) to take* *smb.* in one's arms; **bir** ~ armful; **bir** ~ **ot** armful of hay
**qucaq-qucağa** *z.* with arms round each other
**qucaq-qucaq** *i.* armfuls (of); ~ **təzə çiçək** armfuls of fresh flowers

**qucaqlamaq** *f.* to embrace (*d.*), to clasp (*d.*) in the arms; **bir kəsi** ~ to embrace *smb.* **O, oğlunu qucaqladı** He / She embraced her / his son
**qucaqlanmaq** *f.* to be* embraced
**qucaqlaşmaq** *f.* to embrace (each other); **İki bacı qucaqlaşdı** The two sisters embraced
**qucaqlatdırmaq** *f. bax* **qucaqlatmaq**
**qucaqlatmaq** *f.* to ask / to cause *smb.* to embrace (*d.*)
**qucmaq** *f. bax* **qucaqlamaq**
**quculmaq** *f. bax* **qucaqlanmaq**
**qucumaq** *f. d.d. bax* **qucaqlamaq**
**quda** *i.* **(kürəkənin valideynləri)** father and mother of the son-in-law; **(gəlinin valideynləri)** father and mother of the daughter-in-law
**qudalıq** *i.* the relationship between the parents of a bride and a bridegroom
~ **görmək** 1) to favour (with), to honour (with); to vouchsafe; to deign [deɪn] (+to *inf.*); 2) **(mükafata və s.)** to award (to); ~ **görülmək** 1) to be* honoured (with); 2) **(mükafata)** to be* awarded; **O, dövlət mükafatına layiq görülüb** He was awarded a state prize; **2.** decent, respectable; seemly; acceptable; good enough; **(tərbiyəli)** becoming, decorous; *d.d.* kind, obliging; ethical; moral; proper; suitable; virtuous

**layiqincə** *z.* decently, properly, worthily, becomingly, decorously; **(yaxşı)** quite well; in a proper manner; ~ **qarşılanmaq** to be* decently / properly met; ~ **süfrə açmaq** to lay* the table decently / properly

**layiqli I.** *s.* worthy, decent; ~ **adam** / **şəxs** a man*of worth, a worthy person, a decent man*; ~ **süfrə açmaq** to lay* a decent table **II.** *z.* decently, worthily

**layiqlik** *i.* decency, decorum; decorousness, propriety; ~ **xatirinə** / **naminə** for the sake of propriety

**layiqsiz I.** *s.* indecent, obscene [əb΄si:n], nasty; indecorous, unseemly; improper, unworthy (of); mean; ~ **(nalayiq) hərəkət** mean action; ~ **söz demək** to say* indecent words; ~**ifadələr** unseemly expressions **II.** *z.* indecently; obscenely; ~ **danışmaq** to speak* indecently, to use indecent language

**layiqsizlik** *i.* indecency, impropriety; unseemliness; obscenity

**layla (y)** *i.* **1.** lullaby, **(beşik nəğməsi)** a cradle song; **2.** lull(ing); ~ **demək (çalmaq)** to sing* a cradle song; **uşağı yatırtmaq üçün** ~ **çalmaq** to lull a baby to sleep

**laylamaq** *f.* to stratify (*d.*), to arrange in strata (*d.*)

**laylanmaq** *f.* to stratify, to form into strata; to be* stratified

**laylatmaq** *f.* to ask / to cause *smb.* to stratify (*d.*) / to arrange in strata (*d.*)

**lay-lay I.** *s. geol.* plicate, plicated; flakly; *miner.* schistose, schistous; ~ **buludlar** stratus clouds [΄streɪtəs] **II.** *z.* ~ **yığmaq** / **toplamaq** to stratify (*d.*), to arrange (*d.*) in strata

**laylı** *s.* flaky, foliated; lamellar; *miner.* schistous; ~ **süxurlar** schistous / schistose rocks; stratified rocks

**lazım** *s.* necessary; essential; needful, indispensible, required, due (to); ~ **olmaq** to be* necessary / needed / wanted; **Bunu etmək lazımdır** That must be done; **Bu çox lazımdır** That is necessary, indeed; That is very necessary; **Ona kömək lazımdır** He / She needs help / assistance; **Sizə nə lazımdır?** What do you want?

**lazımınca** *z.* necessarily, properly; **O, ingiliscə lazımınca danışır** He / She speaks English properly

**lazımi** *s.* necessary; requisite, essential; proper, appropriate; ~ **səviyyədə** up to the mark; ~ **qaydada** properly; ~ **yeri tutmaq** to take* a proper place; ~ **sənədlər** necessary documents; ~ **söz** the proper word; ~ **dərəcədə şərh etmək** to explain in a proper manner / order; ~ **qaydada geyinmək** to dress in a proper order

**lazımlı** *s.* necessary; useful; important; significant; ~ **şey** a necessary thing; **Bu lazımlı kitabdır** It is a very useful book

**lazımsız** *s.* useless; unnecessary; ~ **şey** a useless thing; ~ **qeyd** an unnecessary remark

**lehim** *i.* solder, **(bərk)** braze; fusion; weld

**lehimləmək** *f.* to solder (*d.*); **(bərk lehimlə)** to braze (*d.*)

**lehimlənmək** *f.* to be* soldered; to be* brazed

**lehimlətdirmək** *f.* to have* *smth.* soldered / brazed; to ask *smb.* to solder / to braze (*d.*)

**lehimlətmək** *f. bax* **lehimlətdirmək**

**lehinə** for, in favour (of); **birinin** ~ **səs vermək** to vote for *smb.*, to vote in favour of *smb.*; **onun** ~ for his favour; **birinin** ~ **danışmaq** to speak* in smb's favour

**lehmə** *i.* slush, watery mud; swamp, mire, bog; mud; ◊ **lehməsi axmaq** *d.d.* to be* very dirty, to drip with dirt

**lehməli** *s.* slushy; swampy; ~ **yol** slushy road

**lent** *i.* ribbon, fillet; **(şlyapada)** (hat-) band; **teleqraf** ~**i** (telegraph) tape; **makina** ~**i** typewriter ribbon; ~**lə bəzəmək** to ribbon (*d.*)

**leş** *i.* **1.** carrion; **2.** *d.d. məc.* lazy-bones

**leşyeyən I.** *i. zool.* vulture, buzzard **II.** *s.* ~ **quş** a bird eating carrion

**leysan I.** *i.* shower, spring rains, pouring / driving rain; heavy shower, down-pour **II.** *s.* pouring, heavy; ~ **yağış** heavy rain;

**Leysan yağış yağır** It is raining very hard; It is pouring, It's raining cats and dogs *idiom.*

**leytenant I.** *i.* lieutenant; **general** ~ lieutenant-general; **baş** ~ senior lieutenant; **kiçik** ~ junior lieutenant **II.** *s.* lieutenant; ~ **rütbəsi** lieutenant rank

**ləb** *i. bax* **dodaq I**

**ləc I.** *i.* hater; **(qatı düşmən)** bitter enemy; stubborn; ~ **düşmək** *bax* **ləcləşmək II.** *s.* hateful, stubborn; ~ **adam** stubborn man* **III.** *z.*: ~ **baxmaq** to look with hatred

**ləcləşmək** *f.* to hate (*d.*); to detest (*d.*), to abhor (*d.*), to execrate (*d.*), to feel* hatred towards, to dislike greatly (*d.*)

**ləclik** *i.* hatred; detestation, abhorrence, hostility

**ləçək I.** *i.* shawl, kerchief **II.** *i. bot.* petal; **qızıl gül ~yi** a rose-petal, rose-leaf; ~ **açmaq** *bax* **yarpaqlamaq (1-ci mənada)**

**ləçəkli I.** *s. bot.* petalous, petalled, petaled; **çox ~ güllər** many-petaled flowers **II.** *s.* (*i.s.*) having a kerchief on, (*i.s.*) with a kerchief on one's head; ~ **qadın** a woman* with a kerchief over her head (shoulder); **ipək ~ qız** a girl in a silk shawl

**ləçəkləmək** *f. bax* **yarpaqlamaq (1-ci mənada)**

**ləçəklənmək** *f. bot.* to burst* into petals, to burst* into leaves

**ləçəksiz I.** *s. bot.* apetalous **II.** *s.* (*i.s.*) without a kerchief round the neck

**ləçər I.** *i.* impudent / shameless woman*, shameless creature **II.** *s.* impudent, shameless, dishonourable

**ləğv** *i.* abolishment; abolition, abrogation, revocation, **(qərar)** disaffirmation, countermand, (*əmr. haq.*) cancellation; **xüsusi mülkiyyətin ~i** abolition of private property; **ölüm cəzasının ~i** abolition of capital punishment, **(məhkəmə) hökmün ~i** repeal of sentence; ~ **aktı** the act of abolition; ~ **edilmək** / **olunmaq** to be* abolished; to be* revoked, to be* abrogated; ~ **etmək** to abolish (*d.*); to abrogate (*d.*), to repeal (*d.*), to revoke (*d.*), to cancel (*d.*); to countermand (*d.*); *hüq.* to disaffirm (*d.*), **(qərar)** to reverse (*d.*); **(qərar**, **qətnamə və s.)** to annul (*d.*); to do* away, to liquidate; **əmri ~ etmək** to revoke an order; *hərb.* to rescind an order; **müqaviləni ~ etmək** to annul a treaty; *d.d.* to scrap a treaty; to rescind a contract; **borcu ~ etmək** to write* off a debt [-det]; **hökmü ~ etmək** to repeal / to rescind a sentence; **insanın insan tərəfindən istismar edilməsini ~ etmək** to abolish the exploitation of man by man

**ləhcə** *i.* dialect; **London ~si** the London dialect; **~də danışmaq** to speak* in a dialect

**ləhləmək** *f.* (*müst.* və *məc. mən.*) to pant (with), to gasp (for breath); to take* short / quick breaths, to be* out of breath, to lose* one's breath; **istidən** ~ to stifle / to suffocate with the heat; **İt istidən ləhləyirdi** The dog was panting with the heat

**ləhləyə-ləhləyə** *z.* breathlessly; ~ **demək** / **söyləmək** to utter breathlessly

**ləhzə** *i.* moment, instant; **bir ~də** in an instant, in a moment, in a flash; in a twinkling

**lək** *i.* bed; **gül ~i** flower-bed, **bir ~ gül** a bed of flowers; ~ **kəsmək** / **düzəltmək** to dig* beds

**ləkə** *i.* (*müst.* və *məc.* mən.) spot, blot, stain, stigma; blotch, blemish; disgrace; **qan ~si** bloodstain, a spot of blood; **mürəkkəb ~si** ink-stain, a spot of ink; **yağ ~si** a spot of fat; **çaxır ~si** a spot of wine; **çətin gedən ~lər** / **çətin yuyulan ~lər** stubborn stains; ~ **düşmək** to stain; ~ **salmaq** to spot (*d.*), to stain (on); **Onun üzündə ləkə var** There is a blotch on his face; **Köynəyinizdə ləkə var** There is a blot on your shirt; ~ **aparmaq (təmizləmək)** to remove / to take* out stains; ◊ **Günəşdə də ləkə var** There are spots on the sun, Nothing is perfect; ~ **salmaq** to spot (*d.*), to stain (*d.*); to disgrace (*d.*); ~ **götürmək** to stain; **Bu ipəkdə sudan ləkə qalır** This silk spots with water

**ləkələmək** *f.* **1.** (*müst.* və *məc. mən.*) to stain (*d.*), to spot (*d.*), to brand (*d.*), to bolt (*d.*), to blemish (*d.*), to blotch (*d.*); **2.** to disgrace (*d.*); to dishonour (*d.*), to soil (*d.*) *d.d.* to dirty (*d.*); **mürəkkəblə** ~ to spot / to stain with ink; **O, məni ləkələyib (rüs-**

**vay edib)** He has blotted me out; **(öz) adını** / **özünü** ~ to soil one's name, to cast* a stain on one's name, to soil oneself; to get* oneself dirty; **birisinin yaxşı adını** ~ to stain / to sully smb's good name, to swear smb's reputation

**ləkələndirmək** *f. bax* **ləkələmək**

**ləkələnmək** *f.* to become* dirty, to cause to become marked with spots / stains; to soil oneself, to make* oneself dirty; to be* stained / spotted / blotted; **asanlıqla ləkələnən** / **ləkə götürən paltar** a dress that spots easily

**ləkələnmiş** *fs.* spotted; blotched, stained; **mürəkkəblə** ~ ink-stained; **mürəkkəblə** ~ **stol** a table spotted with ink

**ləkəli** *s.* stained, spotty, patchy; blotchy; **vicdanı** ~ a blot on one's character, flaw on one's character

**ləkəsiz** *s.* stainless, unstained, spotless; immaculate, clean, blameless; ~ **oğlan** an unstained / stainless boy; ~ **qız** a stainless girl

**ləkəsizlik** *i.* spotlessness, blamelessness

**ləqəb** *i.* nickname, pseudonym; alias; **(ədəbiyyatda)** pen-name; **(artist)** stage-name; ~**i ilə** under the pseudonym, **(yazıçı** *haq.*) under the pen-name; ~ **qoymaq** / **qoşmaq** to nickname (*d.*), to give* a nickname to (*d.*)

**ləqəbli** *s.* nicknamed; ~ **adam** a nicknamed person

**ləl** *i.* ruby [ˊru:bı]; red precious stone

**ləl-cəvahirat** *i.* jewel; gem; precious stone; treasure

**lələ** *i.* governor; a person who brought up children (boys) of the rich families; under-tutor (and attendant)

**lələ-giryan** *s. d.d.* homeless; ~ **olmaq** / **qalmaq** to be* left without a roof over one's head; ~ **etmək** / **qoymaq** to make* homeless (*d.*), to dishome (*d.*), to dishouse (*d.*)

**lələk** *i.* feather, plumage; **(bəzək üçün)** plume; **əlvan rəngli** ~ brightly coloured plumage; ~ **kimi yüngül** as light as a feather, very light; ~ **tökmək** to moult, to lose* feathers, to shed* feathers

**lələklənmək** *f.* to feather; to be* covered / lined with feathers

**lələkli** *s.* feathery; feathered; **(quşlar** *haq.*) (*i.s.*) covered with feathers; ~ **şlyapa** a feathered hat; ~ **baş geyimi** a feathered head dress

**lələklilər** *top. i.* birds of a feather

**lələksiz** *s.* unfeathered, featherless; ~ **(yoluq) qaz** unfeathered goose*; ~ **quş** an unfeathered bird

**lələkvarı** *s.* feather-like, like a feather (feathers)

**lələş** *i.* obedient servant; **sizin ~(-iniz)** your obedient; **Ləlişin hər şeyi hazırlayıb** Your obedient has prepared everything; **Qorxma**, **lələşin ölməyib ki...** Don't be afraid, your obedient servant is always disposed

**ləlik** *i.* detracter, beseecher; ~ **düşmək** *bax* **ləlimək**

**ləlimək** *f. d.d.* to belittle (*d.*), to entreat (*d.*), to beg (*d.*); to beseech* (*d.*); **kömək üçün** ~ to beg for help; **Ləlimə!** Don't belittle yourself!

**ləlitmək** *f.* to cause / to force *smb.* to belittle

**ləlöyün** *s.* greedy (of, for), avid (of, for); covetous, grasping; ~ **getmək** to covet, to be* avid / greedy / covetous for

**ləlöyünlük** *i.* **(pula)** greed(iness) (of, for), avidity (of, for), covetousness

**ləmpə** *i. bax* **tavan I**

**ləms** *s.* **1.** flabby, **(dəri**, **bədən və s.** *haq.*) flacid; phlegmatic; **2.** languid, listless, limp, slack, inert, dull, nerveless

**lənət** *i.* curse, anathema; imprecation; malediction; ~ **oxumaq** / **yağdırmaq** *bax* **lənətləmək**; **Lənət olsun!** Damn it! Damnation!; **Lənətə gələsən! Lənət sənə!** Oh, damn! Damn you! **Allah (sənə) lənət eləsin!** God damn you! **Lənət ona!** Damn / Curse him! **Lənətə gəlim əgər yalan danışıramsa** I'll be damned / I'm damned if I tell a lie; **Lənət şeytana**, **lənət sənə kor şeytan!** Deuce take it; **lənətə layiq** deserving to be damned; **Ona lənət damğası basdılar** He was damned / cursed; ~**ə gəlmiş** cursed, damned, accursed

**lənətləmək** *f.* to curse, (*d.*), to damn (*d.*), to swear (*d.*); to read* / to pronounce an anathema (against someone); **Biz müharibəni lənətləyirik** We curse the war; **O, anadan olduğu günü lənətlədi** He / She cursed the day he / she was born

**lənətləndirilmək** *f.* to be* cursed, to be* damned; **Düşmən lənətləndirilməlidir** The enemy must be cursed

**lənətlənmək** *f. bax* **lənətləndirilmək**

**lənətüllah** *d.d.* God damn you; Damned, Cursed

**ləng I.** *s.* **1.** slow, sluggish, inactive, lazy; torpid; ~ **adam** slowcoach, laggard, slow / indolent person; ~ **hərəkət** slow motion; ~ **qaçan** a slow runner; **2.** hard to move; **ayaqdan ~ (ağır) olmaq** to be* hard to *move* [...mu:v], to be* sluggish **II.** *z.* slowly, sluggishly; ~ **getmək** to go* slow(ly); ~ **işləmək** to work slowly; ~ **danışmaq** to speak* sluggishly / slowly; ~ **tərpənmək** to be* hard to move, to be* sluggish

**ləngər** *i.* **1.** heaviness; load, weight ballast; *məc.* lumber; **2. (müvazinəti saxlamaq üçün ağaç, dəmir)** pole; ~ **vermək** / **vurmaq** *bax* **ləngərlənmək**

**ləngərləmək** *f.* to shake* (*d.*), to reel; to heel (over) (*d.*), to rock (*d.*), to swing* (*d.*); **Külək ağacları ləngərləyir** The wind shakes the trees

**ləngərlənmək** *f. dən.* to take* a list, to list, (*adam. haq.*) to reel, to stagger; **Kişi o tərəf-bu tərəfə ləngərlənirdi** The man was reeling from side to side

**ləngərli** *s.* balanced; massive

**ləngimədən** *z.* immediately, at once, without delay; **Biz ləngimədən yolumuza davam etdik** We continued our way without delay; **Bunu ləngimədən yerinə yetir** Do it at once / immediately

**ləngimək** *f.* to be* slow / late, to stay too long, to delay; **Qatar iki saat ləngimişdi** The train was delayed (for) two hours **Ləngimə!** Don't delay!

**ləngitmək** *f.* to detain (*d.*), delay (*d.*), to keep* off (*d.*); to hinder (*d.*); to put* off (*d.*); to defer (*d.*); **(təxirə salmaq)** to postpone (*d.*), to hold* back (*d.*); to slow down (*d.*); to linger (*d.*); *məc.* to hamper (*d.*), to impede (*d.*), to be* an obstacle (to); *tex.* to decelerate [di:-] (*d.*); *tex.* to break* (*d.*); **İşimi ləngidirsən** You're hindering my work; **Bu iş bizi çox (uzun müddət) ləngidəcəkdir** This matter will detain us very long; **Lütfən cavabı ləngitməyin** Please, answer by return post / immediately / without delay

**ləngiik** *i.* sluggishness; hindrance; postponement

**ləpə I.** *i.* wave, long ridge of water; **dəniz ~si kimi** like a wave of the sea; **su ~si** wave of water, water wave **II.** *i. bot.* kernel; **qoz ~si** kernel of a nut; **badam ~si** kernel of an almond; **meyvə çəyirdəyinin ~si** kernel of a fruit stone

**ləpədöyən** *i.* **(ağ köpüklü dalğa)** surf; breakers *pl.*; **~nin gurultusu** thundering of the breakers

**ləpələmək** *f.* **(qoz və s.)** to hull (*d.*), to pod (*d.*); **qoz** ~ to hull / to pod nuts; **noxud** ~ to hull peas

**ləpələnmək** *f.* **(su** *haq.***)** to be* choppy / agitated; **(yavaşca)** to ripple; **(dəniz** *haq.***)** to rise* in waves, to be* rough

**ləpəli I.** *s.* wavy, abounding in waves; choppy, rough; **Dəniz** / **göl ləpəlidir** The sea / lake is troubled / rough / choppy **II.** *s.* kerneled; seedy; (*i.s.*) having kernels

**ləpir** *i.* track; mark; footprint; **(adam** *haq.***)** footstep; **təzə ~lər** fresh tracks / footprints; **dovşan ~ləri** rabbit tracks; **qar üzərində insan ~i** footprint / footstep on the snow; ~ **tutmaq** / **itirmək** to keep* / to lose* track (of); **~ə düşmək** to find* / to come* up on the track (of); **~lə getmək** to follow / to tread* in the tracks

**lərzə** *i.* shudder, trembling, trepidation; **~yə düşmək** / **gəlmək** to shudder, to tremble; **qorxudan** / **soyuqdan ~yə gəlmək** to shudder / to tremble with fear / cold; **O, bu barədə fikirləşməkdən lərzəyə düşmüşdü** He / She trembled / shuddered to think of it; **qorxudan bədəninə** / **vücuduna** / **ürəyinə** / **canına ~ düşmək** to tremble / to shudder with fear / horror

**lət** *i.* **1.** languid, dull, listless; feeble; **2.** fat and flabby, paunchy; ~ **bağlamaq** to grow* fat and flabby

**lətafət** *i.* tenderness, delicacy, refinement, elegance, grace, beauty, charm, fascination

**lətafətli** *s.* tender, pleasant; **(zövq, çiçək və s.)** delicate, loving; charming, lovely, refined, elegant, graceful; ~ **qız** a charming girl; **uzun paltarda ~ görünmək** to

look elegant in a long dress; ~ **nitq** / **zövq** refined speech / taste

**lətif** *s.* *bax* **lətafətli**

**lətifə** *i.* anecdote, joke; funny story; funny thing

**lətləşmək** *f.* to grow* fat and flabby

**lətlik** *i.* lymphatism

**ləyaqət** *i.* **1.** dignity; decency; **şəxsi ~ hissi** a self-respect; proper pride; **~ini saxlamaq** to preserve one's dignity; **~i itirmək** to lose* dignity; **~ini qorumaq** to stand* on one's dignity; **2. (yaxşı keyfiyyət)** quality, merit, virtue, desert; worthiness; high rank

**ləyaqətlə** *z.* with dignity, decently, properly, becomingly; decorously; nobly; ~ **hərəkət etmək** to behave decently

**ləyaqətli** *s.* dignified; noble; stately; worthy; decent, proper, decorous, becoming; seemly; ~ **qoca xanım** a dignified old lady; ~ **rəhbər** a noble leader; **O, çox ləyaqətli adamdır** He is a very decent person

**ləyaqətsiz I.** *s.* **1.** unworthy (of); **2.** worthless, unworthy, mean; ~ **əməl (hərəkət)** mean deed / action **II.** *z.* unworthily; meanly, indecently, indecorously, improperly

**ləyaqətsizlik** *i.* **(əxlaqca)** indecency; improperness; baseness, meanness

**ləyən** *i.* basin [beɪ-]; **(əl-üz yumaq üçün)** wash-basin, wash-stand, wash-hand-basin; **(mürəbbə bişirmək üçün)** preserving pan

**ləzzət** *i.* **(dad)** taste; pleasure, enjoyment, delight; **bir şeydən ~ almaq** to enjoy the taste of something; to find* / to take* / to derive* pleasure in (doing) smth; **~ini qaçırmaq** to let* the taste escape; to overdo*; to continue persistently; **~i olmaq** to have* a nice taste; ~ **vermək** / **etmək** to delight, to pleasure greatly, to give* delight / enjoyment / pleasure; **Bu musiqidən ləzzət alıram** I enjoy this music; **~i hiss etmək** to feel* delight / enjoyment

**ləzzətlə** *z.* tastily, tastefully, pleasantly, pleasurably, delightfully

**ləzzətləndirmək** *f.* to add a zest (to), to make* piquant, to make* tasty / delicious / delightful, to do* tasteful, to give* pleasure (to); to sweeten (*d.*)

**ləzzətlənmək** *f.* to become* more tasty / pleasurable / pleasing

**ləzzətli** *s.* tasty; tasteful, piquant, pleasurable, pleasant, pleasing, delicious, delightful; *d.d.* savoury; ~ **yemək** a tasty / savoury food (dish); **Yemək ləzzətli idi** The food was delicious; ~ **armud** a savoury pear; ~ **sous** a piquant sauce

**ləzzətlilik** *i.* deliciousness, pleasantness, tastiness, piquancy

**ləzzətsiz** *s.* tasteless, insipid; unpleasant; having no taste

**ləzzətsizlik** *i.* tastelessness; the quality of being tasteless / unpleasant

**ləzzətverici** *s.* *bax* **ləzzətli**

**ləzgi I.** *i.* Lezghin **II.** *s.* Lezghin; ~ **oğlan** Lezghin boy; ~ **dili** Lezghin, the Lezghin language

**ləzgicə** *z.* Lezghin; ~ **danışmaq** to speak* Lezghin / the Lezghin language

**ləzgihəngi** *i.* lezghinka (a dance)

**lığ** *i.* wash; dung water; mash, slush

**lığa** *i.* dregs; *d.d.* riff-raff, scum; **cəmiyyətin ~sı** the scum of society; **qazanın ~sını yığmaq** to take* the scum off the pot; **~sını yığmaq** to scum (*d.*)

**lıqqıldamaq** *f.* **(su)** to gurgle; **Çaynik lıqqıldayır (qaynayır)** The tea-kettle is bubbling

**lıqqıldatmaq** *f.* to shake* (*d.*); to bubble (*d.*); **süd butulkasını** ~ to shake* / to bubble a milk-bottle

**lıqqıltı** *i.* gurgle; bubbling sound; **suyun ~sı** a gurgle / bubble of water; **Su butulkadan lıqqıltı ilə töküldü** The water gurgled out of the bottle

**lırt** *s.* 1) friable; crumb(l)y, loose; 2) flabby; flaccid; drooping; apathetic; inert, sluggish; brittle; ~ **əzələlər** flabby / flaccid muscles; ~ **dəri** flabby skin; ~ **olmaq** to be* flaccid / sluggish; to be* apathetic

**lırtlaşmaq** *f.* to become* / to grow* flaccid / sluggish, to become* friable

**lırtlıq** *i.* friability

**libas** *i.* clothes, clothing; garments; **uşaq ~ı** baby-clothes; **pis ~da** in bad clothes

**liberal I.** *i.* liberal; ~ **olmaq** to be* a liberal **II.** *s.* liberal; ~ **burjuaziya** liberal bourgeoisie; ~ **tərif** liberal praise; ~ **adam** (a) liberal (man*)

**liberalizm** *i.* liberalism; **çürük** ~ decayed / rotten liberalism

**liberallaşdırmaq** *f.* to liberalize (*d.*), to make* (*d.*) liberal

**liberallaşmaq** *f. d.d.* to play the liberal, to become* a liberal

**liberallıq** *i.* liberal views, liberalism; ~ **etmək** to play the liberal

**lif** *i.* **1.** fibre, filament; **süni** ~ artificial fibre; **ağac** / **pambıq** ~**i** wood / cotton fibre; **2.** wisp of bast; **hamam** ~**i** wisp; **3.** *anat. bot.* fibre; filament

**lifçik** *i.* brassiere [ˈbræsiə], **(qısaldılmış şəkildə)** *d.d.* bra [bra:]

**lifə** *i.* belt, girdle; **(qurşaq)** sash, waist-band, waist

**lifəli** *s.* (*i.s.*) with a waist-band / waist, in a waist-band

**lifli** *s.* fibrous, filamentous; ~ **kətan** fibrous flax

**lift** *i.* lift, *amer.* elevator; ~**dən istifadə etmək** to use a lift; ~**lə qalxmaq** to go* up / to raise in a lift; ~**lə enmək** to go* down in a lift

**liftçi** *i.* lift operator; *amer.* elevator operator, lift boy / man*

**lil I.** *i.* silt; slime, ooze; **(həm də** *məc.***)** mire **II.** *i.* **(paltar üçün)** blue, *amer.* blueing; **paltara** ~ **vurmaq** to blue a dress

**lilləmək I.** *f.* **(paltarı)** to blue (*d.*) **II.** *f. kim.* to fall* out, to settle, to be* deposited

**lilləndirmək** *f.* to stir up (*d.*); ◊ **suyu** ~ to stir up / to trouble water

**lillənmək I.** *f.* **(paltar)** to be* blued **II.** *f.* to become* / to grow* turbid, to dim; *məc.* to become* miry

**lillənmiş** *s.* **(paltar)** blued; ~ **paltar** blued dress

**lilli I.** *s.* **(paltar)** blued **II.** *s.* slimy, oozy, miry [ˈmaıəri], muddy; ~ **çay yatağı** oozy river-bed

**liman I.** *i.* port, bay, firth, gulf, harbour; **hərbi** ~ naval port / dock; **dəniz** ~**ı** seaport; **azad** ~ free port; **təbii** ~ a natural harbour; ~**a çatmaq** to reach a port **II.** *s.* port; ~ **şəhəri** seaport; ~ **fəhləsi** docker, stevedore [ˈsti:v-]

**limfa** *i. fiziol.* lymph

**limfatik** *s. fiziol.* lymphatic; ~ **damarlar** lymphatic vessels; *anat.* ~ **vəzlər** a lymphatic glands; ~ **sistem** lymphatic system

**limon I.** *i.* lemon; ~ **əlavə etmək** to lemon **II.** *s.* lemon, lemony; ~ **şirəsi** lemon juice; lemon squash; ~ **pirogu** lemon pie; ~ **rəngi** lemon colour, the colour of lemon; ~ **ağacı** a lemon tree; ~ **turşusu** *kim.* citric acid; ~ **duzu** lemon salt, citrate; ~ **qabığı** lemon peel

**limonad I.** *i.* lemonade, lemon squash; **bir stəkan** ~ **içmək** to drink* a glass of lemonade **II.** *s.* lemonade; ~ **şüşəsi** a lemonade bottle

**limonlu** *s.* lemony, (*i.s.*) with lemon; **bir fincan** ~ **çay** a cup of tea with a piece of lemon

**ling** *i.* crowbar, lever; ~ **lə qaldırmaq** to pry / to lift with a lever

**lingləmək** *f.* to pry (*d.*), to lift with an iron bar (*d.*), to lever (*d.*)

**linotip I.** *i. poliqr.* linotype **II.** *s.* linotype

**linotipist** *i.* linotypist

**lirə** *i.* lira, lire (money in Italy, Turkey, *etc.*)

**litium** *i. kim.* lithium

**litologiya** *i. geol.* **(süxur haqqında elm)** lithology

**litosfer I.** *i. geol.* lithosphere, the earth's crust **II.** *s.* lithosphere, lithospheric

**litr** *i.* litre, (*amer.*) liter

**litraj (litr hesabı ilə)** capacity in liters / litres

**litrlik I.** *i.* litre, one litre **II.** *s.* litre; **(bir)** ~ **şüşə** litre bottle, bottle of one litre capacity

**Litva** *s.* Lithuanian; ~ **dili** Lithuanian, the Lithuanian Language; ~ **dilində** in the Lithuanian Language

**litvaca I.** *s.* Lithuanian; ~ **qəzet** a Lithuanian newspaper **II.** *z.* (in) Lithuanian, (in) Lithuanian language; **Bu litvaca yazılıb** It is written in Lithuanian; ~ **danışmaq** to speak* Lithuanian; **O, litvaca danışa bilir** He / She can speak Lithuanian

**litvalı I.** *i.* Lithuanian **II.** *s.* Lithuanian; ~ **kişi** Lithuanian (man*); ~ **qadın** Lithuanian (woman*)

**lobya I.** *i. bot.* bean; ~ **əkmək** to plant beans; **(becərmək)** to grow* beans; **II.** *s.* bean; ~ **bitkisi** bean plant; ~ **şorbası** bean soup

**loğma** *i.* a bite / a piece of bread (that may be put into mouth at one time)

**loqquldatmaq** *f.* **(əsasən it**, **pişik** *haq.***)** to lap (up) (*d.*); **İtlər**, **pişiklər suyu loqqul-**

**dadırlar** Dogs and cats lap water; **O, bir boşqab şorbanı loqquldatdı** He lapped up (down) a plate of soup

**lom** *i. bax* **ling**

**lomba** *i.* lump, clot; **mürəkkəb ~sı** a clot of ink; **tüpürcək ~sı** a clot of spit(tle); **qan ~sı** a clot of blood; **bir ~ çörək** a lump of bread; **bir ~ palçıq** a lump of clay

**lomba-lomba** *f.*: **~ ötürmək** to eat* quickly and greedily, to swallow (*d.*)

**lombalamaq** *f.* **1.** to form a lump / clot, to lump; **2.** *d.d.* to eat* quickly and greedily (*d.*)

**lopa** *i.* flocks; **(qar və s.** *haq.***)** flakes; **qar ~sı** a flake of snow; **pambıq / yun ~sı** flocks of cotton / wool; **qarğıdalı ~sı** corn flakes

**lopabığ I.** *i.* long moustached man*, a man* with a long / bushy moustache **II.** *s.* long moustached; (*i.s.*) with a bushy moustache; (*i.s.*) with a long moustache

**lopa-lopa** *z.* in flakes; **Lopa-lopa qar yağırdı** It was snowing in flakes

**loru** *s.*: **~ dil** popular speech; vulgar **~ dildə danışmaq** to speak* in common, to speak* the vulgar tongue; **~ dildə (kobudcasına) ifadə etmək** to express in vulgar; **~ sözlər** vulgar words; **~ latın (dili)** low / vulgar Latin

**loş** *s.* **1.** *bax*: **lət**; **2.** awkward, ungraceful; clumsy; **~ adam** an awkward / clumsy person; **~ at** a clumsy horse (a jade); **3. (paltar** *haq.***)** baggy, puffed out, hanging loosely; **~ (torba kimi) şalvar** baggy trousers; **4.** *zool.* turkey (-cock)

**lotu I.** *i.* **1.** fancy man*; rogue; swindler, cheat, knave, *d.d.* old fox; **2.** convivial fellow **II.** *s.* roguish, mischievous; outspoken; warmhearted; blunt; **~ oğlan** a roguish boy; **~ baxışı / gülüşü** mischievous / roguish look / smile

**lotu-bambılı** *i. d.d.* fop, coxcomb, old fox; **O, lotu-bambılıdır** He is an old fox

**lotubazlıq** *i.* swindle, tricks; **~ etmək** to be* on the spree; to carouse; **(şənlənmək)** to make* merry; *d.d.* to go* on the spree

**lotubeçə** *i. d.d.* a pert / forward / bright / smart fellow / boy / lad; **O, lotubeçə (zirək) oğlandır** He is a bright boy

**lotuluq** *i.* swindle, carouse, trickery; knavery; **~ etmək** to carouse; to cheat, to swindle, to trick; to deceive; **Özünü lotuluğa qoyma!** Don't cheat!

**lotu-potu** *i.* swindlers, rogues, cheats; **Lotu-potu ilə dostluq etmə!** Don't make friends with swindlers / cheats / rogues!

**lovğa I.** *i.* boaster, braggart, show-off **II.** *s.* boastful, vainglorious; presumptuous, (self-) conceited, bumptious; **~ kişi / qadın** an arrogant / conceited / haughty / lofty man* / woman*; **~ ton** in an arrogant tone **III.** *z.* boastfully, arrogantly

**lovğalanmaq** *f. d.d.* to swagger, to boast (of), *d.d.* to brag (of, about); **Bununla lovğalanma!** Don't boast / brag of this!

**lovğalaşmaq** *f.* to become* boastful / bumptious / arrogant

**lovğalıq** *i.* boastfulness, vaingloriousness, presumption, swagger, (self-) conceit, haughtiness, loftiness, arrogance; **~ etmək** to boast, to swagger; *d.d.* to brag

**lovğa-lovğa** *z.* boastfully, arrogantly; **~ gülmək** to laugh boastfully; **~ danışmaq** to speak* arrogantly / boastfully

**löhrəm I.** *i.* trotter **II.** *s.* trotter; trotting; **~ at** a trotter, a trotting horse **III.** *z.*: **~ getmək** to trot; **O, dəvə kimi löhrəm gedir** He / She trots like a camel

**lök** *i.* a child of a camel

**lökdodaq** *s.* thick-lipped; **~ oğlan** a thick-lipped boy

**lökdodaqlı** *s.* **bax**: **lökdodaq**

**lövbər I.** *i.* anchor; **~ salmaq** to cast* / to drop anchor; **~də olmaq** to be* at anchor, to lie* at anchor; **Gəmi lövbərdədir** The ship is at anchor; **~i qaldırmaq** to weigh / to raise the anchor; *məc. d.d.* to get* under way; **Lövbərini qaldır, gedək** Get under way and let's go; ◊ **~(ini) salmaq / atmaq** to settle down, to sit* down (to); **Biz burada çoxdan lövbər salmışıq** We have settled down here long before **II.** *s.* anchor; **~ zənciri** an anchor chain; **~ dayanacağı (yeri)** anchor hold / ground

**lövhə** *i.* **1.** board; **sinif (yazı) ~sı** (black) board; **~də yazmaq** to write* on the (black) board; **elan ~si** notice board; **mis (mərmər) ~** slab; **(mağazada)** sign, signboard; *tex.* **bölüşdürücü / paylayıcı ~** switchboard; **(təşkilatın, idarənin adını,**

**yaxud gördüyü işi göstərən)** panel; **kontrol** / **nəzarət ~si** control panel; **şərəf ~si** board of honour; **şərəf ~sinə vurmaq** to put* up on the board of honour (*d.*); **qara ~ (siyahı)** the list of shirkers; **2.** picture, painting, canvas; **bir şeyin ~sini çəkmək** to paint a picture of *smth.*

**lövhəcik** *i.* **1.** plate, door-plate; **2.** picture

**lövhəyazan** *i.* painter; sign-painter

**lumu** *i. d.d. bax* **limon I**

**lumulu** *s. bax* **limonlu**

**lüğət I.** *i.* dictionary; glossary; **(müəyyən mətnə aid)** vocabulary; **izahlı ~** an explanatory dictionary; **azərbaycanca-ingiliscə ~** an Azerbaijani-English dictionary; **musiqi ~i** a dictionary of music; **tibbi ~** a medical dictionary; **cib ~i** pocket dictionary **II.** *s.* dictionary; vocabulary; lexicographic; *elm.* lexical; **~ tərtibatçısı** lexicographer; **~ işi** lexicographic work; **dilin ~ tərkibi** vocabulary; **~ fondu** word stock

**lüğətcə** *i.* a pocket dictionary

**lüğətçi** *i.* lexicographer

**lüğətçilik** *dilç.* lexicography

**lüğətşünas** *i.* lexicographer

**lüğətşünaslıq** *i. bax* **lüğətçilik**

**lül** *s.*: **lülqənbər** blind / dead drunk; **lülqənbər** / **lülatəş olmaq** to be* as drunk as the devil; **O, lüldür** He is as drunk as a lord, He is well gone

**lülə I.** *i.* **1.** muzzle; barrel, tube; **top ~si** a gun muzzle / tube; **tüfəngin (silahın) ~si** the barrel of a rifle; **2. (çaynik və s.** *haq.***) tar**, stopcock; spout; **çaydanın ~yi** spout of a teapot; **3. (kağız və s.-dən bükülmüş)** roll, scroll, hollow; **4.** icicle; cornice; **buz ~si (sırsıra)** icicle **II.** *s.*: **~ sümük** shin

**lülək** *i. bax* **lülə**

**lüləkabab** *i.* lulakabab (a kind of Azerbaijani dish: meat chopped and formed into a tube shape and roasted on a spit)

**lülələmək** *f.* to roll up (*d.*); **kağız(-ı) ~** to roll up (the) paper; **xalçanı ~** to roll up the carpet; **O, döyülmüş qoyun ətini lülələyib şişdə qızartdı** He / She rolled up the chopped mutton and roasted it on a spit

**lülələnmək** *f.* to be* rolled up

**lülələnmiş** *fs.* rolled up, formed into a tube shape; **~ kağız** the rolled up paper; **~ xalça (lülə kimi bükülmüş)** the carpet formed into a tube shape

**lüllənmək** *f.* to get* dead drunken, to become* as drunk as the devil

**lümə** *s.* **1.** dock-tailed; **~ xoruz** / **toyuq** a dock-tailed cock / hen; **2. (paltar)** short, too tight and short; scanty, curtailed; **~ saç** curtailed hair; **~ paltar** a short dress

**lümək** *s. bax* **lümə**

**lüt I.** *i.* poor man*; **~lər (kasıblar)** the poor; the naked **II.** *s.* naked, unclothed; bare, stripped; nude; exposed; **~ uşaq** a naked child*; **~ bədən** naked body; **~ olmaq** to be* naked; *məc.* to be* poor; **tamam ~** stark naked; **~ ayaq** naked / bare feet; **qurşağa qədər ~** bare to the waist; **O, lüt idi** He / She was naked, He / She was without clothes on; **O, lütdür (yoxsuldur)** / **Lütün biridir** He hasn't a rag to his back; **~ divarlar** bare walls; **~ təpə** a bare / naked hillside; **~ dağ** bare / naked mountain; **~ budaqlı ağaclar** trees with naked branches; **~ olmaq** *bax* **lütlənmək**; **~ etmək** / **qoymaq** *bax* **lütləndirmək**

**lüteran I.** *i. din.* Lutheran **II.** *s. din.* Lutheran

**lüteranlıq** *i. din.* Lutheranism

**lüt-ətcə** *s.* **(uşaq** *haq.***)** naked; **~ uşaq** a naked child*

**lütf** *i.* favour, grace; charm, good-will; assent, approbation; virtue; kindness; politeness; mercy, charity; **bir kəsə ~ etmək** to do* *smb.* a favour; **Lütf edin** Be so kind; Do a favour! Go ahead! Please, do!; **~ etmək** / **qılmaq** / **göstərmək** to favour (*d.*); to regard / to treat (*d.*) with favour / partiality; to have* a kind feeling (for), to show* mercy / favour to (*d.*); to bestow honour on; **allahın ~ü ilə** with the favour / blessing of God, at the mercy of God

**lütfən** *z.* please, be so kind as (+to *inf.*), be so good as (+to *inf.*), be so nice as (+to *inf.*); **Lütfən əyləşin** Be so kind as to sit down, Sit down, please; **Lütfən cavab verin** Have kindness to answer, Kindly answer

**lütfkar** *s.* graceful, gracious, kind; favourable, amiable, polite; obliging; charming; favoured, blessed, appearing; **~ olmaq** to be* favourable (to)

**lütfkarlıq** *i.* courtesy; goodwill; **bir kəsə ~ göstərmək** to regard *smb.* with favour,

to favour *smb.*; **O, mənə lütfkarlıqla cavab verdi** He / She favoured me with an answer, He / She was so kind as to answer me

**lütləndirmək** *f.* 1) to bare (*d.*); to strip (*d.*); to strip *smb.* to the skin; 2) *məc.* to strip (*d.*), to deprive (*d.*) of property; **Onu lütləndirmişdilər** He was stripped of all he had

**lütlənmək** *f.* **1.** to bare, to undress, to uncover oneself, to strip oneself to the skin; to be* naked; **Ağaclar lütləşib** The trees are bare / leafless; **2.** *məc.* to become* / to grow* poor

**lütləşmək** *f. bax* **lütlənmək**

**lütlük** *i.* nudity, nakedness; bareness; strip; stark poverty; **təpələrin lütlüyü** bareness / nakedness of hills; **ağacların lütlüyü** nakedness of trees

**lüt-madərzad** *s. bax* **lüt-üryan**

**lüt-üryan** *s. d.d.* stark / completely naked; **~ olmaq** to be* stark-naked; **~ yaşamaq** to live in poverty / penury

**lüzum** *i.* necessity, need; want; **Heç bir lüzum yoxdur** There is no necessity at all; **~ görmək** to consider it necessary; **Lüzum görmürəm** I don't consider it necessary; **Narahat olmağın lüzumu yoxdur** There is no need to worry / to be anxious

**lüzumlu** *s.* necessary; needful

**lüzumsuz** *s.* unnecessary, not necessary, uncalled for, needless, unwanted, useless; **~ şeylər** unnecessary / useless things; **~ iş** needless work; **Demək lüzumsuzdur** It is needless to say

**lüzumsuzluq** *i.* uselessness, needlessness

**lüzumsuz-lüzumsuz** *z.* unnecessarily; **~ danışmaq** to speak* unnecessarily / nonsense

# Mm

**M**, **m** the 19th letter of the Azerbaijani alphabet

**maarif I.** *i.* enlightenment; education; **xalq ~i** public education; popular / people's education; **siyasi** ~ political education **II.** *s.* educational; ~ **müəssisəsi** an educational establishment; ~ **xadimi** enlighter; ~ **Nazirliyi** Ministry of Education

**maarifçi** *i.* educationist, educationalist; enlightener

**maarifçilik I.** *i.* enlightenment, educational activities **II.** *s.*: ~ **dövrü** the Age of Enlightenment

**maarifləndirmək** *f.* to enlighten (*d.*), to give* education (*d.*); **xalq kütlələrini** ~ to enlighten the masses

**maariflənmək** *f.* to get education [-ʃn]; to be* enlightened

**maarifpərvər I.** *i.* **1.** enlightener, educator; **2.** *tar.* representative of the Englightenment **II.** *s.* instructive, educational; ~ **fikirlər** / **ideyalar** instructive ideas

**maarifpərvərlik** *i.* enlightenment, educational activities

**maaş I.** *i.* **(fəhlələrin)** wages (*pl.*); **(qulluqçuların**, **ziyalıların)** pay, salary; real ~ real wages *pl.*; **nominal** ~ nominal wages *pl.*; **aylıq** ~ wages / pay / salary for a month; monthly salary; **yüksək** ~ higher wages *pl.*; **~ların artırılması** wage incearse; **~ları kəsmək** / **azaltmaq** to cut* wages; **həftəlik** / **aylıq** ~ **vermək** to pay* money for week / month; **fəhlə və qulluqçuların ~ı** wages and salaries; ~ **vermək** to pay wages / a salary, **Bizim maaş günümüz hər ayın** 2-**dir** We get our wages on the 2nd of every month **II.** *s.*: ~ **cədvəli** wages tariff; ~ **günü** pay day, the day when wages (or salary) are to be paid

**mabədi** *i.* continuation; ~ **var** to be* continued

**macal** *i.* **1.** possibility, chance, opportunity; **2.** free time; ~ **vermək** to give* *smb.* a chance, to give* / to afford *smb.* an opportunity; ~ **olanda** when an opportunity presents itself; ~ **tapmaq** / **etmək** to find* time (for+*ger.*); to get around (to+*ger.*)

**macalsız** *s.* busy

**macar I.** *i.* Hungarian; **~lar** the Hungarians **II.** *s.* Hungarian; ~ **xalqı** Hungarian people; ~ **dili** Hungarian, the Hungarian language; ~ **qadını** Hungarian (woman)

**macarca** *z.* Hungarian; ~ **danışmaq** to speak* Hungarian

**macəra** *i.* **1.** event, incident, occurrence; **2.** adventure; ~ **axtaran** adventurer; ~ **axtaran qadın** adventuress

**macəraçı** *i.* adventurer; **(qadın)** adventuress

**macəraçılıq** *i.* adventure

**maç** *i. d.d.* **(öpüş)** kiss; ~ **etmək** to kiss; **yanaqlarından** ~ **etmək** to kiss on the cheeks; **dodaqlarından** ~ **etmək** to kiss (on) *smb.*'s lips

**maça** *i.* meat covered with shin / shank

**madam ki** ... if, if it is... **Madam ki, belədir ...** If it is so ... If it is in this way

**maddə** *i.* **1.** matter, substance; *hərb.* **zəhərləyici** ~ war-gas, **partlayıcı** / **partladıcı** ~ explosive; **qidalı ~lər** nourishing things; **2.** point; item, paragraph; **bütün ~lər** all points; at every point; **3.** *fəls.* matter; **4.** *hüq.* article; **Müqavilənin 15-ci maddəsində göstərilir ki...** Article 15 of the agreement states that ...

**maddəbəmaddə** *z.* item after item; point by point; paragraph by paragraph; ~ **cavab vermək** to answer point by point; ~ **oxumaq** to read* paragraph by paragraph; **məktuba** ~ **cavab vermək** to answer a letter item by item

**maddə-maddə** *z. bax* **maddəbəmaddə**

**maddi** *s.* **1.** material; **(pul**, **əmlak)** pecuniary; ~ **dəyər** material values; ~ **dünya** material world, world of matter; ~ **vəziyyət** economic conditions; ~ **vəziyyət** financial position [-ziʃn], welfare standards (*pl.*); ~ **kömək** pecuniary aid; ~ **çətinlik** financial difficulties, strained circumstances; ~ **maraq** material incentive; ~ **təminlik** material security; ~ **texniki baza** material and technical basis; **2.** *hüq.*: ~ **sübut** material evidence; **bir şey üçün** ~ **məsuliyyət daşımaq** to bear* [beə] the responsibility

for *smth*. ~ **zərər** material loss / damage; ~ **ehtiyac** material needs
**maddilik** *i.* materiality; **dünyanın maddiliyi** the materiality of the world
**madərşahlıq I.** *i.* matriarchy **II.** *s.* matriarchy; ~ **dövrü** the period of matriarchy
**madyan I.** *i.* mare; cins ~ pedigree mare **II.** *s.* mare's; ~ **südü** mare's milk
**mafal** *i. d.d. bax* **mafar**
**mafar** *i.* opportunity, chance; ◊ ~ **vermək** to give* *smb*. a chance, to give* / to afford *smb*. an opportunity; ~ **olan kimi...** when an opportunity offers / occurs / presents itself; **Mafar ver də!** Give me a chance! Let me speak!
**mafə** *i.* catafalque; hearse [hə:-]; bier
**mafraq** *s.* brittle; unstable; **Ehtiyatlı olun**, **mafraqdır.** Be careful, it is brittle; Hand carefully!
**magistral I.** *i.* **1.** main; **qaz** ~ **ı** gas main; **su** ~**ı** water main; **2. (yol)** highway; main road, arterial road; **dəmiryol** ~**ı** main line **II.** *s.* main, arterial; ~ **yol (şosse)** highway; **(dəmir)** main line; ~ **kabel** main cable; ~ **xətt** main line
**mağar** *i.* marguee [ma:ˈki:]; magar (a large tent put up for a wedding or a mourning ceremony)
**mağara I.** *i.* cave; **(böyük)** cavern [kæ-], grotto **II.** *s.* cave; ~ **adamı** *arx.* caved-weller, cave-man, troglodyte [ˈtrɔglədaıt]
**mağaralı** *s.* cavernous; (*i.*s) with many caves
**mağaza I.** *i.* shop; *amer.* store; universal ~ department / general store; **bakaleya** ~**sı** groceteria [grou-]; **qastronomiya** ~**sı** grocery and provision shop; **amer**; delicatessen; **hazırpaltar** ~**sı** ready-made clothes shop; **yazı ləvazimatı** ~**sı** stationery's (shop); **ətriyyat** ~**sı** perfumery's (shop); **zərgərlik məmulatı** ~**sı** jeweller's (shop); **özünəxidmət** ~**sı** self-service store / shop; **çörək** ~**sı** baker's (shop); **kənd** ~**sı** village store **II.** *s.* store, shop ~ **qiyməti** store price(s)
**mağazaçı** *i.* shop-assistant; **(sahib)** shopkeeper, shop-man*
**mahal** *i.* region, district
**mahir** *s.* skilful, clever, able; ~ **atıcı** marksman; ~ **ovçu** skilful hunter; ~ **həkim (cərrah)** skilful surgeon; ~ **rəssam** skilful artist / painter; ~ **usta** skilful master
**mahiranə** *z.* skilfully
**mahiranəlik** *i.* perfection, mastery, skill; mastership
**mahirləşmək** *f.* to be* / to become* skilful / master / clever
**mahirlik** *i.* skilfulness, mastership, mastery
**mahlıc** *i.* raw cotton without seeds, seedless raw cotton
**mahlıclamaq** *f.* to clean the cotton from seeds
**mahmız** *i.* spur
**mahmızlamaq** *f.* to spur (*d.*); **atı** ~ to spur a horse, to prick a horse with spurs
**mahnı** *i.* song; **xalq** ~ **sı** popular song, folk song; **şən** ~ carol; ~ **oxumaq** to sing* a song; ~ **qoşmaq** 1) **(sözlərini yazmaq)** to write* verses; 2) **(musiqisini yazmaq)** to compose a song
**mahrasa** *i.* monk [mʌ-]
**mahud** *i.* cloth, broadcloth
**mahur** *i.* a classic(al) eastern melody / tune
**mahiyyət** *i.* essence, main point; problemin ~**i** the essence of the problem; **işin** ~**i** the main point of the matter; **Bütün mahiyyət bundadır ki,...** The whole point is that ...
**mahiyyətcə** *z.* in essence, essentially, as a matter of fact
**mahiyyətsiz** *s.* inessential, immaterial; useless
**maxist** *i. fəls.* Machist
**maxizm** *i. fəls.* Machism
**maxorka** *i.* makhorka, shag (rough strong tobacco)
**mail** *s.* **1.** inclined (to), disposed (to, towards), given (to); **2.** sloping, slanting; ~ **bucağı** inclined angle; ~ **olmaq** to fall* in love (with); to be* delighted / captivated (with)
**maili** *s.* **1.** sloping, slanting [-a:ntiŋ]; **2.** inclined (to); disposed (*d.*); ~ **dam** sloping roof
**maillik** *i.* **1.** (in) clination; leaning, propensity; **2.** slope
**major I.** *i.* major key; **qamma sol** ~ scale of G major, G major scale **II.** *s.* major; *məc. d.d.* buoyant [ˈbɔı-]; cheerful
**makaron I.** *i.* macaroni [-ounı] **II.** macaroni; ~ **məmulatı** macaroni foods; ~ **küküsü** baked macaroni, pudding

**makedoniyalı** *s.* Macedonian; ~ **İskəndər** Alexander of / from Macedon
**makina I.** *i.* type-writer; ~ **da yazmaq** to type (*d.*) **II.** *s.*: ~ **yazısı** typewritten, typescript; ~ **bürosu** typing office
**makinaçı** *i.* typist; ~ **olmaq** to be* a typist, to work as a typist; ~ **qız** girl-typist
**makinaçılıq** *i.* profession of a typist; ~ **kursu** course of typing, typing course [kɔ:s]
**maksimalist** *i. tar.* maximalist
**maksimalizm** *i. tar.* maximalism
**maksimum I.** *s.* maximum (*pl.* -ma), maximal; upper limit; ~ **gəlir əldə etmək** to get the most profit (out of) **II.** *z.* maximally; at most; ~ **beş ildə** in five years at most
**makulatura** *i.* maskle (-paper), spoilage; *məc.* rubbish; **(aşağı səviyyəli əsər)** pulp literature
**maqqaş** *i.* tweezers (*pl.*)
**maqqaşlamaq** *f.* to pick with tweezers (*d.*); to touch with tweezers (*d.*)
**maqqaşlanmaq** *f.* to be* picked with tweezers (*d.*); to be* touched with tweezers (*d.*)
**maqqaşlatmaq** *f.* to ask / to cause *smb.* to pick with tweezers (*d.*)
**maqma** *i. geol.* magma
**maqmatik** *s. geol.* magmatic
**maqnat** *i.* magnate; tycoon [taɪˊku:n]; *amer.* baron
**maqnetik** *s.* magnetic; ~ **kompas** magnetic compas; ~ **əyilmə** magnetic declination; ~ **elementlər** magnetic elements
**maqnetizm** *i.* **1.** magnetism; **yer ~i** terrestrial magnetism; **heyvan ~i** animal magnetism; **2. (fizikanın şöbəsi)** magnetics
**maqnezium** *i. kim.* magnesium
**maqneziya** *i. kim.* magnesia
**maqnit I.** *i.* magnet; **təbii** ~ natural magnet; **süni** ~ artificial magnet; **daimi** ~ permanent magnet **II.** *s.* magnetic(al); ~ **filizi** *miner*. Magnetite, loadstone; ~ **cazibəsi** magnetic attraction
**maqnitlənmək** *f.* to become* / to get* magnetized; to magnetize
**maqnitləşdirici** *s.* magnetizable
**maqnitləşdirmək** *f.* to magnetize (*d.*)
**maqnitlik** *i.* magnetic property
**maqnitofon** *i.* magnetic recorder, tape-recorder, magnetophone
**maqnitsizləşdirmək** *f.* to demagnetize (*d.*)
**maqnitsizləşmək** *f.* to get* / to become* demagnetized
**maqnoliya** *i. bot.* magnolia [-nouljə]
**mal I.** *i.* **1.** goods (*pl.*); wares (*pl.*); **işə gedən (satıla bilən)** ~ marketable / salable goods (*pl.*); **ərzaq ~ları** food-stuffs; **sənaye ~ları** manufactured goods; **2. (xüsusi)** ~ property; belongings **II.** *i.* **1.** cattle, live-stock; **ətlik** ~ beef cattle; **cins** ~ bloodstock, pedigree cattle; **2.** *məc.* blockhead, brainless person; slow-belly; ~ **kimi gözünü döymək** to look quite lost, to be* completely flummoxed **III.** *s.* **1.** beef; ~ **əti** beef; ~ **piyi** beef fat; ~ **həkimi** *bax* **baytar**; ~ **sürüsü** *bax* **naxır**; **2.** *məc.* stupid, brainless, foolish, silly, slow (-witted)
**mala I.** *i. k.t.* harrow; ~ **çəkmək** to harrow; **torpağa** ~ **çəkmək** to draw* harrow over the ground; **zəncirli** ~ chain-harrow **II.** *i. inş.* plaster; ~ **işi** plaster work; plastering; ~ **çəkmək (suvaq vurmaq)** to plaster (*d.*); parget (*d.*)
**malabaxan** *i.* stable man*; (cattle) breeder
**malaçı** *i.* plasterer; ~ **olmaq** to be* / to become plasterer
**malaçılıq** *i.* the profession of a plasterer; ~ **etmək** to be* a plasterer, to work as a plasterer
**malakeş** *i.* **1. (usta)** plasterer; **2. (alət)** trovel
**malakeşlik** *i.* the profession of a plasterer; ~ **etmək** to be a plasterer
**malalamaq** *f.* **1.** *k.t.* to harrow; **2.** *inş.* to plaster (*d.*); to parget (*d.*); *məc. d.d.*: **üstünü** ~ to cover (*d.*)
**malalanmaq** *f.* **1.** *k.t.* to be* / to get* harrowed; **2.** *inş.* to be* / to get* plastered **3.** *məc.* to be* covered / concealed
**malalatdırmaq** *f.* **1.** *k.t.* to ask / to force *smb.* to harrow; **2.** *inş.* to make* *smb.* to plaster, to parget (*d.*)
**malalatmaq** *f. bax* **malalatdırmaq**
**malay I.** *i.* Malay **II.** *s.* Malay; ~ **dili** Malay, the Malay language
**malayca** *z.*: ~ **danışmaq** to speak* Malay / the Malay language
**malayıran** *i.* sorter
**malbaş** *s.* **1.** dullard, blockhead [-hed], dolt; **(***xüs.* **məktəbli** *haq.***)** dunce; dull, stupid;

**2.** large-headed [-he-]; *elm.* macrocephalous
**malbaşlıq** *i.* stupidity, dullness, obtuse (ness)
**malcanlı** *s.* thrifty; economical; ~ **adam** thoughful man*, careful man*; ~ **olmaq** to take* care / to be careful of one's property
**malçibini** *i. zool.* gad-fly, horse-fly, breezefly
**maldar** *i.* cattle-breeder; cattle-farm worker; cattle-yard worker
**maldarlıq** *i.* cattle-breeding; cattle-raising, cattle-rearing, ~ **ferması** cattle-farm, cattle-yard, cattle-breeding farm; ~ **etmək** to be* cattle-breeder, to be* occupied with cattle breeding; ~ **təsərrüfatı** cattle-breeding farm; ~ **məhsulları** animal produce
**mal-davar** *i.* cattle and small cattle
**maldili** *i. bot.* cactus
**mal-dövlət** *i.* property, belongings, fortune, possessions
**mal-heyvan** *i.* cattle, livestock
**malik** *i.* **1.** owner [ou-], proprietor, holder; ~ **olmaq** to have*, to have* got; **ixtiyara** ~ **olmaq** to have* / possess the right; **istedada** ~ **olmaq** to have* / possess a talent; **2.** own, possess; **var-dövlətə** ~ **olmaq** to own good property
**malikanə** *i.* **1.** farmstead [-sted], proper house, domain; **2.** *tar.* country seat [kʌn-], country estate
**maliyyə** **I.** *i.* finance; *d.d.* **(pul)** money [mʌnı] **II.** *s.* financial; finance; ~ **ili** financial year; ~ **təlimatçısı** revenue inspector; ~ **sistemi** financial system, system of finance; ~ **kapitalı** financial capital; ~ **oliqarxiyası** financial oligarchy [-kı]; ~ **intizamı** financial discipline; ~ **şöbəsi** finance department; ~ **nazirliyi** Ministry of Finance
**maliyyəçi** *i.* financer
**maliyyələşdirmək** *f.* to finance (*d.*)
**maliyyət** *i.* cost; value; **(qiymət)** price; **(dəyər)** worth
**mal-qara** *i.* **1.** cattle; livesttock; **2.** *məc. d.d.* cattle, beast
**mal-mülk** *i.* property, possession, fortune
**malotaran** *bax* **naxırçı**
**malyariya** **I.** *i. tib.* malaria; **~ya tutulmaq** to catch* malaria, to be ill with malaria **II.** *s.* malaria; ~ **ağcaqanadı** malarial mosquito [-ki:-]; ~ **xəstəliyidi** sease of malaria
**mama** *i.* **1.** midwife; **2.** *d.d.* mother; **3.** aunt (sister of one's father)
**mamaça** *i. d.d.* midwife; obstetrician
**mamaçalıq** *i.* midwifery [-wıfrı]; ~ **eləmək** to be* midwifery
**mamalıq** **I.** *i.* midwifery [-wıfrı]; obstetrics **II.** *s.*: obstetrics ~ **kursları** obstetric / midwifery classes
**mamır** *i. bot.* moss; ~ **basmaq** to be* overgrown [-groun] with moss; to be* moss-grown
**mamırlanmaq** *f.* to cover with moss; to raise moss *on.*, to become* mossy / moss-grown
**mamırlı** *s.* mossy, moss-grown; (*i.s.*) covered with moss; ~ **sahil** mossy bank; ~ **daş** moss-grown stone
**mamırlıq** *i.* the place where moss raises, mossy place, moss-grown area
**mamırvarı** *s.* mossy
**mamont** *i.* mammoth
**manat** *i.* manat (the Azerbaijani national money); **qızıl** ~ gold manat; **Qiyməti beş manatdır** The price is five manats; **Qəpiyin qədrini bilməyən manatın qədrini bilməz** *at. söz.* Take care of the pence and the pounds will take care of themselves
**manatlıq** **I.** *i.* fifty-manat note; money valued fifty manat; **iyirmi** ~ twenty-manat note **II.** *s.* manat; **səkkiz** ~ of eight manats, eight-manat
**mancanaq** *i.* **1.** **(quyudan su və s. çıxarmaq üçün)** (well) sweep, shadoof; **2.** *tar.* catapult
**mandarin** **I.** *i.* **(meyvə)** tangerine [-ndʒəri:n]; mandarin **II.** *s.* tangerine; ~ **ağacı**; tangerine-tree; ~ **şirəsi** tangerine juice [dʒu:s]
**mandat** **I.** *i.* **1.** mandate; **(sənəd)** warrant; **2.** **~ı olan adam** mandatory; **~sız** mandateless, (*i.s.*) without mandate; **~ı olmaq** to have* a mandate **II.** *s.* mandate; ~ **komissiyası** Mandate Commission, Credential Committee
**mandolina** *i. mus.* mandolin, mandoline [-li:n]; ~ **çalmaq** to play the mandolin
**mandolinaçalan** *i.* mandolin-player, mandolinist
**mane**: ~ **olmaq** to prevent (*d.* from+*ger.*), to impede (*d.*), to hinder (*d.*), to hamper (*d.*); to interfere (with); **(narahat etmək)**

to disturb (*d.*); to be* an obstacle on the way (of); **Bir şey mane *olmasa* ...** If nothing *interferes*...
**maneçilik** *i.* obstacle, hindrance, interference; ~ **törətmək** to lay* obstacles (to); **bir kəsə ~ törətmək** to put* obstacles in *smb.*'s path / way
**maneə** *i.* obstacle, hindrance, barrier; impediment; **təbii** ~ natural obstacle; **süni** ~ artificial obstacle; **~ni dəf etmək** to liquidate / to abolish obstacle / hindrance / barriers, to remove impediment; **inkişafa** ~ an impediment to progress
**maneəli** *s.* (*i.s.*) with obstacles / impediment
**maneəsiz** *s.* (*i.s.*) without obstacles / barriers / hindrance
**manej** *i.* riding-school, manege [mæ′neıdʒ]; **örtülü** ~ riding-hall; **(sirkdə)** arena
**maneken** *i.* tailor's dummy; model; lay* figure
**manekençi** *i.* mannequin [-kın], model [mɔ-]
**manekençilik** *i.* profession of a mannequin / model
**manevr** *i.* **1.** manoeuvre [-nu:v]; ~ **etmək** to manoeuvre [-nu:v]; to make* evolutions; **2.** *d.y.* to shunt
**manevrlik** *i.* manoeuvrability
**manifest** *i.* manifesto
**manikür** *i.* manicure
**manikürçü** *i.* manicurist
**manikürlü** *s.* manicure (*attr.*); (*i.s.*) with manicure
**manipulyasiya** *i.* manipulation; ~ **etmək** to manipulate (*d.*)
**manipulyator** *i.* manipulator
**manjet** *i.* cuff
**manjetli** *s.* (*i.s.*) with cuff, (*i.s.*) having cuff
**manjetsiz** *s.* cuffless; (*i.s.*) without cuff
**manqa** *i.* link, team, group, unit
**manqabaşçısı** *bax* **manqabaşı**
**manqabaşı** *i.* field-team leader
**manqal** *i.* brazier; **~da yanmaq** to burn in the brazier
**manqan I.** *i. kim.* manganese **II.** *s.* mangannie, manganous; ~ **turşusu** / **duzu** manganate; ~ **sulfiti** manganese sulphide; ~ **xloru** manganese chloride
**manqo I.** *i.* **(ağacı və meyvəsi)** mango; sago [′seıgou] **II.** *s.* mango; sago; ~ **palması** sago palm [...pa:m]; ~ **şirəsi** mango juice [dʒu:s]
**manometr** *i. fiz.* pressure-gauge [...-geıdʒ], manometer
**manometrik** *s.* manometric
**mantar** *i.* **1.** cork; **şüşə ~ı** stopper; **taxta** / **dəmir ~ı** plug; **2.** *el.* fuze, fuse
**mantiya** *i.* cloak, mantle, gown, robe; **məhkəmə ~sı** judge's gown
**manto** *i.* opera-cloak; mantle
**manufaktura I.** *i.* **1.** *tar.* manufactory; **2.** *d.d.* **(toxuculuq fabriki)** textile mill; **3. (parça)** textiles *pl.* **II.** *s.* drapery; ~ **istehsalı** manufactory; ~ **əmtəəsi** drapery; ~ **mağazası** draper's; (*amer.*) dry goods (store)
**manuskript** *i.* manuscript
**marafon I.** *i.* marathon **II.** *s.*: ~ **qaçışı** / **yarışı** Marathon race
**marafonçu** *i.* marathon runner
**maraq** *i.* interest; curiosity; **mənəvi** ~ spiritual interest; ~ **göstərmək** to be* interested (in); to show interest (in, for); to represent the interest; ~ **yaratmaq** / **oyatmaq** to rouse interest (for)
**maraqlandırmaq** *f.* to interest (in *d.*); to rouse interest (for)
**maraqlanmaq** *f.* to be* interested (in), to care (for); to be* curious
**maraqlı I.** *s.* interesting; **Bunu bilmək maraqlı olar** It would be interesting to *know*...; I wonder *that*...; **Maraqlıdır!** It's interesting! **II.** *z.* interestingly
**maraqsız I.** *s.* uninteresting, dull **II.** *z.* boringly, tediously
**maral I.** *i.* deer; **şimal ~ı** reindeer; **Amerika şimal ~ı** caribou [-bu]; **buynuzsuz** ~ pollard **II.** *s.* deer's; ~ **dərisi** deer's skin; ~ **əti** venison [′venizn]; ~ **balası** young deer; ~ **buynuzu** antlers
**maralçı** *i.* reindeer-breeder
**maralçılıq I.** *i.* reindeer-breeding **II.** ***s.***:~ **təsərrüfatı** reindeer farm
**marçıldatmaq** *f.* to smack one's lips
**marçıltı** *i.* smack, smacking
**marıq** *s.* ambush [-uʃ]; shadowing; ~ **düzəltmək** to make* / to lay* an ambush
**marıt** *i.* set; ~ a **durmaq** to point, to come* to a point
**marıtlamaq** *f.* **1.** to point, to come* to a point; **2.** to watch (*d.*); to spy (on, upon)

**marıtmaq** *bax* **marıtlamaq**
**mari I.** *i.* Mari [ma:ri:] **II.** *s.*: ~ **dili** Mari, the Mari language
**maricə** *z.* ~ (in) the Mari language; ~ **danışmaq** to speak* Mari / the Mari language
**marka** *i.* **1.** stamp; **poçt ~sı** (postage) [pous-] stamp **2. (damğa)** mark, sign [saın]; brand; **fabrik ~sı** trade-mark; **3. (pul)** mark; **yeni ~lı (maşın və s.)** new model *of*...; **əla ~lı** top-quality, (*i.s.*) of the best brands
**markalamaq** *f.* **1.** to stamp (*d.*); to stick* a stamp; **2.** to mark (*d.*)
**markalanmaq** *f.* **1.** to be* stamped, to be* stuck; **2.** to be* marked
**markalı** *s.* (*i.s.*) with a stamp, (*i.s.*) having a stamp
**markasız** *s.* (*i.s.*) without stamp, stampless
**markiz** *i.* marquis, marquess
**markizet** *i. toxuc.* voile [vɔil], marquisette [-zet]
**marqarin** *i.* margarine [ˊma:dʒəri:n]
**marmelad** *i.* candied fruit jelly [...fru:t...], piece of candied fruit jelly
**mars** *i.* **1.** *astr.* Mars [-z]; **2.** double loss in the Nard play / backgammon play
**marselyoza** *i.* Marsellaise [-sə-]
**marş** *i.* **(musiqi və hərəkət)** march; **təntənəli ~la getmək** to march past; **Addımla marş!** Quick march! **(hərbi)** Forward! March!
**Marşal** *i.* Marshal; **Baş** ~ Chief Marshal
**marşallıq** *i.* marshalcy
**marşrut I.** *i.* route [ru:t]; itinerary [aı-]; **avtobus ~u** a route of a bus; tramvay **~u** a route of a tram **II.** *s.*: ~ **qatarı** through goods-train; ~ **avtobusu** express bus; ~ taksi minibus, ~ **taksi** taxi on a fixed run / route, fixed route taxi
**mart** *i.* March; ~ **ayında** in March; **keçən ilin** ~ **ayında** last March; **Gələn ilin** ~ **ayında** next March; 8 Mart **Beynəlxalq Qadınlar bayramı** March 8-the International Women's Day
**marten I.** *i.* **1.** open-hearth steel [...ha:θ...]; Martin steel; **2. (soba)** open-hearth furnace **II.** *s.*: ~ prosesi Martin process; ~ **poladı** open-hearth steel
**martençi** *i.* Martiner, Martinist
**martenizm** *i.* Martinism
**martı** *i. zool.* sea-gull
**masa** *i.* table; **yazı ~ sı** writing-table
**masabəyi** *i.* toast-master
**masabəyilik** *i.* the job of a toast-master
**masaj** *i.* massage; ~ **etmək** to massage (*d.*)
**masajçı** *i.* **(kişi)** masseur [mæˊsə]; **(qadın)** masseuse [mæˊsə:z]
**maska** *i.* mask; **~sını atmaq** to throw* off / to discard the mask; **~sını yırtmaq** to tear* the mask off *smb.* [teə...]-, to unmask *smb.* ~ **geymək** to wear* a mask [weə...]
**maskalamaq** *f.* **1.** to mask (*d.*), to put a mask on (*d.*); to cover (*d.*) with a mask; **2.** *məc.* to disguise (*d.*)
**maskalanmaq** *f.* **1.** to put* on a mask; **2. (hərbi)** camouflage [-mufla:ʒ]; *məc.* to disguise oneself (as)
**maskalanmış** *s.* disguised
**maskarad I.** *i.* masquerade, fancy (-dress) ball **II.** *s.* fancy; ~ **kastyumu** fancy dress
**masqara** *i.* fun, mockery, joke; **~ya qoymaq** to make* a fun (of); to make* a laughing-stock (of); to deride (*d.*)
**masqarabaz** *i.* a man* who loves to make a laughing-stock (of-)
**masqaraçı** *i.* scoffer, mocker
**masqarasız** *z.* serious(ly), without joke / mockery
**masqura** *i.* little cup, little bowl
**massiv I.** *i.* **1.** tract; massif, mountain mass; **böyük torpaq ~i** huge tracts of land; **meşə ~i** large tracts of forest; **yaşayış ~i** housing unit / area / estate [...eərıə...]; **2.** architectural ensemble [ˊa:kı...-a:nsa:mbl] **II.** *s.* (*hərb.*) ~ **atəş** massed fire; ~ **zərbə** concentrated blow; ~ **hava hücumu** massed air-raid
**mastika** *i.* **1.** mastic, resin [-z-], gum; **(suvaq)** putty, lute; **2. (döşəməni silmək üçün)** floor-polish [flɔ]
**maşa** *i.* (pair of) tongs; **(soba üçün)** fire-irons, fire-tongs; **cərrah ~sı** forceps, pincers
**maşallah** *nid.* Bravo! *d.d.* Well done!
**maşın I.** *i.* **1.** machine; **2.** *məc.* machinism [-k-]; buxar **~ı** steam-engine [-endʒ-]; **yanğınsöndürən** ~ fire-engine; **əyirici** ~ spinning frame; **tikiş ~ı** sewing-machine; **ətçəkən** ~ mincing-machine, meat-grinder; *amer.* meat-chopper; **paltaryuyan** ~ wash-

ing machine; **yazı ~ı** *bax* **makina**; **iri ~ istehsalı** large-scale machine production; **yük ~ı** lorry; *amer.* truck; **minik ~ı** car; **~ sürmək** to motor (*d.*), to drive* (*d.*); **~la getmək** to go* by bus / car; **~a minmək** to take* a bus / car **II.** *s.* machinery [-ʃi:n], machine; **~ hissələri** machinery / engine parts; **~ yağı** machine oil, engine oil

**maşınka** *i. bax* **makina**

**maşınqayıran** *i.* machine-builder

**maşınqayırma I.** *i.* machine building, engineering industry **II.** *s.* machine-building; **~ zavodu** machine-building plant, engineering-works

**maşınlamaq** *f.* to sew* with sewing-machine

**maşınlaşdırmaq** *f.* to mechanize (*d.*)

**maşınşünas** *i.* the man (or a research worker) who studies machines / engines

**maşınşünaslıq** *i.* engineering science, theoretical engineering

**maşınsazlayan** *s.* adjuster of machine

**maşınsürən** *i.* driver; machinist, engine-driver

**maşinist** *i.* machinist [-ʃi:-], engineer [endʒ-]; *d.y.* engine-driver, locomotive-driver [loukə-]; *amer.* engineer; **(kömürçıxarma kombaynında)** coal-combine operator

**maşinistlik** *i.* work / profession of a machinist

**mat** *i.* **(şahmat oyununda uduzma)** checkmate, mate; **~ elan etmək** to mate (*d.*); **~ olmaq (şahmatda)** to lose* [lu:z] (*d.*); **~ qalmaq** to be* surprised / astonished / thunderstruck

**matador** *i.* matador

**matah** *i.* jewel, gem (ironical), rarity

**matç** *i.* match; **dünya birinciliyi uğrunda ~** match for the world title (in), world-title match (in); **futbol ~ı** football match

**matç-turnir** *i.* match-tournament

**matdım-matdım** *z.* with great surprise; with great astonishment; **~ baxmaq** to look at with great astonishment; to view *smth.* with great concern

**material** *i.* **1.** material; **tikinti ~ı** building materials; **meşə ~ı** timber; **ittiham ~ları** materials of indictment [...daɪt-]; **2. (parça)** fabric; **3.** *məc.* anonymous letter; **~ vermək** to write* anonymous letter

**materialbaz** *i.* anonymous author

**materialist I.** *i.* materialist **II.** *s.* materialistic, materialist; **~ fəlsəfə** materialistic philosophy

**materialistcəsinə** *z.* materialistically

**materializm** *i. fəls.* materialism; **tarixi ~** historical materialism; **dialektik ~** dialectical materialism; **fəlsəfi ~** philosophical materialism

**materialşünas** *i.* specialist in materials

**materialşünaslıq** *i.* science of defining industry materials

**materik** *i.* mainland, continent

**materiya** *i.* matter, substance

**matəm I.** *i.* mourning; funeral; **~ə qərq olmaq** to go* into mourning; **bir kəsə ~ saxlamaq** to be* in mourning for *smb.*; **ağır ~** deep mourning **II.** *s.*: **~ marşı** funeral / dead march; **~ mərasimi** funeral procession / ceremony; **~ sarğısı (lenti)** crape band

**matəmli** *s.* mourning [mɔ:-], sorrowful

**matqab** *i. tex.* perforator, gimlet [ˊgɪ-]; **(böyük)** auger [-gə]; brace

**mat-qut** *i.* **matı-qutu qurumaq** / **çəkilmək** *d.d.* to be* astonished; to be* open-mouthed with astonishment / surprise, to be* flabbergasted

**mat-mat** *z.*: **~ baxmaq** to look with great astonishment / surprise

**mat-məəttəl** *z.*: **~ qalmaq 1.** to puzzle; to bewilder; **2.** to be* in a helpless situation

**matriarxat I.** *i. tar.* matriarchy [meɪtria:kɪ] **II.** *s.* matriarchal [-kəl]

**matrikul** *i. d.d.* matriculation certificate

**matrisa** *i. poliqr.* matrix [ˊmeɪ-]

**matrisalamaq** *f.* to make* the matrix (moulds) (of)

**matros I.** *i.* seaman, sailor **II.** *s.* seaman's; **~ köynəyi** seaman's / sailor's shirt

**matroska** *i.* sailor's jacket

**matrosluq** *i.* seaman's / sailor's business / profession / work

**mauzer** *i.* **(tapança növü)** Mauser

**mavi** *s.* blue, light / pale blue, sky-blue; **açıq ~** Cambridge blue; **tünd ~** navy / Oxford blue; **Səma mavidir...** The sky is blue

**mavigözlü** *s.* blue-eyed; **~ qız** blue-eyed girl

**mavilәşmәk** *f.* to get* / to grow* / to become* blue

**mavilik** *i.* blueness; **səmanın** / **dənizin maviliyi** the blueness of the sky / sea

**maviyəçalan** *s.* bluish
**mavzoley** *i.* mausoleum (*pl.* mausolea)
**may** *i.* May; **~da** in May; **bir ~ günü** May day; **~ ayında** in (the month of) May; **~ın onunda** on the tenth of May; **keçən ilin ~ ayında** last May; **gələn ilin ~ ayında** next May
**maya I.** *i.* **1.** *biol.* germ, embroy; **2.** ferment; **(xəmir üçün)** leaven; **(pivə və s. üçün)** yeast; **pivə ~sı** brewer's yeast; **~ vurmaq** *bax* **mayalamaq II.** *i.* main capital; **~ qoymaq** to spend* money to gain profit **III.** *s.* cost; **~ dəyəri** prime cost, cost price **IV.** *i.* female camel
**mayalamaq** *f.* to ferment (*d.*); **(xəmiri)** to leaven (*d.*)
**mayalandırmaq** *f.* to impregnate (*d.*), to fecundate (*d.*); to fertilize (*d.*); **gülləri ~** to fertilize flowers
**mayalanmaq** *f.* to be* fermented; **(xəmir)** to be* leavened
**mayalı** *s.*: **~ xəmir** yeast dough, baker's dough
**mayallaq** *i.* somersault [ˊsʌ-], somerset; **~ aşmaq** / **vurmaq** to somersault; to turn a somersault; **kəllə-mayallaq aşmaq** / **uçmaq** to fall* head over heels; **Hər şey kəllə-mayallaq olub getdi** *d.d.* Everything went topsy-turvy, All was lost
**mayallaqlamaq** *f.* to turn a somersault
**mayböcəyi** *i. zool.* May-bug; cock-chafer
**maye I.** *i.* liquid [-wıd]; fluid, fuel **II.** *s.*: **~ ölçüləri** liquid measures; **~ şəkilli hava** liquid air; **~ yanacaq** oil fuel
**mayeləşdirmək** *f.* to dilute [daı-] (*d.*), to thin (*d.*); to make* liquid
**mayeləşmək** *f.* to be* / to get* liquid, to become* liquid
**mayıf** *s. bax* **şikəst II**
**mayıflıq** *i. bax* **şikəstlik**
**mayka** *i.* sleeveless vest, football shirt; *amer.* sports-shirt; singlet
**maymaq** *s.* kneading trough [...trʌf]; dough-trough [ˊdoutrəf]; irresolute / gullible person, milksop; **~ olmaq** to be* milksop / awkward
**maymaqlaşmaq** *f.* to become* / to grow* dotty; to become* weak-minded
**maymaqlıq** *i.* gullibility, thoughtlessness; inactivity; awkwardness, clumsiness, slowness, slow-wittedness; **~ etmək** to be* inactive; to be* not wise, to be* dotty / weak-minded
**mayor** *i.* major
**maz** *i.* ointment; **(duru)** liniment; **təkər ~ı** wheel-grease [-s-]; **ayaqqabı ~ı** blacking, shoe-polish [ʃu:-]
**mazaq** *i.* flirtation, coquetry
**mazaqlaşmaq** *f. tab.* to dally with, to flirt (with), to flirt with each other; **qadınla ~** to dally with / to flirt with a woman*; **Evlənmək istəmədiyin arvadla / qızla heç vaxt mazaqlaşma** Don't dally with a woman* / a girl you don't intend to marry
**mazğal** *i.* loop-hole; embrasure [-breı-]; *hərb.* gun-port
**mazı** *i.* **1.** oak-gall, nut-gall; **2.** small ball, bead; **3.** *bot.* confer [kou-]
**mazlamaq** *f.* **1.** to oil; to grease, to lubricate; **2.** *d.d.* **üzünü ~ (üzünə ənlik-kirşan çəkmək)** to make* up
**mazlanmaq** *f.* **1.** to be* oiled, to be* greased, to be* lubricated; **2.** *d.d.* **(üzü)** to be* made up
**mazlı** *s.* (*i.s.*) with oil, oiled; greased; lubricated
**mazut I.** *f.* mazut [-ut], black oil **II.** *s.*: **~ yağı** heavy oils [hevı-]
**mazutlamaq** *f.* **1.** to coat (*d.*) with mazut; to cover (*d.*) with mazut / black oil; **2.** *d.d.* to besmear (*d.* with)
**mazutlanmaq** *f.* **1.** to be* coated with mazut; to be* covered with mazut / black oil; **2.** *d.d.* to be* besmeared with mazut
**mazutlatmaq** *f.* to ask / to force *smb.* to coat / to cover (*d.*) with mazut / black oil
**mazutlu** *s.* **1.** (*i.s.*) covered with mazut / with black oil; **2.** (*i.s.*) coated with mazut / soiled with mazut; (*i.s.*) besmeared with mazut
**mebel I.** *i.* furniture; **kabinet ~i** furniture for a study; **bağ ~i** garden furniture; **~ qoymaq (otağa)** to furnish (*d.*) **II.** *s.* furniture; **~ mağazası** furniture shop; **~ satan** furniture-dealer; **~ düzəldən usta** furniture-maker
**mebelli** *s.* furnished; **~ otaq** furnished room, furnished apartment; rooming-house
**mebelsiz** *s.* unfurnished; **~ otaq** unfurnished room

**medal** *i.* medal [ˊmed-]; “**Əmək igidliyinə görə medal**” Medal for Labour Valour [...væ-]; “**Əməkdə fərqləndiyinə görə medal**” Medal for Distinction in Labour; ◊ **~ın digər üzü** the reverse of medal; the dark side of the picture, the seamy side (of the business)
**medallı** *s.* medal winner; (*i.s.*) carrying medal(s)
**medalyon** *i.* medallion; locket
**meduza** *i. zool.* meduse [-zə]
**meh** *i.* (light) breeze; **yaz ~i** spring breeze; **~ əsmək** to blow* the breeze
**mehli** *s.* windy, breezing
**mehman** *i.* guest; visitor; **~ olmaq** to be* on a visit (to), to be* a guest
**mehmanxana I.** *i.* hotel; inn **II.** *s.*: **~ sahibi** hotel-keeper, innkeeper, hotel-proprietor; **~ direktoru** director of the hotel
**mehmanxanaçı** *i.* hotel-proprietor, hotel-keeper; innkeeper
**mehr** *i.* marriage [-rıdʒ]; **~ salmaq** to love
**mehrab** *i.* **1.** alter [ˊɔ:-]; **2. (məsciddə)** sanctuary
**mehriban** *s.* **1.** affectionate, tender, sweet, kind; **~ uşaq** affectionate child; **~ baxış** tender look; **~ sözlər** tendering words; **~ ailə** united family; **~ qadın** kind woman; **2.** friendly, amicable; ~ it a friendly dog
**mehribancasına** *z.* friendly, kindly, tenderly
**mehribanlaşmaq** *f.* to be* kind, to be* friend (with); to be* on friendly terms (with); to become* friends (with); to be* affectionate / tender / sweet
**mehribanlıq** *i.* kindness, affectionateness, tenderness, sweetness
**mehribanlıqla** *z.* cordially, tenderly, kindly
**mehtər** *i.* groom, stable man*; **(karvansarada)** ostler; *amer.* hostler
**mehtərbaşı** *i.* chief groom, chief stableman*
**mehtərlik** *i.* stable-man’s work; **~ etmək** to be* a groom
**mehvər** *i.* axis (*pl.* axes [-i:z]); **maqnit ~i** magnetic axis; **yerin ~i** axis of the equator, terrestrial axis
**mexanik** *i.* mechanical engineer, mechanician; **maşınlara nəzarət edən ~** mechanic, operator
**mexanika** *i.* mechanics [-kæ-]; **nəzəri ~** theoretical mechanics; **tətbiqi ~** applied mechanics; **bərk maddələrin ~sı** mechanics of rigid bodies
**mexaniki I.** *s.* **1.** mechanical; **2.** powerdriven; **~ avadanlıq** machinery **II.** *s.* mechanical; **~ hərəkətlər** mechanical movement(s) **III.** *z.* mechanically; **~ danışmaq** to speak* mechanically; **~ cavab vermək** to answer mechanically
**mexanikləşdirilmiş** *s.* mechanized; **~ kənd təsərrüfatı** mechanized agriculture
**mexanikləşdirmə** *i.* mechanization
**mexanikləşdirmək** *f.* to mechanize (*d.*)
**mexanikləşmək** *f.* to be* / to become* mechanized
**mexanizasiya** *f.* mechanization [-kənaı-]
**mexanizator** *i.* **1.** mechanization expert; **2.** machine-operator [-ʃi:n-]; **kənd təsərrüfatında ~ kadrları** machine-operators in agriculture
**mexanizm** *i.* mechanism; gear(ing); machinery; **saat ~i** clock work; **qaldırıcı ~** hoisting / lifting gear; *hərb.* elevating gear; **ötürücü ~** transmission gear / mechanism [-zm]; **dövlət ~i** machinery of state
**meksika** *s.* Mexican; **~ dili** the Mexican language
**meksikalı** *s.* Mexican; **~ olmaq** to be* a Mexican
**meliorasiya** *i.* land-reclamation, land-improvement [-ˊpru:v-]
**meliorativ** *s.* land-reclamation, land-improvement; **~ tədbirlər** land-reclamation measures [...meʒ-]
**meliorator** *i.* specialist in land-reclamation
**melodik** *s.* melodious, tuneful
**melodika** *i.* science on melody
**melodiya** *s.* melody, tune
**melodiyalılıq** *i.* melodiousness, tunefulness
**melodram I.** *i.* melodrama [-a:mə] **II.** *s.* melodrama
**melodramatik** *s.* melodramatic
**melodramatizm** *i.* melodramatism
**memar I.** *i.* architect [ˊa:kı-] **II.** *s.* architectural [ˊa:kıtektʃə-], architective
**memarbaşı** *i.* architecture-in-chief
**memarlıq I.** *i.* architecture [ˊa:kı-] **II.** *s.* architectural
**membran** *i. fiz.* membrane; *tex.* diaphragm [-fræm]

**memorandum** *i.* memorandum (*pl.* -da, -dums)
**memorial** *s.* memorial; ~ **lövhə** memorial plaque [...pla:k]
**memuar** *i. ədəb.* memoir [memwa:]
**memuarçı** *i. bax* **memuarist**
**memuarist** *i.* memorist
**mendelizm** *i.* Mendelism
**meningit** *i. tib.* meningitis [-n′dʒaıtıs]
**menşevik I.** *i. siya.* Menshevic **II.** *s.* Menshevist
**menşeviklik** *i. siya. bax* **menşevizm**
**menşevizm** *i. siya.* Menshevism
**mentol** *i. kim.* menthol
**menyu** *i.* menu; bill of fare
**menzurka** *i.* measuring-glass [′meʒ-], graduate
**mer** *i.* **(kişi)** mayor [meə]; **(qadın)** mayoress; **şəhər ~i** mayor of a city / town; **(qadın)** mayoress of the city / town
**merac** *i. din.* Ascension (Day)
**meridian** *i.* meridian
**meridional** *s.* meridional
**merinos I.** *i.* **1. (qoyun)** merino (sheep); **2. (yun)** merino (wool) **II.** *s.* merino; ~ **yunu** merino wool
**meşə I.** *i.* wood(s) (*pl.*); **(böyük)** forest; ~ **salmaq** to afforest, to plant trees / forest; **şam ~si** pine grove / forest **II.** *s.* wood, forest; ~ **sənayesi** timber industry, wood industry; ~ **təsərrüfatı** forestry; ~ **qoruğu** forest reserve; ~ **zolağı (qoruyucu)** protective forest-belt; ~ **materialı** timber, *amer.* lumber
**meşəbəyi** *i.* forest-guard [fɔ-], woodman, forester
**meşəcik** *i.* small wood [...′wud]; grove
**meşəcüllütü** *i. zool.* woodcock [′wud-]
**meşəçi** *i.* cultivator of woods, forester, sylviculturist
**meşəçilik I.** *i.* forestry, sylviculture **II.** *s.* forestry; ~ **briqadası** forestry brigade / team; ~ **institutu** Forestry Institute; **Elmi-Tədqiqat Meşəçilik İnstitutu** Forestry / Sylviculture Scientific Research Institute
**meşəxoruzu** *i. zool. bax* **qırqovul**
**meşəqıran** *s.*: ~ **adam** wood cutter [wud-], logger, ~ **dəzgah (mişar)** saw-mill
**meşəli** *s.* wooded [′wu-], woody [′wu-]; ~ **yerlər** wood-land(s) *pl.*, forest land, wooded country [′wu-kʌ-]
**meşəlik** *i.* wood land(s) *pl.*, forest land, wooded country [′wu-kʌ-]
**meşəsalma** *fi.* afforestation, forest planting, forest-plantation
**meşətorağayı** *i. zool.* wood lark; (pompullu) crested lark
**meşətoyuğu** *i. zool.* grey-hen
**meşəşünas** *i.* sylviculturist; scientist in forestry
**meşəşünaslıq** *i.* forestry, sylviculture, (silviculture)
**meşin** *i.* yuft; Russian leather [-ʃn-′le-], shagreen leather
**meşşan I.** *i.* petty bourgeois; Philistine **II.** *s.* narrow-minded, vulgar; ~ **ideologiya** vulgar ideology
**meşşancasına** *z.* narrow-mindedly, vulgarly
**meşşanlaşmaq** *f.* to be* / to become* petty bourgeois / vulgar
**meşşanlıq** *i.* lower middle classes, narrow-mindedness; petty bourgeoisie [buəʒwa:zi:]
**metafizik I.** *i.* metaphysician [-zı-] **II.** *s.* metaphysical; ~ **baxış** metaphysical conception
**metafizika** *i.* metaphysics
**metafora** *i.* metaphor
**metaforik** *s.* metaphorical, figurative; *dilç.* ~ **ifadə** metaphorical phrase
**metal I.** *i.* metal; **əlvan ~lar** non-ferrous metals; **qara ~lar** ferrous metals **II.** *s.* metal (*attr.*) ~ **məmulatı** metal wares, hardware; ~ **sənayesi** metal industry; ~ **emaledici dəzgah** metal-working machine-tool; ~ **emaledici sənaye** metal-working industry
**metalçı** *i. bax* **metallurq**
**metaləridən I.** *i.* melter, smelter **II.** *s.*: ~ **soba** smelting furnace; ~ **zavod** smelting works, smeltery
**metalkəsən** *s.*: ~ **dəzgah** metal-cutting lathe
**metallaşdırmaq** *f. tex.* to metalize (*d.*)
**metallofon** *i. mus.* metallophone
**metalloid** *i. kim.* metalloid, non-metal [-me-]
**metalloqraf** *i.* metallographe
**metalloqrafiya** *i.* metallography
**metallurgiya** *i.* metallurgy; **qara** ~ ferrous metal industry; **əlvan** ~ non-ferrous metal industry
**metallurji** *s.* metallurgical; ~ **zavod** metallurgical works; ~ **sənayəsi** metallurgical industry

**metallurq** *i.* metallurgist
**metalşünaslıq** *i.* science of metals; metallurgical science
**metamorfik** *s.* metamorphical
**metamorfizm** *i. geol.* metamorphism
**metamorfoz** *i.* metamorphosis
**metan** *i. kim.* methane, marsh-gas
**metateza** *i. dilç.* metathesis (*pl.* -s'es [sı:z])
**metaztaz I.** *i. tib.* metastasis (*pl.* -s'es [sı:z]) **II.** *s.* metastatic(al)
**meteor I.** *i.* meteor **II.** *s.* meteoric
**meteorit** *i.* meteorite
**meteorizm** *i.* meteorism
**meteoroqrafiya** *i.* meteorography
**meteorologiya** *i.* meteorology
**meteoroloji** *s.* meteorological; ~ **stansiya** meteorological station; ~ **məlumat** metereological information
**meteoroloq I.** *i.* metereologist **II.** *s.* meteorological
**meteostansiya** *i.* meteorological station
**metil** methyl [ˊmi:θaıl]; ~ **spirti** wood-spirit [wud -]
**metilen I.** *i.* methylene **II.** *s.* methylene
**metis** *i. biol.* mongrel [ˊmʌn-], half-breed [ˊha:f-]; **(adam** *haq.***)** metis
**metisləşdirmə** *i. biol.* cross-breeding
**metisləşdirmək** *f. biol.* to cross-breed
**metod** *i.* method; **dialektik** ~ dialectical method; **analitik** ~ analytical method; **iş ~ları** methods of work
**metodik** *s.* systematic(al), methodic(al); ~ **ədəbiyyat** methodic literature
**metodika** *i.* method(s) *pl.*; **dillərin tədrisi ~sı** methods of language teaching, methods of teaching languages
**metodiki** *s.* methodical
**metodist** *i.* methodologist, specialist in teaching methods
**metodologiya** *i.* methodology
**metodoloji** *s.* methodological
**metodoloq** *i.* methodologist
**metonimik** *s. ədəb.* metonymical
**metonimiya** *i.* metonymy
**metr** *i.* **1. (uzunluq vahidi)** metre; **kvadrat** ~ square metre; **kub** ~ cubic metre; **2. (ölçü aləti)** metre measure ruler
**metraj** *i.* **1.** metric area [...eərıə]; **2. (kino)** footage [fut-] (of film)
**metrajlı** *s.*: **tam ~ film** full lentgh film; **qısa ~film** short length film, footage [futıdʒ] film
**metranpaj** *i. mətb.* maker-up, clicker
**metrik** *s.* **1.** metric; ~ **sistem** metric system; ~ **ölçü sistemi** metric system of measures [...meʒ-]; **2.** *ədəb.* metrical; **şerdə ~ üsulu** versification; ~ **vurğu** metrical stress
**metro I.** *i.* **1.** the metro; **2.** the underground; *amer.* subway **II.** *s.* metro; ~ **tikintisi** metro construction; ~ **stansiyası** the Metro station
**metrologiya** *i.* metrology
**metroloji** *s.* metrological
**metroloq** *i.* specialist in metrology
**metronom** *i. fiz.* metronome
**metropoliten** *i.* the underground; *amer.* subway, metro; (Londonda) tube; **Bakı Metropoliteni** Baki Metro / Underground
**metropoliya** *i.* parent state, mother country [ˊmʌ...]
**mey** *i.* wine; ~ **içmək** to have* wine, to drink* wine
**meyar** criterion [kraı-] (*pl.* -ia); ~ **olmaq** to serve as a criterion (for); **əsl** ~ true criterion
**meydan** *i.* **1.** square; **2.** area [ˊeərıə]; **oyun ~ı** playground; **tennis ~ı** tennis-court; **basketbol və voleybol ~ı** basketball and volley-ball pitch; **tikinti ~ı** building site; **enmə ~ı** landing ground; **Azadlıq meydanı** The Square of Freedom; ~a **çıxartmaq** to discover, to reveal, to find* out; ~a **gəlmək** to occur, to appear, to happen; **~a gətirmək** to create (*d.*), to organize (*d.*), to produce (*d.*); **~dan qaçmaq** to run (away); ~ **vermək** to give* a way; ◊ ~ **oxumaq / sulamaq** 1) to call *smb.* for fighting; 2) to act himself provocative / aggressive; ~ **da olmaq** to be* present, to be* on hand, to be* available; ~ **dan çıxmaq** to leave* fight, to run* (away)
**meydança** *i.* **1.** little square; **2.** small playground
**meyxana** *i.* **1.** bar, drinking-house, pigsty; dukhan (Caucasian tavern); **2.** Chastooshka (two-line or four-line folk verse, usually humorous and topical, sung in a lively manner)
**meyxanaçı** *i.* **1.** publican [ˊpʌ-], barkeeper, barowner; **2.** singer of topical / satirical songs

**meyxoş** *s.* sourish; ~ **nar** sourish pomegranate

**meyit I.** *i.* dead body [ˈded ˈbɔdı]; **(adam** *haq.***)** corpse; dead man*; ~ **kimi** cadaverous; *d.d.* **ancaq mǝnim ~imin üstündǝn ...** only over my dead body ... **II.** *s.*: ~ **iyi** putrid smell, smell of putrefaction; ~ **zǝhǝri** ptomaine [-tou-]; ~ **zǝhǝri ilǝ zǝhǝrlǝnmǝk** ptomaine poisoning; ~ **namazı** *din.* funeral service; ~ **namazı qılmaq** *din.* to perform a funeral service (over, for)

**meyidxana** *i.* morgue [mɔ:g-], mortuary

**meyl** *i.* **1.** inclination, leaning, propensity; **2.** wish, desire, want; ~ **etmǝk** to have* wish / desire / want; ~ **göstǝrmǝk** to display interest; **bir şeyǝ güclü ~ göstǝrmǝk** to display a keen interest in *smth.*; **~dǝn düşmǝk** to love out (*d.*), to dislike (*d.*)

**meyllǝndirmǝk** *f.* to incline (*d.*); to bend (*d.*); **Bu xǝbǝr mǝni fikrimi dǝyişdirmǝyǝ meyllǝndirdi** This news inclined me to change my mind

**meyllǝnmǝk** *f.* to incline; to bend

**meylli** *s.* inclined; sloping, slanting

**meylsiz** *s.* **1.** steadfast [ˈsted-], unflinching; **2.** (*i.s.*) without wish / desire

**meymun** *i.* monkey [mʌn-]; **quyruqsuz** ~ ape

**meymunabǝnzǝr** *s.* monky-like, ape-like

**meymuncuq** *i.* master-key [-ki:], skeleton-key [-ki:]

**meymunluq**: ~ **etmǝk** to ape

**meymunsifǝt** *s.* apelike, ugly, dirty

**meynǝ** *i.* vine (tree); ◊ ~ **salmaq** / **ǝkmǝk** to viticulture, to vine-grow; ~ **yetişdirǝn** / ~ **pǝrǝst** viticulturer, viticulturist, vine-grower

**meynǝlik** *i.* vineyard

**meyvǝ I.** *i.* fruit [fru:t]; ~ **vermǝk** / **gǝtirmǝk** to yield / to bear* fruit **II.** *s.* fruit; ~ **ağacı** fruit tree; ~ **şirǝsi** fruit juice [dʒu:s-]; ~ **bağı** orchard; ~ **bıçağı** fruit-knife

**meyvǝcat** *i.* fruits; cherries

**meyvǝçi** *i.* fruit-grower, gardener

**meyvǝçilik** *i.* fruit-growing

**meyvǝli** *s.* (*i.s.*) having fruit, plentiful / abundant (with fruits)

**meyvǝ-tǝrǝvǝz** *i.* fruit and vegetables

**mezolit** *s.* *arx.* mesolithic

**mezozoy** *s.* mesozoic; ~ **dövrü** mesozoic era / period

**mǝbadǝ** on no account; by no means; **Mǝbadǝ belǝ iş tutasan!** By no means you have to do this!

**mǝbǝd** *i.* temple, praying-house; **elm ~i** temple of science

**mǝbǝdgah** *i.* place for praying, praying house / place

**mǝblǝğ** *i.* sum; **ümumi** ~ sum total; **~dǝ** amounting (to)

**mǝcaz** *i.* metaphor, allegory, figurative expression; trope; figure of speech; image-bearing expression

**mǝcazi** *s.* *ǝdǝb.* metaphorical, figuratively, allegorical; ~ **mǝnada** in a figurative meaning, figuratively

**mǝcazilik** *i.* figurativeness

**mǝcbur** *s.* forced, constrained, obligatory, compulsory; ~ **etmǝk** to force (*d.*), to compel (*d.*), to oblige (*d.*), to make* (*d.*); to induce (*d.*); **susmağa ~ etmǝk** to reduce (*d.*) to silence; to coerce (*d.*) into silence; **düşünmǝyǝ** / **fikirlǝşmǝyǝ ~ etmǝk** to set* thinking (*d.*); **Bu işi görmǝyǝ onu heç bir şey mǝcbur edǝ bilmǝz** Nothing will induce him / her to do it; **O, bizi gözlǝmǝyǝ mǝcbur etdi** He / She made us wait; ~ **olmaq** to be* forced, to be* obliged, to be* compelled; **bir şeyi etmǝyǝ mǝcbur olmaq** to be* forced / compelled to do *smth.*

**mǝcburǝn** *z.* forcefully, forcibly; under duress(e); ~ **bir şeyi etmǝk** to do* *smth.* under duress(e)

**mǝcburi** *s.* obligatory, compulsory, forced; ~ **ümumtǝhsil** universal compulsory education; ~ **tǝdris fǝnni** required course / subject; **hamı üçün** ~ equally binding for all; ~ **yerǝ enmǝ (tǝyyarǝ)** emergency landing, forced landing

**mǝcburiyyǝt** *i.* compulsion, constraint, coercion; necessity; **~lǝ** under compulsion / constraint

**mǝccani** *s.* *bax* **pulsuz**

**mǝcǝllǝ** *i.* code; **cinayǝt ~si** criminal code; **ǝmǝk qanunu ~si** labour code

**mǝchul** *s.* **1.** unknown, unfamiliar, **2.** *dilç.* passive; ~ **növ** *dilç.* passive voice; **iki ~lu tǝnlik** *riyaz.* equation with two unknown quantities

**məclis** *i.* **1.** meeting, conference; **2.** congress, parliament; assembly; **3. (tamaşada, pyesdə)** scene; **qanunvericilik ~i** Legislative Assembly; **~i açmaq** to open the meeting; **~i bağlamaq** to close the meeting / to break* up the meeting; **xüsusi ~ə yığışmaq** / **toplaşmaq** to meet* in special session; **Azərbaycan Milli ~i** Azerbaijan National Assembly (Milli Majlis)
**məclisi-müəssisan** *i.* Constituent Assembly
**məcməyi** *i.* round copper tray; salver
**məcmu** *i.* all, the whole of [houl], sum, totality, the sum total
**məcmuə** *i.* **1.** magazine, **(elmi)** journal; **2.** collection
**məcnun** *s.* **1.** *bax* **dəli**; **2.** *məc.* mad of love
**məcnunluq** *i.* madness of love
**məcra** *i.* course, river-bed [rivə-]; channel; **çayın ~sını dəyişmək** to change the course of the river; **~sından çıxmaq (çay** *haq.***)** to burst* its banks
**məcun I.** *i.* sweetness, delight **II.** *s.* tasty, delicious; **~ xörək** tasty / delicious dish
**mədaxil** *i.* receipts (*pl.*), profits, gain; **~ və məxaric** income and expenditure; **~ gətirmək** to bring* (in) profits; **Bu müəssisə böyük (kiçik) mədaxil gətirir** This enterprise brings in great (small) profits; **~ əldə etmək** to get* a profit (out, of), to receive a profit (from), to profit (by)
**mədaxilli** *s.* profitable, lucrative, paying, nondeficient; **~ müəssisə** profitable / lucrative enterprise; paying concern
**mədaxillilik** *i.* profitableness
**məddah** *i.* laudator
**məddahlıq** *i.* laudation, laudability
**mədə I.** *i.* stomach [-ʌmək] **II.** *s.* stomachal, gastric **~ xəstəlikləri** gastric disease [...zi:z]; **~ şirəsi** *fiziol.* gastric juice [...dʒu:s]; **~ yarası** stomach ulcer; **~ xorası** gastric ulcer; **~ pozğunluğu** indigestion, diarrhoea
**mədəaltı** *s.*: **~ vəzi** *anat.* pancreas [-rıəs]
**mədə-bağırsaq** *i.* gastroenterostomy
**mədəd** *i.* help, assistance, aid; **~ vermək** to help (*d.*), to assist (*d.*), to aid (*d.*); **Mədəd səndən!** Help me, please!
**mədən** *i.* mine, field; **qızıl ~i** gold-fields, gold mines; **neft ~i** oil-field; **duz ~i** salt-mine(s); **kömür ~ləri** coal-mines, coal-pits
**mədənçi** *i.* miner; owner of a metallurgical works
**mədənçilik** *i.* mining and metallurgical work; mining work
**mədəni** *s.* **1.** cultural; civilized; **~ səviyyə** standards of culture; **~ inkişaf** cultural advance; **~ inqilab** cultural revolution; **maddi və ~ səviyyəni yaxşılaşdırmaq** to raise the standards of welfare and culture; **~ vərdişlər** civilized habits; **2. (yüksək mədəni səviyyədə olan)** cultured, cultivated, educated; **~ adam** a cultured person, a man* of culture; **~ əlaqələr** cultural relations; **~ bitkilər** cultured plants [pla:nts]; **~ yolla** in a cultured way, in a civilized manner
**mədəniləşdirici** *s.* educating, cultivating
**mədəniləşdirilmək** *f.* to be* cultured, to become* cultured / civilized
**mədəniləşdirmək** *f.* to civilize (*d.*)
**mədəniləşmək** *f.* to become* / to get* civilized
**mədəni-kütləvi** *s.*: **~ iş** cultural and mass work among people
**mədəni-maarif** *s.* cultural and educational; **~ müəssisələri** cultural and educational establishements / institutions
**mədəni-məişət** *s.* cultural and welfare; **~ xidməti** (provision of) cultural and welfare facilities; **~ müəssisəsi** public amenities
**mədəni-texniki** *s.* cultural and professional; **~ səviyyə** cultural and professional standards (*pl.*)
**mədəniyyət I.** *i.* culture; **~ yaymaq** to civilize (*d.*); **nitq ~i** speech habits (*pl.*); **gündəlik həyat ~i** culture in every day life **II.** *s.* cultural; **~ mərkəzi** cultural centre; **~ abidəsi** cultural monument
**mədəniyyətli** *s.* cultured, cultivated, educated; **~ adam** a cultured person, a man* of culture; **yüksək ~ adam** highly cultured man*
**mədəniyyətsiz I.** *s.* uneducated, uncivilized; **~ adam** uneducated / uncivilized man* **II.** *z.* in an uncultured / uncivilized way
**mədəniyyətsizlik** *i.* lack of culture; bad manners; low level of civilization; cultural backwardness

**mədəniyyətyayan** *i.* civilizer
**mədh** *i.* praising, laudation; eulogy; ~ **etmək** to eulogize, to belaud (*d.*), to extol (*d.*); to sing* a song of praise
**mədhnamə** *i.* praising poems, ode
**mədrəsə** *i.* religious school of Mussulmen
**məəttəl** *s.* **1.** waiting (for); expecting; **2.** need of; **3.** not knowing what to do; ~ **qalmaq** / **olmaq** 1) to be* in need of; 2) to be* upset; not to know what to do; 3) to be* without work; to spend* the time standing; ~ **etmək** to detain (*d.*); to prevent from doing *smth.* / some work
**məfhum** *i.* idea [aiˊdıə], notion; concept
**məfkurə** *i.* ideology, idea; social ideas; **hakim** ~ prevailing idea; ~ **uğrunda mübarizə aparmaq** to fight for an idea / ideology
**məfkurəli** *s.*: ~ **adam** high principled man*, man* with firm ideological principles
**məfkurəvi** *s.* ideological, (*high*) – principled; ~ **rəhbərlik** ideological leadership
**məfrəş** *i.* holdall
**məftil** *i.* wire, wiring
**məftilli** *s.* (*i.s.*) with wires, (*i.s.*) having wires
**məftilsiz** *s.* (*i.s.*) without wire, (*i.s.*) having no wire
**məftun I.** *i.* admirer, worshipper **II.** *s.* charmed, passionate, captivated, in love with, enamoured (of); ~ **etmək** to charm (*d.*), to fascinate (*d.*); ~ **olmaq** to be* charmed / taken (with)
**məftuncasına** *z.* charmingly, fascinatingly, delightfully; passionately
**məftunedici** *s.* charming, delightful; fascinating, captivating; ~ **gənc xanım** a charming young lady
**məftunluq** *i.* charm, fascination, adoration; captivity
**məgər** *əd.* **(sual və inkar-sual cümlələrində, adətən ingilis dilinə tərcümə olunmur) Məgər o onları görməyib?** Has he / she not seen them? **Məgər onları tanımırsınız?** Don't you know them? **Məgər bu mümkündür?** Do you think it is possible?
**məğlub** *s.* defeated, vanquished; ~ **etmək** to defeat, to vanquish (*d.*); to overcome; ~ **olmaq** 1) to be* defeated, to suffer / to sustain a defeat; 2) **(oyunda)** to lose the game
**məğlubedilməz** *s.* invincible, unconquerable; ~ **ordu** invincible army
**məğlubedilməzlik** *i.* invincibility
**məğlubiyyət** *i.* defeat; **tam** ~ utter defeat; ~**ə düçar etmək** to defeat (*d.*), to inflict a defeat (on); ~**ə uğramaq** to suffer / to sustain a defeat, to be* defeated
**məğmun** *s.* **1.** deceived [-si:vd]; **2.** deprived; ~ **etmək** 1) to deceive; 2) to deprive; ~ **olmaq** 1) to be* deceived; 2) to lose [lu:z] (*d.*), to forfeit [-fıt] (*d.*)
**məğrib** *i.* West
**məğrur I.** *s.* haughty, proud; overweening; majestic; ~ **kişi** proud man* **II.** *z.* proudly; ~ **danışmaq** to speak* proudly
**məğruranə** *z.* proudly, overweeningly
**məğrurcasına** *z.* proudly; overweeningly
**məğrurlanmaq** *f.* to be* proud (of), to take* pride (in); **(öyünmək)** to pride oneself (upon)
**məğrurluq** *i.* pride, haughtiness, arrogance, supercilousness; high and mighty; ambition; **(öyünmə)** boasting
**məğz** *i.* **1.** kernel; **2.** essense, main point; **işin ~i** the point of the matter; ~ **etibarilə** virtually, at the bottom, in the main; **Məğzi ondan ibarətdir *ki...*** As a matter of fact, Practically *speaking...*
**məharət** *i.* adroitness, deftness, giftedness, talent, ability, mastership, mastery; ~ **göstərmək** to show* / display skill / mastery
**məharətlə** *z.* skillfully, in (a) masterly fashion; **böyük** ~ **very** skillfully
**məharətli** *s.* able, skillful, talented, masterly; ~ **rəhbərlik** capable guidance, efficient / capable management; ~ **adam** 1) a skillful / capable man*; 2) **(mənfi mənada)** dodger; ~ **atıcı** marksman; ~ **həkim (cərrah)** skillful surgeon; ~ **iş** a clever piece of work
**məharətlilik** *i. bax* **mahirlik**
**məharətsiz** *s.* unskillful, not skillful; awkward, blundering; **(təcrübəsiz)** inexperienced, **(küt)** dull, untalented
**məhbub** *i. bax* **məşüq**
**məhbubə** *i. bax* **məşuqə**
**məhbəs** *i. bax* **həbsxana**
**məhbus** *i.* prisoner, convict; **siyasi** ~ political prisoner; **ömürlük** ~ person under life

sentence; *d.d.* lifer; ~ **olmaq** to be* a prisoner

**məhdud** *s.* limited, scanty; ~ **etmək** *bax* **məhdudlaşdırmaq**

**məhdudiyyət** *i.* limitation, restriction, scantiness; ~ **qoymaq** to limit (*d.*), to confine (*d.*)

**məhdudlaşdırmaq** *f.* to limit (*d.*), to confine (*d.*); to put* a limit (to)

**məhdudlaşmaq** *f.* to get* / to become* limited

**məhdudluq** *i.* limitation, limited nature; **(adam** *haq.***)** narrow-mindedness

**məhəbbət I.** *i.* love, affection (towards, for); **birtərəfli** ~ unrequited love; ~ **bağlamaq** / **bəsləmək** to come* to love (*d.*), to grow* fond (of); **bir kəsə ~ izhar etmək** to make* *smb.* a declaration of love [lʌv]; **cinsi** ~ sexual love; natural love; **vətənə** ~ love for one's country **II.** *s.* love; ~ **məktubu** love-letter; ~ **lirikası** love lyrics *pl.*; ~ **macərası** love affairs

**məhəbbətçiçəyi** *i. bot.* mignonette [mınjə-]

**məhəbbətlə** *z.* passionately, lovingly; enthusiastically; ~ **sevmək** to love passionately / deeply; ~**lə evlənmək** to marry for love; **O, işə məhəbbətlə yanaşır** He / She is full of enthusiasm for his / her work

**məhəbbətli** *s.* loving, friendly; attached; ~ **baxış** loving look / glance

**məhəbbətnamə** *i.* love letter

**məhəbbətsiz** *s.* (*i.s.*) without love

**məhəccər** *i. bax* **sürahi**

**məhək** *s.*: ~ **daşı** touchstone [tʌtʃ-]

**məhəl** *i.*: ~ **qoymaq** to pay attention (to), to give / to pay heed (to), to take heed (of); ~ **qoymamaq** to neglect (*d.*), to disregard (*d.*), to ignore (*d.*); **bir kəsin məsləhətinə ~ qoymamaq** to ignore *smb.*'s advice; **təhlükəyə ~ qoymamaq** to ignore danger

**məhəllə** *i.* estates, block; district, **yeni yaşayış ~ləri** new housing estates, new blocks of flats; **O, bizim məhəllədə yaşamır** He / She does not live in our block

**məhəlli** *s.* local, territorial; ~ **sular** territorial waters; ~ **ləhcə** local dialect; ~ **hökumət orqanları** local authorities; ~ **sənaye** local industry; ~ **həmkarlar təşkilatı** local Trade-Union Committee

**məhərrəm (ay)** *i.* the first month of Mohammadan system of chronology

**məhkəmə I.** *i.* **(müəssisə)** law-court [-kɔ:t], court [kɔ:t], Court of Law / Justice; **Ali** ~ Supreme Court; xalq ~ **si** People's Court; **hərbi** ~ court martial; **hərbi-səhra ~si** drum-head court martial; ~ **də** in court; ~ **də bəraət qazanmaq** to be* found not guilty; ~ **yə çağırmaq** to summon (*d.*), to cite (*d.*), to subpoena [-pi:nə] (*d.*); ~**yə vermək** to take* it into court; **kimi isə ~ yə vermək** to bring* an action against *smb.*; ~ **də olmaq** to be* on trial **II.** *s.* **1.** court [kə:t]; ~ **sessiyası** Court session; ~ **iclası** sitting of the Court; ~ **zalı** courtroom; ~ **günü** the day of the trial; **2.** judical; legal, forensic; ~ **istintaqı** examination, investigation, inquiry; ~ **araşdırması** legal proceedings; ~ **qaydası ilə** in legal form; ~ **müstəntiqi** investigator; ~ **icraçısı** officer of the law

**məhkum** *s.* sentenced (to), condemned (to); ~ **etmək** to sentence (to), to condemn (to); **həbs cəzasına ~ etmək** to sentence to imprisonment (*d.*); **ölüm cəzasına ~ etmək** to sentence / to condemn to *death* [...deθ]

**məhkumluq** *i.* imprisonment; **qanunsuz** ~ *hüq.* false imprisonment

**məhlul** *i. kim.* solution; **qatı** ~ strong solution; **zəif** ~ weak solution; **əhəng ~u** mortar, white-lime; sement ~**u** cement solution / mortar; **gil ~u** clay mortar

**məhrəba** *i.* towel; **hamam ~sı** bath towel, Turkish towel

**məhrəm** *s.* **1.** sincere, intimate; **2.** close, near; ~ **söhbət** heart-to-heart talk

**məhrəmanə** *z.* intimately, in confidence, confidentially; on intimate terms; **bir kəslə ~ olmaq** to be* intimate with *smb.*; to be* dear to *smb.*, to be* on intimate terms with *smb.*

**məhrum** *s.* (de)void (of), unfortunate; ~ **etmək** to deprive (*d.* of); **kimi isə hüquqdan ~ etmək** to deprive *smb.* of rights; **vətəndaşlıq hüququndan ~ etmək** to deprive of civil rights (*d.*); **səsvermə hüququndan ~ etmək** *hüq.* to disfranchise (*d.*); **xüsusi əmlakdan ~ etmək** to dispossess (*d.*); **vərəsəlik hüququndan ~ etmək** to disinherit (*d.*); **hərbi rütbədən**

~ **etmək** to reduce (*d.*); to the ranks; **azadlıqdan ~ etmək** to imprison (*d.*), to put* into prison (*d.*); **özünü zövqdən ~ etmək** to do* oneself out of pleasure; **göz işığından ~ olmaq** to lose* one's sight; **hissiyyatdan ~ olmaq** to faint (away), **şair**; to swoon **nitqdən ~ olmaq** to be* deprived of speech; **özünü həyatdan ~ etmək** to take* one's life, to commit suicide; **bir kəsi həyatdan ~ etmək** to take / to deprive *smb.* of life; **bir kəsi zövqdən ~ etmək** to deprive *smb.* of pleasure

**məhrumiyyət** *i.* deprivation; hardship, privation; **~ə düçar olmaq** to suffer privations / hardship; *d.d.* to have* a hard rough time

**məhsul** *i.* harvest, yield, crop; **bu ilin ~i** this year's harvest / yield; **bol / yaxşı ~** rich / heavy harvest / crop; **~ yığmaq** to gather in / to reap the harvest; **~u ambara yığmaq** to garner the crop; **rekord ~ almaq** to achieve record harvests; **kənd təsərrüfatı ~i** agricultural produce; **heyvandarlıq ~ları** animal produce; **istehsalat ~ları** fruits of production

**məhsuldar** *s.* fruitful, fruit(-bearing) [fru:tbeə-], productive; **~ qaramal** productive live-stock; **~ əmək** productive / efficient labour; **~ il** good year for the crops; productive year, bumber-crop year; **~ sortlar** highyielding / fecund varieties; **~ qüvvələr** productive forces; **~ şəkilçilər** *dilç.* productive suffixes

**məhsuldarlaşdırmaq** *f.* to fecundate (*d.*); to impregnate (*d.*)

**məhsuldarlıq** *i.* **1.** fruitfulness [fru:t-], productivity; **2.** fertility, fecundity, efficiency

**məhsullu** *s.* productive, fruitful

**məhsulsuz** *s.* barren, sterile, infertile; (*i.s.*) of bad harvest, unproductive; **~ il** year of bad harvest; year of dearth [də:θ]

**məhsulsuzluq** *i.* **1.** bad harvest, failure of crops, crop failure, poor crop; **2.** unproductiveness

**məhşər I.** *i. din.* awful / terrible court, trial day, the day of trial; judgement day, day of judgement, last judgment ◊ **~ ayağına çəkmək** to punish severely / mercilessly **II.** *s.*: **~ günü** doom's day, the day of doom

**məhtab** *i.* Moon's radiance

**məhv** *i.* death [dei]; destruction; annihilation [ə,naıə'leıʃən], abolition; **(gəmi, ekspedisiya** *haq.***)** loss, wreck; **(dövlət** *haq.***)** fall, downfall, ruin; **Bu onu məhvə gətirib çıxarır** That will ruin him / her, That will lead to his / her downfall; **bütün ümidlərin ~i** the ruin of all one's hopes; **~ etmək** to annihilate (*d.*), to destroy (*d.*); to ruin (*d.*); **(adam** *haq.***)** to be* undoing (of); **düşməni ~ etmək** to annihilate the enemy; **~ olmaq** to perish, to be* killed; **Çiçəklər şaxtadan məhv oldu** The flowers perished from the frost; **Gəmi məhv oldu** The ship is lost; **döyüşdə məhv olmaq** to fall* / to be* killed in battle; **Daşqından minlərlə adam məhv oldu** A thousand lives have been lost in the flood [flʌd]

**məhvedici** *s.* pernicious, beneful, fatal, destructive; **~ adətlər** pernicious habits

**məhz** *əd.* namely, just, exactly, specially, only; **~ bu hal** just that case; **O, məhz bunu deyirdi** Just what he / she was saying; **Məhz buna görə ki ...** Just / Only because...

**məhzun** *s.* melancholy, sad, mournful [mɔ:n-], wistful, cheerless, despondent

**məhzun-məhzun** *z.* sadly, sorrowfully, despondently

**məxaric** *i.* **1.** expense, expenditure; **2. (mühasibatda)** expenditure, outlay; **mədaxil və ~** income and expenditure; **~i çıxdaş etmək** to write* off (*d.*); pul **~i** expense; **səmərəsiz ~** waste of *smth.*

**məxəz** *i.* source [sɔ:s]; **İş məxəzlər əsasında yazılmışdır** The work has been written / compiled from original sources

**ölgünləşmək** *f.* **1.** to become* sickly / puny / stunted / apathetic; **2. (bitki)** to become* withered / undergrown

**ölgünlük** *i.* languor, inertia, apathy, listlessness; **(əzələ)** flabbiness

**ölkə** *i.* land, country; **bütün ~də** all over the country; **doğma ~** native land; bizim **~də** in our country; **asılı ~** dependent country; **müstəmləkə ~ləri** colonial countries

**ölkəşünas** *i.* regional ethnographer

**ölkəşünaslıq I.** *i.* regional ethnography, country study **II.** *s.* regional; **~ muzeyi** museum of regional ethnography

**ölmək** *f.* to die; to fade, to wither, to lose* freshness; to suffer great grief or anxiety; to pass away, to be* dead; **(hiss və s.)** to die away / off / down; **(xəstəlikdən, qocalıqdan)** to die (of); **(bir şey üçün)** to die for; **O ölür** He / She is dying; **O öldü** He / She is dead, He / She is gone; **təbii**

**ölümlə** ~ to die a natural death; **əldə** ~ to die a violent death; **qəhrəman kimi** ~ to die the death of a hero; **vaxtsız** ~ to die prematurely, to pass away prematurely; **qəfildən** ~ to die suddenly; **acından** ~ to die of starvation / hunger, to starve to death; **gülməkdən** ~ to die of / with laughing; **kədərdən** ~ to be* bored to death; ◊ **Adam bir dəfə ölər** ≅ A man can die but once; **bir şey üçün ~ (çox istəmək)** to die for *smth*.

**ölməli** *s.* **1.** worth dying; **O ölməlidir** He / She is worth dying; **2.** evil, wicked

**ölməz** *s.* immortal, undying, unfading, deathless; ~ **şöhrət** deathless / immortal fame; ~ **şərəf** undying / unfading glory

**ölməzlik** *i.* immortality; **Nizami poeziyasının ölməzliyi** The immortality of Nizami's poetry

**ölmüş** *s.* dead; faded, defunct; ~ **adam** a dead man*; ~ **xala** defunct aunt; ~ **bitki** a dead plant; ~ **məhəbbət** dead love; ~ **iş** a dead matter; ~ **fikir** / **ideya** a dead idea; ~ **heyvan** a dead animal

**ölü I.** *i.* corpse, dead man*, dead body, the deceased, the defunct; **~lər və dirilər** the dead and the living **II.** *s.* dead; lifeless; ~ **adam** a dead man*; ~ **it** a dead dog; ~ **dil** *dilç.* a dead language; ~ **kapital** dead stock; unemployed capital; ~ **göz** *məc.* lifeless eyes; ~ **kimi yatmaq** to be* dead asleep; ~ **nöqtə** *tex.* dead point / centre

**ölüb-öldürmək** *f.* to fight* to death; to kill or to be* killed

**ölücəsinə** *s.* dead; ~ **kefli** dead drunk; ~ **yorğun** dead tired

**ölüxana** *i.* morgue, mortuary, dead-house

**ölüm I.** *i.* **1.** death; decease, demise; **təbii** ~ natural death; **~dən xilas etmək** to save fromdeath; **vaxtsız** ~ prematurely / untimely death; **~ün pəncəsində olmaq** to be* in the jaws of death; **~lə həyat arasında olmaq** to be* between life and death; ~ **ayağında olmaq** to be* dying, to be* on the verge of death; **~ə vermək** to kill (*d.*), to cause to be killed; **~ünü gözünün qabağına almaq** to risk / to stake one's life; **2.** mortality; **uşaq ~ü** infant / infantile mortality **II.** *s.* death; ~ **düşərgəsi** death camp; ~ **cəzası** capital punishment; ~ **tələsi** death trap; ~ **hökmü** death sentence; ~ **təri** death sweat; ~ **yatağı** death-bed

**ölümcül I.** *s.* mortal, deadly, fatal; ~ **yara** mortal wound **II.** *z.* half-dead; more dead than alive; ~ **yaralanmaq** to be* deadly wounded; ~ **olmaq** to be* half-dead, to be* going to die, to be* seriously ill

**ölümcüllük** *i.* the state of being halfdead / seriously ill

**ölüm-dirim I.** *s.* life-and-death; fierce fight; ~ **mübarizəsi** life and death struggle, struggle for existence **II.** *z.* ~ **mübarizəsi aparmaq** to be* engaged in fierce fighting, to fight* a fierce / frantic fight

**ölüm-itim** *s.* ~ **dünyası** the transitory world

**ölümlü** *s.* ~ **dünya** transitory world; ~ **gün** hard time / life

**ölüm-zülüm** *z.* anyhow, somehow; with great difficulty

**ölüncə** *z.* **1.** to death, mortally; ~ **döymək** to beat* *smb.* to death, to beat* unmercifully, to give**smb.* a terrible beating; *amer.* to beat* the living daylight out of *smb.*; ~ **yemək** to be* quite full, to eat* to satiety; ◊ to make* a pig of oneself; **2.** till the end of one's lifetime

**ölüsoyan** *i.* looter, marauder, pillager

**ölüsoyanlıq** *i.* looting, pillage, marauding; ~ **etmək** to loot, to pillage, to maraud [məˈrɔ:d]

**ölüşkəmək** *f.* **(bitki)** to fade, to wither, to droop; *məc.* to waste away

**ölüşkətmək** *f.* to cause *smth.* to become faded / withered

**ölüvay I.** *i.* an irresolute person **II.** *s.* irresolute, languid, listless, inert; awkward; ~ **adam** an irresolute person **III.** *z.* languidly, inertly, awkardly, listlessly

**ölüvaylıq** *i.* irresolution, inertness, listlessness, awkwardness

**ölüyuyan** *i. bax* **mürdəşir**

**ömründə** *z.* never, never in one's life; **Ömründə o bunu yaddan çıxartmaz** He'll / She'll never forget it, He'll / She'll not forget it as long as he / she lives

**ömür** *i.* life; ~ **etmək** / **sürmək** to live; **ömrü uzunu** / **boyu** lifelong, as long as one lives; **ömrünü çürütmək** to run* one's life;

**Ömrün uzun olcun** May your life be long! **Allah ömür versin** May God prolong your life!
**ömürbillah** *z. bax* **ömründə**
**ömür-gün i** *bax* **ömür**
**ömürlük** *s.* life, for life, lifelong; **~ təqaüd** life pension; **~ həbs** imprisonment for life, lifetime imprisonment; **~ katorqa** penal servitude for life; **~ dost** life-long friend; **~ sürgün** lifelong exile
**ömürlülük** *i.* longevity, life long
**ömürsüz** *s.* short-lived; unstable, not firm
**ömürsüzlük** *i.* the state of being short-lived / not firm / unstable
**ön** *s.* front; **~ qapı** front door; **~ dişlər** front teeth; **~ cərgə** front row; **~ saitlər** front vowels; **~ hissə** front section, forepart
**öncə** *z.* in advance, in good time, ahead, ahead of time; **ilk ~** first of all, in the very first place; **~dən** beforehand, first of all, in advance
**öncül I.** *i.* leader (in herd); **~ olmaq** to be* a leader **II.** *s.* leading; **~ dövlət xadimi** a leading statesman*
**öndə** *z.* in front, in future; **Öndə bizi çox işlər gözləyir** We have much work to do in future
**öndəki** *s.* front, in front, in future
**öndən** *z.* from front
**öndər** *i.* leader; chief; **~ olmaq** to be* a leader
**önəmli** *s.* important, significant; considerable; substantial; **~ rol oynamaq** to play a great role; **~ qərar** important decision; **~ düzəliş** important amendment; **~ gəlir** considerable income; **~ məsələ** an important matter, a matter of great significance / importance
**önəmlilik** *i.* importance, significance; **məsələnin önəmliliyi** the importance of the matter
**önlük** *i.* apron; **(uşaq üçün)** bib; pinafore
**önlüklü** *s.* (*i.s.*) with a pinafore / an apron, (*i.s.*) having a pinafore / an apron
**önündə** *z.* before, in front of: **qapının ~** before the door, in front of the door; **O uzun müddət şəklin önündə dayandı** He / stood before the picture for a long time
**öpdürmək** *f.* to ask / to cause *smb.* to kiss (*d.*); to allow *smb.* to kiss (*d.*)
**öpdürtmək** *f. bax* **öpdürmək**
**öpən** *i.* kisser
**öpmək** *f.* to kiss (*d.*), to give* a kiss (*i.*); **bir kəsin dodaqlarından ~** to kiss *smb.*'s lips; **bir kəsin yanağından ~** to kiss smb's cheek; **bir kəsin əlini / əlindən ~** to kiss *smb.*'s hand
**öpülmək** *f.* to be* kissed
**öpüş** *i.* kiss; **~ göndərmək** to blow* a kiss; **hərarətli ~** ardent kiss; **~ vermək** to allow *smb.* to kiss
**öpüşdürmək** *f.* to ask / to cause *smb.* to kiss each other
**öpüşdürtmək** *f. bax* **öpüşdürmək**
**öpüşmək** *f.* to kiss, to kiss each other / one another; **Onlar görüşəndə öpüşdülər** They kissed when they met
**ördək I.** *i.* duck; **~ çöl ördəyi** wild duck **II.** *s.* duck, duck's; **~ yumurtası** duck egg; duck's egg; **~ balası** duckling; **~ yetişdirən** ducker; **~ ovu** ducking
**ördəkburun I.** *i. zool.* duck-bill, platypus **II.** *s.* duck-billed; **~ qadın** a duck-billed woman*
**örnək** *i.* specimen, sample, model, pattern; **~ olmaq** to be* / to become* a model
**örpək** *i.* kerchief, scarf worn over the head
**örpəkli** *s.* (*i.s.*) with a kerchief, (*i.s.*) having a kerchief on
**örpəksiz** *i.* (*i.s.*) without a kerchief, (*i.s.*) having no kerchief on
**örpəksizlik** *i.* the state of having no kerchief on
**ört-basdır** *i.* glossiness; concealment; receiving; **~ etmək** to gloss (*d.*) over, to cover up (*d.*); **çatışmazlıqları ~ etmək** to cover up defects, to cover up one's tracks; **cinayəti ~ etmək** to conceal all traces of a crime
**örtdürmək** *f.* to ask / to cause *smb.* to cover (*d.*) / to shut (*d.*)
**örtdürtmək** *f. bax* **örtdürmək**
**örtmək** *f.* **1.** to cover (*d.*); **2. (qapaqla)** to root (*d.*); **3.** to shut* (*d.*), to close (*d.*); **şkafı ~** to close a cupboard; **qapını ~** to close / to shut* the door; **gözünü ~** to close one's eye; **(ölmək )** to die, to pass away; **4. (gizləmək)** to conceal (*d.*)
**örtü** *i. bax* **örtük**
**örtüb-basdırmaq** *f.* to gloss (*d.*) over; to cover up; **cinayəti ~** to conceal all the

tracks of a crime; **çatışmazlıqları** ~ to cover up defects

**örtük** *i.* **1.** cover; coat; carpet; roof; blanket; **qar örtüyü** coat / carpet of snow; **2. (şal)** shawl; **(duvaq, pərdə)** veil; **(çarpayı üçün)** bed-spread, coverlet, counterpane; **(balış üçün)** cushion-cover

**örtüklü** *s.* (*i.s.*) with / having a cover; **(çarpayı)** (*i.s.*) with bed-spread / coverlet; **(duvaqlı)** (*i.s.*) with / having a veil

**örtüksüz** *s.* uncovered; open; bare; (*i.s.*) without a veil / a cover / a shawl / a kerchief

**örtüksüzlük** *i.* the state of being uncovered / without a cover

**örtülmək** *f.* to close, to shut; to be* closed / shut / slammed; **Qapı örtüldü** The door (was) shut; **Onun gözləri örtüldü** His / Her eyes (were) shut; **Pərdə örtüldü** The curtain was pulled / drawn; **Qapaq örtüldü** The lid came down, The lid fell; **Qapı onun arxasınca örtüldü** The door slammed behind him / her; **yarpaqla** ~ to be* covered with leaves; **qarla** ~ to be covered* with snow

**örtülü** *s.* **1.** covered; wrapped up; concealed; shut; ~ **bazar** covered market; **2.** ambiguous, equivocal; **Örtülü bazar dostluğu pozar** ≅ Never buy a pig in a poke / bag

**örtüncək** *i. bax* **örtük**

**örtüncəkli** *s. bax* **örtüklü**

**örtüncəksiz** *s. bax* **örtüksüz**

**örtüncəksizlik** *i. bax* **örtüksüzlük**

**örtünmək** *f.* to cover oneself, to veil oneself, to cover oneself with

**örüş** *i.* pasture, **(ümumi)** common pasture; **Naxır örüşdədir** The cattle are on pasture

**öskürdücü** *s.* (*i.s.*) causing cough

**öskürək** *i.* cough [kɔf]; ~ **tutmaq** to have* a fit of coughing; **pis** / **bərk** ~ churchyard cough

**öskürmək** *f.* **1.** to cough; **2. (öskürəyi olmaq)** to have* a cough; **bərk** / **pis** ~ to have* a bad cough

**öskürtmək** *f.* to cause *smb.* to cough

**öskürtü** *i. bax* **öskürək**

**öskürüşmək** *f.* to cough all together

**ötə** *s.* ~ **olmaq** to excel (*d.* in), to surpass (*d.*), to be* better than; ~ **olmaq** to be* better, to excel; **dostundan** ~ **olmaq** to excel one's friend; **müəllimindən** ~ **olmaq** to excel one's teacher; **O, idmanda məndən ötədir** He / She excels me in sports; **Bu kitab ondan ötədir** This book is better than that one

**ötən** *s.* past, last, previous; ~ **il** last / previous year; ~ **qış** last / previous winter; ~ **həftə** past / last week

**ötən-keçən** *i.* passerby (*pl.* passers-by)

**ötərgi I.** *s. bax* **ötəri I II.** *z. bax* **ötəri II**

**ötəri I.** *s.* superficial; cursory; ~ **bilik** superficial knowledge; ~ **yoxlama** cursory inspection; ~ **nəzər** superficial glance **II.** *z.* superficially, cursorily; by the way; ~ **nəzər salmaq** to cast* a cursory glance (at), to give* a cursory glance, to steal* a glance (at); ~ **görmək** to catch* glimpse (of); ~ **eşitmək** to hear* with half an ear (*d.*); **kitaba** ~ **baxmaq** to glance over / through a book; **materialla** ~ **tanış olmaq** to glance over the material, to take* a look at the material

**ötəricə** *z.* quite superficially / cursorily

**ötərilik** *i.* superficiality

**ötgün** *s.* **1. (çox yetişmiş)** overripe; **2. (çox bişmiş)** overcooked, overroasted; overdone

**ötgünlük** *i.* the quality of being overripe / overroasted / overcooked

**ötkəm I.** *s.* **1.** haughty, arrogant, supercileious; **2.** *bax* **hünərli II.** *z.* **1.** haughtily, arrogantly; **2.** confidently, with confidence; ~ **danışmaq** to speak* with confidence

**ötkəmlik** *i.* **1.** haughtiness, arrogance; **2.** *bax* **hünərlilik**

**ötmək** *f.* **1.** to outdistance (*d.*), to leave* behind (*d.*); **(qaçmaqda)** to outrun* (*d.*); **(yerimәkdə)** to outwalk (*d.*), to pass (*d.*); **(uçmaqda)** to outfly (*d.*), to outstrip (*d.*); **2.** to be* over, to be* past; **Qış ötdü** Winter is over; **Tufan ötdü** The storm has blown over; **Təhlükə ötdü** The danger is past; **3. (quş)** to sing*; **4.** *d.d.* **(boş-boşuna danışmaq)** to chatter, to talk nonsense; **5. (meyvə)** to be* overripe; **(xörək və s.)** to be* over cooked / overdone; ◊ **Ötən günə gün çatmaz, günü-günə calasan** ≅ You'll never return past days

**ötrü** *qoş.* for, because of, on account of; **səndən** ~ for you; **Tomdan** ~ for **Tom**; **nahardan** ~ for dinner; **avtobusdan** ~ for

thebus; **vətəndən** ~ for one's country; **hər sözdən** ~ for every word; **ondan** ~ because of him

**ötüb-keçmək** *f.* to overtake* and surpass (*d.*), to leave* behind (*d.*); **(atla)** to outgallop (*d.*)

**ötürmə** *fi.* pass, an act of passing

**ötürmək** *f.* **1.** to see* (*d.*), to see* off (*d.*); **döngəyə qədər** ~ to see* as far as the corner; **bir kəsi evə** ~ to see* *smb.* home; **bir kəsi qapıya qədər** ~ to see *smb.* to the door; **2.** to hand over (*d.*), to pass (*d.*); **əldən-ələ** ~ to hand (*d.*); **topu (oyunda)** ~ to pass the ball / football; **3.** *d.d.* **(yemək)** to eat* up (*d.*), to gobble (up) (*d.*); **4.** to miss; **dərs** ~ to miss a lesson; **söz** ~ to miss a word

**ötür-ötür** *z.* **1.** passing *smth.* to one another; **2.** the name of a kind of game

**ötürücü I.** *i.* **1.** guide, conductor; **2.** *fiz.* conductor **II.** *s. fiz.* conductive; ~ **metal** conductive metal

**ötürücülük** *i.* conductivity, conductance; **misin ötürülücüyü** the conductivity of copper

**ötürülmək** *f.* **1.** to be* seen off; **2.** to be* passed; **3.** to be* omitted / missed

**ötüşdürmək** *f.* to race (*d.*); to cause to run a race (against)

**ötüşmə** *fi. id.* race; **avtomobil** / **velosiped** **~si** motor / cycle race; **qayıq ~si** boat race

**ötüşmək** *f.* **1.** to race, to take* part in a race; **2.** to manage (with), to do* (with), to make* (with); **3.** to get* right / settled, to be* in a fair way; **4. (quşlar)** to pipe / to sing* / to warble (all) together

**övkələmək** *f.* to rub (*d.*), to massage (*d.*), to give* a massage (to); **özünü** ~ to rub oneself; **gözünü** ~ to rub one's eyes; **üzünü** ~ to rub one's face; **əllərini** ~ to rub one's hands

**övkələnmək** *f.* to be* rubbed / massaged, to give* a massage (to)

**övkələtdirmək** *f. bax* **övkələtmək**

**övkələtmək** *f.* to ask / to cause *s.o.* to rub (*d.*) / to massage (*d.*)

**övlad** *i.* child*; descendant; **~ı olmaq** to give* birth to a to child*; to have* a child

**övladcanlılıq** *i.* philoprogenitiveness

**övladlı** *s.* (*i.s.*) having a child; ~ **olmaq** to have* a child*

**övladlılıq** *i.* the state of having a child*

**övladpərəst** *s. bax* **övladsevən**

**övladpərəstlik** *i. bax* **övladcanlılıq**

**övladsevən** *s.* philoprogenitive, fond of one's child

**övladsevənlik** *i. bax* **övladcanlılıq**

**övladsevər** *s. bax* **övladsevən**

**övladsevərlik** *i.* philoprogenitiveness

**övladsız** *s.* childless, (*i.s.*) without a child*

**övlasızlıq** *i.* childlessness

**övrət** *i. bax* **arvad I**

**övrətbaz** *s. bax* **arvadbaz**

**övrətbazlıq** *i. bax* **arvadbazlıq**

**öymək** *f.* to boast (of), to praise(*d.*); **özünü** ~ to boast (of), to swagger (about)

**öynə** *i.* time; once; **gündə bir** ~ once a day; **hər ~də** every time, each time, whenever; **~sini kəsmək** to prevent (*d.*) from doing some business (especially from eating, earning money)

**öynəlik** *i.* some eatable matter for one time, *smth.* enough for a time

**öyrədici** *s.* educating, training; ~ **tapşırıqlar** educating exercises

**öyrədilmək** *f.* **1.** to be* taught / educated / trained; **2.** to be* put up to

**öyrədilmiş** *s.* trained; tamed; domesticated, **(heyvan**: **sirkdə oynamaq üçün)** performing

**öyrəncək** *s.* accustomed, used; ~ **olmaq** to be* used / accustomed (to); **Mən işləməyə öyrəncəyəm** I'm accustomed to working; **kənd həyatına** ~ **olmaq** to be* used to country life

**öyrəncəkli** *s. bax* **öyrəncək**

**öyrənilmək** *f.* to be* learned / studied

**öyrənişli** *s.* accustomed (to), used (to)

**öyrənişmək** *f.* to be* used / accustomed (to+*ger.*), to get* accustomed (to); **O tezdən qalxmağa öyrənişib** He / She is used / accustomed to rising early; **Uşaq nənəsinə öyrənişib** The child has got accustomed to his / her grandmother

**öyrənmək** *f.* **1.** to learn* (*d.*), to study (*d.*); **oxumağı** ~ to learn* to read; **yazmağı** ~ to learn* to write; **ingilis dilini** ~ to learn* / to study English; **dərzilik** ~ to learn* tailoring; **səbirli olmağı** ~ to learn* to be patient, to school oneself to be patient; **əz-**

**bər** ~ to learn* by heart; ◊ **Öyrənmək heç vaxt gec deyil** Live and learn; **2.** to get* to know (*d.*), to know* (*d.*), to find* out (*d.*); **telefon vasitəsi ilə** ~ to find* out by telephone; **Mən indi onu yaxşı öyrənmişəm** I have known him / her better now; **3.** to get* accustomed (to) / used (to); **kənd həyatına** ~ to get* used / to get* accustomed to country life

**öyrənmiş** *s.* **1.** accustomed, used; **2.** trained, tamed; ~ **şir** a tamed lion

**öyrəşmək** *f. bax* **öyrənişmək**

**öyrətmək** *f.* **1.** to teach* (*d.*, +to *inf.*); to train (*d.*), to learn* (*d.*), to instruct (*d.*); **yazmağı** ~ to teach* (*d.*) to write; **bir kəsə ingiliscə danışmaq** ~ to teach* *smb.* to speak English; **bir kəsə ingiliscə** ~ to teach* *smb.* English; **bir kəsə bir şeyi** ~ to teach* *smb. smth.*, **(praktik olaraq)** to train *smb.* in *smth.*; **Onlar məni öyrətdilər** They instructed me; **2. (tovlamaq)** to instigate (*d.*+to *inf.*), to incite (*d.* to *inf.*), to put* up to; to egg on (*d.*+to *inf.*); **Bunu deməyi o mənə öyrətdi** He / She prompted me to say this, He / She egged me on to say this, He / She put me to it; **3.** to train (*d.*); *məc.* to school (*d.*); **(heyvanı)** to tame (*d.*); **atı** ~ **(minmək üçün)** to tame a horse, **(idman)** to train a horse

**öyrətmən** *i. bax* **şagird I**

**öyüd** *i.* lecture, reprimand; **bir kəsə** ~ **vermək** to reprimand *smb.*, to lecture *smb.*, to read* *smb.* a lecture, to preach to *smb.*

**öyüdləmək** *f.* to preach (to), to lecture (to), to give* a lecture, to reprimand (*d.*); **bir kəsi** ~ to lecture *smb.*, to preach to *smb.*

**öyüd-nəsihət** *i. bax* **öyüd**

**öyüdücü** *s.* vomitive, emetic, sickening, nauseating; ~ **vasitə** emetic; ~ **iy** sickening / nauseating smell

**öyüdverən** *i.* one who reprimands

**öyüdverici** *s.* moralizing, didactic; ~ **ədəbiyyat** didactic literature

**öyümə** *fi.* sickness, nausea [-sıə]; ~ **hiss etmək** to feel* sick

**öyümək** *f.* to feel* sick; to sicken, to nauseate

**öyüngən** *s.* boastful, vainglorious; ~ **kral** a boastful king

**öyüngənlik** *i.* boastfulness, vaingloriousness

**öyünmək** *f.* to boast (of), to swagger (*about.*) to brag (of, about)

**öyütmək** *f.* to make* *smb.* (feel) sick, to sicken (*d.*), to nauseate (*d.*); **Bu məni öyüdür** It makes me sick, It sickens / nauseates me

**öz** *əv.* **1.** *Şəxs və cinsdən asılı olaraq ingilis dili yiyəlik əvəzliklərinin isimlə işlənən formasına uyğun gəlir:* **Mən öz anama kömək edirəm** I help my mother; **O öz paltarını yudu** She washed her dress; **O öz səhvini boynuna aldı** He / She admitted his / her mistake; **2.** one's, one's own; **Hər kəs öz borcunu yerinə yetirməlidir** One must do one's duty; ~ **fikrində israr etmək** to insist on having one's own way; ~ **sözünü demək** to make* one's mark; ~ **yolu ilə getmək** to go* one's own way; to do* what one wants / wishes; ~ **sözü ilə danışmaq** to tell* in one's own words; ~ **əli** ~ **başı olmaq** to be* one's own master; to be* free / independent; ~ **xoşuna** at / of one's own will; **onun** ~ **evi** his / her own house; **3. şəxs və cinsdən asılı olaraq ingilis dili qayıdış əvəzliklərinə uyğun gəlir**: myself, himself, herself, *etc.*; ~ **əli ilə ~ünə quyu qazmaq** to ruin oneself, to kill oneself; **~ü etmək** to do* oneself; **O, Moskvaya özü gedəcək** He / She will go to Moscow himself / herself; **~ünə güvənmək** to be* sure of oneself, to rely on oneself; ~ **canının qeydinə qalmaq** to take* care only of oneself; to look after one's health; **~ünü təmizə çıxartmaq** to justify oneself; **~ünü müdafiə etmək** to defend oneself (against); **~ünü xilas etmək** to save oneself, to escape; **~ünü əzib büzmək** to give* oneself airs, to be* affected; **~ünü ələ salmaq** to play the fool / to make* a fool of oneself; **~ünə gün ağlamaq** to think* of one's future, to take* care of oneself; **~ünü bərkitmək** *d.d.* 1) **(yemək)** to refresh oneself, to eat* much; 2) **(özünü ələ almaq)** to store up fresh energy; **~ünü vurmaq** 1) to shoot* oneself; 2) to pretend to be, to sham, to feign, to stimulate; **~ünü xəstəliyə vurmaq** to pretend to be ill; **~ünü ölülüyə vurmaq** to pretend to be dead, to sham / to feign death; **O, əslində xəstə deyil, özünü xəstəliyə vurur** He / She is not real-

ly ill, he's / she's only shamming; **~ünü yeyib tökmək** to say* *smth*. repeatedly / many times; **~ünü yetirmək** to come* just on / in time, to arrive just on / in time; **~ünü yığışdırmaq** 1) to pull oneself together; 2) to be* frightened / afraid (of); **~ünü yormaq** to overwork; **(boş yerə)** to waste one's efforts, to get* tired / exhausted; **~ünü göstərmək** to show* oneself; to put* one's best foot foremost; to show* off; **~ünü naza qoymaq** to give*oneself airs, to be* affected; **~ünü öymək** to brag (of), to boast (of), to swagger (about); **~ünü uca** / **yuxarı tutmaq** to turn up one's nose, to cock one's nose; to put* on airs; **~ünü çəkmək** to puff up, to be* too proud

**özbaşına I.** *s.* **1.** self-willed, wilful; **~ uşaq** self-willed / wilful child; **2.** unwarranted; **~ (icazəsiz) axtarış** unwarranted research **II.** *z.* wilfully; **~ hərəkət etmək** to act wilfully

**özbaşınalıq** *i.* tyranny; arbitrariness; lack of restraint;**~ etmək** to act wilfully

**özbək I.** *i.* Uzbek [u:z-] **II.** *s.* Uzbek [u:z-]; **~ dili** Uzbek, the Uzbek language

**özbəkcə** *z.* Uzbek; in Uzbek; **~ danışmaq** to speak* Uzbek; **~ yazmaq** to write* in Uzbek; **~ demək**; to say* in Uzbek

**özək** *i.* **1.** cell, nucleus; core; **döyənəyin özəyi** the core of corn; **partiya özəyi** party cell; **~ bağlamaq** *bax* **özəkləmək**; **2.** kernel; **qozun özəyi (içi)** kernel of a walnut

**özəkləmək** *f.* to form core / cell / nucleus

**özəkli** *s.* (*i.s.*) with cell / nucleus / kernel, (*i.s.*) having cell / nucleus / kernel

**özəksiz** *s.* (*i.s.*) without cell / nucleus / kernel, coreless

**özəksizlik** *i.* the state or quality of being without kernel / without core

**özfəaliyyət I.** *i.* amateur talent activities **II.** *s.* amateur; **~ truppası** amateur troupe; **~ konserti** amateur concert

**özəlləşdirmək** *f.* to privatize [ˈpraıvətaız] (*d.*)

**özəlləşdirilmək** *f.* to be* privatized [ˈpraıvə,taızd]

**özəlləşmə** *fi.* privatization [,praıvə,taıˈzeiʃ(ə)n]

**özəlləşmək** *f.* to be* / to become* privatized [ˈpraıvə,taızd]

**özəlləşmiş** *fs.* privatized [ˈpraıvə,taızd]; **~ zavod** a privatized plant

**özgə** *əv.* other; another; **~ sözlə** in other words; **~ yerdə** somewhere else; **Bu özgə məsələdir** That is another matter; **~ adam** a stranger, a strange man*; **O, özgələri barədə heç vaxt fikirləşmir** He / She never thinks of others

**özgələşmək** *f.* to become* a stranger, to change entirely

**özgəlik** *i.* the state of being a stranger

**özləri** *əv.* themselves; **Evi özləri tikdilər** They built the house themselves

**özlüyündə** *z.* itself, in itself; by itself; **Məsələ özlüyündə aydındır** The question is clear itself; **Özlüyündə onun heç bir əhəmiyyəti yoxdur** In itself it is of no importance

**öz-özünə** *z.* to himself, of oneself, in itself, independently; **~ danışmaq** to speak* to oneself; to go* mad; **~ işləmək** to work by itself; **Maşın öz-özünə işləyir** The machine works by itself; **~ fikirləşmək** to think* to oneself **O, öz-özünə fikirləşdi** He / She thought to himself / herself

**özü** *əv.* **(kişi)** himself, **(qadın)** herself, **(cansızlar)** itself; **O, bunu özü dedi** He / She herself / himself said it, He / She said it himself / herself; **Qız mənə özü belə dedi** The girl herself said to me so; **London özü qədim şəhərdir** London itself is an ancient city; **~nü eşşək yerinə qoymaq** to make* an ass of oneself; **Özünü eşşək yerinə qoyma** Don't make an ass of yourself

**özüaçılan** *s.* **(silah)** self-firing; automatic

**özüboşaldan** *s.* **yükünü ~ maşın** dump truck, tip-up lorry

**özül** *i.* base, basis (*pl.* bases); foundation, groundwork; **~ünü qoymaq** to lay* down the foundation; **~ünü tikmək** to build* the foundation

**özülsüz** *s.* (*i.s.*) without base / foundation, (*i.s.*) having no base / foundation

**özülsüzlük** *i.* the state of being without base / foundation

**özümünkü** *əv.* mine; my people, my native; **Bu özümünküdür** It's mine

**özümüzünkü** *əv.* ours, our own; **Burada hamı özümüzünküdür** No strangers here

**özündəngetmə** *i.* fainting fit, swoon, syncope [-pı]

**özünəbəy** *i.* bridegroom, groom; ~ **olmaq** to be* a bridegroom / groom

**özünəxidmət** *s.* self-service; ~ **mağazası** self-service shop / store

**özünüalçaltma** *i.* self-abasement, self-humiliation

**özünüçəkən I.** *i.* one who turns up his / her nose **II.** *s.* cocky, cocksure, pert

**özünüidarə I.** *i.* self-government **II.** *s.* self-government; ~ **orqanları** / **təşkilatları** self-government institutions; **yerli** ~ **orqanları** institutions of local government

**özünüqoruma** *i. bax* **özünümüdafiə**

**özünümüdafiə I.** *i.* self-defence; **fərdi** ~ individual self-defence; **kollektiv** ~ collective self-defence **II.** *s.* self-defence; ~ **orqanları** self-defence institutions

**özününkü** *əv.* **(kişi)** his; **(qadın)** hers; his / her people, his / her natives; his / her own; **Kitab özününküdür** The book is his / hers

**özünüöymə** *i.* self-advertising, boasting

**özünütənqid** *i.* self-criticism; **tənqid və** ~ citicism and self* criticism

**özü-özlüyündə** *z.* by oneself, in himself, in itself, independently, to himself / herself; ~ **danışmaq** to speak* to oneself; ~ **fikirləşmək** to think* to oneself; **Özü-özlüyündə aydındır** It goes without saying

**özünütərbiyə** *i.* self-education

**özünütərifləmə** *i. bax* **özünüöymə**

**özüyazan** *s.* registering, (self-) recording; ~ **qələm** fountain-pen

**özüyeriyən** *s.* self-propelled; ~ **kombayn** self-propelled combine

# Pp

**P**, **p** the 23rd letter of the Azerbaijani alphabet
**paça** *i.* **1.** crotch; **2.** foot; leg; **~sını ~sının üstünə qoymaq** to cross one's legs
**paçalamaq** *f.* to seize / to grasp *smb.* by the leg
**paçalı** *s.* long-legged
**padşah** *i.* padishah [pa:-]; monarch [ˈmɔnək]
**padşahlıq** *i.* **1.** reign [reın]; **2.** kingdom, realm [relm]
**padzəhər** *i.* antidote
**padşahpərəst** *s.* monarchist [-k-], **~ qüvvələr** monarchist forces
**padşahpərəstlik** *i.* monarchism [-k-]
**paxıl I.** *i.* envier, envious person **II.** *s.* envious; **~ baxışlar** envious looks; **~ dillər** envious tongues; **başqasının xöşbəxtliyinə qarşı ~ olmaq** to be* envious of another's good fortune
**paxıllaşmaq** *f.* to become* envied / envious
**paxıllıq** *i.* envy; enviousness; **~ etmək** / **çəkmək** to envy (*d.*); **bir kəsin üstünlüyünə ~ (hiss) etmək** to feel* envy at the superior advantages of another; **bir kəsdə ~ hissi oyatmaq** to excite / to rouse envy in *smb.*; ◊ **~dan partlamaq** *d.d.* to be* bursting with envy
**paxılyana** *s.* enviously, with envy; **nəyəsə ~ baxmaq** to look at *smth.* enviously, to eye *smth.* enviously
**paxır** *i. kim.* oxide; **dəmir ~ı** ferric oxide; **alümin ~ı** alumina / aluminium oxide; **mis ~ı** copper oxide; **~ basmaq** to get* / to become* oxidized; ◊ **~ı açılmaq** *məc.* to become* / to get* unmasked, to come* to light, to stand* exposed, to be* revealed; **~ını açmaq** *məc.* to unmask (*d.*), to show* up (*d.*), **öz ~ını açmaq** to reveal oneself*
**paxırlanmaq** *f.* to be* oxidized / oxidated
**paxırlaşdırıcı** *i. kim.* acidifier, oxidizer
**paxla I.** *i.* bean; **~ əkmək üçün maşın** bean hulter; **"paxla yeyənlər" (Boston şəhəri əhalisinin ləqəbi)** bean-eaters **II.** *s.* bean; **~ qabığı** bean pod
**paxlalı** *s.* bean; **~ sous** bean sauce; **~ bitkilər** leguminous plants
**paxlava** *i.* pakhlava (a kind of Eastern cake with nuts or almonds)
**pak** *s.* **1.** clean; **2.** honest; **~ adam** honest man*
**paket** *i.* envelope, cover
**pakizə I.** *s.* clean; complete; **Çox əcəb, Çox pakizə** *d.d.* all right; *O.K.* **II.** *z.* cleanly, honestly; **pak ~ yaşamaq** to live cleanly / honestly
**paqqıldamaq** *f.* to seethe; to boil up
**palan** *i.* **1. (yük daşımaq üçün)** pack-saddle; **2. (hamballarda)** back pillow (for loaders)
**palanduz** *i.* pack-saddle maker
**palanduzluq** *i.* trade of a pack-saddle maker
**palanlamaq** *f.* to put* on pack-saddle / back pillow
**palanlanmaq** *f.* to be* put on pack-saddle / back pillow
**palanlatdırmaq** *f. bax* **palanlatmaq**
**palanlatmaq** *f.* to ask / to cause *smb.* to put on pack-saddle / back pillow
**palanlı** *s.* **1.** (*i.s.*) having pack-saddle on / back pillow on; **2.** *d.d. bax* **anlamaz**, **qanmaz**
**palata I.** *i.* **1. (qanunverici orqan)** chamber; **2. (nümayəndəlik)** chamber; house; **lordlar ~sı** House of Lords; **icmalar ~sı** House of Commons; **deputatlar ~sı** Chamber of Deputies; **nümayəndələr ~sı (ABŞ-da)** House of Representatives; **Hindistan xalq ~sı** Indian House of the People; **kitab ~sı** Book Chamber; **ticarət ~sı** Chamber of Commerce **II.** *i.* **(xəstəxanada)** ward
**palaz** *i.* a kind of carpet without pile
**palazqulaq I.** *i. d.d.* lop-eared man* **II.** *s.* lop-eared; **~ oğlan** a lop-eared boy
**palçıq I.** *i.* **1.** mud; **2. (tikinti ücün)** grout; **3. (dulusçuluq üçün)** argil, potter's clay; **~ tutmaq** to prepare grout; **(dulusçuluq üçün)** to prepare argil / potter's clay; **palçığa batmaq** 1) to become* mudded all over; 2) to get* stuck in the mud; **Təkər palçığa batıb** The wheel got stuck in the mud; **~ sıçratmaq** to splash with mud **II.** *s.* mud; **~ vannası** mud bath; **~ vannası qəbul etmək** to take* / to undergo* a mud cure; **~ müalicəsi** mud cure; **~ müalicəxanası** therapeutic mud -baths; **~ vulkanı** mud volcano

**palçıqlamaq** *f.* to clay (*d.*), to mud (*d.*)
**palçıqlatdırmaq** *f.* to ask / to force *smb.* to clay (*d.*)
**palçıqlatmaq** *f. bax* **palçıqlatdırmaq**
**palçıqlı** *s.* muddy; (*i.s.*) covered with mud; ~ **yol** muddy road; ~ **ayaqqabı** muddy shoes; **Yol palçıqlıdır** The road is muddy
**palçıqlıq** *i.* muddy place; area covered with mud
**palçıqtəmizləyən** *i.* mud-scraper
**paleontologiya** *i.* pal(a)eontology
**paleontoloji s** pal(a)eontologic(al)
**paleontoloq** *i.* pal(a)eontologist
**palıd I.** *i.* oak; **ağacı** ~ an old oak **II.** *s.* oak; oaken; ~ **ağacı** oak tree; ~ **meşəsi** oak forest; ~ **yarpağı** oak-leaf; ~ **qozası** acorn [ˊeıkɔ:n]; ~ **qapı** an oak door, a door made of oak; ~**dan qayrılmış** masa oak table, table made of oak
**palıdı** *s.* brown; ~ **rəng** brown colour
**palıdlıq** *i.* oakery, oak-wood, oak grove
**palma I.** *i. bot.* palm (-tree); **xurma ~sı (ağacı)** date (-palm) **II.** *s.* palm; ~ **ağacı** palm (-tree); **(material)** boxwood; ~ **yağı** palm oil
**pal-paltar** *i.* (all kind of) clothes
**paltar** *i.* clothes *pl.*; **bayram ~ı** Sunday clothes; **gündəlik** ~ work-day clothes; **hazır** ~ store clothes; ready-made clothes, **üst ~ı** street clothes; **iş ~ı (kombinezon)** overalls *pl.*, **eyni formalı** ~ uniform
**paltaras (ıl)an** *i.* **1.** peg, rack, stand; **(dəhlizdə)** hall-stand; **2. (paltarda)** tab, hanger
**paltarbiçmə** *i. etnoqr.* ritual ceremony of cutting out and demonstrating dresses for bride (an old tradition of Azerbaijani people)
**paltarlıq** *i.* fabric fit / suitable for clothes
**paltarsaxlayan** *i.* cloak-room attendant
**paltaryuyan** *i.* laundress; **(maşın)** washing-machine
**palto** *i.* overcoat, topcoat (top-coat)
**paltoluq** *i.* fabric / cloth for overcoat; overcoat goods
**pambıq I.** *i.* **1.** cotton, **(təmizlənmiş)** cotton wool; **təmizlənməmiş** ~ cotton in seed, raw cotton; **uzun lifli** ~ long staple cotton; **2. (astar üçün)** wadding **II.** *s.* cotton; ~ **yağı** cotton seed oil; ~ **parça** cotton fabric; ~ **əkən** 1) cotton grower; 2) cotton-growing; ~ **əkən rayon** cotton-growing region / district; ~ **yığan** cotton-picker; ~ **yığan maşın** cotton stripper; **(açılmamış qozanı)** cotton-picking machine; ~ **qozası** cotton ball; ~ **tədarükü** cotton collecting; ~ **tədarükü zavodu** cotton-collecting depot; ~ **yığımı** cotton-harvesting; ~ **çiyidi (toxumu)** cotton-seed; ~ **tarlası** cotton plantation; ~ **əyirən zavod** cotton - spinning factory
**pambıqatan** *i. toxuc.* comber, carder
**pambıqçı** *i.* **1. (mütəxəssis)** cotton planter; **2. (becərən işçi)** cotton-grower
**pambıqçılıq I.** *i.* cotton-growing; **Pambıqçılıq respublikamızın kənd təsərrüfatı sahələrindən biridir.** Cotton-growing is oneof the fields of agriculture in our republic **II.** *s.* ~ **sovxozu** cotton-growing State farm; ~ **rayonu** cotton-growing region / district
**pambıqəyirmə** *s.* cotton-spinning; ~ **fabriki** cotton-spinning factory
**pambıqlıq** *i. bot.* cotton-plant, cotton plantation
**pambıqtəmizləyən** *s.* cotton-cleaning; ~ **zavod** cotton-cleaning plant; ~ **maşın** cotton gin
**pambıqyığan** *s.* cotton-picker; ~ **maşın** cotton-picking machine
**panorama** *i.* panorama; **Bu panorama Bakının bir mənzərəsini əks etdirir** This panorama represents a view of Baku
**papaq I.** *i.* **1.** papakh (tall Caucasian hat usually made of sheepskin); **2.** cap; **dəri** ~ fur cap; **ingilis krallarının tacqoyma mərasimində qoyulan** ~ cap of maintenance; **üstü dördkünc olan ~ (ingilis tələbə və professorları geydiyi)** college (square, trencher) cap; **jokey papağı** jockey cap; **3.** hat; **(həm də qadın üçün)** bonnet; ~ **qoymaq** to put* on one's hat; **papağını çıxarmaq** to take* off one's hat; **papağı gözünün üstünə basmaq** / **endirmək** to pull one's hat / cap over one's eyes; ~ **goymaq** to wear* a hat; **O papaqda idi** He wore a hat; He had a hat on; **qadın papağı** lady's hat, bonnet; ◊ **papağını qabağına qoyub fikirləşmək** to think* over *smth.*

comprehensively / thoroughly / in detail **II.** *s.*: ~ **mağazası (kişi üçün)** hatter's, **(qadın üçün)** millinery's, millinery establishment
**papaqçı** *i.* hatter, hat-maker
**papaqçılıq** *i.* hatting, trade of a hat-maker
**papaqlı** *s.* (*i.s.*) with a hat on, (*i.s.*) wearing a hat
**papaqlıq** *i.* skin (sheepskin) fit for papakh / hat
**papaqsız** *s.* hatless; (*i.s.*) without a hat
**papış** *i.* shoes for babies: ◊ **şeytana ~ tikmək** ≅ to be* able to disappoint the devil, to be* unusually sly / cunning
**papiros I.** *i.* cigarette; **bir paçka ~** a package / packet / pack of cigarettes; **~ çəkmək** to smoke **II.** *s.* cigarette; **~ qutusu** cigarette-case; **~ kötüyü** cigarette end; *d.d.* butt; **~ kağızı** cigarette-paper; **~ fabrikası** cigarette-factory
**papirosalışdıran** *i.* cigarette-lighter, lighter
**papirossatan** *i.* **(kişi)** *d.d.* cigarette man* / vendor; **(qadın)** *d.d.* cigarette girl / vendor
**papirosyandıran** *i. bax* **papirosalışdıran**
**papirus** *i.* **1.** *bot.* papyrus (*pl.* -ri) **2.** material used instead of paper
**para I.** *i.* money; **puldan - ~ dan çıxmaq** to spend* all one's money; **~ qazanmaq** to earn money **II.** *i.* half, piece, bit; **~ çörək** half of bread; **bir ~ adamlar** some people
**parad I.** *i.* parade; *hərb.* review; **~da iştirak etmək** to be* on parade; **idman ~ı** sports parade; **dəniz (qüvvələri) ~ı** naval review; **hava (qıvvələri) ~ı** air display; **~ qəbul etmək** to take* a parade **II.** *s.*: **~ forması** full dress / uniform
**parafin** *i.* paraffin
**parafin** *s.* paraffin **~ yağı** paraffin oil
**parafinləmək** *f.* to paraffin (*d.*)
**parafinlənmək** *f.* to be* paraffined
**paralamaq** *f.* to divide (*d.*) into two parts, to cut* into two parts
**paralanmaq** *f.* to get* divided into parts / halves, to be* divided into two parts
**paralatdırmaq** *f. bax* **paralatmaq**
**paralatmaq** *f.* to ask / force *smb.* to divide *smth.* into two parts / halves
**paralel I.** *i.* parallel; **~ işarəsi qoymaq** to draw* a parallel (between) **II.** *s.* parallel; **~ xətt** parallel line; **~ tirlər** *id.* parallel bars
**paralelepiped** *i.* parallelepiped
**paralelizm** *i.* parallelism
**paralellik** *i. bax* **paralelizm**
**paraleloqram** *i. riyaz.* parallelogram
**parametr** *i.* **mat** parameter
**para-para** *i.* piece, bit; **~ etmək** to break* to pieces; **~ olmaq** to be* broken to pieces; **ürəyi / qəlbi ~ olmaq** to be* awfully / sad, to show a great-mercy (to)
**paraşüt I.** *i.* parachute; **poçt ~ü** mail parachute; **~ü yığmaq** to rig a parachute; **~lə tullanma** parachute jump(ing); **~lə yerə enmə** parachute landing; **~lə tullanmaq** to jump with parachute **II.** *s.* parachute; **~ desantı** detachment of parachute troops; **~ qoşunu** parachute troops, paratroops, **~ idmanı** parachute jumping
**paraşütçü** *i.* parachute jumper, parachutist, **həmdə** *hərb.* paratrooper; *amer.* parachuter
**paraşütizm** *i.* parachute jumping
**parazit I.** *i.* **1.** *biol.* parasite; **2. (adam** *haq.***)** parasite; sponger; **3. (ziyanvericilər)** bug, bed-bug, louse*, tick **II.** *s. biol.* parasitic, parasitical; **~ xəstəliyi** parasitic disease: **~ həyat** parasitical life; **~ köbələk** parasitic toadstool; **~ bitki** a parasitic plant
**parazitizm** *i.* **1.** *biol.* parasitism; **2. (adama aid)** sponging, parasitism
**parazitlik** *i.* **1.** *bax* **parazitizm**; **2.**: **~ etmək** to parasitize, to live parasitically
**parazitologiya** *i.* parasitology
**parç** *i.* cup, mug; **(böyük**, **qalaylanmış və yaxud gümüş)** tancard; **balaca ~** noggin [ˈnɔgın]; **çini ~** china cup; **bir ~ su** a mug of water
**parça I.** *i.* piece; **(nəyinsə hissəsi)** piece, sheet, bit; **(qənd)** lump; **(sabın)** cake; **(çörək)** slice; **bir ~ çörək** a slice of bread; **bir ~ qənd** a lump of sugar; **bir ~ kağız** a piece / a sheet of paper **II.** *i. toxuc.* material, cloth, fabric, textile, stuff; **kostyum üçün ~** suiting; **şalvar üçün ~** trousering; **göynək üçün ~** shirting; **əl-üz dəsmalı üçün ~** towelling; **ipək ~** silk (cloth); **ipək ~lar** silks; **yun ~** woollen cloth; **toxunma ~** knitted fabric
**parçalamaq** *f.* to tear* (*d.*), to crush (*d.*), to shatter; to break*; **(balaca hissələrə)** to splinter (*d.*); to split* up (into); **taxtanı**

~ to split* a board; **düşmənin cəbhəsini** ~ to break* the enemy front

**parçalanmaq** *f.* to become* broken / smashed to pieces; to become* / to get* shattered

**parçalaşmaq** *f. bax* **parçalanmaq**

**parçalatmaq** *f. bax* **parçalatdırmaq**

**parçalatdırmaq** *f.* to ask / to force *smb*. to break / to shatter (*d*.) to pieces

**parça-parça** *z.* piece by piece; ~ **yemək** to eat* piece by piece; ~ **olmaq** to be* broken to pieces; ~ **etmək** to break* to pieces; to tear* to pieces

**pardaq** *i.* polish; burnish; **yaxşı** ~ a high polish

**pardaqçı** *i.* polisher; burnisher; **döşəmə ~sı** a floor polisher

**pardaqlamaq** *f.* to polish (*d*.); to burnish (*d*.); **şüşəni** ~ to polish glass; **mebeli** ~ to polish the furniture

**pardaqlanmaq** *f.* to become* polished / burnished

**pardaqlatdırmaq** *f.* to ask / to force *smb*. to polish (*d*.)

**pardaqlatmaq** *f. bax* **pardaqlatdırmaq**

**pardaqlayıcı** *s.* polishing; ~ **dəzgah** polishing machine; buffing machine

**parıldamaq** *f.* to shine*; to sparkle; to twinkle; to glitter; **(qamaşdırıcı)** to glare; **Günəş altında qar (almaz kimi) parıldayır** The snow glitters (like diamonds) in the sun, **Sevincdən onun gözləri parıldayırdı** Her / His eyes were sparkling with joy; **Günəş parıldayır** The sun shines; **Qızıl günəş altında parıldayır** Gold shines in the sun

**parıldaşmaq** *f.* to twinkle, to shimmer; **Ulduzlar dumanın arasından parıldaşırdı** The stars shimmered through the mist; **Böyük şəhərin işıqları uzaqdan parıldaşırdı** The lights of a big town twinkled in the distance

**parıldatmaq** *f.* **1.** to add / to give lustre to *smth*.; to throw* / to shed* lustre on *smth*. **2.** to polish (*d*.)

**parıltı** *i.* lustre, brilliance, brilliancy, glitter, gloss, twinkling, shimmering; **günəşin ~sı** brilliance / brightness of the sun; **poladın ~sı** glitter of steel; **ipəyin ~sı** the gloss of silk

**parik** *i.* wig; ~ **qoymaq** / **geymək** to wig, to wear* a wig

**park** *i.* **1.** park; **mədəniyyət və istirahət ~ı** Park of Culture and Rest, Recreation Park; ~ **salmaq** to lay* out a park; **2. (nəqliyyat üçün)** fleet, stock; **avtomobil ~ı** fleet of motor vehicles; **traktor ~ı** fleet of tractors; **vaqon ~ı** rolling stock; **təyyarə ~ı** flying stock

**parket I.** *i.* parquet [ˈpa:keı] **II.** *s.*: ~ **pərçimi** parquet-block; ~ **döşəmə** parquet-floor, parquetry

**parketçi** *i.* parquet-floor layer

**parketləmək** *f.* to parquet (d); **otağı** ~ to parquet a room

**parketlənmək** *f.* to be* parqueted

**parketlətdirmək** *f. bax* **parketlətmək**

**parketlətmək** *f.* to ask / to cause *smb*. to parquet (*d*.); to have* (*d*.) parqueted

**parlaq** *s.* bright; **(alov)** blazing; **(rəng)** gaudy; *məc*. striking; brilliant; ~ **işıq** bright light; ~ **rəng** bright colour; ~ **nümunə** striking example; ~ **istedad** brilliant talent; ~ **qələbə** signal / brilliant / splendid / magnificent victory; ~ **günəş** the shining sun

**parlaqlatmaq** *f.* to add lustre (to); to throw* / to shed* lustre (on)

**parlaqlıq** *i.* brightnees; lustre, brilliance, brilliancy; **şöhrətin parlaqlığı** lustre of one's fame; **ulduzların parlaqlığı** the brightness of stars; **lampanın parlaqlığı** the brilliance of lamp; **ağılın** / **zəkanın parlaqlığı** brilliance of mind

**parlamaq** *f. bax* **parıldamaq**

**parlament I.** *i.* parliament; **Britaniya ~i** the British Parliament **II.** *s.* parliament; parliamentary; ~ **qanunu** Act of Parliament; ~ **iclası** meeting of parliament; ~ **üzvü** member of parliament **(qısa forması** MP); ~ **üzvü olmaq** to have* a seat in parliament; ~ **seçkiləri** parliamentary elections

**parlamentarizm** *i.* parliamentarism

**parlamentçi** *i.* parliamentarian

**parlamentli** *s.* parliamentary; ~ **quruluş** parliamentary system

**parlatmaq** *f. bax* **parıldatmaq**

**paroxod I.** *i.* steamer; **(orta həcmli)** steamboard; **dəniz ~u** steamship; **okean ~u** ocean-liner; **sərnişin ~u** passenger-ship;

liner; **yedək ~u** steam-tug **II.** *s.* steamship, steam (er); **~ rabitəsi** steamship communication, steam(er)-service

**paroxodçuluq** *i.* steam navigation; **(idarə)** steamship line

**parol** *i.* password, parole, countersign, watchword

**parovoz I.** *i.* engine, steam-engine, railway engine; *amer.* locomotive; **manevr ~u** shunting engine **II.** *s.* engine, steam-engine, railway engine; *amer.* locomotive; **~ deposu** locomotive depot / shed; **~ briqadası** engine-crew; *amer.* locomotive-crew; **~ təmiri** steam-engine repair; locomotive reparing

**parovozqayıran** *s.* engine-building; **~ zavod** engine-building works; *amer.* locomotive works

**parovozqayırma** *fi.* engine-building

**parovozsürən** *i.* engine-driver; *amer.* locomotive-driver; engineer

**partbilet** *i.* **(partiya bileti)** party membership card, party card

**partbüro** *i.* **(partiya bürosu)** party bureau

**parter** *i. teatr.* the pit; **(qabaq cərgələr)** the stalls *pl.*

**partıldamaq** *f.* to utter a strong sound as a result of burst

**partıltı** *i.* crash, roar, thunder; **artilleriyanın ~sı** the roar of guns, crash of artillery; the thunder of cannon

**partiya I.** *i.* **1.** party; **siyasi ~ lar** political parties; **~ ya mənsub olmaq** to belong to a party; **2. (müəyyən miqdar mal)** party; **Biz bir partiya ayaqqabı aldıq** We received a party of shoes; **3. (oyunda)** party; **Gəlin bu partiyanı yenidən oynayaq** Let's play this party again **II.** *s.* party; **~ bileti** party card; **~ üzvlük haqqı** party dues; **~ üzvü** member of party; **~ rəhbəri** party leader; **~ təşkilatı** party organization; **~ siyasəti** party policy; **~lar arasında mübarizə** party warfare; **~ kollektivi** party collective; **~ konfransı** party conference; **~ işi** party work; **~ iclası** party meeting; **~ qurultayı** party congress; **~ məktəbi** party school; **~ komitəsi** party committee; **~ stajı** length of party membership; **~ intizamı** party discipline; **~ tapşırığı** party assignment; **~ maarifi** party education

**partiyaçı** *i.* member of the party; **O partiyaçıdır** He is a member of the party

**partiyalılıq** *i.* **1. (partiya mənsub olma)** party-membership; **2.** (*elm* və *ədəb.*) party spirit, party principle; **elm**, **fəlsəfə və s.** ~ party spirit in science, philosophy, *etc.*

**partiyasız I.** *i.* non-party man*; non-party woman*, non-party people **II.** *s.* non-party; **~ şəxs** non-party person

**partiyasızlıq** *i.* the state of being non-party / non-party member

**partizan** *i.* partisan, guer(r)illa; **qırmızı** ~ Red partisan

**partizan** *s.* partisan; **~ müharibəsi** partisan / guer(r)illa warfare; **~dəstəsi** partisan / guer(r)illa detachment

**partlayan** *s.* explosive; **~ samitlər** *dilç.* explosive consonants; **~ səs** explosive sound

**partlayıcı** *s.* explosive; **~ maddələr** explosive substances / materials; **~ qüvvə** explosive force; **~ qaz** explosive gas

**partlayış** *i.* explosion, burst; **~ etmək** to set* off an explosion; **atom (hidrogen) bombasının ~ı** explosion of atom **(hidrogen)** bomb; **vulkan ~ı** volcanic explosion; **top gülləsinin ~ı** a burst of a shell

**partlamaq** *f.* to burst*; to blow* up; **(güllə)** to explode, to burst*; **(qaz)** to explode; **Buxar qazanı partladı** The boiler burst; **Gəmi partladı** The ship blew up; ◊ **Onun ürəyi partlayır** His heart is breaking; **bir şeyə görə başı** ~ to puzzle over *smth.*, to rack / to cudgle one's brains over *smth.*; **O birdən partladı** He burst at once, He exploded at once

**partlatmaq** *f.* to blow* up (*d.*); **(dinamitlə)** to dynamite (*d.*); **(qayanı və s.)** to blast (*d.*); **(partlayıcı maddəni)** to set* off a charge

**pas** *i.* rust; **~ kəsmək** to become* rusty; **~ kəsmiş** eaten away with rust

**pasaparan** *i.* rust remover

**paslanmaq** *f.* to rust, to become* / to get* rusty; **Bıçaq paslanmışdır** The knife has become rusty

**paslanmayan** *s. metal.* rustless; non-corrosive; rust-resisting; **~ polad** stainless steel

**paslı** *s.* rusty; **~ iynə** a rusty needle; **~ bıçaq** a rusty knife; **~ mıx** a rusty nail; **~ söz** *məc.* rusty word / expression

**pasport I.** *i.* **1.** passport; **diplomatik ~** diplomatic passport; **2.** *tex.* certificate **II.** *s.* passport; **~ şöbəsi** passport office

**passiv** *s.* passive; *müh.* liabilities *pl.*; **~ növ,** *qram.* passive voice; **~ qalmaq** to remain passive; **hava hücumuna qarşı ~ müdafiə** passive air defence; **~ rol** passive role; **~ balans** *iqt.* unfavourable balance

**passivlik** *i.* passiveness, passivity; passivism

**paşa** *i.* pasha (the title of an army or government officer of high rank in Turkey or Egypt in former times)

**paşalıq** *i.* **1.** the rank or title of pasha; **2.** *tar.* the administrative division ruled by pasha

**pat** *i. şahm.* stalemate; **~ etmək** to stalemate (*d.*)

**patava** *i.* **arx** onoocha (cloth wrapped round feet in bast-shoes); foot-binding

**patefon I.** *i.* gramophone **II.** *s.* gramophone; **~ valı** gramophone record

**patent I.** *i.* patent (for, of), licence (of); **~ almaq** to take* out a patent; **~ vermək** to grant a patent; **ixtira üçün ~** a patent for an invention **II.** *s.* patent; **~ sahibi** patentee; **~ qanunu** patent law; **~ bürosu** patent office; **~ hüququ** patent-right; **~ vergisi** patent dues *pl.*

**patentli** *s.* patent; **~ dərman** patent medicine (for)

**patentsiz** *s.* unlicensed; (*i.s.*) without patent

**patologiya** *i.* pathology

**patoloji** *s.* pathologic (al)

**patriarx** *i.* patriarch [-k]

**patriarxal** *s.* patriarchal [-k-]

**patriarxallıq** *i.* patriarchal character, patriarchalism

**patriarxat** *i. tar.* patriarchy [-k-]

**təhər** *i.* **1.** mode, manner; way, method; **bu ~lə** in this way; **başqa ~lə** in a different way; **Nə təhər?**; How **Heç bir ~lə** By no means; **2.** possibility, opportunity; **~i olmamaq** to have* no possibility / opportunity; **~ə düşmək** to become* normal; **~ə salmaq** to put* in order (*d.*), to arrange (*d.*), to put* right (*d.*), to adjust (*d.*)

**təhərli** **I.** *s.* proportionate, commensurate, commensurable, fitting, suitable **II.** *z.* proportionately, fittingly

**təhərlilik** *i.* suitableness, suitability, fitness

**təhərsiz** *s.* **1.** disproportionate, deformed, featureless, lacking in imagery; **2.** ugly

**təhərsizlik** *i.* **1.** disproportion; **2.** ugliness

**təhkim** *i.* attachment; **~ etmək** to attach (*d.* to); **geri qalan şagirdi qabaqcıla ~ etmək** to attach a backward pupil to a more advanced; **~ olunmaq** to be* attached (to)

**təhkimçi** *i.* **1.** a person attached to some work; **2.** landlord advocating serfdom / serf-ownership

**təhkimçilik** **I.** *i.* serfdom, serfage, serf-ownership **II.** *s.*: **~ hüququ** serfdom, serfage

**təhkimli** **I.** *i.* serf **II.** *s.* serf; **~ əməyi** serf labour; **~ kəndli** serf

**təhqiq** *i.* investigation, examination; *hüq.* inquest, inquiry; **~ etmək** to investigate (*d.*), to look (into), to hold* an inquiry; **~ edilmək** to be* investigated / looked into

**təhqiqat** *i.* **1.** examination; investigation; *hüq.* trial, inquest, inquiry; **məhkəmə ~ı** court examination; **~ aparmaq** to hold* an inquiry (into); to investigate (*d.*), to look into; **2.** questioning, interrogation

**təhqiqatçı** *i.* investigator, inspector; interrogator

**təhqir** *i.* insult; **(kobud)** outrage; humiliation; **~ etmək** to insult (*d.*); **(kobudcasına)** to outrage (*d.*), to humiliate (*d.*); **~ə məruz qalmaq** to bear* insult; **~ olunmaq** to be* insulted; **(kobudcasına)** to be* outraged / humiliated; to take* offence, to feel* insulted

**təhqiramiz** *s.* insulting, abusive; humiliating; **~ məktub** an abusive letter; **~ nitq** insulting speech; **~ vəziyyət** a humiliating situation

**təhqiranə** *z.* abusively, with an insulting manner / way

**təhqiredici** *s.* *bax* **təhqiramiz**

**təhqirli** *s.* *bax* **təhqiramiz**

**təhlil** *i.* analysis (*pl.* -ses); (*qram.*) parsing; analysis; **~ etmək** 1) *qram.* **(nitq hissələrinə görə)** to parse (*d.*); **(cümlə üzvlərinə görə)** to analyse (*d.*); 2) to look (into), to investigate (*d.*), to examine (*d.*)

**təhlili** *s.* analytic(al); **~ həndəsə** analytic geometry

**təhlükə** *i.* **1.** danger; jeopardy; **~də** in danger, in jeopardy; **papiros çəkməyin ~sı** the danger of smoking; **~də olmaq** to be* in danger / in jeopardy; **~dən uzaq olmaq** to be* out of danger; **2.** threat, menace; **müharibə ~si** the threat of war, menace of war; **~ altında olmaq** to be* under the threat; **~ altına almaq** to threaten (*d.*), to jeopardize (*d.*)

**təhlükəli** **I.** *s.* dangerous, risky, riskful, perilous; **~ adam** a dangerous person; **~ yer** a dangerous place; **~ xəstəlik** a dangerous illness; **~ iş** a risky job; **~ yoxuş** perilous ascent; **~ oyun** risky game **II.** *z.* dangerously, riskily, perilously; **~ sürmək (maşını)** to drive* dangerously

**təhlükəlilik** *i.* riskiness, perilousness

**təhlükəsiz** **I.** *s.* out of danger, not dangerous; safe, safety; **~ yer** safe place; **~ ülgüc** safety razor **II.** *z.* safely; **~ gəlmək** to come* safely

**təhlükəsizləşdirilmək** *f.* to be* made safe

**təhlükəsizləşdirmək** *f.* to make* safe

**təhlükəsizləşmək** *f.* to become* safe

**təhlükəsizlik** **I.** *i.* safety; **(ictimai)** security; **~də** in safety, out of danger; **dövlət təhlükəsizliyi** State security; **şəxsi ~** personal security **II.** *s.* security; safety; **~ orqanları** security services; **~ tədbirləri** security measures; **~ sistemi** security system, system of collective security; **~ texnikası** indus-

trial safety measures / provisions; **Dövlət ~ Komitəsi** State Security Committee; **~ kəməri** safety belt, seat belt; **~ Şurası** Security Council

**təhrif** *i.* distortion, perversion; misrepresentation; **~ etmək** to pervert (*d.*), to distort (*d.*), to misrepresent (*d.*), to misinterpret (*d.*); **həqiqəti ~ etmək** to distort the truth; **bir kəsin sözünü ~ etmək** to pervert / to distort *smb.*'s word; **faktı ~ etmək** to pervert / to misrepresent the fact; **~ olunmaq** to be* / to get* distorted

**təhrifçi** *i.* one who distorts / misrepresents

**təhrifçilik** *i.* the act of distorting / misrepresenting

**təhrifedici** *s.* distorting, perverting

**təhrifedilmiş** distorted, perverted; misrepresented

**təhrik** *i.* instigation, incitement, setting-on; inspiration; **~ etmək** to incite (*d.* to), to instigate (*d.* to), to set* on (*d.*); **bir kəsi cinayətə ~etmək** to instigate *smb.* to a crime, to incite *smb.* to crime

**təhrikçi** *i.* instigator; *d.d.* fire-brand

**təhrikedici** *s.* instigating, inciting, encouraging

**təhriri** *s.* written; **~ formada** in written form, in writing

**təhsil I.** *i.* education; **ibtidai ~** primary / elementary education; **orta ~** secondary education; **ali ~** higher education, university education; **ümumi icbari orta ~** universal compulsory secondary education; **~ vermək** to educate (*d.*), to give* an education (*d.*); **~ almaq** 1) to be* educated; 2) *bax* **oxumaq (3-cü mənada) II.** *s.* educational; education; **~ müəssisəsi** educational establishment / institution; **~ hüququ** right to education; **~ mərkəzi** education center

**təhsilli** *s.* educated; **~ adam** educated person, person / man* of education

**təhsillilik** *i.* the state of being educated; erudition

**təhsilsiz** *s.* uneducated, unlearned; ignorant

**təhsilsizlik** *i.* lack of education; ignorance

**təhvil** *i.* **1. (şəhəri və s.)** surrender; **2.** handing (to), delivery (of to); **~ almaq** to take* over (*d.* from); **bir kəsdən işi ~ almaq** to take* over *smb.*'s duties, to take* over duties from *smb.*; **~ vermək** to turn over; **(şəhəri, qalanı və s.)** to surrender (*d.*), to leave* (*d.* in), to return (*d.*); **işi ~ vermək** to turn over one's duties

**təxəllüs** *i.* pseudonym; **ədəbi ~** pen-name; **(aktyor)** stage-name

**təxəyyül** *i.* imagination

**təxir** *i.* postponement, delay; **~ə salmaq** to defer (*d.*), to postpone (*d.*); to put* off (*d.*); to cancel (*d.*); to adjourn [əˊdʒə:n] (*d.*), to delay (*d.*), to put* / to set* aside (*d.*), to lay* aside (*d.*); **borcu ödəməyi ~ə salmaq** to defer payment of debts; **danışığı ~ə salmaq** to adjourn the talks; **~ə düşmək** to be* postponed / delayed

**təxirəsalınmaz** *s.* pressing, urgent; **~ iş** urgent matter; **~ kömək** first aid

**təxirəsalınmazlıq** *i.* urgency

**təxirsiz** *z.* urgently, immediately

**təxmin** *i.* supposition, conjecture, surmise; guess-work; **~ etmək** to guess (*d.*), to surmise (*d.*), to conjecture (*d.*)

**təxminən** *z.* approximately, nearly, roughly

**təxmini I.** *s.* approximate, hypothetical, conjectural, presumable **II.** *z.* approximately, presumably, hypothetically

**təxminilik** *i.* approximateness

**təxribat** *i.* diversion [daı-]; sabotage [-ta:ʒ], subversive activity

**təxribatçı** *i.* saboteur [-tə:], wrecker

**təxribatçılıq** *i.* subversiveness, the act of sabotage; **~ etmək** to commit sabotage

**təxsisat** *i.* loan, advance-money

**tək I.** *s.* **1.** odd **~ rəqəmlər** odd numbers; 1,3,5,7 **və s. tək rəqəmlərdir** 1,3,5,7 *etc.*, are odd numbers; **həftənin ~ günləri** odd days of the week; **2.** lonely, lone, solitary, desolate **~ həyat** a lonely life; **~ atlı** a solitary / lone horseman*; **~ ağac** a solitary / lone tree; **~ məzar** a solitary / lone grave; **~ dağ kəndi** a lonely mountain village; **3. (ailəsiz)** single, unmarried; **~ kişi (arvadsız)** a single / unmarried man*; **~ arvad (ərsiz)** single / unmarried woman*; **~ analar** single / unmarried mothers; **4. (bircə)** only; **~ uşaq** / **ağac** / **kitab və s**. an only child / tree / book, *etc*. **II.** *z.* **1.** alone, only, solitarily; **~ yaşamaq** / **işləmək** / **oturmaq** to live / to work / to sit alone; **~ buraxmaq**

to leave / to let alone; **O tək yaşayır** He / She lives alone; **Tək çörəklə yaşamaq olmaz** You can't live on bread alone / only; **2.** as, like; **bül-bül ~ oxumaq** to sing* like a nightingale; **Onlar bir adam tək ayağa qalxdılar** They rose together as / like one man* **III.** *bağ.* as soon as; *scarcely*... when, *hardly*...when, no *sooner*... than; **Müəllim gələn tək dərs başladı** The lesson began as soon as the teacher came; **Mən vağzala çatan tək qatar gəldi** Hardly had I reached the station, when the train arrived; **Yağış kəsən tək biz yola düşdük** Scarcely had the rain stopped, when we started; **Biz otağa girən tək telefon zəng çaldı** No sooner had we entered the room, than the telephone rang **IV.** *qoş.* **uşaq** / **arvad ~** as / like a child * / a woman*

**təkallahlı** *s. fəls.* monotheistic

**təkallahlıq** *i.* monotheism

**təkaltı** *i.* sweat-cloth

**təkamül I.** *i.* evolution [i:və-] **II.** *s.* evolutional, evolutionary; **~ nəzəriyyəsi** theory of evolution, doctrine of development; **~ etmək** to evolve

**təkamülçü** *i.* evolutionist

**təkamülçülük** *i.* evolutionism

**təkan** *i.* push; **(qatar)** jolt, bump, jerk; **(zəlzələdə)** shock, (earth) tremour; *məc.* incitement, stimulus (*pl.*-li); **~ vermək** to give* a push (*d.*), *məc.* to stimulate (*d.*), to grant (*d.*); **zəif ~** a slight push

**təkatlı** *s.* one-horse

**təkavarlı** *s.* one-oared

**təkayaqlı** *s.* one-legged

**təkbarmaq** *i.* **(əlçək)** mitten

**təkbaşına** *z.* independently, without assistance, on one's own; **~ işləmək** to work without assistance, to work on one's own

**təkbətək** *z.* **(mübarizədə)** face to face (with); **(söhbətdə)** privately, in private; **~ mübarizə aparmaq** to fight* face to face

**təkbir** *z.* sometimes; seldom, at times, from time to time; now and then

**təkcə I.** *s.* only, sole **II.** *z.* only; solely, merely, just; **O təkcə bilmək istəyir** He / She only / merely / just wants to know

**təkcə-təkcə** *z. bax* **tək-tək**

**təkcinsli** *s. bot.* unisexual

**təkcinslilik** *i. bot.* the state of being unisexual

**təkdəbir** *s. bax* **təkbir**

**təkdənbir** *z. bax* **təkbir**

**təkdırnaqlı** *s. zool.* solidungulate, solid-hoofed, soliped

**təkə** *i.* he-goat, billy goat (older than two years)

**təkəbbür** *i.* haughtiness, loftiness, arrogance, superciliousness; **~ satmaq** *bax* **təkəbbürlənmək**

**təkəbbürlə** *z.* haughtily, superciliously

**təkəbbürlənmək** *f.* to swagger, to boast

**təkəbbürlü I.** *s.* haughty, arrogant, lofty, supercilious; overweening; *d.d.* high and mighty; **~ təbəssüm** a lofty smile **II.** *z. bax* **təkəbbürlə**

**təkəlli I.** *i.* a large basin (made of copper) **II.** *z.* with one hand only, with the help of one hand

**təkəmseyrək** *z.* here and there, sometimes, from time to time, very seldom

**təkər** *i.* wheel; **ehtiyat ~** spare wheel; **yağlanmış ~** oiled wheel ◊ **taleyin ~i** Fortune's wheel, wheel of fortune

**təkərcik** *i. bax* **təkərək**

**təkərçi** *i.* wheel-wright

**təkərçilik** *i.* profession / job of a wheel-wright

**təkərək** *i.* little wheel

**təkərli** *s.* wheeled

**təkərsiz** *s.* (*i.s.*) without a wheel, wheelless

**təkərvarı** *s.* wheel-shaped, wheellike

**təkəsaqqal** *s.* (*i.s.*) with / having long and thin beard (as of a billy-goat's)

**təkəsaqqallı** *s. bax* **təkəsaqqal**

**təkətək** *z. bax* **təkbətək**

**təkgöz** *s.* one-eyed, single-eyed; *elm.* monocular

**təkgözlü** *s. bax* **təkgöz**

**təkhakimiyyətli** *s.* autocratic

**təkhakimiyyətlilik** *i.* autocracy, absolute rule

**təkhecalı** *s.* monosyllabic; **~ sözlər** monosyllabic words

**təkhecalılıq** *i.* the quality of being monosyllabic

**təkhədli** *s. riyaz.* simple

**təkhədlilik** *i. riyaz.* the quality of being simple

**təkhüceyrəli** *s. biol.* unicellular, single cell

**təkhüceyrəlilik** *i.* the quality of being single-cell
**təki** *əd.* **1.** *bax* **kimi**; **2.** if only; **təki o burada olaydı** If only he were here
**təkid** *i.* insistence; persistence; **onun ~i ilə** at his urgent request; ~ **etmək** to insist (on, upon+ger); to persist (in+*ger.*); **öz dediyində** ~ **etmək** to get* one's way
**təkidlə** *z.* insistently, persistently, urgently
**təkidli** *s.* persistent, insistent; ~ **cəhdlər** persistent attempts; ~ **məktub** an insistent message / letter
**təkidlilik** *i.* insistence, persistence
**təkin** *əd. d.d.* **bax təki**
**təkqanad** *s.* one-winged
**təkqanadlı** *s. bax* **təkqanad**
**təkqat** *s.* one folded
**təkqatlı** *s. bax* **təkqat**
**təkqol** *s.* one-armed
**təkqollu** *s. bax* **təkqol**
**təkqulp** *i.* one-handle
**təkqulplu** *s.* (*i.s.*) with one handle
**təkləmək** *f.* to isolate (*d.*)
**təklənmək** *f.* to be* isolated, to get* / to become* isolated
**təkləşdirmək** *f. bax* **təkləmək**
**təkləşmək** *f.* to get* / to become* isolated
**təklətmək** *f.* to cause *s.o.* to isolate (*d.*)
**təklif** *i.* **1.** offer, suggestion; **(evlənmək** *haq.***)** proposal; ~ **etmək** to make* an offer; **(evlənmək üçün)** to propose (to); **~i qəbul etmək** to accept an offer; **(evlənmək barədə)** to accept a proposal; **sülhsevər** ~ peaceful proposal; **2. (iclasda)** proposal; motion; ~ **irəli sürmək** to propose / to move a motion; **~i müzakirə etmək** to discuss a proposal; **~i rədd etmək** to reject / to turn down a proposal; **~ə tərəfdar çıxmaq** to support the motion; **tələb və** ~ demand and supply; **Tələb təklifdən artıqdır** Demand exceeds supply
**təklifsiz** *s.* unceremonious, (too) familiar
**təklifsizcə** *z.* unceremoniously; impudently
**təklik** *i.* **1.** loneliness, seclusion; **2.** one, unity; **3.** one-manat note; **4.** solitude, retirement; **~də qalmaq** to find* oneself isolated / in isolation
**təklikdə** *z.* alone, solitarily; ~ **yaşamaq** to live in solitarily / alone, to live in solitariness; ~ **oturmaq** to sit alone; **tamamı ilə** ~ all / quite alone; ~ **qalmaq** to be* alone, to be* left alone, to find* oneself in isolation
**təklülə** *s.* single-barrelled; ~ **silah** single-barrelled gun
**təklüləli** *s. bax* **təklülə**
**təkmənalı** *s. bax* **birmənalı**
**təkmənalıq** *i. bax* **birmənalıq**
**təkmil** *i.* **1.** completion; **2.** perfection; **3.** all, the whole of; ~ **etmək** to complete (*d.*); to conclude (*d.* with), to finish (*d.*), to improve (*d.*)
**təkmilləşdirilmək** *f.* to become* / to get* perfected; to cause to become / to get improved
**təkmilləşdirmə** *fi.* perfection; additional training; **ixtisası** ~ **kursu** course for improving one's qualification, extension course
**təkmilləşdirmək** *f.* to perfect (*d.*), to improve (*d.*); **öz biliyini** ~ to improve one's knowledge; **modeli** ~ to perfect the model
**təkmilləşmək** *f.* to improve oneself, to be* / to become* improved
**təknə** *i.* trough [trɔf]
**təknəcik** *i.* little / small trough
**təknəçi** *i.* trough-maker
**təknəvarı** *s.* trough-shaped, troughlike
**təkrar I.** *i.* repetition; **(çox dəfə)** reiteration; ~ **etmək** to repeat (*d.*); **(çox dəfə)** to reiterate (*d.*); **sözü** ~ **etmək** to repeat the word; **səhvi** ~ **etmək** to repeat the mistake / error; "**Çıxın gedin! Çıxın gedin!**" **deyə o təkrar etdi** "Go away!" "Go away!" he / she reiterated **II.** *z.* repeatedly, more than once, again and again
**təkraredilməz** *s.* unique; inimitable; ~ **gözəllik** unique beauty
**təkrarən** *z.* repeatedly; again and again; ~ **demək** to say* repeatedly / again and again
**təkrarlama** *fi.* repetition; reiteration
**təkrarlamaq** *f.* to repeat (*d.*); to reiterate (*d.*); **dərsi** ~ to repeat the lesson
**təkrarlanmaq** *f.* to be* repeated; **(çox dəfə)** to be* reiterated
**təkrarlatdırmaq** *i. bax* **təkrarlatmaq**
**təkrarlatmaq** *f.* to cause *smb.* to repeat (*d.*); to cause *smb.* to reiterate (*d.*)
**təkrarolunmaz** *s. bax* **təkraredilməz**

**təkrar-təkrar** *z. bax* **təkrar II**
**təksəsli** *s.* one-voiced
**tək-tək** *z.* **1.** one by one; **2.** *bax* **gec-tez**
**tək-təkinə** *z. bax* **təkcə II**
**tək-tənha** *z. bax* **yalqız II**
**təktərkibli** *s. qram.* one-member; ~ **cümlə** a one-member sentence
**təktəsərrüfatçı** *i.* individual peasant
**tək-tük** *z. bax* **təkbir**
**təkzib** *i.* refutation, disproof, denial; **bəyanatın ~i** refutation of a statement; ~ **etmək** to refute (*d.*), to disprove [-u:v] (*d.*)
**təkzibedilməz** *s.* irrefutable; undeniable, indisputable, incontestable; ~ **sübut** incontrovertible evidence; ~ **arqument** an irrefutable argument; ~ **sübut** irrefutable proof
**təkzibedilməzlik** *i.* the state or quality of being irrefutable / incontestable
**təkzibolunmaz** *s. bax* **təkzibedilməz**
**təkzibolunmazlıq** *i. bax* **təkzibedilməzlik**
**təqaüd I.** *i.* **1.** grant; **(adlı təqaüd)** scholarship; **(aspirantlar üçün təqaüd)** research grant; ~ **almaq** to get* a grant; ~ **vermək** to give* a grant; **2.** pension; **qocalığa görə** ~ old age pension; **şikəstliyə görə** ~ disability pension; **~də olmaq** to be* on a pension; ~ **təyin etmək** to grant a pension; **~ə çıxmaq** to retire on a pension, to be* pensioned off **II.** *s.* pension; pensionable; ~ **kitabı** pension-book; ~ **yaşı** pension age, pensionable age
**təqaüdçü** *i.* **1.** pensioner; **2. (tələbə)** grant-aided student; grant-holder
**təqdim** *i.* assignment, allotment; placing at *smb.*'s disposal; ~ **etmək** to present (*d.* i; with *d.*); **(tanış etmək)** to introduce (*d.* to); **İcazə verin özümü təqdim edim** Allow me to introduce myself
**təqdimat** *i.* presentation; representation
**təqdir** *i.* estimation; appraisal; appreciation; ~ **etmək** to estimate (*d.*), to appraise (*d.*); to approve (*d.*)
**təqdirəlayiq** *s.* estimable; (*i.s.*) worth of esteem; ~ **davranış** an estimable behaviour
**təqdis** *i.* **1.** respect, honouring, esteem; **2.** worship, reverence; ~ **etmək** 1) to honour (*d.*), to respect (*d.*), to esteem (*d.*); 2) **(müqəddəs kimi)** to revere (*d.*), to sanctify (*d.*)
**təqib** *i.* **1.** pursuit; chase; **2. (sıxışdırma)** persecution, victimization; **3.** *hüq.* prosecution; ~ **etmək** 1) **(arxasınca qaçmaq)** to pursue (*d.*), to chase (*d.*), to be* after; *məc.* to haunt (*d.*); **Bu fikir məni təqib edir** This thought haunts me; 2) **(sıxışdırmaq)** to persecute (*d.*); to victimize (*d.*); 3) **(məhkəmə yolu ilə)** to prosecute (*d.*)
**təqibçi** *i.* persecutor
**təqlid** *i.* imitation; ~ **etmək** to imitate (*d.*)
**təqlidçı** *i.* imitator
**təqlidçilik** *i.* the act of imitation
**təqribən** *z.* approximately; roughly
**təqribi** *s.* approximate; rough; ~ **rəqəm** approximate figure; ~ **miqdar / say** approximate number
**təqsim** *i. bax* **bölmə**
**təqsir** *i.* fault, guilt; **bir kəsin ~i üzündən / ucundan** through *smb.*'s fault; **~ini boynuna almaq / götürmək** to admit / acknowledge one's guilt; *hüq.* to plead guilty; **~ini boynuna almamaq** to deny one's guilt; *hüq.* to plead not guilty; **~i öz üzərinə götürmək** to take* the blame upon oneself; **Bu sizin təqsirinizdir** It is your fault
**təqsirkar** *i.* the accused; culprit; *hüq.* defendant, **bir kəsin qarşısında ~ olmaq** to be* guilty towards *smb.*; **Mən təqsirkar deyiləm** It is not my fault, I am not guilty; **Heç kim təqsirkar deyil** It's nobody's fault, No one is to blame; **Onun təqsiri nədir?** What is his fault? ◊ **təntənənin ~ı** hero of the festivities, hero of the day
**təqsirkarlıq** *i.* guiltiness, culpability
**təqsirləndirən** *i.* accuser; *hüq.* prosecutor
**təqsirləndirilmək** *f.* to be* accused (*of.*), to be* charged (with); *hüq.* to be* prosecuted (for)
**təqsirləndirmək** *f.* **1.** to accuse (*d.* of), to blame (*d.*), to charge (*d.* with), to blame (*d.* for); **2.** *hüq.* to prosecute (*d.*), to indict [in′dait] (*d.*)
**təqsirlənmək** *f.* **1.** to be* blamed / accused / charged; **2.** *hüq.* to be* prosecuted / indicted
**təqsirli** *i. bax* **təqsirkar**
**təqsirlilik** *i. bax* **təqsirkarlıq**
**təqsirnamə** *i.* verdict of "guilty", (bill of) indictment; accusatory documents

**təqsirsiz I.** *s.* innocent, guiltless, blameless **II.** *z.* innocently, guiltlessly, blamelessly

**təqsirsizlik** *i.* innocence, guiltlessness, blamelessness

**təqvim I.** *i.* calendar; **hadisələrin ~i** calendar of events **II.** *s.* calendar; **~ planı** calendar plan; **~ ayı** calendar month

**təlaş** *i.* agitation, anxiety, alarm; emotion; fuss, confusion; **~ keçirmək** to be* agitated, to be* in agitation; to be* disturbed / worried / alarmed; to get* excited

**təlaşla** *z.* anxiously, worriedly, emotionally, with alarm

**təlaşlı** *s.* perturbed, anxious, agitated; **~ görkəm** troubled / perturbed look

**təlaşlılıq** *i.* the state of being anxious / worried / agitated

**təlaşsız** *s.* cool, imperturbable, unruffled, calm, not agitated

**təlaşsızlıq** *i.* the state of being cool / imperturbable / unruffled

**təlatüm** *i.* **1.** alarm; emotion; **(dənizdə)** choppiness; roughness; **Dənizdə təlatüm var** The sea is rough / choppy; **2.** *məc.* commotion, perturbation; **~ə gətirmək** to perturb (*d.*), to cause to worry greatly

**təlatümlü** *s.* **1.** choppy, rough; **Dəniz təlatümlüdür** The sea is choppy / agitated; **2.** *bax* **həyəcanlı I**

**tələ** *i.* trap; pitfall; snare; **siçan ~si** mousetrap; **bir kəsə ~ qurmaq** to set* *smb.* a trap; **~yə düşmək** to fall* into a trap, to be* trapped, to be* caught in a trap; **bir kəsi ~yə salmaq** to trap *smb.*

**tələb** *i.* demand [-ma:nd]; request; claim; requirement; **bir kəsin ~i üzrə** at *smb.*'s request, by *smb.*'s order; **qəti ~** urgent request; **məhkəmənin ~i əsasında** by order of the court; **bir kəsin ~ini yerinə yetirmək** to satisfy *smb.*'s demand, to meet* *smb.*'s demand; **~ irəli sürmək** to make* demands, to put* in claims; **~dən əl çəkmək** to give* up one's claim, to abandon / surrender one's claim; **bir kəsin ~i ilə razılaşmaq** to agree with *smb.*'s demands; **~ə cavab vermək** to meet* the requirements; **bir kəsin qarşısına ~ qoymaq** to make* demands of *smb.*; **zamanın ~ləri** demands of the time

**tələbat** *i.* want, necessity, need; requirement; **təbii ~** physical necessity; **həyati ~lar** vital requirements; **artan ~** rising requirement; **xalqın maddi və mənəvi ~ları** material and cultural needs of the people; **bir kəsin ~ını ödəmək** to meet* smb's need

**tələbə I.** *i.* student; **tibb institutunun ~si** medical student; **hüquq fakültəsinin ~si** law student; **tarix fakültəsinin ~si** history student; **tələbələr** *top. i.* the students **II.** *s.* student, student's; **~ yataqxanası** student's hostel; *amer.* dormitory; **~ kollektivi** student body

**tələbəlik I.** *i.* studentship **II.** *s.* **~ illəri** one's student years, one's time at the university; **mənim ~ illərimdə** in my college days

**tələbkar I.** *i.* pretender (to), claimant (to) **II.** *s.* **1.** exacting, exigent; **O, tələbkardır** He / She is exigent **2.** strict, stern; **~ müəllim** stern / strict teacher; **~ olmaq** to be* strict / stern

**tələbkarlıq** *i.* exactingness, insistence; demand, exigency, exigence

**tələbnamə** *i.* reqiusition; order

**tələf** *i.*: **~ olmaq** to perish; to be* killed; to be* lost; **vuruşmada ~ olmaq** to fall* in battle, to be* killed in battle; **~ etmək** to ruin (*d.*), to destroy (*d.*); to spoil (*d.*); to kill (*d.*)

**tələfat** *i.* losses; waste; **məhsul ~ı (yığım vaxtı)** harvesting losses; harvesting waste; **~ı azaltmaq** to cut* out waste; **insan qüvvəsinin ~ı** losses in manpower; **ciddi / böyük ~** serious losses; **böyük ~a məruz qalmaq** to suffer great losses

**tələffüz** *i.* pronunciation; articulation; **~ etmək** to pronounce (*d.*), to articulate (*d.*)

**tələfxərc** *i.* squanderer, spendthrift; **~ olmaq** to be* a squanderer / spendthrift

**tələfxərclik** *i.* the quality of being a squanderer / a spendthrift; **~ etmək** to squander

**tələquran I.** *i. d.d.* pettifogger **II.** *s.* pettifogging; **~ vəkil** pettifogging lawyer

**tələm-tələsik** *z. bax* **tələsik II**

**tələsdirilmək** *f.* to cause / to force *smb.* to hurry / to be in a hurry

**tələsdirmək** *f.* to hurry (*d.*), to press (*d.* for), to hasten (*d.*); **bir kəsi ~** to hurry *smb.* (+*inf.*); **cavab almaq üçün bir kəsi ~** to

press *smb*. for a reply; **Məni tələsdirməyin** Don't hurry me!

**tələsən** *s*. hasty, hurried, in a hurry; ~ **adam** a man* (who is always) in a hurry; **Tələsən təndirə düşər** *at. söz.* ≅ Hasty climbers have sudden falls

**tələsə-tələsə** *z. bax* **tələsik II**

**tələsik I.** *s*. hasty, hurried; ~ **qərar** hasty decision;~ **iş** hurried work **II.** *z*. hastily, hurriedly; in haste, in a hurry, in one's hurry

**tələsiklik** *i*. hastiness, hurry, haste, quick activity

**tələsmədən** *z*. slowly, without haste / hurry

**tələsmək** *f.* to hurry, to be* in a hurry, to hasten [heısn]; to make* haste; **işə** ~ to hurry to work; **qatara** ~ to hurry to catch a train; **Siz tələsməlisiniz** You must hurry, You must make haste; **Tələsin!** Make haste! Hurry up! Get a move on! **Tələsməyin!** Don't hurry! Take your time! **Siz hara tələsirsiniz?** Where are you hurrying to?

**təlx** *i*.: **ovqatı** ~ **olmaq** to feel* upset (over), to be* put out (over); to be* disappointed (at); to be* in low / bad spirits, to be* low-spirited

**təlxək** *i*. fool, jester; clown, buffoon

**təlxəklik** *i*. foolery, jest; buffoonery, clownishness; ~ **etmək** to jest with; to joke; to play the fool / the buffoon; **Təlxəklik etmə!** Don't play the fool / the buffoon!

**təliqə** *i*. (official) letter, memorandum (*pl*. **-da**); ~ **göndərmək** to send* a memorandum

**təlim** *i*. **1.** training; instruction; education; **savad ~i** instruction in reading and writing; **birgə** ~ co-education; **fərdi** ~ individual training; **istehsalat ~i** industrial training; ~ **etmək** / **vermək** to teach* (*d*.), to instruct (*d*.); to train (*d*.in); **2. (nəzəriyyə)** teaching, doctrine

**təlimat** *i*. directions *pl*., instructions *pl*.; **~a əsasən** in accordance with instructions

**təlimatçı** *i*. instructor; ~ **olmaq** to be* an instructor

**təlimatçılıq** *i*. the job of an instructor

**təlimatlandırılmaq** *f.* to be* instructed; to be* given instructions

**təlimatlandırmaq** *f.* to instruct (*d*.), to give* instructions (*d*.)

**təlimçi** *i. bax* **təlimatçı**

**təlimləndirmək** *f.* to instruct (*d*.), to give* instructions (*d*.)

**təlimli** *s*. instructed

**təlim-tərbiyyə** *i*. instructive and educational; ~ **işi** instructive and educational work

**təlqin** *i*. **1.** suggestion; **2. (hipnoz)** hypnosis [hıp′-]; **~lə müalicə etmək** to treat by suggestion / hypnotism (*d*.); ~ **etmək** to suggest (*d. i*.), to inspire (with *d*.); to fill (with *d*.); **fikir** ~ **etmək** 1) to suggest a thought; 2) to bring* home (*d*. to), to impress (*d*. on)

**təlqinedici** *s*. imposing; impressive, hypnotic; striking, inspiring

**təltif** *i*. rewarding; **(ordenlə)** decorating; ~ **etmək** to reward (*d*.with), to award (*d*. to), to confer (*d*.on), to confer a decoration (upon) **bir kəsi ordenlə** ~ **etmək** to confer an order on *smb*.

**təmas** *i*. **1.** touch, contact; ~ **nöqtəsi** point of contact; **2.** intercourse; **~da olmaq** to associate (with);to contact (*d*.); *d.d.* to rub shoulders (with)

**təmayül** *i*. **1.** tendency (to, towards); **(mənfi mənada)** obtrusive purpose; **əsas** ~ basic tendency; **2.** inclination **(baş xətdən kənara çıxma)** rake; **3.** bias; deviation; **sağa** / **sola** ~ right-wing / left-wing deviation; **elmi** ~ scientific bias

**təmayülçü** *i*. one who always tends (to)

**təmayülçülük** *i*. tendentiousness

**təmayüllü I.** *s*. tendentious; bias(s)ed; **texniki** ~ **məktəb** school with a technical bias **II.** *z*. tendentiously

**təməl** *i*. **1.** foundation; basis; base; **bir şeyə** ~ **olmaq** to be* the basis *smth*.; ~ **qoymaq** to lay* down the foundations; **2.** principles; fundamentals *pl*.; **binanın ~i** the principles / foundations of building

**təməlsiz** *s*. baseless; (*i.s.*) without foundations / principles

**təmənna** *i*. request (for), wish (for), desire (for); **~sı olmaq** to wish (*d*.), to desire (*d*.), to want (*d*.); **Sizin təmənnanız nədir?** What do you want? What do you wish to have?

**təmənnalı** *s*. mercenary; ~ **məqsədlə** for mercenary motives; ~ **evlənmə** mercenary marriage

**təmənnasız I.** *s.* disinterested; ~ **kömək** disinterested help / aid **II.** *z.* disinterestedly
**təmənnasızlıq** *i.* disinterestedness
**təmərküz** *i.* concentration; **istehsalın ~ü** concentration of production
**təmərküzləşdirilmək** *f.* to be* concentrated
**təmərküzləşdirmək** *f.* to concentrate (*d.*)
**təmərküzləşmə** *fi.* concentration; **kapitalın ~si** concentration of capital; **sənayenin ~si** concentration of industry
**təmərküzləşmək** *f.* to become* / to get* concentrated
**təmin** *i.* **1.** guarantee, guaranty; security; ~ **etmək** to secure (*d.*), to ensure (*d.*); **bütün dünyada sülhü ~ etmək** to ensure world peace; **müvəffəqiyyəti ~ etmək** to ensure the way for success; **yol hərəkətinin təhlükəsizlini ~ etmək** to ensure road safety; **iqtisadiyyatın gələcək yüksəlişini ~ etmək** to ensure further economic progress; **bir kəsin azadlığını ~ etmək** to secure the liberty of *smb.*; **2. (maddi cəhətdən)** to provide (*d.* with); **bir kəsi pulla ~ etmək** to provide *smb.* with money; **3.** provide (for); **ailəni ~etmək** to provide for a family; ~ **olunmaq** to be* provided (with); **Mən lazım olan hər şeylə təmin olunmuşam** I am provided with everything I need
**təminat** *i.* **1.** guarantee, guaranty; **2.** maintenance, security; **ictimai** ~ social maintenance; ~ **vermək** to vouch for, to guarantee (*d.*); to answer (for); **Mən buna həyatımla təminat verirəm** I'll vouch / answer for it with my life
**təminatlı** *s.* guaranteed; ~ **əmək haqqı** guaranteed wages; ~ **sülh** guaranteed peace
**təminatlılıq** *i.* the state of being guaranteed
**təminatsız** *s.* (*i.s.*) without guarantee
**təminatsızlıq** *i.* the state of being without guarantee
**təmir I.** *i.* repair(s); *amer.* maintenance; **əsaslı** ~ thorough / capital repairs *pl.*; **cari** ~ ordinary / routine / current repairs *pl.*; **profilaktik** ~ preventive maintenance; **~də olmaq** to be* under repair; **~ə ehtiyacı olmaq** to be* in need / want of repair; ~ **etmək** to repair (*d.*); **sınmış saatı ~ etmək** to repair a broken watch; **yol ~ etmək** to repair a road; to maintain (*d.*); **ev / maşın və s. ~ etmək** to maintain a house / a car, *etc.*; **(evi rəngləmək və s.)** to decorate (*d.*) **II.** *s.* repair; ~ **emalatxanası** repair shop
**təmirçi** *i.* repairer, repairman*
**təmirçilik** *i.* the job of a repairman*
**təmirxana** *i.* repair shop
**təmiz I.** *s.* **1.** clean; ~ **səma** clean sky; ~ **əl** clean hand; ~ **səhifə** clean / fresh page; ~ **boyunluq** clean collar; ~ **yol** clean road; ~ **şərab** clean wine; ~ **qələbə** clean victory; **2. (qarışdırılmamış)** pure, neat; ~ **otaq** a neat room; ~ **qızıl** pure gold; ~ **gümüş** pure silver; ~ **yun (qarışıqsız)** pure wool; ~ **su** pure water; ~ **hava** pure / clear air; ~ **spirt** pure alcohol; *d.d.* neat spirits *pl.*; **Pişiklər təmiz heyvandır** Cats are neat animals **3. (səs**, **tələffüz)** clear; **4. (çəki**, **gəlir**, **qazanc)** net, clear; ~ **çəki** net weight; ~ **gəlir** / **qazanc** net profit; *d.d.* clear profit; **5. (adam)** high-minded, honest; ~ **söhbət** honest talk **II.** *z.* clear; clearly; neat, neatly; ~ **danışmaq** to speak* clear / clearly; ~ **adam** honest man*; ~ **qırxılmış** clean-shaved; ~ **yuyulmuş** clean-washed; **O, mənzilini təmiz saxlayır** He / She keeps his / her flat neat
**təmizcə** *z.* quite / completely clean / neat
**təmizkar** *s.* neat, tidy; cleanly; ~ **adam** a cleanly man*
**təmizkarca** *z.* *bax* **təmizkarcasına**
**təmizkarcasına** *z.* neatly, tidily, cleanly
**təmizkarlıq** *i.* tidiness, cleanliness, neatness
**təmizqanlı** *s.* pure-blooded, purebred, thoroughbred; ~ **at** a thoroughbred horse
**təmizqanlılıq** *i.* the quality of being pure-blooded / thoroughbred
**təmizqəlbli** *s.* open-hearted, sincere, frank, candid; ~ **dost** a sincere frank / friend
**təmizqəlblilik** *i.* open-heartedness, frankness, sincerity
**təmizləmə** *fi.* cleaning; **kimyəvi** ~ dry cleaning
**təmizləmək** *f.* **1.** to clean (*d.*); to clean off (*d.*); to clear (*d.*); to clear off (*d.*); **dırnaqlarını** ~ to clean one's nails; **yolu qardan** ~ to clear the road from the snow; **stolu ~ (yığışdırmaq)** to clear off the table; **2. (qazıyıb təmizləmək**: **qazanı və s.)** to scour (*d.*); to scour out (*d.*); **qazanı** ~ to scour out a pan; **3. (şotka ilə)** to brush (*d.*), to brush off (*d.*); **paltarı ~ (şotka ilə)** to brush

clothes; **dişini (özünün)** ~ to brush / to clean one's teeth; **4. (meyvə və tərəvəzi)** to skin (*d*.), to peel (*d*.); **(qozu və s.)** to shell (*d*.); **kartof** ~ to peel potatoes; **pomidor** ~ to skin tomatoes; **5.** *tex. kim.* to refine (*d*.), to purify (*d*.); **spirti** ~ to refine / to purify spirit(s); **nefti** ~ to refine oil; **6. (mədəni**, **bağırsağı)** to evacuate (*d*.), to purge (*d*.); **mədəni** ~ to evacuate / to purge the stomach; **bağırsaqları** ~ to evacuate / to open the bowels

**təmizlənmək** *f.* **1.** to be* cleaned / cleared; **2.** *tex. kim.* to be* refined; **3. (qabıqdan)** to be* peeled / skinned; **4. (paltar**: **şotka ilə)** to be* brushed; **5. (mədə və s.)** to be* evacuated / purged; **6. (qazınmaqla)** to be* scoured

**təmizlətdirmək** *f. bax* **təmizlətmək**

**təmizlətmək** *f.* **1.** to ask / to cause *smb*. to clean (*d*.) / to clear (*d*.); to have* (*d*.) cleaned / cleared; **2. (paltarı və s. şotka ilə)** to ask / to cause *smb*. to brush (*d*.); to have* (*d*.) brushed (*d*.); **3. (mədəni və s.)** to ask / to cause *smb*. to evacuate (*d*.); to have* (*d*.) evacuated

**təmizləyici I.** *i.* cleaner **II.** *s.* cleaning; ~ **maddə** cleanser

**təmizlik** *i.* **1.** cleanness; **otağın təmizliyi** cleanness of the room; **2. (təmizkarlıq)** cleanliness; **3. (qarışıqsız)** purity, clarity; **suyun təmizliyi** purity of water; **havanın təmizliyi** purity / clarity of the air

**təmizürəkli** *s. bax* **təmizqəlbli**

**təmizürəklilik** *i. bax* **təmizqəlblilik**

**təmkin** *i.* self-control, self-mastery, self-restraint; restraint; ~ **göstərmək** to show* restraint

**təmkinlə** *z.* with restraint, with discretion; with reserve

**təmkinli** *s.* restrained, reserved; **(danışıqda)** discreet, reserved; ~ **cavab** restrained answer; ~ **olmaq** to show* restraint

**təmkinlilik** *i.* restraint, the quality of being restrained; **(danışıqda)** discretion; ~ **göstərmək** to show* restraint

**təmkinsiz** *s.* unrestrained, irascible, hot-tempered

**təmkinsizlik** *i.* lack of self-control; hot-temperedness

**təmrin** *i.* exercise; **qrammatik ~lər** grammar exercises

**təmsil I.** *i.* fable; cock-and-bull story **II.** *i.* representation; ~ **etmək** to represent, to act officially for; **fəhlə yoldaşlarını** ~ **etmək** to represent one's fellow-workers; ~ **olunmaq** to be* represented

**təmtəraq** *i.* luxury [-kʃə-]; splendour, magnificence; bombast

**təmtəraqla** *z.* grandiloquently, bombastically; in a high-flown manner; luxuriously; ~ **danışmaq** to speak* bombastically

**təmtəraqlı** *s.* bombastic, grandiloquent; luxurious; ~ **sözlər** bombastic words; ~ **mehmanxana** luxurious hotel; ~ **üslub** grandiloquent style; ~ **natiq** grandiloquent speaker

**təmtəraqlılıq** *i.* the state or quality of being grandiloquent / bombastic / luxurious

**təmtəraqsız** *s.* (*i.s.*) without luxury / grandiloquence

**təmtəraqsızlıq** *i.* the state or quality of being without luxury / grandiloquence

**təmyiz I.** *i.* cassation; **~ə vermək** to appeal (to); to appeal to a Court of Cassation **II.** *s.* appeal; ~ **məhkəməsi** Court of Appeal / Cassation; ~ **şikayəti** appeal

**tən I.** *i.* body; **~də canı (gücü) qalmamaq** to have* no strength in one's body **II.** *s.* equal; **təxminən** ~ nearly equal; *elm.* subequal; ~ **ədədlər** equal quantities; ~ **yarı** quite equal; ~ **hissələr** equal parts; ~ **məsafə** equal distance; **boyca** ~ **olmaq** to be* of equal height **III.** *z.* equally; ~ **bölmək** to divide equally

**tənasüb** *i.* proportion

**tənasüblü** *s.* proportional, balanced, well-proportioned; ~ **əndam** well-proportioned figure

**tənasüblük** *i.* proportionality

**tənasüblülük** *i. bax* **tənasüblük**

**tənasübsüz** *s.* disproportional, disproportionate

**tənasübsüzlük** *i.* disproportion; **yaş tənasübsüzlüyü** disproportion in age

**tənasül** *s.* genital; ~ **orqanları** genitals, genital organs

**tənbeh** *i.* reproof, reproach; ~ **etmək** to reprove (*d*.), reproach (*d.* for with); **özünü** ~ **etmək** to reproach oneself; **bir kəsi tən-**

**bəlliyə görə ~ etmək** to reproach *smb.* with laziness / for being lazy; **Mən onu tənbəlliyə ğörə tənbeh etdim** I reproached him / her with laziness / for being lazy
**tənbehedici** *s.* reproachful; **~ tərzdə** reproachfully
**tənbəki I.** *i.* tobacco; pipe tobacco **II.** *s.* tobacco; **~ yarpağı** tobacco leaf*
**tənbəl I.** *i.* lazy person; idler; *d.d.* lazy-bones **II.** *s.* lazy; **~ oğlan** a lazy boy
**tənbəlcəsinə** *z.* lazily
**tənbəllənmək** *f. bax* **tənbəlləşmək**
**tənbəlləşdirmək** *f.* to cause *smb.* to become lazy; to let* *smb.* become lazy
**tənbəlləşmək** *f.* to become* lazy / idler
**tənbəllik** *i.* laziness; **~ etmək** to be* lazy, to do* nothing; *d.d.* to lazy
**tənbəl-tənbəl** *z. bax* **tənbəlcəsinə**
**tənbölən** *i. hənd.* bisector [ˊbaı-]
**təndir** *i.* oven made of clay in a hole in the earth
**tənə** *i.* reproach, reproof; **~ vurmaq** to reproach (*d.* with); to upbraid (*d.* with, for); to scold (*d.*)
**tənəffüs I.** *i.* **1.** breathing, respiration; **2.** break, interval; **kiçik ~** a short break; **uzun / böyük ~** a long break; **3. (istirahət)** respite, rest; **~ etmək** to take* a short rest; **~ vermək** to respite (*d.*), to grant a respite (*d.*) **II.** *s.* respiratory; **~ borusu** wind-pipe; **~ yolu** respiratory ducts *pl.*; **~ yolunun xəstəlikləri** respiratory diseases; **~ orqanları** the respiratory organs
**tənək** *i.* grapevine
**tənəkə I.** *i.* tin (-plate) **II.** *s.* tin; **~ qab** tinware
**tənəkəçi** *i.* tinman*, tinsmith; **~ olmaq** to be* a tinman* / a tinsmith
**tənəkəçilik** *i.* the profession of a tinman* / tinsmith; **~ etmək** to work as a tinman* / tinsmith
**tənəklik** *i.* vineyard
**tənəli** *s.* reproachful; **~ baxış** reproachful look
**tənəli-tənəli** *z.* reproachfully; **~ baxmaq** to look / to gaze reproachfully
**tənəzzöh** *i. bax* **ekskursiya**
**tənəzzöhçü** *i. bax* **ekskursant**
**tənəzzül** *i.* decline; decay, regress; **~ə uğramaq** to fall* into decay; **incəsənətin ~ü** the decay of art; **ailə ~ü** the decay of family; **~ etmək** to fall* into decay
**təng** *i.*: **~ə gəlmək** to be* exasperated (by / at); to be* / to get* exhausted; to exhaust oneself (with); to be* tired out; *d.d.* to eat* one's heart out (with); **~ə gətirmək** to exhaust (*d.*), to tire out (*d.*); **(əziyyət vermək)** to forment (*d.*); to vex (*d.*), to exasperate (*d.*)
**təngimə** *fi.* exasperation, exhaustion
**təngimək** *f.* to be* / to get* exhausted, to become* breathless
**təngişdirmək** *f. bax* **təngitmək**
**təngişmək** *f.* to be* / to get* exhausted, to become* exasperated; *d.d.* to eat* one's heart out
**təngitmək** *f.* to exhaust (*d.*); to vex (*d.*), to exasperate (*d.*)
**tənglik** *i. bax* **tənginəfəslik**
**təngnəfəs I.** *s.* **1.** *tib.* asthmatic; **2.** breathless; pant; **~ olmaq** to be* out of breath, to be* choked; to be* suffocated; **(çətin nəfəs almaq)** to pant (with); *məc.* to be* strangled (by); **istidən ~ olmaq** to stifle / to suffocate with the heat; **hirsdən / acıqdan ~ olmaq** to choke with anger **II.** *z.* breathlessly, breathing hardly
**təngnəfəslik** *i.* **1.** breathlessness; **2.** *tib.* asthma
**tənha I.** *s.* solitary, lone, lonely; lonesome, secluded; **~ ağac** a lone tree; **~ həyat** a lonely / secluded life; **~ ölkə** a secluded country **II.** *z.* alone, seclusively, without others; **~ yaşamaq** to live alone; **~ olmaq** to be* alone; **~ qalmaq** to find* oneself isolated / in isolation
**tənhalaşmaq** *f.* to become* alone / solitary; to become* isolated
**tənhalıq** *i.* loneliness, solitude, seclusiveness; **~da yaşamaq** to live a lonely life, to live alone, to seclude oneself
**tənqid** *i.* **1.** criticism; **~ və özünütənqid** criticism and self-criticism; **kəskin ~** sharp criticism; **aşağıdan ~** criticism from below; **~ etmək** to criticize (*d.*); **(xırda)** to carp (at), to find* fault (with); to subject to criticism; **~ olunmaq** to be* criticized; to be* subjected to criticism; **~ə layiq olmaq** to be* worth criticism; **~ə layiq olmamaq** to be* beneath criticism; **2. (ədəbi janr)** critique

**tənqidçi** *i.* critic; **ciddi** / **amansız** ~ severe critic; **teatr ~si** dramatic critic; **ədəbi** ~ literary critic; ~ **olmaq** to be* a critic
**tənqidçilik** *i.* the profession of a critic
**tənqidi** *s.* critical; ~ **məqalə** critical essay; criticism, critique; ~ **qeydlər** critical remarks
**tənqidsiz** *s.* (*i.s.*) without criticism
**tənləşdirilmək** *f.* to be* equalized, to become* equalized
**tənləşdirmək** *f.* to level (*d.*), to equalize (*d.*); to make* equal (*d.*)
**tənləşmək** *f.* to become* / to get* equal
**tənlik** *i. riyaz.* equation; **iki məchullu** ~ equation with two unknown qualities; **kvadrat** ~ quadratic (equation)
**təntənə** *i.* **1. (bayram)** festival, fete [feıt]; celebration; **2. (qələbə)** triumph; **ədalətin ~si** triumph of justice
**təntənəli** *s.* solemn; ceremonial; festive; gala; ~ **gün** festival, red-letter day; great day, a gala day; ~ **gecə** a gala night; ~ **konsert** a gala concert; ~ **açılış** inauguration (of); ~ **iclas** grand / great rally / meeting; ~ **and** solemn vow; ~ **görüş** grand welcome; ~ **qəbul** ceremonial reception
**təntik** *s.* clumsy; hasty
**təntiklik** *i.* hastiness; clumsiness
**təntik-təntik** *z.* hastily, in a hasty / clumsy way
**təntimək** *f.* to get* lost, to be* bewildered, to lose* one's head; to be* taken aback; **Təntimə!** Keep your head!
**təntitmək** *f.* to cause *smb.* to lose his / her head / to be* at a lost
**təpə** *i.* **1.** top of the head, crown; **2.** *anat.* sinciput; **3.** hill; knoll, hillock; **~dən dırnağa qədər** ≅ from head to foot
**təpəcik** *i.* hillock, knoll, a small hill
**təpəl** *i.* blaze
**təpəl** *s.* (*i.s.*) with a white spot on the forehead
**təpəlik** *s.* hilly; ~ **yer** hilly country
**təpər** *i. bax* **güc**
**təpərli** *s. bax* **güclü**
**təpərlilik** *i. bax* **güclülük**
**təpərsiz** *s.* inert, sluggish, powerless
**təpərsizlik** *i.* sluggishness, inertia [i´nə:ʃə]
**təpəyən** *s.* kicking; ~ **inək** a kicking cow
**təpəyəoxşar** *i.* hill shaped
**təpik** *i.* kick; ~ **vurmaq** to kick (*d.*); ~ **atmaq** to kick
**təpikatan** *s.* kicking
**təpikləmək** *f.* to kick (*d.*); **bir kəsi** ~ to kick *smb.*
**təpiklənmək** *f.* to be* kicked
**təpikləşmək** *f.* to kick each other / one another
**təpiklətmək** *f.* to ask / to cause *smb.* to kick (*d.*)
**təpilmək** *f.* **1.** to squeeze (in, into); to squeeze oneself (in, into); **2.** to be* squeezed (in, into); **3.** *bax* **soxulmaq**
**təpimək** *f.* to get* / to become* dry (slightly)
**təpinmək** *f.* to rate (*d.*), to scold (*d.*); **bir kəsə** ~ to rate *smb.*; **yaxşıca** ~ to give* a good rating (for)
**təpiştirmək** *f.* to guzzle (*d.*), to gorge on / with
**təpitmə I.** *i.* poultice; bread poultice; ~ **salmaq** to poultice (*d.*) **II.** *fs.* drying slightly
**təpitmək** *f.* to dry slightly (*d.*)
**təpmə** *fi.* **(odlu silah)** recoil
**təpmək** *f.* **1.** to felt (*d.*), to full (*d.*); **2.** to stuff (*d.* into), to push in (*d.*); to shove in [ʃʌv ...] (*d.*); **3. (odlu silah)** to recoil; **4.** *bax d.d.* **belləmək**; **5. (inək**, **camış** **və s.)** to stop giving milk
**təptəzə** *s.* quite new / fresh
**tər I.** *i.* sweat [swet], perspiration; **soyuq** ~ cold sweat; ~ **içində** running / dripping / wet with sweat; ~ **içində çimmək** *məc.* to bathe in sweat; **qan-~ içində** in blood and sweat; **alın ~i ilə** ≅ by one's (own) sweat and blood; ~ **basmaq** to sweat, to perspire **II.** *s.* **1.** sweat, ~ **vəzi** sweat gland; **2.** *bax* **təzə I**
**təranə** *i. bax* **mahnı**
**təravət** *i.* freshness; ~ **vermək** *bax* **təravətləndirmək**; **~ini itirmək** to lose* one's freshness, to lose* its bloom; **(bitki)** to wither, to fade
**təravətləndirmək** *f.* to fresh (*d.*), to refresh (*d.*), to freshen up (*d.*); **özünü** ~ to refresh oneself, to freshen (oneself) up; **İsti hamam sizi təravətləndirər** A hot bath will refresh you
**təravətlənmək** *f.* to become* / to get* freshened up, to freshen; **Yağışdan sonra güllər təravətlənir** Flowers freshen after rain

**təravətli** *s.* fresh; new; ~ **görkəm (üz)** fresh complexion

**təravətlilik** *i.* freshness, newness

**tərbiyə** *i.* education, bringing up; **uşaqı ~ etmə** bringing up children; ~ **vermək** to bring* up (*d.*); to educate (*d.*); to cultivate (*d.*); ~ **etmək** to educate (*d.*), to bring* up (*d.*); to cause *smb.* to become* cultivated / educated; **fiziki** ~ physical training

**tərbiyəçi** *i.* educator; **(evlərdə)** tutor; **(qadın)** mistress, teacher; **(evdə)** governess; **(uşaq bağçasında)** kindergarten / nursery-school teacher

**tərbiyələndirici** *s.* educative; educational; ~ **bilik** educative knowledge; ~ **kitab** educational book

**tərbiyələndirilmək** *f.* to be* brought up; to be* educated / cultivated

**tərbiyələndirmək** *f.* to educate (*d.*), to bring* up (*d.*); to cultivate (*d.*)

**tərbiyələnmək** *f.* to become* educated; to become* / to get* cultivated

**tərbiyəli I.** *s.* well-bred, well-brought up; courteous, polite; ~ **davranış** well-bred behaviour **II.** *z.* courteously, politely

**tərbiyəlilik** *i.* courteousness; the quality of being well-bred

**tərbiyəsiz I.** *i.* lout, boor **II.** *s.* ill-bred, bad-mannered, ill-mannered, boorish **III.** *z.* boorishly, discourteously, impolitely

**tərbiyəsizlik** *i.* ill-breeding; incivility; rudeness, impoliteness, discourteousness, bad manners; ~ **etmək** to act / to behave impolitely

**tərcüman** *i.* dragoman* (a person who is a guide and translator in the Near and Middle East)

**tərcümanlıq** *i.* the profession of a dragoman*; ~ **etmək** to be* a dragoman*, to act as a dragoman*

**tərcümeyi-hal** *i.* biography

**tərcümə** *i.* translation; **şifahi** ~ oral translation; **Azərbaycan dilindən ingilis dilinə** ~ translation from Azerbaijani into English; ~ **etmək** to translate (*d.*); **şifahi ~ etmək** to interpret (*d.* from into) **ingilis dilindən Azərbaycan dilinə ~ etmək** to translate from English into Azerbaijani

**tərcüməçi** *i.* translator; **(şifahi)** interpreter

**tərcüməçilik** *i.* the profession of a translator / and an interpreter

**tərcüməsiz** *s.* (*i.s.*) without translation

**tərəcə** *i.* shelf (for drying cotton, cocoon, *etc.*)

**tərəddüd** *i.* hesitation, wavering; ~ **etmək** to hesitate, to waver

**tərəddüdlə** *z.* hesitantly, hesitatingly, waveringly

**tərəddüdlü** *s.* hesitative, hesitant, hesitating; ~ **danışıq tərzi** hesitative manner of speaking

**tərəddüdsüz I.** *s.* firm, steadfast, unshakeable **II.** *z.* firmly, steadfastly, without hesitation

**tərəddüdsüzlük** *i.* firmness, steadfastness

**tərəf I.** *i.* **1.** side; **sol** ~ left side; **sol ~dən** on the left side; **sağ** ~ right side; **hər ~dən** on either side; **bir kəsin ~ində olmaq** to be* on the side of *smb.*; **bir kəsin ~inə keçmək** to take* *smb.*'s side, to side with *smb.*; **parçanın üz ~i** the right side of the cloth; **parçanın astar ~i** the wrong side of the cloth; **heç bir ~dən** on neither side; **bütün ~lərdən**, **hər ~dən** in all sides; **ata** / **ana ~dən qohum olmaq** to be* a relative on one's father's / mother's side; **2.** party; **bir kəsin ~ində (partiyasında) olmaq** to take* *smb.*'s party; **maraqlı ~lər** interested parties; **3. (baxım)** aspect; **məsələyə hər ~dən yanaşmaq** to consider a question in all aspects **II.** *qoş.* direction, towards; **şəhərə** ~ in the direction of the city, towards the city; **müxtəlif ~lər** different directions; **bir kəsə ~ baxmaq** to look in the direction of *smb.*, to look towards *smb.* **III.** *z.* aside; **Bir addım o tərəfə dur** Step aside; **bir ~dən ... o biri ~dən** on the one *hand* ... on the other hand

**tərəfdar** *i.* supporter, adherent, defender; **(havadar**: **kişi)** patron; **(qadın)** partoness; **sülh ~ları** defenders / supporters of peace, peace supporters; ~ **çıxmaq** / **olmaq** to support (*d.*); to back up (*d.*); to second (*d.*); **qətnaməyə ~ çıxmaq** to second the resolution

**tərəfdarlıq** *i.* intercession, liking (for)

**tərəfgir** *i.* *bax* **tərəfdar**

**ümid** *i.* hope; **~ etmək** to hope (for;+to *inf.*); **~ bəsləmək / bağlamaq** to cherish (for), to be* in hopes; **~ vermək** to promise; **~i doğrultmaq** to justify hopes; **bütün ~lərlə vidalaşmaq** to say* good-bye to all hopes; **~ olmaq** to hope (for,+to *inf.*); to trust (*d.*), to rely (on); **~i boşa çıxmaq** to be* disappointed (in), to be* disappointed (with); **~ini kəsmək** to lose* hope, to be* unhopeful, **zəif / dumanlı ~lər** vague hopes; **müvəffəqiyyətə ~** hopes of success; **kiməsə ~ bəsləmək** to pin one's hopes on *smb.*; **nəyinsə ~ ilə yaşamaq** to live in hope of smth; **Mən möhkəm ümid bəsləyirəm ki, o tezliklə yaxşılaşacaq** I have good / strong hopes that he will soon be well

**ümidli** *s.* hopeful; reliable, trust-worthy, trusty

**ümidlilik** *i.* hopefulness; trustworthiness, reliability

**ümidsiz** *s.* **1.** hopeless; **~ xəstə** hopeless case; **Xəstə ümidsizdir** The patient's condition is hopeless; **~ vəziyyət** hopeless situation; **nəyinsə barəsində ~ olmaq** to be* hopeless about / of *smth.*; **gələcək üçün ~ olmaq** to be* hopeless for the future; **2.** unreliable, not strong enough; **3.** untrustworthy; **~ adam** untrustworthy person

**ümidsizlik** *i.* hopelessness; despair; **ümidsizliyə düçar etmək** to drive* / to reduce (*d.*) to despair; **ümidsizliyə qapılmaq** to give* way to despair, to give* oneself up to despair

**ümidvar** *s.*: **~ olmaq** to hope (for; +to *inf.*); **nəyəsə ~ olmaq** to hope for smth; **Mən ümidvaram ki, sizi bu gün görəcəyəm** I hope to see you to-day

**ümidvarlıq** *i.* hopefulness

**ümidverən** *s.* hopeful; **~ şagird** hopeful pupil; **~ gənc rəssam** a hopeful art student; **~ perspektiv** hopeful prospect

**ımidverici** *s. bax* **ümidverən**

**ümidvericilik** *i.* hopefulness

**ümman** *i. bax* **okean**

**ümmət** *i.* **1.** followers; fellow-fighters; **Məhəmməd ~i** followers of Mahammad; **İsa ~i** followers of Christ; **2.** nation, people

**ümumbəşər** *s. bax* **ümumxalq**

**ümumdövlət** *s.* State; nation-wide, national; **~ fondu** State fund; **~ mənafeyi** interests of the whole country

**ümumdünya** *s.* world-wide, universal; world; **~ konqresi** world congress; **sülh tərəfdarlarının ~ konqresi** the World Congress of the Defenders of Peace; **~ Sülh Şurası** the World Peace Council; **demokrat gənclərin ~ federasiyası** the World Federation of Democratic Youth; **~ şöhrəti** world-wide fame; **həmkarlar təşkilatlarının ~ federasiyası**the World Federation of Trade Unions **(qısa** ***for.***: *W.F.T.U.*); **~ səyahəti** universal travel

**ümumən** *z.* in general, generally, altogether, on the whole; always; **O, ümumən belədir** He is always like that; **~ Ümumən** ***desək...*** Generally *speaking*... **Ümumən nə vaxt durursunuz?** What time do you generally get up? **Ümumən mən istirahət günləri teatra gedirəm** Generally I go to the treatre on Sundays; **Ümumən mən heyfsilənmirəm ki, evdə qaldım** Altogether, I am not sorry I stayed at home

**ümumxalq** *s.* national; public; general; **~ malı** public property, the people's property; **~ işi** common task of / for the entire people

**ümumi** *s.* **1.** general; common; aggregate, total; **~ iclas** general meeting; **~ razılıq** common consent; **~ düşmən** common enemy; **~ yaşayış sahəsi** aggregate floor space; **Bu bizim ümumi işimizdir** It is a matter of our common concern, It is com-

mon cause of ours; **2.** *qram.* common; **~ isim** common noun

**ümumiləşdirilmək** *f.* to be* generalized / socialized / collectivized

**ümumiləşdirilmiş** *fi.* generalized, socialized, collectivized; **kənd təsarrüfatının ~ bölməsi** collectivized sector of agriculture

**ümumiləşdirmə** *fi.* generalization; **tələsik ~** hasty generalization

**ümumiləşdirmək** *f.* to generalize (*d.*), to summarize (*d.*); **təcrübəni ~** to generalize experience

**ümumiləşmə** *fi.* becoming generalized

**ümumiləşmək** *f.* to become* generalized / summarized

**ümumilik** *i.* community; **mənafe ümumiliyi** community of interests; **dil ümumiliyi** community of languages; **fikir ümumiliyi** community of opinions; **fikir və hissiyyat ümumiliyi** community of thoughts and feelings

**ümumittifaq** *s.* All-Union; **~ qurultayı** All-Union Congress

**ümumiyyətcə** *z. bax* **ümumən**

**ümumiyyətlə** *z. bax* **ümumən**

**ümummilli** *s.* national; **~ problemlər** national problems; **~ vəzifələr** tasks involving the whole nation

**ümumşəhər** *s.* city-wide, town-wide; **~ mitinqi** city-wide meeting

**ümumtəhsil** *s.* (*i.s.*) of general education; **~ məktəbi** school providing general education

**ümumtürk** *s.* ~ all-Turkish; **~ qurultayı** all-Turkish Congress

**ümumzavod** *s.* for the whole factory; all factory

**ün** *i. bax* **səs I**

**ünləmək** *f. bax* **səsləmək**

**ünsiyyət** *i.* **1.** sociability; **2.** intercourse; relations, link; **şəxsi ~** personal contact; **dil ~ vasitəsi kimi** language as a means of intercourse; **dostlarla ~ tapmaq** to have* intercourse with friends; **kiminləsə ~də olmaq** to hold* / to keep* up / to continue an active intercourse with *smb.*

**ünsiyyətli** *s.* sociable, amiable; **~ adam** a good mixer, sociable person

**ünsiyyətsiz** *s.* unsociable, unamiable

**ünsiyyətsizlik** *i.* absence of intercourse / communication, lack of intercourse / communication

**ünsür** *i.* **(***müx.* **mənada)** element; **riyaziyyat ~ü** element of mathematics; **qalvanik ~** *el.* galvanic pile; **cinayətkar ~** criminal element

**ünvan** *i.* address; **məktubu doğru ~a çatdırmaq** to deliver a letter at the right address, **~ını dəyişmək** to change one's address **~a göndərmək** to address (*d.*, to)

**ünvanlı** *s.* (*i.s.*) with an address, (*i.s.*) having an address

**ünvanlılıq** *i.* the state of havingan address

**ünvansız** *s.* (*i.s.*) without an address, (*i.s.*) having no address

**unvansızlıq** *i.* the state of having no address / without an address

**ünyetməz** *s.* very / too far

**ürəfa** *i. arx. bax* **arif I**

**ürək I.** *i.* heart; ◊ **~ vermək** to hearten (*d.*), to give* courage (*d.*), to cheer up (*d.*); ◊ **~ etmək** to dare, to venture; **ürəyə dəymək** to offend (*d.*); to hurt* / to wound *smb.*'s feelings; **ürəyə yatmaq** to like (*d.*); to be* likeable (of person); **Bu kitab sizin ürəyinizə yatırmı?** Do you like this book? ◊ **ürəyi gəlmək** to decide (+to *inf.*), to bring* oneself (+to *inf.*); ◊ **ürəyini bulandırmaq** to make* *smb.* sick, to turn *smb.*'s stomach; ◊ **ürəyi getmək** to faint (away); to lose* consciousness; ◊ **ürəyi götürməmək** to sicken (*d.*); **Ürəyim bunu götürmür** It sickens me; ◊ **ürəyindən keçmək** to want (*d.*); to feel* a desire to have (*d.*); **ürəyindən xəbər vermək** to foretell* (*d.*), to divine *smb.*'s intentions; ◊ **ürəyinə dağ çəkmək** to hurt* *smb.* heavily / violently; ◊ **ürəyinə dammaq** to have* a presentiment (of, about), to have* a foreboding (of, about); ◊ **ürəyinə salmaq** to take* *smth.* to heart; ◊ **ürəyini açmaq** 1) to display / to discover one's secret; 2) to cheer up (*d.*), to brighten (*d.*); ◊ **ürəyini yemək** to grieve; to be* anxious; ◊ **ürəyini yumşaltmaq** to move to pity, to stir the pity (of); **ürəyi atmaq / döyünmək** 1) to beat*, to thump, to throb; 2) to long for (*d.*); **Onun ürəyi döyünür** His / Her heart is thumping / beating / throbbing; ◊ **ürəyi ağzına**

**gəlmək** to feel* strong disgust / aversion; ◊ **ürəyi açıq olmaq** to be* frank / open-hearted; ◊ **ürəyi bulanmaq** / **qalxmaq** to feel* sick; **ürəyi qısılmaq**, **sıxılmaq** to feel* heaviness in the heart; ◊ **ürəyi qopmaq** / **düşmək** to get* strongly / deadly frightened; ◊ **ürəyi dolmaq** 1) to be* ready to cry / to weep; 2) to have* much to say; **ürəyi əsmək** 1) to tremble, to thrill; 2) to long for, to desire (*d*.); **ürəyi istəmək** to desire (*d*.), to long for (*d*.); ◊ **ürəyi yanmaq** 1) **(susuz olmaq)** to be* very thirsty; 2) to feel* sorry (for), to pity (*d*.), to grieve (about, for, over); **ürəyi xarab olmaq** to feel* bad*, to faint (away); ~ **döyüntüsü ilə** with beating heart; ◊ **kimisə ürəyinə basmaq** to press *smb*. to one's heart; ◊ **daş** ~ a heart of flint / stone; ◊ **sınıq** ~ broken heart; **ürəyin dərinliklərində** in the bottom of one's heart; at heart, in one's heart (of hearts); **ürəyin dərinliklərindən** from the bottom of one's heart; **tam ~lə** with all one's heart; ◊ **kiməsə ürəyini açmaq** to open / to pour out one's heart to *smb*.; **kiminsə ürəyinə toxunmaq** to move / to stir / to touch *smb*.'s heart; **Onun ürəyindən qara qanlar axır** His / Her heart bleeds; ◊ **ürəyini kiməsə vermək** to give one's heart to *smb*.; **kiminsə ürəyinə hakim olmaq** to obtain / to gain *smb*.'s heart **II.** *s.* heart (*attr*.); *elm.* cardiac; ~ **tutması** heart attack; ~ **xəstəliyi** heart disease; ~ **əzələsi** heart muscle; ~ **həkimi** heart specialist; ~ **dərmanı** *elm.* Cardiac

**ürəkaçan** *s.* heartwarming; ~ **hadisə** / **əhvalat** heartwarming event

**ürəkağrısı** *i.* heart-ache; **(xəstəlik)** heart-disease; **(ürək tutması)** heart attack

**ürəkbir** *s.* at one (with), agree (with, in / about); **kiminləsə ~ olmaq** to be* at one with *smb*.

**ürəkbulandıran** *s.* sickening, nauseating; **həm də** *məc.* loathsome

**ürəkbulandırıcı** *s. bax* **ürəkbulandıran**

**ürəkbulanması** *i.* sickness, nausea [-sıə]; ~ **hiss etmək** to feel* sick

**ürəkcik** *i.* heartlet

**ürəkdən** *z.* heartily; with one's heart, from the bottom of one's heart; **işə ~ girişmək** to get* to work heartily; ~ **yemək** to eat* heartily

**ürəkdən-ürəyə** *s.* from heart to heart

**ürək-dirək** *i.* ~ **vermək** to cheer up (*d*.), to encourage (*d*.)

**ürəkdolusu** *z.* with all one's heart and soul

**ürəkdöyünmə(si)** *i.* **1.** palpitation; *tib.* tachycardia; **2.** heartbeat, heart-quake

**ürəkkeçmə** *i. bax* **ürəkkeçməsi**

**ürəkkeçməsi** *i.* fainting fit, swoon; *tib.* syncope; fit; attack; **(çoxgüclü)** paroxysm; **əsəb ~si** fit / attack of nerves, nervous fit; **psixi** ~ fit of madness; **quduzluq ~si** paroxysm of rage

**ürəklə** *z.* heartily; boldly; bravely, fearlessly; **Mən ürəklə deyə bilərəm** I may say with confidence, I can safely say, I dare (to) say; **işə ~ başlamaq** to set* to work heartily

**ürəkləndirici** *s. bax* **ürəkverici**

**ürəkləndirilmək** *f.* to be* heartened, to be* encouraged, to be* filled with enthusiasm, to be* inspired

**ürəkləndirmək** *f.* to hearten (*d*.), to encourage (*d*.), to cheer up (*d*.) to inspire (*d*.)

**ürəklənmək** *f.* to take* heart, to hearten up, to dare; to become* encouraged / heartened

**ürəkli** *s.* bold, courageous, daring, audacious, brave

**ürəklilik** *i.* boldness, courage, audacity, courageousness

**ürəksıxan** *s.* tiresome, annoying, boring, dreary; sad, melancholy; dull; ~ **həyat** dreary life; ~ **hava** dreary / dull weather; ~ **iş** dreary work

**ürəksıxıcı** *s. bax* **ürəksıxan**

**ürəksındıran I.** *i.* offender; heart breaker **II.** *s.* heart-breaking

**ürəksiz I.** *s.* cowardly, faint-hearted, craven, poor-spirited; ~ **adam** coward / cowardly man*, faint-hearted / chicken -hearted follow **II.** *z.* unwillingly, with reluctance, reluctantly

**ürəksizlik** *i.* cowardice, cowardliness; ~ **göstərmək** to display / cowardice; ◊ to show* the white feather *idiom.*

**ürəkvarı** *s.* heart-shaped, heartlike

**ürəkverən I.** *i.* comforter, consoler **II.** *s.* cheering, encouraging; consolatory

**ürəkverici** *s.* consolatory, consoling, comforting; ~ **sözlər** consolatory words

**ürəkyandıran** *s.* heart-burning; heartrending, heartbreaking

**ürəkyandırıcı** *s. bax* **ürəkyandıran**
**ürəyəyatan** *s.* **1.** corresponding to one's taste; **2.** pleasant, welcome; ~ **xəbər** welcome news
**ürəyəyatmaz** *s.* **1.** not corresponding to one's taste; **2.** unpleasant, disagreeable; ~ **iy** disagreeable odour
**ürəyiaçıq** *s.* kind-hearted, openhearted; ~ **adam** a kind-hearted person
**ürəyiaçıqlıq** *i.* kind-heartedness, open-heartedness
**ürəyiaçıqlıqla** *z.* kind-heartedly, open-heartedly
**ürəyibərk** *s. bax* **ürəyidaş**
**ürəyidağlı** *s.* broken-hearted, wounded-hearted
**ürəyidağlılıq** *i.* the state of being broken-hearted / wounded-hearted
**ürəyidaş** *s.* stony-hearted, hard-hearted
**ürəyidaşlıq** *i.* the state of being stony-hearted / hard-hearted
**ürəyigeniş** *s.* magnanimous, generous; ~ **adam** a man* of magnanimous soul
**ürəyigenişlik** *i.* magnanimity, generosity
**ürəyincə** *z.* to one's heart's content
**ürəyiqurdlu** *s.* **1.** envious; **başqasının xoşbəxtliyinə qarşı ~ olmaq** to be* envious of another's good fortune; **2. (xəsis)** greedy, stingy, niggardly; **O, bir qədər / bir az ürəyiqurdludur** He / She is a bit stingy
**ürəyinazik** *s. bax* **ürəyiyumşaq**
**ürəyinaziklik** *i. bax* **ürəyiyumşaqlıq**
**ürəyisınıq** *s.* disappointed, disillusioned, depressed, dispirited, hapless, ill-starred
**ürəyisınıqlıq** *i.* the state of being disappointed / depressed
**ürəyisözlü** *s.* pained; offended
**ürəyisözlülük** *i.* the state of being pained / offended
**ürəyitəmiz** *s.* well-wishing, open-hearted, frank, candid
**ürəyitəmizlilik** *i.* open-heartedness, frankness, candour
**ürəyiyuxa** *s. bax* **ürəyiyumşaq**
**ürəyiyumşaq** *s.* soft-hearted, tender-hearted, kind
**ürəyiyumşaqlıq** *i.* soft-heartedness, tender-heartedness, kindness; sensitiveness
**ürfan** *i. arx.* knowledge, wisdom; education
**ürkək** *s.* fearful, easily frightened / scared **(həm də at** *haq.***)** shy
**ürkəklik** *i.* fearfulness, timidity, shyness
**ürkmək** *f.* to be* frightened / startled (with); **(at)** to shy, to take* fright (of); **O, hər şeydən ürkür** He / She is afraid of everything
**ürkmüş** *fs.* frightened; shied; ~ **at** shied horse
**ürküdülmək** *f.* to be* / to get* frightened / startled (with); **(at)** to be* shy, to take* fright (of)
**ürküşdürmək** *f.* to cause / to force animals to get frightened / scared
**ürküşmək** *f.* to get* frightened, to get* a fright
**ürkütmək** *f.* to frighten (*d.*), to scare (*d.*), to give* a fright
**ürpənmək** *f.* to bristle (up, with); **Acığından onun tükləri ürpəndi** His / Her hair bristled up with anger
**ürpərmək** *f.* to bristle up; **Kirpi kimi ürpərmə** Don't bristle up like a hedgehog
**ürpərtmək** *f.* to cause (*d.*) to bristle
**ürpəşmək** *f. bax* **ürpənmək**
**üryan** *s.* naked; nude; bare; ~ **bədən** naked body; ~ **ağac** bare / naked tree; ~ **qılınc** naked sabre
**üskük** *i.* thimble
**üslub I.** *i.* style; **yüksək** ~ elevated style; **Onun gözəl üslubu var** He / She has a good style **II.** *s.* stylistic; ~ **vasitəsi** stylistic device
**üslubi** *s. bax* **üslub II**
**üst I.** *i.* top, head; **(üst hissə)** surface **II.** *s.* **1.** upper; ~ **mərtəbə** upper storey; **2.** outside; right side; ~ **geyimləri** outdoor clothes *pl.*; **~ü açılmaq** to be* revealed / uncovered, to light; to be* discovered; **~ünü açmaq** 1) to lay* bare (*d.*), to uncover (*d.*); 2) to expose (*d.*); **(cinayətin və s.)** to convict (*d.* to); to prove guilty (*d.* of); **bir kəsin yalanının ~ünü açmaq** to expose *smb.* as a liar; **~ünü örtmək** 1) to cover (*d.* with), **(damın)** to roof (*d.*); **(rənglə)** to paint (*d.* with), to overlay (*d.* with), **(lakla)** to varnish (*d.*), to laquer (*d.*); 2) *məc.* to conceal (*d.*); to shield (*d.*), to hush up (*d.*); to keep* a secret (*d.*); **~ünü almaq** 1) **(toz)** to settle (on), to cover (*d.*); 2) to attack (*d.*) all of a sudden; **~ünü malalamaq** 1) to plaster (*d.*), to parget (*d.*); 2) *məc.* to conceal (*d.*), to keep* to oneself (*d.*)

**üst-baş** *i.* clothes *pl.*; garment (*s.*), attire; **~ı olmamaq** to have* no clothes / garments; **~dan çıxmaq** to wear* out one's clothes

**üstdə** *z.* above; **(yuxarı mərtəbə)** upstairs; **Baş** / **Göz üstə** All right, *OK*.

**üstdən** *z.* from above, from (the) top; **İşıq üstdən düşür** The light falls from above; **~ beşinci sətir (xətt)** the fifth line from the top; **~ üçüncü mərtəbə** the third storey from the top

**üstdən-aşağı** *z.* from top to bottom, downwards

**üstəgəlmə** *i.* **1.** *riyaz.* plus; **2.** addition

**üstələmək** *f.* to take* / to gain* the upper hand (over), to prevail (over); to excel (*d.* in); to exceed (*d.*), **sayca ~** to outnumber (*d.*); **öz müəllimini ~** to excel one's teacher

**üstəlik** *z.* in addition (to), *d.d.* besides; moreover

**üstqurum** *i. fəls.* superstructure; **bazis və ~** basis and superstructure

**üstüaçıq I.** *s.* open, overt, uncovered; roofless **II.** *z.* plainly, frankly, overtly; **~ danışmaq** to speak* plainly / frankly, to speak* in plain terms

**üstün** *s.* superior; **~ qüvvə** *hərb.* superior forces / numbers; **Sən bacarıqda məndən üstünsən** You are my superior in ability; **Hazırcavablıqda ondan üstün yoxdur** She / He has no superior in wit; **~ gəlmək** *bax* **üstələmək**; **~ olmaq** to exceed (*d.*), to excel (*d.* in); **miqdarca ~ olmaq** to outnumber (*d.*); **~ tutmaq** to prefer (*d.* to;+to *inf.*); **birini digərindən ~ tutmaq** to prefer one to another, to favour one over another

**üstündə** *qoş.* **1.** because of; on account of; **sənin üstündə** because of you; **2.** above, over, on; **buludların ~** above the clouds; **başımın ~** over my head; **stolun ~** on the table

**üstündən** *z.* over; over the top; **paltarın ~** over the dress; **O, donunun üstündən palto geymişdi** She wore a coat over her dress; **eynəyin ~ baxmaq** to look over the top of one's spectacles *pl.*

**üstünə** *qoş.* **1.** on; **Kitabı stolun üstünə qoy** Put the book on the table; **2.** to the address; **Onun üstünə məktub gəlib** A letter came to his / her address; **~ atmaq** 1) to fling* (*d.* at), to hurl (*d.* at); 2) to lay* (*d.*); to put* (*d.*); **günahı başqasının ~ atmaq** to lay* / to put* the blame on *smb.*; **~ düşmək** 1) to find* by chance; 2) to find* fault (with), to cavil (at); not to leave alone; **~ gəlmək** to add (*d.*); to increase; to plus; **Üç üstünə gəl altı bərabərdir doqquza** Three plus six is nine; **~ tökülmək** to attack (*d.*) all together, to assault (*d.*); **~ çıxmaq** 1) to get* on (*d.*); 2) *məc.* to come* across (*d.*), to encounter (*d.*)

**üstünlük** *i.* **1.** superiority, **hava qüvvələrinin üstünlüyü** air superiority; **atəş üstünlüyü** fire superiority; **2.** *qram.* superlative; **~ dərəcəsi** superlative degree

**üstüörtülü I.** *s.* closed, covered; **~ tennis kortu** closed / covered tennis court; **~ bazar** closed / covered bazar **II.** *z.* **~ danışmaq** to beat* about the bush **idiom**; *amer.* to beat* around the bush *idiom.*

**üst-üstə** *z.* **1.** in sum, in all; (as a) whole, wholly; **2.** in succession, running; **on beş il ~** fifteen years in succession, fifteen years running; **3.** one on another

**üsul** *i.* way, mode, method, rule; **bu ~la** in this way; **müxtəlif ~larla** in different ways; **ifadə ~u** manner of expressing oneself; **istifadə etmə ~u** directions for use; **müalicə ~u** the method / way / mode of treatment

**üsuli-din** *i.* basis of religion

**üsuli-idarə** *i.* regime, government; **çar ~si** tsarist regime / government

**üsullu I.** *s.* methodical, orderly **II.** *z.* **1.** methodically, **2.** carefully, cautiously, guardedly

**üsulluluq** *i.* the state or quality of being methodical / orderly

**üsulsuz** *s.* unmethodical; careless

**üsulsuzluq** *i.* the state or quality of being unmethodical

**üşümək** *f.* to be* cold, to feel* cold, to suffer from cold; to shiver, to freeze; **soyuqdan ~** to feel* cold, to shiver with cold

**üşütmə** *fi.* shivering, fever, chill; **Onun üşütməsi var** He / She is shivering

**üşütmək** *f.* **1.** to cause *smb.* to tremble / to shiver with cold / to suffer from cold;

**2.** to feel* feverish, to shiver; **Mən üşüdürəm** I feel feverish, I shiver; **O üşüdür** She / He feels feverish, She / He shivers

**ütmək** *f.* to burn, to scorch; to pluck; **quşu** ~ to pluck a fowl

**ütü I.** *i.* (flat) iron, smoothing-iron; **dərzi ~sü** goose (*pl.* gooses); **elektrik ~sü** electric iron **II.** *s.* ~ **taxtası** ironing board

**ütük** *s.* **1.** scorched; singed; **2.** vivacious, brisk

**ütüləmək** *f.* to iron (*d.*), to press (*d.*); **paltarı** ~ to iron linen / clothes; **Onun şalvarını ütülədilər** He had his trousers ironed / pressed

**ütülənmək** *f.* to get* / to become* ironed / pressed

**ütülətdirmək** *f. bax* **ütülətmək**

**ütülətmək** *f.* to ask / to cause *smb.* to iron / to press (*d.*); to have (*d.*) ironed / pressed

**ütülmək** *f.* **1.** singe oneself; **2.** to get* singed

**ütülü** *s.* ironed, pressed; ~ **şalvar** ironed / pressed trousers

**ütülülük** *i.* the state or quality of being ironed / pressed

**ütüsüz** *s.* (*i.s.*) without iron; not ironed / pressed

**ütüsüzlük** *i.* the state or quality of being not ironed / not pressed

**üsyan** *i.* (up)rising, rebellion, mutiny, revolt, insurrection; **silahlı** ~ armed revolt / rising / insurrection; rising in arms; **xalq ~ı** popular uprising; ~ **qaldırmaq** to rebel; to revolt (against); **~ı yatırmaq** to suppress (*d.*), to repress (*d.*), to put* down (*d.*)

**üsyançı I.** *i.* rebel, insurgent, mutineer **II.** *s.* rebellious, insurgent, mutinous; ~ **qoşun** rebellious troops

**üsyançılıq** *i.* rebelliousness

**üsyankar I.** *i. bax* **üsyançı I II.** *s. bax* **üsyançı II**

**üsyankarcasına** *z.* rebelliously

**üsyankarlıq** *i. bax* **üsyançılıq**

**üyüdülmək** *f.* to get* / to become* ground / milled

**üyüşmək** *f.* to become* / to grow* numb; to have* pins and needles (in); **Soyuqdan onun əlləri üyüşdü** His / Her hands grew numb with cold

**üyütdürmək** *f.* to ask / to cause *smb.* to grind (*d.*) / to mill (*d.*); to have*(*d.*) ground / milled

**üyütmək** *f.* to grind* (*d.*); **un** ~ to grind* flour; **qəhvə** ~ to grind* coffee; **buğdanı dəyirmanda** ~ to grind* wheat in a mill, to grind* corn into flour

**üz** *i.* **1.** face; **2.** surface; **3.** the right side or face (of cloth, *etc.*) **4.** the outer covering of a thing; **5.** *məc.* boldness, effrontery; **~də** on, on the surface of; **suyun ~ündə** on the surface of the water; **üzündən** for the sake of, on account of; **sənin ~ündən** for the sake of you; **~ə demək** to say* to face; ~ **çevirmək** 1) *bax* **küsmək**; 2) to turn away from; **~ə çıxmaq** 1) to come* to the surface; 2) to appear, to make* one's appearance; to show* oneself; ~ **etmək** to face up; **pul ~ü görmək** to get* a bit of money, **dinclik** / **rahatlıq ~ü görmək** to find* a little peace; **~ünü açmaq** 1) to talk to a child about unseemly things; 2) to have* sex with a virgin; **~ü gülmək** to be* happy / delighted / joyful; **~ünə gülmək** to smile at, to be* friendly towards (with a hint of insincerity); **~ü gülər** happy, kind, (*i.s.*) with smiling face; **~ü qara** 1) one who did *smth.* in the past to be ashamed of; 2) a girl who had sex before marriage; ~ **qarası** / **qaralığı** dishonour, disgrace; **~ü olmamaq** 1) to have* no face / cover; 2) not to dare, not to have the face to; **~ü gəlməmək** to be* unable to refuse, to be* unable to face; **~ü gəlmək** to dare, to have* the effrontery; **istəməyə ~ü gəlmək** to have* the effrontery to want, to dare to want, to bring* oneself (to+*inf.*); **Ona bunu deməyə üzüm gəlmir** I can't bring myself to tell him / her this; **~-~dən utanar** It is difficult to say such things to a person's face; It is hard to refuse personally; ~ **vermək** to be* indulgent to, to spoil (*d.*); to give* encouragement; ~ **vurmaq** to have* recourse to; **~ünə vurmaq** to cast* *smth.* in a person's teeth, to reproach *smb.*; **~ü olmamaq** to have* no face, to dare not; **İstiyə üzüm yoxdur** I can't face the heat; **nə üzlə gəldin?** How have you the face to come? ~ **bağlamaq (süd)** *bax* **qaymaqlamaq**; ~ **döndərmək** 1) *bax* **küsmək**; 2) to be* / to get* disloyal; ~ **görmək** *məc.* 1) to meet* people of different character;

2) to be* treated kindly; ~ **göstərmək** 1) **(pis mənada)** to treat badly, to meet* coldly; 2) **(yaxşı mənada)** to please (*d.*), to give* satisfaction; (*i.*); ~ **çəkmək** to revet (*d.* with), **(avadanlığa)** to upholster (*d.*), **(dəmirdən)** to bind* with iron (*d.*); **~dən baxmaq** to look* / to examine superficially, to look* / to examine hastily; **~dən iraq** God forbid; **~ə qabarmaq** / **gəlmək**, **qayıtmaq** to be* impudent / insolent (to); **(uşaq)** to cheek (*d.*); *d.d.* to sauce (*d.*); to answer insolently / impudently; **~ə dirənmək** to refuse outright; **~ə durmaq** 1) to refuse outright; 2) to be* a false witness, to testify / to despose falsely; **~ü ağ olmaq** to justify hopes / smb's confidence / trust; to be* praiseworthy; **~ü bərk olmaq** to be* obstinate, to be* capable of great endurance, to be* a great stayer; **~ü açılmaq** to become* impudent / shameless; **~ü danlanmaq** to be* reproached; **~ü üstə** face downwards; **~ ü üstə uzanmaq** to lie* face downwards; **~ünə dik baxmaq** to look steadily at *smb.*; **~ünə salmaq** to act / to behave boldly / impudently; **~ünə söz gəlmək** to be* reprimanded / reproached; **~ünü ağartmaq** 1) to copy; 2) to act / to behave praiseworthily; **~ünü ağ etmək** to justify *smb.*'s hopes / confidence; **~ünü almaq (südün)** to cream / to skim, to take* off; **südün ~ünü almaq** to cream / to skim the milk, to take* off the cream; **~ünü köçürmək** to copy (*d.*), to copy out (*d.*); **~ünü malalamaq** 1) *bax* **suvamaq**; 2) *məc.* to slur over (*d.*); **işdəki qüsürlarün ~ünü malalamaq** to slur over the defects of the work

**üzbarı** *z. bax* **üz-üzə**

**üzbəgöz** *z. bax* **üzbəsurət**

**üzbəsurət** *z.* face to face; **Gəl görüşək və hər şey haqda üzbəsurət danışaq** Let's get together and talk the whole things over face to face

**üzbəüz** *z. bax* **üzbəsurət**

**üzdə** *z.* when one is present; in one's presence; in the presence of

**üzdən** *z.* superficially, perfunctorily, in a perfunctory manner; ~ **görülmüş iş** a perfunctory piece of work; ~ **tanımaq** to recognize (*d.*) / to know* (*d.*) by sight

**üzdəniraq** *s.* the so called; ~ **siyasətçi** / **alim** / **dost** so called politician / scholar / friend

**üzəgülən** *s.* **1.** kind, complimentary; **2.** *bax* **riyakar II**

**üzən** *s.* floating; ~ **mayak** lightship, lightvessel; ~ **körpü** floating bridge; ~ **buz** (ice-) floe; ~ **balıq zavodu** factory ship; ~ **ekskavator** floating excavator; ~ **restoran** floating restaurant / bar

**üzəngi I.** *i.* stirrup **II.** *s.* ~ **qayışı** stirrup-leather, stirrup-strap

**üzərində** *qoş.* over, on; **şəhərin** ~ over the city; **mövzu** ~ on the subject

**üzərlik** *i. bot.* rue

**üzə-üzə** *z.* swimming; ~ **gəlmək** to come* swimming

**üzgəc** *i.* **1. (balıqda)** fin; **(balinada və s.)** flipper; **bel ~i** dorsal fin; **döş ~i** thoracic fin; **quyruq ~i** caudal fin; **qarınaltı** ~ abdominal fin; **2.** float

**üzgörə I.** *s.* partial; ~ **fikir** / **şahid** partial opinion / witness **II.** *z.* with partiality / prejudice; ~ **danışmaq** to speak* with partiality

**üzgörəlik** *i.* partiality (to, for), bias (towards); **kiməsə ~ etmək** to treat with partiality (*d.*), to adopt a partial / prejudiced attitude (towards)

**üz-göz I.** *i.* physiognomy, appearance **II.** *z.* ~ **olmaq** to deteriorate relations, to fall* off in relations; ◊ **~ünü turşutmaq** to frown, to be* dissatisfied / displeased; **~ünü büzüşdürmək** to make* / to pull face, to pull faces

**üzgü** *i.* swim; swimming

**üzgüçü** *i.* swimmer; **uzaq məsafəyə üzən** ~ long-distance swimmer; **qısa məsafəyə üzən** ~ short-distance swimmer

**üzgüçülük I.** *i.* swimming; **sərbəst üsul üzgüçülüyü** free-style swimming **II.** *s.* swimming; ~ **idmanı** competative swimming; ~ **məktəbi** swimming school; ~ **hovuzu** swimming pool; ~ **qovuğu** swimming-bladder, air-bladder

**üzgün** *s.* weak, feeble; frail; ~ **uşaq** weak / feeble child; ~ **qoca** frail old man*; **O üzgün görünür** He looks run down; **acından** / **soyuqdan** ~ **olmaq** to faint with hunger / cold

**üzgünlük** *i.* (physical) exhaustion; **(acından)** inanition; weakness, feebleness, debility; *tib.* asthenia; ~ **səviyyəsinə çatmaq** to be* utterly / physically exhausted; to be* worn out

**üzləmək** *f.* to select (*d.*), to choose* (*d.*), to pick out (*d.*)

**üzlənmək** *f.* **1.** to become* bold / impudent; **2.** to be* selected / chosen

**üzləşdirilmək** *f.* to be* confronted; **O, məhkəmədə üzləşdirildi** He was confronted before the court

**üzləşdirmə** *fi. hüq.* confrontation

**üzləşdirmək** *f.* to bring* face to face (*d.*), to confront (*d.*), to organize / to make* up a confrontation

**üzləşmə** *fi. hüq.* confrontation

**üzləşmək** *f.* **1.** to meet* face to face; **2.** to confront (with); **O, iki şübhəli adamla üzləşdi** He / She was confronted by two queer looking men

**üzlətdirmək** *f. bax* **üzlətmək**

**üzlətmək** *f.* to ask / to cause *s. o.* to choose (*d.*) / to select (*d.*)

**üzlü** *s.* **1.** whole, unskimmed; ~ **süd** whole / unskimmed milk; **2.** *məc.* shameless, impudent; unblushing; ~ **yalançı** brazenfaced / unblushing liar; **Nə üzlü yaramazdır!** What an impudent rascal! **O, çox üzlüdür** He / She is very unblushing

**üzlük** *i.* mask; **qılınc oynatma üzlüyü** fencing mask; ~ **qoymaq** to put* on a mask; **üzlüyünü atmaq** to throw* off / to pull off / to drop one's mask

**üzmək I.** *f.* **1. (insan, heyvan)** to swim*; **2. (əşya, bulud)** to float, to drift; **(gəmi)** to sail; **(paraxod)** to steam; **(gəmidə)** to sail, to navigate; **(qayıqda)** to boat; **yelkənlə** ~ to sail, to go* under sail; **axın aşağı** ~ to go* down stream; **axına qarşı** ~ to go* up stream; *məc.* to go* against the stream; **səmada** ~ to float across the sky; **sərbəst üsulla** ~ to swim* in free style; **üzü üstə** ~ to swim on one's chest; **arxası üstə** ~ to swim* on one's back; **yanı üstə** ~ to swim* on one's side; **suyun altında** ~ to swim* under water; **O heç üzmək bilmir** He / She cannot swim a stroke; ◊ **balta kimi** ~ to swim like a stone / like a tailor's goose; ◊ **yağ içində ~ (süd gölündə)** *məc.* to swim* in luxury **II.** *f.* **1.** to pick (*d.*), to pluck (*d.*); **çiçək** ~ to pick / to pluck flowers; **2.** to break* off, to sever; **diplomatik əlaqəni** ~ to break* off / to sever diplomatic relations (with); **3.** to wear* out (*d.*), to exhaust (*d.*); **Bu söhbətlər məni üzür** All this talking wears me out; **Nə üzüçü gündür!** What an exhausting day! **4.** to waste (*d.*) **Xəstəlik onun çanınnı üzüb** The disease wasted his whole body

**üzr** *i.* apology, excuse; ~ **istəmək** to beg pardon, to apologize; **Üzr istəyirəm** Excuse me, I beg vour pardon? I apologize; *d.d.* (I am) sorry; ~ **xahlıq etmək** to make* an apology

**üzrə** *qoş.* **1.** according to, under; **qayda** ~ according to the regulation; **beynəlxalq qanun** ~ under international law; **konstitusiya** ~ under the constitution, constitutionally; **moda** / **dəb** ~ according to fashion; **2.** in accordance with; **komitənin qərarı** ~ in accordance with the decision of the committee; **3.** by, to; **əmr** ~ by order; **hüquq** ~ by right; **4.** on the point (of+*ger.*), just (about+to *inf.*); **O, gəlmək üzrədir** He is on the point of coming, He is just about to come

**üzrxah** *i.* apologist

**üzrxahlıq** *i.* apology, excuse; ~ **etmək** to beg *smb.*'s pardon, to apologize to *smb.*

**üzrlü** *s.* **1.** valid, good; ~ **səbəb** valid / good reason; **O, üzürlü səbəbə görə gəlməmişdi** He / She was absent far valid / good reasons; **2.** pardonable, excusable; **Üzürlüdür** It is pardonable

**üzrlülük** *i.* validity

**üzrsüz** *s.* **1.** invalid, not good, not valid; inadequate; ~ **səbəb** invalid / inadequate reason; **O, üzrsüz səbəbə görə gəlməmişdir** He / She was absent for inadequate reasons; **2.** unpardonable, inexcusable

**üzrsüzlük** *i.* invalidity

**üzsüz** *s.* **1.** skim; ~ **süd** skim (skimmed) milk; **2. (utancaq)** shy, bashful; ~ **(utancaq) cavan qız** bashful young girl, shy young girl

**üzsüzlük** *i.* **1.** the state or quality of being skimmed (of milk); **2.** the state of being shy / bashful

**üzüağ** *s.* **1.** irreproachable, blameless; **2.** innocent (of); *hüq.* not guilty, guiltless
**üzüağlıq** *i.* irreproachability, blamelessness; innocence, guiltlessness
**üzüaşağı** *z.* down, downwards; ~ **getmək** to go* downwards
**üzüboz** *s.* shameless, impudent; ~ **kələkbaz** shameless liar, impudent liar; **Nə üzüboz yaramazdır!** What an impudent rascal he is!
**üzübozluq** *i.* shamelessness, impudence
**üzücü** *s.* exhausting, wasting; enervating, tiring; ~ **qızdırma** wasting fever; ~ **isti** enervating / tiring heat; ~ **müharibələr** wasting wars; ~ **gün** an exhausting / tiring day
**üzüdönük I.** *i.* traitor; betrayer; **(qadın)** traitress **II.** *s.* unsteady, fickle; inconstant; unfaithful, faithless
**üzüdönüklük** *i.* inconstancy, faithlessness
**üzügülər** *s.* merry, gay, affable, friendly, cordial, lively; jolly; *d.d.* cheerful; **(həm də adam haqda)** jovial, cheerful; ~ **cavan** cheerful / jovial fellow; ~ **qız** jolly girl; **O, həmişə üzügülərdir** He / She is always cheerful
**üzügülərlik** *i.* cordiality, affability
**üzügülərliklə** *z.* affably, cordially
**üzügülməz** *s.* gloomy, sullen; ~ **həmsöhbət** / **yol yoldaşı** gloomy companion
**üzügülməzlik** *i.* gloominess, sullenness
**üzük** *i.* ring; (finger-)ring; **(möhürlü)** signet-ring; **nişan üzüyü**, **bəxt üzüyü** wedding-ring, engagement-ring
**üzükvarı** *s.* ring-shaped; ~ **tutulma (ay**, **gün** *haq.***)** annular eclipse
**üzükvarılıq** *i.* the state or quality of being ring-shaped / ring like
**üzüqara** *s.* disgraceful, disgraced; guilty; ~ **olmaq** to be* disgraced
**üzüqaralıq** *i.* disgrace; **kiməsə** ~ **gətirmək** to bring* disgrace upon *smb.*; **Sən ailənə üzüqaralıq gətirirsən** You are a disgrace to your family
**üzüqırxıq** *i.* (clean-) shaven, shaven
**üzüqırxıqlıq** *i.* the state of being shaved / shaven
**üzüqırmızı** *s. məc.* shameless; barefaced, brazen (-faced); **O, çox üzüqırmızıdır** He is very shameless
**üzüqırmızılıq** *i.* shamelessness, barefacedness
**üzüqoylu** *s.* downward; ~ **yatmaq** to lie* face downwards, to lie* prone
**üzülmək** *f.* **1. (paltar)** to be* torn, to be* worn out, **(kitab və s.)** to be* frayed, to wear* out; *məc.* to be* used up; *d.d.* to be* played out; **Paltar üzüldü** The dress was worn out; **Bu parça tezliklə üzüləcək** This cloth will soon wear out; **2.** to exhaust oneself (with); *d.d.* to eat* one's heart out (with); **3.** to lose* one's strength, to grow* weak, **(əldən düşmək)** to collapse, to break* down
**üzülüşmək** *f.* to settle accounts (with), to reckon (with), to settle up; **(həm də** *məc.***)** to get* even (with), to get* back of one's own
**üzüm I.** *i.* grapes *pl.*; **muskat ~ü** muscadine; muscat; vintage; **ağ** / **qara** / **çəhrayı** / **qırmızı** ~ white / dark / purple / golden grape; ~ **yığmaq** to cut* grapes **II.** *s.* grape; ~ **tənəyi** vine; ~ **mövsümü** vintage; grape harvest; ~ **şərabı** wine; ~ **bağı** vineyard; ~ **şirəsi** grape juice
**üzümçü** *i.* viticulturist, vine-grower, vineyardist
**üzümçülük I.** *i.* vine-growing **II.** *s.* vine-growing; ~ **sovxozu** vine-growing state farm
**üzüməbənzər** *s.* grapy, grape-shaped, grape like
**üzüməbənzərlik** *i.* the state or quality of being grapy / grape-shaped
**üzüməoxşar** *s. bax* **üzüməbənzər**
**üzüməoxşarlıq** *i. bax* **üzüməbənzərlik**
**üzümlük** *i.* vineyard
**üzündən** *qoş.* because of; on account of; through; **onun** ~ because of him / her; **tənbəllik** ~ through laziness; **ehtiyatsızlıq** ~ through carelessness; **yağış** ~ on account of the rain
**üzüşmək** *f.* **1.** *bax* **üzülüşmək**; **2.** to swim* all together
**üzüyola** *s.* compliant; obedient, dutiful; ~ **uşaq** obedient child; ~ **qulluqçu** dutiful servant
**üzüyolalıq** *i.* obedience, compliance
**üzüyumşaq** *s.* pliable, pliant, flexible, compliant
**üzüyumşaqlıq** *i.* pliability, pliancy, compliance

**üz-üzə** *z.* face to face; ~ **gəlmək** to come* face to face; to encounter (*d.*); ~ **oturmaq** to sit* face to face

**üzv** *i.* (*müx.* **mən)** member; **(əl və ayaqlar)** limbs; **(elmi cəmiyyət və s.)** fellow; *riyaz.* term; **həmkarlar təşkilatının ~ü** member of a trade union; **parlamentin ~ü** member of Parliament; **müxbir** ~ corresponding member; **komitənin ~ü olmaq** to be* on the committee; **cümlə ~ü** part of the sentence

**üzvi** *s.* organic; ~ **kimya** organic chemistry; ~ **dəyişikliklər** organic changes; ~ **xəstəlik** organic disease; ~ **analiz** organic analysis; ~ **maddə** organic matter

**üzvlük I.** *s.* membership **II.** *i.* membership; ~ **haqqı** membership dues; ~ **bileti** membership card

# Vv

**V, v** the 30[rd] letter of the Azerbaijani alphabet
**va** *nid.* o! oh!
**vacib** *s.* **1.** necessary, urgent; **~ məsələ** an urgent matter; a matter of great urgency; **~ iş** urgent business; **~ məlumat** the necessary information; **~ kitab** a necessary book; **2.** important; **~ qərar** important decision; **Yuxu sağlamlıq üçün vacibdir** Sleep is necessary to health
**vacibli** *s.* important, necessary; **~ qərar** important decision; **~ fact** important fact; **~ xəbər** important news; **~ kitablar** important books
**vaciblik** *i.* necessity, importance; urgency
**vadar** *s.* **~ olmaq** to be* obliged / forced / compelled / induced; **~ etmək** to force (*d.*), to compel (*d.*), to oblige (*d.*), to induce (*d.*)
**vadaretmə** *i.* compulsion
**vadi** *i.* valley; dell; **məhsuldar ~** fertile valley
**vafli** *i.* waffle
**vağ** *i. zool.* heron
**vağam** *s.* overripe; **~ arpa** overripe barley
**vağamlamaq** *f.* to become* / to grow* overripe
**vağanımaq** *f. bax* **vağamlamaq**
**vağanlatmaq** *f.* to let* to become* / to grow* overripe (*d.*)
**vağzal I.** *i. d.y.* station, railway station; **sərnişin ~ı** passenger station **II.** *s.* **~ rəisi** stationmaster
**vahə** *i.* oasis (*pl.*: oases)
**vahid I.** *i.* **1.** unit; **pul ~i** monetary unit; **ölçü ~i** unit of measurement; **nitq ~i** speech unit; **2. (rəqəm)** one; **3.** *riyaz.* unity **II.** *s.* **1.** single, common, indivisible; **~ və bölünməz** one and indivisible; **~ milli dil** single national language; **~ cəbhə** united front; **~ iradə** a single / common will; **~ plan** common plan; **~ dünya bazarı** single world market; **2.** only; **~ uşaq** only child
**vahidlik** *i.* unity; singleness; **fikir / baxış vahidliyi** unity of opinion / views; **nəzəriyyə və praktikanın vahidliyi** unity of theory and practice; **təbiət qanunlarının vahidliyi** the singleness of nature's laws
**vahimə** *i.* fear, fright, terror, horror; panic; **ölüm ~si** fear of death; **~ içində olmaq** to be* gripped / seized by fear, to be* panic-stricken; **~yə salmaq** to frighten (*d.*), to terrify (*d.*), to horrify (*d.*); **~yə düşmək** to be* terrified / horrified; to become* panic-stricken; **~ salmaq** to raise a panic, to cause a scare, to give* *smb.* fright; **~ basmaq** to get* / to have* a fright, to get* frightened; **~ götürmək** to be* frightened / terrified / horrified
**vahimələndirmə** *fi.* frightening, terrifying, horrifying
**vahimələndirmək** *f.* to frighten (*d.*), to terrify (*d.*), to horrify (*d.*)
**vahimələnmək** *i.* to be* frightened / to be* terrified / to be* horrified
**vahiməli** *s.* terrible, horrible, horrific, frightful, fearful, fearsome, dreadful; panic; **~ əhvalat** a dreadful story; **~ xəstəlik** horrible disease; **~ səs-küy** horrible din / noise; **~ mənzərə** frightful scene; **~ gecə** dreadful night; **~ görünüş** a fearsome sight
**vahiməlilik** *i.* fear, terror, horror
**vahiməsiz I.** *s.* fearless, intrepid **II.** *z.* fearlessly, intrepidly
**vahiməsizlik** *i.* fearlessness, intrepidity
**vaxsey** *nid.* My God! Goodness gracious! Goodness me!
**vaxt** *i.* **1.** time; **istənilən / hər ~** at any time; **uzun ~** a long time / while, much / plenty of time; **müəyyən ~** for a time / while; **o ~a qədər** till then, up to that time, by that time; **o ~dan** since then; **Mənim vaxtım yoxdur** I have no time; **az ~ı olmaq** to have* little time, to be* pressed for time; **~ olmadığı üçün** for lack of time; **2. (dövr)** time; times *pl.*; **bütün ~larda** at all times; **bizim ~da** in our time, nowadays; **səhər ~ı** morning; **axşam ~ı** evening; **gecə ~ı** night-time; **~dan ~a** at times, from time to time; **boş ~da** in one's spare time, at leisure; **Vaxt gözləmir** Time passes, There is no time to be lost; **Vaxt imkan vermir** Time forbids, There is no time; **boş ~** spare time; **Vaxt göstərər** Time will show; **son ~lar** lately, recently; **hazırki ~da** at present, today; **Hər şeyin öz vaxtı var** *at. söz.* There is a time for everything, Everything

is good in its season; **Vaxtdır** Now it's time; ~ **ikən** beforehand, in good time; **~ını uzatmaq (təxirə salmaq)** to delay (*d.*), to post on, to put off (*d.*); ~ **öldürmək** to kill time; **Moskva vaxtı** Moscow time; **Moskva vaxtı ilə saat ondur** It's ten Moscow time

**vaxtamuzd** *s.* ~ **iş** time work; ~ **əmək haqqı** payment by the hour (day, week, *etc.*)

**vaxtaşırı** **I.** *s.* periodic(al); ~ **başağrıları** periodic headaches **II.** *z.* periodically

**vaxtaşırılıq** *i.* periodicity

**vaxtbivaxt** *z.* at any time, any time one wants, always, constantly

**vaxtdan-vaxta** *z.* from time to time, at times, now and again, occasionally

**vaxtıilə** *z.* **1.** once, at one time; **Vaxtilə mən bu kitabı oxumuşam** I did read this book once; **2.** formerly, in former times; **Vaxtilə o**, **müəllim olub** Formerly he / she was a teacher

**vaxtında** *z.* **1.** in time, at the right moment, exactly; ~ **deyilmiş söz** a word in season; ~ **gəlmək** to come* on time / at the right moment, to come* / to be* exactly in time; **2.** during; **dava** ~ during the war; **3.** beforehand, in advance; ~ **bilet almaq** to book a ticket in advance / beforehand

**vaxtkeçirmə** *i.* pastime

**vaxtkən** *z.* *d.d.* in advance, in good time, ahead of time

**vaxtlı** *z.* in time, in proper time, early; ~ **gəlmək** to come* early

**vaxtlı-vaxtında** *z.* in time, accurately; **işi** ~ **görmək** to do* one's work accurately

**vaxtlı-vaxtsız** *z.* *bax* **vaxtbivaxt**

**vaxtölçən** *i.* chronometer

**vaxtsız** **I.** *s.* untimely, premature, unseasonable; ~ **ölüm** untimely / premature death; **həyatdan** ~ **köçmüş** untimely deceased **II.** *z.* untimely, prematurely; ~ **ölmək** to die untimely / prematurely, to die before one's time; ~ **gəlmək** to come* late, to be* late; **O, vaxtsız öldü** He / She died / passed away untimely

**vaxtsızlıq** *i.* lack of time, absence of time

**vaxtsız-vədəsiz** **I.** *s.* inopportune, ill-timed, unseasonable; ~ **vizit** an inopportune visit **II.** *z.* untimely, inopportunely

**vaiz** *i.* *arx.* preacher

**vaizlik** *i.* preaching; ~ **etmək** to preach, to sermonize

**vakansiya** *i.* vacancy [ˊvei-]; **~nı tutmaq** to fill a vacancy

**vakant** *s.* vacant [ˊvei-]; ~ **vəzifə** a vacant position; ~ **professor yeri** professorship

**vaks** *i.* shoe polish, blacking

**vaksin** *i.* *tib.* vaccine

**vaksinləmə** *fi.* *tib.* vaccination

**vaksinləmək** *f.* *tib.* to vaccinate (*d.*)

**vaksinlənmək** *f.* *tib.* to be* vaccinated

**vakslamaq** *f.* to polish (*d.*), to black (*d.*); **ayaqqabını** ~ to polish / to black one's shoes

**vakslanmaq** *f.* to be* polished / blacked

**vakslatmaq** *f.* to ask / to cause *smb.* to polish (*d.*), to ask / to cause *smb.* to black (*d.*); to have one's shoes polished / blacked

**vakuum** *i.* *tex.*, *fiz.* vacuum

**vakuumlu** *s.*: ~ **nasos** vacuum pump

**vaqe** *i.*: ~ **olmaq** to happen, to take* place, to come* about; **Dünən gülməli bir şey vaqe oldu** A funny thing happened yesterday; **Əhvalat Təbrizdə vaqe olur** The scene is laid in Tabriz

**vaqiə** *i.* **1.** accident, event, incident, case; **2.** dream, a vision during sleep; ~ **görmək** to dream; **dostu ~də görmək** to dream of a friend; **Vaqiədə gördüm ki**, **evdəyəm** I dreamed that I was at home

**vaqif** *s.* versed (in), conversant (with), well-informed (about); ~ **olmaq** to be* well-informed (about) / well versed (in); **ədəbiyyata** / **kimyaya və s.** ~ **olmaq** to be* conversant with literature / chemistry, *etc.*

**vaqqıldama** *fi.* **1.** **(bayquş)** hooting; **(ördək)** quacking; **(qurbağa)** croaking; **2.** *məc.* talking nonsense, chattering endlessly

**vaqqıldamaq** *f.* **1.** **(bayquş)** to hoot; **(ördək)** to quack; **(qurbağa)** to croak; **2.** *məc.* to talk nonsense, to chatter endlessly

**vaqqıldatmaq** *f.* to cause **(bayquş)** to hoot / **(ördək)** to quack / **(qurbağa)** to croak

**vaqqıltı** *i.* **(bayquş)** hooting; **(qurbağa)** croaking; **(ördək)** quacking

**vaqon** *i.* **(sərnişin üçün)** passenger carriage, coach; *amer.* passenger-car; **bərk** ~ hard-seated / "hard" carriage; **yumşaq** ~ soft-

seated carriage; **yataq ~u** sleeping-car, sleeper; **papiros çəkənlər üçün ~** smoking-carriage, smoker; **papiros çəkməyənlər üçün ~** non-smoker; **baqaj ~u** luggage van; *amer.* baggage car; **yük ~u** goods van; waggon; **(üstü açıq)** goods truck; *amer.* freight car; **poct ~u** mail van; *amer.* mail car

**vaqonçu** *i.* carriage-building worker

**vaqonet (ka)** *i.* trolley, truck, car

**vaqonetsürən** *i.* truck / trolley operator

**vaqonqayıran I.** *i.* carriage-building worker **II.** *s.* carriage-building; *amer.* car-building; **~ zavod** carriage-building works; *amer.* car-building plant

**vaqon-restoran** *i.* dining-car, restaurant-car; *d.d.* diner

**vaqon-sistern** *i.* tank-car

**vaqonsürən** *i. bax* **tramvaysürən**

**vaqon-vaqon** *z.* carloads, truckloads, loads of; **~ kömür** truck-loads of coal; **Onun vaqon-vaqon oyuncağı var** He / She has loads of toys

**val I.** *i. tex.* shaft **II.** *i.* **(qrammafon valı)** record, gramophone record

**valay** *i.* **~ vurmaq** *bax* **valaylamaq**

**valaylamaq** *f.* to reel, to stagger, to sway

**valaylanmaq** *f. bax* **valaylamaq**

**valeh** *s.* charmed, amazed, delighted, fascinated, captivated **~ olmaq** to be* charmed / amazed / delighted / fascinated / captivated; to go* into rapture; **~ etmək** to charm (*d.*), to amaze (*d.*) to fascinate (*d.*), to delight (*d.*), to captivate (*d.*)

**valehanə** *z.* amazingly, charmingly, fascinatingly, rapturously

**valehedici** *s.* charming, amazing, fascinating; delightful **~ qız** a charming girl; **~ təbəssüm** charming / fascinating smile; **~ qadın** an amazing woman*

**valehedicilik** *i.* charm, delight, fascination

**valehlik** *i.* charm, amaze, fascination, rapture, amazement

**valent** *i.* valency

**valentli** *s.* valent; **iki ~** bivalent

**valentlik** *i.* valency, valence

**valerian I.** *i. əcz.* valerian **II.** *s. əcz.*: **~ damcısı** valerian drops; tincture of valerian

**valet** *i.* **(qumar kağızı)** knave, Jack

**vali** *i. arx.* deputy, governor-general

**valideyn I.** *i.* parent **II.** *s.* parent's; parental; **~lər komitəsi (məktəbdə)** parent's committee; **~lər iclası (məktəbdə)** parent's meeting; **~ hüquqları** parental rights

**valideynlik** *i.* parentage

**valilik** *i.* governorship

**vallah** *nid.* by God!

**vallah-billah** *nid.* really and truly

**vallahi** *nid. bax* **vallah**

**vals** *s.* waltz [wɔ:ls]; **~ etmək** to waltz [wɔ:ls]

**valtorn** *mus.* French horn

**valtornçalan** *i. mus.* French horn player

**valyuta I.** *i. mal.* currency; **xarici ~** foreign currency; **sabit ~** hard currency **II.** *s. mal.* currency; **~ əməliyyatı** currency transaction; **~ məzənnəsi** rate of exchange

**valyutaçı** *i.* speculator in foreign currency

**vampir** *i. zool.* vampire-bat

**vandal** *i. tar.* vandal

**vandalizm** *i.* vandalism

**vandallıq** *i. bax* **vandalizm**

**vanil I.** *i.* vanilla **II.** *s.* vanilla; **~ tozu** vanilla powder

**vanilin** *i.* vanillin(e)

**vanilli** *s.* (*i.s.*) with vanilla; (*i.s.*) mixed with vanilla

**vanna I.** *i.* bath; **oturacaqlı ~** hip-bath; **günəş ~sı** sun-bath; **palçıq ~sı** mud-bath; **hava ~sı** air-bath; **uşaq ~sı** baby's bath; **~ qəbul etmək** to have* / to take* a bath **II.** *s.* **~ otağı** bath-room

**vannalı** *s.* (*i.s.*) with a bath-room, (*i.s.*) having a bath-room

**vannasız** *s.* bathless; (*i.s.*) without a bath

**var I.** *i.* property, fortune, wealth; **xalqın ~ı** national property **II.** *f.* **1.** there is, **(cəmdə)** there are; **Otaqda bir oğlan var** There is a boy in the room; **Həyətdə çox uşaq var** There are a lot of children in the yard; **2.** to have*; **Mənim bir qardaşım var** I have a brother; **~ olmaq** to exist; **Marsda həyat varmı?** Does life exist on Mars?; **~ qüvvəsilə** with all his / her strength; **Nə var, nə yox?** How are the things? **Biri vardı, biri yoxdu...** Once upon a time, there was / lived...; **Var olsun!** Long live! **Var ol!** Thanks! Bravo! **Ölkələr var ki,...** There are countries that...; **Adamlar var ki,...**; There are people who...

**var-dövlət** *i.* riches *pl.*; property, fortune, wealth; stock of wealth; **~i olmaq** to have* large property, to be* well-to-do; **~ içində yaşamaq** to live* luxuriously, to live* like a lord

**yaddançıxmaz** *s.* unforgettable; **~ gün** unforgettable day; **~ illər** unforgettable years; **~ əhvalat** unforgettable occurence

**yaddaş** *i.* memory; **yaxşı ~** good / retentive memory; **pis ~** bad / poor memory **~ını itirmək** to lose* one's memory; **~ında saxlamaq** to bear* / to keep* / to have* in memory; **Bu mənim yaddaşımdan çıxıb** It slipped / escaped my memory / remembrance

**yaddaşçiçəyi** *i. bot.* forget-me-not

**yaddaşlı** *s.* (*i.s.*) with good / retentive memory, (*i.s.*) having a good / a retentive memory

**yaddaşlılıq** *i.* the state or quality of having good / retentive memory

**yaddaşsız** *s.* forgetful, absent-minded; **~ adam** a forgetful / an absent-minded man*

**yaddaşsızlıq** *i.* **1.** forgetfulness, absent-mindedness; **~dan əziyyət çəkmək** to suffer from forgetfulness; **2.** *tib.* amnesia

**yadelli I.** *i.* stranger, foreigner **II.** *s.* strange, alien, foreign; *şair.* outlandish; **~ istismarçılar** foreign oppressors; **~ işğalçılar** alien / foreign conquerors

**yadırğamaq** *f.* **1.** to get* out of the habit (of), to break* oneself of the habit (of); to give* up, to stop (+ger); **papiros çəkməyi ~** to stop smoking; **2.** to lose* the art (of), to forget* (how+to *inf.*) **Onlar ingiliscə danışmağı yadırğayıblar** They have forgotten how to speak English

**yadırğatdırmaq** *f. bax* **yadırğatmaq**
**yadırğatmaq** *f.* **1.** to ask / to cause *smb.* to get out of the habit (of); **2.** to ask / to cause *smb.* to forget (how+to *inf.*)
**yadigar** *i.* souvenir, keepsake; memory; **əsrlərin ~ı** the memory of centuries; **bir kəsə nəyi isə ~ olaraq vermək** to give* *smth.* as a keepsake / as a souvenir to *smb.*; **~ saxlamaq** to keep* as a keepsake / a souvenir
**yadlaşdırmaq** *f.* to estrange (*d.*), to alienate (*d.*); **özünü ~** to estrange oneself; **ailəsini ~** to alienate one's family; **Sizin hərəkətiniz sizi qardaşınıza yadlaşdırdı** Your behaviour estranged you from your brother
**yadlaşmaq** *f.* to be* / to get* estranged, to become* estranged / alienated
**yadlıq** *i.* estrangement, alienation
**yağ I.** *i.* **1.** butter; **(bitki / mineral yağ)** oil; **kərə ~ı** unsalted fresh butter; **duzlu ~** salted butter; **bitki ~ı** vegetable oil / ghee; **gül ~ı** attar of roses; **maşın ~ı** machine oil; **2.** fat; **(əridilmiş)** grease; **heyvan ~ı** animal fat; ◊ **odun üstünə ~ tökmək** to pour oil on the flame, to add fuel to the fire; **İşlər yağ kimi gedir** Things are going swimmingly; ◊ **göz ~ı yemək** ≅ to be* on bad terms (with), to find fault (with *smb.*) continually **II.** *s.* oil, grease; **~ ləkəsi** oil / grease stain, grease spot; **~ zavodu** creamery, butter-dairy; **(bitki yağı hazırlayan)** oil mill
**yağçıxaran** *i.* tex: **(bitkidən)** oil-press
**yağ-çörək** *i.* (slice of) bread and butter; open sandwich
**yağdan** *i. bax* **yağqabı**
**yağdırmaq** *f.* **1.** to cause to rain / to snow, to be* the reason of rain / snow; **2.** to shower (on *d.*); *məc.* to heap (on *d.*); to hurl (at); **tərif ~** to shower praises (on, upon); **zərbə ~** to shower blows (upon); **bir kəsə söyüş ~** to heap abuse on *smb.*; **bir kəsə tənə / məzəmmət ~** to hurl reproaches at *smb.*; **Aktyorların başına çiçək yağdırdılar** The actors were showered with flowers; **bir kəsin üstünə sual ~** to bombard *smb.* with questions, to fire questions at *smb.*
**yağdırtdırmaq** *f. bax* **yağdırtmaq**
**yağdırtmaq** *f.* **1.** to cause to rain / to snow; **2.** to ask / to cause *smb.* **(gül-çiçək)** to shower (*d.*) / **(məzəmmət)** to hurl / **(sual)** to bombard
**yağı I.** *i.* enemy, foe; **amansız ~** merciless / ruthless enemy; **namərd ~** mean / base / foul enemy; **~ çıxmaq** to turn out an enemy; **~ kəsilmək** 1) to be* enemy; 2) to be* in *smb.*'s way; ◊ **Yağı görsə yazığı gələr** ≅ Even an enemy may pity / feel sorry **II.** *s.* sworn; **~ düşmənlər** sworn enemies
**yağılıq** *i.* hostility, animosity, enmity
**yağınlıq** *i.* rainy / wet weather
**yağıntı** *i.* rainfall, rainhead
**yağıntılı** *s.* rainy; wet; **~ hava** rainy / wet weather
**yağır** *i.* scratch; abrasion; a sore place on the back of a horse, a sore place on the withers of animals; **~ etmək** to make* a sore place on the back of a horse; **beli ~ olmaq** to have* a sore place on the back
**yağırlı** *s.* (*i.s.*) with a sore place on the back, (*i.s.*) having a sore place on the back; **~ at** a horse with / having a sore place on the back
**yağış I.** *i.* rain; **güclü / bərk ~** a heavy rain; **aramsız / arasıkəsilməz ~** downpour / pouring / pelting rain; **çisəkli ~** drizzling rain, drizzle; **~da** in the rain; **~ yağır** 1) **(ümumiyyətlə)** It rains; **Payızda yağış yağır** It rains in autumn; 2) **(danışıq vaxtı)** It is raining; **Yağış elə bil vedrədən tökülür** It is pouring with rain, It is pouring in bucketfuls, The rain is coming down in torrents / in sheets; *d.d.* It is raining cats and dogs *idiom.*; **Yağış kəsib / dayanıb** The rain has stopped; It has stopped raining; **Yağışdan çıxdıq, yağmura düşdük** ≅ *at. söz.* Out of the pan into the fire; **İslanmışın yağışdan nə qorxusu** ≅ He that is down need no fear fall **II.** *s.* rain (*attr.*); **~ damcıları** raindrops; **~ suyu** rain-water; **~ buludu** raincloud; **~ paltosu** *dən.* oilskins *pl.*
**yağışlı** *s.* rainy, rain; **~ günlər** rainy days; **~ hava** rainy weather; **~ buludlar** rainclouds
**yağışlı-çiskinli** *s.* rainy, cloudy, dull, gloomy, sullen; **~ günlər** rainy / gloomy days; **~ hava** rainy / gloomy / foul weather
**yağışlıq** *i.* wet / rainy weather, raininess

**yağışlılıq** *i.* the state of being rainy
**yağışölçən** *i.* **(cihaz)** rain-gauge [-ɡeɪdʒ]
**yağışsız** *s.* rainless; (*i.s.*) without rain; arid, dry; ~ **yay** rainless / dry summer
**yağışsızlıq** *i.* dry weather; the period of being rainless
**yağışyağdıran** *s. k.t.*: ~ water-sprinkler
**yağış-yağmur** *i. bax* **yağıntı**
**yağqabı** *i.* butterdish
**yağlama I.** *fi.* greasing, lubrication; **təzyiqlə** ~ force lubrication **II.** *s.* lubricating; ~ **dəzgahı** lubricator
**yağlamaq** *f.* **1. (inək yağı ilə)** to butter (*d.*); **(bitki yağı ilə)** to oil (*d.*); **(yağ sürtmək)** to grease (*d.*); **qıfılı** ~ to grease the lock; **tavanı** ~ to grease the pan; **motoru** ~ to lubricate the engine; **maşını** ~ to lubricate a machine; **2.** *məc. d.d. bax* **söymək**
**yağlanma** *fi.* **1.** greasing; lubrication; **2. (kökəlmə)** adiposity, obesity
**yağlanmaq** *f.* **1.** to be* greased / lubricated; **2.** to get* / to become* fat; **3.** *məc.* to become* rich, to make* fortune; **4. (yağa bulaşmaq)** to become* dirty with grease / oil / butter, to be* stained with oil / grease, to become* greasy
**yağlatdırmaq** *f. bax* **yağlatmaq**
**yağlatmaq** *f.* to ask / to cause *smb.* to grease (*d.*) / to lubricate (*d.*)
**yağlayıcı I.** *i. tex.* lubricator; **(əl)** oilcan, oiler; greaser **II.** *s.* lubricating
**yağlı I.** *s.* **1.** fat, fatty; rich; ~ **heyvan** fat cattle; ~ **ət** fat / fatty meat; ~ **qoyun əti** fat / fatty mutton; ~ **şorba** fat / rich soup; ~ **gil** fat clay; ~ **boya** oil-paint; **2.** greasy, oily; ~ **qida** greasy / oily food; ~ **saç** greasy hair; **dəri** greasy skin; ~ **barmaq** a greasy finger; ~ **maye** an oil liquid; **3.** *məc.* rich, well-to-do, solvent, wealthy, free with money; ◊ ~ **müştəri** a rich / well-to-do customer **II.** *z.* fatly, greasily; ~ **yemək** to eat* rich food
**yağlıdil** *s.* smooth-tongued, smooth-spoken, mealy-mouthed
**yağlılıq** *i.* fatness, greasiness
**yağlı-yağlı I.** *s.* sweet, smooth; ~ **söhbətlər** sweet talks; ~ **sözlər** smooth words **II.** *z.* sweetly; greasily; ~ **danışmaq** to speak* sweetly
**yağmaq** *f.* **1.** to fall*; **yağış** ~ to rain; **qar** ~ to snow; **dolu** ~ to hail; **Bərk yağış yağıb** There has been a heavy fall of rain; **2.** *məc.* to rain down, to pour forth; **Üstümüzə sual yağdı** Questions rained down on us; **üzündən nur** ~ to shine* with kindness; **üzündən sevinc** ~ to shine* with joy
**yağmur** *i.* rain, rainy weather, rainfall
**yağmurlamaq** *f.* to rain, to become* rainy; **hava yağmurlayacaq** It'll rain
**yağmurlu** *s.* rainy, wet; ~ **hava** rainy weather
**yağmurluq** *i.* rainfall, raininess, plenty of precipitation
**yağmurölçən** *i. bax* **yağışölçən**
**yağmursuz** *s.* rainless, dry; (*i.s.*) without rain; ~ **yay** rainless / dry summer
**yağmursuzluq** *i.* dry spell; dry weather
**yağölçən** *i. tex.* probe
**yağ-pendir** *top. i.* butter and cheese
**yağ-rəng** *i.* oil paint
**yağsatan** *i.* butter seller; oil seller
**yağsız** *s.* butterless, (*i.s.*) without butter; oilless, (*i.s.*) without oil; fatless, (*i.s.*) without fat; *d.d.* lean; ~ **ət** lean meat
**yağsızlanmaq I.** *f. bax* **yağsızlaşmaq II.** *f.* to get* / to become* fatless; to have* no butter / oil; to become* / to get* lean
**yahu** *nid.* My God! Goodness gracious! Goodness me!
**yaxa** *i.* collar; **(kişi köynəyində)** neckband; **~sını açmaq (düyməsini)** to unbutton (*d.*); **(qarmaqdan)** to unhook (*d.*); **~sını bağlamaq** to fasten (*d.*), to do* up (*d.*); **(düymə ilə)** to button up (*d.*); **(qarmaqla)** to hook up (*d.*); **məsuliyyətdən ~sını qurtarmaq** to avoid / to evade / to dodge the responsibility; ◊ **~sı əldə qalmaq** to be* collared; ◊ **~sından əl çəkmək** to leave* / to let* alone (*d.*); ~ **sından yapışmaq** / **tutmaq** *bax* **yaxalamaq**
**yaxalamaq I.** *f.* **1.** to collar (*d.*), to take* by the scruff of the neck (*d.*); **küçədə** ~ to collar in the street; **2.** to overtake* (*d.*) to catch* (*d.*); **qəflətən** ~ to take* by surprise; **Tufan bizi meşədə yaxaladı** We were overtaken / caught by the storm in the forest **II.** *f.* **(qabı, paltarı və s.)** to rinse (*d.*); **(boğazı)** to gargle (*d.*); **döşəkağını** ~ to rinse linen; **ağzını** ~ to rinse out one's mouth; **Ağzını yaxala** Rinse your mouth

**yaxalanmaq I.** *f.* **1.** to be* caught / overtaken; **Quldurlar yaxalandı** Robbers were caught / overtaken; **2.** to be* collared **II.** *f.* **(paltar, ağız və s.)** to be* rinsed; **(boğaz)** to be* gargled

**yaxalatdırmaq I.** *f. bax* **yaxalatmaq I II.** *bax* **yaxalatmaq II**

**yaxalaşmaq** *f.* to seize each other by the collar; to start / to join hand-to-hand fight(ing)

**yaxalatmaq I.** *f.* **1.** to ask / to cause *smb.* to collar (*d.*); **2.** to ask / to cause *smb.* to catch (*d.*) by the collar **II.** *f.* to ask / to cause *smb.* **(paltarı, ağızı və s.)** to rinse (*d.*) / **(boğazı)** to gargle (*d.*)

**yaxalı** *s.* (*i.s.*) with a collar, (*i.s.*) having a collar; ~ **köynək** a shirt with / having a collar

**yaxalıq** *i.* **1.** collar; **köynəyin yaxalığı** the collar of a shirt; **2. (uşaq üçün)** bib; **(qoşquda)** breast collar; **3. (parça)** (*i.s.*) fit / suitable for collar

**yaxantı** *i.* slops

**yaxarmaq** *f.*: **yalvarıb-** ~ to beg (*d.*+to *inf.*), to implore (*d.*+to *inf.*), to entreat (*d.*+to *inf.*)

**yaxasıaçıq** *s.* **1.** unfastened; unbuttoned; ~ **köynək** unfastened shirt; **2.** low neck; ~ **don** decollete dress, low-necked dress

**yaxasız** *s.* collarless; (*i.s.*) without a collar

**yaxdan** *i.* box

**yaxdırmaq** *f.* to ask / to cause *smb.* to spread (on); **yağ** ~ to ask / to cause *smb.* to spread butter (on)

**yaxdırtmaq** *f. bax* **yaxdırmaq**

**yaxı** *i.* putty; ~ **ilə doldurmaq** to fill up with putty

**yaxıb-yandırmaq** *f. bax* **yandırıb-yaxmaq**

**yaxılmaq** *f.* to be* spread on

**yaxın I.** *s.* **1.** near; ~ **qohum** near relation; ~ **gələcəkdə** in the near future; ~ **məsafədə** at a short distance, a short way off; **2. (münasibət)** intimate, close; **bir kəsə** ~ **olmaq** to be* dear to *smb.*; **bir kəslə** ~ **münasibətdə olmaq** to be* on terms of intimacy with *smb.*; **3.** like, similar; **4.** next-door, neighbouring; ~ **kənd** the neighbouring village; ~ **qonşu** next-door neighbour; **5.** nearest; next; immediate; ~ **vəzifə** immediate task; ~ **günlərdə** within the next few days **II.** *z.* near, closely; *məc.* nearly; ~ **yaşamaq** to live close by; to live near (to); ~ **durmaq** to stand* near; **Qayanın qırağına çox yaxın getmə** Don't go too near (to) the edge of the cliff **III.** *qoş.* by; near; about; **şəhərə** ~ near the town; **üç günə** ~ about three days; **günortaya** ~ about noon

**yaxında** *z.* **1.** near at hand, hereabout(s), close by; near here; next door; ~ **yaşamaq** to live near at hand / hereabout / next door / close by; **2.** recently, lately, not long ago; **O, yaxınlarda gəlib** He / She came not long ago; **3.** soon, in the nearest future; **Onlar yaxınlarda gələcəklər** They will come soon

**yaxındakı** *s.* **1.** near, nearby, neighbouring; ~ **şəhər** nearby town; ~ **ev** neighbouring house; **2.** coming, forthcoming; ~ **seçkilər** forthcoming elections; **3. (keçmiş)** recent; ~ **seçki** recent election

**yaxından** *z.* closely, at a short distance; **(şəkil çəkmək, güllə atmaq)** at short range; ~ **güllə atmaq** to shoot* at short range; ~ **baxmaq** to look at a short distance; ~ **tanış olmaq** to become* closely acquainted (with); ~ **əlaqə saxlamaq** to have* a close connection: ~ **iştirak etmək** to take* an active part; ~ **maraqlanmaq** to be* greatly interested (in), to take* great interest (in); ~ **diqqət vermək** to pay* great attention; to be* very much interested (in); ~ **kömək etmək** to help directly

**yaxıngörən I.** *i.* near-sighted / short-sighted man* **II.** *s.* near-sighted, short-sighted

**yaxıngörmə** *i. tib.* myopia [maı'oupiə]

**yaxınında** *qoş.* nearby, close by; **şəhərin** ~ nearby the town

**yaxınlarda** *z. bax* **yaxında (2-ci və 3-cü mənalarda)**

**yaınlaşdırılmaq** *f.* to be* brought nearer / closer; to be* drawn closer

**yaxınlaşdırmaq** *f.* **1.** to draw* nearer (*d.*), to bring* nearer / closer (*d.*); **kitabı gözünə** ~ to bring* the book nearer / closer to one's eyes; **sənayeni xammal mənbəyinə** ~ to bring* industry nearer to the sources of raw materials; **2.** to bring* / to throw* together: **Tale bizi yaxınlaşdırdı** Fate brought / threw us together

**yaxınlaşmaq** *f.* to approach, to draw* / to come* nearer (to); near; **şəhərə** ~ to approach the town; **Biz şəhərə yaxınla-**

**şırdıq** We were approaching the town; **Gəmi sahilə yaxınlaşırdı** The ship was nearing land

**yaxınlığında** *qoş.* near, not far from; **məktəbin** ~ near the school, not far from the school

**yaxınlıq** *i.* **1. (məsafə)** nearness, closeness; proximity; **xammal mənbəyinə** ~ proximity to the sources of raw materials; **bilavasitə** ~ immediate proximity (to); **2. (münasibətdə)** intimacy

**yaxınlıqda** *z.* next (to), next door, close by; ~ **yaşamaq** to live close by / next door; **Mən yaxınlıqda yaşayıram** I live next door / close by

**yaxınlıqdan** *z.* not far of, near at hand, hereabout

**yaxın-uzaq** *s.* near, near and far, near and distant; ~ **ölkələr** near and far countries; ~ **qohumlar** near and distant relations / relatives

**yaxışdırmaq** *f.* to spread* roughly and quickly (on, *d.*), to smear (*d.* with)

**yaxma I.** *i.* bread and butter, open sandwich (with butter) **II.** *fs.* spreading, smearing

**yaxmac** *i.* bread and butter, bread spread with butter

**yaxmaq I.** *f.* to spread* (on *d.*), to smear (*d.* with); **çörəyə yağ** ~ to spread* bread with butter; **maz** ~ to apply an ointment (to); **dodağını** ~ to put* lipstick on; ◊ ufhf ~ to slander (*d.*), to vilify (*d.*), to smear (*d.*); to cast* slurs (upon); to fling* mud at *smb.* **II.** *f.* *bax* **yandırmaq**

**yaxşı I.** *i.* good* **~nı yamandan ayırmaq** to distinguish good from evil **II.** *s.* good* fine; ~ **adam** a good man*; ~ **hava** good / fine weather; ~ **məsləhət** good advice; ~ **həyat** a good life; ~ **qiymət** a good mark; ~ **müəllim** a good teacher; ~ **xəbər** good news **III.** *z.* well* ~ **danışmaq** to speak* well; ~ oxumaq 1) to do* well in one's studies; to read* well; **1. (mahnı)** to sing* well; **bir kəs haqqında** ~ **fikirləşmək** to think* well of a person; ~ **yazmaq** to write* well; ~ **yumaq** to wash well; ~ **yatmaq** to sleep* well; **2. (bir fikri təsdiq məqamında)** All right! Agreed! OK! Okay!

**yaxşıca I.** *s.* pretty, nice; ~ **qız** a pretty girl; ~ otaq a nice room **II.** *z.* *bax* **yaxşı-yaxşı**

**yaxşılandırmaq** *f.* *bax* **yaxşılaşdırmaq**

**yaxşılaşdırma** *fi.* improvement; **beynəlxalq əlaqələri** ~ improvement of international relations

**yaxşılaşdırmaq** *f.* to improve (*d.*), to better (*d.*), to make* better (*d.*), **bir kəsin vəziyyətini** ~ to improve *smb.*'s conditions; **əlyazmasını** ~ to improve one's handwriting

**yaxşılaşmaq** *f.* to improve; to take* a turn for the better; **(xəstəlikdən)** to recover; **Hava yaxşılaşıb** The weather has improved

**yaxşılatdırmaq** *f.* *bax* **yaxşılatmaq**

**yaxşılatmaq** *f.* *bax* **yaxşılaşdırmaq**

**yaxşılıq** *i.* good, goodness, kindness, favour; **böyük** ~ great kindness; **bir kəsə** ~ **etmək** to show* / to do* *smb.* kindness; **Mən ondan çox yaxşılıqlar görmüşəm** He / She was very good to me, I have received many kindnesses from him / her

**yaxşılıqla** *z.* in a friendly way, in an amicable way; of one's own free will

**yaxşı-pis** *z.* *bax* **yaxşı-yaman**

**yaxşı-yaxşı** *z.* thoroughly, properly, perfectly; well and truly; ~ **oxumaq** to read* (*d.*) thoroughly / perfectly (*d.*); ~ **təmizləmək** to clean (*d.*) properly

**yaxşı-yaman** *z.* *d.d.* at the very least; the very smallest; ~ **yaşamaq** to live at the very least

**yaxta** *i.* *id.* yacht [jɔt]

**yaxtklub** *i.* *id.* yacht-club [jɔt-]

**yaxtsmən** *i.* *id.* yachtsman* [jɔt-]

**yaxud** *bağ.* or; **çay** ~ **kofe** tea or coffee; **səhər** ~ **axşam** morning or evening

**yak** *i.* *zool.* yak

**yakobin** *i.* *tar.* Jacobin

**yakobinçi** *i.* *tar.* Jacobin

**yakobinçilik** *i.* *tar.* Jacobinism

**yakut I.** *i.* Yakut **II.** *s.* Yakut; ~ **dili** Yakut, the Yakut language

**yakutca** *z.* Yakut; ~ **danışmaq** to speak* Yakut; ~ **yazmaq** to write* in Yakut

**yaquar** *i.* *zool.* jaguar [ˈdʒægjuə]

**yaqut I.** *i.* ruby **II.** *s.* ruby; ~ **rəngli** ruby-coloured

**yaqutabənzər** *s.* ruby-coloured, rubylike

**yal I.** *i.* mane; at **~ı** mane of a horse **II.** *i.* **(it yemi)** mash **III.** *i.* *coğ.* crest; **dağın ~ı** the crest of the mountain

**yalaq** *i.* pit; hole; ~ **qazmaq** to dig* a pit / a hole
**yalama** *i.* **1.** lick, licking; **2.** round and flat stone
**yalamaq** *f.* to lick (*d.*), to have* a lick; **bir şeyi** ~ to lick *smth.*, to have* a lick at *smth.*; **Pişik boşqabı yaladı** The cat licked the plate; ◊ **bir kəsin dabanını (ayaqqabısını)** ~ to lick *smb.*'s boots; ◊ **tüpürdüyünü** ~ to retract one's words, to go* back on one's word / promise; ◊ **duz kimi** ~ to cover with kisses (*d.*), to shower kisses (on)
**yalan I.** *i.* lie, falsehood; **ağ** ~ outrageous / blatant lie; **müqəddəs** ~ white lie; ◊ ~ **satmaq** *bax* **aldatmaq**; ◊ **Yalan ayaq tutar, amma yeriməz** *at. söz.* ◊ Lies have short legs; **Yalanın mənzili yaxın olar** *at. söz.* ≅ A lie has a short life; **Onun yalanı mənə baha başa gəldi** / **oturdu** His falsehood cost me much **II.** *s.* false, not sincere, hypocritical; ~ **həyəcan** false alarm; ~ **xəbər** false news; ~ **məlumat** false information; ~ **təbəssüm** hypocritical smile **III.** *z.* falsely; ~ **danışmaq** to tell* lies, to tell* falsehoods, to tell* fibs
**yalançı I.** *i.* liar; *d.d.* fibber **II.** *s.* **1.** lying, untruthful, false, deceitful; ~ **peyğəmbər** lying prophet; ~ **sözlər** deceitful words; ~ **dil** lying tongue; **2.** pseudo-; ~ **elm** pseudo-science; ~ **demokratiya** pseudo-democracy
**yalançılıq** *i.* mendacity, falsity; ~ **etmək** to lie, to tell* lies, to tell* falsehoods, to tell* fibs; *d.d.* to talk a lot of hot air *idiom.*
**yalandanışan** *i. bax* **yalançı I**
**yalan-doğru** *z.* by fair means or foul; by hook or by crook
**yalan-gerçək** *z. bax* **yalandoğru**
**yalanlıq** *i.* falsity
**yalanmaq** *f.* to lick one's lips; **(heyvan** *haq.***)** to lick itself
**yalan-palan I.** *i.* lies, idle talk, nonsense, cock-and-bull story **II.** *z.*: ~ **danışmaq** to tell* tall stories; *d.d.* to talk a lot of hot air
**yalan-yalnış I.** *s.* false and erroneous; careless, superficial **II.** *z.* erroneously, carelessly, superficially
**yalaşmaq** *f.* **1.** to lick each other / one another; **2.** *d.d.* to cover each other with kisses
**yalatdırmaq** *f. bax* **yalatmaq**
**yalatmaq** *f.* to ask / to cause *smb.* to lick (*d.*)
**yalavac I.** *i.* hungry man*, poor man* **II.** *s.* hungry, famine (*attr.*)
**yalavaclıq** *i.* hunger, famine, starvation
**yalçın** *s.* sheer, steep; ~ **qaya** a sheer cliff
**yalıgödək** *s.* short-maned; (*i.s.*) with short-mane, (*i.s.*) having short-mane
**yalıgödəklik** *i.* the state or quality of being short-maned
**yalın I.** *s.* bare, naked; **(yəhərsiz at)** bareback, barebacked; ~ **(yəhərsiz) at** a barebacked horse; ~ **ayaqlar** bare feet; ~ **qıçlar** bare legs; ~ **qılınc** naked sword; ~ **dağlar** bare mountains; ~ **əllə** with one's bare hand **II.** *z.* bareback; **atı** ~ **(yəhərsiz) minmək** to be* a bareback rider, to ride a horse bareback
**yalınayaq I.** *s.* bare-footed; ~ **uşaq** bare-footed child; ~ **rəqqasə** bare-footed dancer **II.** *z.* barefoot; ~**gəzmək** to walk barefoot / barefooted
**yalınbaş** *s.* bare-headed; ~ **oğlan** a bareheaded boy / fellow
**yalınqat** *s.* single-fold, not double
**yalınlıq** *i.* the state of being bare
**yalqız I.** *s.* lonely, solitary, alone; ~ **ev** a lonely house; ~ **ağac** a solitary / alone tree; ~ **həyat** a lonely life **II.** *z.* alone, lonely; ~ **yaşamaq** to live alone, to lead* a lonely life; **özünü** ~ **hiss etmək** to feel* lonely; ~ **oturmaq** to sit* alone; **tamam** ~ all / quite alone; **Məni yalqız buraxın** Leave me alone
**yalqızca** *z.* quite alone / lonely
**yalqızlamaq** *f.* to become* alone / lonely, to get alone / lonely
**yalqızlaşmaq** *f. bax* **yalqızlamaq**
**yalqızlıq** *i.* loneliness, solitude; ~**dan əziyyət çəkmək** to suffer from loneliness
**yalqızlıqda** *z.* in solitude; ~ **yaşamaq** to live in solitude; ~ **qalmaq** to find* oneself isolated / in isolation
**yallamaq I.** *f.* to feed* (*d.*) on mash; iti ~ to feed* a dog on mash **II.** *f.* to grasp / to seize the mane (of a horse), to catch* hold of the mane (of a horse)
**yallanmaq** *f.* **1.** to be* fed on mash; **2.** *məc.* to get* rich, to make* a pile; **3. (adam** *haq.***)** *d.d.* to eat*

**yallı I.** *i.* Turkish folk dance **II.** *s.* maned, long-maned
**yallıq** *i.* fit / suitable for mash
**yalman** *i.* mane
**yalmanlamaq** *f.* to seize / to grasp hold of the mane (of a horse)
**yalmanlatdırmaq** *f. bax* **yalmanlatmaq**
**yalmanlatmaq** *f.* to ask / to cause *smb.* to grasp hold of the mane (of a horse, *etc.*)
**yalmanlı** *s.* maned, long-maned
**yalmanmaq** *f. d.d.* to suck up (*to*)., to wheedle (*d.*); to lick *smb.*'s boots *idiom.*
**yalnız I.** *z. bax* **yalqız II.** ***əd.*** only, merely, just; **Mən yalnız bilmək istəyirəm** I only / merely want to know...; **yalnız ona görə ki**, ... Only / Just because...; **İndi yalnız saat ikidir** It's only two o'clock now
**yaltaq I.** *i.* toady, bootlicker, wheedler, sycophant [ˊsıkəfənt]; *d.d.* lickspittle **II.** *s.* flattering, adulatory, wheedling, obsequious; smooth-tongued; ~ **dil** flattering tongue; ~ **nəzakət** obsequious politeness; ~ **nitq** wheedling speech **III.** *z.* in a flattering / adulatory way, obsequiously
**yaltaqcasına** *z. bax* **yaltaq III**
**yaltaqlanmaq** *f.* to toady (to), to fawn (upon), to cringe (to, before), to wheedle
**yaltaqlıq** *i.* flattery, adulation, toadying, bootlicking, fawning; ~ **etmək** *bax* **yaltaqlanmaq**
**yaltaq-yaltaq** *z. bax* **yaltaq III**
**yalvarıb-sıtqamaq** *f.* to beg / to ask with tears in one's eyes
**yalvarıb-yaxarmaq** *f.* to ask / to beg anxiously, to beseech*, to implore, to entreat
**yalvarıb-yapışmaq** *f.* to entreat (*d.*), to beg urgently / insistently; **Qız anasına yalvarıb-yapışdı ki, onu bağışlasın** The girl entreated her mother to forgive her
**yalvarıcı** *s.* pleading, suppliant, imploring, supplicatory; ~ **baxış** pleading / imploring look / glance; ~ **səs** pleading voice
**yalvarış** *i.* entreaty, supplication; begging
**yalvarışlı** *s. bax* **yalvarıcı**
**yalvarmaq** *f.* to entreat (*d.*+to *inf.*), to beg (*d.*+to *inf.*), to implore (*d.*+to *inf.*); **Yalvarıram sizə fikirləşin** I entreat you to think; **Sizə yalvarıram** I implore you
**yalvartmaq** *f.* to make* *smb.* entreat / beg / implore
**yalvar-yaxar** *i. bax* **yalvar-yarış**
**yalvar-yaxarla** *z. bax* **yalvar-yapışla**
**yalvar-yapış** *i.* entreaty, begging; ~ **etmək** to entreat, to beg urgently, implore; **Yalvar-yapışla mən ona təsir edə bilmədim** I couldn't influence him / her by entreaty
**yalvar-yapışla** *z.* entreatingly; begging urgently
**yamac** *i.* slope, hill-side; hang; dik ~ steep slope; az **meylli** ~ gentle slope; **təpənin cənub ~ı** the south hang of the hill; **~a dırmaşmaq** to climb a slope
**yamaq** *i.* patch; ~ **salmaq** / **qoymaq** to patch up (*d.*)
**yamaqçı** *i.* shoemaker; patcher; *məc.* bungler
**yamaqçılıq** *i.* the trade of a shoemaker / a patcher
**yamaqlamaq** *f.* to patch up (*d.*), to mend (*d.*), to darn (*d.*); **köynəyi** ~ to mend a shirt
**yamaqlatdırmaq** *f. bax* **yamatmaq**
**yamaqlatmaq** *f. bax* **yamatmaq**
**yamaqlı** *s.* patched; ~ **şalvar** patched trousers; ~ **köynək** patched shirt; ~ **palto** patched coat; ~ **corab** patched sock
**yamaqlıq** *i.* (*i.s.*) suitable / fit for patch; ~ **parça** fabric suitable / fit for patch(ing)
**yamaqsız** *s.* patchless; (*i.s.*) without a patch
**yamaqsızlıq** *i.* the state or quality of being without a patch
**yamaq-yamaq** *s.* patched all aver, covered in patches; ~ **olmaq** to be* patched and darned
**yamamaq** *f.* to patch up (*d.*), to mend (*d.*), to darn (*d.*); **köynək** ~ to mend a shirt; **ayaqqabı** ~ to mend shoes; **paltar** ~ to mend clothes
**yaman I.** *i.* evil; harm; ◊ **yaxşını ~dan ayırmaq** ≅ to separate the sheep from the goat **II.** *s.* **1.** bad, nasty; ~ **gün** a bad day; ~ **tufan** nasty storm; **2.** wicked, malicious; ~ **dil** wicked / spiteful tongue; **3.** surprising, striking, wonderful, unusual; extraordinary; **O yaman ağıllı oğlandır** He is an unusual / an extraordinary boy; **Yaman günün ömrü az olar** *at. söz.* ≅ After a storm comes a calm **III.** *z.* very, very much, greatly; **Yaman soyuqdur** It's very / terribly cold; **O, yaman təəccübləndi** He / She got very / greatly surprised; **Mən onu yaman xoşladım** I liked it very much

**yamanca** *z.* too, very; **Yamanca yorulmuşam** I am very / too tired
**yamanlamaq** *f.* to abuse (*d.*), to revile (*d.*)
**yamanlatdırmaq** *f. bax* **yamanlatmaq**
**yamanlatmaq** *f.* to ask / to cause *smb.* to abuse (*d.*) / to revile (*d.*)
**yamanlıq** *i.* evil: harm; **bir kəsə ~ etmək** to harm / to hurt* *smb.*; **yaxşılığa yamanlıqla cavab vermək** to repay* good with evil
**yamanmaq** *f.* to be* patched
**yaman-yaxşı** *z.* somehow, anyhow, haphazardly
**yamatdırmaq** *f. bax* **yamatmaq**
**yamatmaq** *f.* to ask / to cause *smb.* to patch (*d.*); to have* (*d.*) patched
**yamsılamaq** *f.* to imitate (*d.*), to mimick (*d.*), to mimic (*d.*); **bir kəsin hərəkətini ~** to imitate someone's movement; **bir kəsin səsini yamsılamaq** to mimic *smb.*'s voice
**yamsılanmaq** *f.* to be* imitated / mimicked
**yamsılatdırmaq** *f. bax* **yamsılatmaq**
**yamsılatmaq** *f.* to ask / to cause *smb.* to imitate (*d.*) / to mimic (*d.*)
**yamyam** *i.* cannibal, man-eater, **(nağıllarda)** ogre [ˊougə]
**yamyamlıq** *i.* cannibalism
**yamyastı** *s.* quite flat
**yamyaşıl** *s.* dark green
**yan I.** *i.* side, flank; **sol ~** left side / flank; **sağ ~** right side / flank; **Düşmən bizə sol yandan hücum etdi** The enemy attacked us on the left flank; **qutunun ~ları** the sides of a box; **yolun sol ~ı** the left side of the road; **hər yandan** from all sides; **~-yana** side by side; **sağ ~ı üstə yatmaq** to sleep* on one's right side; ◊ **~ını yerə vermək** to idle away one's time **II.** *s.* side (*attr.*); **~ cib** side-pocket; **~ cığır** side-path; **~ qapı** side door **III.** *z.* sideways, slantwise, askance; **~ dayanmaq** to stand* sideways; **bir kəsə ~ baxmaq** to look / to eye sideways / askance at *smb.*; **~ gəzmək** to keep* apart
**yana** *z.* aside; **bir kəsi ~ çəkmək** to take* *smb.* aside; **Yana dur!** Step aside!
**yanacaq I.** *i.* fuel; **bərk ~** solid fuel; **maye ~** liquid fuel **II.** *s.* fuel (*attr.*); **~ sənayesi** fuel industry; **~ ehtiyatı** fuel resources; **~ nasosu** fuel pump; **~ bürosu** fuel tube; **~ doldurmaq** fuel (*d.*); **~ doldurma stansiyası / məntəqəsi** (petrol) filling station, service station
**yanacaqlı** *s.* (*i.s.*) with fuel, (*i.s.*) having fuel
**yanacaqsız** *s.* fuelless; (*i.s.*) without fuel
**yanacaqsızlıq** *i.* the state of being without fuel
**yanakı I.** *s.* sidelong; **~ baxış** sidelong glance / look **II.** *z.* **1.** sideways, sidelong; **~ durmaq** to stand* sideways; **~ oturmaq** to sit* sideways; **qapıdan ~ çıxmaq** to edge oneself through the door; **2.** askance, with a scowl; **bir kəsə ~ baxmaq** to look / to eye askance at *smb.*; to look at *smb.* with a scowl; **3.** on one side; **papağını ~ qoymaq** to wear* one's hat / cap on one side
**yanaq** *i.* cheek; **batıq ~** sunken cheek; **~larından öpmək** to kiss on both cheeks
**yanan** *s.* burning; **~ ev** burning house; **~ yanaqlar** burning cheeks; **~ gözlər** burning eyes
**yanardağ** *i.* volcano
**yanaşdırılmaq** *f.* to be* moved up, to be* drawn up
**yanaşdırmaq** *f.* to move up (*d.*), to draw* up (*d.*); **stolu divara ~** to move the table up to the wall; **boşqabı özünə ~** to move / to draw* / to pull the plate towards oneself
**yanaşı I.** *s.* adjoining; **~ otaqlar** adjoining rooms **II.** *z.* near, next to, side by side, beside; by; **~ oturmaq** to sit* side by side, to sit* next to *smb.* / by *smb.*'s side
**yanaşma** *fi.* **1.** approach; method of approaching; point of view; **fərdi ~** individual approach; **kompleks ~** complex approach; **məsələyə doğru ~** correct / right approach to the matter; **2.** *qram.* adjoining
**yanaşmaq** *f.* to come* up (to), to get* up (to); to approach (*d.*); **bir kəsə ~** to come* up to *smb.*; **məsələyə ~** to approach a question
**yanbız** *i.* hip; **girdə / yumru ~** round hip
**yanda** *z.*: **hər ~** everywhere; **bir ~** anywhere
**yandan** *z.* from one side, on one side; **~ baxmaq** to look from one side, to take* a side view; **bir kəsə ~ baxmaq** to look at *smb.* sideways, to look at *smb.* out of the corner of one's eye; **hər ~** from everywhere, from every quarter; **o ~** from there; **bir ~, ... digər ~** on the one *hand* ... on the other hand
**yandırıb-tökmək** *f. bax* **yandırıb-yaxmaq**

**yandırıb-yaxmaq** *f.* **1.** to burn*, to scorch; **Günəş yandırıb-yaxır** The sun is scorching; **2.** *məc.* torment (*d.*), torture (*d.*)

**yandırıcı** *s.* burning, scorching; ~ **baxış** burning / scorching look / glance; ~ **günəş** baking / scorching sun

**yandırılmaq** *f.* to be* burnt; to be* lighted

**yandırılmış** *s.* burnt; ~ **evlər** burnt houses

**yandırmaq** *f.* **1.** to burn* (*d.*); to consume (*d.*); **kağız** ~ to burn* a paper; **barmaqlarını** ~ to burn* one's fingers; **Alov taxta binaları tezliklə yandırdı** The fire soon consumed the wooden buildings; **2. (maye, buxar və s. ilə)** to scald (*d.*); **Mən dilimi isti çayla yandırmışam** I have scalded my tongue on / with tea; **3.** to set* fire (to), to set* on fire (*d.*); **4. (işığı)** to light (*d.*), to put* on (*d.*), to turn on (*d.*), to switch on (*d.*); **işığı** ~ to put* / to turn* / to switch the light on; **kibrit** ~ to strike* a match; **5.** to kindle (*d.*); odun ~ to kindle firewood; **6. (günəş və s.)** to bake (*d.*), to scorch (*d.*); **ütüləyərkən dəyişəyi** ~ to scorch linen in ironing; **Günəş yandırır** The sun is baking, The sun is scorching; **7.** *məc.* to pain (*d.*), to grieve (*d.*); **Onun sözləri məni yandırır** Her / His words grieve me

**yandırtdırmaq** *f.* *bax* **yandırtmaq**

**yandırtmaq** *f.* **1.** to ask / to cause *s.o.* to burn (*d.*); **2. (işığı və s.)** to ask / to cause *s.o.* to light (*d.*) / to put* on (*d.*) / to switch (*d.*) on / to turn (*d.*) on; **3. (evi və s.)** to ask / to cause *smb.* to put fire on (*d.*) / to set* fire (to)

**yanğı** *i.* thirst; ~**dan əldən düşmək** to be* parched with thirst; ~ **qaldırmaq** to make* thirsty

**yanğılı** *s.* **1.** thirsty; **Mən yanğılıyam** I'm thirsty; **2.** sad, mournful; ~ **səs** a sad voice; ~ **mahnı** a sad / a mournful song

**yanğın I.** *i.* fire; ~ **salmaq** / **törətmək** to set* on fire, to set* fire to; **meşə** ~**ları** forest fires; ~ **söndürmək** to put* out a fire, to extinguish a fire **II.** *s.* fire (*attr.*); ~ **dəstəsi** fire brigade

**yanğınsöndürən** *i.* **1.** fireman*, firefighter; **2. (cihaz)** fire-extinguisher

**yanıb-sönmək** *f.* **1.** to burn* and to go* out; to burn* and to die out; **2.** to twinkle

**yanıb-tökülmək** *f.* **1.** *bax* **yanıb-yaxılmaq**; **2.** to be* burnt / reduced to ashes

**yanıb-yaxılmaq** *f.* **1.** to burn* down / up; **2.** *məc.* to grieve, to be* pained / annoyed; **bir şeyə görə** ~ to grieve for *smth.* much / greatly

**yanıq** *i.* **1.** burning; **Yanıq iyi gəlir** There is a smell of burning; **2.** burn; ~ **dan ölmək** to die of burns; ◊ ~ **vermək** to arouse / to excite envy

**yanıqlı** *s.* **1.** burnt, scorched; **2.** embittered; ~ **olmaq** to be* / to become* embittered; **3.** sorrowful, mournful; **(mahnı** *haq.***)** sad plaintive, dolorous, doleful; ~ **səs** sad / plaintive voice; ~ **baxış** a doleful look / glance; ~ **mahnı** a sad / mournful / sorrowful song

**yanıqlı-yanıqlı** *z.* sadly, sorrowfully, mournfully; ~ **oxumaq** to sing* sadly / sorrowfully

**yanılmaq** *f.* **1.** to be* mistaken, to make* a mistake, to make* mistakes; to be* (in the) wrong; **Əgər yanılmıramsa ...** If I am not mistaken / wrong...; **Siz yanılırsınız** You are mistaken / wrong; **2.** to get* mixed up, to mix things up

**yanıltmac** *i.* tongue-twister

**yanıltmaq** *f.* to mislead* (*d.*), to confuse (*d.* with); **bir kəsi** ~ to mislead* *smb.*, to confuse *smb.*

**yanımaq** *f.* to threaten (*d.*), to menace (*d.*)

**yanınca** *z.* side by side, by; **Mən sənin yanınca gedəcəm** I'll go by you

**yanında I.** *z.* by, near, next to, side by side; **bir kəsin** ~ **oturmaq** to sit* next to *smb.*; **Yanımda otur** Sit near / by me **II.** *qoş.* near, by; **şəhərin** ~ near the town; **qapının** ~ by the door

**yanı-yanı** *z.* sideways, sidelong, askance; **bir kəsə** ~ **baxmaq** to look / to eye askance at *smb.*

**yanki** *i. d.d.* yankee (a citizen of the USA)

**yanlamaq** *f.* **1.** to come* up (*d.*), to approach (*d.*); to go* up; **2.** to make* / to suck up to *smb.*

**yanlış I.** *s.* mistaken, erroneous, wrong, incorrect; ~ **fikir** an erroneous point of view; ~ **rəy** wrong / mistaken opinion; ~ **cavab** wrong answer; ~ **not** *mus.* wrong note;

**sözün ~ işlədilməsi** wrong use of a word; **~ kalkulyasiya** incorrect calculation; **~ inam** erroneous belief **II.** *z.* wrong, wrongly, erroneously; **~ cavab vermək** to answer wrong
**yanlışlıq** *i.* erroneousness, incorrectness
**yanmaq** *f.* **1.** to burn*, to catch* fire, to be* on fire; **Yaş odun yanmaz** Damp wood will not burn; ◊ **qızdırmadan ~** to burn* with fever; **Ev yanırdı** The house was on fire; ◊ **ürəyi ~** to be* gasping for a drink, to be* parched with thirst; **2.** *məc.* to grieve (about, for, over); ◊ **canı ~** to worry about (*d.*), to take* to heart (*d.*); ◊ **halına ~** to sympathize (with), to feel* (for); ◊ **içi ~** to suffer greatly
**yanmayan** *s. bax* **yanmaz**
**yanmaz** *s.* fireproof, incombustible; **~ şkaf** safe
**yanmış** *s.* burnt, scorched; **~ qaz** *tex.* burnt gas
**yanpörtü** *z. bax* **yanakı II**
**yantövrü** *z. bax* **yanakı II**
**yanşaq I.** *i.* **1.** windbag, idle talker; **2.** *bax* **aşıq II II.** *s.* talkative, garrulous
**yanşaqlıq** *i.* **1.** talkativeness, garrulousness; **2.** *bax* **aşıqlıq I**
**yanşamaq** *f.* to babble, to twaddle, to prattle
**yan-yana** *z.* side by side; **~ getmək** to go* / to walk side by side
**yan-yanaşı** *z. bax* **yan-yana**
**yan-yörə I.** *i.* **1.** sides; **2.** people around **II.** *z.* around, round; **~ yə baxmaq** to look around; **Yan-yörədə heç kim / kəs yox idi** There was nobody around
**yan-yörədəki** *s.*: **~ evlər** the houses around; **~ adamlar** the people around
**yapalaq** *i. zool.* eagleowl
**yapdırmaq** *f.* **1.** to ask / to cause *smb.* to bake (*d.*); **2.** to ask / to cause *smb.* to model (*d.*); to ask / to cause *s.o.* to do (*d.*)
**yapdırtmaq** *f. bax* **yapdırmaq**
**yapıxlanmaq** *f.* to become* / to get* flattened / compressed
**yapıxlaşdırmaq** *f.* to flatten (*d.*), to make* flat (*d.*)
**yapıxmaq** *f.* to get / to become* flattened
**yapıxmış** *s.* flattened; tangled
**yapılmaq** *f.* **1.** to be* baked (of bread); **2.** to be* modelled; **3.** to be* done
**yapıncı** *i.* felt cloak
**yapıncılı** *s.* (*i.s.*) with a felt cloak, (*i.s.*) wearing a felt cloak
**yapışan** *s.* sticky; adhesive; **~ plastır** sticky / adhesive plaster
**yapışdırmaq** *f.* **1.** to glue(*d.*); **(un yapışqanı ilə)** to paste (*d.*); **(bitki yapışqanı ilə)** to gum (*d.*); **iki parça kağızı bir-birinə ~** to glue / to gum / to paste two pieces of paper together; **bir parça kağızı divara ~** to glue a piece of paper on the wall; **Mən sınmış fincanı yapışdırdım** I glued the broken cup; **2. (elanı və s.)** to stick* (*d.*), to paste (*d.*); **afişanı ~** to stick* a bill; **fotoşəkilləri alboma ~** to stick* photographs in an album; **markanı zərfin üstünə ~** to stick* a stamp on a letter
**yapışdırtmaq** *f.* to ask / to cause *smb.* to glue (*d.*); **(bitki yapışqanı ilə)** to ask / to cause *smb.* to gum (*d.*); **(un yapışqanı ilə)** to ask / to cause *smb.* to paste (*d.*)
**yapışqan** *i.* glue; **dülgər ~ı** joiner's glue; **bir kəsə ~ kimi yapışmaq** to stick* like glue to *smb.*
**yapışqanlamaq** *f.* to glue (*d.*); **iki kağızı bir yerə ~** to glue two papers together
**yapışqanlanmaq** *f.* to be* glued; to glue; **Ağac yaxşı yapışqanlanır** Wood glues well
**yapışqanlanmış** *s.* glued; **~ kağız** glued paper
**yapışqanlatdırmaq** *f. bax* **yapışqanlatmaq**
**yapışqanlaşmaq** *f.* to become* / to get* sticky
**yapışqanlatmaq** *f.* to ask / to cause *smb.* to glue (*d.*)
**yapışqanlı** *s.* sticky; **~ kağız (milçək qırmaq üçün)** sticky paper, fly paper
**yapışqanlılıq** *i.* stickiness
**yapışıqlı** *s.* **1.** glued; pasted; **2.** attractive, pleasant, pleasing; agreeable, inviting; **~ görkəm** pleasing appearance; **~ adam** pleasant / agreeable person
**yapışıqlılıq** *i.* **1.** the state of being glued; **2.** attractiveness
**yapışıqsız** *s.* unattractive, uninviting; **~ adam** unattractive person
**yapışıqsızlıq** *i.* unattractiveness
**yapışmaq** *f.* to stick* (to), to adhere (to); **Zərf yapışmır** The envelop won't stick; **Palçıq ayaqqabıma yapışdı** Mud adhered to my shoes; **televiziyaya ~** *məc.* to sit* glued to the TV

**yapmaq** *f.* **1.** to do* (*d.*), to make*; to construct (*d.*), to arrange (*d.*), to set* (*d.*), to right; to make* (*d.*) ready; **2.** to bake (of bread); to stick* (*d.* to, on)

**yapon I.** *i.* Japanese; **~lar** the Japanese **II.** *s.* Japanese; **~ dili** Japanese, the Japanese language

**yaponca I.** *s.* Japanese; **~ ingiliscə lüğət** Japanese-English dictionary **II.** *z.* Japanese; **~ danışmaq** to speak* Japanese; **~ yazmaq** to write* in Japanese; **~dan tərcümə etmək** to translate from Japanese

**yar** *i.* **1.** friend; lover; *amer.* pal, buddy; **~ və əğyar** friend and foe; **2.** *şair.* darling, sweetheart, lady-love; **vəfalı ~** devoted / faithful / true darling; **Allah sizə yar olsun!** God help you!

**yara** *i.* **1.** wound; **ağır** / **ciddi ~** serious wound; **yüngül ~** slight wound; **ayaqda ~** wound in the leg; **təzə ~** green wound; **məhəbbət ~sı** lover's wound; **~nı deşmək** to open a wound; ◊ **~sına duz səpmək** / **basmaq** to put* salt on one's wound; to increase *smb.*'s pain by words; **dil ~sı** *məc.* a wound of the feelings by a bitter word; **2.** *tib.* ulcer, sore; **mədə ~sı** stomach ulcer

**yaradan** *i.* **1.** *bax* **Allah**; **2.** creator; **(nəzəriyyə, təlim)** founder, originator; maker; **tarixi ~lar** makers of history; **yeni həyat ~lar** creators / makers of a new life; **And olsun yaradana!** By God! **Yaradan sizə kömək olsun!** God help you!

**yaradıcı I.** *i.* *bax* **Allah II.** *s.* creative; **~ iş** creative work; **~ qüvvə** creative power; **~ əmək** creative labour

**yaradıcılıq I.** *i.* activities; work, creative work, creation; **ədəbi ~** literary activities; **elmi ~** scientific work **II.** *s.* creative; **~ araşdırması** creative search; **~ sevinci** the joy of creation; **~ ezamiyyəti** a trip to gather material for creative work; **~ gecəsi (musiqişünas üçün)** recital; **(yazıçı üçün)** reading

**yaradılış** *i.* creation; creature

**yaradılma** *fi.* creation, making; **müstəqil parlamentin ~sı** the creation of an independent parliament

**yaradılmaq** *f.* **1.** to be* created; to be* originated; to be* established; **2.** to be erected / built

**yara-xora** *top. i.* sores; scabs; ulcers

**yaraq** *i.* arms *pl.*; weapon(s); **~ gəzdirmək** to carry arms

**yaraqlandırılmaq** *f.* to be* armed

**yaraqlandırmaq** *f.* to arm (*d.* with)

**yaraqlanmaq** *f.* to arm oneself (with); **dişinə qədər ~** to be* armed to the teeth

**yaraqlı** *s.* armed; (*i.s.*) with arms, (*i.s.*) having arms

**yaraqsız** *s.* armless, unarmed; (*i.s.*) without arms

**yaraqsızlıq** *s.* the state of being unarmed / armless

**yaraqlı-yasaqlı** *s.* armed; **~ dəstə** armed gang

**yaralamaq** *f.* **1.** to injure (*d.*); **(silahla)** to wound (*d.*); **bir şeylə qıçını ~** to injure one's leg with *smth.*; **Güllə onun qıçını yaraladı** The shot wounded his / her leg; **2.** *məc.* to hurt; **bir kəsin qəlbini ~** to hurt *smb.*'s feelings

**yaralanmaq** *f.* **1.** to be* injured; **(güllədən və s.)** to be* wounded; **qəzada ~** to be* injured in the accident; **döyüşdə** / **vuruşda ~** to be* wounded in the battle; **2.** *məc.* to be* hurt / wounded

**yaralatdırmaq** *f.* *bax* **yaralatmaq**

**yaralatmaq** *f.* to ask / to cause *smb.* to injure (*d.*) / **(silahla)** to wound (*d.*)

**yaralı I.** *i.* injured man*; **(silahla yaralanmış)** wounded man*; **~lar** the wounded; **Yaralılar xəstəxanaya aparıldılar** The injured people were taken to hospital, The wounded were taken to hospital **II.** *s.* injured; **(silahla)** wounded; **~ əsgər** a wounded soldier

**yaralı-xoralı** *s.* (*i.s.*) covered all over with ulcer / sore

**yaramaq** *f.* to be* fit (for), to serve (*d.*), to do* (for), to be* fitted / suited (for); to be* of use; to fit (*d.*); **Siz müəllimliyə yaramırsınız** You are not cut out to be a teacher, You are not suited for being a teacher; **Bu kağız yaramaz** This paper won't do; **Bu qələm yarayar** This pen will do

**yaramaz I.** *i.* scoundrel, good-for-nothing, villian, rogue; **(qadın)** mean woman*; **(uşaq)** naughty child; **Yataqdan dur**, **ay yaramaz!** Get out of bed, you good-for-nothing! **II.** *s.* **1.** unfit; **işlətməyə ~** unfit

for use; **içməyə ~ su** water not fit to drink, undrinkable water; **hərbi xidmətə ~** unfit for (military) service; **2. (yararsız)** worthless; *d.d.* good-for-nothing; **cəmiyyətin ~ üzvü** a worthless member of society; **~ vəziyyətə düşmək** to become* worthless; **(paltar)** to wear* out; **~ hala salmaq** to make* useless (*d.*) / worthless (*d.*); **(paltarı)** to wear* out (*d.*) **III.** *z.* indecently; **~ hərəkət etmək** to act / to behave indecently

**yaramazcasına** *z.* indecently; **~ hərəkət etmək** to behave indecently

**yaramazlıq** *i.* **1.** unfitness; **2.** worthlessness; naughtiness, bad behaviour

**yaranış** *i.* creation; origin

**yaranışdan** *z.* from the origin, from the very beginning of the world

**yaranma** *fi.* origin, beginnings *pl.*; emergence; **sözün ~sı** the origin of a word; **kainatda həyatın ~sı** beginnings of life on Earth; **yeni şəhərin ~sı** emergence of a new town

**yaranmaq** *f.* **1.** to arise*, to spring* up; to be* created; **Kəskin vəziyyət yarandı** A critical situation arose; **Məndə şübhə yarandı** A doubt arose in my mind; **2. (yaltaqlanmaq)** to make* oneself serviceable, to curry favour with *smb.*, to pay* polite but insincere attentions; **3.** to be*born

**yararlaşdırılmaq** *f.* to be* made useful / worth-while / good (for)

**yararlaşdırmaq** *f.* to make* useful (*d.*) / worth-while (*d.*), to make* fit (to, for) / suitable (for) / good* (for)

**yararlaşmaq** *f.* to become* suitable (for) / fit (to, for) / worth-while / useful

**yararlı** *s.* fit (for), (*i.s.*) fit (+to *inf.*); **hərbi xidmətə ~** fit for military service; **içmək üçün ~ su** water fit to drink, drinkable water; **hər şeyə ~** fit for anything, good for everything

**yararlılıq** *i.* fitness, suitableness, suitability

**yararsız** *s.* **1.** unfit; **işlətmək üçün ~** unfit for use; **2.** worthless, good-for-nothing; **~ şeylər** worthless things; **~ hala düşmək** to become* worthless, **(bina və s.)** to fall* into disrepair; **~ hala salmaq** to make* useless (*d.*); **(paltar və s.)** to wear* out (*d.*)

**yararsızlıq** *i.* unfitness, worthlessness; uselessness

**yarasa** *i. zool.* bat

**yaraşdırılmaq** *f.* to be* thought proper / appropriate / suitable

**yaraşdırmaq** *f.* to consider (*d.*) / to think* (*d.*) suitable, to consider (*d.*) proper / appropriate

**yaraşıq** *i.* **1.** beauty, charms; **təbiətin yaraşığı** the beauty / charms of nature; **Təbəssüm onun yaraşığıdır** Smile is her beauty; **2.** ornament; *məc.* adornment; **~ vermək** to adorn (*d.*), to beautify (*d.*)

**yaraşıqlanmaq** *f.* to get* / to become* beautiful / pretty / nice

**yaraşıqlı** *s.* pretty, nice, beautiful; **~ uşaq** a pretty / nice child*; **~ qız** a pretty / nice girl

**yaraşıqlılıq** *i.* prettiness, niceness, attractiveness

**yaraşmaq** *f.* to suit (*d.*), to become* (*d.*), to go well* (with); **Bu şapka sizə yaraşır** This cap suits you; **Bu paltar ona yaraşır** This dress becomes her; **Şikayət etmək sizə yaraşmır** It doesn't become you to complain

**yaratmaq** *f.* **1.** to create (*d.*); **(təlim, nəzəriyyə və s.)** to found (*d.*), to originate (*d.*); **(təşkilat və s.)** to set* up (*d.*), to establish (*d.*); **iş üçün şərait ~** to create conditions for work; **təsəvvür ~** to create the impression; **komissiya ~** to set* up a committee; **2.** to work (*d.*), to do* (*d.*), to make* (*d.*); **möcüzələr ~** to work wonders; **bir kəsdə inam ~** to give* hope to *smb.*; to raise hopes in *smb.*'s breast

**yard** *i.* **(uzunluq ölçüsü)** yard (91,4 sm.)

**yardım** *i.* help, aid, assistance; **~ etmək / göstərmək** to give* help (*i.*), to help (*d.*), to render assistance (*i.*); **bir kəsə ~ etmək / göstərmək** to help / to assist / to aid *smb.*; **bir kəsə pul ~ etmək** to assist *smb.* with money; **qarşılıqlı ~** mutual assistance; **texniki ~** technical aid / assistance; **~ almaq** to get* / to receive assistance / aid

**yardımçı** *i.* **1.** auxiliary; **~ dəstə** *hərb.* auxiliary detachment; **2.** subsidiary; **~ təsərrüfat (şəxsi)** subsidiary small-holding; **(ictimai)** farm or market garden attached to a factory, sanatorium, *etc.*; **3.** help, helper, assistant; **Allah yardımçın olsun!** God help you!

**yardımçılıq** *i.* rendering help / assistance
**yardımsız** **I.** *s.* helpless; (*i.s.*) without help / aid **II.** *z.* helplessly, without help / aid
**yardımsızlıq** *i.* absence of help / assistance
**yardırmaq** *f.* to ask / to cause *smb.* (odunu) to chop (*d.*) / to cut (*d.*); to ask / to cause *smb.* **(xəstəni və s.)** to operate (on *d.*); to ask / to cause *smb.* **(cəbhəni)** to break (through); to ask / to cause *smb.* **(evi və s.)** to rob (*d.*) / to plunder
**yardırtdırmaq** *f. bax* **yardırmaq**
**yardırtmaq** *f. bax* **yardırmaq**
**yarəb** *nid.* Good God! Good Lord! My God! Goodness me!
**yarəbbi** *nid. bax* **yarəb**
**yarğac** *i.* **(alət)** chopper
**yarğan** *i.* ravine [rə΄vi:n]
**yarğanlı** *s.* (*i.s.*) cut* with ravines, abounding in ravines; ~ **yerlər** places cut with ravines, locality abounding in ravines
**yarğanlıq** *i.* locality / district abounding in ravines / cut* with ravines
**yarı** *z.* in two, in half; ~ **bölmək** to divide (*d.*) in two, to divide (*d.*) in half; **bir şeyi ~ bölmək** to cut* *smth.* in two / in half; **xərci bir kəslə ~ bölmək** to share expenses with *smb.*, to go* halves (in expense) with *smb.*; **Onlar gəliri yarı bölürlər** They go halves in the profits
**yarıac** *s.* half-starved
**yarıaçıq** *s.* half-open, ajar
**yarıbayarı** *z.* half; **İş yarıbayarı görülüb** The work is half done
**yarıbişmiş** *s.* undercooked, not cooked properly, half-done; **(çörək)** half-baked
**yarıboş** *s.* half -empty
**yarıcan** *s. bax* **yarımcan**
**yarıciddi** **I.** *s. bax* **yarımciddi I** **II.** *z. bax* **yarımciddi II**
**yarıçılpaq** *s.* half-naked
**yarıdəymiş** *s.* unripe, half-ripe, green
**yarıgerçək** **I.** *s.* half-serious, half in jest **II.** *z.* half-seriously, half in jest
**yarıgeymiş** *s.* half-dressed, half-clothed
**yarıkönül** *z.* unwillingly, reluctantly, half-heartedly; **bir işi ~ görmək** to do* *smth.* half-heartedly
**yariq** *i.* crack, split; **(torpaqda)** cleft, fissure; **(dəridə)** chap
**yarıqapalı** *s. bax* **yarıaçıq**
**yarıqaranlıq** **I.** *i.* half-dark; semi-darkness **II.** *s.* dark, scantily lit
**yarıq-yarıq** *s.* cracked; (*i.s.*) covered with cracks
**yarılanmaq** *f.* **1.** to be* divided in two; **2.** to be* half done
**yarılığa** *z.* half-and-half; ~ **işləmək** to work half-and-half
**yarılmaq** *f.* **1.** to split; **həm də** *məc.* to cleave; **Bu odun asan yarılır** This wood splits easily; ◊ **bağrı ~** to be* deadly frightened: **2.** *tib.* to undergo* an operation; **3.** to be* robbed
**yarım** *i.* half; **iki ~** two and a half; **iki** saat ~ two and a half hours; **beş kilometr ~** five and a half kilometres; **~ saat** half an hour; **~ kilo** half a kilogram(me)
**yarımac** *s. bax* **yarıac**
**yarımaçıq** *s. bax* **yarıaçıq**
**yarımada** *i. coğ.* peninsula; **Abşeron ~sı** the Absheron peninsula
**yarımallah** *i.* demigod; **qadın** demigoddess
**yarımarşın** *i.* semi-arshin, half-arshin
**yarımarşınlıq** *i.* a length of semi-arshin
**yarımasılı** *s.* semi-dependent; ~ **ölkələr** semi-dependent countries
**yarımasılılıq** *i.* semi-dependence, half-dependence
**yarımavtomat** **I.** *i.* semi-automatic device **II.** *s.* semi-automatic
**yarımay** *i.* half a month, a fortnight; ~ **dan sonra** in a fortnight
**yarımaylıq** *s.* fortnightly; (*i.s.*) of a fortnight's duration
**yarımcan** *s.* half-dead; more dead than alive; ~ **olmaq** to be* half dead, to be* more dead than alive
**yarımciddi** **I.** *s.* half-serious, half in jest **II.** *z.* half-seriously; ~ **demək** to say* / to tell* half-seriously
**yarımcorab** *i.* socks
**yarımçıq** *s.* unfinished, incomplete, imperfect, not perfect, not full; ~ **iş** unfinished work; ~ **bilik** incomplete / imperfect knowledge; ~ **cavab** imperfect answer
**yarımçıqlamaq** *f.* **(yeməklə)** to eat* up; **(içməklə)** to drink* up; to decrease / to lessen (*d.*) to half, to reduce (*d.*) to half

**yarımçılpaq** *i.* half-naked; ~ **uşaq** half-naked child*
**yarımdairə I.** *i.* semicircle **II.** *s.* semicircular
**yarımdairəvi** *s.* semicircular
**yariməsirlik** *s.* semi-centennial; (*i.s.*) of half a century, fifty years; ~ **istismar** fifty years of oppression, a half a century of oppression
**yarımfabrikat** *i. bax* **yarımməmulat**
**yarımfinal I.** *i. id.* semi-final **II.** *s. id.* semi-final; ~ **oyunları** semi-finals
**yarımfinalçı** *i.* semi-finalist; sportsman* taking part in semi-finals
**yarımgirdə** s semicircular
**yarımgirvənkə** *i.* half pound
**yarımgünlük** *s.* half a day, half-day
**yarımxaraba** *s.* half-ruined; ~ **kənd** half-ruined village
**yarımiflic** *i. tib.* paresis
**yarımillik I.** *i.* half-year, six months, (*i.s.*) of six months **II.** *s.* **1.** half-yearly, semi-annual; ~ **kurslar** six-month courses; **2. (yaş)** six-month-old, half-year old; ~ **plan** six-month plan
**yarımipək I.** *i.* half-silk **II.** *s.* half-silken
**yarımişsiz** *s.* half-jobless
**yarımkeçirici** *i. fiz.* semi-conductor, transistor
**yarımkeçiricili** *s. fiz.* semi-conductor (*attr.*), semi-conducting; ~ **radioqəbuledici** transistor
**yarımkeçiricilik** *i.* the quality of being semi-conductor
**yarımkefli** *s.* half-drunk, tipsy
**yarımkiloluq** *i.* half kilogram(me)
**yarımköçəri** *s.* half nomad; ~ **qəbilələr** half nomad tribes
**yarımkürə** *i.* hemisphere; **şimal ~si** northern hemisphere; **cənub ~si** southern hemisphere
**yarımkürəcik** *i.* hemisphere; **beyin yarımkürəciyi** *anat.* cerebral hemisphere
**yarımlıq** *i.* half-way policy; half heartedness
**yarımlüt** *s.* half-naked, half-dressed
**yarımmanatlıq** *i.* fifty-copeck piece
**yarımmetr** *i.* half metre
**yarımməmulat** *i.* half-finished / semifinished product
**yarımmüdafiə** *i. id.* half-backs
**yarımmüdafiəçi** *i. id.* half-back
**yarımmüstəmləkə I.** *i.* semi-colonial territory **II.** *s.* semi-colonial; ~ **ölkələr** semi-colonial countries
**yarımoyaq** *s. bax* **yarıoyaq**
**yarımörtülü** *s.* half-covered
**yarımpalto** *i.* short coat
**yarımrəsmi** *s.* semi-official
**yarımsaatlıq** *s.* half an hour's (*i.s.*) of half an hour's duration; ~ **iş** half an hour's work
**yarımseksiya** *i.* subsection
**yarımsəhra** *i. coğ.* semi desert
**yarımsərxoş** *s.* half drunk, tipsy
**yarımsərlövhə** *i.* subtitle, subheading
**yarımsinif** *i.* subclass
**yarımsoyunmuş** *s.* half-dressed, half-clothed, half-naked
**yarımsökülmüş** *s.* **1. (bina və s.)** tumble-down, dilapidated; ~ **köhnə ev** tumble-down old house; ~ **qəsr** a dilapidated castle **2. (paltar və s.)** half-unripped
**yarımstansiya** *i.* **1.** *d.y.* halt; **kənd ~sı** country halt; **2.** substation; **(telefon)** local telephone exchange
**yarımşar** *i. bax* **yarımkürə**
**yarımşöbə** *i.* section, subdivision
**yarımton** *i.* **1.** half ton; **2.** *mus.* semitone
**yarımtonluq** *s.* half ton (*attr.*)
**yarımturş** *s. bax* **turşməzə**
**yarımuçuq** *s. bax* **yarımsökülmüş (1-ci mənada)**
**yarımvəhşi** *s.* semi-barbarian, half savage
**yarım-yarımçıq I.** *s.* unfinished, incomplete, not perfect, half-and-half **II.** *z.* just, hardly; **O, imtahanını yarım-yarımçıq verdi** He / She just managed to pass his / her examination
**yarım-yarımçıqlıq** *i.* half-and-half, the state or quality of being half-and-half
**yarımyun** *s.* half- woollen
**yarımyüngül** *s. id.* light heavy weight
**yarımzarafat** *z. bax* **yarızarafat**
**yarımzarafatla** *z. bax* **yarızarafat**
**yarımzirzəmi** *i.* semi-basement
**yarin** *z. bax* sabah
**yarınmaq** *f.* to toady (to), to cringe (to, before); to make* / to suck up (to); to lick *smb.*'s boots *idiom.*
**yarıoyaq** *s.* half asleep, dozing
**yarısı** *i.* half; **ikinin** ~ half past two; **tən** ~ half exactly; **ilin** ~ half of a year
**yarış** *i.* competition, emulation, contest **həm də** *id.*; **~a çağırmaq** to challenge

(*d.*) to competition / to emulation; **güləş üzrə** ~ contest in wrestling; wrestling contest; **üzgüçülük üzrə** ~ contest in swimming, swimming contest; **kubok ~ı** cup competition; **beynəlxalq** ~ international contest; **musiqi ~ı** musical contest

**yarışçı** *i.* contender, competitor, competitioner

**yarışma** *i. bax* **yarış**

**yarışmaq** *f.* to compete (with, in), to emulate (*d.* in), to contest (*d.*), to contend (with, for); **güləşdə** ~ to compete in wrestling; **cıdırda** ~ to contest a race; **birincilik uğrunda** ~ to contend for the championship; **Sənin gözlərin almazla yarışa bilər** Thine eye would emulate the diamond (Shakespeare)

**yarıtmaq** *f.* **1.** to satisfy (*d.*); to content (*d.*); **2.** to try to please (*d.*)

**yarıtmaz I.** *s.* negligent, remiss, careless; **öz vəzifəsində ~ olmaq** to be* remiss in one's duties; ~ **münasibət** negligent attitude **II.** *z.* negligently, carelessly; **bir işi ~ görmək** to do* some work carelessly

**yarıtmazlıq** *i.* remissness, carelessness, negligence; ~ **etmək** to display carelessness / negligence

**yarıtox** *s.* half-satisfied; half-starved

**yarıuçmuş** *s.* tumbledown, dilapidated

**yarıuçuq** *s. bax* **yarımuçmuş**

**yarı-yarı I.** *s.* half-and-half **II.** *z.* half-and-half

**yarı-yarımçıq** *s.* unfinished, incomplete, not finished

**yarı-yarımçıqlıq** *i.* incompleteness, half-way policy

**yarıyetişmiş** *s. bax* **yarıdəymiş**

**yarıyetkin** *s. bax* **yarıdəymiş**

**yarıyuxulu** *s.* half asleep; dozing, drowsy

**yarızarafat** *z.* half in jest; ~ **demək** to say* half in jest

**yarızarafatla** *z.* half in jest

**yarızarafatyana** *z. bax* **yarızarafatla**

**yarlıq I.** *i.* **(həm** *müst.*, **hən də** *məc.***)** lable; ~ **vurmaq** / **yapışdırmaq** to lable (*d.*), to pin / to put* a lable (on); **Bir kəsin çamadanına ~ yapışdırmaq** to pin / to put* a lable on *smb.*'s suitcase; **bir kəsə ~ yapışdırmaq** *məc.* to pin a lable on someone **II.** *i.* friendship

**yarlı-yaraqlı** *s. bax* **silahlı**

**yarlı-yaraşıqlı** *s. bax* **yaraşıqlı**

**yarma** *i.* cereals; **manna ~sı** semolina; **arpa ~sı** pear-barley; **qarabaşaq ~sı** buckwheat

**yarmaça** *i.* log, billet

**yarmaçalamaq** *f.* to cut* a firewood in halves lengthways

**yarmaçalanmaq** *f.* to get* cut / to be* cut into halves lengthways

**yarmaçalatdırmaq** *f. bax* **yarmaçalatmaq**

**yarmaçalatmaq** *f.* to ask / to cause *s.o.* to cut / to cleave a firewood into halves lengthways

**yarmaq** *f.* **1.** to cleave (*d.*), to chop (*d.*), to split (*d.*), to cut* through (*d.*), to cut* in half lengthways (*d.*); **odunu iki yerə** ~ to cleave a block of wood in two, to chop / to split wood; **kötük** ~ to cleave a stump; **2.** to break* through (*d.*) to breach (*d.*); **düşmən cəbhəsini** ~ to break* / to breach the enemy's front; **düşmənin müdafiəsini** ~ to break* through / to breach the enemy's defence; **3. (oğurlamaq)** to rob (*d.*); **ev** ~ to rob a house; bank ~ to rob a bank; **4.** *tib.* to dissect (*d.*); **(yaranı**, **irinli yeri)** to lance (*d.*), to cut* (*d.*), to open (*d.*); **(xəstəni)** to operate (on *d.*); to anatomize (*d.*); **xəstəni** ~ to operate on a patient; **meyiti** ~ to anatomize a dead body / corpse; **Artıq tamah baş yarar**, *at. söz.* ≅ All covet, all lose; ◊ **bağrını** / **zəhrini** ~ to terrify greatly, to frighten violently

**yarmalamaq** *f.* to grind* up (*d.*) badly, to grind* grains turning them into cereals

**yarmalanmaq** *f.* to be* ground into cereals

**yarmalatmaq** *f.* **(taxılı)** to ask / to cause *smb.* to grind grains into cereals

**yarmalıq** *s.* (*i.s.*) fit / suitable for sereals; ~ **buğda** wheat fit / suitable for cereals

**yarmarka** *i.* fair; **kitab ~sı** book fair; **kənd təsərrüfatı məhsulları ~sı** farm products fair; **yaz** / **bahar ~sı** spring fair

**yarovizasiya** *i. k.t.* yarovization, vernalization; **toxumun ~sı** yarovization of seeds

**yarpağabənzər** *s. bax* **yarpaqvarı**

**yarpaq I.** *i.* leaf* (*pl.* leaves); **yaşıl ~lar** green leaves; **yarpağın tökülməsi** the fall of leaves; ~ **qoymaq (duza)** to pickle vine-leaves; ◊ ~ **kimi əsmək** to tremble / to shake* like a leaf **II.** *s.* leafy; ~ **kölgəsi** leafy shade; ~ **siqar** cigar; ~ **tütün** tobacco in the leaf

**yarpaqdolması** *i.* **yarpaq dolması** (minced meat, some rice, greens and other spices added, wrapped in vine-leaves)

**yarpaqlamaq** *f.* **1.** to leaf, to come* into leaf, to put* forth leaves; to be* in leaf; **Ağaclar tezliklə yarpaqlayacaq** The trees will soon be* in leaf; **2.** to feed* silk-worms with leaf

**yarpaqlı** *s.* leafy, deciduous; leaf-bearing; (*i.s.*) covered with leaves; ~ **ağac** leaf bearing tree; ~ **ağac meşəsi** leaf-bearing / deciduous / leafy forest

**yarpaqlılıq** *i.* the state of being in leaf

**yarpaqsız** *s.* leafless, bare; (*i.s.*) without leaves; (*i.s.*) having no leaves; ~ **ağac** leafless / bare tree

**yarpaqsızlıq** *i.* the state of being leafless / bare

**yarpaqşəkilli** *s. bax* **yarpaqvarı**

**yarpaqvarı** *s.* leaf-shaped, leaflike, like a leaf

**yarpaqyeyən** *i. zool.* leaf-eating; ~ **həşarət** leaf-eating insect

**yarpız** *i. bot.* mint; **su ~ı** water-mint; **bataqlıq ~zı** pennyroyal

**yarpızlıq** *i.* mint-grove

**yarsız** *s.* **1.** friendless; (*i.s.*) without friend, (*i.s.*) having no friend; **2.** (*i.s.*) without lover, having no lover

**yarsız-yoldaşsız** *s.* friendless; alone, lonely; (*i.s.*) without friend, having no friend

**yarus** *i.* **1. (qat)** tier [tıə]; **(teatrda)** circle; **birinci** ~ first circle; **2.** *geol.* stage, layer

**yas I.** *i.* mourning; **dərin** ~ deep mourning; ~ **tutmaq** / **saxlamaq** to mourn, to be* in mourning; **bir kəsə** ~ **tutmaq** to mourn for *smb.*; **bir kəsin ölümünə** ~ **saxlamaq** to mourn the death of *smb.* **II.** *s.* mourning; ~ **yeri** the house of a dead man*, the dead man's house; ~ **mərasimi** the mourning ceremony

**yasaq** *i.* prohibition; ~ **etmək** to prohibit (*d.*), to forbid* (*d.*); ~ **olunmaq** to be* prohibited / forbidden; **Mən ora getməyi sizə yasaq edirəm** I forbid you to go there

**yasalamaq** *f.* **1.** to smooth (*d.*); **2.** *məc.* to slur over (*d.*)

**yasamal** *i.* flat place on the height

**yasavul** *i. arx.* esual (an official charge with the arrangement of the state processions)

**yasavulluq** *i. arx.* the state of being a esual; rank of esual

**yasəmən I.** *i. bot.* lilac **II.** *s. bot.* lilac (*attr.*); ~ **kolu** lilac bush

**yasəməni** *s.* **(rəng)** lilac coloured

**yasəmənlik** *i.* lilac grove

**yasxana** *i.* a room / a lodging / an apartment / marquee [ma:ˊki:] where a dead man* is mourned over

**yasin** *i. din.* yasin (a chapter of the Koran)

**yaslı** *s.* mourning; ~ **olmaq** to be* in mourning

**yassar** *i.* **1.** mumbler, blunderer, clumsy oaf; **Ay, yassar!** You clumsy oaf!; **2.** an ugly person; *d.d.* fright

**yastı** *s.* flat; **~sinə** flat chest; ~ **dam** flat roof

**yastıbaş** *s.* flat-head, flat-headed; (*i.s.*) with flat-head

**yastıbaşlı** *s. bax* **yastıbaş**

**yastıburun** *s.* flat-nose; (*i.s.*) with flat-nose; (*i.s.*) having flat-nose

**yastıburunlu** *s. bax* **yastıburun**

**yastıq I.** *i.* pillow; **başını yastığa qoymaq** to lay* / to rest the head on a pillow; **bir yastığa baş qoymaq** to get* married; to have* sex (with) **II.** *s.* pillow (*attr.*); ~ **davası** pillow fight

**yastıqca** *i.* little / small pillow

**yastıqüzü** *i.* pillow-case, pillow slip

**yastıqvarı** *s.* pillow-shaped, pillowlike

**yastılamaq** *f.* to flatten (*d.*); **xəmiri** ~ to flatten dough [dou]

**yastılanmaq** *f.* to become* flat, to get* flattened

**yastılaşdırmaq** *f. bax* **yastılamaq**

**yastılaşmaq** *f. bax* **yastılanmaq**

**yastılatdırmaq** *f. bax* **yastılatmaq**

**yastılatmaq** *f.* to ask / to cause *smb.* to flatten (*d.*)

**yastılıq** *i.* flatness; plane

**yastısına** *z.* flat, flatways, flatwise; **qılıncı** ~ **vurmaq** to strike* with the flat of the sword

**yastısifət** *s.* flat-face, flat-faced; (*i.s.*) with flat-face, (*i.s.*) having flat-face

**yastısifətli** *s. bax* **yastısifət**

**yaş I.** *s.* I age; **məktəb ~ı** school age; **orta** ~ middle age; **səkkiz ~ında** at the age of eight; **mənim ~ımda** of my age **Sənin yaşın neçədir?** What is your age? **Ağıl yaşda deyil**, **başdadır** *at. söz.* ≅ Age is not guarantee of wisdom **II.** *s.* age (*attr.*); ~ **qrupu** age group; ~ **senzi** age qualification

**yaş I.** *i.* tear; ~ **tökmək** / **axıtmaq** to shed* tears (over); to turn on the waterworks *idiom.*; ~ **içərisində** in tears; **acı** ~ **tökmək** / **axıtmaq** to cry bitterly, to shed* bitter tears **II.** *s.* tear (*attr.*); ~ **damlası** / **damcısı** tear-drop **III.** *s.* wet, green; soggy; ~ **paltar** wet clothes; ~ **oduncaq** wet timber; ~ **torpaq** wet / soggy ground; ~ **odun** green wood

**yaşa** *nid.* long live, bravo; **Yaşa Azərbaycan!** Long live, Azerbaijan!

**yaşadıcı** *s.* life-asserting, vital; ~ **qüvvə** life-asserting / vital force

**yaşadolma** *i.* maturity, manhood, virility; aging

**yaşamaq** *f.* to live; to be* alive; **tək** / **tənha** ~ to live alone / a solitary life; **xoşbəxt** ~ to live a happy life / happily; **şən** ~ to live a merry life; **öz zəhməti ilə** ~ to live on one's own earnings, to keep* oneself; **qoca yaşına qədər** ~ to live to a great age: **qayğısız** ~ to live free from care; **sadə** ~ to live in a small way; **şəhərdə** ~ to live in town; **kənddə** ~ to live in the village / country; **mehmanxanada** ~ to live in a hotel; **xaricdə** ~ to live abroad; **özgənin hesabına** ~ to live at *smb.* else's expense / at the expense of another; **birgə** ~ to live together

**yaşarmaq** *f.* to water; **Soğan doğrayanda gözlərim yaşarır** My eyes water when I cut onions

**yaşarmış** *s.*: ~ **gözlər** eyes wet with tears, eyes full with tears, tearful eyes

**yaşartmaq** *f.* **1.** to water (*d.*) **Günəş gözlərimi yaşartdı** The sun watered my eyes; **2.** to move to tears (*d.*), to cause (*d.*) to water (of eyes)

**yaşatmaq** *f.* **1.** to cause / to allow to live (*d.*); to keep* alive (*d.*); **2.** to immortalize (*d.*); **qəhrəmanlığı** ~ to immortalize a deed

**yaşayıb-yaratmaq** *f.* to live and to create (*d.*)

**yaşayış I.** *i.* life; living; ~ **uğrunda mübarizə** struggle for life **II.** *s.* **1.** living; ~ **şəraiti** living condition; ~ **səviyyəsi** standard of living, living standard **2.** dwelling (*attr.*); ~ **evi** dwelling house

**yaşdaş** *i. bax* **yaşıd**

**yaşıd** *i.* person of the same age; ~ **olmaq** to be* (of) the same age; **Onlar yaşıddırlar** They are (of) the same age

**yaşıl** *s.* green, verdant; ~ **yarpaqlar** green leaves; ~ **ağaclar** green trees; ~ **çöllər** verdant fields

**yaşılaçalan** *s.* greenish

**yaşılbaş** *i. zool.* (the mallard) drake

**yaşılgözlü** *s.* green-eyed; (*i.s.*) with green eyes; (*i.s.*); having green eyes

**yaşılımsov** *s.* greenish

**yaşılımtıl** *s.* greenish

**yaşılımtraq** *s.* greenish

**yaşıllandırmaq** *f.* **1.** to paint green (*d.*); **2.** to plant trees / bushes

**yaşıllanmaq** *f.* **1.** to be* painted green; **2.** to be* covered with green grass / leaves

**yaşıllaşdırma** *fi.* planting of greenery (in), planting of trees and gardens (in)

**yaşıllaşdırmaq** *f.* to plant trees and green grass (in)

**yaşıllaşmaq** *f.* **1.** to become* / to turn green; **2. (göy otla / yarpaqla örtülmək)** to grow* / to turn green; to be* covered with green grass

**yaşıllatdırmaq** *f. bax* **yaşıllatmaq**

**yaşıllatmaq** *f.* **1.** to ask / to cause *smb.* to paint green (*d.*); **2.** to cause to become green (*d.*); **3.** to ask / to cause *smb.* to plant trees / bushes

**yaşıllıq** *i.* **1.** greenness; **2.** verdure [΄və:dʒə]; (plantations of) trees and shrubs; area covered with green grass; **yaşıllığa qərq olmaq** to be* covered with green grass, to be* buried in verdure

**yaşıltəhər** *s.* greenish

**yaşındırmaq** *f.* to ask / to cause a woman* to cover her face halfly with a headkerchief

**yaşınmaq** *f.* to cover one's face halfly with a headkerchief

**yaşıötmüş** *s.* aged, advanced in years

**yaşlamaq** *f.* to wet (*d.*); to soak (*d.*); **su ilə** ~ to wet with water; ◊ **boğazını (spirtli içki içmək)** ~ *d.d.* to wet one's whistle

**yaşlanmaq I.** *f.* to get* / to become* wet(ted) **II.** *f.* to become* adult; to grow* old

**yaşlatmaq** *f.* to ask / to cause *smb.* to wet (*d.*)

**yaşlaşmaq I.** *f. bax* **yaşlanmaq I II.** *f. bax* **yaşlanmaq II**

**yaşlı I.** *s.* elderly; aged **II.** *s.* in tears; **gözləri** ~ tears in eyes

**yaşlıq** *i.* wetness
**yaşmaq** *i.* veil (worn by oriental women)
**yaşmaqlamaq** *f.* to veil (*d.*), to put* on the veil
**yaşmaqlatmaq** *f.* to ask / to cause *smb.* to veil
**yaşmaqlı** *s.* veiled; ~ **qadın** a veiled woman
**yaşmaqsız** *s.* veiless; (*i.s.*) without veil
**yaşmanmaq** *f.* to veil; to cover one's face with a veil
**yaştəhər** *s.* wettish, moist, slightly wet
**yatab** *i.* halting place (for transported convicts); ~ **göndərmək** to transport (*d.*) (under guard), to deport (under guard) (*d.*)
**yatacaq** *s.*: ~ **şeyləri** bedding; ~ **kisəsi** sleeping-bag
**yatağan I.** *i.* sleepyhead, drowsy-head **II.** *s.* sleepy, drowsy, slumberous
**yatağanlıq** *i.* sleepiness, drowsiness
**yataq I.** *i.* **1.** bed; **xəstə yatağı** a sick bed; **~da olmaq** to be* in bed; **yatağa girmək** to get* into bed; **~dan durmamaq** to keep* to one's bed; **~dan qalxmaq (xəstə** *haq.***)** to leave* one's bed; ~ **salmaq** to make* up a bed; ~ **yığmaq** to make* the bed; **yatağı dəyişmək** to change the bed; **ölüm yatağı** the bed of death; **2. (mal-qara üçün)** enclosure; **(davar üçün)** sheep-pen, sheep-fold; **3.** *geol.* deposit; **neft yatağı** oil deposit, deposit of oil, oilfield; **4. (çay yatağı)** bed, channel; **çay yatağı** river-bed **II.** *s.* bed (*attr.*); ~ **dəyişəyi** bedclothes; ~ **rejimi** confinement to bed; ~ **otağı** bedroom
**yataqxana** *i.* hostel; *amer.* dormitory; **tələbə ~sı** student's hostel; ~ **da yaşamaq** to live in a hostel
**yatalaq I.** *i. tib.* typhus [taɪ-]; **səpkili** ~ typhus, spotted fever; **qarın yatalağı** typhoid / enteric fever, typhoid **II.** *s.* typhus (*attr.*), typhoid; ~ **qızdırması** typhoid fever
**yatalaqlı** *s.*: ~ **xəstə** typhus patient
**yatan** *s.* sleeping; ~ **uşaq** sleeping child*
**yatılı** *s.* lying; ~ **vəziyyətdə** in a lying position
**yatım** *i.* slope, incline
**yatımına** *z.* towards
**yatımlı** *s.* **1.** submissive, obedient, dutious, dutiful; ~ **uşaq** obedient child; ~ **adam** a submissive man*; **2.** pleasant, nice, sweet; ~ **səs** a pleasant voice
**yatımlılıq** *i.* **1.** dutifulness, obedience; the quality of being submissive / obedient; **2.** the quality of being pleasant / nice
**yatır** *i.* riches, wealth; **~ı olan adam** a man* of wealth
**yatırdıcı** *s.* soporific; ~ **dərman** a soporific drug; ~ **vasitə** sleeping draught
**yatırdılmaq** *f. bax* **yatızdırılmaq**
**yatırılmaq** *f.* **1. (qiyam**, **üsyan və s.)** to be* suppressed / repressed; **Qiyam yatırıldı** The revolt was suppressed; **2. (susuzluq**, **ehtiras və s.)** to be* quenched / slaked
**yatırmaq** *f.* **1. (qiyamı və s.)** to suppress (*d.*), to repress (*d.*), to put* down (*d.*); **qiyamı** ~ to suppress a revolt; **hirsini** ~ to suppress one's feeling of anger; **2. (susuzluğu və s.)** to quench (*d.*); to slake (*d.*); **susuzluğunu** ~ to quench / to slake one's thirst; **ehtirasını** ~ to quench / to slake one's passion
**yatırtdırmaq** *f.* **1. (uşağı və s.)** to ask / to cause *smb.* to put to bed (*d.*); **2. (üsyanı**, **qiyamı və s.)** to ask / to cause *smb.* to suppress (*d.*), to ask / to cause *smb.* to repress (*d.*); **3. (cərrahiyyə əməliyyatından əvvəl)** to ask / to cause *smb.* to hypnotize (*d.*); **4. (tozu və s.)** to cause (*d.*) to settle (*d.*)
**yatırtmaq** *f.* **1. (uşağı və s.)** to put* to bed (*d.*), to lull to sleep (*d.*); **uşağı** ~ to put* a child* to bed; **Qatarın hərəkəti məni yatırtdı** The movement of the train lulled me to sleep; **2. (cərrahiyyə əməliyyatından əvvəl)** to put* to sleep (*d.*), to put* into hypnotic sleep (*d.*), to hypnotize (*d.*); **3. (tozu və s.)** to settle (*d.*); **Yağış tozu yatırtdı** The rain settled the dust; **4. (qiyamı və s.)** *bax* **yatırmaq (1-ci mənada)**
**yatış** *i.* lying
**yatışmaq** *f.* **1.** to lie* down all together; **2.** to sleep* all together
**yatızdırılmaq** *f.* **1.** to be* put / to be* sent to bed; **2. (üsyan**, **qiyam və s.)** to be* repressed / put down
**yatızdırmaq** *f.* **1.** to put* / to send* to bed; **2. (inqilabı**, **üsyanı və s.)** to suppress (*d.*), to repress (*d.*); to quell (*d.*), to put* down (*d.*); **qiyamı** ~ to suppress / to repress a revolt / uprising; **ehtirası** ~ to quell one's passions; **3. (həbsxanada)** to put* in prison (*d.*), to lock up (*d.*)

**yatmaq** *f.* **1.** to sleep*; to slumber; **bərk** ~ to sleep* soundly; sakit ~ to sleep* easily, to sleep* a peaceful sleep; **sayıq** ~ to sleep* with one eye open; **gec** ~ to sleep* late; **tez** ~ to sleep* early; **2.** to go* to sleep; **saat 12-də** ~ to go* to sleep at 12 o'clock, to go* / to bed at 12; **Mən saat 12-də yatıram** I go to bed at 12 o'clock; **3.** to be* a sleep; **Kənd yatır** The village is asleep; **4.** to be* ill; **xəstə** ~ to be* ill in bed, to keep* one's bed; **sətəlcəmdən** ~ to be* down with pneumonia; **xəstəxanada** ~ to be* in hospital; **5.** to have* sex with; **6. (taxıl və s.)** to lie* down; **7. (külək və s.)** to fall*, to drop; **Külək yatdı** The wind fell / dropped; **8. (toz)** to settle; **Toz yavaş-yavaş yatdı** The dust settled slowly; **9. (həbsxanada)** to be* in prison, to stay in prison; ◊ **ürəyinə** ~ to love, to like; **By mənim ürəyimə yatır** It is to my liking, I love it, I like it; ◊ **əli** ~ to be* used (to work, *etc.*), to be* fairly skilful

**yatmalı** *s.* (*i.s.*) fit / suitable for sleeping; ~ **vaxt** time suitable for sleeping; ~ **yer** place fit / suitable for sleeping

**yatmış** *s.* sleeping; ~ **uşaq** sleeping child*

**yava I.** *i.* profligate, libertine, debauchee **II.** *s.* **1.** lecherous, debauched, profligate, dissolute; **2.** evil, unfit, dissipated, indecent, unseemly; ~ **sözlər** unseemly words; ~ **adam** a dissolute man*; ~ **həyat sürmək** to lead* a dissipated life

**yavaağız** *s.* fool-mouthed, intemperate, incontent; (*i.s.*) having an uncontrollable tongue

**yavalıq** *i.* dissipation, unseemliness, indecency; ~ **etmək** to act / to behave dissolutely / indecently

**yavan** *s.* plain, dry (food), without fat / oil; tasteless, insipid, lean; ~ **ət** lean meat; ~ **pendir** dry cheese

**yavanlıq** *i.* **1.** insipidity, insipidness; fatless; the quality of being without fat; **2.** dairy produce; all that is eaten with bread; **~sız qalmaq** to have* no dairy produce

**yavanlıqsızlıq** *i.* the state of being without dairy produce

**yavaş I.** *s.* slow, low, unhurried; ~ **sürət** slow speed; ~ **səs** low voice **II.** *z.* slowly; gently; ~ **danışmaq** to talk in a low voice; ~ **yerimək** to walk slowly, to walk quietly; **qapını** ~ **döymək** to knock at the door gently, to tap at the door; **İşlər yavaş gedir** Things are moving slowly, Things are slack

**yavaşca** *z.* slowly, quietly, gently; softly; **qapını** ~ **döymək** to knock at the door gently; ~ **demək** to say* gently / in a whisper; ~ **yerimək** to walk slowly

**yavaşcadan** *z.* noiselessly, in a low voice; in a whisper; ~ **soruşmaq** to ask in a low voice / in a whisper; ~ **inildəmək** to moan in a low voice

**yavaşcana** *z. bax* **yavaşca**

**yavaşca-yavaşca** *z. bax* **yavaş-yavaş**

**yavaşdan** *z.* in a low voice; in a whisper; ~ **danışmaq** to talk in a low voice; ~ **cavab vermək** to answer in a low voice / in a whisper / under one's breath

**yavaşıdılmaq** *f.* to be* slowed down, to become* slower

**yavaşımaq** *f.* to slow, to become* / to get* slower, to slacken; **Sürət yavaşıdı** The speed slackened

**yavaşıtmaq** *f.* **1.** to slow down (*d.*), to slacken (*d.*); **addımları** ~ to slow down / to slacken the pace, to walk slower; **sürəti** ~ to slacken the speed; **2.** *tex.* to decelerate (*d.*)

**yavaşlıq** *i.* sluggishness, slowness

**yavaştərpənən** *s.* sluggish, slow-moving; ~ **adam** slowcoach, laggard

**yavaş-yavaş** *z.* **1.** slowly, little by little, bit by bit, gradually; unhurriedly; ~ **öyrənmək** to learn* step by step; **2.** quietly; gently; **qapını** ~ **döymək** to knock at the door gently, to tap on the door

**yava-yava** *z.*: ~ **danışmaq** to speak* indecently / unseemly

**yavər** *i.* aide-de-camp [ˈeɪddəˈkaːŋ]; adjutant; *amer.* aide

**yavərlik** *i.* adjutancy

**yavru** *i. bax* **bala**

**yavrucuğaz** *i. bax* **yavrucuq**

**yavrucuq** *i.* **(müraciət məqamında işlədilir)** my darling, my little one

**yay I.** *i.* summer; **qızmar** / **isti** ~ hot summer; **~da** in summer; **gələn** ~ next summer; **keçən** / **ötən** ~ last summer; **Yay gəlib** Summer has come **II.** *s.* summer; ~ **düşər-**

**gəsi** summer camp; ~ **paltarı** summer clothes; ~ **tətili** summer holidays; ~ **iqamətgahı** summer residence **III.** *i.* **(silah)** bow; **~ı çəkmək** to bend* / to draw* a bow **IV.** *i.* spring; **çarpayının ~ı** the springs of a bed **V.** *i. mus*. bow [bou], fiddlestick

**yaydırmaq** *f.* **1.** to ask / to cause *smb*. to roll (out *d*.); **xəmir ~** to ask / to cause *smb*. to roll out dough / paste; **2.** to ask / to cause *smb*. to diffuse (*d*.); **3.** to ask / to cause *smb*. to distribute; **vərəqə ~** to ask / to cause *smb*. to distribute leaflets

**yaydırtmaq** *f. bax* **yaydırmaq**

**yayğın I.** *s.* diffuse; diffused; ~ **işıq** diffuse / diffused light; ~ **nitq** a diffuse speech **II.** *z.* diffusely; indistinctly, vaguely

**yayğınlaşdırılmaq** *f.* to be* diffused

**yayğınlaşdırmaq** *f.* to diffuse (*d*.)

**yayğınlaşmaq** *f.* to become* / to get* diffused

**yayğınlıq** *i.* **1.** diffuseness, diffusiveness; **2.** *məc.* indistinctness, vagueness

**yayxana-yayxana** *z.*: ~ **yerimək** to waddle

**yayxanmaq** *f.* **1.** to stretch oneself out, to sprawl, to lounge [laundʒ]; **O divanda yayxanmışdı** He / She was sprawling on the sofa; **2.** to waddle

**yayıcı** *i.* roller, rolling-mill operator

**yayılma** *fi.* **1.** spreading, diffusion; **2. (fikir və s.)** dissemination; **şayiələrin ~sı** spreading of rumours; **infeksiyanın ~sı** spreading of infection; **biliyin ~sı** diffusion / dissemination of knowledge; **nüvə silahının ~sı** dissemination of nuclear weapons

**yayılmaq** *f.* **1.** to spread*; to get* about; **Şayiə tezliklə kəndə yayıldı** The rumour quickly spread through the village; **2. (iy, maye və s.)** to diffuse; **3. (xəmir və s.)** to roll out; **4.** to run*; **Mürəkkəb kağıza yayıldı** The ink ran on the paper; **5.** to sprawl out; **O divanda yayılmışdı** He / She sprawled out on the sofa

**yayım** *i. bax* **veriliş**

**yayındırılmaq** *f.* to be*distracted

**yayındırma** *fi.* distraction; diversion

**yayındırmaq** *f.* to divert (*d*.), to distract (*d*.), to draw* away (*d*.); **bir kəsin diqqətini bir şeydən ~** to distract *smb*.'s attention from *smth*.; **bir kəsi məqsəddən ~** to divert *smb*. from a purpose; **Uca bir səs mənim diqqətimi yayındırdı** A loud voice diverted my attention

**yayınma** *fi.* deviation; *məc.* **(xidmətdən, məsuliyyətdən və s.)** evasion; **(mövzudan)** digression; **orijinaldan ~** deviation from the original; **vergidən ~** evasion of tax, tax evasion; **düşməndən ~** to evade an enemy

**yayınmaq** *f.* to avoid; to evade, to wander away (from); dodge (from); **(mövzudan və s.)** to digress (from); **hərbi xidmətdən ~** to evade service; **bir kəslə qarşılaşmaqdan ~** to avoid meeting *smb*.; **mövzudan ~** to digress from a subject; **zərbədən ~** to dodge a blow; **məsuliyyətdən ~** to avoid / to evade / to dodge the responsibility

**yay-qış** *z.* summer and winter; all the year round, the whole year

**yayla** *i. coğ.* plateau, high plateau (*pl*. -teaus or -teaux)

**yaylaq** *i.* **1.** summer pasture in mountains; **2.** summer house in the mountain

**yaylaqlamaq** *f.* **1.** to pass the summer in the mountain; **2. (heyvan)** to graze on a mountain during summer

**yaylaqlıq** *i.* plateau, table-land

**yaylamaq** *f.* **1.** to pass the summer in plateau; **2.** *d.d.* to dress summer clothes, to dress as in summer

**yaylı** *s.* spring; ~ **döşək** spring mattress; ~ **çarpayı** a spring bed

**yaylıq** *i.* shawl; **baş yaylığı** kerchief, head-scarf; **əl yaylığı** handkerchief

**yaylı-qışlı** *z.* summer and winter, all the year round; **Onlar yaylı-qışlı kənddə yaşayırlar** They live in the village all the year round

**yaylım I.** *i.* pasturage of animal early in the morning **II.** *s.*: ~ **atəşi** drum-fire; volley

**yaylımlamaq** *f.* to drive* the cattle for pasturage early in the morning

**yaylımlatmaq** *f.* to ask / to cause *smb*. to drive cattle for pasturage early in the morning

**yayma I.** *i.* **1.** milk porridge; **2.** *bax* **yuxa I II.** *fi.* spread, spreading; **(bilik, fikir və s.)** dissemination; **bilik ~** spreading of knowledge; **şayiə ~** spreading of rumours; **infeksiya ~** spreading of infection; **qabaqcıl iş**

**üsulu** ~ spreading of progressive method of work; **yalan məlumat** ~ dissemination of false information
**yaymaçı** *i.* roller
**yaymaçılıq** *i.* the profession of a roller
**yaymaq** *f.* **1.** to spread* (*d.*), to diffuse (*d.*), to disseminate (*d.*); **bilik** ~ to spread* / to diffuse / to disseminate knowledge; **işıq** ~ to diffuse light; **məlumat** ~ to spread* information; **şayiə** ~ to spread* rumours; **nüvə silahı** ~ to disseminate nuclear weapons; **Milçəklər xəstəlik yayırlar** Flies spread disease; **2. (üsulu**, **təcrübəni və s.)** to popularize (*d.*); **elmi** ~ to popularize science; **3. (kitab**, **kağız və s.)** to distribute (*d.*); **kitab** ~ to distribute books
**yay-ox** *i.* bow and arrow
**yaz I.** *i.* spring; **erkən** ~ early spring; **keçən** / **ötən** ~ last spring; **gələn** ~ next / forthcoming spring; ~ **da** in spring; ◊ **həyatın ~ı** the spring of the life; ◊ **Bir güllə** / **çiçəklə yaz olmaq** *at. söz.* ≅ One swallow does not make a summer **II.** *s.* spring; ~ **əkini** spring sowing; ~ **fəsli** springtime; ~ **səhəri** spring morning; ~ **yağışı** spring rain
**yazbaşı** *i.* early spring, the beginning of spring
**yazdırmaq** *f.* to ask / to cause *smb.* to write (*d.*)
**yazdırtmaq** *f. bax* **yazdırmaq**
**yazı I.** *i.* **1.** writing; calligraphy, script; written language; a written article; **Qot ~sı** Gothic script; **~nın yaranması** the appearance of a written language; **imtahan ~sı** test-paper; **2. (tale)** fate, fortune, destiny; ◊ **alın** ~ **sı** the decrees of Fate; **Bu mənim alın yazımdır** This is my destiny; **Yazıya pozu yoxdur** *at. söz.* ≅ He that is born to be hanged will never be drowned **II.** *s.* writing; ~ **stolu** writing-table, (writing-) desk; ~ **ləvazimatı** writing materials; ~ **dəsti**, desk-set; ~ **işi** writing work; ~ **makinası** typewriter
**yazıb-oxumaq** *f.* to read* and write, to be* busy with / in reading and writing
**yazıb-yaratmaq** *f.* to create, to be* busy with creative activities
**yazıçı I.** *i.* writer; author; **böyük** ~ a great writer; ~ **olmaq** to be* a writer; **sevimli** ~ favourite writer **II.** *s.*: ~ **əməyi** writing, the work / labour of a writer
**yazıçılıq I.** *i.* the profession of a writer **II.** *s.*: ~ **istedadlı** talent for writing
**yazıq I.** *i.* poor fellow / boy / thing; **(yaşlı kişi)** poor devil; **(qız)** poor girl; **(qadın)** poor woman* **II.** *s.* **1.** poor; unhappy, unlucky, wretched; miserable; ~ **adam** a poor man*; **2. (ziyansız)** harmless, humble; helpless; **yazığı gəlmək** to pity, to feel* sorry (for), to be* sorry (for); ~ **etmək** to ruin (*d.*); **bir kəsi** ~ **etmək** to ruin *smb.*; ~ **olmaq** to be* ruined, to be* driven into trouble / poverty
**yazıqcasına** *z.* imploringly; humbly
**yazıqcığaz** *i. bax* **yazıq I**
**yazıqdırmaq** *f.* to break* of the habit (of); to cause to leave a long-occupied place
**yazıqlaşmaq** *f.* to become* pitiful / miserable
**yazıqlıq** *i.* **1.** pity, compassion; **2.** helplessness, humbleness
**yazıq-yazıq** *z.* bitterly, pitifully; ~ **ağlamaq** to cry / to weep bitterly; ~ **baxmaq** to look pitifully
**yazılı I.** *s.* written; writing; ~ **imtahan** written examination; ~ **rəy** written testimonial; ~ **vəkalət** written reference; ~ **formada** in written form, in writing **II.** *z.* in writing, in written form; ~ **cavab vermək** to answer in writing / in written form
**yazılış** *i.* **1.** method of writing, way of writing (of a letter of the alphabet); **2.** spelling; **sözün ~ı** spelling of a word; **sözün amerikan ~ı** American spelling of a word; **sözlərin ingilis ~ı** English spelling of words
**yazılmaq** *f.* **1.** to be* written; to be* spelled; **2.** to join (*d.*), to register one's name; **dərnəyə** ~ to join a circle; **kitabxanaya** ~ to join a library; **həkimə** ~ to make* an appointment with the doctor; **3.** to subscribe (for, to); **qəzetə** ~ to subscribe to a newspaper; **(ünvana yazılmaq)** to be registered, to get* registered
**yazı-pozu** *i.* reading and writing; ~ **öyrənmək** to learn* to read and write; ~ **ilə məşğul olmaq** to be* engaged in reading and writing, to devote oneself to reading and writing
**yazısız** *s.* (*i.s.*) having no written language; ~ **xalqlar** peoples having no written language
**yazısızlıq** *i.* the state of having no written language

**yazışma** *fi.* correspondence, exchange of letters; ~ **aparmaq** to be* in correspondence (with)

**yazışmaq** *f.* to correspond (with), to keep* up a correspondence (with), to be* in correspondence (with); to write* letters to each other

**yaz-qış** *z.* spring and winter; all the year round, always, constantly, continually

**yazlamaq** *f.* **1.** to pass the spring in a place; **2.** to become* / to get* warmer

**yazlıq** *s.* spring (*attr.*); (*i.s.*) suitable for spring; ~ **əkin** spring sowing; ~ **buğda** spring wheat; ~ **geyim** spring clothing; clothing suitable for spring

**yazmaq** *f.* **1.** to write* (*d.*); **qələmlə** ~ to write* with a pen; **mürəkkəblə** ~ to write* in ink; **karandaşla** ~ to write* in pencil; **xırda** ~ to write* small; **iri** ~ to write* large; **aydın** ~ to write* plain, to write* a good hand; **pis (oxunması çətin)** ~ to write illegibly, to write* a bad hand; **hekayə** / **roman** / **məktub və s.** ~ to write* a story / a novel / a letter, *etc.*; **2.** to write* down (*d.*), to put* down (*d.*), to take* down (*d.*), to note (*d.*); **mühazirə** ~ to make* / to take* notes at a lecture; **bir kəsin hesabına** ~ to put* down to *smb.*'s account (*d.*); **protokola** ~ to enter / to put* down / to record (*d.*) in the minutes; **lentə** ~ to record (*d.*); **3. (abunə)** to subscribe (*d.*for); **bir kəsi qəzetə** ~ to subscribe *smb.* for a newspaper, to take *smb.*'s subscription to a newspaper

**yeddi** *sy.* seven: ~ **il** seven years; ~ **yüz** seven hundred

**yeddiadamlıq** *s.* (*i.s.*) for seven; ~ **nahar** dinner for seven

**yeddiaylıq** *s.* **1.** (*i.s.*) of seven months; seven-month (*attr.*); **2. (yaş** *haq.***)** seven-month-old; (*i.s.*) of seven; ~ **uşaq** seven-month-old child; a child of seven months

**yeddibucaq** *i. riyaz.* heptagon, septangle

**yeddibucaqlı** *s.* heptagonal, septangular

**yeddicə** *sy.* just / only seven

**yeddigünlük** *s.* **1.** seven-day (*attr.*); ~ **istirahət** seven-day rest; **2. (yaş** *haq.***)** seven-day-old; ~ **uşaq** seven-day-old baby

**yeddiqat** *s.* sevenfold, septuple [ˈseptjupl]

**yeddiillik** *s.* seven-year; (*i.s.*) of seven years; ~ **məktəb** seven-year school

**yaddiqatlı** *s. bax* **yeddiqat**

**yeddilik** *i.* **1. (rəqəm)** seven; **2. (kart oyununda)** seven; ~ **ürək** the seven of hearts; ~ **kozır** the seven of trumps

**yeddimetrlik** *s.* seven-metre; (*i.s.*) of seven metres

**yeddimərtəbə** *s.* seven-storey (*attr.*), seven-storeyed; ~ **bina** seven-storey building

**yeddimərtəbəli** *s. bax* **yeddimərtəbə**

**yeddinci** *sy.* seventh; ~ **sinif** the seventh form; ~ **gün** the seventh day; ◊ **göyün** ~ **qatında olmaq** to be* in the seventh heaven

**yeddinəfərlik** *s. bax* **yeddiadamlıq**

**yeddirəng** *s.* seven-colour

**yeddirəngli** *s. bax* **yeddirəng**

**yeddisaatlıq** *s.* seven-hour; (*i.s.*) of seven hours; ~ **iş** seven-hour work, work of seven hours

**yeddisimli** *s.* seven-stringed

**yedək** *i.* (at **və s. üçün)** halter; **(nəqliyyat vasitələri üçün)** tow(ing)-line, tow(ing)-rope; **yedəyə almaq** / **götürmək** to take* in tow (*d.*), to tow (*d.*)

**yedəkçi** *i.* **1. (at və s. üçün)** a man* who leads a (spare) horse; **2. (digər nəqliyyat vasitələri üçün)** a man* who tows a boat / a car, *etc*.

**yedəkləmək** *f.* **1. (atı və s.)** to lead* (*d.*); **atı** ~ to lead* a horse; **2. (digər nəqliyyat vasitələrini)** to tow (*d.*), to take* in tow (*d.*), to have* in tow (*d.*)

**yedəklənmək** *f.* **1.** (at **və s.)** to be* led; **2. (digər nəqliyyat vasitələri)** to be* towed, to be* taken in tow

**yedəklətmək** *f.* **1. (atı və s.)** to ask / to cause *smb.* to lead (*d.*); **2. (digər nəqliyyat vasitələrini)** to ask / to cause *smb.* to tow (*d.*), to ask / to cause *smb.* to take in tow (*d.*)

**yedəkli** *s.* (*i.s.*) **1. (at və s.)** with a halter, (*i.s.*) having a halter; **2. (digər nəqliyyat vasitələri)** (*i.s.*) with a tow, (*i.s.*) having a tow

**yedəksiz** *s.* **1.** (at **və s.)** halterless; **2. (digər nəqliyyat vasitələri)** towless; (*i.s.*) without tow

**yedirib-içirmək** *f.* to feed* and to give* to drink (*d.*), to feed* (*d.*)

**yedirilmək** *f. bax* **yedizdirilmək**
**yedirmək** *f. bax* **yedizdirmək**
**yedizdirilmək** *f.* to be* fed; **(döşlə)** to be* suckled
**yedizdirmək** *f.* **1.** to feed* (*d.*); **əlili** ~ to feed* an invalid; **uşağı** ~ to feed* a baby; **ailəni** ~ to feed* one's family; **vaxtında** ~ to feed* in time (*d.*); **2. (döşlə)** to suckle (*d.*), to nurse (*d.*); **3.** to ask / to cause *smb.* to feed (*d.*) / **(döşlə)** to suckle (*d.*)
**yefreytor** *f. hərb.* corporal
**yefreytorluq** *i.* the rank of corporal; the state of being a corporal
**yeganə** *s.* only, sole; ~ **uşaq** only child; ~ **oğul** only son; ~ **səbəb** sole reason; ~ **bir** only one; ~ **məqsədlə** with the sole purpose / aim; ~ **şəxs** the only person
**yeganəlik** *i.* the state of being sole / only
**yek** *sy.* one
**yekahəng** *s.* monotonous; ~ **iş** monotonous work; ~ **evlər** monotonous houses
**yekbəyek** *z.* in private, privately; face to face, tete-a-tete
**yekcins** *s.* homogeneous; uniform; ~ **yük** homogeneous cargo; ~ **rəng** uniform colour
**yekcinslik** *i.* homogeneity, uniformity
**yekdil I.** *s.* unanimous, united, at one (with); ~ **fikir** unanimous opinion; ~ **partiya** united party; ~ **olmaq** to be* unanimous **II.** *z.* unanimously, with one voice, by common consent
**yekdillik** *i.* unanimity; ~ **göstərmək** to display / to show unanimity
**yekdilliklə** *z. bax* **yekdil II**
**yekə** *s.* **1.** big,large, tremendous; ~ **ağac** a big tree; ~ **oğlan** a big boy; ~ **zal** a big / large hall; ~ **partlayış** a tremendous explosion; **2.** grown-up; ~ **qız** grown-up daughter; ◊ ~ **yerdən danışmaq** to brag (of, about)
**yekəağız** *s.* large mouthed; (*i.s.*) with a large mouth; ~ **adam** a man with a large mouth
**yekəağızlı** *s. bax* **yekəağız**
**yekəbaş** *s.* **1.** (*i.s.*) with a large head; *elm.* macrocephalous; **2.** *məc.* blockhead, bungler, muddle-head(ed)
**yekabaşlı** *s. bax* **yekəbaş (1-ci mənada)**
**yekəbaşlıq** *i.* **1.** the state of having a large / big head; **2.** *məc. d.d.* boorishness, bungling; ~ **etmək** to be* rude (to), to act indecently
**yekəburun** *s.* big-nosed; ~ **kişi** a big-nosed man*
**yekəburunlu** *s. bax* **yekəburun**
**yekədiş** *s.* large-toothed; (*i.s.*) with large teeth
**yekədişli** *s. bax* **yekədiş**
**yekədodaq** *s.* thick-lipped
**yekədodaqlı** *s. bax* **yekədodaq**
**yekədöş** *s.* big-breasted, big-bosomed, big-chested
**yekədöşlü** *s. bax* **yekədöş**
**yekəgöz** *s.* goggle-eyed, large-eyed; (*i.s.*) with bulging eyes
**yekəgözlü** *s. bax* **yekəgöz**
**yekəxana I.** *i.* boaster, braggart, show-off, swaggerer, swank **II.** *s.* boastful, vainglorious, swaggering, swanky **III.** *z.* boastfully, vaingloriously
**yekəxanalanmaq** *f.* to swagger, to swank, to put* on airs, to give* oneself airs; to get* (up) on one's high horse *idiom.*
**yekəxanalıq** *i.* swaggering, swankiness, superciluousness, conceitness; ~ **etmək** *bax* **yekəxanalıq**
**yekəqarın I.** *i.* **1.** pot-belly, pot-bellied man*; **2. (çox yeyən adam)** glutton, gormandizer; **II.** *s.* **1.** big-bellied, pot-bellied; punchy; **2. (çoxyeyən)** gluttonous
**yekəqarınlı** *s. bax* **yekəqarın**
**yekəqarınlıq** *i.* **1. (çox yeyənlik)** gormandize, gluttony; **2. (qarnı yekə olmaq)** the state of having a pot-belly
**yekəqulaq** *s.* lop-eared
**yekəqulaqlı** *s. bax* **yekəqulaq**
**yekəquyruq** *s.* **1.** big-tailed; (*i.s.*) with a big tail, (*i.s.*) having a big tail; **2. (qoyun)** fat(ty) tail
**yekəquyruqlu** *s. bax* **yekəquyruq**
**yekələndırılmək** *f. bax* **böyüdülmək**
**yekələnmək** *f. bax* **böyümək**
**yekələtmək** *f. bax* **böyütmək**
**yekəlik** *i. bax* **1. böyüklük**; **2. yekəxanalıq**
**yekəlmək** *f. bax* **böyümək**
**yekəpər I.** *i.* **1. (kişi)** lanky fellow; **2. (qadın)** lanky woman* **II.** *s.* lanky; sturdy, strapping, well-grown, strong and tall; ~ **kişi** a strapping man*; ~ **oğlan** sturdy / lanky fellow; ~ **qadın** a strapping woman*
**yekəpərlik** *i.* lankiness, sturdiness
**yekəsaqqal I.** *i.* big-beard man* **II.** *s.* big-beard, bearded; ~ **kişi** a big beard man*

**yekəsaqqallı** *s. bax* **yekəsaqqal II**
**yekəyanaq** *s.* (*i.s.*) having fatty and large cheeks
**yekəyanaqlı** *s. bax* **yekəyanaq**
**yekə-yekə I.** *s.* big-big; ~ **qarpızlar** big-big water-melons **II.** *z.*: ~ **danışmaq** to brag (of, about), to boast (of, about); to speak* like a grown-up
**yeknəsək I.** *s.* monotonous; ~ **iş** monotonous work; ~ **səs** a monotonous voice; ~ **evlər** monotonous houses **II.** *z.* monotonously; ~ **danışmaq** to speak* monotonously
**yeknəsəklik** *i.* monotony; **bir şeyin yeknəsəkliyini pozmaq** to break* the monotony of *smth*.
**yekrəng** *s.* one-colour (*attr.*); *məc.* monotonous; ~ **parça** one-colour fabric, plain fabric; ~ **çap** monochrome
**yekrənglik** *i.* the state of being one-colour / monotony
**yekrəy** *s. bax* **yekdil**
**yekrəylik** *i. bax* **yekdillik**
**yeksan** *s.*: **yerlə** ~ **etmək** to destroy completely (*d.*), to raze to the ground (*d.*)
**yekun I.** *i.* sum, total; result; **ümumi** ~ grand total, sum total; ~ **vurmaq** to sum up (*d.*), to total (*d.*).; ~ **da** in the end, as a result; **Yekunda səhv meydana çıxmışdı** A mistake had been discovered in the total **II.** *s.* total; ~ **məbləği** the sum total; ~ **cədvəli** table; final; ~ **oyunları** *id.* sports finals
**yekunlaşdırılmaq** *f.* to be* summed up, to be* summarized
**yekunlaşdırmaq** *f.* to sum (*d.*) up, to summarize (*d.*); **problemi** ~ to sum up the problem
**yel I.** *i.* wind; **güclü** ~ strong wind; **nəm** ~ wet wind; **zəif** ~ light wind; **Yel qalxıb** The wind has risen; **Yel kəsib** The wind has dropped; ◊ **Külək haradan əsib?** Where did you blow in from? **Yel olub yanımdan keçə bilməz** He / She doesn't dare to touch me **II.** *s.* wind (*attr.*); ~ **dəyirmanı** windmill; ~ **mühərriki** wind wheel
**yelbeyin I.** *i.* lighthead, scatter brain, light-minded man* **II.** *s.* light-headed, scatter brained, light-minded; thoughtless, frivolous; ~ **adam** light-headed / thoughtless man*, frivolous person
**yelbeyincəsinə** *z.* lightly, thoughtlessly, flippantly
**yelbeyinlik** *i.* light-mindedness,thoughtlessness, flippancy
**yelçəkən** *i.* draught [dra:ft]
**yelçəkər** *i. bax* **yelçəkən**
**yeldöyən** *i.* windy place / spot
**yelən** *i.* border
**yelənli** *s.* (*i.s.*) with border, (*i.s.*) having border
**yelənsiz** *s.* borderless (*i.s.*) without border
**yelənsizlik** *i.* the state or quality of being borderless
**yelin** *i.* udder
**yelinləmək** *f.* to fill with milk (of udder); **İnək yelinləyir** The cow's udder is filling with milk
**yelinli** *s.* (*i.s.*) with big / large udder
**yelinsiz** *s.* (*i.s.*) with little / small udder, (*i.s.*) having little / small udder
**yelinsizlik** *i.* the state of having small / little udder
**yelkən** *i.* sail; ~ **qaldırmaq** / **açmaq** to set* / to make* sail
**yelkənçi** *i.* **(yelkəni idarə edən)** sailor, one who conducts the sail
**yelkənli** *s.* sailing; (*i.s.*) with sail, (*i.s.*) having sail; ~ **qayıq** sailing-boat; ~ **gəmi** sailing-ship, sailing vessel, sailer
**yekənsiz** *s.* sailless; (*i.s.*) without sail
**yelkənsizlik** *i.* the state of being sailless / without sail
**yelkəntikən** *i.* sailmaker
**yellədilmək** *f.* to be* rocked / shaken / swung; **(uşaq)** to be* dandled
